AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ MƏCƏLLƏSİ[1]

(Bu Məcəllə Azərbaycan Respublikasının 28 dekabr 1999-cu il tarixli 779-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir)

ÜMUMİ HİSSƏ

Birinci bölmə

GİRİŞ MÜDDƏALARI

1-ci fəsil.

Mülki hüquq sahəsində qanunvericilik

Maddə 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin məqsəd və vəzifələri

1.1. Bu Məcəllənin məqsədi üçüncü şəxslərin hüquqlarına xələl gətirmədən mülki dövriyyənin azadlığını onun iştirakçılarının bərabərliyi əsasında təmin etməkdir.

1.2. Bu Məcəllənin vəzifələri aşağıdakılardır:

mülki hüquq subyektlərinin əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləmək;

mülki hüquq subyektlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə etmək;

fiziki şəxslərin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu, şəxsi və ailə həyatının, şəxsi toxunulmazlığının müdafiəsi hüququnu qorumaq;[2]

mülki dövriyyəni təmin etmək;

sahibkarlıq fəaliyyətini dəstəkləmək;

sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaratmaq.

Maddə 2. Azərbaycan Respublikasının mülki qanunvericiliyi

2.1. Azərbaycan Respublikasının mülki qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasına əsaslanır və bu Məcəllədən, digər qanunlardan və onların əsasında qəbul edilən, mülki hüquq normalarını müəyyənləşdirən başqa normativ hüquqi aktlardan ibarətdir.

2.2. Mülki qanunvericilik mülki hüquq münasibətləri subyektlərinin hüquqi vəziyyətini, mülkiyyət hüququnun və başqa əmlak hüquqlarının əmələ gəlməsi əsaslarını və həyata keçirilməsi qaydasını müəyyənləşdirir, müqavilə və digər öhdəlik münasibətlərini, habelə sair əmlak münasibətlərini və onlarla bağlı olan şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir.

2.3. Ailə, əmək münasibətləri, təbii ehtiyatlardan istifadə, ətraf mühitin mühafizəsi, müəlliflik hüququ və əlaqədar hüquqlar ilə bağlı münasibətlər, əgər ailə,

əmək, torpaq, təbiəti mühafizə, müəlliflik və digər xüsusi qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericilik və başqa hüquqi aktlar ilə tənzimlənir.KMQ26

2.4. İnsanın özgəninkiləşdirilməyən hüquq və azadlıqlarının, digər qeyri-maddi nemətlərin gerçəkləşdirilməsi və müdafiəsi ilə bağlı münasibətlər, əgər bu münasibətlərin mahiyyətindən ayrı qayda irəli gəlmirsə, mülki qanunvericilik və başqa hüquqi aktlar ilə tənzimlənir.

2.5. Əgər qanunvericilikdə ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericilik və başqa hüquqi aktlar bir tərəfin digər tərəfə inzibati və ya digər hakimiyyət tabeliyinə əsaslanan əmlak münasibətlərinə, o cümlədən vergi, maliyyə, *rəqabət* və inzibati münasibətlərə tətbiq edilmir.[3]

2.5-1. Ələt azad iqtisadi zonasında mülki münasibətlər "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.[4]

2.6. Qanundan aşağı qüvvəli normativ hüquqi aktlar mülki münasibətlərin tənzimlənməsi üçün yalnız o halda tətbiq edilir ki, onlar bu Məcəlləyə uyğun gəlsin və ona zidd olmasın.

Maddə 3. Mülki qanunvericilik və beynəlxalq hüquq aktları

3.1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr bu Məcəllə ilə tənzimlənən mülki hüquq münasibətlərinə (beynəlxalq müqavilədən onun tətbiqi üçün dövlətdaxili normativ hüquqi aktın qəbul edilməsi tələbinin irəli gəldiyi hallar istisna edilməklə) birbaşa tətbiq edilir.

3.2. Əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilədə müəyyənləşdirilən normalar mülki qanunvericilikdə nəzərdə tutulan normalardan fərqlənərsə, onda beynəlxalq müqavilənin normaları tətbiq edilir.

Maddə 4. Mülki hüquq münasibətlərinin obyektləri

Əmlak və ya qeyri-əmlak dəyəri olan, qanunvericiliklə mülki dövriyyədən çıxarılmamış maddi və ya qeyri-maddi nemətlər mülki hüquq münasibətlərinin obyektləri ola bilərlər.

Maddə 5. Mülki hüquq münasibətlərinin subyektləri

5.1. İstər sahibkarlıq fəaliyyəti ilə məşğul olan, istərsə də məşğul olmayan hər hansı fiziki və ya hüquqi şəxslər mülki hüquq münasibətlərinin subyektləri ola bilərlər.

5.2. Dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının digər şəxslərlə mülki hüquq münasibətləri, qanunda ayrı qayda nəzərdə tutulmayıbsa, mülki qanunvericiliklə tənzimlənir.

5.3. Mülki hüquq münasibətlərinin subyektləri öz hüquq və vəzifələrini vicdanla həyata keçirməyə borcludurlar.

Maddə 6. Mülki qanunvericiliyin prinsipləri

6.1. Mülki qanunvericiliyin prinsipləri aşağıdakılardır:
6.1.1. mülki hüquq subyektlərinin bərabərliyi;
6.1.2. mülki hüquq subyektlərinin iradə sərbəstliyi;
6.1.3. mülki dövriyyə iştirakçılarının əmlak müstəqilliyi;
6.1.4. mülkiyyətin toxunulmazlığı;
6.1.5. müqavilələr azadlığı;
6.1.6. şəxsi və ailə həyatına kimsənin özbaşına qarışmasının yolverilməzliyi;[5]
6.1.7. mülki hüquqların maneəsiz həyata keçirilməsinə şərait yaradılması;
6.1.8. pozulmuş hüquqların bərpasının təmin edilməsi;
6.1.9. mülki hüquqların məhkəmə müdafiəsi.

6.2. Fiziki və hüquqi şəxslər mülki hüquqları öz mənafelərini gerçəkləşdirmək üçün iradələrinə uyğun olaraq əldə edir və həyata keçirirlər. Onlar müqavilə əsasında öz hüquq və vəzifələrini müəyyənləşdirməkdə və qanunvericiliyə zidd olmayan hər hansı müqavilə şərtləri qoymaqda sərbəstdirlər.

6.3. Dövlət və ictimai təhlükəsizliyin, ictimai qaydanın, cəmiyyətin sağlamlığının və mənəviyyatının qorunması, digər şəxslərin hüquq və azadlıqlarının, şərəfinin və təmiz adının müdafiəsi üçün zəruri olduqda mülki hüquqlar yalnız qanunla məhdudlaşdırıla bilər.

6.4. Mallar, xidmətlər və maliyyə vəsaiti Azərbaycan Respublikasının bütün ərazisində sərbəst hərəkət edir. Əgər insanların təhlükəsizliyinin təmin edilməsi, həyatının və sağlamlığının müdafiəsi, təbiətin və mədəniyyət sərvətlərinin qorunması üçün zəruridirsə, malların və xidmətlərin hərəkəti üçün məhdudiyyətlər qanuna müvafiq surətdə tətbiq edilə bilər.

Maddə 7. Mülki qanunvericiliyin zamana görə qüvvəsi

7.1. Azərbaycan Respublikası Konstitusiyasının 149-cu maddəsinin VII hissəsində nəzərdə tutulanlar istisna olmaqla, mülki qanunvericilik müddəalarının geriyə qüvvəsi yoxdur və onlar qüvvəyə mindikdən sonra əmələ gəlmiş münasibətlərə tətbiq edilir.

7.2. Qanunla birbaşa nəzərdə tutulmuş hallarda mülki qanunvericiliyin geriyə qüvvəsi ola bilər.

7.3. Mülki hüquq subyektlərinə ziyan vurarsa və ya onların vəziyyətini pisləşdirərsə, mülki qanunvericiliyin geriyə qüvvəsi ola bilməz.

Maddə 8. Mülki qanunvericiliyin məkana görə qüvvəsi

8.1. Mülki qanunvericilik Azərbaycan Respublikasının istisnasız olaraq bütün ərazisində qüvvədədir.

8.2. Mülki qanunvericilikdə nəzərdə tutulan hüquqlar Azərbaycan Respublikasının bütün ərazisində maneəsiz həyata keçirilə bilər və hökmən mühafizə edilməlidir.

Maddə 9. Mülki qanunvericiliyin şəxslərə görə qüvvəsi

9.1. Mülki qanunvericilik Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxslər üçün qüvvədədir.

9.2. Mülki qanunvericiliklə müəyyənləşdirilmiş qaydalar, əgər qanunda ayrı hal nəzərdə tutulmayıbsa, əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin və xarici hüquqi şəxslərin iştirak etdiyi münasibətlərə də tətbiq olunur.

9.3. Qanunu bilməmək və ya onu yanlış başa düşmək qanunun tətbiq edilməməsinə və ya nəzərdə tutulmuş məsuliyyətdən azad edilməyə əsas verə bilməz.

Maddə 10. İşgüzar adətlər

10.1. Sahibkarlıq fəaliyyətinin hər hansı sahəsində təşəkkül tapan və geniş tətbiq edilən, qanunvericilikdə nəzərdə tutulmayan davranış qaydası, hansısa aktda qeyd edilib-edilmədiyindən asılı olmayaraq, işgüzar adət sayılır.

10.2. Qanunvericiliyə və ya müqaviləyə zidd olan işgüzar adətlər tətbiq edilmir.

Maddə 11. Mülki qanunvericiliyin analogiya üzrə tətbiqi

11.1. Mülki hüquq münasibətləri mülki qanunvericiliklə və ya tərəflərin razılaşması ilə birbaşa tənzimlənmədikdə və onlara tətbiq edilə bilən işgüzar adət olmadıqda həmin münasibətlərə, əgər bu, onların mahiyyətinə zidd deyildirsə, oxşar münasibətləri tənzimləyən mülki qanunvericilik normaları tətbiq edilir (qanunun analogiyası).

11.2. Oxşar münasibətləri tənzimləyən mülki hüquq normaları olmadıqda tərəflərin hüquq və vəzifələri mülki qanunvericilik prinsipləri əsas götürülməklə tənzimlənir (hüququn analogiyası). Hüququn analogiyası tətbiq edilərkən ədalət, insaf və mənəviyyat tələbləri nəzərə alınmalıdır.

11.3. *Çıxarılmışdır.*[6]

11.4. Xüsusi münasibətləri tənzimləyən mülki qanunvericilik müddəaları (istisna normaları) analogiya üzrə tətbiq edilməməlidir.

11.5. Mülki hüquq münasibətlərini tənzimləyən hüquq normasının olmaması və ya onun qeyri-müəyyənliyi məhkəmənin mülki işə baxmaqdan imtina etməsinə əsas verə bilməz.

Maddə 12. Mülki hüquqların siyasi hüquqlardan asılı olmaması

12.1. Mülki hüquqların həyata keçirilməsi Azərbaycan Respublikasının Konstitusiyası və ya qanunları ilə müəyyənləşdirilmiş siyasi hüquqlardan asılı deyildir.

12.2. Mülki hüquq münasibətlərinin subyektləri həm qanunla birbaşa qadağan olunmamış hərəkətləri, həm də qanunda bilavasitə nəzərdə tutulmamış hərəkətləri icra edə bilərlər.

Maddə 13. Sahibkarlıq fəaliyyəti[7]

Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, *malların istehsalından və (və ya)* satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət *(fərdi sahibkarlar tərəfindən gəlir)* götürülməsi olan fəaliyyətdir.[8]

2-ci fəsil.

Mülki hüquq və vəzifələr, onların müdafiəsi

Maddə 14. Mülki hüquqların və vəzifələrin əmələ gəlməsi

14.1. Mülki hüquqlar və vəzifələr mülki qanunvericilikdə nəzərdə tutulan əsaslardan, habelə fiziki və hüquqi şəxslərin qanunvericilikdə nəzərdə tutulmasa da, mülki qanunvericiliyin prinsiplərinə görə mülki hüquqlar və vəzifələr doğuran hərəkətlərindən əmələ gəlir.

14.2. Mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsasları aşağıdakılardır:

14.2.1. Qanunvericilikdə nəzərdə tutulmuş müqavilələr *(əmək müqavilələri istisna olmaqla)* və başqa əqdlər, habelə qanunvericilikdə nəzərdə tutulmasa da, ona zidd olmayan müqavilələr və başqa əqdlər.[9]

14.2.2. Dövlət orqanlarının və yerli özünüidarə orqanlarının qanunvericilikdə mülki hüquqların və vəzifələrin əmələ gəlməsi əsası kimi nəzərdə tutulmuş aktları.

14.2.3. Mülki hüquqlar və vəzifələr müəyyənləşdirən məhkəmə aktları.

14.2.4. Qanunvericiliyin yol verdiyi əsaslar üzrə əmlak əldə edilməsi.

14.2.5. Elm, ədəbiyyat, incəsənət əsərlərinin, ixtiraların və əqli fəaliyyətin digər nəticələrinin yaradılması.

14.2.6. Başqa şəxsə zərər vurulması.

14.2.7. Əsassız varlanma.

14.2.8. Fiziki və hüquqi şəxslərin digər hərəkətləri.

14.2.9. Qanunvericiliyin mülki hüquq nəticələrinin baş verməsi ilə bağladığı hadisə.

14.3. Əgər qanunla əmlak hüquqlarının yaranması üçün ayrı qayda nəzərdə tutulmayıbsa, dövlət qeydiyyatına alınmalı əmlak hüquqları onların qeydə alındığı andan əmələ gəlir.[10]

Maddə 15. Mülki hüquqların həyata keçirilməsi

15.1. *Çıxarılmışdır.* [11]

15.2. Fiziki və hüquqi şəxslərin özlərinə mənsub mülki hüquqlardan istifadə etməməsi, qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, bu hüquqlara xitam verilməsinə səbəb olmur.[12]

Maddə 16. Mülki hüquqların həyata keçirilməsinin məhdudlaşdırılması

16.1. Fiziki və hüquqi şəxslərin yalnız və yalnız başqa şəxsə ziyan vurmaq niyyəti ilə həyata keçirdikləri hərəkətlərə, habelə hüquqdan digər formalarda sui-istifadə edilməsinə yol verilmir.

16.2. *Çıxarılmışdır.* [13]

Maddə 17. Mülki hüquqların müdafiəsi

17.1. Bütün dövlət hakimiyyəti orqanları, yerli özünüidarə orqanları, siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqı təşkilatları, fiziki və hüquqi şəxslər mülki hüquqlara hörmət bəsləməyə və onların müdafiəsinə kömək göstərməyə borcludurlar.

17.2. *Çıxarılmışdır.* [14]

17.3. *Çıxarılmışdır.*[15]

Maddə 18. Mülki hüquqların müdafiəsi üsulları

Mülki hüquqların müdafiəsi qanunvericilikdə nəzərdə tutulmuş qaydada və qanuna, ictimai qaydaya və əxlaqa zidd olmayan üsullarla həyata keçirilir.

Maddə 19. Dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının aktının etibarsız sayılması

Dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının mülki qanunvericiliyə uyğun gəlməyən, fiziki və ya hüquqi şəxsin mülki hüquqlarını və qanunla qorunan mənafelərini pozan qeyri-normativ xarakterli aktı məhkəmə tərəfindən etibarsız sayıla bilər.

Maddə 20. Mülki hüquqların özümüdafiəsi – *çıxarılmışdır.* [16]

Maddə 21. Zərərin əvəzinin ödənilməsi

21.1. Zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs ona vurulmuş zərərin əvəzinin tam ödənilməsini tələb edə bilər, bu şərtlə ki, qanunda və ya müqavilədə zərərin əvəzinin daha az miqdarda ödənilməsi nəzərdə tutulmasın.[17]

21.2. Zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür.KMQ31

21.3. Zərərin əvəzinin ödənilməsi ilə bağlı tələbin həcminin müəyyənləşdirilməsi zamanı zərərçəkənin, onun işçisinin və qanunvericiliklə nəzərdə tutulmuş hallarda üçüncü şəxslərin davranışının zərərin yaranmasına və artmasına hansı həcmdə şərait yaratması nəzərə alınmalıdır.[18]

Maddə 22. Dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının vurduqları zərərin əvəzinin ödənilməsi – *çıxarılmışdır.*[19]

Maddə 23. Şərəfin, ləyaqətin və işgüzar nüfuzun müdafiəsi KMQ8

23.1. Fiziki şəxs onun şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən, şəxsi və ailə həyatının sirrini və ya şəxsi və ailə toxunulmazlığını pozan məlumatların məhkəmə qaydasında təkzib olunmasını tələb edə bilər, bu şərtlə ki, həmin məlumatları yaymış şəxs onların həqiqətə uyğun olduğunu sübuta yetirməsin. Faktik məlumatlar natamam dərc edildikdə də, əgər bununla şəxsin şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunulursa, eyni qayda tətbiq edilir. Marağı olan şəxslərin tələbi ilə fiziki şəxsin şərəf və ləyaqətinin müdafiəsinə onun ölümündən sonra da yol verilir.[20]

23.2. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini, işgüzar nüfuzunu ləkələyən və ya şəxsi və ailə həyatının sirrinə qəsd edən məlumatlar *mediada* yayılmışdırsa, həmin *mediada da* təkzib edilməlidir. Əgər göstərilən məlumatlar rəsmi sənədə daxil edilmişdirsə, həmin sənəd dəyişdirilməli və bu barədə marağı olan şəxslərə məlumat verilməlidir. Digər hallarda təkzib qaydasını məhkəmə müəyyənləşdirir.[21]

23.3. *Mediada* hüquqlarına və ya qanunla qorunan mənafelərinə toxunan məlumatlar dərc edilmiş *(yayımlanmış)* fiziki şəxsin həmin *mediada* öz cavabının dərc edilməsi *(yayımlanması)* hüququ vardır.[22]

23.4. Şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatlar yayılmış fiziki şəxsin həmin məlumatların təkzibi ilə yanaşı, onların yayılması nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.

23.5. Əgər fiziki şəxsin şərəfini, ləyaqətini və ya işgüzar nüfuzunu ləkələyən məlumatları yaymış şəxsi müəyyənləşdirmək mümkün deyildirsə, barəsində bu cür məlumatlar yayılmış şəxsin ixtiyarı var ki, həmin məlumatların həqiqətə uyğun olmayan məlumatlar sayılmasını tələb etsin.

23.6. Bu maddənin fiziki şəxsin işgüzar nüfuzunun müdafiəsinə dair qaydaları müvafiq olaraq hüquqi şəxsin işgüzar nüfuzunun müdafiəsinə də tətbiq edilir.

İkinci bölmə

ŞƏXSLƏR

3-cü fəsil.

Fiziki şəxslər

Maddə 24. Fiziki şəxs anlayışı

24.1. Fiziki şəxs hüquq münasibətlərində öz adından iştirak edən insan fərdidir.

24.2. Azərbaycan Respublikasında bütün vətəndaşlar, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər fiziki şəxslərdir.

Maddə 25. Fiziki şəxsin mülki hüquq qabiliyyəti

25.1. Fiziki şəxsin mülki hüquq qabiliyyəti insanın mülki hüquqlara malik olmaq və mülki hüquq vəzifələri daşımaq qabiliyyətidir. Bütün fiziki şəxslərin mülki hüquq qabiliyyəti eyni dərəcədə tanınır.

25.2. Fiziki şəxsin hüquq qabiliyyəti onun doğulduğu an əmələ gəlir və ölümü ilə xətm edilir. Beyinin fəaliyyətinin dayanması ölüm anı sayılır.

25.3. Vərəsə olmaq hüququ maya bağlandığı andan əmələ gəlir, bu hüququn həyata keçirilməsi isə yalnız doğumdan sonra mümkündür.

25.4. Fiziki şəxs hüquq qabiliyyətindən məhrum edilə bilməz.

Maddə 26. Ad hüququ

26.1. Hər bir fiziki şəxsin addan, ata adından və soyaddan ibarət adı olmaq hüququ vardır.

26.2. Fiziki şəxs hüquq və vəzifələri öz adı ilə əldə edir və həyata keçirir.

26.3. Qanunla nəzərdə tutulmuş hallarda və qaydada fiziki şəxs təxəllüsdən (uydurma addan) istifadə edə bilər.

26.4. Fiziki şəxsin qanunla müəyyənləşdirilmiş qaydada öz adını dəyişdirmək ixtiyarı vardır. Fiziki şəxsin adını dəyişdirməsi, onun əvvəlki adı ilə əldə etdiyi hüquq və vəzifələrə xitam vermir və ya bunları dəyişdirmir. Fiziki şəxs adını dəyişdirməsi barədə öz borclularına və kreditorlarına məlumat verməlidir və adının dəyişməsi barədə həmin şəxslərdə məlumatın olmamasının doğurduğu nəticələrin riskini daşıyır. Adını dəyişdirmiş fiziki şəxsin ixtiyarı vardır ki, əvvəlki adına rəsmiləşdirilmiş sənədlərdə öz hesabına müvafiq dəyişikliklər aparılmasını tələb etsin.

26.5. Fiziki şəxsin doğularkən aldığı ad, habelə adını dəyişdirməsi vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı üçün müəyyənləşdirilmiş qaydada qeydə alınmalıdır.

26.6. Başqa şəxsin adı ilə hüquq və vəzifələr əldə edilməsinə yol verilmir.

26.7. Fiziki şəxsin adından qanunsuz istifadə nəticəsində ona vurulmuş ziyanın əvəzi bu Məcəlləyə müvafiq surətdə ödənilməlidir.

26.8. Fiziki şəxsin adı onun şərəfinə, ləyaqətinə və ya işgüzar nüfuzuna toxunan üsullarla və ya formada təhrif edildikdə və ya istifadə olunduqda bu Məcəllənin 23-cü maddəsində nəzərdə tutulan qaydalar tətbiq edilir.

Maddə 27. Fiziki şəxsin yaşayış yeri

27.1. Fiziki şəxsin adətən yaşadığı yer onun yaşayış yeri sayılır. Şəxsin bir neçə yaşayış yeri ola bilər.

27.2. On dörd yaşına çatmamış şəxslərin yaşayış yeri valideynlik hüquqlarını itirməmiş valideynlərinin yaşayış yeri sayılır, qəyyumluq altında olan şəxsin yaşayış yeri isə qəyyumun yaşayış yeri sayılır.

27.3. Əgər şəxs hər hansı səbəbdən öz yaşayış yerini müəyyən müddətə tərk edirsə, o, yaşayış yerini itirmir.

Maddə 28. Fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti

28.1. Fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti şəxsin öz hərəkətləri ilə mülki hüquqlar əldə etmək və həyata keçirmək, özü üçün mülki vəzifələr yaratmaq və icra etmək qabiliyyətidir.

28.2. Fiziki şəxsin mülki hüquq fəaliyyət qabiliyyəti, o, yetkinlik yaşına, yəni on səkkiz yaşına çatdıqda tam həcmdə əmələ gəlir.

28.3. 7 yaşınadək olan yetkinlik yaşına çatmayanların (azyaşlılar) fəaliyyət qabiliyyəti yoxdur. 7 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların məhdud fəaliyyət qabiliyyəti vardır.

28.4. On altı yaşı tamam olmuş yetkinlik yaşına çatmayan əmək müqaviləsi üzrə işləyirsə və ya valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı ilə sahibkarlıq fəaliyyəti ilə məşğul olursa, tam fəaliyyət qabiliyyətli sayıla bilər. Hər iki valideynin, övladlığa götürənlərin və ya himayəçinin razılığına əsasən qəyyumluq və himayəçilik orqanının qərarı ilə, belə razılıq olmadıqda isə məhkəmənin qərarı ilə yetkinlik yaşına çatmayan tam fəaliyyət qabiliyyətli sayılır (emansipasiya).[23]

28.5. Valideynlər, övladlığa götürənlər və himayəçi tam fəaliyyət qabiliyyətli sayılmış yetkinlik yaşına çatmayanın öhdəlikləri üçün, o cümlədən onun ziyan vurması nəticəsində əmələ gəlmiş öhdəliklər üçün məsuliyyət daşımırlar.

~~28.6. On səkkiz yaşına çatanadək nikaha girməyə qanunun yol verdiyi halda, on səkkiz yaşına çatmamış fiziki şəxs nikaha girdiyi vaxtdan tam həcmdə fəaliyyət qabiliyyəti əldə edir. Nikah bağlanması nəticəsində əldə edilmiş fəaliyyət qabiliyyəti nikahın on səkkiz yaşına çatanadək pozulduğu halda da tam həcmdə saxlanılır.~~

~~28.7. Nikah etibarsız sayıldıqda məhkəmə yetkinlik yaşına çatmayan ərin (arvadın) tam fəaliyyət qabiliyyətini məhkəmə tərəfindən müəyyənləşdirilən andan itirməsi barədə qərar qəbul edə bilər.~~[24]

28.8. Ağıl zəifliyi və ya ruhi xəstəlik nəticəsində öz hərəkətlərinin mənasını başa düşməyən və ya öz hərəkətlərinə rəhbərlik edə bilməyən şəxslər də məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayıla bilər. Onlar üzərində qəyyumluq müəyyənləşdirilir. Fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin adından əqdləri onun qəyyumu bağlayır. Fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxsin bağladığı əqd sonradan qəyyumun razılığı ilə etibarlı hesab edilə bilər.[25]

28.9. Fəaliyyət qabiliyyəti olmayan sayılmış şəxsin sağaldığı və ya sağlamlıq vəziyyətinin xeyli yaxşılaşdığı halda məhkəmə onu fəaliyyət qabiliyyətli sayır. Onun üzərində müəyyənləşdirilmiş qəyyumluq məhkəmə qərarına əsasən ləğv edilir.

Maddə 29. 14 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti

29.1. Bu Məcəllənin 29.2-ci maddəsində göstərilmiş əqdlər istisna olmaqla, 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanların əvəzinə əqdləri onların adından yalnız valideynləri, övladlığa götürənlər və ya qəyyumlar bağlaya bilərlər. Bu cür yetkinlik yaşına çatmayanın bağladığı əqd sonradan onun valideynləri, övladlığa götürənlər və qəyyumlar tərəfindən bəyənildikdə etibarlıdır.[26]

29.2. 7 yaşından 14 yaşınadək olan şəxslərin aşağıdakı əqdləri müstəqil bağlamaq ixtiyarı vardır:

29.2.1. xırda məişət əqdləri;

29.2.2. əvəzsiz olaraq fayda götürməyə yönəldilmiş elə əqdlər ki, onlardan əmələ gələn hüquqların notariat qaydasında təsdiqlənməsi və ya dövlət qeydiyyatına alınması tələb olunmur;

29.2.3. qanuni nümayəndənin özünün və ya onun razılığı ilə üçüncü şəxsin müəyyən məqsəd üçün və ya sərbəst istifadə üçün verdiyi vəsait barəsində sərəncam üzrə əqdlər.

29.3. 14 yaşı tamam olmamış yetkinlik yaşına çatmayanın əqdləri, o cümlədən müstəqil bağladığı əqdlər üzrə əmlak məsuliyyətini onun valideynləri, övladlığa götürənlər və ya qəyyum daşıyır, bu şərtlə ki, həmin şəxslər öhdəliyin onların təqsiri üzündən pozulmadığını sübuta yetirməsinlər. Qanuna uyğun olaraq bu şəxslər azyaşlıların vurduqları ziyan üçün də cavabdehdirlər.

Maddə 30. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların fəaliyyət qabiliyyəti

30.1. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar bu Məcəllənin 30.2-ci maddəsində göstərilənlər istisna olmaqla, əqdləri öz qanuni nümayəndələrinin – valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin yazılı razılığı ilə bağlayırlar. Bu cür yetkinlik yaşına çatmayanın bağladığı əqd sonradan valideynləri, övladlığa götürənlər və ya himayəçi tərəfindən bəyənildikdə də etibarlıdır.[27]

30.2. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanların ixtiyarı vardır ki, valideynlərinin, övladlığa götürənlərin və ya himayəçinin razılığı olmadan müstəqil surətdə:[28]

30.2.1. öz qazancı, təqaüdü və digər gəlirləri barəsində sərəncam versin;

30.2.2. elm, ədəbiyyat və ya incəsənət əsərinin, ixtiranın və ya qanunla qorunan digər əqli fəaliyyət nəticəsinin müəllifi hüquqlarını həyata keçirsin;

30.2.3. *çıxarılmışdır*; [29]

30.2.4. xırda məişət əqdləri və bu Məcəllənin 29-2-ci maddəsində nəzərdə tutulan digər əqdlər bağlasın. On altı yaşı tamam olmuş yetkinlik yaşına çatmayanların kooperativ üzvü olmaq ixtiyarı da vardır.

30.3. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar bu Məcəllənin 30.1 və 30.2-ci maddələrinə uyğun bağladıqları əqdlər üzrə müstəqil surətdə əmlak məsuliyyəti daşıyırlar. 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanlar vurduqları ziyana görə bu Məcəlləyə uyğun məsuliyyət daşıyırlar.

30.4. Yetərli əsaslar olduqda məhkəmə valideynlərin, övladlığa götürənlərin və ya himayəçinin və ya qəyyumluq və himayəçilik orqanının vəsatəti ilə 14 yaşından 18 yaşınadək olan yetkinlik yaşına çatmayanın (əgər o, tam həcmdə fəaliyyət qabiliyyəti əldə etməyibsə) öz qazancı, təqaüdü və ya digər gəlirləri barəsində müstəqil sərəncam vermək hüququnu məhdudlaşdıra və ya ala bilər.[30]

Maddə 31. Fiziki şəxsin hüquq qabiliyyətindən və fəaliyyət qabiliyyətindən məhrum edilməsinin və bunların məhdudlaşdırılmasının yolverilməzliyi

31.1. Fiziki şəxs heç bir halda hüquq qabiliyyətindən məhrum edilə bilməz. Fiziki şəxsin hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti yalnız qanunla müəyyənləşdirilmiş hallarda və qaydada məhdudlaşdırıla bilər.

31.2. Fiziki şəxslərin fəaliyyət qabiliyyətinin və ya onların sahibkarlıq fəaliyyəti və ya başqa fəaliyyətlə məşğul olmaq hüququnun məhdudlaşdırılmasının qanunla müəyyənləşdirilmiş şərtlərinin və qaydasının gözlənilməməsi müvafiq məhdudiyyəti qoymuş dövlət orqanının və ya digər orqanın aktının etibarsızlığına səbəb olur.

31.3. Fiziki şəxsin hüquq qabiliyyətindən və ya fəaliyyət qabiliyyətindən tamamilə və ya qismən imtina etməsi və hüquq qabiliyyətinin və ya fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına yönəldilmiş digər əqdlər əhəmiyyətsizdir.

Maddə 32. Fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması

32.1. Spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində öz ailəsini ağır maddi vəziyyətə salan fiziki şəxsin fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırıla bilər. Belə şəxsin üzərində himayəçilik təyin edilir. Onun xırda məişət əqdləri bağlamaq ixtiyarı vardır. O yalnız himayəçisinin razılığı ilə başqa əqdlər bağlaya bilər, habelə qazanc, pensiya və digər gəlirlər götürə bilər və bunlar barəsində sərəncam verə bilər. Lakin bu cür fiziki şəxs bağladığı əqdlər üzrə və vurduğu ziyan üçün müstəqil surətdə əmlak məsuliyyəti daşıyır. Fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış fiziki şəxsin himayəçinin razılığı tələb olunan hallarda, belə razılıq olmadan bağladığı əqd sonradan himayəçinin yazılı razılığı ilə etibarlı hesab edilə bilər.[31]

32.2. Fiziki şəxsin fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasına səbəb olan əsaslar aradan qalxdıqda məhkəmə onun fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasını ləğv edir. Fiziki şəxsin üzərində təyin edilmiş himayəçilik məhkəmənin qərarına əsasən ləğv olunur.

Maddə 33. Qəyyumluq və himayəçilik

33.1. Qəyyumluq və himayəçilik fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli fiziki şəxslərin hüquq və mənafelərinin müdafiəsi üçün təyin edilir. Yetkinlik yaşına çatmayanlar üzərində qəyyumluq və himayəçilik, həmçinin onların tərbiyələndirilməsi məqsədilə təyin edilir. Qəyyumların və himayəçilərin buna

uyğun hüquq və vəzifələri Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə müəyyənləşdirilir.

33.2. Qəyyumlar və himayəçilər istənilən şəxslərlə münasibətlərdə, o cümlədən məhkəmədə öz qəyyumluğunda olanların hüquq və vəzifələrini xüsusi səlahiyyət almadan müdafiə edirlər.

33.3. Yetkinlik yaşına çatmayanların valideynləri, onları övladlığa götürənlər olmadıqda, valideynləri məhkəmə tərəfindən valideynlik hüquqlarından məhrum edildikdə, habelə bu cür fiziki şəxslər başqa səbəblərə görə valideyn himayəsindən məhrum olduqda, o cümlədən valideynləri onları tərbiyələndirməkdən və ya hüquq və mənafelərini müdafiə etməkdən boyun qaçırdıqda onların üzərində qəyyumluq və himayəçilik təyin edilir.

33.4. On dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanlar, habelə psixi pozuntuya görə məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxslər üzərində qəyyumluq təyin edilir.

33.5. Qəyyumlar qəyyumluqda olanların qanun üzrə nümayəndələri olur və onların adından və onların mənafeləri üçün bütün zəruri əqdləri bağlayırlar.

33.6. On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanlar üzərində, habelə spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi və ya qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxslər üzərində himayəçilik təyin edilir.[32]

33.7. Himayəçilər himayəçilikdə olan fiziki şəxslərin müstəqil surətdə bağlamağa ixtiyarı çatmadığı əqdlərin bağlanmasına razılıq verirlər. Himayəçilər himayədə olanlara öz hüquqlarını həyata keçirməkdə və vəzifələrini icra etməkdə kömək göstərir, habelə onları üçüncü şəxslərin sui-istifadəsindən qoruyurlar.

Maddə 34. Qəyyumluq və himayəçilik orqanları

34.1. Qəyyumluq və himayəçilik orqanları qanunvericiliklə müəyyənləşdirilir.

34.2. Fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan sayılması və ya fəaliyyət qabiliyyətinin məhdudlaşdırılması barədə qərarın qanuni qüvvəyə mindiyi gündən etibarən üç gün ərzində məhkəmə həmin fiziki şəxs üzərində qəyyumluq və himayəçilik təyin edilməsi üçün onun yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanına bu barədə məlumat verməlidir.

34.3. Qəyyumluqda olanların yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı onların qəyyumlarının və himayəçilərinin fəaliyyətinə nəzarət edir.

Maddə 35. Qəyyumlar və himayəçilər

35.1. Qəyyumu və ya himayəçini qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxsin yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanı fiziki şəxs üzərində qəyyumluq və ya himayəçilik qoyulması zərurətinin ona məlum olduğu andan üç ay ərzində təyin edir. Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxsə qəyyum və ya himayəçi təyin edilənədək qəyyum və ya himayəçi vəzifələrini qəyyumluq və himayəçilik orqanı icra edir. *Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan ~~valideynlərini~~*

~~itirmiş və valideyn himayəsindən məhrum olmuş~~ *uşaqlara qəyyum və himayəçi təyin edilənədək qəyyumluq və ya himayəçilik orqanının funksiyalarını müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.* Qəyyumun və ya himayəçinin təyin edilməsi barədə maraqlı şəxslər məhkəməyə etiraz verə bilərlər.[33]

35.2. Qəyyumlar və himayəçilər yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxslərdən təyin edilir. Valideynlik hüquqlarından məhrum edilmiş fiziki şəxslər qəyyum və himayəçi təyin oluna bilməzlər.

35.3. Qəyyum və ya himayəçi öz razılığı ilə təyin edilir. Bu zaman onun əxlaqi və digər şəxsi keyfiyyətləri, qəyyumluq və ya himayəçilik vəzifələrini yerinə yetirmək qabiliyyəti, onunla qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan şəxs arasında mövcud münasibətlər, mümkünsə, həm də qəyyumluqda və ya himayədə olanın arzusu nəzərə alınmalıdır.

35.4. Qəyyumluğa və ya himayəçiliyə ehtiyacı olan və müvafiq *sosial xidmət müəssisələrində* olan və ya bu müəssisələrə yerləşdirilmiş fiziki şəxslərin qəyyumları və himayəçiləri həmin müəssisələrdir.[34]

35.5. Qəyyumluq və himayəçilik vəzifələri, qanunla nəzərdə tutulan hallardan başqa, əvəzsiz icra edilir.

35.6. Yetkinlik yaşına çatmayan fiziki şəxslərin qəyyumları və himayəçiləri öz qəyyumluğunda və ya himayəsində olanlarla birlikdə yaşamalıdırlar. Himayəçi ilə on altı yaşına çatmış himayədə olanın ayrılıqda yaşamasına qəyyumluq və himayəçilik orqanının razılığı ilə bu şərtlə yol verilir ki, ayrı yaşama himayədə olanın tərbiyəsinə, hüquq və mənafelərinin müdafiəsinə mənfi təsir göstərməsin. Qəyyumlar və himayəçilər yaşayış yerinin dəyişməsi barədə qəyyumluq və himayəçilik orqanlarına məlumat verməyə borcludurlar.

35.7. Qəyyumlar və himayəçilər öz qəyyumluğunda və ya himayəsində *olan uşaqların, o cümlədən Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 118.12-ci və 118.13-cü maddələrinə uyğun olaraq övladlığa götürmək istəyən şəxsin ailəsində sınaq müddəti ilə yerləşdirilən uşaqların* saxlanması, onlara baxılmasının və onların müalicəsinin təmin edilməsi, onların təhsil alması və tərbiyələnməsi qayğısına qalmağa, onların hüquq və mənafelərini qorumağa borcludurlar.[35]

35.8. Bu Məcəllənin 35.7-ci maddəsində göstərilən vəzifələr məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış yetkinlik yaşına çatmış fiziki şəxslərin himayəçilərinə həvalə edilmir.

35.9. Fiziki şəxsin fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli sayılmasına səbəb olmuş əsaslar aradan qalxdıqda qəyyum və ya himayəçi qəyyumluqda və ya himayədə olanın fəaliyyət qabiliyyətli sayılması və onun üzərindən qəyyumluğun və ya himayəçiliyin götürülməsi barədə məhkəmə qarşısında vəsatət qaldırmağa borcludur.

Maddə 36. Qəyyumluqda və himayədə olanın əmlakı barəsində sərəncam verilməsi

36.1. Qəyyumluqda və ya himayədə olan fiziki şəxsin müstəqil surətdə sərəncam verməyə ixtiyarı çatdığı gəlirlər istisna olmaqla, onun gəlirləri, o cümlədən

qəyyumluqda və ya himayədə olana onun əmlakının idarə edilməsindən çatası gəlirlər qəyyum və ya himayəçi tərəfindən yalnız və yalnız qəyyumluqda və ya himayədə olanın mənafeləri üçün, həm də qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsi alınmaqla xərclənir. Qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsi olmadan qəyyum və ya himayəçi qəyyumluqda və ya himayədə olanın saxlanması üçün zəruri xərcləri qəyyumluqda və ya himayədə olana onun gəliri kimi çatası məbləğlər hesabına ödəyə bilər.

36.2. Qəyyumluq və himayəçilik orqanının qabaqcadan icazəsini almadan qəyyum qəyyumluqda və ya himayədə olanın əmlakının özgəninkiləşdirilməsinə, o cümlədən dəyişdirilməsinə və ya bağışlanmasına, bu əmlakın icarəyə, əvəzsiz istifadəyə verilməsinə və ya girov qoyulmasına dair əqdləri, qəyyumluqda və ya himayədə olana mənsub hüquqlardan imtinaya, onun əmlakının bölüşdürülməsinə və ya bu əmlakdan payların ayrılmasına səbəb olan əqdləri, habelə qəyyumluqda və ya himayədə olanın əmlakının azalmasına səbəb olan hər hansı digər əqdləri bağlaya bilməz, himayəçi isə onların bağlanmasına razılıq verə bilməz. Qəyyumluqda olanın əmlakının idarə edilməsi qaydası qanunvericiliklə müəyyənləşdirilir.

36.2-1. Bu Məcəllənin 36.1-ci və 36.2-ci maddələrində nəzərdə tutulan qəyyumluq və himayəçilik orqanlarının icazəsi ilə əlaqədar həmin orqanların qərarları 1 (bir) iş günü ərzində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə daxil edilir.[36]

36.3. Qəyyumun, himayəçinin, onların ərinin (arvadının) və yaxın qohumlarının ixtiyarı yoxdur ki, qəyyumluqda və ya himayədə olana hədiyyə kimi əmlak verilməsi və ya onun əvəzsiz istifadəsinə əmlak verilməsi istisna olmaqla, qəyyumluqda və ya himayədə olanla əqdlər bağlasın, habelə əqdlər bağlanarkən və ya qəyyumluqda və ya himayədə olanla qəyyumun və ya himayəçinin əri (arvadı) və onların yaxın qohumları arasında məhkəmə işləri aparılarkən qəyyumluqda və ya himayədə olanı təmsil etsinlər.

Maddə 37. Qəyyumluqda və ya himayədə olanın əmlakının etibarnamə ilə idarə edilməsi

37.1. Qəyyumluqda və ya himayədə olanın daşınar və qiymətli daşınmaz əmlakının daimi idarə edilməsi zərurəti yarandıqda qəyyumluq və himayəçilik orqanı özünün müəyyənləşdirdiyi idarəçi ilə həmin əmlakın etibarnamə ilə idarə edilməsinə dair müqavilə bağlayır. Bu halda qəyyum və ya himayəçi qəyyumluqda və ya himayədə olanın etibarnamə ilə idarəetməyə verilməmiş əmlakı barəsində öz səlahiyyətlərini saxlayır. Qəyyumluqda və ya himayədə olanın əmlakının etibarnamə ilə idarə edilməsi səlahiyyətlərini həyata keçirərkən idarəçiyə bu Məcəllənin 36.2 və 36.3-cü maddələrində nəzərdə tutulan qaydalar tətbiq edilir.

37.2. Qəyyumluqda və ya himayədə olanın əmlakının etibarnamə ilə idarə edilməsinə əmlakın etibarnamə ilə idarə edilməsinə dair müqaviləyə xitam verilməsi üçün qanunvericilikdə nəzərdə tutulan əsaslar üzrə, habelə qəyyumluğa və ya himayəçiliyə xitam verildiyi hallarda xitam verilir.

Maddə 38. Qəyyumların və himayəçilərin öz vəzifələrinin icrasından azad və kənar edilməsi. Qəyyumluğa və himayəçiliyə xitam verilməsi

38.1. Yetkinlik yaşına çatmayan şəxs valideynlərinə qaytarıldıqda və ya övladlığa götürüldükdə qəyyumluq və himayəçilik orqanı qəyyumu və ya himayəçini öz vəzifələrinin icrasından azad edir.

38.2. Qəyyumluqda olan müvafiq *sosial xidmət müəssisələrinə* və ya digər oxşar müəssisəyə yerləşdirildikdə qəyyumluq və himayəçilik orqanı bundan əvvəl təyin edilmiş qəyyumu və ya himayəçini, əgər bu, qəyyumluqda olanın mənafelərinə zidd deyilsə, öz vəzifələrinin icrasından azad edir.[37]

38.3. Üzrlü səbəblər olduqda (xəstəlik, əmlak vəziyyətinin dəyişməsi, qəyyumluqda olanla qarşılıqlı anlaşmanın yoxluğu və i.a.) qəyyum və ya himayəçi öz xahişi ilə vəzifələrinin icrasından azad edilə bilər.

38.4. Qəyyum və ya himayəçi onun üzərinə düşən vəzifələri gərəyincə yerinə yetirmədikdə, o cümlədən qəyyumluqdan və ya himayəçilikdən tamah məqsədi ilə istifadə etdikdə və ya qəyyumluqda olanı nəzarətsiz və lazımi köməksiz qoyduqda qəyyumluq və himayəçilik orqanı qəyyumu və ya himayəçini bu vəzifələrin icrasından kənar edə bilər və təqsirli fiziki şəxsin qanunla müəyyənləşdirilmiş məsuliyyətə cəlb olunması üçün zəruri tədbirlər görə bilər.

38.5. Qəyyumun, himayəçinin və ya qəyyumluq və himayəçilik orqanının ərizəsinə əsasən məhkəmə qəyyumluqda olanın fəaliyyət qabiliyyətli sayılması və ya onun fəaliyyət qabiliyyətinin məhdudlaşdırılmasının ləğv edilməsi haqqında qərar çıxardıqda yetkinlik yaşına çatmış fiziki şəxs üzərində qəyyumluğa və himayəçiliyə xitam verilir.

38.6. Qəyyumluqda olan azyaşlı on dörd yaşına çatdıqda onun üzərində qəyyumluğa xitam verilir, qəyyum vəzifələrini həyata keçirmiş fiziki şəxs isə bu barədə əlavə qərar çıxarılmadan yetkinlik yaşına çatmayanın himayəçisinə çevrilir.

38.7. Qəyyumluqda olan yetkinlik yaşına çatmayanın on səkkiz yaşına çatdığı, habelə ~~nikaha girdiyi və~~ yetkinlik yaşına çatanadək tam fəaliyyət qabiliyyəti əldə etdiyi ~~digər~~ hallarda yetkinlik yaşına çatmayan üzərində himayəçiliyə xüsusi qərarsız xitam verilir.[38]

Maddə 39. Fəaliyyət qabiliyyətli fiziki şəxs üzərində patronaj

39.1. Sağlamlıq vəziyyətinə görə müstəqil surətdə öz hüquqlarını həyata keçirməyə və müdafiə etməyə, öz vəzifələrini icra etməyə qadir olmayan yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxsin xahişi ilə onun üzərində patronaj təyin edilə bilər. Patronaj təyin edilməsi fiziki şəxsin hüquqlarının məhdudlaşdırılmasına səbəb olmur.

39.2. Yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxsin patronu (köməkçisi) həmin fiziki şəxsin razılığı ilə qəyyumluq və himayəçilik orqanı tərəfindən təyin edilir.

39.3. Patron (köməkçi) fiziki şəxslə bağlanmış tapşırıq və ya etibarnamə ilə idarəetmə müqaviləsinə əsasən yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxsə mənsub əmlak barəsində sərəncam verir. Məişət tələbatının saxlanmasına və

ödənilməsinə yönəldilən məişət əqdlərini və başqa əqdləri patron (köməkçi) fiziki şəxsin razılığı ilə bağlayır.

39.4. Bu Məcəllənin 39.1-ci maddəsinə uyğun olaraq yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxs üzərində təyin edilmiş patronaja patronajda olan fiziki şəxsin tələbi ilə xitam verilir. Patronajda olan fiziki şəxsin patronu (köməkçisi) bu Məcəllənin 38-ci maddəsində nəzərdə tutulan hallarda öz vəzifələrini yerinə yetirməkdən azad edilir.

Maddə 40. Fiziki şəxsin xəbərsiz itkin düşmüş elan edilməsi

40.1. Əgər fiziki şəxsin olduğu yer məlum deyildirsə və iki il ərzində o, yaşayış yerində görünməmişsə, maraqlı şəxslərin ərizəsinə əsasən məhkəmə fiziki şəxsi xəbərsiz itkin düşmüş hesab edə bilər.

40.2. İtkin düşmə haqqında son məlumatların alındığı günü müəyyənləşdirmək mümkün olmadıqda, xəbərsiz itkin düşmüş sayılma üçün müddətin hesablanması itkin düşmüş haqqında son məlumatların alındığı aydan sonrakı ayın birinci günündən, həmin ayı müəyyənləşdirmək mümkün olmadıqda isə növbəti ilin yanvar ayının 1-dən başlanır.

40.3. Xəbərsiz itkin düşmə haqqında məhkəmənin qərarı qanuni qüvvəyə mindikdən sonra həmin şəxsin qanuni vərəsələri xəbərsiz itkin düşmüşün əmlakını etibar olunmuş əmlak kimi idarə etmək, o cümlədən ondan fayda götürmək ixtiyarı əldə edirlər. Bu əmlakdan xəbərsiz itkin düşmüşün öhdəsində olan şəxslərə dolanacaq xərcləri verilir və borclar ödənilir.

40.4. Xəbərsiz itkin düşmüş fiziki şəxsin qanuni əmlakının daimi idarə edilməsi zərurəti yarandıqda, əgər onun qanuni vərəsələri yoxdursa, məhkəmənin qərarı ilə bu əmlak qəyyumluq və himayəçilik orqanı tərəfindən müəyyənləşdirilən və həmin orqanla bağlanan etibarnamə ilə idarəetmə müqaviləsi əsasında fəaliyyət göstərən şəxsə verilir. Xəbərsiz itkin düşmüş şəxsin əmlakının idarəçisi itkin düşmüş şəxsin əmlakı hesabına onun borclarını ödəyir, əmlakı həmin şəxsin xeyrinə idarə edir, xəbərsiz itkin düşmüşün öhdəsində olan şəxslərə dolanacaq xərcləri verir. Əgər idarəçinin təyin edildiyi gündən üç il keçənədək şəxsin xəbərsiz itkin düşmüş hesab edilməsi haqqında məhkəmə qərarı ləğv edilməzsə və şəxsin ölmüş sayılması haqqında məhkəməyə müraciət edilməzsə, qəyyumluq və himayəçilik orqanı fiziki şəxsin ölmüş sayılması haqqında ərizə ilə məhkəməyə müraciət etməyə borcludur.

40.5. Xəbərsiz itkin düşmüş şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə məhkəmə onun xəbərsiz itkin düşmüş hesab edilməsi haqqında qərarı, habelə onun əmlakının idarə olunması haqqında qərarı ləğv edir.

Maddə 41. Fiziki şəxsin ölmüş elan edilməsi

41.1. Əgər şəxsin yaşayış yerində onun harada olması barədə beş il ərzində məlumat olmazsa, habelə o, ölüm təhlükəsi törədən və ya hansısa bədbəxt hadisədən həlak olduğunu güman etməyə əsas verən şəraitdə xəbərsiz itkin düşərsə və ondan altı ay ərzində xəbər çıxmazsa, o, məhkəmə qaydasında ölmüş elan edilə bilər.

41.2. Hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşmüş hərbi qulluqçu və ya digər şəxs hərbi əməliyyatların qurtardığı gündən azı iki il keçdikdən sonra məhkəmə qaydasında ölmüş elan edilə bilər. *Məhkəmə şəxsin hərbi əməliyyatlarda həlak olduğunu güman etməyə əsas verən halları nəzərə alaraq, onu bu müddət bitməzdən əvvəl, lakin hərbi əməliyyatların qurtardığı gündən altı aydan tez olmayaraq ölmüş elan edə bilər.*[39]

41.3. Şəxsin ölmüş elan edilməsi haqqında məhkəmə qərarının qanuni qüvvəyə mindiyi gün onun ölüm günü sayılır.

41.4. Bu Məcəllənin 41.1 və 41.2-ci maddələrində nəzərdə tutulan hallarda məhkəmə şəxsin həlakının güman edildiyi günü onun ölüm günü saya bilər.

Maddə 42. Ölmüş elan edilmiş şəxsin gəlməsinin nəticələri

42.1. Ölmüş elan edilmiş şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə məhkəmə onun ölmüş elan edilməsi barədə qərarı ləğv edir.

42.2. Nə vaxt gəlməsindən asılı olmayaraq, şəxs onun ölmüş elan edilməsindən sonra əvəzsiz olaraq başqa şəxsə verilmiş əmlakın qalan hissəsinin qaytarılmasını tələb edə bilər.

42.3. Ölmüş elan edilmiş şəxsin əmlakını əvəzli əldə etmiş şəxs bu əmlakı ona qaytarmağa o halda borcludur ki, əmlakı əldə edərkən onun ölmüş elan edilmiş şəxsin sağ olduğunu bildiyi sübuta yetirilsin.

42.4. Əgər ölmüş elan edilmiş şəxsin əmlakı dövlətin mədaxilinə keçirilmiş və satılmışdırsa, həmin şəxsin ölmüş elan edilməsi haqqında qərarın ləğvindən sonra əmlakın satışından götürülmüş məbləğ ona qaytarılır.

4-cü fəsil.

Hüquqi şəxslər

§1. Əsas müddəalar

Maddə 43. Hüquqi şəxs anlayışı və onun növləri

43.1. Hüquqi şəxs qanunla müəyyənləşdirilən qaydada dövlət qeydiyyatından keçmiş, xüsusi yaradılmış elə bir qurumdur ki, mülkiyyətində ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Hüquqi şəxsin müstəqil balansı olmalıdır.

43.2. Hüquqi şəxslər bir fiziki və ya hüquqi şəxs tərəfindən, yaxud fiziki və hüquqi şəxslərin toplusu tərəfindən yaradıla bilər, üzvlüyə əsaslana bilər, üzvlərin olmasından asılı ola və ya asılı olmaya bilər, sahibkarlıq fəaliyyəti ilə məşğul ola və ya məşğul olmaya bilər.

43.3. Azərbaycan Respublikası mülki hüquq münasibətlərində eynilə digər hüquqi şəxslər kimi iştirak edir. Bu hallarda Azərbaycan Respublikasının səlahiyyətlərini onun hüquqi şəxslər olmayan orqanları həyata keçirirlər.

43.4. Bələdiyyələr mülki hüquq münasibətlərində eynilə digər hüquqi şəxslər kimi iştirak edirlər. Bu hallarda bələdiyyənin səlahiyyətlərini onun hüquqi şəxslər olmayan orqanları həyata keçirirlər.

43.5. Hüquqi şəxslər fəaliyyətinin əsas məqsədi mənfəət götürməkdən ibarət olan (kommersiya hüquqi şəxsləri) və ya əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən (qeyri-kommersiya hüquqi şəxsləri), *habelə ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan (publik hüquqi şəxslər)* qurumlar ola bilər.[40]

43.6. Qeyri-kommersiya qurumları olan hüquqi şəxslər ictimai birliklər, fondlar, hüquqi şəxslərin ittifaqları formasında, habelə qanunvericilikdə nəzərdə tutulan digər formalarda yaradıla bilər. Qeyri-kommersiya hüquqi şəxsləri sahibkarlıq fəaliyyəti ilə yalnız o hallarda məşğul ola bilərlər ki, bu fəaliyyət onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin. Sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün qeyri-kommersiya hüquqi şəxsləri təsərrüfat cəmiyyətləri yarada bilər və ya onlarda iştirak edə bilərlər.

43.7. Publik hüquqi şəxslərin fəaliyyəti bu Məcəllə, "Publik hüquqi şəxslər haqqında" və "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir. [41]

Maddə 44. Hüquqi şəxsin hüquq qabiliyyəti

44.1. Hüquqi şəxs dövlət qeydiyyatına alındığı andan mülki hüquqlara malikdir və mülki vəzifələr daşıyır. Hüquqi şəxsin hüquq qabiliyyətinə onun ləğvinin başa çatdığı an xitam verilir.

44.2. Kommersiya hüquqi şəxsləri qanunla qadağan edilməyən istənilən fəaliyyət növlərini həyata keçirmək üçün zəruri mülki hüquqlara malik ola və mülki vəzifələr daşıya bilərlər. Siyahısı qanunvericiliklə müəyyənləşdirilən ayrı-ayrı fəaliyyət növləri ilə hüquqi şəxslər yalnız xüsusi icazə (lisenziya) əsasında məşğul ola bilərlər.

44.3. Hüquqi şəxsin hüquqları yalnız qanunla nəzərdə tutulan hallarda və qaydada məhdudlaşdırıla bilər. Hüquqi şəxs öz hüquqlarının məhdudlaşdırılması haqqında qərardan məhkəməyə etiraz verə bilər.

44.4. Hüquqi şəxsin xüsusi icazə (lisenziya) alınması zəruri olan fəaliyyəti həyata keçirmək hüququ belə lisenziyanın alındığı andan və ya lisenziyada göstərilən vaxtda əmələ gəlir və bu hüquqa, əgər qanunvericiliklə ayrı qayda müəyyənləşdirilməyibsə, lisenziyanın müddəti qurtardıqda xitam verilir.

Maddə 45. Hüquqi şəxsin yaradılması

45.1. Hüquqi şəxs onun təsis edilməsi və nizamnaməsinin hazırlanması yolu ilə yaradılır.

45.2. Əgər hüquqi şəxs bir neçə təsisçi tərəfindən yaradılırsa, təsisçilər müqavilə bağlayaraq hüquqi şəxsin nizamnaməsini, onun yaradılması üzrə birgə fəaliyyət qaydasını, özlərinin əmlakının ona verilməsi və onun fəaliyyətində iştirak edilməsi şərtlərini müəyyənləşdirirlər.

Maddə 46. Hüquqi şəxsin təsisçilərinin məsuliyyəti

Hüquqi şəxsin təsisçiləri hüquqi şəxsin dövlət qeydiyyatına alınmasına qədər əmələ gəlmiş, hüquqi şəxsin yaradılması ilə bağlı olan öhdəliklər üzrə birgə məsuliyyət daşıyırlar.

Maddə 47. Hüquqi şəxsin nizamnaməsi

47.1. Hüquqi şəxsin təsisçiləri tərəfindən təsdiq edilmiş nizamnaməsi hüquqi şəxsin təsis sənədidir. *"Banklar haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, bir* təsisçinin yaratdığı hüquqi şəxs həmin təsisçinin təsdiq etdiyi nizamnamə əsasında fəaliyyət göstərir.[42]

47.2. Hüquqi şəxsin nizamnaməsində hüquqi şəxsin adı, olduğu yer, fəaliyyətinin idarə edilməsi qaydası, habelə onun ləğvi qaydası müəyyənləşdirilir. Qeyri-kommersiya hüquqi şəxsinin nizamnaməsində onun fəaliyyətinin predmeti və məqsədləri müəyyənləşdirilir. *Hüquqi şəxslərin (publik hüquqi şəxslər və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq olunmuş nizamnaməsi ilə dövlət nəzarəti və yoxlama funksiyaları verilmiş hüquqi şəxslər istisna olmaqla)* nizamnamələrində dövlət *orqanlarının (qurumlarının)* və yerli özünüidarə orqanlarının səlahiyyətlərinin mənimsənilməsinə, habelə dövlət nəzarəti və yoxlama funksiyalarının nəzərdə tutulmasına yol verilmir.[43]

47.3. Nizamnamədə dəyişikliklər dövlət qeydiyyatına alındığı andan üçüncü şəxslər üçün hüquqi qüvvəyə minir. Lakin hüquqi şəxslər və onların təsisçiləri (iştirakçıları) həmin dəyişiklikləri nəzərə almaqla hərəkət etmiş üçüncü şəxslərlə münasibətlərdə həmin dəyişikliklərin qeydə alınmadığına istinad edə bilməzlər.

Maddə 48. Hüquqi şəxslərin dövlət qeydiyyatı

48.1. Hüquqi şəxs müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınmalıdır. Dövlət qeydiyyatının məlumatları, o cümlədən kommersiya təşkilatları üçün firma adı ümumi tanışlıq üçün açıq olan hüquqi şəxslərin dövlət reyestrinə daxil edilir.

48.2. Hüquqi şəxsin dövlət qeydiyyatına alınmasından imtina edilməsinə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan hallarda yol verilir. Dövlət qeydiyyatına almaqdan imtina edilməsindən, habelə qeydiyyatdan yayınmaqdan məhkəməyə şikayət verilə bilər.[44]

48.3. Hüquqi şəxs yalnız qanunla müəyyənləşdirilmiş hallarda yenidən qeydə alınmalıdır.

Maddə 49. Hüquqi şəxsin orqanları KMQ30

49.1. Hüquqi şəxslər qanunvericiliyə və nizamnaməyə uyğun fəaliyyət göstərən öz orqanları vasitəsilə mülki hüquqlar əldə edir və öhdələrinə mülki vəzifələr götürürlər. Hüquqi şəxsin orqanlarının seçilməsi və ya təyin edilməsi qaydası, *müvafiq olaraq, nizamnamə, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında" və "Əmanətlərin sığortalanması haqqında" Azərbaycan Respublikasının qanunları ilə* müəyyənləşdirilir.[45]

49.2. Hüquqi şəxs öz iştirakçıları, habelə təmsilçiləri vasitəsilə mülki hüquqlar əldə edə bilər və öhdəsinə mülki vəzifələr götürə bilər.

49.3. Hüquqi şəxs adından çıxış edən şəxs, o cümlədən hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxs təmsil etdiyi hüquqi şəxsin mənafeləri üçün vəzifələrini yerinə yetirərkən vicdanla, peşəkar qaydada və məntiqlə hərəkət etmək, hüquqi şəxsin və onun bütün iştirakçılarının maraqlarına sadiq olmaq və hüquqi şəxsin maraqlarını öz maraqlarından üstün tutmaq, *ehtiyatlı olmaq, habelə qərarların qəbulu zamanı ədalətli və qərəzsiz* olmağa borcludur. Həmin şəxs, bu vəzifələrin hüquqi şəxsin maraqlarına uyğun olaraq yerinə yetirilməsi üçün məsuliyyət daşıyır. Hüquqi şəxsin *nizamnamə kapitalında ən azı 5 faiz paya (səhmə) malik olan iştirakçısının (iştirakçılarının)* tələbi ilə o, vəzifələrini pozduğu halda, pozuntu nəticəsində hüquqi şəxsə dəymiş zərərin əvəzini ödəməlidir.[46]

49.4. Hüquqi ~~şəxsin mənafeləri üçün bu Məcəllə ilə müəyyən edilən vəzifələrini yerinə yetirməyən və ya lazımınca yerinə yetirməyən hüquqi~~ şəxs adından çıxış edən şəxs, o cümlədən hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxs hüquqi şəxsə və ya səhmdara (payçıya) dəyən zərərə görə aşağıdakı hallarda məsuliyyət daşıyır:[47]

49.4.1. hüquqi şəxsin zərərlə işlədiyi halda və ya hüquqi şəxsin mənfəətinə qeyri-mütənasib həcmdə hüquqi şəxsin idarəetmə orqanlarının üzvlərinə bonusların ödənilməsi;

49.4.2. hüquqi şəxsin əmlakının bazar şərtlərindən əhəmiyyətli dərəcədə aşağı şərtlərlə və qiymətlə özgəninkiləşdirilməsi və ya istifadəyə verilməsi;

49.4.3. hüquqi şəxsə aidiyyəti olan şəxslərlə qanunun tələblərini pozan və ya hüquqi şəxsin maraqlarına təhlükə yaradan müqavilələrin bağlanması;

49.4.4. hüquqi şəxsin bağlanmış müqavilələr əsasında malları (işləri, xidmətləri) onların real dəyərindən əhəmiyyətli dərəcədə yuxarı qiymətə satın alması;

49.4.5. özü üçün, hüquqi şəxsə aidiyyəti olan şəxslər və ya digər şəxslər üçün maddi və qeyri-maddi əmlak nemətləri və bu cür əmlaka hüquqların təmin edilməsi məqsədi ilə hüquqi şəxsin əmlakının mənimsənilməsi və ya israf edilməsi;

49.4.6. səhmdarlara (payçılara) münasibətdə ədalətsiz və ya onlara ziyan vuran əqdlərin bağlanması.[48]

49.5. Hüquqi şəxsin adından çıxış edən, hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxs hüquqi şəxsə vurulmuş zərərə görə hüquqi şəxsin ümumi yığıncağının qərarı ilə tutduğu vəzifədən kənarlaşdırıla bilər. Hüquqi şəxsə vurulmuş zərərə görə hüquqi şəxsin adından çıxış edən şəxsin, hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxsin inzibati

və ya cinayət məsuliyyətinə cəlb edilməsi onu hüquqi şəxsə dəymiş zərərin ödənilməsi vəzifəsindən azad etmir.

49.6. Bu Məcəllənin 49.4-cü maddəsində nəzərdə tutulan hallar baş verdikdə və ya bu halların baş verməsinə dair əsaslı şübhələr olduqda, hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz paya (səhmə) malik olan iştirakçısı (iştirakçıları) hüquqi şəxs adından çıxış edən şəxsdən, o cümlədən hüquqi şəxsin idarəetmə orqanlarında (müşahidə (direktorlar) şurası, icra orqanı) təmsil olunan hər hansı şəxsdən hüquqi şəxsdə olan və həmin hallarla bağlı bütün sənədlərə (konkret sənəd göstərilmədən) və ya məlumatlara baxış keçirmək məqsədi ilə həmin sənədləri (məlumatları) tələb edə bilər. Bu halda müraciət olunan şəxs tərəfindən həmin iştirakçının tələbi 5 (beş) iş günü ərzində təmin edilməlidir. İştirakçı həmin sənədin (məlumatın) surətini əldə etmək istədikdə, müraciət olunan şəxs tərəfindən həmin sənədin (məlumatın) təsdiqlənmiş surətləri təqdim olunur. İştirakçı baxış zamanı ona məlum olan və əldə etdiyi məlumatların konfidensiallığını qorumalı və qanunda nəzərdə tutulan hallar istisna olmaqla, üçüncü şəxslərə həmin məlumatları ötürməməlidir.[49]

Maddə 49-1. Hüquqi şəxs tərəfindən aidiyyəti şəxslərlə əqdlərin bağlanması qaydası[50]

49-1.1. Hüquqi şəxsə aidiyyəti olan şəxslə həmin hüquqi şəxs arasında bağlanılan hər hansı əqd, razılaşma və yaxud əlaqəli əqdlər məcmusu aidiyyəti şəxslə əqd hesab edilir. Hüquqi şəxsə aidiyyəti olan şəxslər aşağıdakılardır:

49-1.1.1. hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və üzvləri;

49-1.1.2. hüquqi şəxsin struktur bölməsinin (filial, nümayəndəlik, idarə və s.) rəhbəri;

49-1.1.3. bu Məcəllənin 49-1.1.1-ci və 49-1.1.2-ci maddələrində göstərilən şəxslərin qohumları (əri (arvadı), valideynləri, o cümlədən ərinin, arvadının valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları);

49-1.1.4. hüquqi şəxsin nizamnamə kapitalında ən azı 10 faiz və daha çox paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxs;

49-1.1.5. bu Məcəllənin 49-1.1.1-ci, 49-1.1.2-ci və 49-1.1.4-cü maddələrində göstərilən şəxslərin birbaşa və ya dolayısı ilə iştirak etdiyi hüquqi şəxslər;

49-1.1.6. hüquqi şəxsin, nizamnamə kapitalında ən azı 20 faiz payla iştirak etdiyi hüquqi şəxs;

49-1.1.7. bu Məcəllənin 49-1.1.4-cü və 49-1.1.6-cı maddələrində göstərilən hüquqi şəxslərdə ən azı 20 faiz paya (səhmlərə) malik olan hər hansı şəxs;

49-1.1.8. bu Məcəllənin 49-1.1.4-cü və 49-1.1.6-cı maddələrində göstərilən hüquqi şəxslərin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanlarının rəhbərləri;

49-1.1.9. "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş, müvafiq olaraq, banklara, bank olmayan kredit təşkilatlarına və investisiya fondlarına aidiyyəti olan digər şəxslər.[51]

49-1.2. Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faiz və daha çox hissəsini təşkil etdikdə, həmin əqd hüquqi şəxs tərəfindən cəlb edilmiş müstəqil auditorun rəyi və hüquqi şəxsin iştirakçılarının ümumi yığıncağının sadə səs

çoxluğu ilə qəbul edilmiş qərarı ilə bağlanılır. Həmin əqdə münasibətdə aidiyyəti şəxs olan iştirakçı məsələ ilə əlaqədar olan səsvermədə iştirak edə bilməz.

49-1.3. Aidiyyəti şəxslə bağlanması nəzərdə tutulan əqdin dəyəri hüquqi şəxsin aktivlərinin 5 faizədək hissəsini təşkil etdikdə, həmin əqd hüquqi şəxsin nizamnaməsinə uyğun olaraq, onun iştirakçılarının ümumi yığıncağı, direktorlar şurası (müşahidə şurası) və ya banklara münasibətdə "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununun tələbləri nəzərə alınmaqla, icra orqanı tərəfindən qəbul olunur. Bu halda iştirakçıların ümumi yığıncağında, direktorlar şurasının (müşahidə şurasının) və kollegial icra orqanının iclaslarında aidiyyəti şəxs olan iştirakçı (üzv) səsvermədə iştirak edə bilməz. Hüquqi şəxsin təkbaşına icra orqanının rəhbəri, habelə onun bu Məcəllənin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxsləri aidiyyəti şəxs qismində çıxış etdikdə onlarla hüquqi şəxs arasında əqd direktorlar şurasının (müşahidə şurasının), o olmadıqda isə hüquqi şəxsin ümumi yığıncağının qərarı ilə bağlanılır. [52]

49-1.4. Əqdin bu Məcəllənin 49-1.2-ci və 49-1.3-cü maddələrinin tələbləri pozulmaqla bağlanılması nəticəsində hüquqi şəxsə dəyən zərərə görə təqsiri olan şəxslər məsuliyyət daşıyır. Əqdin digər tərəfi əqdin bu Məcəllənin 49-1.2-ci və 49-1.3-cü maddələrinin tələbləri pozulmaqla bağlandığını bildikdə hüquqi şəxs və ya onun istənilən iştirakçısı bu Məcəllənin 337.1-ci və 339-cu maddələrinə müvafiq olaraq həmin əqdi mübahisələndirə bilər.[53]

49-1.5. Hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) rəhbəri və ya üzvləri özlərinin, bu Məcəllənin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı hüquqi şəxsin iştirakçılarına yazılı şəkildə təqdim etməlidirlər.

49-1.6. Hüquqi şəxsin icra orqanının rəhbəri və ya digər üzvləri özlərinin, bu Məcəllənin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı hüquqi şəxsin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda hüquqi şəxsin iştirakçılarına yazılı şəkildə təqdim etməlidirlər. [54]

49-1.7. Hüquqi şəxsin direktorlar şurasının (müşahidə şurasının) və icra orqanının rəhbəri və ya üzvləri istisna olmaqla digər şəxslər özlərinin, bu Məcəllənin 49-1.1.3-cü və 49-1.1.5-ci maddələrində göstərilən şəxslərin bağlanılan əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etmələri, həmçinin həmin əqdlə əlaqədar öz maraqlarının xüsusiyyətləri (onun yaranması, həcmi və s.) barədə məlumatı hüquqi şəxsin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda hüquqi şəxsin icra orqanına yazılı şəkildə təqdim etməlidirlər.

Maddə 50. Hüquqi şəxsin adı

50.1. Hüquqi şəxsin öz təşkilati-hüquqi formasını göstərən adı olur. Qeyri-kommersiya təşkilatının adında hüquqi şəxsin fəaliyyətinin xarakteri göstərilməlidir.

50.1-1. Qeyri-hökumət təşkilatlarının adında Azərbaycan Respublikasının dövlət orqanlarının adlarından, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin adlarından (onların yaxın qohumlarının və ya vərəsələrinin icazəsi olmadan) istifadə edilə bilməz.[55]

50.2. Kommersiya təşkilatı olan hüquqi şəxsin firma adı olmalıdır. Firma adı qanunla müəyyənləşdirilmiş qaydada qeydə alınmış hüquqi şəxsin həmin addan istifadəyə müstəsna hüququ vardır. Firma adlarının qeydiyyatı və işlədilməsi qaydası qanunvericiliklə müəyyənləşdirilir.

50.3. Başqa hüquqi şəxsin firma adı ilə hüquqlar və vəzifələr əldə etməyə yol verilmir. Özgəsinin qeydə alınmış firma adından haqsız istifadə edən şəxs firma adına hüququ olanın tələbi ilə ondan istifadəyə son qoymalı və vurduğu zərərin əvəzini ödəməlidir.

Maddə 51. Hüquqi şəxsin olduğu yer

Hüquqi şəxsin daimi fəaliyyət göstərən orqanının, siyasi *partiyanın* qərargahının yerləşdiyi yer hüquqi şəxsin olduğu yer sayılır.[56]

Maddə 52. Hüquqi şəxsin məsuliyyəti

52.1. Hüquqi şəxs öz öhdəlikləri üçün ona mənsub bütün əmlakla cavabdehdir.

52.2. Bu Məcəllədə və ya hüquqi şəxsin nizamnaməsində nəzərdə tutulan hallar istisna olmaqla, hüquqi şəxsin təsisçisi (iştirakçısı) hüquqi şəxsin öhdəlikləri üçün, hüquqi şəxs isə təsisçinin (iştirakçının) öhdəlikləri üçün cavabdeh deyildir.

Maddə 53. Nümayəndəliklər və filiallar

53.1. Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və hüquqi şəxsin mənafelərini təmsil və müdafiə edən ayrıca bölməsi nümayəndəlik sayılır.

53.2. Hüquqi şəxsin olduğu yerdən kənarda yerləşən və onun funksiyalarının hamısını və ya bir hissəsini, o cümlədən nümayəndəlik funksiyalarını həyata keçirən ayrıca bölməsi filial sayılır.

53.3. Nümayəndəliklər və filiallar hüquqi şəxs deyildirlər və hüquqi şəxsin təsdiq etdiyi əsasnamələr üzrə fəaliyyət göstərirlər. Nümayəndəliklərin və filialların rəhbərləri hüquqi şəxs tərəfindən təyin edilir və onun etibarnaməsi əsasında fəaliyyət göstərirlər. Təsisçilərinin əcnəbilər və ya xarici hüquqi səxslər olduğu qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin rəhbərlərinin müavinləri Azərbaycan Respublikasının vətəndaşları olmalıdır.[57]

Maddə 54. İdarə

54.1. Hüquqi şəxsin idarəetmə, sosial-mədəni və ya digər qeyri-kommersiya xarakterli funksiyaların həyata keçirilməsi üçün yaratdığı təşkilat idarə sayılır.

54.2. İdarə hüquqi şəxs deyildir və hüquqi şəxsin təsdiq etdiyi əsasnamə üzrə fəaliyyət göstərir.

54.3. İdarə ona təhkim edilmiş əmlak barəsində qanunla müəyyənləşdirilmiş hədlərdə, öz fəaliyyətinin məqsədlərinə, hüquqi şəxsin tapşırıqlarına və əmlakın təyinatına uyğun sahiblik, istifadə və sərəncam hüquqlarını həyata keçirir.

54.4. İdarənin öhdəlikləri üçün məsuliyyət idarəni yaratmış hüquqi şəxsin üzərinə düşür.

54.5. Dövlət idarələrinin və digər idarələrin ayrı-ayrı növlərinin hüquqi vəziyyətinin xüsusiyyətləri qanunvericiliklə müəyyənləşdirilir.

Maddə 55. Hüquqi şəxsin yenidən təşkili

55.1. Hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə həyata keçirilə bilər.

55.2. Qanunla müəyyənləşdirilmiş hallarda hüquqi şəxsin bölünməsi və ya tərkibindən bir və ya bir neçə hüquqi şəxsin ayrılması şəklində yenidən təşkili məhkəmənin qərarı ilə həyata keçirilir.

55.3. Məhkəmə hüquqi şəxsin kənar idarəçisini təyin edir və ona hüquqi şəxsi yenidən təşkil etməyi tapşırır. Kənar idarəçinin təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir. Kənar idarəçi məhkəmədə hüquqi şəxsin adından çıxış edir, bölünmə balansını tərtib edib baxılmaq üçün onu yenidən təşkil nəticəsində yaranan hüquqi şəxslərin nizamnamələri ilə birlikdə məhkəməyə verir. Məhkəmənin qanuni qüvvəyə minmiş qərarı, qanunvericiliyin tələblərinə riayət edilməklə yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alınması üçün əsasdır.[58]

55.4. Qoşulma şəklində yenidən təşkil halı istisna olmaqla, hüquqi şəxs yeni yaranan hüquqi şəxslərin dövlət qeydiyyatına alındığı andan yenidən təşkil edilmiş sayılır.

55.5. Hüquqi şəxs başqa hüquqi şəxsin ona qoşulması şəklində yenidən təşkil edilərkən qoşulan hüquqi şəxsin fəaliyyətinə xitam verilməsi haqqında qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan birinci hüquqi şəxs yenidən təşkil edilmiş sayılır.

55.6. Bankların yenidən təşkili "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.[59]

55.7. Barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədi ilə hüquqi şəxsin yenidən təşkil olunması Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada qadağan oluna bilər. Hüquqi şəxsin yenidən təşkil edilməsinin qadağan olunması barədə məhkəmənin qərarı dərhal müvafiq icra hakimiyyəti orqanına göndərilir.[60]

Maddə 56. Hüquqi şəxslər yenidən təşkil edilərkən hüquq varisliyi

56.1. Hüquqi şəxslər birləşdikdə onlardan hər birinin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yeni yaranmış hüquqi şəxsə keçir.

56.2. Hüquqi şəxs digər hüquqi şəxsə qoşulduqda qoşulan hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq əvvəlki hüquqi şəxsə keçir.

56.3. Hüquqi şəxs bölündükdə onun hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq yeni yaranmış hüquqi şəxslərə keçir.

56.4. Hüquqi şəxsin tərkibindən bir və ya bir neçə hüquqi şəxs ayrıldıqda yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri bölünmə balansına uyğun olaraq onların hər birinə keçir.

56.5. Bir növdən olan hüquqi şəxs digər növdən olan hüquqi şəxsə çevrildikdə (təşkilati-hüquqi formanın dəyişməsi) yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq və vəzifələri təhvil aktına uyğun olaraq yeni yaranmış hüquqi şəxsə keçir.

Maddə 57. Təhvil aktı və bölünmə balansı

57.1. Təhvil aktında və bölünmə balansında yenidən təşkil edilmiş hüquqi şəxsin bütün kreditorları və borcluları barəsində öhdəliklərinin hamısı, o cümlədən tərəflərin mübahisə etdikləri öhdəliklər üzrə hüquqi varislik haqqında müddəalar olmalıdır.

57.2. Təhvil aktı və bölünmə balansı hüquqi şəxsin yenidən təşkili haqqında qərar qəbul etmiş onun təsisçiləri (iştirakçıları) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı tərəfindən təsdiq edilir və nizamnamələrlə birlikdə yeni yaranmış hüquqi şəxslərin dövlət qeydiyyatına alınması və ya mövcud hüquqi şəxslərin nizamnamələrində dəyişikliklər edilməsi üçün təqdim olunur.

57.3. Nizamnamələrlə birlikdə təhvil aktının və bölünmə balansının təqdim edilməməsi, habelə onlarda yenidən təşkil edilmiş hüquqi şəxsin öhdəlikləri üzrə hüquq varisliyi haqqında müddəaların olmaması yeni yaranmış hüquqi şəxsləri dövlət qeydiyyatına almaqdan imtina edilməsinə səbəb olur.

Maddə 58. Hüquqi şəxs yenidən təşkil edilərkən onun kreditorlarının hüquqları üçün təminatlar

58.1. Hüquqi şəxsin yenidən təşkili haqqında qərar qəbul etmiş hüquqi şəxsin təsisçiləri (iştirakçıları) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı, bu Məcəllənin 55.3-cü maddəsində nəzərdə tutulan hallarda isə kənar idarəçi hüquqi şəxsin yenidən təşkili barəsində onun kreditorlarına yazılı bildiriş göndərməyə borcludurlar.

58.2. Yenidən təşkil edilən hüquqi şəxsin kreditorunun ixtiyarı var ki, yenidən təşkil edilən hüquqi şəxsin borclu olduğu öhdəliklərə xitam verilməsini və ya onların vaxtından əvvəl icra olunmasını və zərərin əvəzinin ödənilməsini tələb etsin.

58.3. Əgər bölünmə balansı yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisini müəyyənləşdirməyə imkan vermirsə, yeni yaranmış hüquqi şəxslər yenidən təşkil edilmiş hüquqi şəxsin öhdəlikləri üçün onun kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar.

Maddə 59. Hüquqi şəxsin ləğvi

59.1. Hüquqi şəxsin ləğvi onun mövcudluğuna və fəaliyyətinə hüquq və vəzifələri hüquq varisliyi qaydasında başqa şəxslərə keçmədən xitam verilməsi deməkdir.

59.2. Hüquqi şəxs aşağıdakı hallarda ləğv edilə bilər:

59.2.1. onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə, o cümlədən hüquqi şəxsin mövcudluğu üçün nəzərdə tutulan müddətin qurtarması və ya yaradılması zamanı qarşıya qoyulan məqsədin əldə edilməsi ilə əlaqədar olaraq;

59.2.2. hüquqi şəxsin yaradılması zamanı yol verilmiş qanunvericilik pozuntuları ilə əlaqədar onun qeydiyyatının məhkəmə tərəfindən etibarsız sayıldığı halda;

59.2.3. lazımi xüsusi icazə (lisenziya) olmadan fəaliyyət və ya qanunla qadağan edilmiş fəaliyyət həyata keçirildikdə və ya qanunvericilik digər şəkildə dəfələrlə və ya kobudcasına pozulduqda və ya ictimai birlik və ya fond onun nizamnamə məqsədlərinə zidd fəaliyyətlə müntəzəm məşğul olduqda, habelə bu Məcəllədə, *"Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarında* nəzərdə tutulan başqa hallarda məhkəmənin qərarı ilə;[61]

59.2.4. məhkəmənin yekun qərarı ilə hüquqi şəxsi ləğvetmə növündə cinayət-hüquqi tədbir tətbiq edildikdə.[62]

59.2-1. Bu Məcəllənin 59.2.1-ci maddəsində göstərilən əsaslar üzrə hüquqi şəxsin ləğv edilməsi təşəbbüsü ilə çıxış edən iştirakçı və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanı hüquqi şəxsin cari fəaliyyətinə rəhbərlik edən icra orqanından hüquqi şəxsin bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanatın (aktiv və passivlərinin vəziyyəti barədə) qəbul edilməsini tələb edir. Hüquqi şəxsin icra orqanı ləğvetmə qərarından ən çoxu 20 gün əvvəl bu bəyanatı qəbul edir və ya belə bəyanatın qəbul edilməsinin mümkünsüz olduğunu bildirir. İcra orqanı bəyanatın qəbul edilməsinin mümkünsüzlüyünü bildirdikdə, iştirakçıların ümumi yığıncağı hüquqi şəxsin bütün kreditorlarının tələblərini 12 ay ərzində qarşılamaq üçün ödəmə qabiliyyətinin olub-olmamasını təsdiq etmək üçün müstəqil auditor cəlb edə bilər. Müstəqil auditor hüquqi şəxsin ödəmə qabiliyyətinin olmasını öz rəyi ilə təsdiq etdikdə, həmin rəy bu maddə ilə müəyyən edilmiş bəyanata bərabər tutulur.[63]

59.3. Bu Məcəllənin *59.2.2 və 59.2.3-cü maddələrində* göstərilən əsaslar üzrə hüquqi şəxsin ləğv edilməsi tələbini məhkəməyə qanunla bu cür tələb irəli sürmək hüququ verilmiş dövlət orqanı *(qurumu)* ~~və ya yerli özünüidarə orqanı~~ irəli sürə bilər. Hüquqi şəxsin ləğv edilməsi haqqında məhkəmənin qərarı ilə onun təsisçilərinə (iştirakçılarına) və ya hüquqi şəxsin nizamnaməsi ilə onun ləğvi üçün vəkil edilmiş orqana hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifələri həvalə edilə bilər. *Bu Məcəllənin 59.2.4-cü maddəsində göstərilən əsas üzrə hüquqi şəxsin ləğv edilməsi haqqında məhkəmənin yekun qərarı ilə ləğvetmə komissiyasına (təsviyəçiyə) hüquqi şəxsin ləğvini həyata keçirmək vəzifələri həvalə olunur.*[64]

59.4. Hüquqi şəxs müflis olma nəticəsində də ləğv edilir.

59.5. Əgər ləğv edilən hüquqi şəxsin əmlakının dəyəri kreditorların tələblərinin ödənilməsi üçün yetərli deyildirsə, o yalnız müflis olma nəticəsində ləğv edilə bilər.

59.6. Ləğvetmə prosesinin ümumi müddəti hüquqi şəxsin ləğv edilməsi barədə məlumatın hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan etibarən bir ildən çox olmamalıdır. Həmin müddətin keçməsi ləğvetmə prosesinin yenidən başlamasına səbəb olur.[65]

59.7. Xarici hüquqi şəxslərin filial və ya nümayəndəliklərinin ləğv edilməsi zamanı hüquqi şəxslərin ləğvi üçün bu Məcəllə və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydalar tətbiq edilir.[66]

59.7-1. Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəliklərinin ləğv olunması məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqandan (qurumdan) məlumat daxil olduqdan sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 5 (beş) iş günü ərzində bu Məcəllənin 59 – 61-ci maddələrində hüquqi şəxsin ləğv edilməsi ilə bağlı qaydalar tətbiq edilmədən Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəliklərinin ləğv olunaraq hüquqi şəxslərin dövlət reyestrindən çıxarılması təmin edilir.[67]

59.8. Yerli bankların, onların filial, şöbə və nümayəndəliklərinin, habelə xarici bankların yerli filial və nümayəndəliklərinin ləğvi "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.[68]

59.9. Barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin təmin edilməsi məqsədi ilə hüquqi şəxsin onun təsisçilərinin (iştirakçılarının) və ya hüquqi şəxsin nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə ləğv edilməsi Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində nəzərdə tutulmuş qaydada qadağan oluna bilər. Hüquqi şəxsin ləğv edilməsinin qadağan olunması barədə məhkəmənin qərarı dərhal müvafiq icra hakimiyyəti orqanına göndərilir.[69]

Maddə 60. Hüquqi şəxsin ləğvi haqqında qərar[70]

60.1. Hüquqi şəxsin ləğvi haqqında qərarla ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) təyin edilir, bu Məcəlləyə uyğun olaraq ləğvetmə qaydası və müddətləri müəyyənləşdirilir və ləğvetmə prosesi başlayır.

60.2. Ləğvetmə prosesi ərzində hüquqi şəxsin hüquq qabiliyyəti tam həcmdə saxlanılır.

60.3. Hüquqi şəxsin ləğv edilməsi haqqında qərar qəbul etmiş hüquqi şəxsin iştirakçıları və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı ləğv barədə qərar qəbul edildiyi tarixdən etibarən yalnız ləğvetmə prosesi çərçivəsində fəaliyyət göstərir. Ləğv edilən hüquqi şəxsin adından məhkəmədə ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) çıxış edir.

60.4. Ləğvetmə komissiyasının (təsviyəçinin, ləğvedicinin) təyin edildiyi andan hüquqi şəxsin işlərini idarə etmək səlahiyyətləri ona keçir. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) borcların ödənilməsi və qalıq gəlirin saxlanıla bilməsi üçün hüquqi şəxsin əmlakını iqtisadi cəhətdən səmərəli, qiymət baxımından sərfəli və tez bir zamanda satılması, borcların ödənilməsindən sonra qalan əmlakın iştirakçılar arasında bölüşdürülməsi, məqsədilə onun işini davam etdirir. Qeyri-kommersiya təşkilatı ləğv edildikdə onun borclarının ödənilməsindən sonra qalan əmlakın hüquqi müqəddəratı bu Məcəllənin 114.3-cü, 116.3-cü və 117.7-ci maddələrinə uyğun olaraq həll edilir.

60.5. Ləğvetmə komissiyasının üzvləri (təsviyəçi, ləğvedici) öz fəaliyyətləri zamanı bu Məcəllənin 49.3-cü maddəsinin tələblərinə riayət etməlidirlər.

60.6. Ləğvetmə komissiyasının üzvləri (təsviyəçi, ləğvedici) təyin olunduqları qaydada geri çağırıla və ya başqa şəxslərlə əvəz edilə bilərlər.

Maddə 61. Hüquqi şəxsin ləğvi qaydası[71]

61.1. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) təyin olunduğu gündən sonra 10 gün müddətində Azərbaycan Respublikasında hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında məlumatın dərc edildiyi mətbu nəşrdə hüquqi şəxsin ləğv edilməsi və kreditorlarının tələblərinin bildirilməsi qaydası və müddəti haqqında ilk məlumatı dərc etdirir. Bu məlumat hər dəfə 15-20 gün fasilə ilə daha iki dəfə eyni qaydada dərc etdirilir. Kreditorların tələblərinin irəli sürülməsi müddəti ləğvetmə haqqında ilk məlumatın dərc edildiyi gündən etibarən 60 gündən az ola bilməz.

61.2. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) təyin olunduğu gündən sonra 15 gün müddətində ləğvetmə barədə qərarı, bu Məcəllənin 59.2-1-ci və 61.1-ci maddələrində göstərilən ödəmə qabiliyyətinin olmasını təsdiq edən rəsmi bəyanatı, ilk məlumatın dərc olunmasını təsdiq edən sənədi və möhürü hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanına təqdim etməlidir. Hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanı təqdim edilmiş məlumatları aldığı gündən 5 gün ərzində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hüquqi şəxslərin dövlət reyestrinə daxil edir. Bundan sonra hüquqi şəxs tərəfindən sənədlərin tərtibi zamanı üzərində "ləğv prosesindədir" yazılmış möhürdən istifadə olunur və bütün sənədlərdə onun adından sonra "ləğv prosesindədir" sözləri əlavə edilir.

61.3. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) kreditorları aşkar etmək və debitor borcunu almaq üçün tədbirlər görür, habelə ləğvetmə ilə bağlı mətbuatda elanın dərc olunduğu gün hüquqi şəxsin ləğvi haqqında bütün məlum kreditorlara bildiriş göndərir, dövlət büdcəsinə məcburi ödənişlər və büdcədənkənar dövlət fonduna məcburi dövlət sosial sığorta haqları və işsizlikdən sığorta haqları, habelə icbari tibbi sığorta fonduna icbari tibbi sığorta haqları üzrə borcların olub-olmamasını müəyyən etmək üçün müvafiq icra hakimiyyəti orqanına müraciət edir.[72]

61.3-1. Ləğvetmə komissiyası özünün və ləğv edilən hüquqi şəxsin fəaliyyəti nəticəsində yaranmış və "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq arxiv sənədinə aid edilmiş sənədlərin hüquqi şəxsin olduğu yer üzrə müvafiq dövlət arxiv xidməti təşkilatına təhvil verilməsini təmin edir.[73]

61.4. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) hər hansı bir kreditorun irəli sürdüyü tələblə razılaşmadığı halda həmin kreditor məhkəmədə iddia qaldırmaq hüququna malikdir. Tələb barədə məhkəmə qərarı qəbul edilənədək onun təmin edilməsi üçün zəruri olan vəsait saxlanılmalıdır.

61.5. Kreditorların tələblərinin irəli sürülməsi müddəti bitdikdən sonra 10 gün müddətində ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) aralıq ləğvetmə balansını tərtib edərək təsdiq edir və hüquqi şəxsin iştirakçılarına göndərir. Aralıq ləğvetmə balansına ən azı ləğv edilən hüquqi şəxsin əmlakının tərkibi, kreditorlarının tələblərinin və debitor borcların siyahısı haqqında məlumatlar daxil edilir. Aralıq ləğvetmə balansı ilə razı olmayan hüquqi şəxsin nizamnamə kapitalında azı 10 faiz iştirak payına malik iştirakçısı həmin balansı aldığı gündən 7 gün ərzində ümumi yığıncağın çağırılmasını tələb edə bilər. Bu halda aralıq ləğvetmə balansı iştirakçıların ümumi yığıncağı tərəfindən təsdiq edilməlidir.

61.6. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) hüquqi şəxsə məxsus olan əmlakın kreditorların tələblərini ödəmək üçün kifayət etmədiyini müəyyən etdikdə, dərhal müflis olma prosesini başlamalıdır.

61.7. Ləğv edilən hüquqi şəxsin kreditorlarına pul vəsaitini ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) ödəmə barədə tələblərin daxil olduğu növbəlilik qaydasında aralıq ləğvetmə balansına uyğun olaraq onun təsdiq edildiyi gündən başlayaraq ödəyir.

61.7-1. Bu Məcəllənin 404-4.3-cü maddəsində nəzərdə tutulan halda gələcək iştirak payı (səhm) haqqında müqavilə üzrə investorun ödəniş tələbləri, hüquqi şəxsin digər təminatsız kreditorlarının tələblərindən sonra, lakin hüquqi şəxsin iştirakçılarına (səhmdarlarına) qalıq əmlakın verilməsindən (bölüşdürülməsindən) əvvəl yerinə yetirilir.[74]

61.8. Bütün məlum olan kreditorlarla hesablaşmalar başa çatdıqdan sonra 5 gün müddətində ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) ləğvetmə balansını və qalıq əmlakın iştirakçılar arasında bölünməsi (qeyri-kommersiya təşkilatı olduğu halda isə bu Məcəllənin 114.3-cü, 116.3-cü və 117.7-ci maddələrinə uyğun olaraq istifadə edilməsi) planını əks etdirən hesabatı tərtib edir. Həmin balans və hesabat tərtib edildiyi gündən sonra 45 gündən gec olmayaraq hüquqi şəxsin iştirakçıları və ya nizamnamə ilə buna vəkil edilmiş orqanı tərəfindən təsdiq edilməlidir.

61.9. Kreditorlar ləğvetmə balansı təsdiq edilənə qədər öz tələblərini irəli sürə bilərlər.

61.10. Ləğvetmə balansı təsdiq edildikdən sonra 10 gün ərzində ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) qalan əmlakın təsdiq edilmiş bölünmə planına uyğun olaraq hüquqi şəxsin iştirakçılarına təqdim edilməsini, qeyri-kommersiya təşkilatı olduğu halda isə təsdiq edilmiş istifadə planına uyğun olaraq bu Məcəllənin 114.3-cü, 116.3-cü və 117.7-ci maddələrinə uyğun olaraq istifadə edilməsini təmin edir. Əmlakın bölünməsi iştirakçının payına mütənasib şəkildə həyata keçirilir. Ləğv edilən hüquqi şəxsin iştirakçısı və ya iştirakçının vərəsəsi olmadıqda qalıq əmlak dövlətə verilir. Dövlətin adından həmin əmlakı müvafiq icra hakimiyyəti orqanı qəbul edir.

61.11. Ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) qalan əmlakın bölünməsindən və ya istifadə edilməsindən sonra 10 gün ərzində təsdiq olunmuş ləğvetmə balansını, qalıq əmlakın bölünməsi (istifadə edilməsi) planını əks etdirən hesabatı, həmin əmlakın iştirakçılara təqdim edilməsini (qeyri-kommersiya təşkilatı olduğu halda isə bu Məcəllənin 114.3-cü, 116.3-cü və 117.7-ci maddələrinə uyğun olaraq istifadə edilməsini) təsdiq edən sənədi və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun 16.2-ci maddəsində nəzərdə tutulmuş digər sənədləri hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirən müvafiq icra hakimiyyəti orqanına göndərir.

61.12. Hüquqi şəxsin ləğvi bu barədə qeydin hüquqi şəxslərin dövlət reyestrinə daxil edildiyi andan başa çatmış, hüquqi şəxs isə mövcudluğuna son qoymuş sayılır.

61.13. Hüquqi şəxsin ləğvi başa çatdıqdan sonra əmlak meydana çıxarsa, məhkəmə bunda maraqlı olan şəxsin ərizəsi əsasında ləğvetmə prosesini yenidən bərpa və yeni ləğvetmə komissiyası (təsviyəçi, ləğvedici) təyin edə bilər. Bu ləğvetmə komissiyasının (təsviyəçinin, ləğvedicinin) yeganə vəzifəsi həmin əmlakı dərhal pula çevirmək və iştirakçılar arasında bölüşdürməkdir (qeyri-kommersiya təşkilatı olduğu halda isə bu Məcəllənin 114.3-cü, 116.3-cü və 117.7-ci maddələrinə uyğun olaraq istifadə etməkdir). Hüquqi şəxsin dövlət reyestrindən çıxarılmasından sonra yeni öhdəliklərin meydana çıxması ləğvetmə prosesinin yenidən açılmasına səbəb olmur.

~~Maddə 62. Kreditorların tələblərinin ödənilməsi~~[75]

~~62.1. Hüquqi şəxs ləğv edilərkən onun kreditorlarının tələbləri aşağıdakı növbə ilə ödənilir:~~

~~62.1.1. birinci növbədə ləğv edilən hüquqi şəxsin əmlakının girov qoyulması ilə təmin edilmiş öhdəliklər üzrə kreditorların tələbləri ödənilir;~~

~~62.1.2. ikinci növbədə müvafiq vədəli ödənişlərin kapitallaşdırılması yolu ilə o, fiziki şəxslərin tələbləri ödənilir ki, ləğv edilən hüquqi şəxs onların qarşısında həyata və ya sağlamlığa zərər vurulması üçün məsuliyyət daşıyır;~~

~~62.1.3. üçüncü növbədə işdənçıxma müavinətlərinin verilməsi və əmək müqaviləsi üzrə işləyən şəxslərin əməyinin ödənilməsi üzrə, müəlliflik müqavilələrinə əsasən haqların ödənilməsi üzrə hesablaşmalar aparılır;~~

~~62.1.4. dördüncü növbədə büdcəyə məcburi ödənişlər və büdcədənkənar dövlət fonduna məcburi dövlət sosial sığorta haqları üzrə borc ödənilir;~~[76]

~~62.1.5. beşinci növbədə qalan kreditorlar ilə hesablaşmalar aparılır.~~

~~*62.1.-2. Sığortaçının kreditorlarının tələblərinin ödənilməsinin növbəliliyi "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.*~~[77]

~~62.2. Hər növbənin tələbləri əvvəlki növbənin tələbləri tam ödənildikdən sonra ödənilir.~~

~~62.3. Ləğvetmə komissiyası kreditorun tələblərini ödəməkdən imtina etdikdə və ya onlara baxmaqdan boyun qaçırdıqda kreditorun ixtiyarı var ki, hüquqi şəxsin ləğvetmə balansı təsdiq edilənədək ləğvetmə komissiyasına qarşı iddia ilə məhkəməyə müraciət etsin.~~

~~62.4. Ləğvetmə komissiyasının tələblər irəli sürülməsi üçün müəyyənləşdirdiyi müddət qurtardıqdan sonra kreditorun bildirdiyi tələblər kreditorların vaxtında bildirdikləri tələblər ödənildikdən sonra ləğv edilən hüquqi şəxsin qalan əmlakından ödənilir.~~

~~62.5. Ləğv edilən hüquqi şəxsin kreditorlarının ləğvetmə komissiyası tərəfindən qəbul edilməmiş tələbləri kreditorun iddia ilə məhkəməyə müraciət etmədiyi hallarda, habelə məhkəmə qərarı ilə kreditora ödənilməsindən imtina edilmiş tələbləri ödənilmiş sayılır.~~

Maddə 63. Hüquqi şəxsin müflis olması

63.1. Əgər hüquqi şəxs kreditorların tələblərini ödəməyə qadir deyildirsə, o, məhkəmənin qərarı ilə müflis sayıla bilər.

63.2. Hüquqi şəxsin məhkəmə tərəfindən müflis sayılması əsasları və qaydası, *müvafiq olaraq, "Müflisləşmə və iflas haqqında" və "Banklar haqqında" Azərbaycan Respublikasının qanunları* ilə müəyyənləşdirilir.[78]

§2. Kommersiya təşkilatları

Maddə 64. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri

64.1. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri təsisçilərinin (iştirakçılarının) paylarına bölünmüş nizamnamə (şərikli) kapitalı olan kommersiya təşkilatlarıdır.

Təsisçilərin (iştirakçıların) maya qoyuluşları hesabına yaranmış əmlak, habelə təsərrüfat ortaqlığının və ya cəmiyyətinin öz fəaliyyəti prosesində istehsal və əldə etdiyi əmlak mülkiyyət hüququ ilə ona mənsubdur. Bu Məcəllədə nəzərdə tutulan hallarda təsərrüfat ortaqlığını bir şəxs yarada bilər.

64.2. Təsərrüfat ortaqlıqları tam ortaqlıq və ya kommandit ortaqlığı formasında yaradıla bilər.

64.3. Təsərrüfat cəmiyyətləri məhdud və ya əlavə məsuliyyətli cəmiyyət və ya səhmdar cəmiyyəti formasında yaradıla bilər.

64.4. Yalnız fərdi sahibkarlar və (və ya) kommersiya təşkilatları tam ortaqlıqların iştirakçıları və kommandit ortaqlıqlarında tam ortaqlar ola bilərlər.

64.5. Təsərrüfat cəmiyyətlərinin iştirakçıları və kommandit ortaqlıqlarının maya qoyanları fiziki və hüquqi şəxslər ola bilərlər.

64.6. Dövlət orqanları və yerli özünüidarə orqanları təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin iştirakçıları kimi çıxış edə bilməzlər.

64.7. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri bu Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla, başqa təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin təsisçiləri (iştirakçıları) ola bilərlər.

64.8. Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin əmlakına qoyulan maya puldan, qiymətli kağızlardan, başqa əmlakdan və ya əmlak hüquqlarından və ya pul dəyəri olan digər hüquqlardan ibarət ola bilər.

64.9. Təsərrüfat cəmiyyəti iştirakçısının mayasının pulla qiymətləndirilməsi cəmiyyətin təsisçiləri (iştirakçıları) arasında razılaşmaya əsasən yerinə yetirilir və müstəqil ekspert yoxlamasından (auditdən) keçirilməlidir.

64.10. Bu Məcəllənin 90.4-cü və 104.1-ci maddələrinin tələblərindən fərqli olaraq təsərrüfat cəmiyyətinin nizamnaməsi ilə direktorlar şurasına (müşahidə şurasına) təsisçilərin (iştirakçıların) ümumi yığıncağını çağırmadan, nizamnamədə əvvəlcədən yuxarı həddi nəzərdə tutulmuş, lakin şərtləri (hüquqları, imtiyazları və məhdudiyyətləri) hələ müəyyən edilməmiş yeni payların ayrılması və ya səhmlərin buraxılması barədə qərar qəbul etmək səlahiyyəti verilə bilər. Bu payların (səhmlərin) emissiya şərtləri direktorlar şurasının (müşahidə şurasının) qərarı ilə müəyyən edilir və bununla bağlı nizamnaməyə edilən dəyişikliklər qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınır.[79]

Maddə 65. Təsərrüfat ortaqlığı və ya cəmiyyəti iştirakçılarının hüquq və vəzifələri

65.1. Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin iştirakçıları:

65.1.1. bu Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla, ortaqlığın və ya cəmiyyətin işlərinin idarə olunmasında iştirak edə bilər;

65.1.2. nizamnamədə müəyyənləşdirilmiş qaydada ortaqlığın və ya cəmiyyətin fəaliyyətinə dair məlumat ala bilər və onun mühasibat kitabları və digər sənədləri ilə tanış ola bilər;

65.1.3. mənfəət bölgüsündə iştirak edə bilər;

65.1.4. ortaqlığın və ya cəmiyyətin ləğv edildiyi halda kreditorlar ilə hesablaşmalardan sonra əmlakdan qalan hissəni və ya onun dəyərini ala bilərlər.

65.2. Təsərrüfat ortaqlığı və ya cəmiyyəti iştirakçılarının bu Məcəllədə, ortaqlığın və ya cəmiyyətin nizamnaməsində nəzərdə tutulan başqa hüquqları da ola bilər.

65.3. Təsərrüfat ortaqlığının və ya cəmiyyətinin iştirakçıları:

65.3.1. nizamnamədə nəzərdə tutulan qaydada, miqdarda, üsullarla və müddətlərdə maya qoymalıdırlar;

65.3.2. ortaqlığın və ya cəmiyyətin fəaliyyətinə dair məxfi məlumatı açıqlamamalıdırlar;

65.3.3. onun nizamnaməsində nəzərdə tutulan digər vəzifələri daşımalıdırlar.

Maddə 65-1. Korporativ müqavilə[80]

65-1.1. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları və ya səhmdar cəmiyyətinin səhmdarları, habelə korporativ müqavilədən irəli gələn öhdəliklərin icrasında iştirakı zəruri olduğu hallarda cəmiyyətin özü, öz aralarında və ya cəmiyyətlə öz korporativ hüquqlarının həyata keçirilməsi qaydasını və cəmiyyətin fəaliyyətinin təmin edilməsi və idarə edilməsi ilə bağlı məsələləri müəyyən edən korporativ müqavilə bağlaya bilərlər. Korporativ müqaviləyə əsasən həmin subyektlər öz hüquqlarını bu müqavilə ilə müəyyən edilmiş qaydada həyata keçirməyi və ya onların həyata keçirilməsindən çəkinməyi (imtina etməyi) öhdələrinə götürürlər.

65-1.2. Korporativ müqavilədə təsisçilərin (iştirakçıların) aşağıdakı məsələlərlə bağlı hüquq və vəzifələri bu Məcəllə ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş tələblərə zidd olmamaq şərtilə tənzimlənə bilər:

65-1.2.1. təsərrüfat cəmiyyətinin təsisçilərinin (iştirakçılarının) ümumi yığıncağında səsvermə qaydaları və şərtləri;

65-1.2.2. təsərrüfat cəmiyyətinin nizamnamə kapitalındakı payların (səhmlərin) özgəninkiləşdirilməsi qaydaları, müəyyən qiymətə və ya müəyyən hallar baş verdikdə həmin payların (səhmlərin) alınması, yaxud da onların əldə edilməsindən və ya özgəninkiləşdirilməsindən imtinanı, o cümlədən payların (səhmlərin) qiymətinin müəyyən edilməsi qaydasını və bu Məcəllənin 93-cü və 101-ci maddələrində nəzərdə tutulan qaydalardan fərqli olaraq bu Məcəllənin 65-2-ci maddəsində nəzərdə tutulan xüsusi hüquqların tətbiqi;

65-1.2.3. təsərrüfat cəmiyyətinin idarə edilməsi üzrə, o cümlədən cəmiyyətin idarəetmə orqanlarının formalaşdırılması və fəaliyyətinin təşkili üzrə şərtlər;

65-1.2.4. korporativ müqavilənin tərəfi olan təsərrüfat cəmiyyətinin təsisçilərinə (iştirakçılarına) məxsus payların (səhmlərin) tam mülkiyyət hüququnun korporativ müqavilədə nəzərdə tutulmuş hədəflərə çatmaqdan asılı olaraq tədricən yaranması qaydaları və şərtləri, o cümlədən həmin müddət bitənədək və ya hədəflərə çatılmadıqda payların (səhmlərin) cəmiyyət və ya digər iştirakçılar tərəfindən geri alınması mexanizmləri;

65-1.2.5. korporativ müqavilənin tərəfi olan və eyni zamanda təsərrüfat cəmiyyəti ilə əmək münasibətlərində olan təsisçinin (iştirakçının) onunla olan əmək münasibətlərinə xitam verilməsinin əsaslarından asılı olaraq paylarını (səhmlərini) digər iştirakçılara və ya cəmiyyətə geri satması və həmin satış üzrə qiyməti və şərtləri müəyyən edən müddəalar;

65-1.2.6. mübahisələrin həlli qaydası, tərəflər arasında fikir ayrılığı yarandıqda tətbiq ediləcək mübahisələrin həlli üsulları, o cümlədən arbitraj və tətbiq ediləcək hüquq barədə şərtlər;

65-1.2.7. cəmiyyətin idarə edilməsində korporativ müqavilə iştirakçıları üçün xüsusi əhəmiyyət kəsb edən məsələlərin (qorunan məsələlərin) siyahısı, habelə bu məsələlər üzrə qərar qəbulu və səsvermə qaydaları;

65-1.2.8. təsərrüfat cəmiyyətinin idarəetmə orqanlarına namizədlərin təyinatının razılaşdırılması və şərtləri, habelə müəyyən iştirakçıların nümayəndələrinin cəmiyyətin idarəetmə orqanlarının iclaslarında səs hüququ olmadan iştirak etmək və iclas materialları ilə tanış olmaq hüququ;

65-1.2.9. təsərrüfat cəmiyyətinə investisiya edilmiş vəsaitlərin istifadə istiqamətləri və xərclənməsinə nəzarət mexanizmləri;

65-1.2.10. payların (səhmlərin) özgəninkiləşdirilməsi zamanı payı (səhmi) əldə edən yeni iştirakçının (səhmdarın) həmin müqaviləyə qoşulması proseduru;

65-1.2.11. korporativ müqavilənin şərtlərinin pozulmasının hüquqi nəticələri;

65-1.2.12. korporativ müqavilə iştirakçılarının razılığı ilə müəyyən edilən və normativ hüquqi aktlara zidd olmayan digər şərtlər.

65-1.3. Korporativ müqavilə yazılı formada bağlanır və möhürlə (iştirakçı (səhmdar) hüquqi şəxs olduqda həmçinin onun möhürü ilə) təsdiqlənir. Korporativ müqavilənin notariat qaydasında təsdiqi tələb olunmur. Müqavilənin müddəaları yalnız onu imzalamış tərəflər üçün məcburi qüvvəyə malikdir və cəmiyyətin nizamnaməsinin müddəalarına zidd olduqda, müqaviləni imzalamış tərəflər arasındakı daxili münasibətlərdə korporativ müqavilənin müddəaları üstün hüquqi qüvvəyə malikdir (bir şərtlə ki, bu, normativ hüquqi aktlara zidd olmasın və üçüncü şəxslərin hüquqlarına xələl gətirməsin), cəmiyyət (tərəflərdən birinin təsərrüfat cəmiyyəti olduğu hallar istisna olmaqla) və üçüncü şəxslərlə münasibətlərdə isə nizamnamənin müddəaları tətbiq edilir.

65-1.4. Korporativ müqavilənin şərtlərinin pozulması müqavilənin digər tərəfləri üçün dəymiş zərərin ödənilməsinə və müqavilədə nəzərdə tutulmuş digər hüquqi nəticələrin yaranmasına səbəb olur.

65-1.5. Korporativ müqavilənin tərəfləri müqavilənin bağlanmasından sonra on beş gündən gec olmayaraq təsərrüfat cəmiyyətini bu barədə yazılı şəkildə məlumatlandırmağa borcludurlar.

65-1.6. Korporativ müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, müqavilə tərəflərindən birinin təsərrüfat cəmiyyətinin nizamnamə kapitalındakı paylarına (səhmlərinə) olan hüququna xitam verilməsi və ya müqavilədən çıxması müqavilənin digər tərəflər üçün qüvvədən düşməsinə səbəb olmur.

65-1.7. Korporativ müqavilə ilə ondan irəli gələn öhdəliklərin icrasının təmin edilməsi üsulları (dəbbə pulu, girov, zaminlik və s.) və belə öhdəliklərin icra edilməməsi və ya lazımınca icra edilməməsinə görə məsuliyyət müəyyən edilə bilər. Tərəflər həmçinin müqavilənin pozulmasına görə dəymiş zərərin ödənilməsini, cərimələrin tətbiqini və ya öhdəliyin naturada icrasını tələb etmək hüququnu nəzərdə tuta bilərlər.

65-1.8. Korporativ müqavilədə fərqli səs, dividend və ləğvetmə hüquqları verən aşağıdakı xüsusi hüquqlar müəyyən edilə bilər:

65-1.8.1. ləğvetmə və ya özgəninkiləşdirmə zamanı üstünlük: təsərrüfat cəmiyyəti ləğv edildikdə və ya nəzarət zərfinin və ya bütün aktivlərin satışı (özgəninkiləşdirilməsi) həyata keçirildikdə, səhmdar cəmiyyətində imtiyazlı səhmlərə, məhdud məsuliyyətli cəmiyyətdə isə nizamnamədə nəzərdə tutulmuş xüsusi hüquqlu paylara (səhmlərə) sahib olan təsisçilərin (iştirakçıların) öz qoyduqları vəsaiti (nizamnamədə və ya korporativ müqavilədə müəyyən edilmiş əmsalla) digər təsisçilərdən (iştirakçılardan) əvvəl geri almaq hüququ (səhmdar cəmiyyətlərində imtiyazlı səhmlərin hüquqi rejimi üzrə bu Məcəllənin 106.2-ci maddəsi ilə müəyyən edilmiş hallar nəzərə alınmaqla);

65-1.8.2. payın (səhmin) dəyərsizləşməsi əleyhinə müddəalar: təsərrüfat cəmiyyəti tərəfindən gələcəkdə pay (səhm) nominal dəyərindən aşağı olmamaqla, əvvəlki buraxılış (yerləşdirmə) qiymətindən daha aşağı yerləşdirmə qiyməti ilə buraxıldıqda, müəyyən kateqoriya paylara (səhmlərə) sahib olan təsisçilərin (iştirakçıların) paylarının (səhmlərinin) dəyər itkisindən qorunması üçün konvertasiya qiymətinin və ya konvertasiya nisbətinin yenidən hesablanması mexanizmi;

65-1.8.3. xüsusi məsələlər: təsərrüfat cəmiyyətinin imtiyazlı səhmlərinə (paylarına) və (və ya) nizamnamə və ya korporativ müqavilə ilə nəzərdə tutulmuş xüsusi hüquqlu paylara (səhmlərə) sahib olan təsisçilərin (iştirakçıların) razılığı olmadan qəbul edilə bilməyəcək qərarların siyahısı və ya veto hüququ;

65-1.8.4. konvertasiya hüququ: imtiyazlı səhmləri (payları) istənilən zaman nizamnamədə müəyyən edilmiş şərtlərlə və nisbətdə adi səhmlərə (paylara) çevirmək;

65-1.8.5. təsərrüfat cəmiyyətinin fəaliyyətinə və digər təsisçilərin (iştirakçıların) hüquq və qanuni mənafelərinə əhəmiyyətli təsir göstərən qərarlar qəbul edildikdə, kiçik həcmdə paya (səhmə) malik olan təsisçilərin (iştirakçıların) hüquqlarının qorunması mexanizmləri, o cümlədən onlara öz paylarını (səhmlərini) ədalətli bazar qiymətinə satmaq və ya zəmanətli kompensasiya almaq hüququnun verilməsi;

65-1.8.6. ümumi yığıncaqda fərqli sayda səs vermək hüququnun müəyyən edilməsi, təsərrüfat cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin seçilməsi və ya təyin edilməsi ilə bağlı xüsusi hüquqlar;

65-1.8.7. təsərrüfat cəmiyyəti tərəfindən yeni paylar (səhmlər) buraxıldıqda, müəyyən kateqoriya təsisçilərin (iştirakçıların) öz mülkiyyət paylarına (səhmlərinə) mütənasib şəkildə həmin payların (səhmlərin) əldə edilməsində üstünlük hüququnun bu Məcəllə ilə müəyyən edilmiş qaydada verilməsi.

65-1.9. Tərəflər, Azərbaycan Respublikasının rezidenti və ya qeyri-rezidenti olmalarından asılı olmayaraq, korporativ müqavilədə aralarında yaranacaq mübahisələrin həlli üzrə xarici dövlətin hüququnun tətbiq edilməsi barədə razılığa gələ bilərlər.

Maddə 65-2. Payın (səhmin) özgəninkiləşdirilməsi ilə bağlı xüsusi hüquqlar[81]

65-2.1. Təsərrüfat cəmiyyətinin nizamnaməsi və ya iştirakçılar arasında bağlanmış korporativ müqavilə ilə payların (səhmlərin) özgəninkiləşdirilməsi ilə bağlı aşağıdakı xüsusi hüquqlar müəyyən edilə bilər:

65-2.1.1. birgə satış hüququ: təsərrüfat cəmiyyətinin nizamnamə kapitalında onun nizamnaməsi və ya korporativ müqavilə ilə müəyyən edilmiş həddən çox paya (səhmə) malik olan və öz paylarını (səhmlərini) üçüncü tərəfə satan təsisçi (iştirakçı) alış təklifi aldıqda, digər

təsisçilərin (iştirakçıların) öz paylarını eyni şərtlərlə və eyni qiymətə həmin alıcıya satmaq hüququna dair şərt. Satıcı təsisçi (iştirakçı) bu barədə digər təsisçiləri (iştirakçıları) məlumatlandırmağa və onların da satışda iştirakını təmin etməyə borcludur;

65-2.1.2. məcburi satış hüququ: təsərrüfat cəmiyyətinin nizamnamə kapitalında nizamnamə və ya korporativ müqavilə ilə müəyyən edilmiş həddən çox paya (səhmə) malik olan təsisçi (iştirakçı) təsərrüfat cəmiyyətinin paylarının (səhmlərinin) hamısının və ya nəzarət zərfinin üçüncü şəxsə satışı (özgəninkiləşdirilməsi) barədə üçüncü şəxslə razılığa gəldikdə, digər təsisçiləri (iştirakçıları) öz paylarını (səhmlərini) eyni şərtlərlə və eyni qiymətə satmağa məcbur etmək hüququna dair şərt;

65-2.1.3. ilk imtina hüququ: açıq səhmdar cəmiyyətləri istisna olmaqla, digər təsərrüfat cəmiyyətlərinin hər hansı təsisçisi (iştirakçısı) öz payını (səhmini) üçüncü şəxsə satmaq niyyətində olduqda, həmin payı (səhmi) eyni şərtlərlə ilk növbədə təsərrüfat cəmiyyətinin nizamnaməsi və ya korporativ müqavilə ilə müəyyən edilmiş müəyyən kateqoriya təsisçisinə (iştirakçısına) təklif etməyə dair şərt.

Maddə 66. Təsərrüfat ortaqlıqlarının və cəmiyyətlərinin çevrilməsi

66.1. Təsərrüfat ortaqlıqları və cəmiyyətləri iştirakçıların ümumi yığıncağının qərarı ilə bu Məcəllədə müəyyənləşdirilmiş qaydada başqa növlü təsərrüfat ortaqlıqlarına və cəmiyyətlərinə çevrilə bilər.

66.2. Ortaqlıq cəmiyyətə çevrilərkən cəmiyyətin iştirakçısı (səhmdarı) olmuş hər bir tam ortaq ortaqlıqdan cəmiyyətə keçmiş öhdəliklər üzrə iki il ərzində özünün bütün əmlakı ilə subsidiar məsuliyyət daşıyır. Keçmiş ortağın ona mənsub payları (səhmləri) özgəninkiləşdirməsi onu bu cür məsuliyyətdən azad etmir.

Maddə 67. Törəmə təsərrüfat cəmiyyəti

67.1. Təsərrüfat cəmiyyəti o halda törəmə cəmiyyət sayılır ki, digər (əsas) təsərrüfat ortaqlığı və ya cəmiyyəti onun nizamnamə kapitalında üstün iştirakına görə və ya onlar arasında bağlanmış müqaviləyə müvafiq surətdə həmin cəmiyyətin qəbul etdiyi qərarları müəyyənləşdirmək imkanına malik olur.

67.2. Törəmə cəmiyyət əsas ortaqlığın və ya cəmiyyətin borcları üçün cavabdeh deyildir.

67.3. Törəmə cəmiyyətə onun üçün məcburi göstərişlər vermək hüququ olan əsas ortaqlıq və ya cəmiyyət həmin göstərişlərin icrası üçün törəmə cəmiyyətin bağladığı əqdlər üzrə onunla birgə məsuliyyət daşıyır. Əsas ortaqlıq və ya cəmiyyət törəmə cəmiyyətə onun üçün məcburi göstərişlər vermək hüququna yalnız o halda malik sayılır ki, bu hüquq törəmə cəmiyyətlə müqavilədə nəzərdə tutulmuş olur.

67.4. Törəmə cəmiyyətin iştirakçıları (səhmdarları) əsas ortaqlıqdan və ya cəmiyyətdən onun təqsiri üzündən törəmə cəmiyyətə dəymiş zərərin əvəzini ödəməyi tələb edə bilərlər. Zərər yalnız əsas ortaqlığın və ya cəmiyyətin törəmə cəmiyyət üçün məcburi göstərişinin törəmə cəmiyyət tərəfindən icrası nəticəsində baş verdikdə əsas ortaqlığın və ya cəmiyyətin təqsiri üzündən vurulmuş sayılır.

67.5. Törəmə cəmiyyət əsas ortaqlığın və ya cəmiyyətin təqsiri üzündən müflis olduqda əsas ortaqlıq və ya cəmiyyət onun borcları üzrə subsidiar məsuliyyət daşıyır. Törəmə cəmiyyət yalnız əsas ortaqlığın və ya cəmiyyətin onun üçün məcburi göstərişini icra etməsi nəticəsində müflis olduqda əsas ortaqlığın və ya cəmiyyətin təqsiri üzündən müflis olmuş sayılır.

67.6. Törəmə cəmiyyətin əsas cəmiyyətin səhmlərini (paylarını) almaq hüququ yoxdur.[82]

Maddə 68. Asılı təsərrüfat cəmiyyəti

68.1. Təsərrüfat cəmiyyəti o halda asılı cəmiyyət sayılır ki, məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxu və ya səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxu digər (üstün, iştirakçı) ortaqlığa və ya cəmiyyətə mənsub olur.

68.2. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iyirmi faizindən çoxunu və ya səhmdar cəmiyyətinin səsvermə hüququ verən səhmlərinin iyirmi faizindən çoxunu əldə edən təsərrüfat ortaqlığı və ya cəmiyyəti bu barədə məlumatı ləngimədən dərc etdirməlidir.

68.3. Asılı cəmiyyətin əsas cəmiyyətin səhmlərini (paylarını) almaq hüququ yoxdur.[83]

Maddə 69. Tam ortaqlıq

69.1. Ortaqlıq o halda tam ortaqlıq sayılır ki, onun iştirakçıları (tam ortaqları) nizamnaməyə müvafiq surətdə ortaqlıq adından sahibkarlıq fəaliyyəti ilə məşğul olur və ortaqlığın öhdəlikləri üzrə onlara mənsub əmlakla məsuliyyət daşıyırlar.

69.2. Şəxs yalnız bir tam ortaqlığın iştirakçısı ola bilər.

69.3. Tam ortaqlığın firma adına onun bütün iştirakçılarının adları və "tam ortaqlıq" sözləri daxil edilməli və ya "və ortaqları" və "tam ortaqlıq" sözləri əlavə edilməklə bir və ya bir neçə iştirakçının adı daxil edilməlidir.

Maddə 70. Tam ortaqlığın nizamnaməsi

Tam ortaqlığın nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilən məlumatlardan əlavə, ortaqlığın şərikli kapitalının miqdarı və tərkibi haqqında; hər bir iştirakçının şərikli kapitaldakı payının miqdarı və dəyişdirilməsi qaydası haqqında; onların mayalarının tərkibi və maya qoyması qaydası haqqında; maya qoyulması üzrə vəzifələrin pozulmasına görə iştirakçıların məsuliyyəti haqqında şərtlər göstərilməlidir.

Maddə 71. Tam ortaqlıqda idarəetmə

71.1. Tam ortaqlığın fəaliyyəti bütün iştirakçıların ümumi razılığı ilə idarə edilir. Tam ortaqlığın nizamnaməsində qərarın iştirakçıların səs çoxluğu ilə qəbul olunduğu hallar nəzərdə tutula bilər.

71.2. Əgər nizamnamədə tam ortaqlıq iştirakçılarının səslərinin sayını müəyyənləşdirməyin başqa qaydası nəzərdə tutulmayıbsa, tam ortaqlığın hər iştirakçısının bir səsi vardır.

71.3. Ortaqlığın hər bir iştirakçısı ortaqlığın işlərini aparmağa vəkil edilib-edilmədiyindən asılı olmayaraq işlərin aparılmasına dair bütün sənədlərlə tanış ola bilər. Bu hüquqdan imtina və ya onun məhdudlaşdırılması, o cümlədən ortaqlıq iştirakçılarının razılaşması üzrə imtina və ya məhdudlaşdırma əhəmiyyətsizdir.

Maddə 72. Tam ortaqlığın işlərinin aparılması

72.1. Əgər tam ortaqlığın nizamnaməsində onun bütün iştirakçılarının işləri birlikdə aparması və ya işlərin aparılmasının ayrı-ayrı iştirakçılara tapşırılması müəyyənləşdirilməyibsə, tam ortaqlığın hər bir iştirakçısı ortaqlıq adından fəaliyyət göstərə bilər.

72.2. Ortaqlığın iştirakçıları onun işlərini birlikdə apararkən hər bir əqdin bağlanması üçün ortaqlığın bütün iştirakçılarının razılığı tələb edilir.

72.3. Əgər ortaqlığın iştirakçıları onun işlərinin aparılmasını iştirakçıların birinə və ya bəzilərinə tapşırarlarsa, qalan iştirakçılar ortaqlıq adından əqdlər bağlamaq üçün ortaqlığın işlərinin aparılmasının tapşırıldığı iştirakçıdan (iştirakçılardan) etibarnamə almalıdırlar.

72.4. Üçüncü şəxslərlə münasibətlərdə ortaqlıq onun iştirakçılarının səlahiyyətlərini məhdudlaşdıran nizamnamə müddəalarına istinad edə bilməz, amma əqdin bağlandığı vaxt ortaqlıq iştirakçısının ortaqlıq adından fəaliyyət göstərmək hüququ olmadığını üçüncü şəxsin bildiyini və ya bilməli olduğunu ortaqlığın sübuta yetirdiyi hallar istisna təşkil edir.

72.5. Ortaqlığın işlərinin aparılması üzrə bir və ya bir neçə iştirakçıya verilmiş səlahiyyətlərə məhkəmə ciddi əsaslar olduqda, o cümlədən vəkil edilmiş şəxs (şəxslər) öz vəzifələrini kobudcasına pozduqda və ya onun işləri ağılla aparmağa qadir olmadığı aşkara çıxdıqda ortaqlığın bir və ya bir neçə digər iştirakçısının tələbi ilə xitam verə bilər. Məhkəmə qərarına əsasən ortaqlığın nizamnaməsində müvafiq dəyişikliklər edilir.

Maddə 73. Tam ortaqlıq iştirakçısının vəzifələri

73.1. Tam ortaqlığın iştirakçısı nizamnamənin şərtlərinə uyğun olaraq ortaqlığın fəaliyyətində iştirak etməyə borcludur.

73.2. Tam ortaqlığın iştirakçısı ortaqlıq qeydə alınanadək onun şərikli kapitalına maya qoymağa borcludur.

73.3. Tam ortaqlıq iştirakçısının ixtiyarı yoxdur ki, qalan iştirakçıların razılığı olmadan öz adından öz mənafeləri və ya üçüncü şəxslərin mənafeləri üçün ortaqlığın fəaliyyət predmetini təşkil edən əqdlərlə eyni xarakterli əqdlər bağlasın.

73.4. Bu qayda pozulduqda ortaqlıq öz mülahizəsi ilə həmin iştirakçıdan ortaqlığa vurulmuş zərərin əvəzini ödəməyi və ya bu cür əqdlər üzrə əldə etdiyi bütün faydanı ortaqlığa verməyi tələb edə bilər.

Maddə 74. Tam ortaqlığın mənfəətinin və zərərinin bölüşdürülməsi

74.1. Tam ortaqlığın mənfəəti və zərəri, əgər nizamnamədə və ya iştirakçıların digər razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, onun iştirakçıları arasında onların şərikli kapitaldakı paylarına mütənasib surətdə bölüşdürülür. Ortaqlıq iştirakçısının mənfəət və zərərdə iştirakdan kənar edilməsi barədə razılaşma əhəmiyyətsizdir.

74.2. Əgər ortaqlığın düşdüyü zərər nəticəsində onun xalis aktivlərinin dəyəri şərikli kapitalının miqdarından az olarsa, ortaqlığın götürdüyü mənfəət, xalis aktivlərin dəyəri artıb şərikli kapitalın miqdarını ötənədək onun iştirakçıları arasında bölüşdürülmür.

Maddə 75. Tam ortaqlıq iştirakçılarının onun öhdəlikləri üzrə məsuliyyəti

75.1. Tam ortaqlığın iştirakçıları ortaqlığın öhdəlikləri üzrə özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyırlar.

75.2. Tam ortaqlığın təsisçisi olmayan iştirakçısı onun ortaqlığa daxil olmasından əvvəl əmələ gəlmiş öhdəliklər üzrə digər iştirakçılarla bərabər məsuliyyət daşıyır.

75.3. Ortaqlıqdan çıxmış iştirakçı ortaqlığın onun çıxdığı anadək əmələ gəlmiş öhdəlikləri üzrə ortaqlığın onun çıxdığı il üçün fəaliyyəti barəsində hesabatın təsdiq edildiyi gündən iki il ərzində qalan iştirakçılarla bərabər məsuliyyət daşıyır.

75.4. Bu maddədə nəzərdə tutulan məsuliyyətin məhdudlaşdırılması və ya aradan qaldırılması haqqında ortaqlıq iştirakçılarının razılaşması əhəmiyyətsizdir.

Maddə 76. Tam ortaqlıq iştirakçılarının tərkibinin dəyişdirilməsi

76.1. Tam ortaqlığın hər hansı iştirakçısı ortaqlıqdan çıxdıqda və ya öldükdə, iştirakçılardan biri xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli və ya müflis sayıldıqda, məhkəmənin qərarına əsasən iştirakçılardan biri barəsində yenidən təşkil prosedurlarına başlandıqda, ortaqlıqda iştirak edən hüquqi şəxs ləğv olunduqda və ya iştirakçılardan birinin kreditoru tərəfindən tutma onun şərikli kapitaldakı payına uyğun əmlak hissəsinə yönəldildikdə ortaqlıq öz fəaliyyətini, əgər bu, ortaqlığın nizamnaməsində və ya qalan iştirakçıların razılaşmasında nəzərdə tutulubsa, davam etdirə bilər.

76.2. Tam ortaqlıq iştirakçılarının ixtiyarı var ki, iştirakçılardan hər hansı birinin məhkəmə qaydasında ortaqlıqdan çıxarılmasını qalan iştirakçıların yekdil qərarı ilə və bunun üçün ciddi əsaslar olduqda, məsələn, həmin iştirakçı öz vəzifələrini kobudcasına pozduqda və ya onun işləri ağılla aparmağa qadir olmadığı aşkara çıxdıqda tələb etsinlər.

Maddə 77. İştirakçının tam ortaqlıqdan çıxması

77.1. Tam ortaqlıq iştirakçısının ixtiyarı var ki, ortaqlıqda iştirakdan imtina etdiyini bildirərək ortaqlıqdan çıxsın.

77.2. İştirakçı tam ortaqlıqda iştirakdan imtina etdiyini ortaqlıqdan faktik çıxmasına ən geci altı ay qalmış bildirməlidir.

77.3. Ortaqlıqdan çıxmaq hüququndan imtina haqqında ortaqlıq iştirakçıları arasında razılaşma əhəmiyyətsizdir.

Maddə 78. İştirakçının tam ortaqlıqdan çıxmasının nəticələri

78.1. Tam ortaqlıqdan çıxmış iştirakçıya, əgər nizamnamədə ayrı qayda nəzərdə tutulmayıbsa, həmin iştirakçının şərikli kapitaldakı payına uyğun ortaqlıq əmlakı hissəsinin dəyəri ödənilir. Çıxan iştirakçı ilə qalan iştirakçılar arasında razılaşmaya əsasən əmlak dəyərinin ödənilməsi əmlakın naturada verilməsi ilə əvəz edilə bilər. Çıxan iştirakçıya ortaqlıq əmlakından çatası hissə və ya onun dəyəri, bu Məcəllənin 80-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, onun çıxdığı məqamda tərtib edilən balans üzrə müəyyənləşdirilir.

78.2. Tam ortaqlığın iştirakçısı öldükdə onun vərəsəsi tam ortaqlığa, əgər ortaqlığın nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, yalnız digər iştirakçıların razılığı ilə daxil ola bilər. Tam ortaqlıqda iştirak etmiş və yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisi olan hüquqi şəxs, əgər ortaqlığın nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, ortaqlığa onun digər iştirakçılarının razılığı ilə daxil ola bilər. Ortaqlığa daxil olmayan vərəsə (hüquq varisi) ilə hesablaşmalar bu Məcəllənin 78.1-ci maddəsinə uyğun aparılır. Tam ortaqlıq iştirakçısının vərəsəsi (hüquq varisi) bu Məcəllənin 75.2 və 75.3-cü maddələrinə uyğun olaraq, çıxan iştirakçının üçüncü şəxslər qarşısında cavab verməli olduğu ortaqlığın öhdəlikləri üzrə ortaqlığın çıxan iştirakçısından ona keçmiş əmlak həddində məsuliyyət daşıyır.

78.3. Əgər iştirakçılardan biri ortaqlıqdan çıxırsa, ortaqlığın şərikli kapitalında qalan iştirakçıların payları, əgər nizamnamədə və ya iştirakçıların başqa razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, müvafiq surətdə artır.

Maddə 79. İştirakçının tam ortaqlığın şərikli kapitalındakı payının verilməsi

79.1. Tam ortaqlığın iştirakçısı onun qalan iştirakçılarının razılığı ilə şərikli kapitaldakı payını və ya onun bir hissəsini ortaqlığın başqa iştirakçısına və ya üçüncü şəxsə verə bilər.

79.2. Pay (pay hissəsi) başqa şəxsə verildikdə payı (pay hissəsini) vermiş iştirakçıya mənsub hüquqların hamısı və ya müvafiq hissəsi ona keçir. Pay (pay hissəsi) verilmiş şəxs bu Məcəllənin 75.2-ci maddəsində müəyyənləşdirilmiş qaydada ortaqlığın öhdəlikləri üzrə məsuliyyət daşıyır.

79.3. Ortaqlıq iştirakçısının özünün bütün payını başqa şəxsə verməsi onun ortaqlıqda iştirakına xitam verir və bu Məcəllənin 75.2 və 75.3-cü maddələrində nəzərdə tutulan nəticələrə səbəb olur.

Maddə 80. İştirakçının tam ortaqlığın şərikli kapitalındakı payına tutmanın yönəldilməsi

80.1. İştirakçının ortaqlıqda iştirakla bağlı olmayan borcları (şəxsi borcları) üzrə tutmanın iştirakçının tam ortaqlığın əmlakındakı payına yönəldilməsinə yalnız onun başqa əmlakının borcları ödəməyə kifayət etmədiyi halda yol verilir. Həmin iştirakçının kreditorları tam ortaqlıqdan tutmanın borclunun şərikli kapitaldakı payına uyğun ortaqlıq əmlakı hissəsinə yönəldilməsi məqsədilə həmin hissəni ayırmağı tələb edə bilərlər. Ortaqlığın əmlakının ayrılmalı hissəsi və ya onun dəyəri kreditorların ayırma tələbini irəli sürdükləri məqamda tərtib edilmiş balans üzrə müəyyənləşdirilir.

80.2. İştirakçının tam ortaqlığın şərikli kapitalındakı payına uyğun əmlaka tutmanın yönəldilməsi onun ortaqlıqda iştirakına xitam verir və bu Məcəllənin 75.3-cü maddəsində nəzərdə tutulan nəticələrə səbəb olur.

Maddə 81. Tam ortaqlığın ləğvi

81.1. Tam ortaqlıq bu Məcəllənin 59-cu maddəsində göstərilən əsaslar üzrə, habelə ortaqlıqda yeganə bir iştirakçının qaldığı halda ləğv edilir. Həmin iştirakçının ixtiyarı var ki, ortaqlıqda yeganə iştirakçı kimi qaldığı andan altı ay ərzində ortaqlığı bu Məcəllədə müəyyənləşdirilmiş qaydada təsərrüfat cəmiyyətinə çevirsin.

81.2. Bu Məcəllənin 76.1-ci maddəsində nəzərdə tutulan hallarda da tam ortaqlıq, əgər ortaqlığın nizamnaməsində və ya qalan iştirakçıların razılaşmasında ortaqlığın öz fəaliyyətini davam etdirəcəyi nəzərdə tutulmayıbsa, ləğv edilir.

Maddə 82. Kommandit ortaqlığı

82.1. Kommandit ortaqlığı elə bir ortaqlıqdır ki, ortaqlığın adından sahibkarlıq fəaliyyətini həyata keçirən və ortaqlığın öhdəlikləri üzrə öz əmlakı ilə məsuliyyət daşıyan iştirakçıları (tam ortaqlar) ilə yanaşı ortaqlığın fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların məbləği həddində risk daşıyan və ortaqlığın sahibkarlıq fəaliyyətində iştirak etməyən bir və ya bir neçə iştirakçısı – maya qoyanı (kommanditçi) vardır.

82.2. Kommandit ortaqlığında iştirak edən tam ortaqların hüquqi vəziyyəti və ortaqlığın öhdəlikləri üzrə onların məsuliyyəti bu Məcəllənin tam ortaqlıq iştirakçıları haqqında qaydaları ilə müəyyənləşdirilir.

82.3. Şəxs yalnız bir kommandit ortaqlığında tam ortaq ola bilər. Tam ortaqlığın iştirakçısı kommandit ortaqlığında tam ortaq ola bilməz. Kommandit ortaqlığındakı tam ortaq tam ortaqlığın iştirakçısı ola bilməz.

82.4. Kommandit ortaqlığının firma adında bütün tam ortaqların adları ilə "kommandit ortaqlığı" sözləri və ya "və ortaqları" və "kommandit ortaqlığı" sözləri əlavə edilməklə azı bir tam ortağın adı göstərilməlidir.

82.5. Əgər kommandit ortaqlığının firma adına maya qoyanın adı daxil edilərsə, həmin maya qoyan tam ortağa çevrilir.

82.6. Bu Məcəllənin tam ortaqlıq haqqında qaydaları kommandit ortaqlığına bu şərtlə tətbiq edilir ki, həmin qaydalar bu Məcəllənin kommandit ortaqlığı haqqında qaydalarına zidd olmasın.

Maddə 83. Kommandit ortaqlığının nizamnaməsi

Kommandit ortaqlığının nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilmiş məlumatlardan savayı, ortaqlığın şərikli kapitalının miqdarı və tərkibi haqqında; tam ortaqlardan hər birinin şərikli kapitaldakı payının miqdarı və dəyişdirilməsi qaydası haqqında; onların qoyduqları mayaların tərkibi və maya qoyması qaydası haqqında, maya qoyulması üzrə vəzifələri pozmağa görə onların məsuliyyəti haqqında; maya qoyanların verdikləri mayaların məcmu miqdarı haqqında şərtlər göstərilməlidir.

Maddə 84. Kommandit ortaqlığında idarəetmə və onun işlərinin aparılması

84.1. Kommandit ortaqlığında idarəetməni tam ortaqlar həyata keçirirlər. Onun tam ortaqlar tərəfindən idarə edilməsi və işlərinin aparılması qaydasını tam ortaqlar bu Məcəllənin tam ortaqlıq haqqında qaydalarına əsasən müəyyənləşdirirlər.

84.2. Maya qoyanların kommandit ortaqlığının idarə edilməsində və işlərinin aparılmasında iştirak etmək, onun adından etibarnaməsiz çıxış etmək ixtiyarı yoxdur. Onlar ortaqlığın idarə edilməsi və işlərinin aparılması üzrə tam ortaqların hərəkətləri barəsində mübahisə edə bilməzlər.

Maddə 85. Kommandit ortaqlığına maya qoyanın hüquq və vəzifələri

85.1. Kommandit ortaqlığına maya qoyan şərikli kapitala maya qoymağa borcludur. Mayanın qoyulması maya qoyana ortaqlıq tərəfindən verilən iştirak şəhadətnaməsi ilə təsdiqlənir.

85.2. Kommandit ortaqlığına maya qoyanın aşağıdakı hüquqları vardır:

85.2.1. ortaqlığın mənfəətinin onun şərikli kapitaldakı payına düşən hissəsini nizamnamədə nəzərdə tutulan qaydada almaq;

85.2.2. ortaqlığın illik hesabatları və balansları ilə tanış olmaq;

85.2.3. maliyyə ili qurtardıqda ortaqlıqdan çıxmaq və nizamnamədə nəzərdə tutulan qaydada öz mayasını almaq;

85.2.4. şərikli kapitaldakı payını və ya onun hissəsini digər maya qoyana və ya üçüncü şəxsə vermək.

85.3. Maya qoyanlar bu Məcəllənin 93.3-cü maddəsində nəzərdə tutulan şərtlərə və qaydaya tətbiqən payı (onun hissəsini) satın almaqda üçüncü şəxslər qarşısında üstünlük hüququna malikdirlər. Maya qoyanın bütün payını başqa şəxsə verməsi onun ortaqlıqda iştirakına xitam verir.

85.4. Kommandit ortaqlığının nizamnaməsində maya qoyanların başqa hüquqları da nəzərdə tutula bilər.

Maddə 86. Kommandit ortaqlığının ləğvi

86.1. Kommandit ortaqlığına maya qoyanların hamısı ortaqlıqdan çıxdıqda o, ləğv edilir. Lakin tam ortaqlar kommandit ortaqlığını ləğv etmək əvəzinə onu tam ortaqlığa çevirə bilərlər. Kommandit ortaqlığı tam ortaqlığın ləğv edilməsi əsasları üzrə də ləğv edilir. Lakin əgər kommandit ortaqlığında azı bir tam ortaq və bir maya qoyan qalırsa, ortaqlıq saxlanılır.

86.2. Kommandit ortaqlığı ləğv edildikdə, o cümlədən müflis olduqda maya qoyanlar ortaqlığın kreditorlarının tələbləri ödənildikdən sonra onun qalan əmlakından mayaları almaqda tam ortaqlar qarşısında üstünlük hüququna malikdirlər. Ortaqlığın bundan sonra qalan əmlakı, əgər nizamnamədə və ya tam ortaqların razılaşmasında ayrı qayda nəzərdə tutulmayıbsa, tam ortaqlar arasında onların ortaqlığın şərikli kapitalındakı paylarına mütənasib surətdə bölüşdürülür.

Maddə 87. Məhdud məsuliyyətli cəmiyyət

87.1. Bir və ya bir neçə şəxs (fiziki və (və ya) hüquqi şəxs) tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət məhdud məsuliyyətli cəmiyyət sayılır. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə məsuliyyət daşımır və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün qoyduqları mayaların dəyəri həddində risk daşıyırlar. Cəmiyyət öz iştirakçılarının üçüncü şəxslər qarşısında öhdəliklərinə görə məsuliyyət daşımır.[84]

87.2. Cəmiyyət bu Məcəlləyə müvafiq olaraq yeni cəmiyyətin yaradılması və ya bu Məcəllədə müəyyən edilmiş qaydalar və məhdudiyyətlər nəzərə alınmaqla fəaliyyət göstərən hüquqi şəxsin yenidən təşkili (birləşmə, qoşulma, bölünmə, ayrılma, çevrilmə) yolu ilə yaradıla bilər.

87.3. Cəmiyyətin yaradılması təsis yığıncağının keçirilməsini və müqavilənin bağlanmasını (bu Məcəllənin 45.2-ci maddəsində nəzərdə tutulmuş halda) və ya cəmiyyətin yaradılması haqqında qərarın qəbul edilməsini (cəmiyyət bir şəxs tərəfindən yaradıldıqda), nizamnamə kapitalının ödənilməsini (cəmiyyətin nizamnaməsində nizamnamə kapitalının müəyyən müddətə ödənilməsi nəzərdə tutulmayıbsa) və nizamnamənin hazırlanmasını əhatə edir.[85]

87.4. Cəmiyyətin yaradılması zamanı təsis yığıncağı cəmiyyətin nizamnamə kapitalı təsisçilər tərəfindən tamamilə formalaşdırıldıqdan sonra (cəmiyyətin nizamnaməsində nizamnamə kapitalının müəyyən müddətə ödənilməsi nəzərdə tutulmayıbsa) keçirilir. Təsis yığıncağı bütün təsisçilər və ya onların nümayəndələri iştirak etdikdə səlahiyyətlidir (yetərsay var). Yetərsay olmadıqda yığıncaq təkrarən keçirilir. Yetərsay təkrarən keçirilən təsis yığıncağında da olmadıqda, cəmiyyətin yaradılması iclasda iştirak edən təsisçilər və ya onların nümayəndələri tərəfindən baş tutmamış hesab edilir və bu qərar bütün təsisçilərin nəzərinə yeddi gün müddətində çatdırılır.

87.5. Cəmiyyətin yaradılması zamanı keçirilən təsis yığıncağı:

87.5.1. cəmiyyətin yaradılması zamanı nizamnamə kapitalına ödənilən pul olmayan əmanətlərin dəyərini təsdiq edir;

87.5.2. cəmiyyətin yaradılması barədə qərarı qəbul edir və onun nizamnaməsini təsdiq edir;

87.5.3. bu Məcəllə və cəmiyyətin nizamnaməsi ilə nəzərdə tutulmuş cəmiyyətin idarəetmə orqanlarını təşkil edir;

87.5.4. cəmiyyətin yaradılması və cəmiyyətin fəaliyyətinin başlanılması ilə əlaqədar bu Məcəlləyə, digər qanunvericilik aktlarına və təsisçilər arasında bağlanılmış müqaviləyə zidd olmayan digər məsələləri həll edir.

87.6. Cəmiyyətin təsis yığıncağında cəmiyyətin təsis edilməsi, nizamnamənin təsdiq edilməsi, cəmiyyətin yaradılması zamanı nizamnamə kapitalına ödənilən pul olmayan əmanətlərin dəyərinin təsdiq edilməsi, idarəetmə orqanlarının formalaşdırılması barədə qərarlar təsisçilər tərəfindən yekdilliklə, digər məsələlər üzrə isə sadə səs çoxluğu ilə qəbul edilir.

87.7. Cəmiyyətin yaradılması ilə bağlı və onun dövlət qeydiyyatına alınmasına qədər yaranmış öhdəliklərinə görə cəmiyyətin təsisçiləri birgə məsuliyyət daşıyırlar

87.8. Məhdud məsuliyyətli cəmiyyətin firma adında cəmiyyətin adı, habelə "məhdud məsuliyyətli cəmiyyət" sözləri göstərilməlidir.

87.9. Məhdud məsuliyyətli cəmiyyətin hüquqi vəziyyəti, habelə onun iştirakçılarının hüquq və vəzifələri bu Məcəllə ilə müəyyənləşdirilir.[86]

87.10. Məhdud məsuliyyətli cəmiyyətin xalis aktivlərinin dəyərinin əlli faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir. Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar cəmiyyətinin iştirakçılarının ümumi yığıncağında qəbul edilir.[87]

Maddə 88. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçıları

88.1. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının sayı qanunvericiliklə müəyyənləşdirilmiş həddi keçməməlidir. Əks halda o, bir il ərzində səhmdar cəmiyyətinə çevrilməli, bu müddət bitdikdən sonra isə, əgər onun iştirakçılarının sayı azaldılıb qanunla müəyyənləşdirilmiş həddə endirilməzsə, məhkəmə qaydasında ləğv edilməlidir.

88.2. Məhdud məsuliyyətli cəmiyyətin yeganə iştirakçısı bir şəxsdən ibarət digər təsərrüfat cəmiyyəti ola bilməz.

88.3. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada aşağıdakı hüquqları vardır:[88]

88.3.1. bu Məcəllə və cəmiyyətin təsis sənədləri ilə müəyyən edilmiş qaydada cəmiyyətin idarə edilməsində iştirak etmək, onun idarəetmə və icra orqanlarını seçmək və həmin orqanlara seçilmək;

88.3.2. normativ hüquqi aktlarda və cəmiyyətin təsis sənədlərində müəyyən edilmiş qaydada cəmiyyətin fəaliyyəti haqqında məlumat almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;

88.3.3. mənfəətin bölüşdürülməsində iştirak etmək;

88.3.4. bu Məcəllə və cəmiyyətin nizamnaməsi ilə nəzərdə tutulmuş qaydada cəmiyyətin nizamnamə kapitalındakı payını və ya onun bir hissəsini bu cəmiyyətin bir və ya bir neçə iştirakçısına satmaq və ya başqa şəkildə güzəştə getmək;

88.3.5. bu Məcəllə və cəmiyyətin təsis sənədləri ilə nəzərdə tutulmuş qaydada digər iştirakçıların razılığından asılı olmayaraq istənilən vaxt cəmiyyətdən çıxmaq;

88.3.6. cəmiyyət ləğv edildiyi halda kreditorlarla hesablaşmalardan, hesablanmış, lakin ödənilməmiş dividendlər ödənildikdən sonra qalan əmlakın bir hissəsini və ya onun dəyərini almaq;

88.3.7. cəmiyyətin təsisçiləri (iştirakçıları) arasında onların hüquqlarının bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilməsi barədə korporativ müqavilə bağlamaq;

88.3.8. cəmiyyətin ümumi yığıncağının çağırılmasını, ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;

88.3.9. cəmiyyətin ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək (bu Məcəllənin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla) və onun protokolunun surətini tələb etmək;

88.3.10. cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;

88.3.11. cəmiyyətin xalis mənfəətindən dividend almaq;

88.3.12. icra orqanının və direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin səhlənkarlığına və cəmiyyətə qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;

88.3.13. cəmiyyətin paylarının satışı prosesində iştirak etmək;

88.3.14. bağlanmış əqd nəticəsində cəmiyyətə və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;

88.3.15. bağlanacaq əqdlərin (o cümlədən aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq;

88.3.16. bu Məcəllədə və cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq.

Maddə 89. Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsi

Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilmiş məlumatlardan savayı, cəmiyyətin nizamnamə kapitalının miqdarı haqqında; iştirakçılardan hər birinin payının miqdarı haqqında; onların qoyduqları mayaların tərkibi və maya qoyması qaydası haqqında, maya qoyulması üzrə öhdəlikləri pozmağa görə iştirakçıların məsuliyyətləri haqqında; cəmiyyəti idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qərarlar qəbul edilən məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında şərtlər göstərilməlidir.

Maddə 90. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı

90.1. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı onun iştirakçılarının mayalarının dəyərindən təşkil olunur. Cəmiyyətin nizamnamə kapitalı onun kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını

müəyyənləşdirir. Cəmiyyətin nizamnamə kapitalının miqdarı onun kreditorlarının mənafelərinə təminat verən məbləğdən az ola bilməz. *Maliyyə bazarlarında nəzarət edilən subyektlərə münasibətdə nizamnamə kapitalının minimum miqdarı, onun formalaşdırılması qaydası sahəvi qanunların tələbləri nəzərə alınmaqla müəyyən edilir.*[89]

90.2. Məhdud məsuliyyətli cəmiyyətin *(məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondu istisna olmaqla)* nizamnaməsində nizamnamə kapitalının müəyyən müddətə ödənilməsi nəzərdə tutulmayıbsa, cəmiyyət dövlət qeydiyyatına alınanadək təsisçilər nizamnamə kapitalını tamamilə ödəməyə borcludurlar. Məhdud məsuliyyətli cəmiyyətin *(məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondu istisna olmaqla)* nizamnaməsində nizamnamə kapitalının ödənilməsi müddətlə şərtləndirildiyi halda, bu müddət üç aydan çox ola bilməz.[90]

90.3. Məhdud məsuliyyətli cəmiyyət iştirakçısının cəmiyyətinin nizamnamə kapitalına maya qoymaq vəzifəsindən azad edilməsinə~~, o cümlədən cəmiyyətə qarşı tələblərin əvəzləşdirilməsi yolu ilə azad edilməsinə~~ yol verilmir.[91]

90.3-1. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının artırılması zamanı cəmiyyət iştirakçılarının yekdil qərarı əsasında həmin cəmiyyətə qarşı pul tələbinə malik olan şəxslər pul tələblərini əvəzləşdirməklə və məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı olmaqla nizamnamə kapitalına maya qoymaq vəzifəsindən azad oluna bilərlər. Bu cür təşəbbüslə cəmiyyətə qarşı pul tələbi olan şəxslər və (və ya) cəmiyyət çıxış edə bilər.

Maliyyə bazarlarında nəzarət edilən subyektlərə qarşı pul tələbi olan şəxslərin pul tələblərinin həmin subyektlərin nizamnamə kapitalında payla əvəzləşdirilməsi maliyyə bazarlarını tənzimləyən qanunlarda mühüm iştirak payının əldə olunmasına dair tələblər nəzərə alınmaqla həyata keçirilir.[92]

90.3-2. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarına, idarəetmə orqanlarının üzvlərinə və ya işçilərinə həvəsləndirmə məqsədilə paylar bu Məcəllənin 404-5-ci maddəsinə uyğun olaraq bağlanmış işçilərin pay iştirakı planı haqqında müqavilə əsasında ödənişsiz verildikdə, bu Məcəllənin 90.3-cü maddəsi tətbiq edilmir.[93]

90.4. Əgər ikinci və ya hər bir növbəti maliyyə ili başa çatarkən məhdud məsuliyyətli cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olarsa, cəmiyyət öz nizamnamə kapitalının azaldığını elan etməyə və müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur. Əgər cəmiyyətin göstərilən aktivlərinin dəyəri nizamnamə kapitalının minimum miqdarından az olarsa, cəmiyyət ləğv edilməlidir.

90.4. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalı yalnız onun tam ödənilməsindən sonra bu Məcəllədə və cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin əmlakı hesabına iştirakçıların nizamnamə kapitalındakı mayalarının dəyərinə mütənasib şəkildə artırılması və (və ya) iştirakçılar tərəfindən əlavə mayaların qoyulması vasitəsi ilə və (və ya) *cəmiyyətə qarşı pul tələbi olan şəxslərin pul tələblərinin həmin cəmiyyətin nizamnamə kapitalında payla əvəzləşdirməsi yolu ilə və (və ya)* cəmiyyətə qəbul edilən yeni iştirakçıların mayaları hesabına artırıla bilər. *Maliyyə bazarlarını tənzimləyən qanunlarda pul tələblərinin cəmiyyətin nizamnamə kapitalındakı payla əvəzləşdirilməsi ilə bağlı müddəaların olduğu hallar istisna olmaqla, cəmiyyətin təsərrüfat fəaliyyəti nəticəsində ödənilməmiş zərəri onun nizamnamə kapitalından artıq olduğu halda, həmin artıq məbləğlə iştirak payı ilə əvəzləşdirilməsi nəzərdə tutulan borc məbləği arasındakı fərq əlavə maya qoyulması hesabına aradan qaldırıldıqda cəmiyyətə qarşı pul tələblərinin*

əvəzləşdirilməsinə yol verilir. Cəmiyyətin təsərrüfat fəaliyyəti nəticəsində ödənilməmiş zərəri müəyyən edilərkən əsas vəsaitlərə amortizasiya ayırmaları hesabına yaranan xərclər nəzərə alınmır.[94]

90.5. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının cəmiyyətin əmlakı hesabına artırılması cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin ümumi yığıncağının qərarı ilə həyata keçirilir. Belə qərar yalnız cəmiyyətin ötən il üçün *maliyyə hesabatlarının* göstəriciləri əsasında qəbul edilə bilər. Nizamnamə kapitalının cəmiyyətin əmlakı hesabına artırılan miqdarı cəmiyyətin xalis aktivlərinin dəyəri, nizamnamə kapitalının miqdarı və cəmiyyətin ehtiyat fondu arasındakı fərqi keçməməlidir. Cəmiyyətin nizamnamə kapitalı bu maddədə müəyyən edilmiş qaydada artırıldıqda iştirakçıların mayalarının məbləği dəyişmədən bütün iştirakçıların mayalarının nominal dəyəri proporsional surətdə artır.[95]

90.6. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının iştirakçıların əlavə payları hesabına artırılması cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin ümumi yığıncağının qərarı ilə həyata keçirilir. Bu qərarla əlavə payların ümumi dəyəri, həmçinin iştirakçının əlavə payının dəyəri və onun payının nominal dəyərinin artırıldığı məbləğ arasındakı nisbət müəyyən edilməlidir. Həmin nisbət iştirakçının payının nominal dəyərinin onun əlavə payına bərabər və ya ondan az məbləğdə arta biləcəyi nəzərə alınmaqla müəyyən edilir. Hər bir iştirakçı əlavə payların ümumi dəyərindən artıq olmayan, həmin iştirakçının nizamnamə kapitalında olan mayasının məbləğinə proporsional olaraq əlavə pay qoymaq hüququna malikdir. İştirakçılar tərəfindən əlavə paylar, bu barədə ümumi yığıncağın qərarı qəbul edildikdən sonra nizamnamədə və ya ümumi yığıncağın qərarında müəyyən edilmiş müddətdə qoyulmalıdır. Əlavə pay qoymaq üçün müəyyən edilmiş müddətin ötürülməsi nizamnamə kapitalının qeyd edilən üsulla artırılmasının baş tutmamasına səbəb olur.

90.7. Bu Məcəllənin 90.6-cı maddəsində nəzərdə tutulmuş qaydada cəmiyyətin ümumi yığıncağının cəmiyyətin nizamnamə kapitalının artırılması haqqında qərarı iştirakçının (iştirakçıların) əlavə maya qoyulması haqqında ərizəsi və (və ya) əgər nizamnamədə qadağan edilməmişdirsə, üçüncü şəxsin (şəxslərin) onun (onların) cəmiyyətə iştirakçı kimi qəbul edilməsi və maya qoyması haqqında ərizəsi əsasında qəbul edilir. Ərizədə mayaların məbləği və tərkibi, onların qoyulma qaydası və müddəti, iştirakçının və ya üçüncü şəxsin nizamnamə kapitalında malik olmaq istədikləri mayaların məbləği göstərilir. Ərizədə mayaların qoyulmasının və cəmiyyətə daxil olmanın digər şərtləri də göstərilə bilər. Cəmiyyətin ümumi yığıncağı iştirakçıların ərizəsi əsasında nizamnamə kapitalının artırılması haqqında qərarın qəbul edilməsi ilə eyni zamanda nizamnamə kapitalının məbləğinin və ərizə vermiş iştirakçının mayasının nominal dəyərinin artırılması ilə əlaqədar nizamnaməyə edilən dəyişikliklər haqqında da qərar qəbul edir. Ümumi yığıncaq üçüncü şəxsin ərizəsi əsasında nizamnamə kapitalının artırılması haqqında qərarla yanaşı üçüncü şəxsin cəmiyyətə qəbul edilməsi, onun mayasının nominal dəyərinin müəyyən edilməsi və iştirakçıların mayalarının məbləğlərinin dəyişməsi ilə əlaqədar nizamnaməyə edilən dəyişikliklər haqqında qərar qəbul edir. Cəmiyyətə qəbul edilən üçüncü şəxsin mayasının nominal dəyəri onun payının dəyərinin məbləğinə bərabər və ya ondan az

olmalıdır. Əgər nizamnamə kapitalının artırılması baş tutmamışdırsa, cəmiyyət ağlabatan müddətdə iştirakçıların əlavə mayalarını və üçüncü şəxslərin mayalarını müvafiq olaraq geri qaytarmalıdır.

90.8. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalının azaldılması bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə həyata keçirilə bilər. Bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə nizamnamə kapitalının azaldılması bütün iştirakçıların mayalarının nisbəti saxlanılmaqla həyata keçirilir. Cəmiyyətin nizamnamə kapitalının azaldılması cəmiyyətin ümumi yığıncağının qərarı əsasında həyata keçirilir. Nizamnamə kapitalının azaldılması haqqında ümumi yığıncağın qərarı qəbul edildikdən sonra nizamnamədə və ya cəmiyyətin ümumi yığıncağının qərarında müəyyən edilmiş müddətdə cəmiyyət özünün bütün kreditorlarına bu barədə yazılı məlumat göndərməlidir. Məlumat alındığı gündən bir ay müddətində cəmiyyətin kreditorlarının cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl yerinə yetirilməsini və ya xitamını, düşdükləri zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır.[96]

Maddə 90-1. Məhdud məsuliyyətli cəmiyyətdə mənfəətin bölüşdürülməsi[97]

90-1.1. Məhdud məsuliyyətli cəmiyyətin fəaliyyəti nəticəsində əldə edilmiş xalis mənfəətin iştirakçılar arasında bölüşdürülməsi cəmiyyətin ümumi yığıncağı tərəfindən qəbul edilən qərar əsasında cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada həyata keçirilir. Həmin qərarda mənfəətin tamamilə və ya qismən bölüşdürülməsi müəyyən edilə bilər.

90-1.2. Məhdud məsuliyyətli cəmiyyətin *(məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondu istisna olmaqla)* hər bir iştirakçısının nizamnamə kapitalındakı mayalarına uyğun olaraq mənfəət almaq hüququ vardır. *Xalis* mənfəət ümumi yığıncağın qərarı qəbul edildikdən sonra bir ay müddətində ödənilməlidir.[98]

90-1.3. Məhdud məsuliyyətli cəmiyyət aşağıdakı hallarda mənfəətin bölüşdürülməsi haqqında qərar qəbul edə bilməz:

90-1.3.1. əgər bu Məcəllənin 90-1.1-ci maddəsində nəzərdə tutulan qərar qəbul edildiyi anda cəmiyyət qanunla müəyyən edilmiş müflisləşmə və ya iflas əlamətlərinə uyğun gəlirsə və ya həmin qərarın qəbul edilməsi nəticəsində belə əlamətlər əmələ gələcəksə;

90-1.3.2. əgər bu Məcəllənin 90-1.1-ci maddəsində nəzərdə tutulan qərar qəbul edildiyi anda cəmiyyətin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalından azdırsa və ya həmin qərarın qəbul edilməsi nəticəsində onun məbləğindən az olacaqsa.

Maddə 91. Məhdud məsuliyyətli cəmiyyətdə idarəetmə KMQ30

91.1. Məhdud məsuliyyətli cəmiyyətin ali orqanı onun iştirakçılarının ümumi yığıncağıdır. Bir iştirakçısı olan cəmiyyətdə cəmiyyətin ümumi yığıncağının səlahiyyətləri iştirakçı tərəfindən təkbaşına həyata keçirilir. Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda, *habelə ictimai əhəmiyyətli qurumlarda* cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və ya) təftiş komissiyası

(müfəttiş) *yaradılır*. Məhdud məsuliyyətli cəmiyyətdə onun fəaliyyətinə cari rəhbərliyi həyata keçirən və iştirakçılarının ümumi yığıncağına hesabat verən icra orqanı (kollegial *və ya* təkbaşçı) yaradılır. *Cəmiyyətin kollegial icra orqanının rəhbəri və üzvləri və ya cəmiyyətin təkbaşçı icra orqanının rəhbəri* onun iştirakçıları olmayanların sırasından da seçilə bilər.[99]

91.1-1. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçılarının ümumi yığıncağı növbəti və növbədənkənar ola bilər. Hər bir iştirakçının cəmiyyətin iştirakçılarının ümumi yığıncağında iştirak etmək, cəmiyyətin orqanlarını seçmək (təyin etmək), onlara seçilmək (təyin edilmək) və səsvermədə iştirak etmək *(bu Məcəllənin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla),* şəxsən iştirak etmək və ya bu Məcəllə ilə müəyyən edilmiş qaydada təyin etdiyi nümayəndə vasitəsilə təmsil olunmaq, *ümumi yığıncağın gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək* hüququ vardır. İştirakçıların həmin hüquqlarını məhdudlaşdıran hər hansı razılaşma və ya hərəkət etibarsızdır. Cəmiyyətin iştirakçılarının ümumi yığıncaqda hər bir iştirakçının onun nizamnamə kapitalındakı payına mütənasib səsi vardır. Cəmiyyətin iştirakçısı olmayan kollegial icra orqanının rəhbəri və üzvləri və ya cəmiyyətin təkbaşçı icra orqanının rəhbəri ümumi yığıncaqda məşvərətçi səs hüququ ilə iştirak edə bilər. Bu Məcəllə ilə cəmiyyətin iştirakçılarının ümumi yığıncağının müstəsna səlahiyyətlərinə aid edilən məsələlərdən başqa, cəmiyyətin nizamnaməsinə uyğun olaraq cəmiyyətin iştirakçılarının ümumi yığıncağının səlahiyyətlərinə digər məsələlər də aid edilə bilər. Nizamnamədə müəyyən edilib-edilməməsindən asılı olmayaraq, ümumi yığıncaq cəmiyyətin fəaliyyəti ilə əlaqədar istənilən məsələni müzakirə edə bilər.[100]

91.1-2. Cəmiyyətin iştirakçılarının növbəti ümumi yığıncağı icra orqanı tərəfindən nizamnamədə müəyyən edilmiş müddətdə, lakin ildə bir dəfədən az olmayaraq çağırılır. Cəmiyyətin illik fəaliyyətinin yekunlarına həsr olunmuş ümumi yığıncaq hesabat-maliyyə ili başa çatdıqdan sonra dörd aydan gec olmayaraq çağırılır.

91.1-3. Cəmiyyətin iştirakçılarının növbədənkənar ümumi yığıncağı *qanunda və ya* nizamnamədə müəyyən edilən hallarda və qaydada çağırılır. Növbədənkənar ümumi yığıncaq icra orqanının öz təşəbbüsü ilə, habelə direktorlar şurasının (müşahidə şurasının), təftiş komissiyasının (müfəttişin) və ya bütün səslərin azı onda birinə malik olan iştirakçıların tələbi ilə, *habelə qanunla müəyyən edilən digər şəxslər tərəfindən* çağırılır. Ləğvetmə prosesində olan cəmiyyətin növbədənkənar ümumi yığıncağı ləğvetmə komissiyası tərəfindən çağırılır.[101]

91.1-4. Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında cəmiyyətin paylarının əlli faizindən artıq hissəsinə malik olan iştirakçıları iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir.[102]

91.1-5. Cəmiyyətin iştirakçılarının ümumi yığıncağında yetərsay olmadıqda, ümumi yığıncaq cəmiyyətin icra orqanı tərəfindən cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada, ümumi yığıncağın gündəliyi dəyişdirilmədən çağırılmalıdır. Yenidən çağırılan ümumi yığıncaq cəmiyyətin paylarının əlli faizinə malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətlidir.[103]

91.1-6. Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncaq cəmiyyətin icra orqanı tərəfindən cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada, ümumi yığıncağın

gündəliyi dəyişdirilmədən təkrarən çağırılmalıdır. Təkrarən çağırılan ümumi yığıncaq cəmiyyətin paylarının 25 faizinə malik olan iştirakçıları iştirak etdikdə səlahiyyətlidir.

91.1-7. Bir iştirakçıdan ibarət olan cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinə aid olan məsələlər barəsində qərarlar həmin iştirakçı tərəfindən təkbaşına qəbul edilir və yazılı surətdə rəsmiləşdirilir.

91.2. Cəmiyyəti idarəetmə orqanlarının səlahiyyətləri, habelə onların qərarlar qəbul etməsi və cəmiyyətin adından çıxış etməsi qaydası bu Məcəlləyə və cəmiyyətin nizamnaməsinə uyğun olaraq müəyyənləşdirilir.

91.3. Məhdud məsuliyyətli cəmiyyət iştirakçılarının ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

91.3.1. cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;

91.3.2. cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

91.3.3. cəmiyyətin illik hesabatlarını və *maliyyə hesabatlarını* təsdiq etmək, onun mənfəətini və zərərini bölüşdürmək;[104]

91.3.4. cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;

91.3.5. cəmiyyətin cəmiyyətin direktorlar şurası (və ya müşahidə şurası) və (və ya təftiş komissiyasını (müfəttişini) seçmək *və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;*[105]

91.3.6. bu Məcəllənin 49-1.2-ci və 87.10-cu maddələrində nəzərdə tutulmuş əqdlərin bağlanması haqqında qərar qəbul etmək.[106]

91.4. Məhdud məsuliyyətli cəmiyyət *(mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla)* illik maliyyə *hesabatlarının* düzgünlüyünü yoxlatmaq üçün hər il *müstəqil* auditor cəlb etməlidir (kənar audit). Cəmiyyətin illik maliyyə *hesabatlarının* auditor yoxlanışı hər hansı iştirakçının tələbi ilə də aparıla bilər. Bu halda auditor yoxlanışı həmin yoxlamanı tələb edən iştirakçının hesabına aparılır. Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydası qanunvericilik və cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilir.[107]

91.5. Qanunvericilikdə nəzərdə tutulan hallar istisna olmaqla, cəmiyyətin işlərinin aparılması nəticələri haqqında cəmiyyət tərəfindən məlumatların dərc edilməsi (açıq hesabat) tələb olunmur.

Qeyd: *Bu Məcəllənin 91.1-ci, 91-4.1-ci, 107.3-cü və 107-12.1-ci maddələrində "ictimai əhəmiyyətli qurumlar" dedikdə "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun 2.1.9-cu maddəsində göstərilən kommersiya təşkilatları başa düşülür.*[108]

Maddə 91-1. Məhdud məsuliyyətli cəmiyyətin direktorlar şurası (müşahidə şurası)[109]

91-1.1. Bu Məcəllənin 91.1-ci maddəsində nəzərdə tutulmuş halda yaradılmış direktorlar şurası (müşahidə şurası) cəmiyyətin ümumi yığıncaqlar arasındakı dövrdə onun icra orqanının fəaliyyətinə nəzarəti həyata keçirir. Əgər nizamnamədə təftiş komissiyasının seçilməsi (müfəttişin təyin edilməsi) nəzərdə tutulmamışdırsa, bu Məcəlləyə uyğun olaraq təftiş komissiyasının (müfəttişin) səlahiyyətləri direktorlar şurasına (müşahidə şurasına) verilə bilər.

91-1.2. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) yaradılması və fəaliyyəti, habelə səlahiyyətlərinə xitam verilməsi qaydası nizamnamə ilə müəyyən edilir.

91-1.3. Cəmiyyətin təkbaşına rəhbəri, kollegial icra orqanının rəhbəri (üzvü), kənar idarəçi direktorlar şurasının (müşahidə şurasının) üzvü ola bilməz.

91-1.4. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) sədri onun iclaslarını üç ayda bir dəfədən az olmayaraq çağırır və iclaslara sədrlik edir. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin), icra orqanının, şura üzvlərinin və nizamnamə ilə müəyyən edilə bilən digər şəxslərin tələbi ilə də direktorlar şurasının (müşahidə şurasının) iclası şuranın sədri tərəfindən çağırılır. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) iclası maliyyə bazarlarında nəzarət edilən subyektlərə münasibətdə həmçinin "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla çağırılır. Şuranın iclasının keçirilməsi qaydaları cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.[110]

91-1.5. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, şuranın sədrinin səsi həlledici hesab edilir.

91-1.6. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) iclasının yerini, vaxtını, iştirakçılarını, gündəliyini, çıxışların xülasəsini, səsvermənin nəticələrini və qərarlarını əks etdirən protokol tərtib edilir. Həmin protokol şuranın sədri və üzvləri tərəfindən imzalanır.[111]

Maddə 91-2. Məhdud məsuliyyətli cəmiyyətin icra orqanı

91-2.1. Cəmiyyətin icra orqanının fəaliyyəti və onun tərəfindən qərarların qəbul edilməsi qaydası cəmiyyətin nizamnaməsi və daxili sənədləri ilə müəyyən edilir.KMQ30

91-2.2. Cəmiyyətin kollegial icra orqanı yalnız fiziki şəxslərdən ibarət ola bilər.

91-2.3. Cəmiyyət və cəmiyyətin təkbaşına rəhbəri arasında müqavilə həmin şəxsin seçildiyi (təyin edildiyi) cəmiyyətin iştirakçılarının ümumi yığıncağında sədrlik edən şəxs və ya ümumi yığıncağın qərarı ilə müvəkkil edilən şəxs tərəfindən imzalanır. Təkbaşına rəhbərin səlahiyyətləri bu Məcəllənin 91-2.4-cü maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, fiziki şəxs tərəfindən həyata keçirilir.KMQ30

91-2.4. Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda cəmiyyətin icra orqanının səlahiyyətləri müqavilə əsasında başqa fiziki və ya hüquqi şəxslərə (kənar idarəçiyə) verilə bilər. Kənar idarəçi ilə ümumi yığıncaqda təsdiq olunan və cəmiyyətin adından ümumi yığıncaqda sədrlik edən və ya ümumi yığıncağın səlahiyyət verdiyi iştirakçılardan biri tərəfindən imzalanan müqavilə bağlanır.

* (Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli **451-VIIQD** nömrəli Qanunu ilə 91-2.4-cü maddənin birinci cümləsinə edilmiş dəyişiklik 2027-ci il yanvarın 24-dən qüvvəyə minir.)

91-2.5. Kənar idarəçi icra orqanı kimi cəmiyyətə münasibətdə idarəetməni qeyri-qənaətbəxş həyata keçirməsi nəticəsində və üçüncü şəxslərə ziyan vurduğu zərərə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.

Maddə 91-3. Məhdud məsuliyyətli cəmiyyətin təftiş komissiyası (müfəttişi)

91-3.1. Bu Məcəllənin 91-ci maddəsində nəzərdə tutulmuş halda cəmiyyətin iştirakçılarının ümumi yığıncağının qərarı ilə təftiş komissiyası (müfəttiş) seçilir (təyin edilir).

91-3.2. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) formalaşdırılması qaydaları, onun tərkibi və fəaliyyətinin qaydası cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

91-3.3. Cəmiyyətin təftiş komissiyasının üzvlüyünə (müfəttiş kimi) fiziki şəxslər seçilir (təyin edilir). Cəmiyyətin iştirakçısı olmayan şəxslərin də təftiş komissiyasına üzv seçilməsinə (müfəttiş təyin edilməsinə) yol verilir. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və ya kollegial icra orqanının rəhbəri (üzvü), təkbaşına rəhbər və ya kənar idarəçi təftiş komissiyasına üzv seçilə (müfəttiş təyin edilə) bilməz.

91-3.4. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətini yoxlamaq və bu məqsədlə cəmiyyətin fəaliyyətinə aid olan bütün sənədləri əldə etmək hüququ vardır. Təftiş komissiyasının (müfəttişin) tələbi ilə direktorlar şurasının (müşahidə şurasının) və ya kollegial icra orqanının rəhbəri (üzvləri), təkbaşına rəhbər, kənar idarəçi şifahi və ya yazılı formada zəruri məlumatları təqdim etməyə borcludurlar.

91-3.5. Cəmiyyətin təftiş komissiyası (müfəttiş) varsa, bu nəzarət orqanının rəyi olmadan cəmiyyətin iştirakçılarının ümumi yığıncağı cəmiyyətin illik hesabatlarını və *maliyyə hesabatlarını* təsdiq edə bilməz, habelə mənfəət və zərərin bölüşdürülməsinə dair qərar qəbul edə bilməz.

Maddə 91-4. Məhdud məsuliyyətli cəmiyyətin audit komitəsi

91-4.1. İştirakçılarının sayı əllidən çox olan cəmiyyətlərdə, habelə ictimai əhəmiyyətli qurumlarda daxili audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili üçün direktorlar şurası (müşahidə şurası) tərəfindən audit komitəsi yaradılır. Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda iştirakçıların sayı əllidən çox olmayan cəmiyyətlərdə də audit komitəsi yaradılır.

91-4.2. Cəmiyyətin audit komitəsinin formalaşdırılması qaydaları, onun tərkibi və fəaliyyətinin qaydası qanunla və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

91-4.3. Cəmiyyətin icra orqanının üzvləri və (və ya) cəmiyyətin iştirakçıları audit komitəsinin üzvü ola bilməzlər. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri audit komitəsinin üzvü ola bilərlər.[112]

91-4.4. Cəmiyyətin fəaliyyətinin daxili auditi cəmiyyətin audit komitəsinin təşəbbüsü ilə ümumi yığıncağın və ya direktorlar şurasının (müşahidə şurasının) qərarı ilə və ya cəmiyyətin paylarının on faizindən artıq hissəsinə malik olan iştirakçıların və cəmiyyətin icra orqanının tələbi ilə həyata keçirilir.

91-4.5. Cəmiyyətin audit komitəsinin tələbi ilə cəmiyyətin bütün orqanları və vəzifəli şəxsləri cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar olan sənədləri təqdim etməlidirlər.

91-4.6. Audit komitəsi direktorlar şurasına (müşahidə şurasına) tabedir.[113]

Maddə 92. Məhdud məsuliyyətli cəmiyyətin yenidən təşkili və ləğvi

92.1. Məhdud məsuliyyətli cəmiyyət onun iştirakçılarının yekdil qərarı ilə könüllü surətdə yenidən təşkil və ya ləğv edilə bilər. Cəmiyyətin yenidən təşkilinin və ləğvinin başqa əsasları, habelə onun yenidən təşkili və ləğvi qaydası bu Məcəllə ilə müəyyənləşdirilir.

92.2. Məhdud məsuliyyətli cəmiyyət səhmdar cəmiyyətinə çevrilə bilər.

Maddə 93. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalındakı payın keçməsi

93.1. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı cəmiyyətin nizamnamə kapitalındakı payını və ya onun bir hissəsini həmin cəmiyyətin bir və ya bir neçə iştirakçısına sata bilər və ya başqa qaydada güzəşt edə bilər.

93.2. Cəmiyyət iştirakçısının öz payını (onun bir hissəsini) üçüncü şəxslərə özgəninkiləşdirilməsinə~~, əgər cəmiyyətin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa,~~ yol verilir.[114]

93.3. Cəmiyyətin iştirakçıları iştirakçının payını (onun bir hissəsini) öz paylarının miqdarına mütənasib surətdə satın almaqda üstünlük hüququna malikdirlər~~, bu şərtlə ki, cəmiyyətin nizamnaməsində və ya onun iştirakçılarının razılaşmasında həmin hüququn həyata keçirilməsinin ayrı qaydası nəzərdə tutulmasın~~. *Cəmiyyətin iştirakçısı öz payını (onun bir hissəsini) özgəninkiləşdirmək istədikdə həmin payın (onun bir hissəsinin) satın alınmasını ilkin olaraq cəmiyyətin digər iştirakçılarına təklif etməlidir.* Əgər cəmiyyətin iştirakçıları xəbərdar edildikləri gündən bir ay ərzində və ya cəmiyyətin nizamnaməsində və ya onun iştirakçılarının razılaşmasında nəzərdə tutulan başqa müddətdə öz üstünlük hüququndan istifadə etməzlərsə, iştirakçının payı üçüncü şəxsə özgəninkiləşdirilə bilər.[115]

93.4. Məhdud məsuliyyətli cəmiyyətin nizamnaməsinə uyğun olaraq iştirakçının payının (onun bir hissəsinin) üçüncü şəxslərə özgəninkiləşdirilməsi mümkün olmadıqda, cəmiyyətin digər iştirakçıları isə onu satın almaqdan imtina etdikdə cəmiyyət iştirakçının payını əldə etməyə borcludur.

93.5. İştirakçının payını (onun bir hissəsini) məhdud məsuliyyətli cəmiyyətin özünün əldə etdiyi halda cəmiyyət onu özünün nizamnaməsində nəzərdə tutulan müddətlərdə və qaydada başqa iştirakçılara və ya üçüncü şəxslərə satmağa və ya bu Məcəllənin 90.4 və 90.5-ci maddələrinə uyğun olaraq öz nizamnamə kapitalını azaltmağa borcludur.

93.6. Məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalındakı paylar cəmiyyətin iştirakçısı olan fiziki şəxslərin vərəsələrinə və hüquqi şəxslərin hüquq varislərinə bu şərtlə keçir ki, cəmiyyətin nizamnaməsində payların onlara yalnız cəmiyyətin qalan iştirakçılarının razılığı ilə keçməsi nəzərdə tutulmasın. Payın keçməsinə razılıq verməkdən imtina edilməsi cəmiyyətin nizamnaməsində nəzərdə tutulan qaydada və şərtlərlə cəmiyyətin həmin payın həqiqi dəyərini iştirakçının vərəsələrinə (hüquq varislərinə) ödəməsi və ya həmin dəyərə bərabər əmlakı onlara naturada verməsi vəzifəsinin yaranmasına səbəb olur.

93.7. Cəmiyyətin paylarının əlli faizini və daha çox hissəsini almaq istəyən şəxs bütün iştirakçılara rəsmi qaydada müvafiq təklif təqdim edir.[116]

Maddə 94. İştirakçının məhdud məsuliyyətli cəmiyyətin əmlakındakı payına tutmanın yönəldilməsi

94.1. İştirakçının şəxsi borcları üzrə tutmanın onun məhdud məsuliyyətli cəmiyyətin əmlakındakı payına yönəldilməsinə yalnız onun başqa əmlakının borclarını ödəməyə kifayət etmədiyi halda yol verilir. Həmin iştirakçının kreditorları məhdud məsuliyyətli cəmiyyətdən tutmanın yönəldilməsi məqsədilə cəmiyyətin əmlakının borclunun nizamnamə kapitalındakı payına uyğun hissəsinin dəyərini ödəməyi və ya bu əmlak hissəsini ayırmağı tələb edə bilərlər. Cəmiyyətin əmlakının ayrılmalı hissəsi və ya onun dəyəri kreditorların tələb irəli sürdükləri məqamda tərtib edilmiş balans üzrə müəyyənləşdirilir.

94.2. İştirakçının məhdud məsuliyyətli cəmiyyətin əmlakındakı bütün payına tutmanın yönəldilməsi onun cəmiyyətdə iştirakına xitam verir.

Maddə 95. Məhdud məsuliyyətli cəmiyyət iştirakçısının cəmiyyətdən çıxması

95.1. Məhdud məsuliyyətli cəmiyyətin *(məhdud məsuliyyətli cəmiyyət formasında yaradılan vençur kapitalı fondu istisna olmaqla)* iştirakçısı onun digər iştirakçılarının razılığından asılı olmayaraq istənilən vaxt cəmiyyətdən çıxa bilər.[117]

95.2. "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda, iştirakçının cəmiyyətdən çıxmaq hüququnun həyata keçirilməsi müddəti, hesablaşma vaxtı, şərtləri və qaydası cəmiyyətin nizamnaməsi ilə müəyyən edilə və məhdudlaşdırıla bilər.[118]

Maddə 96. Məhdud məsuliyyətli cəmiyyətin iştirakçısı cəmiyyətdən çıxarkən hesablaşmalar

96.1. Məhdud məsuliyyətli cəmiyyətdən çıxan iştirakçıya, əgər cəmiyyətin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, həmin iştirakçının nizamnamə kapitalındakı payına uyğun əmlak hissəsi ödənilir. Çıxan iştirakçının cəmiyyət ilə razılaşmasına əsasən əmlakın dəyərinin ödənilməsi əmlakın naturada verilməsi ilə əvəz edilə bilər. Cəmiyyətin əmlakının çıxan iştirakçıya düşən hissəsi və ya onun dəyəri iştirakçının çıxdığı məqamda tərtib edilən balans üzrə müəyyənləşdirilir.

96.2. Əgər məhdud məsuliyyətli cəmiyyətin nizamnamə kapitalına maya kimi əmlakdan istifadə hüququ verilmişdirsə, müvafiq əmlak cəmiyyətdən çıxan iştirakçıya qaytarılır. Həmin əmlakın normal aşınma nəticəsində dəyərinin azalmasının əvəzi ödənilmir.

96.3. Cəmiyyət iştirakçısının vərəsəsi və ya onun iştirakçısı olan hüquqi şəxsin hüquq varisi cəmiyyətə daxil olmadıqda onunla hesablaşmalar bu maddənin qaydalarına uyğun aparılır.

Maddə 97. Əlavə məsuliyyətli cəmiyyət

97.1. Bir və ya bir neçə şəxs tərəfindən təsis edilən, nizamnamə kapitalı nizamnamə ilə müəyyənləşdirilmiş miqdarda paylara bölünən cəmiyyət əlavə məsuliyyətli cəmiyyət sayılır. Belə cəmiyyətin iştirakçıları onun öhdəlikləri üzrə öz mayalarının dəyərinin cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilən, hamısı üçün eyni olan misli miqdarında özlərinin əmlakı ilə birgə subsidiar məsuliyyət daşıyırlar. İştirakçılardan biri müflis olduqda cəmiyyətin öhdəlikləri üzrə onun məsuliyyəti, əgər cəmiyyətin nizamnaməsində məsuliyyətin bölünməsinin ayrı qaydası nəzərdə tutulmayıbsa, qalan iştirakçılar arasında onların mayalarına mütənasib surətdə bölünür.

97.2. Əlavə məsuliyyətli cəmiyyətin firma adında cəmiyyətin adı, habelə "məhdud məsuliyyətli cəmiyyət" sözləri göstərilməlidir.

97.3. Əlavə məsuliyyətli cəmiyyətə, əgər bu maddədə ayrı qayda nəzərdə tutulmayıbsa, bu Məcəllənin məhdud məsuliyyətli cəmiyyət haqqında qaydaları tətbiq edilir.

Maddə 98. Səhmdar cəmiyyəti

98.1. Nizamnamə kapitalı müəyyən sayda səhmlərə bölünmüş cəmiyyət səhmdar cəmiyyəti sayılır.

98.2. Səhmlər buraxmağa yalnız səhmdar cəmiyyətlərinin hüququ vardır. Səhmdar cəmiyyətinin əmlakı onun səhmlərinin yerləşdirilməsi, maliyyə-təsərrüfat fəaliyyəti nəticəsində, habelə qanunla qadağan edilməmiş digər mənbələr hesabına yaranır.[119]

98.3. Səhmdar cəmiyyəti bu Məcəlləyə müvafiq olaraq yeni cəmiyyətin yaradılması və ya *müvafiq olaraq, bu Məcəllədə, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" və "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının qanunlarında* müəyyən edilmiş qaydalar və məhdudiyyətlər nəzərə alınmaqla fəaliyyət göstərən hüquqi şəxsin yenidən təşkili (birləşmə, bölünmə, ayrılma, çevrilmə) yolu ilə yaradıla bilər.[120]

98.4. Səhmdar cəmiyyətinin iştirakçıları (səhmdarlar) onun öhdəlikləri üçün cavabdeh deyildirlər və cəmiyyətin fəaliyyəti ilə bağlı zərər üçün onlara mənsub səhmlərin dəyəri həddində risk daşıyırlar.

98.5. Səhmdar cəmiyyəti bir şəxs (fiziki və ya hüquqi şəxs) tərəfindən yaradıla bilər və ya cəmiyyətin bütün səhmlərini bir səhmdarın əldə etdiyi halda bir şəxsdən (fiziki və ya hüquqi şəxsdən) ibarət ola bilər. Bu barədə məlumat cəmiyyətin nizamnaməsində göstərilməli, qeydə alınmalı və hamının tanış olması üçün dərc edilməlidir. Səhmdar cəmiyyətinin yeganə iştirakçısı bir şəxsdən ibarət digər təsərrüfat cəmiyyəti ola bilməz.[121]

98.6. Səhmdar cəmiyyətinin firma adında onun adı, habelə "açıq səhmdar cəmiyyəti" və ya "qapalı səhmdar cəmiyyəti" sözləri göstərilməlidir.

98.7. Səhmdar cəmiyyətinin hüquqi vəziyyəti və səhmdarların hüquq və vəzifələri, *müvafiq olaraq, bu Məcəlləyə, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarına* uyğun olaraq müəyyənləşdirilir.[122]

98.8. Dövlət müəssisələri özəlləşdirilərkən səhmdar cəmiyyətlərinin yaradılması xüsusiyyətləri həmin müəssisələrin özəlləşdirilməsinə dair qanunvericiliklə müəyyənləşdirilir.

98.9. Səhmdar cəmiyyətinin yaradılması təsis yığıncağının keçirilməsini və müqavilənin bağlanmasını (bu Məcəllənin 45.2-ci maddəsində nəzərdə tutulmuş halda) və ya səhmdar cəmiyyətinin yaradılması haqqında qərarın qəbul edilməsini (səhmdar cəmiyyəti bir şəxs tərəfindən yaradıldıqda), səhmlərin təsisçilər arasında bölüşdürülməsini və nizamnamənin hazırlanmasını (qəbul olunmasını) əhatə edir.[123]

98.10. Səhmdar cəmiyyətinin yaradılması zamanı təsis yığıncağı təsisçilər arasında bağlanmış müqavilədə nəzərdə tutulmuş müddətdə, səhmdar cəmiyyətinin bütün səhmləri təsisçilər arasında bölüşdürüldükdə keçirilir. Təsis yığıncağı bütün təsisçilər və ya onların nümayəndələri iştirak etdikdə səlahiyyətlidir (yetərsay var). Yetərsay olmadıqda, yığıncaq təkrarən keçirilir. Yetərsay təkrarən keçirilən təsis yığıncağında da olmadıqda, səhmdar cəmiyyətinin yaradılması iclasda iştirak edən təsisçilər və ya onların nümayəndələri tərəfindən baş tutmamış hesab edilir və bu qərar bütün təsisçilərin nəzərinə yeddi gün müddətində çatdırılır.

98.11. Səhmdar cəmiyyətinin yaradılması zamanı keçirilən təsis yığıncağı:

98.11.1. səhmdar cəmiyyətinin yaradılması zamanı yerləşdirilən səhmlərin ödənilməsinə yönəldilən pul olmayan əmlakın dəyərini təsdiq edir;

98.11.2. səhmdar cəmiyyətinin yaradılması barədə qərarı qəbul edir və onun nizamnaməsini təsdiq edir;

98.11.3. *müvafiq olaraq, bu Məcəllə, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunları* və səhmdar cəmiyyətinin nizamnaməsi ilə nəzərdə tutulmuş səhmdar cəmiyyətinin idarəetmə, nəzarət və icra orqanlarım təşkil edir;[124]

98.11.4. səhmdar cəmiyyətinin yaradılması və cəmiyyətin fəaliyyətinin başlanılması ilə əlaqədar bu Məcəlləyə, digər qanunvericilik aktlarına və təsisçilər arasında bağlanılmış müqaviləyə zidd olmayan digər məsələləri həll edir.

98.12. Səhmdar cəmiyyətinin təsis yığıncağında cəmiyyətin təsis edilməsi, nizamnamənin təsdiq edilməsi, səhmdar cəmiyyətinin yaradılması zamanı yerləşdirilən səhmlərin ödənilməsinə yönəldilən pul olmayan əmlakın dəyərinin təsdiq edilməsi, idarəetmə, nəzarət və icra orqanlarının formalaşdırılması barədə qərarlar təsisçilər tərəfindən yekdilliklə, digər məsələlər üzrə isə sadə səs çoxluğu ilə qəbul edilir.

98.13. Səhmdar cəmiyyətinin təsisi zamanı səhmlərin buraxılışı və dövlət qeydiyyatı, *müvafiq olaraq, bu Məcəllə, "Banklar haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunları ilə* müəyyən edilmiş qaydada həyata keçirilir.[125]

98.14. Səhmdar cəmiyyətinin yaradılması ilə bağlı və onun dövlət qeydiyyatına alınmasına qədər yaranmış öhdəliklərinə görə cəmiyyətin təsisçiləri birgə məsuliyyət daşıyırlar.

98.15. Bu Məcəllənin 98.4-cü, 98.5-ci və 98.11.1-ci maddələrində qeyd edilmiş məsələlərlə əlaqədar banklara, sığortaçılara və qiymətli kağızlar bazarında lisenziyalaşdırılan şəxslərə münasibətdə "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının qanunlarının müddəaları, 98.5-ci və 98.11.1-ci

maddələrində qeyd edilmiş məsələlərlə əlaqədar səhmdar investisiya fondlarına münasibətdə isə "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanununun müddəaları tətbiq edilir.[126]

Maddə 99. Açıq səhmdar cəmiyyəti

99.1. Səhmdar cəmiyyətinin iştirakçıları onlara mənsub səhmləri digər səhmdarların razılığı olmadan özgəninkiləşdirə bildikdə, o, açıq səhmdar cəmiyyəti sayılır. Bu cür səhmdar cəmiyyəti buraxdığı səhmlərə açıq abunə yazılışını və onların sərbəst satışını həyata keçirə bilər.

99.2. Açıq səhmdar cəmiyyəti illik hesabatını və maliyyə hesabatlarını (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla), habelə aşağıdakı məlumatları hamının tanış olması üçün hər il dərc etməyə borcludur: [127]

99.2.1. hesabat dövrü üzrə maliyyə göstəriciləri;

99.2.2. aidiyyəti şəxslərlə bağlanılmış və xüsusi əhəmiyyətli əqdlər;

99.2.3. cəlb edilmiş maliyyə vəsaitləri;

99.2.4. idarəetmə orqanları və vəzifəli şəxslər, onların əsas və əlavə iş yerləri;

99.2.5. idarəetmə strukturu;

99.2.6. inkişaf siyasəti;

99.2.7. səhmdar kapitalının gəlirliyi və dividend siyasəti;

99.2.8. idarəetmə orqanlarının hər bir üzvünə verilən ödənişlər;[128]

99.2.9. investisiyaların həcmi və mənbəyi;

99.2.10. cəmiyyətin qiymətli kağızlarının dövriyyəsi və gəlirliyi;

99.2.11. ictimai layihələr.[129]

99.3. Açıq səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyərinin iyirmi beş faizindən artıq məbləğdə olan əqd xüsusi əhəmiyyətli əqd hesab edilir. Xüsusi əhəmiyyətli əqdin bağlanılması barədə qərar səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağında qəbul edilir və bu barədə məlumat açıqlanır. Bu məlumatın açıqlanması qaydası səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmalıdır. *Bu maddənin tələbləri banklara və xarici bankların yerli filiallarına şamil edilmir.* [130]

~~99.4. Açıq səhmdar cəmiyyətinə aidiyyəti olan şəxs ilə həmin cəmiyyət arasında bağlanılan hər hansı əqd, razılaşma və yaxud əlaqəli əqdlər məcmusu aidiyyəti şəxslə əqd hesab edilir. Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, aidiyyəti şəxslərin siyahısı, onlarla cəmiyyət arasında əqdlərin bağlanması və belə əqdlər barədə məlumatın açıqlanması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir~~.[131]

Maddə 100. Qapalı səhmdar cəmiyyəti

100.1. Səhmləri yalnız onun təsisçiləri arasında və ya qabaqcadan müəyyənləşdirilmiş digər şəxslər dairəsində yayılan səhmdar cəmiyyəti qapalı səhmdar cəmiyyətidir. Bu cür cəmiyyət buraxdığı səhmlərə açıq abunə yazılışı apara bilməz və ya başqa şəkildə onları əldə edilmək üçün şəxslərin qeyri-məhdud dairəsinə təklif edə bilməz.

100.2. Qapalı səhmdar cəmiyyətinin iştirakçılarının sayı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş həddi keçməməlidir, əks halda o, bir il ərzində açıq səhmdar cəmiyyətinə çevrilməli, bu müddət bitdikdən sonra isə, əgər onların sayı azaldılıb müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş həddə endirilməzsə, məhkəmə qaydasında ləğv edilməlidir.

100.3. Qapalı səhmdar cəmiyyəti bu Məcəllənin 99-cu maddəsində göstərilən sənədləri hamının tanış olması üçün dərc etməyə borcludur.

Maddə 101. Qapalı səhmdar cəmiyyətinin səhmlərinin başqasına keçməsi

101.1. Qapalı səhmdar cəmiyyətinin səhmdarları həmin cəmiyyətin digər səhmdarlarının satdıqları səhmləri əldə etməkdə üstünlük hüququna malikdirlər. Əgər səhmdarlardan heç biri cəmiyyətin nizamnaməsində nəzərdə tutulan müddətdə, lakin satış elan olunduğu tarixdən etibarən otuz gün ərzində özünün üstünlük hüququndan istifadə etməzsə, sonrakı otuz gün ərzində səhmdar cəmiyyəti həmin səhmləri onların mülkiyyətçisi ilə razılaşdırılmış qiymətə özü əldə edə bilər. Səhmdar cəmiyyəti səhmləri əldə etməkdən imtina etdikdə və ya onların qiymətinə dair razılığa gəlinmədikdə səhmlər üçüncü şəxsə özgəninkiləşdirilə bilər. Bu zaman səhmin satış qiyməti səhmdarlara və ya səhmdar cəmiyyətinə təklif edilən qiymətdən aşağı olmamalıdır. Əks halda səhmdar cəmiyyəti həmin əqdin etibarsız hesab edilməsini və səhmin həmin qiymətə cəmiyyətə satılmasını məhkəmə qaydasında tələb edə bilər.[132]

101.2. Qapalı səhmdar cəmiyyətinin səhmləri girov qoyulduqda və sonradan onlara girov saxlayan tərəfindən tutma yönəldildikdə müvafiq olaraq bu Məcəllənin 101.1-ci maddəsinin qaydaları tətbiq edilir.

101.3. Əgər cəmiyyətin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, qapalı səhmdar cəmiyyətinin səhmləri səhmdar olan fiziki şəxslərin vərəsələrinə və ya hüquqi şəxsin hüquq varislərinə keçir. Cəmiyyət səhmlərin səhmdar olan fiziki şəxsin vərəsələrinə və ya hüquqi şəxsin hüquq varislərinə keçməsinə razılıq verməkdən imtina etdikdə bu Məcəllənin 101.1-ci maddəsinin qaydaları tətbiq edilir.

Maddə 102. Səhmdar cəmiyyətinin nizamnaməsi

102.1. Səhmdar cəmiyyətinin nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilən məlumatlardan savayı, cəmiyyətin buraxdığı səhmlərin kateqoriyaları, onların nominal dəyəri və miqdarı haqqında; cəmiyyətin nizamnamə kapitalının miqdarı haqqında; səhmdarların hüquqları haqqında; cəmiyyəti idarəetmə orqanlarının tərkibi və səlahiyyətləri, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində qərarların yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qəbul olunduğu məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında şərtlər göstərilməlidir.[133]

102.2. Səhmdar cəmiyyətinin nizamnaməsində qanunvericiliyə zidd olmayan digər məlumatlar da nəzərdə tutula bilər.

102.3. Səhmdar cəmiyyətinin nizamnaməsinin tələblərinə riayət edilməsi cəmiyyətin bütün orqanları, vəzifəli şəxsləri və səhmdarları üçün məcburidir.

102.4. Səhmdar cəmiyyəti öz səhmdarlarına nizamnamə, ona edilən əlavə və dəyişikliklər ilə tanış olmaq imkanmı yaratmalıdır. Səhmdarın tələbi ilə nizamnamənin surəti ona verilməlidir.

102.5. *"Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, cəmiyyətin* nizamnaməsində əlavə və dəyişikliklərin edilməsi qərarı səhmdarların ümumi yığıncağında, səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə qəbul edilir.[134]

Maddə 103. Səhmdar cəmiyyətinin nizamnamə kapitalı

103.1. Səhmdar cəmiyyətinin nizamnamə kapitalı cəmiyyətin səhmdarlar tərəfindən əldə edilmiş səhmlərinin nominal dəyərindən təşkil olunur. Səhmdar cəmiyyətinin nizamnamə kapitalına qoyuluşların formaları, *müvafiq olaraq, bu Məcəllə, sahəvi qanunlar* və təsisçilər arasında bağlanmış müqavilə ilə müəyyən edilir. Səhmdar cəmiyyətinin nizamnaməsinə qoyuluşlar pul vəsaitləri, tam ödənilmiş qiymətli kağızlar, digər əmlak, o cümlədən əmlak hüquqları və pul dəyəri olan digər hüquqlar ola bilər. Səhmdar cəmiyyətinin yaradılması zamanı pul olmayan əmlakın dəyəri təsis yığıncağının qərarı ilə, səhmdar cəmiyyəti yaradıldıqdan sonra isə - səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarı ilə müəyyən edilir.[135]

103.2. Cəmiyyətin nizamnamə kapitalı cəmiyyətin kreditorlarının mənafelərinə təminat verən əmlakının minimum miqdarını müəyyənləşdirir. O, müvafiq icra hakimiyyəti orqanı *və maliyyə bazarlarını tənzimləyən qanunlarda nəzərdə tutulmuş hallarda Azərbaycan Respublikasının Mərkəzi Bankı* tərəfindən müəyyənləşdirilmiş miqdardan az ola bilməz. [136]

103.3. Səhmdar cəmiyyətinin təsisçiləri cəmiyyət qeydə alınanadək nizamnamə kapitalını tamamilə ödəməyə borcludurlar. Səhmdar cəmiyyəti təsis edilərkən onun bütün səhmləri təsisçilər arasında bölünməlidir.

103.4. Səhmdarı cəmiyyətin səhmlərini ödəmək vəzifəsindən azad etməyə~~, o cümlədən cəmiyyətə qarşı tələblərin əvəzləşdirilməsi yolu ilə azad etməyə~~ yol verilmir.[137]

103.4-1. Səhmdar cəmiyyətin səsvermə hüququna malik olan səhmdarlarının üçdə iki səs çoxluğu ilə həmin cəmiyyətə qarşı pul tələbinə malik olan şəxslər pul tələblərini əvəzləşdirməklə və cəmiyyətin səhmdarı olmaqla (əlavə buraxılmış səhmləri əldə etməklə) cəmiyyətin səhmlərini ödəmək vəzifəsindən azad oluna bilərlər. Bu cür təşəbbüslə cəmiyyətə qarşı pul tələbi olan şəxslər və (və ya) cəmiyyət çıxış edə bilər. Əlavə buraxılmış səhmlərin cəmiyyətə qarşı pul tələbinin əvəzləşdirilməsi ilə əldə edilməsinə qapalı yerləşdirmə üsulu ilə yol verilir. Maliyyə bazarlarında nəzarət edilən subyektlərə qarşı pul tələbi olan şəxslərin pul tələblərinin həmin subyektlərin nizamnamə kapitalında payla əvəzləşdirilməsi maliyyə bazarlarını tənzimləyən qanunlarda mühüm iştirak payının əldə olunmasına dair tələblər nəzərə alınmaqla həyata keçirilir.[138]

103.4-2. Səhmdar cəmiyyətinin iştirakçılarına, idarəetmə orqanlarının üzvlərinə və ya işçilərinə həvəsləndirmə məqsədilə səhmlər bu Məcəllənin 404-5-ci maddəsinə uyğun olaraq bağlanmış işçilərin səhm iştirakı planı haqqında müqavilə əsasında ödənişsiz verildikdə, bu Məcəllənin 103.4-cü maddəsi tətbiq edilmir.[139]

103.5. Əgər ikinci və hər növbəti maliyyə ili başa çatarkən cəmiyyətin xalis aktivlərinin dəyəri nizamnamə kapitalından az olarsa, cəmiyyət öz nizamnamə kapitalının azalmasını elan etməyə və müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur. *Sahəvi qanunlarda nəzərdə tutulmuş hallar istisna olmaqla, əgər* cəmiyyətin göstərilən aktivlərinin dəyəri nizamnamə kapitalının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş minimum miqdarından az olarsa, cəmiyyət ləğv edilməlidir.[140]

103.6. Cəmiyyətin nizamnaməsində səhmlərin sayının, məcmu nominal dəyərinin və ya bir səhmdara mənsub səslərin maksimum sayının məhdudlaşdırılması müəyyənləşdirilə bilər.

Maddə 104. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının artırılması

104.1. Səhmdarların ümumi yığıncağının qərarına əsasən səhmdar cəmiyyəti səhmlərin nominal dəyərini artırmaq və ya əlavə səhmlər buraxmaq yolu ilə nizamnamə kapitalını artıra bilər. *Cəmiyyətə qarşı pul tələbi olan şəxslər pul tələbinin əvəzləşdirilməsi yolu ilə səhm əldə etmək təşəbbüsü ilə çıxış etdikdə əlavə səhmlərin buraxılması barədə qərarda həmin səhmləri əldə edəcək şəxslər göstərilməlidir.* Səhmdar cəmiyyətinin səhmlərinin nominal dəyərinin artırılması və əlavə səhmlərin buraxılması qaydaları *Azərbaycan Respublikasının Mərkəzi Bankı* tərəfindən müəyyən edilir.[141]

104.1-1. Maliyyə bazarlarını tənzimləyən qanunlarda pul tələblərinin cəmiyyət tərəfindən əlavə buraxılmış səhmlə əvəzləşdirilməsi ilə bağlı müddəaların olduğu hallar istisna olmaqla, cəmiyyətin təsərrüfat fəaliyyəti nəticəsində ödənilməmiş zərəri onun nizamnamə kapitalından artıq olduğu halda, həmin artıq məbləğlə əlavə buraxılmış səhmlə əvəzləşdirilməsi nəzərdə tutulan borc məbləği arasındakı fərq əlavə səhmlər buraxmaq hesabına aradan qaldırıldıqda cəmiyyətə qarşı pul tələblərinin əvəzləşdirilməsinə yol verilir. Cəmiyyətin təsərrüfat fəaliyyəti nəticəsində ödənilməmiş zərəri müəyyən edilərkən əsas vəsaitlərə amortizasiya ayırmaları hesabına yaranan xərclər nəzərə alınmır.[142]

104.2. Sadə (adi) və ya digər səsli səhmlərə sahib olan səhmdarların cəmiyyət tərəfindən əlavə buraxılan səhmləri cəmiyyətin nizamnaməsində müəyyən edilmiş qaydada satın almaqda üstünlük hüququ vardır. Cəmiyyətin səhminin əlli faiz və daha çox hissəsini almaq istəyən şəxs bütün səhmdarlara rəsmi qaydada müvafiq təklif təqdim edir.[143]

Maddə 105. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılması

105.1. Səhmdarların ümumi yığıncağının qərarına əsasən səhmdar cəmiyyəti səhmlərin nominal dəyərini azaltmaq yolu ilə və ya səhmlərin bir hissəsini satın alıb onların ümumi miqdarını azaltmaq yolu ilə nizamnamə kapitalını azalda bilər.

105.2. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılması haqqında səhmdarların ümumi yığıncağının qərarı qəbul edildiyi gündən on beş təqvim günü müddətində cəmiyyət kreditorlara bu barədə yazılı surətdə məlumat verməlidir. Cəmiyyətin kreditorları məlumatı aldıqdan sonra otuz təqvim günü ərzində cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya onlara xitam verilməsini və çəkdikləri zərərin ödənilməsini tələb edə bilərlər.[144]

105.3. Səhmlərin bir hissəsinin satın alınması və ödənilməsi yolu ilə səhmdar cəmiyyətinin nizamnamə kapitalının azaldılmasına bu şərtlə yol verilir ki, belə imkan cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş olsun.

105.4. *Sahəvi qanunlarda nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdar* cəmiyyəti tərəfindən nizamnamə kapitalının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş minimum miqdardan aşağı endirilməsi cəmiyyətin ləğvinə səbəb olur.[145]

Maddə 105-1. Səhmdar cəmiyyətinin yerləşdirilmiş səhmlərinin geri alınması[146]

105-1.1. Səhmdar cəmiyyəti tərəfindən yerləşdirilmiş səhmlərin geri alınması bu Məcəllə və ya cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş hallarda səhmdarların tələbi ilə həyata keçirilir.

105-1.2. Cəmiyyət nizamnamə kapitalının miqdarını və səhmlərin sayını azaltmaq məqsədi ilə, ümumi yığıncağın qərarı əsasında, əvvəl yerləşdirilmiş səhmlərinin bir hissəsini geri ala bilər. Bu zaman dövriyyədə qalan səhmlərin ümumi nominal dəyəri qanunvericiliklə nizamnamə kapitalı üçün müəyyən edilmiş məbləğin minimal həddindən aşağı olmamalıdır.

105-1.3. Səhmlərin geri alınması səhm *mülkiyyətçilərinin* razılığı ilə, səhmlərin geri alınması *fond birjası* vasitəsi ilə həyata keçirildiyi hal istisna olunmaqla, ümumi yığıncaqda səhmin müəyyən olunmuş qiyməti ilə həyata keçirilir.[147]

105-1.4. Aşağıdakı hallarda cəmiyyətin səhmlərinin geri alınması qərarı qəbul edilə bilməz:

105-1.4.1. cəmiyyətin nizamnamə kapitalı tam formalaşmadıqda;

105-1.4.2. cəmiyyətin ləğvi barədə qərar qəbul edildikdə;

105-1.4.3. səhmdarların tələbi əsasında onların səhmlərinin geri alınması başa çatmadıqda.

105-1.5. Geri alınmış səhmlər səsvermə zamanı nəzərə alınmır və onlar üzrə dividendlər hesablanmır. Bu səhmlər geri satın alındığı tarixdən bir il müddətində ya *özgəninkiləşdirilməli*, ya da ümumi yığıncağın qərarı ilə *dövriyyədən çıxarılmalıdır*.[148]

Maddə 106. Səhmdar cəmiyyətinin qiymətli kağızlarının buraxılması[149]

106.1. Səhmdar cəmiyyətinin səhmlərinin, istiqrazlarının və digər növ qiymətli kağızlarının buraxılması, yerləşdirilməsi, dövriyyəsi və *dövriyyədən çıxarılması* bu Məcəlləyə, bu Məcəlləyə müvafiq olaraq qəbul edilmiş digər normativ hüquqi aktlara və cəmiyyətin nizamnaməsinə müvafiq olaraq həyata keçirilir.[150]

106.2. Səhmdar cəmiyyətinin adi və imtiyazlı səhmlər buraxmaq hüququ vardır. Səhmdar cəmiyyətinin nizamnamə kapitalının ümumi həcmində imtiyazlı səhmlərin payı iyirmi beş faizdən çox ola bilməz. İmtiyazlı səhm öz *mülkiyyətçilərinə* səhmdar cəmiyyətinin ləğvindən sonra qalan əmlak hissəsini almaqda başqa səhmdarlara nisbətən üstünlük hüququ və bu cür səhmlərin buraxılması şərtlərində nəzərdə tutulan digər hüquqları verir. Bu Məcəllədə və səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə

tutulmuş hallar istisna olunmaqla, imtiyazlı səhmlər öz *mülkiyyətçilərinə* cəmiyyətin işlərinin idarə olunmasında iştirak etmək hüququ vermir.[151]

106.3. Səhmdar cəmiyyətinin qiymətli kağızlarının birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası bu Məcəllənin 1078-26-cı maddəsinə müvafiq olaraq həyata keçirilir.

Maddə 106-1. Səhmdar cəmiyyətinin səhmdarları[152]

106-1.1. Səhmdar cəmiyyətinin səhmdarı cəmiyyətin bir və ya daha çox sayda səhmlərinin bu Məcəllə ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxsdir.

106-1.2. Bir neçə şəxsə bir səhm mənsub olduğu halda, onlar səhmdar cəmiyyətinə münasibətdə bir səhmdar kimi tanınırlar və öz hüquqlarını nümayəndə vasitəsi ilə həyata keçirə bilərlər.

106-1.3. Səhmdar cəmiyyətinin adi səhminin *mülkiyyətçisinin* qanunvericiliklə müəyyən edilmiş qaydada aşağıdakı hüquqları vardır:[153]

106-1.3.1. cəmiyyətin idarə edilməsində bu Məcəllə, digər qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş qaydada iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

106-1.3.2. qanunvericiliklə müəyyən edilmiş qaydada, cəmiyyətin fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və *maliyyə hesabatları* ilə tanış olmaq;[154]

106-1.3.3. cəmiyyətin səhmdarlarının ümumi yığıncağının çağırılmasını tələb etmək;

106-1.3.4. cəmiyyətin səhmdarlarının ümumi yığıncağının gündəliyində dəyişikliklərin edilməsini *və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını* tələb etmək;[155]

106-1.3.5. cəmiyyətin səhmdarlarının ümumi yığıncağında səsvermə hüququ ilə iştirak etmək *(bu Məcəllənin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla)* və onun protokolunun surətini tələb etmək*;*[156]

106-1.3.6. cəmiyyətin fəaliyyətinin təftiş komissiyası və ya auditor tərəfindən yoxlanılmasını tələb etmək;

106-1.3.7. cəmiyyətin xalis mənfəətindən dividend almaq;

106-1.3.8. cəmiyyətin fəaliyyətinə xitam verildikdə, cəmiyyətin kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra cəmiyyətin yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

106-1.3.8-1. icra orqanının və direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin səhlənkarlığına və səhmdar cəmiyyətə qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;

106-1.3.8-2. cəmiyyətin səhmlərinin satışı prosesində iştirak etmək;

106-1.3.8-3. bağlanmış əqd nəticəsində cəmiyyətə və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;

106-1.3.8-4. bağlanacaq əqdlərin (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq.[157]

106-1.3.9. bu Məcəllədə və səhmdar cəmiyyətinin nizamnaməsində nəzərdə tutulmuş digər hüquqlara malik olmaq;

106-1.3.10. cəmiyyətin səhmdarları arasında onların hüquqlarının bu Məcəllə ilə müəyyən edilmiş qaydada həyata keçirilməsi barədə korporativ müqavilə bağlamaq.[158]

106-1.4. Səhmdar cəmiyyətinin imtiyazlı səhminin (hər bir növ üzrə) *mülkiyyətçisinin* hüquqları bu Məcəllə və səhmdar cəmiyyətinin nizamnaməsi ilə müəyyən edilir.

106-1.5. Səhmdar cəmiyyətinin nizamnaməsində aşağıdakı məsələlər üzrə qərarların qəbul edilməsində imtiyazlı səhm *mülkiyyətçisi* səs hüququ əldə edir:[159]

106-1.5.1. səhmdar cəmiyyətinin yenidən təşkil edilməsi;

106-1.5.2. səhmdar cəmiyyətinin ləğv edilməsi;

106-1.5.3. səhmdara məxsus olan imtiyazlı səhm növü üzrə hüquqlarını məhdudlaşdıran dəyişiklik və əlavələrin nizamnamədə edilməsi.

106-1.6. Səhmdar cəmiyyətinin səhmdarının vəzifələri aşağıdakılardır:

106-1.6.1. qanuna və (və ya) nizamnaməyə əsasən kommersiya sirri və ya məxfi hesab olunan məlumatları üçüncü şəxslərə açıqlamamaq;

106-1.6.2. səhmdarların reyestrində ona dair daxil edilmiş məlumatların dəyişilməsi barədə *mərkəzi depozitara* on təqvim günü ərzində yazılı bildiriş vermək;[160]

106-1.6.3. qanunvericiliklə müəyyən edilmiş başqa vəzifələri yerinə yetirmək.

106-1.7. Səhmdar cəmiyyətinin səhmdarlarının hüquqlarının müdafiəsi bu Məcəllə, digər qanunlar və normativ hüquqi aktlara uyğun olaraq təmin edilir.

Maddə 106-2. Səhmdar cəmiyyətinin səhmdarlarının reyestri

106-2.1. Səhmdar cəmiyyəti dövlət qeydiyyatına alındığı tarixdən otuz təqvim günündən gec olmayaraq səhmdarlarının reyestrinin aparılmasını təmin etməlidir.

106-2.2. Səhmdar cəmiyyətinin səhmdarlarının reyestri mərkəzi depozitar tərəfindən aparılmalıdır.[161]

106-2.3. Səhmdar ildə bir dəfə cəmiyyətin icra orqanından səhmdarların reyestrinin ona təqdim edilməsini tələb edə bilər. Bu halda səhmdar cəmiyyətinin icra orqanı səhmdarların reyestrini beş gün ərzində həmin səhmdara təqdim etməlidir.

Maddə 106-3. Səhmdar cəmiyyətinin mənfəəti və dividendlər

106-3.1. Səhmdar cəmiyyətinin xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Xalis mənfəətin səhmdar cəmiyyətinin maliyyə ili üzrə bölüşdürülməsi səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarı ilə qəbul edilir.

106-3.2. Səhmdar cəmiyyəti nizamnamədə müəyyən edilməsindən asılı olaraq dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər. Səhmdar cəmiyyətinin dividendlərin ödənilməsi barədə öhdəlikləri onların

ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır *və 30 (otuz) gün müddətində icra edilir. Səhmdarların tərkibinin dəyişməsi dividendlərin ödənilməsi barədə qərarın bu Məcəllə ilə müəyyən edilmiş müddətdə və qaydada icra olunmasına təsir etmir.*[162]

106-3.3. Adi səhm üzrə dividend səhmdar cəmiyyətinin xalis mənfəətinin səhmdarlara hər bir adi səhm üzrə hesablanmış ödənişlər şəklində bölüşdürülmüş hissəsidir.

106-3.4. İmtiyazlı səhm üzrə dividend səhmdar cəmiyyətinin təsərrüfat fəaliyyətinin nəticəsindən asılı olmayaraq, imtiyazlı səhm *mülkiyyətçilərinə*, bir qayda olaraq, səhmin nominal dəyərinin sabit faizi şəklində ödənilən vəsaitdir. Həmin vəsaitin ödənilməsini təmin etmək üçün səhmdar cəmiyyəti öz vəsaitləri hesabına xüsusi fondlar yarada bilər.[163]

106-3.5. Dividendlər və onların ödənilməsi qaydası haqqında qərar (həmin məsələ nizamnamədə müəyyən edilmədikdə) cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və ya həmin orqanlar formalaşdırılmadıqda cəmiyyətin icra orqanının təklifi ilə ümumi yığıncaq tərəfindən qəbul edilir.

106-3.6. Səhmdar cəmiyyəti adi səhmlər üzrə dividendlərin hesablanmasını (bölüşdürülməsini) imtiyazlı səhmlərin bütün növləri üzrə dividendlərin hesablanmasından (bölüşdürülməsindən) sonra həyata keçirir.

106-3.7. Dividendlərin hesablanmasında (bölüşdürülməsində) ilk növbəlilik hüququnu verən imtiyazlı səhmlər üzrə dividendlər digər imtiyazlı səhmlər üzrə dividendlərdən əvvəl bölüşdürülür.

106-3.8. Dividendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır.

106-3.9. Əgər səhmdar cəmiyyətinin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, səhmdar cəmiyyəti dividendləri elan edə və ödəyə bilməz.

Maddə 107. Səhmdar cəmiyyətində idarəetmə

107.1. Səhmdar cəmiyyətinin ali idarəetmə orqanı onun səhmdarlarının ümumi yığıncağıdır. Səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

107.1.1. cəmiyyətin nizamnaməsini və nizamnamə kapitalının miqdarını dəyişdirmək;

107.1.2. cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və təftiş komissiyasının üzvlərini (müfəttişi) seçmək və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək;

107.1.3. cəmiyyətin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə vaxtından əvvəl xitam vermək, bir şərtlə ki, cəmiyyətin nizamnaməsində bu məsələlərin həlli direktorlar şurasının (müşahidə şurasının) səlahiyyətinə aid edilməsin;

107.1.4. cəmiyyətin illik hesabatlarını, *maliyyə hesabatlarını* təsdiq etmək, mənfəətini və zərərini bölüşdürmək;[164]

107.1.5. cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;

107.1.6. bu Məcəllənin 49-1.2-ci və 99.3-cü maddələrində nəzərdə tutulmuş əqdlərin bağlanması haqqında qərar qəbul etmək.[165]

107.2. Bu Məcəllə ilə səhmdarların ümumi yığıncağının müstəsna səlahiyyətinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən cəmiyyətin icra orqanlarına verilə bilməz.

107.3. Səhmdarlarının sayı əllidən çox olan cəmiyyətdə, *habelə ictimai əhəmiyyətli qurumlarda* direktorlar şurası (müşahidə şurası) yaradılır. Direktorlar şurasının (müşahidə şurasının) yaradıldığı halda cəmiyyətin nizamnaməsində onun müstəsna səlahiyyəti müəyyənləşdirilməlidir. Nizamnamə ilə direktorlar şurasının (müşahidə şurasının) müstəsna səlahiyyətinə aid edilmiş məsələlər həll edilmək üçün onun tərəfindən cəmiyyətin icra orqanlarına verilə bilməz.[166]

107.4. Cəmiyyətin icra orqanı kollegial (idarə heyəti, müdiriyyət) *və ya* təkbaşçı (direktor, baş direktor) ola bilər. O, cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, direktorlar şurasına (müşahidə şurasına) və səhmdarların ümumi yığıncağına hesabat verir. Bu Məcəllə ilə və ya cəmiyyətin nizamnaməsi ilə cəmiyyətin digər idarəetmə orqanlarının müstəsna səlahiyyətinə aid edilməmiş bütün məsələlərin həlli cəmiyyətin icra orqanının səlahiyyətinə aiddir. *"Banklar haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların* ümumi yığıncağının qərarı ilə cəmiyyətin icra orqanının səlahiyyətləri müqaviləyə əsasən başqa kommersiya təşkilatına və ya fərdi sahibkara (idarəçiyə) verilə bilər.[167]

* (Azərbaycan Respublikasının 2026-cı il 14 iyul tarixli **451-VIIQD** nömrəli Qanunu ilə 107.4-cü maddənin dördüncü cümləsinə edilmiş dəyişiklik 2027-ci il yanvarın 24-dən qüvvəyə minir.)

107.5. Səhmdar cəmiyyətinin idarəetmə orqanlarının səlahiyyətləri, habelə onların qərarlar qəbul etməsi və cəmiyyətin adından çıxış etməsi qaydası, *müvafiq olaraq, bu Məcəlləyə, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunlarına* və cəmiyyətin nizamnaməsinə uyğun olaraq müəyyənləşdirilir.[168]

107.6. Bu Məcəllənin 99-cu maddəsində göstərilən sənədlərin dərci zamanı səhmdar cəmiyyəti illik maliyyə *hesabatlarının* yoxlanılması üçün *müstəqil* auditoru cəlb etməyə borcludur. Nizamnamə kapitalında məcmu payı on faiz və ya daha çox olan səhmdarların tələbi ilə səhmdar cəmiyyətinin fəaliyyətinin auditor yoxlanışı hər bir vaxt keçirilməlidir. Səhmdar cəmiyyətinin fəaliyyətinin auditor yoxlanışının keçirilməsi qaydası qanunvericilik və cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilir.[169]

Maddə 107-1. Səhmdarların ümumi yığıncağının çağırılması[170]

107-1.1. Səhmdarların ümumi yığıncağı növbəti və növbədənkənar ola bilər.

107-1.2. Səhmdarların növbəti ümumi yığıncağı ildə bir dəfədən az olmayaraq çağırılmalıdır (illik ümumi yığıncaq).

107-1.3. *"Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların* illik ümumi yığıncağı maliyyə ili bitdikdən sonra altı aydan gec olmayaraq, direktorlar şurası (müşahidə şurası) tərəfindən çağırılır və bu

barədə səhmdarlara məlumat verilir. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası) olmadıqda, səhmdarların ümumi yığıncağının çağırılması cəmiyyətin icra orqanı tərəfindən həyata keçirilir.[171]

107-1.4. Səhmdarların ümumi yığıncağının çağırılmasına qırx beş gün qalmış yığıncağın çağırılması barədə *media* ilə məlumat verilməli (qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olunmaqla), habelə səhmdarlara və ya nominal saxlayıcılara bu barədə yazılı bildiriş göndərilməlidir. Nominal saxlayıcı həmin bildirişin səhmdara çatdırılmasını təmin etməlidir.[172]

107-1.5. Səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişdə aşağıdakılar göstərilməlidir:

107-1.5.1. cəmiyyətin adı və olduğu yer;

107-1.5.2. səhmdarların ümumi yığıncağının keçirilmə tarixi, vaxtı və ünvanı;

107-1.5.3. səhmdarların ümumi yığıncağının gündəliyi;

107-1.5.4. səhmdarların ümumi yığıncağının gündəliyi üzrə materiallarla tanış olunma qaydası.

107-1.6. *Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların* növbədənkənar ümumi yığıncağı direktorlar şurasının (müşahidə şurasının) öz təşəbbüsü ilə və ya təftiş komissiyasının (müfəttişin), yaxud səsli səhmlərin on faizinə malik olan səhmdarların yazılı tələbi ilə cəmiyyətin icra orqanı tərəfindən çağırılır. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası) olmadıqda səhmdarların növbədənkənar ümumi yığıncağı icra orqanının təşəbbüsü ilə çağırılır.[173]

107-1.7. Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması tələbində gündəliyə təklif olunan məsələlər göstərilməlidir. Həmin məsələlər yığıncağın gündəliyinə mütləq salınmalıdır.

107-1.8. Səhmdarların növbədənkənar ümumi yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı aşağıdakıları yerinə yetirməlidir:

107-1.8.1. üç iş günü müddətində səhmdarların ümumi yığıncağının vaxtını və yerini təyin edib, qapalı səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının çağırılması halları istisna olunmaqla, bu barədə *mediada* elan verməlidir;

107-1.8.2. beş iş günü müddətində səhmdarların ümumi yığıncağının çağırılması barədə bildirişləri səhmdarlara göndərməlidir;

107-1.8.3. otuz gündən tez, qırx beş gündən gec olmayaraq səhmdarların ümumi yığıncağının keçirilməsini təmin etməlidir.

Maddə 107-2. Səhmdarların ümumi yığıncağında yetərsay

107-2.1. Səhmdarların ümumi yığıncağında səsli səhmlərin *ən azı* altmış faizinin *mülkiyyətçiləri* iştirak etdikdə ümumi yığıncaq səlahiyyətlidir.[174]

107-2.2. Səhmdarların ümumi yığıncağında yetərsay olmadıqda, ümumi yığıncaq bu Məcəllənin 107-1.8-ci maddəsində müəyyən edilmiş qaydada *"Banklar haqqında Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, yenidən* çağırılmalıdır. Bu zaman ümumi yığıncağın gündəliyi dəyişdirilməməlidir. Yenidən

çağırılan ümumi yığıncaq səsli səhmlərin 40 faizinin *mülkiyyətçiləri* iştirak etdikdə səlahiyyətlidir.[175]

107-2.3. Yenidən çağırılan yığıncaqda yetərsay olmadıqda, ümumi yığıncaq bu Məcəllənin 107-1.8-ci maddəsində müəyyən edilmiş qaydada, gündəliyi dəyişdirilmədən *"Banklar haqqında Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallar istisna olmaqla, təkrarən* çağırılmalıdır. Təkrarən çağırılan ümumi yığıncaq səsli səhmlərin 25 faizinin *mülkiyyətçiləri* iştirak etdikdə səlahiyyətlidir.[176]

107-2.4. 107-2.3-cü maddəyə əsasən təkrarən çağırılan ümumi yığıncağın keçirilməsi üçün yetərsay təmin olunmadıqda, cəmiyyət *Azərbaycan Respublikasının Mərkəzi Banka* məlumat verərək yetərsaydan asılı olmadan ümumi yığıncağın qərarı ilə və ya *Azərbaycan Respublikasının Mərkəzi Bankın* iddiası əsasında məhkəmənin qərarı ilə ləğv edilə bilər. Səhmdarların cəmiyyətin ləğv edilməsi haqqında ümumi yığıncağın qərarından məhkəməyə şikayət etmək hüququ vardır.[177]

Maddə 107-3. Səhmdarın ümumi yığıncaqda iştirakı qaydası

107-3.1. Səhmdar ümumi yığıncaqda iştirak hüququnu bilavasitə özü və ya nümayəndəsi vasitəsi ilə həyata keçirir. Bu zaman səhmdarın nümayəndəsi qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilmiş etibarnaməyə malik olmalıdır.

107-3.2. Cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş halda, səhmdar ümumi yığıncağın gündəliyində olan məsələyə münasibətini dəqiq və şərtsiz bildirməklə (lehinə, əleyhinə, bitərəf), imzası qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və sair) təsdiq edilməklə, yazılı sənəd vasitəsi ilə səsvermədə qiyabi iştirak edə bilər.

107-3.3. Qiyabi səsvermənin reqlamenti cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

107-3.4. Səhm bir neçə şəxsin ümumi birgə mülkiyyətində olduğu halda, ümumi yığıncaqda səsvermə səlahiyyəti onun mülkiyyətçilərinin birinə və ya onların ümumi nümayəndəsinə qanunvericilikdə müəyyən olunmuş qaydada həvalə edilir.

107-3.5. Bu Məcəllənin 65-1.8.6-cı maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdarların ümumi yığıncağında səsvermə "bir səsli səhm - bir səsdir" prinsipi əsasında həyata keçirilir.[178]

Maddə 107-4. Hesablama komissiyası

107-4.1. Səhmdarlarının sayı yüzdən çox olan cəmiyyətlərin ümumi yığıncaqlarında səsvermənin nəticələrinin müəyyən edilməsi üçün sayı üç nəfərdən az olmayan hesablama komissiyası yaradılmalıdır. Hesablama komissiyasına direktorlar şurasının (müşahidə şurasının) üzvləri, təftiş komissiyasının üzvləri (müfəttiş), icra orqanlarının üzvləri (təkbaşçı icra orqanı) və həmin vəzifələrə (vəzifəyə) seçilməyə namizədlər daxil edilməməlidir.

107-4.2. Hesablama komissiyasının yaradılması qaydası cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

107-4.3. Hesablama komissiyasının protokolu ümumi yığıncağın protokoluna əlavə olunur.

Maddə 107-5. Səhmdarların ümumi yığıncağının qərarı

107-5.1. Səhmdarların ümumi yığıncağının qərarı, bu Məcəllə və cəmiyyətin nizamnaməsi ilə başqa hal nəzərdə tutulmadıqda, bu Məcəllənin 107-3.5-ci maddəsinin müddəaları nəzərə alınmaqla, ümumi yığıncaqda iştirak edən səhmdarların sadə səs çoxluğu ilə qəbul edilir. Cəmiyyətin yenidən təşkili, ləğvi, nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi haqqında qərarlar *"Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qayda istisna olmaqla,* səhmdarların ümumi yığıncağında səsvermə hüququna malik olan səhmdarların üçdə iki səs çoxluğu ilə qəbul edilir.[179]

107-5.2. Səhmdarların ümumi yığıncağının gündəliyinə daxil edilməmiş məsələlər üzrə qərar qəbul edə bilməz.

107-5.3. Səhmdarların ümumi yığıncağı tərəfindən qəbul edilmiş qərarlar on beş təqvim günündən gec olmayaraq səhmdarlara elan edilməlidir.

107-5.4. Səhmdarların ümumi yığıncağının qərarından səhmdar məhkəməyə şikayət edə bilər.

Maddə 107-6. Səhmdarların ümumi yığıncağının protokolu

107-6.1. Səhmdarların ümumi yığıncağının protokolu yığıncaq bitdikdən sonra üç iş günündən gec olmayaraq iki nüsxədə tərtib olunur, sədrlik edən şəxs və katib tərəfindən imzalanır və möhürlənir.

107-6.2. Səhmdarların ümumi yığıncağının protokolunda aşağıdakılar göstərilir:

107-6.2.1. ümumi yığıncağın keçirilmə vaxtı və yeri;

107-6.2.2 ümumi yığıncağın gündəliyi;

107-6.2.3. ümumi yığıncağın iştirakçılarının səsli səhmlərinin sayı;

107-6.2.4. iştirak edən səsvermə hüququna malik olan səhmdarların sayı;

107-6.2.5. çıxışların xülasəsi;

107-6.2.6. səsə qoyulan hər bir məsələ üzrə səsvermənin nəticələri;

107-6.2.7. ümumi yığıncaq tərəfindən qəbul edilmiş qərarın dəqiq və səlis ifadə olunmuş mətni.

107-6.3. Səhmdarın tələbi ilə protokolun surəti ona təqdim edilməlidir.

Maddə 107-7. Səhmdar cəmiyyətinin direktorlar şurası (müşahidə şurası)

107-7.1. Bu Məcəllənin 107.3-cü maddəsi ilə nəzərdə tutulmuş halda cəmiyyətin direktorlar şurası (müşahidə şurası) yaradılır. Cəmiyyətin direktorlar şurası (müşahidə şurası) öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və cəmiyyətin fəaliyyəti üzərində nəzarəti həyata keçirir.

107-7.2. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvlərinin sayı və onlara olan tələblər cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir. *Cəmiyyətin direktorlar*

şurasının (müşahidə şurasının) üzvləri üçün sayı və onlara dair tələblər qanunla da müəyyən edilə bilər.[180]

107-7.3. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) tərkibi nizamnamədə nəzərdə tutulmuş sayın yarısına qədər azaldıqda, otuz təqvim günü ərzində cəmiyyətin növbədənkənar ümumi yığıncağı çağırılaraq, direktorlar şurasına (müşahidə şurasına) yeni üzvlər seçilməlidir.

107-7.4. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri ümumi yığıncaqda üç ildən artıq olmayan müddətə bu Məcəllə ilə və cəmiyyətin nizamnaməsi ilə nəzərdə tutulmuş qaydada seçilirlər.

107-7.5. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvü fiziki şəxs olmalıdır. Direktorlar şurasının (müşahidə şurasının) üzvlüyünə, nizamnamədə başqa hal nəzərdə tutulmamışdırsa, cəmiyyətin səhmdarı olmayan şəxs də seçilə bilər. Cəmiyyətin icra orqanlarının üzvləri (təkbaşçı icra orqanı) direktorlar şurasına (müşahidə şurasına) üzv seçilə bilməz.

107-7.6. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) və ya onun üzvünün səlahiyyətinə vaxtından əvvəl xitam verilməsi ümumi yığıncağın qərarı ilə həyata keçirilə bilər.

Maddə 107-8. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) sədri

Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) sədri səhmdarların ümumi yığıncağı tərəfindən direktorlar şurasının (müşahidə şurasının) üzvləri arasından seçilir. Direktorlar şurasının (müşahidə şurasının) sədri şuraya rəhbərlik edir.

Maddə 107-9. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) iclası

107-9.1. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) sədri onun iclaslarım üç ayda bir dəfədən az olmayaraq çağırır və iclaslara sədrlik edir. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin), icra orqanının, şura üzvlərinin, *habelə qanun* və nizamnamə ilə müəyyən edilə bilən digər şəxslərin tələbi ilə də direktorlar şurasının (müşahidə şurasının) iclası şuranın sədri tərəfindən çağırılır. Şuranın iclasının keçirilməsi qaydaları cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.[181]

107-9.2. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) iclasında hər üzv bir səsə malik olmaqla, qərarlar sadə səs çoxluğu ilə qəbul edilir. Səslərin sayı bərabər bölünərsə, şuranın sədrinin səsi qərarın qəbul edilməsi və ya rədd edilməsi üçün həlledici hesab edilir.

107-9.3. Səhmdar cəmiyyətinin direktorlar şurasının (müşahidə şurasının) iclası çağırıldıqda, iclasın yerini, vaxtını, iştirakçılarmı, gündəliyini, çıxışların xülasəsini, səsvermənin nəticələrini və qərarlarını əks etdirən protokol tərtib edilir. Həmin protokol şuranın sədri tərəfindən imzalanır.

Maddə 107-10. Səhmdar cəmiyyətinin icra orqanı

107-10.1. Cəmiyyətin icra orqanına direktorlar şurasının (müşahidə şurasının) üzvləri seçilə bilməz.

107-10.2. Cəmiyyətin icra orqanının səlahiyyətlərinə, *müvafiq olaraq, bu Məcəllə, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunları* və nizamnamə ilə cəmiyyətin idarəetmə orqanlarının müstəsna səlahiyyətlərinə aid edilməmiş bütün məsələlər daxildir.[182]

107-10.3. Cəmiyyətin kollegial icra orqanının üzvlərinin sayı və tərkibi, habelə fəaliyyətinin qaydaları, *müvafiq olaraq, cəmiyyətin nizamnaməsi, "Banklar haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları ilə* müəyyən edilir.[183]

107-10.4. Cəmiyyətin icra orqanının üzvlərinin eyni zamanda digər təşkilatda vəzifə tutmasına, qanunvericiliyə zidd olmadıqda, cəmiyyətin ümumi yığıncağının və ya direktorlar şurasının (müşahidə şurasının) razılığı ilə yol verilir.

107-10.5. Cəmiyyətin icra orqanı üzvlərinin şəxsi marağı ilə cəmiyyətin maraqları arasında ziddiyyətlərə gətirib çıxara bilən, habelə bu Məcəllənin 49-1.6-cı maddəsində nəzərdə tutulmuş hallarda cəmiyyətin icra orqanının rəhbəri və ya digər üzvləri müvafiq məlumatı cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına), o olmadıqda, səhmdarların ümumi yığıncağına yazılı şəkildə təqdim etməlidirlər. Cəmiyyətin maraqlarına zidd olan əqdlərin bağlanılması, müvafiq olaraq, bu Məcəllə, "Banklar haqqında" və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunları ilə ayrı qayda nəzərdə tutulmamışdırsa, müvafiq idarəetmə orqanının qərarı əsasında həyata keçirilə bilər.[184]

107-10.6. Cəmiyyətin icra orqanının və ya direktorlar şurasının (müşahidə şurasının) üzvü mülkiyyətində olan qiymətli kağızlarla əqdi bağlamaqdan əvvəl bu barədə məlumatı *mediada* açıqlamalıdır.

107-10.7. Cəmiyyətin səhmlərinin iyirmi faizinə malik olan səhmdar cəmiyyətinin icra orqanının üzvü seçilə bilməz.

Maddə 107-11. Səhmdar cəmiyyətinin təftiş komissiyası (müfəttişi)

107-11.1. Səhmdarların sayı əllidən çox olan cəmiyyətlərdə maliyyə-təsərrüfat fəaliyyətinə nəzarətin həyata keçirilməsi üçün ümumi yığıncaqda təftiş komissiyası (müfəttiş) seçilir (təyin edilir). Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda səhmdarların sayı əllidən çox olmayan cəmiyyətlərdə də təftiş komissiyası (müfəttiş) seçilə (təyin edilə) bilər.

107-11.2. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) formalaşdırılması qaydaları, onun tərkibi və fəaliyyətinin qaydası cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

107-11.3. Cəmiyyətin təftiş komissiyasının üzvlüyünə (müfəttiş kimi) fiziki şəxslər seçilir. Təftiş komissiyasının üzvü (müfəttiş) cəmiyyətin səhmdarı, direktorlar şurasının (müşahidə şurasının) və cəmiyyətin icra orqanlarının üzvü ola bilməz.

107-11.4. Cəmiyyətin təftiş komissiyasının üzvlərinin (müfəttişin) səlahiyyət müddəti nizamnamə ilə üç ildən artıq olmayan müddətə müəyyən edilir.

107-11.5. Cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyətinin təftişi cəmiyyətin təftiş komissiyasının (müfəttişin) təşəbbüsü ilə ümumi yığıncağın və ya direktorlar şurasının (müşahidə şurasının) qərarı ilə və ya cəmiyyətin səsli səhmlərinin on faizindən artıq hissəsinə malik olan səhmdarların və cəmiyyətin icra orqanın tələbi ilə həyata keçirilir.

107-11.6. Cəmiyyətin təftiş komissiyasının (müfəttişin) tələbi ilə cəmiyyətin bütün orqanları və vəzifəli şəxsləri cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar olan sənədləri təqdim etməlidirlər.

107-11.7. Bu maddənin tələbləri sığortaçılara, banklara və xarici bankların yerli filiallarına şamil edilmir.[185]

Maddə 107-12. Səhmdar cəmiyyətinin audit komitəsi

107-12.1. Səhmdarların sayı əllidən çox olan cəmiyyətlərdə, habelə ictimai əhəmiyyətli qurumlarda daxili audit siyasətinin və strategiyasının hazırlanması, həyata keçirilməsi və auditor nəzarətinin təşkili üçün direktorlar şurası (müşahidə şurası) tərəfindən audit komitəsi yaradılır. Cəmiyyətin nizamnaməsində nəzərdə tutulduğu halda səhmdarların sayı əllidən çox olmayan cəmiyyətlərdə də audit komitəsi yaradılır.

107-12.2. Cəmiyyətin audit komitəsinin formalaşdırılması qaydaları, onun tərkibi və fəaliyyətinin qaydası qanunla və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

107-12.3. Cəmiyyətin icra orqanının üzvləri və (və ya) cəmiyyətin iştirakçıları audit komitəsinin üzvü ola bilməzlər. Cəmiyyətin direktorlar şurasının (müşahidə şurasının) üzvləri audit komitəsinin üzvü ola bilərlər.[186]

107-12.4. Cəmiyyətin fəaliyyətinin daxili auditi cəmiyyətin audit komitəsinin təşəbbüsü ilə ümumi yığıncağın və ya direktorlar şurasının (müşahidə şurasının) qərarı ilə və ya cəmiyyətin səsli səhmlərinin on faizindən artıq hissəsinə malik olan səhmdarların və cəmiyyətin icra orqanının tələbi ilə həyata keçirilir.

107-12.5. Cəmiyyətin audit komitəsinin tələbi ilə cəmiyyətin bütün orqanları və vəzifəli şəxsləri cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti ilə əlaqədar olan sənədləri təqdim etməlidirlər.

107-12.6. Audit komitəsi cəmiyyətin direktorlar şurasına (müşahidə şurasına) tabedir.[187]

Maddə 108. Səhmdar cəmiyyətinin yenidən təşkili və ləğvi

108.1. Səhmdar cəmiyyəti səhmdarların ümumi yığıncağının qərarı ilə könüllü surətdə yenidən təşkil və ya ləğv edilə bilər. Səhmdar cəmiyyətinin yenidən təşkilinin və ləğvinin başqa əsasları və qaydası, *müvafiq olaraq, bu Məcəllə, "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında" və "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının qanunları* ilə müəyyənləşdirilir.[188]

108.2. *"Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında" və "Kredit büroları haqqında" Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, səhmdar* cəmiyyəti məhdud məsuliyyətli cəmiyyətə çevrilə bilər.[189]

Maddə 109. Kooperativlər haqqında əsas müddəalar[190]

109.1. Kooperativ fiziki və (və ya) hüquqi şəxslərin birgə fəaliyyət göstərmək üçün üzvlüyə əsaslanan könüllü birliyi olub iştirakçılarının maddi və başqa tələbatının onun üzvlərinin əmlak pay haqlarının birləşdirilməsi yolu ilə ödənilməsi məqsədilə yaradılır.

109.2. Kooperativ üzvü bu Məcəllənin tələblərinə cavab verən və kooperativin nizamnaməsində müəyyənləşdirilən qaydada və həcmdə üzvlük haqqı, mütləq və əlavə pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak edən və səs hüququ *(bu Məcəllənin 49-1.2-ci və 49-1.3-cü maddələrində nəzərdə tutulmuş hallar istisna olmaqla)* olan fiziki və (və ya) hüquqi şəxsdir. [191]

109.3. Kooperativin ortaq (assosiativ) üzvü bu Məcəllənin tələblərinə cavab verən və kooperativin nizamnaməsində müəyyənləşdirilən qaydada və həcmdə üzvlük haqqı və yalnız mütləq pay haqqı ödəmiş və kooperativə qəbul edilmiş, onun fəaliyyətində iştirak etmək və bu Məcəllədə nəzərdə tutulan hallar istisna olmaqla səs hüququna malik olmayan fiziki və (və ya) hüquqi şəxsdir.

109.4. Kooperativ üzvünün əmlak pay haqqı nizamnamə ilə müəyyənləşdirilən qaydada və həcmdə üzvlər tərəfindən ödənilən daşınar və (və ya) daşınmaz əmlakdan, habelə pulla qiymətləndirilən əmlak hüquqlarından ibarət olan pay haqqıdır. Əmlak pay haqqı mütləq və əlavə ola bilər.

109.5. Mütləq əmlak pay haqqı üzv tərəfindən mütləq qaydada ödənilən, kooperativin fəaliyyətində iştirak etmək, səs vermək və əsas kooperativ ödənişlərini almaq hüququ verən əmlak payıdır.

109.6. Əlavə əmlak pay haqqı üzv tərəfindən bu Məcəllənin 109.5-ci maddəsində göstərilən pay haqqından əlavə, öz arzusu ilə ödənilən və kooperativ ödənişlərindən (əsas kooperativ ödənişlərindən) başqa, həmçinin dividend (əlavə kooperativ ödənişləri) almaq hüququ verən paydır.

109.7. Üzvlük haqqı iştirakçının kooperativ üzvlüyünə daxil olması zamanı bununla bağlı xərclərin ödənilməsi üçün verilən pul məbləğidir. Kooperativ üzvünün kooperativ ödənişləri (əsas kooperativ ödənişləri) və dividend (əlavə kooperativ ödənişləri) almaq hüququ vardır.

109.8. Kooperativ ödənişləri (əsas kooperativ ödənişləri) üzvlərin mütləq əmlak pay haqqına, kooperativdə şəxsi əməyinə və digər növ fəaliyyətinə mütənasib surətdə onlara ödənilən kooperativ mənfəətinin bir hissəsidir.

109.9. Dividend (əlavə kooperativ ödənişləri) yalnız səs hüququna malik olan üzvlərə onların əlavə əmlak pay haqlarına və kooperativin ortaq (assosiativ) üzvlərinin mütləq əmlak pay haqlarına mütənasib surətdə ödənilən kooperativ mənfəətinin bir hissəsidir.

109.10. Kooperativin nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilən məlumatlardan savayı kooperativ üzvlərinin pay haqlarının miqdarı haqqında; pay haqlarının verilməsi qaydası və onların verilməsi öhdəliyinin pozulmasına görə kooperativ üzvlərinin məsuliyyəti haqqında; kooperativin idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində qərarların yekdilliklə və ya şərtləşdirilmiş səs çoxluğu ilə qəbul olunduğu məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında; kooperativin düşdüyü zərərin ödənilməsi qaydası haqqında şərtləri, sənədlərin tərtibi qaydaları (kooperativə qəbulun, üzvlərin siyahısının və pay haqlarının qəbulunun rəsmiləşdirilməsi, kooperativ üzvlərinin

ümumi yığıncağının və digər idarəetmə orqanlarının protokollarının tərtibi və sair) göstərilməlidir.

109.11. Kooperativ qanunla qadağan olmayan istənilən sahədə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada sahibkarlıq fəaliyyətini həyata keçirə bilər. Fəaliyyət xarakterinə görə kooperativlər istehsal, istehlak, qarışıq (istehsal-istehlak) və digər növlərdə ola bilər.

109.12. Kooperativ öz üzvləri ilə onların istehsal etdiyi məhsulları kooperativə satmaq, iş və xidmətləri yerinə yetirmək barədə müqavilələr bağlaya bilər.

109.13. Dövlət orqanları, bələdiyyələr, digər fiziki və hüquqi şəxslər koopertivlə münasibətlərini müqavilə əsasında qururlar. Dövlət orqanları və bələdiyyələr Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallar istisna olmaqla, kooperativlərin təsərrüfat, maliyyə, təşkilati (idarəetmə orqanlarının formalaşdırılması) və digər fəaliyyətinə müdaxilə etmirlər.

109.14. Kooperativdə maliyyə-təsərrüfat fəaliyyətinin operativ və mühasibat uçotu, statistika hesabatı Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada aparılır.

109.15. Kooperativ öz fəaliyyətini həyata keçirmək üçün muzdla işçilər tutmaq hüququna malikdir. Kooperativin belə işçilərlə əmək münasibətləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə tənzimlənir.

109.16. Kooperativin, şəxsi əməyini tətbiq etməklə onun fəaliyyətində iştirak edən üzvləri ilə əmək münasibətləri Azərbaycan Respublikasının əmək qanunvericiliyi, bu Məcəllə və kooperativin nizamnaməsi ilə tənzimlənir.

109.17. Kooperativin adında onun fəaliyyətinin əsas məqsədi, habelə "kooperativ" sözü olmalıdır.

109.18. Kənd təsərrüfatı kooperativlərinin təşkili və fəaliyyəti bu Məcəllə və "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.[192]

Maddə 109-1. Kooperativin yaradılması[193]

109-1.1. Kooperativ beşdən az olmayan fiziki və (və ya) hüquqi şəxslər tərəfindən yaradılır.**KMQ16**

109-1.2. Kooperativ yaratmaq məqsədilə fiziki və (və ya) hüquqi şəxslər təşəbbüs qrupu yaradırlar. Təşəbbüs qrupunun vəzifələrinə aşağıdakılar daxildir:

109-1.2.1. pay haqqı fondunun həcmi və onun yaranma mənbələri göstərilməklə kooperativin nəzərdə tutulan fəaliyyətinin əsaslandırılması;

109-1.2.2. kooperativin nizamnamə layihəsinin hazırlanması;

109-1.2.3. kooperativin üzvlüyünə daxil olmaq barədə fiziki və (və ya) hüquqi şəxslərdən ərizələrin qəbul edilməsi;

109-1.2.4. kooperativin təsis yığıncağının hazırlanması və keçirilməsi.

109-1.3. Kooperativin təsis yığıncağı kooperativin yaradılması və onun üzvlüyünə daxilolma barədə qərar qəbul edir; kooperativin nizamnaməsini təsdiq edir; bu Məcəllənin 111-ci maddəsini müddəalarını nəzərə almaqla kooperativin idarəetmə orqanlarını formalaşdırır.

109-1.4. Kooperativin üzvləri öz aralarında bu Məcəllənin 45.2-ci maddəsinə uyğun olaraq təsis müqaviləsi bağlayırlar.

109-1.5. Kooperativin təsis yığıncağının qərarı protokolla rəsmiləşdirilir.

Maddə 109-2. Kooperativin üzvləri

109-2.1. Kooperativin nizamnaməsini qəbul edən və nizamnamə ilə müəyyənləşdirilmiş qaydada və həcmdə üzvlük haqqı və əmlak pay haqqı ödəyən 16 yaşına çatmış fiziki şəxslər və (və ya) hüquqi şəxslər kooperativin üzvü ola bilərlər.

109-2.2. Kooperativin üzvü olan hüquqi şəxslə kooperativdə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada müvafiq səlahiyyət verdikləri nümayəndələri vasitəsilə təmsil olunmalıdırlar.

109-2.3. Kooperativin üzvləri kooperativin işində onun fəaliyyət xarakterinə əsasən şəxsi əməyini tətbiq etməklə və ya tətbiq etməməklə iştirak edirlər.

109-2.4. Kooperativin nizamnaməsində ayrı hal nəzərdə tutulmayıbsa, kooperativin üzvü başqa kooperativin də üzvü ola bilər.

109-2.5. Kooperativin üzvlərinə [ortaq (assosiativ) üzvlər istisna olmaqla] onların mütləq əmlak paylarına görə dividendlər ödənilmir.

109-2.6. Kooperativin üzvü yaşına və səhhətinə görə pensiyaya çıxdıqda, kooperativdən kənarda seçkili işə keçdikdə, hərbi xidmətə çağırıldıqda və kooperativin nizamnaməsində nəzərdə tutulmuş digər hallarda kooperativin ümumi yığıncağının qərarına əsasən kooperativdə ortaq (assosiativ) üzvlüyə keçə bilər.

109-2.7. Kooperativin ortaq (assosiativ) üzvünün mütləq əmlak pay haqqının miqdarı və pay haqqı üzrə ödənilən dividendlərin şərtləri kooperativin nizamnaməsinə uyğun olaraq ortaq (assosiativ) üzvlə kooperativ arasında bağlanılan müqavilə əsasında müəyyənləşdirilir. Kooperativin ortaq (assosiativ) üzvünün mütləq əmlak pay haqqının miqdarı kooperativin nizamnaməsində müəyyənləşdirildikdə kooperativin digər üzvlərini mütləq pay haqqı miqdarından artıq məbləğdə müəyyənləşdirilə bilər.

109-2.8. Kooperativin ortaq (assosiativ) üzvü, onun kooperativdə üzvlüyü ilə bağlı şərtlərin kooperativin nizamnaməsində dəyişdirilməsi halları istisna olmaqla səs hüququna malik deyildir.

Maddə 109-3. Kooperativ üzvlüyünə qəbul

Kooperativin üzvlüyünə qəbul, üzv olmaq istəyən şəxsin kooperativə rəsmi müraciəti əsasında nizamnamə ilə müəyyənləşdirilmiş qaydada həyata keçirilir. Kooperativin üzvünə üzvlük kitabçası verilir. Kitabçada göstərilən yazıların məzmunu kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir.

Maddə 109-4. Kooperativ üzvlərinin hüquq və vəzifələri

109-4.1. Kooperativin üzvlərinin aşağıda göstərilən hüquqları vardır:

109-4.1.1. kooperativə daxil olmaq və könüllü qaydada kooperativdən çıxmaq;

109-4.1.2. kooperativin idarə edilməsində və fəaliyyətində iştirak etmək, kooperativin orqanlarını seçmək və onlara seçilmək;

109-4.1.3. kooperativin fəaliyyətinə dair məlumat almaq və onun maliyyə, eləcə də digər sənədləri ilə tanış olmaq;

109-4.1.4. kooperativin fəaliyyətinin yaxşılaşdırılması, onun orqanlarının və vəzifəli şəxslərinin işində olan nöqsanların aradan qaldırılması barədə təkliflər vermək;

109-4.1.5. mənfəətin bölüşdürülməsində iştirak etmək və digər ödənişləri almaq;

109-4.1.6. kooperativ ləğv edildikdə kreditorlarla hesablaşmalardan sonra əmlakın onun payına düşən hissəsini və ya bu hissənin dəyərini almaq;

109.4.1.7. kooperativin üzvləri üçün nəzərdə tutulmuş imtiyazlardan və güzəştlərdən istifadə etmək;

109.4.1.8. bu Məcəllə və kooperativin nizamnaməsi ilə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək.

109-4.2. Bu Məcəllənin 109-4.1.2-ci və 109-4.1.7-ci maddələrində nəzərdə tutulan hüquqlar kooperativin ortaq (assosiativ) üzvlərinə şamil olunmur.

109-4.3. Kooperativin fəaliyyətində şəxsi əməyi ilə iştirak edən üzvlərin göstərilən hüquqlardan savayı, öz əməyinə görə pul və ya natura ilə əməkhaqqı almaq hüququ vardır.

109-4.4. Kooperativin üzvlərinin aşağıda göstərilən vəzifələri vardır:

109-4.4.1. kooperativə daxil olduqda nizamnamədə nəzərdə tutulmuş qaydada və həcmdə üzvlük haqqı və mütləq əmlak pay haqqı vermək və kooperativin fəaliyyəti ilə əlaqədar üzərinə götürdüyü digər öhdəlikləri yerinə yetirmək;

109-4.4.2. nizamnaməyə əməl etmək, kooperativin orqanlarının qərarlarını yerinə yetirmək;

104-4.4.3. bu Məcəllənin 110.4-cü maddəsində nəzərdə tutulmuş hallarda və qaydada kooperativdə əmələ gəlmiş zərərin ödənilməsində iştirak etmək;

109-4.4.4. qanun və nizamnamə ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

Maddə 110. Kooperativin əmlakı

110.1. Kooperativin mülkiyyətində olan əmlak kooperativin nizamnaməsinə müvafiq surətdə onun üzvlərinin paylarına bölünür. Kooperativin əmlakı (vəsaitləri) onun əsas fondlarından, dövriyyə vəsaitindən və balansında göstərilən digər maddi dəyərlərdən ibarətdir. Kooperativin əmlakının formalaşdırılması mənbələri onun öz vəsaiti və cəlb edilmiş vəsait ola bilər. Kooperativin öz vəsaitini onun nizamnaməsində nəzərdə tutulmuş əmlak pay haqları, sahibkarlıq fəaliyyətindən, öz vəsaitlərinin banklarda və digər kredit təşkilatlarında, qiymətli kağızlarda yerləşdirilməsindən daxil olan gəlirlər, kreditlər, fiziki və hüquqi şəxslərin ianələri və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşdırır. Kooperativ tərəfindən qanunvericiliklə müəyyənləşdirilmiş qaydada cəlb edilən vəsaitin həcmi kooperativin ümumi vəsaitlərinin (əmlakının) 50 faizindən çox olmamalıdır. Kooperativin əmlakı onun xüsusi mülkiyyətindədir. Kooperativin üzvü onun mülkiyyətində olan əmlakı müqavilə əsasında istifadə edilmək üçün kooperativə verə bilər. Kooperativ ittifaqı

onun mülkiyyətində olan əmlakı müqavilə əsasında istifadə edilmək üçün onun üzvü olan kooperativə verə və ittifaqın nizamnaməsində müəyyənləşdirilmiş digər məqsədlər üçün istifadə edə bilər.[194]

110.2. Əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, kooperativin üzvü kooperativ qeydə alınanadək pay haqqını tamamilə verməyə borcludur.

110.3. Kooperativin nizamnaməsi ilə müəyyənləşdirilə bilər ki, kooperativə mənsub əmlakın bir hissəsini nizamnamə ilə təyin edilən məqsədlər üçün istifadə olunan bölünməz fondlar təşkil edir. Bölünməz fondların yaradılmasına dair qərarı kooperativin üzvləri, əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, yekdilliklə qəbul edirlər.

110.4. Kooperativin üzvləri əmələ gəlmiş zərəri illik balansın təsdiqindən sonra iki ay ərzində əlavə haqlar vermək yolu ilə ödəməyə borcludurlar. Bu vəzifə yerinə yetirilmədikdə kreditorların tələbi ilə kooperativ məhkəmə qaydasında ləğv edilə bilər. Kooperativin üzvləri onun öhdəlikləri üçün kooperativin hər bir üzvünün əlavə haqqının verilməmiş hissəsi həddində birgə subsidiar məsuliyyət daşıyırlar.

110.5. Kooperativin ləğvindən sonra qalan əmlak kooperativin üzvləri arasında onun nizamnaməsinə uyğun olaraq bölüşdürülür.

Maddə 110-1. Kooperativ üzvlərinin pay haqları və kooperativin pay fondu[195]

110-1.1. Kooperativ üzvlərinin kooperativə verdiyi əmlak pay haqları kooperativin pay fondunu təşkil edir. Kooperativin pay fondu kooperativin kreditorlarının maraqlarına təminat verən kooperativ əmlakının minimal həddini müəyyənləşdirir. Kooperativə daxil olarkən ödənilən üzvlük haqqı pay fonduna daxil deyildir və kooperativin üzvü kooperativdən çıxdıqda qaytarılmır.

110-1.2. Kooperativ üzvlərinin pay haqlarına onların şəxsi borclarına görə tutma yalnız bu Məcəllənin 112.5-ci maddəsində nəzərdə tutulmuş halda və qaydada yönəldilə bilər.

110-1.3. Kooperativin pay fondunun və mütləq payın həcmi, mütləq və əlavə payların ödənilmə qaydası, əmlakla (əmlak hüquqları ilə) ödənilən payların qiymətləndirilmə qaydası nizamnamə ilə müəyyənləşdirilir. Qiymətləndirməyə bu sahədə qanunvericiliklə müəyyənləşdirilmiş qaydada məşğul olan şəxslər cəlb edilə bilər.

110-1.4. Əgər ikinci və sonrakı illərin sonunda kooperativin xalis aktivlərinin dəyəri pay fondunun dəyərindən az olarsa, kooperativ üzvlərinin ümumi yığıncağı pay fondunun azaldığını elan etməyə və onu qanunvericilikdə müəyyənləşdirilmiş qaydada qeydə aldırmağa borcludur.

110-1.5. Kooperativ üzvlərinin ümumi yığıncağının qərarı ilə pay fondu artırıla və ya azaldıla bilər. Pay fondunun miqdarı kooperativin xalis aktivlərinin miqdarından artıq olmamalıdır. Kooperativin pay fondunun miqdarı onun xalis aktivlərinin miqqdarından artıq olduqda kooperativin pay fondu göstərilən fərq məbləğində mütləq pay haqlarının proporsional azaldılması yolu ilə azaldılmalıdır.

110-1.6. Kooperativin pay fondunun artırılmasına mütləq pay haqları miqdarının artırılması ilə yol verilir.

Maddə 110-2. Kooperativin mənfəəti və onun bölüşdürülməsi

110-2.1. Kooperativin mənfəəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyənləşdirilmiş məcburi ödənişlər verildikdən sonra, kooperativin nizamnaməsində nəzərdə tutulmuş hallarda və qaydada kooperativin fondlarına, kreditorlarla hesablaşmaların həyata keçirilməsinə, kooperativin nizamnaməsi ilə müəyyənləşdirilmiş digər məqsədlərə və (və ya) kooperativ ödənişlərinin və dividendlərin ödənilməsinə yönəldilir.

110-2.2. Kooperativin mənfəəti kooperativin üzvləri arasında onların pay (mütləq və əlavə) haqları məbləğinə, habelə kooperativin fəaliyyətində şəxsi əməyi ilə və (və ya) digər formada iştirakına uyğun olaraq bölüşdürülür.

110-2.3. Kooperativ üzvlərinin ümumi yığıncağı ödənilən kooperativ ödənişlərinin və dividendlərin kooperativin mənfəətinin müəyyən miqdarı ilə məhdudlaşdırılmasını müəyyənləşdirə bilər.

Maddə 110-3. Kooperativin və onun üzvlərinin əmlak məsuliyyəti

110-3.1. Kooperativ öz öhdəliklərinə görə ona məxsus olan əmlakı ilə cavabdehdir.

110-3.2. Kooperativ öz üzvlərinin kooperativin fəaliyyəti ilə əlaqədar götürdükləri öhdəliklərinə və bu Məcəllənin 112.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla başqa öhdəliklərinə (borclarına) görə məsuliyyət daşımır.

110-3.3. Kooperativ yaradıldıqdan sonra ona üzv olan şəxs üzv olmasından əvvəl kooperativin götürdüyü öhdəliklərə görə məsuliyyət daşıyır, bir şərtlə ki, nizamnamədə ayrı qayda nəzərdə tutulmasın. Kooperativə üzv olmaq istəyən şəxsə bu barədə bütün zəruri məlumatlar verilməlidir.

110-3.4. Kooperativin üzvləri kooperativin öhdəliklərinə görə subsidiar məsuliyyət daşıyırlar. Kooperativ üzvlərinin kooperativin öhdəliklərinə görə subsidiar məsuliyyəti kooperativin öz öhdəliklərinin silinməsi üçün kifayət qədər vəsaitləri olmadıqda yaranır və bu Məcəllənin 110.4-cü maddəsinə müvafiq qaydada müəyyənləşdirilir.

Maddə 111. Kooperativdə idarəetmə

111.1. Kooperativin ali idarəetmə orqanı onun üzvlərinin ümumi yığıncağıdır. Üzvlərinin sayı əllidən çox olan kooperativdə onun icra orqanlarının fəaliyyətinə nəzarət edən müşahidə şurası yaradıla bilər. Müşahidə şurası üzvlərinin kooperativ adından fəaliyyət göstərmək ixtiyarı yoxdur. Kooperativin icra orqanları idarə heyəti və (və ya) onun sədridir. Onlar kooperativin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir, müşahidə şurasına və kooperativ üzvlərinin ümumi yığıncağına hesabat verirlər. Kooperativin müşahidə şurasının və idarə heyətinin üzvləri, habelə kooperativin sədri yalnız kooperativin üzvlərindən ola bilər. Müşahidə şurasının və ya icra orqanının

üzvü oxşar kooperativin üzvü ola bilməz. Kooperativin üzvü eyni zamanda müşahidə şurasının üzvü və idarə heyətinin və ya kooperativin sədri ola bilməz.

111.2. Kooperativin idarəetmə orqanlarının səlahiyyətləri və onların qərarlar qəbul etməsi qaydası kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir.

111.3. Kooperativ üzvlərinin ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

111.3.1. kooperativin nizamnaməsini dəyişdirmək;

111.3.2. kooperativin müşahidə şurasını yaratmaq və onun üzvlərinin səlahiyyətlərinə xitam vermək, habelə kooperativin icra orqanlarını yaratmaq və onların səlahiyyətlərinə xitam vermək, bir şərtlə ki, kooperativin nizamnaməsinə görə bu hüquq onun müşahidə şurasına verilmiş olmasın;

111.3.3. kooperativ üzvlərini qəbul etmək və çıxarmaq;

111.3.4. kooperativin illik hesabatlarını və *maliyyə hesabatlarını* təsdiq etmək və zərəri bölüşdürmək;

111.3.5. kooperativin yenidən təşkili və ləğvi haqqında qərar qəbul etmək;

111.3.5-1. bu Məcəllənin 49-1.2-ci maddəsində nəzərdə tutulmuş əqdlərin bağlanması haqqında qərar qəbul etmək;[196]

111.3.6. kooperativin nizamnaməsi ilə ümumi yığıncağın müstəsna səlahiyyətinə başqa məsələlərin həlli də aid edilə bilər.

111.4. Kooperativin ümumi yığıncağının və ya müşahidə şurasının müstəsna səlahiyyətinə aid edilmiş məsələləri onlar həll edilmək üçün kooperativin icra orqanlarına verə bilməzlər.

111.5. Ümumi yığıncaqda qərarlar qəbul edilərkən kooperativ üzvünün bir səsi vardır.

111.6. Üzvlərinin sayı 200-dən çox olan kooperativlərdə kooperativ üzvlərinin ümumi yığıncağı kooperativin nizamnaməsinə uyğun olaraq müvəkkillərin yığıncağı şəklində keçirilə bilər. Müvəkkillərin sayı kooperativ üzvlərinin sayı nəzərə alınaraq müəyyənləşdirilir. Müvəkkillər kooperativin nizamnaməsində, aşağıdakılar da daxil olmaqla, nəzərdə tutulmuş qaydada açıq və ya gizli səsvermə yolu ilə seçilir: müvəkkil seçilən kooperativ üzvlərinin sayı; müvəkkillərin səlahiyyətlərinin müddəti; onların seçilmə qaydası. Müvəkkillər öz səlahiyyətlərini başqa şəxslərə, o cümlədən kooperativ üzvlərinə verə bilməzlər. Bu Məcəllənin və kooperativin nizamnaməsinin kooperativ üzvlərinin ümumi yığıncağı barədə müddəaları müvəkkillərin yığıncağına da şamil edilir.[197]

111.7. Kooperativ üzvlərinin ümumi yığıncağı üzvlərin (yaxud onların nümayəndələrinin) yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir. Müvəkkillərin yığıncağı seçilmiş müvəkkillərin yarıdan çoxu iştirak etdikdə səlahiyyətlidir.

111.8. Kooperativ üzvlərinin ümumi yığıncağı idarə heyəti (sədr) tərəfindən ildə bir dəfədən az olmayaraq nizamnamə ilə müəyyənləşdirilmiş müddətlərdə və qaydada, ancaq maliyyə ilinin başa çatmasından ən geci üç ay keçənədək çağırılır. Kooperativ üzvlərinin növbədənkənar ümumi yığıncağı idarə heyətinin (sədrin), müşahidə şurasının və təftiş komissiyasının (müfəttişin) təşəbbüsü, yaxud səs hüququna malik olan üzvlərin azı dörddə birinin tələbi ilə *(maliyyə bazarlarında nəzarət edilən subyektlərə münasibətdə "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası*

Qanununun tələbləri nəzərə alınmaqla) çağırılır. *Bu halda* kooperativ üzvlərinin növbədənkənar ümumi yığıncağı idarə heyəti (sədr) tərəfindən on beş gün müddətində kooperativin nizamnaməsində müəyyənləşdirilmiş qaydada çağırılır.[198]

111.9. Kooperativin müşahidə şurası yaradıldıqda onun üzvlərinin sayı və səlahiyyət müddəti kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən müəyyənləşdirilir. Müşahidə şurasının iclası zərurət olduqda, lakin yarım ildə bir dəfədən az olmayaraq çağırılır. Müşahidə şurasının iclaslarının keçirilməsi qaydaları kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir. Nizamnamədə nəzərdə tutulmuş hallarda kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən müşahidə şurası, yaxud onun ayrı-ayrı üzvləri onların səlahiyyət müddəti bitməzdən əvvəl geri çağırıla bilər.

111.10. Kooperativin idarə heyəti və (və ya) onun sədri kooperativin cari fəaliyyətinə kooperativ üzvlərinin ümumi yığıncaqları arasındakı dövrdə rəhbərlik edir, onun işlərini aparır, kooperativi təmsil edir. Kooperativ üzvlərinin sayı əllidən çox olduqda kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən onun üzvlərindən kooperativin idarə heyəti seçilir. İdarə heyətinə rəhbərliyi kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən seçilən (təyin edilən) sədr həyata keçirir. Kooperativin idarə heyətinin və (və ya) onun sədrinin (təyin edilməsi), onların səlahiyyətləri və səlahiyyət müddəti, idarə heyəti sədrinin kooperativin əmlakına sərəncam vermək hüququ, onun əmək haqqı, məsuliyyəti, habelə vaxtından əvvəl vəzifədən azad edilməsi (istefa verməsi) əsasları və qaydası kooperativin nizamnaməsi ilə müəyyənləşdirilir.

111.11. Əgər idarə heyəti yaradılmışdırsa, nizamnamədə sədrin və idarə heyətinin səlahiyyətləri (təkbaşına və kollegial qaydada həyata keçirilən səlahiyyətlər) ayrıca göstərilməlidir.

111.12. Kooperativin maliyyə-təsərrüfat fəaliyyətinə nəzarəti həyata keçirmək məqsədi ilə kooperativ üzvlərinin ümumi yığıncağı kooperativ üzvlərinin sayı əllindən çox olduqda təftiş komissiyası (azı üç nəfərdən ibarət), kooperativ üzvlərinin sayı əllidən az olduqda isə müfəttiş seçir.

111.13. Kooperativin təftiş komissiyası (müfəttişi):

111.13.1. maliyyə-təsərrüfat ilinin nəticələrinə görə kooperativin maliyyə vəziyyətini yoxlayır;

111.13.2. kooperativ üzvlərinin ümumi yığıncağının, müşahidə şurasının sayı on faizdən artıq olan üzvlərin tələbi ilə, habelə öz təşəbbüsü ilə kooperativin maliyyə-təsərrüfat fəaliyyətini növbədənkənar yoxlayır.

111.14. Kooperativin təftiş komissiyası (müfəttişi) yoxlamanın nəticələrinə əsasən kooperativin idarəetmə orqanlarına rəy təqdim edir. Müşahidə şurası və ya idarə heyəti (sədr) yoxlamanın nəticələrinə nizamnamədə nəzərdə tutulmuş qaydada baxır və müvafiq qərar qəbul edir. Qərarla razılaşmadıqda təftiş komissiyası (müfəttiş) kooperativ üzvlərinin ümumi yığıncağa müraciət edə bilər.

111.15. Nizamnamədə nəzərdə tutulmuş hallarda kooperativ üzvlərinin ümumi yığıncağı tərəfindən təftiş komissiyası, yaxud onun ayrı-ayrı üzvləri və ya müfəttiş səlahiyyət müddəti bitməzdən əvvəl geri çağırıla bilər.

Maddə 112. Kooperativdə üzvlüyə xitam verilməsi və payın keçməsi

112.1. Kooperativ üzvünün kooperativdən çıxmaq ixtiyarı vardır. Bu halda ona payının dəyəri ödənilməli və ya payına uyğun əmlak verilməli, habelə kooperativin nizamnaməsində nəzərdə tutulan digər ödənişlər verilməlidir. Kooperativin çıxan üzvünə payın dəyərinin ödənilməsi və ya başqa əmlakın verilməsi, əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, maliyyə ili qurtardıqdan və kooperativin *maliyyə hesabatları* təsdiq edildikdən sonra həyata keçirilir.

112.2. Kooperativin üzvü kooperativin nizamnaməsi ilə ona həvalə olunmuş vəzifələri icra etmədikdə və ya lazımınca icra etmədikdə, habelə kooperativin nizamnaməsi ilə nəzərdə tutulan başqa hallarda ümumi yığıncağın qərarı ilə kooperativdən çıxarıla bilər. Kooperativdən çıxarılmış kooperativ üzvünün bu Məcəllənin 112.1-ci maddəsinə uyğun olaraq, payını və kooperativin nizamnaməsində nəzərdə tutulan digər ödənişləri almaq hüququ vardır.

112.3. Əgər kooperativin nizamnaməsi ilə ayrı qayda nəzərdə tutulmayıbsa, kooperativin üzvü öz payını və ya onun bir hissəsini kooperativin digər üzvünə verə bilər. Payın (onun bir hissəsinin) kooperativ üzvü olmayan fiziki şəxsə verilməsinə yalnız kooperativin razılığı ilə yol verilir. Belə halda kooperativin digər üzvləri həmin payı (onun bir hissəsini) almaqda üstünlük hüququna malikdirlər. Əgər kooperativin üzvləri kooperativin nizamnaməsində nəzərdə tutulan müddət ərzində öz üstünlük hüququndan istifadə etməzlərsə, pay üçüncü şəxsə özgəninkiləşdirilə bilər.

112.4. Kooperativin üzvü öldükdə onun vərəsələri, əgər kooperativin nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, kooperativ üzvlüyünə qəbul edilə bilərlər. Əks halda kooperativin ölmüş üzvünün payının dəyəri kooperativ tərəfindən onun vərəsələrinə ödənilir.

112.5. Kooperativ üzvünün şəxsi borclarına görə tutmanın kooperativ üzvünün payına yönəldilməsinə yalnız həmin borcları ödəmək üçün onun başqa əmlakı kifayət etmədikdə kooperativin nizamnaməsi ilə nəzərdə tutulan qaydada yol verilir. Kooperativ üzvünün borclarına görə tutma kooperativin bölünməz fondlarına yönəldilə bilməz.

Maddə 113. Kooperativin yenidən təşkili və ləğvi

113.1. Kooperativ onun üzvlərinin ümumi yığıncağının qərarı ilə könüllü surətdə yenidən təşkil və ya ləğv edilə bilər.

113.2. Kooperativin yenidən təşkilinin və ləğvinin başqa əsasları bu Məcəllə ilə müəyyənləşdirilir.

§3. Qeyri-kommersiya təşkilatları

Maddə 114. İctimai birliklər

114.1. İctimai birliyin təsisçilərinin (iştirakçılarının) ictimai birliyə verdikləri əmlak birliyin mülkiyyətidir. İctimai birlik bu əmlakdan onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir.

114.2. İctimai birliklərin iştirakçıları həmin birliklərin mülkiyyətinə verdikləri əmlaka, o cümlədən üzvlük haqlarına hüquqlarını saxlamırlar. Onlar ictimai birliklərin öhdəlikləri üçün, ictimai birliklər isə öz iştirakçılarının öhdəlikləri üçün məsuliyyət daşımırlar.

114.3. İctimai birlik ləğv edildikdə onun *borclarının ödənilməsindən sonra qalan* əmlakı ictimai birliyin nizamnaməsində göstərilmiş məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.[199]

114.4. İctimai birliklərin ayrı-ayrı növlərinin xüsusiyyətləri və hüquqi vəziyyəti bu Məcəllə ilə və qanunvericiliklə müəyyənləşdirilir.

Maddə 115. Fondlar

115.1. Fond üzvlüyü olmayan, fiziki və (və ya) hüquqi şəxslərin əmlak haqları əsasında təsis etdikləri, sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai faydalı məqsədlər güdən təşkilatdır.[200]

115.1-1. Fond yaradılarkən onun nizamnamə kapitalı on min manatdan az olmamalıdır.[201]

115.2. Fondun təsisçilərinin (təsisçisinin) verdiyi əmlak fondun mülkiyyətidir. Fond həmin əmlakdan onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir.

115.3. Fond öz əmlakından istifadə haqqında hesabatları hər il dərc etməyə borcludur.

115.4. Təsisçilər yaratdıqları fondun öhdəlikləri üçün, fond isə öz təsisçilərinin öhdəlikləri üçün məsuliyyət daşımır.

115.5. Fondun idarə edilməsi və onun orqanlarının formalaşdırılması qaydası fondun təsisçilər tərəfindən təsdiq edilən nizamnaməsi ilə müəyyənləşdirilir.

115.6. Fondun nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilmiş məlumatlardan savayı, fondun "fond" sözü də daxil edilmiş adı, fondun məqsədləri haqqında məlumatlar; fondun orqanları haqqında, o cümlədən fondun fəaliyyətinə nəzarət edən himayəçilik şurası haqqında, fondun vəzifəli şəxslərinin təyin edilməsi və azad edilməsi qaydası haqqında, fondun ləğvi zamanı onun əmlakı barəsində sərəncam verilməsi qaydası haqqında məlumatlar göstərilməlidir.

115.7. Fondların ayrı-ayrı növlərinin, o cümlədən xeyriyyə təşkilatlarının xüsusiyyətləri və hüquqi vəziyyəti bu Məcəllə ilə və qanunvericiliklə müəyyənləşdirilir.

Maddə 116. Fondun nizamnaməsinin dəyişdirilməsi və onun ləğv edilməsi

116.1. Fondun nizamnaməsi fondun orqanları tərəfindən bir şərtlə dəyişdirilə bilər ki, nizamnamədə onun bu qaydada dəyişdirilməsi imkanı nəzərdə tutulmuş olsun. Əgər nizamnamənin dəyişməz şəkildə saxlanılması fondun təsis edilməsi zamanı qabaqcadan nəzərə alınması mümkün olmayan nəticələrə səbəb olarsa, nizamnamədə

isə nizamnamənin dəyişdirilməsi imkanı nəzərdə tutulmazsa və nizamnamə vəkil edilmiş şəxslər tərəfindən dəyişdirilməzsə, dəyişikliklər edilməsi hüququ fondun orqanlarının və ya fondun nizamnaməsi ilə onun fəaliyyətinə nəzarət etməyə vəkil edilmiş orqanın ərizəsinə əsasən məhkəməyə mənsubdur.

116.2. Fondun ləğvi haqqında qərarı maraqlı şəxslərin ərizəsinə əsasən yalnız məhkəmə qəbul edə bilər. Fond aşağıdakı hallarda ləğv edilə bilər:

116.2.1. fondun əmlakı onun məqsədlərinin həyata keçirilməsinə kifayət etmədikdə və lazımi əmlakın əldə edilməsi ehtimalı real olmadıqda;

116.2.2. fondun məqsədlərinə çatmaq mümkün olmadıqda, bu məqsədlər isə lazımi şəkildə dəyişdirilə bilmədikdə;

116.2.3. öz fəaliyyətində fond nizamnamədə nəzərdə tutulan məqsədlərdən yayındıqda;

116.2.4. qanunvericilikdə nəzərdə tutulan digər hallarda.

116.3. Fond ləğv edildikdə onun *borclarının ödənilməsindən sonra qalan* əmlakı fondun nizamnaməsində göstərilən məqsədlərə, bu, mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

Maddə 117. Hüquqi şəxslərin ittifaqları

117.1. Kommersiya təşkilatları özlərinin sahibkarlıq fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərin (əmlak mənafeləri daxil olmaqla) təmsil və müdafiə edilməsi (o cümlədən dövlət və digər orqanlarda, beynəlxalq təşkilatlarda) məqsədi ilə ittifaqlar yarada bilərlər. Əgər iştirakçıların qərarı ilə ittifaqa sahibkarlıq fəaliyyətini həyata keçirmək həvalə edilirsə, belə ittifaq bu Məcəllə ilə nəzərdə tutulan qaydada təsərrüfat ortaqlığına və ya cəmiyyətə çevrilir və ya sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün təsərrüfat cəmiyyəti yarada bilər və ya bu cür cəmiyyətdə iştirak edə bilər.[202]

117.2. Qeyri-kommersiya təşkilatları özlərinin fəaliyyətinin əlaqələndirilməsi, habelə ümumi mənafelərinin təmsil və müdafiə edilməsi məqsədi ilə ittifaqlar yarada bilərlər.

117.3. İttifaqın iştirakçıları özlərinin müstəqilliyini və hüquqi şəxs hüquqlarını saxlayırlar.

117.4. İttifaqın təsisçilərinin (iştirakçılarının) ona verdikləri əmlak ittifaqın mülkiyyətidir. Bu əmlakdan ittifaq onun nizamnaməsində müəyyənləşdirilmiş məqsədlər üçün istifadə edir.

117.5. İttifaq öz iştirakçılarının öhdəlikləri üçün məsuliyyət daşımır. İttifaqın iştirakçıları onun öhdəlikləri üçün nizamnamədə nəzərdə tutulan miqdarda və qaydada subsidiar məsuliyyət daşıyırlar.

117.6. İttifaqın adında onun iştirakçılarının fəaliyyətinin əsas predmeti, habelə "ittifaq" sözü göstərilməlidir.

117.7. İttifaq ləğv edildikdə onun *borclarının ödənilməsindən sonra qalan* əmlakı ittifaqın nizamnaməsində göstərilmiş məqsədlərə, bu mümkün olmadıqda isə dövlət büdcəsinə yönəldilir.

117.8. İttifaqların ayrı-ayrı növlərinin xüsusiyyətləri və hüquqi vəziyyəti bu Məcəllə ilə və qanunvericiliklə müəyyənləşdirilir.

Maddə 118. İttifaqın nizamnaməsi

İttifaqın nizamnaməsində bu Məcəllənin 47.2-ci maddəsində göstərilmiş məlumatlardan savayı, ittifaq iştirakçılarının verdikləri haqların miqdarı, tərkibi və verilməsi qaydası, haqq verilməsi öhdəliyini pozmağa görə onların məsuliyyəti haqqında, ittifaqın idarəetmə orqanlarının tərkibi və səlahiyyəti, onların qərarlar qəbul etməsi, o cümlədən barəsində qərarların yekdilliklə və ya ittifaq iştirakçılarının şərtləşdirilmiş səs çoxluğu ilə qəbul olunduğu məsələlərə dair qərarlar qəbul etməsi qaydası haqqında, ittifaqın ləğv edildiyi halda onun əmlakı barəsində sərəncam verilməsi qaydası haqqında məlumatlar göstərilməlidir.

Maddə 119. İttifaq iştirakçılarının hüquq və vəzifələri

119.1. Əgər ittifaqın nizamnaməsində ayrı qayda nəzərdə tutulmayıbsa, ittifaq iştirakçılarının onun xidmətlərindən əvəzsiz istifadə etmək ixtiyarı vardır.

119.2. İttifaqın iştirakçısı maliyyə ili qurtardıqda ittifaqdan çıxa bilər. Bu halda o, əgər ittifaqın nizamnaməsində ayrı müddət nəzərdə tutulmayıbsa, çıxdığı gündən bir il ərzində ittifaqın öhdəlikləri üçün öz haqqına mütənasib subsidiar məsuliyyət daşıyır. İttifaqın iştirakçısı ittifaqın nizamnaməsində müəyyənləşdirilmiş hallarda və qaydada digər iştirakçıların qərarı ilə ittifaqdan çıxarıla bilər. İttifaqın çıxarılmış iştirakçısının məsuliyyəti barəsində ittifaqdan çıxmaya aid qaydalar tətbiq edilir.

119.3. İştirakçıların razılığı ilə ittifaqa yeni iştirakçı daxil ola bilər. İttifaqa yeni iştirakçının daxil olması ittifaqın o, daxil olanadək əmələ gəlmiş öhdəlikləri üçün onun subsidiar məsuliyyəti ilə şərtləndirilə bilər.

§4. Hüquqi şəxslərin inventar siyahısı, illik balansı və auditi – *çıxarılmışdır.*[203]

§ 5. Hüquqi şəxslərin dövlət reyestri – *çıxarılmışdır.*[K M 1]

Üçüncü bölmə

ƏMLAK VƏ ƏŞYA HÜQUQU[204]

5-ci fəsil.

Ümumi müddəalar

§ 1. Əşya hüququnun əsas anlayışları

Maddə 135. Əşya hüququnun obyektləri

135.1. Bu Məcəlləyə uyğun olaraq yalnız fiziki obyektlər əşya sayılırlar. Pullar və *sənədli* qiymətli kağızlar da əşyadır.[205]

135.2. Əmlak istənilən əşyaların və qeyri-maddi əmlak nemətlərinin toplusudur.

135.3. Bitkilər və heyvanlar əşya deyildir. Onların hüquqi vəziyyəti xüsusi qanunlarla müəyyənləşdirilir. Əgər qanunvericilikdə ayrı qayda müəyyənləşdirilməyibsə, əşyaların hüquqi vəziyyəti bitkilərə və heyvanlara da şamil edilir.

135.4. Əşyalar daşınmaz və daşınar ola bilər. Torpaq sahələri, yer təki sahələri, ayrıca su obyektləri, meşələr, çoxillik əkmələr, binalar, qurğular və torpaqla möhkəm bağlı olan *(ondan ayrıla bilməyən)* digər əşyalar, yəni təyinatına tənasübsüz zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olmayan obyektlər daşınmaz əşyalardır. *Torpaq sahəsi və torpaqla möhkəm bağlı olan (ondan ayrıla bilməyən) əşya vahid daşınmaz əşyadır və vahid mülkiyyət obyektidir.*[206]

135.5. Daşınmaz əşyalara aid edilə bilməyən bütün əşyalar daşınar əşyalar sayılır. Başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar qeyri-maddi əmlak nemətləridir. Qeyri-maddi əmlak nemətləri (tələblər və hüquqlar) ilə bağlı münasibətlər onların hər birinə aid olan xüsusi qanunvericiliyin müddəalarına müvafiq olaraq tənzimlənir.[207]

135.6. Əşyalar bölünər və bölünməz ola bilər. Təyinatı dəyişdirilmədən bölünə bilməyən və ya qanunun göstərişinə görə bölünməli olmayan əşyalar bölünməz əşyalardır.

135.7. Başqa əşyalardan yalnız özlərinə xas əlamətlərə görə ayrılmış fərdi-müəyyən əşyalar əvəzedilməz əşyalar sayılır. Növ əlamətlərinə görə fərqlənən, dövriyyədə adətən say, ölçü və ya çəki ilə müəyyənləşdirilən daşınar əşyalar əvəzedilən əşyalar sayılır.

135.8. Təyinatı istehlak olunmaqdan və ya özgəninkiləşdirilməkdən ibarət olan daşınar əşyalar istehlak edilən əşyalardır.

135.9. Əgər müxtəlif növlü əşyalar ümumi təyinat üzrə istifadə edilməsini nəzərdə tutan vahid tam yaradırlarsa, bir əmlak (mürəkkəb əmlak) sayılırlar. Mürəkkəb əmlak barəsində bağlanmış əqdin qüvvəsi, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, onun bütün tərkib hissələrinə şamil edilir.

135.10. Adi anlamda əşyanın tərkibinə daxil olan və dağıdılmadan, zədələnmədən və ya dəyişdirilmədən ondan ayrıla bilməyən hər şey əşyanın tərkib hissəsidir. Özbaşına tikinti ilə bağlı hallar istisna olmaqla, əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisidir.[208]

135.11. Ümumi anlamda və ya əsas əşya mülkiyyətçisinin aydın iradəsinə əsasən təsərrüfatın daimi aparılması, əsas əşyanın istifadəsi və ya saxlanması üçün nəzərdə tutulan və ona uyğunlaşdırılan daşınar əşyalar əşyanın ləvazimatıdır. Əgər əşya ləvazimatdırsa, onun bu keyfiyyəti əsas əşyadan müvəqqəti ayrıldığı halda da saxlanılır. Əgər ayrı razılaşma yoxdursa, əşyaya sahiblik onun ləvazimatında da şamil edilir.

135.12. Əşyanın verdiyi gəlir, artım və (və ya) üstünlük əşyanın bəhəridir. Ayrılanadək bəhər əşyanın tərkib hissəsidir. Əşyanın mülkiyyətçisi kimdirsə, əşyanın təbii bəhəri də onun mülkiyyətindədir.

Maddə 136. Əşyaların mülki dövriyyəsi

136.1. Əşyalar dövriyyədən çıxarılmayıbsa və ya onların dövriyyəsi məhdudlaşdırılmayıbsa, universal hüquq varisliyi qaydasında (vərəsəlik, hüquqi şəxsin yenidən təşkili) və ya başqa üsulla əşyalar sərbəst surətdə özgəninkiləşdirilə və ya bir şəxsdən başqasına keçə bilər.

136.2. Mülki dövriyyədə olmasına yol verilməyən əşyalar (mülki dövriyyədən çıxarılmış əşyalar) qanunvericilikdə birbaşa göstərilməlidir.

136.3. Yalnız dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və ya dövriyyədə olmasına ~~xüsusi~~ icazə əsasında yol verilən əşyalar (mülki dövriyyəsi məhdudlaşdırılmış əşyalar) qanunla müəyyənləşdirilmiş qaydada təyin edilir. [209]

Maddə 137. Qeyri-maddi əmlak nemətləri – *çıxarılmışdır.*[210]

Maddə 138. Əşyaların və hüquqların yüklülüyü

138.1. Əşyanın yüklülüyü - qanun və ya əqd əsasında əşyaya mülkiyyət hüququnun hər hansı formada məhdudlaşdırılmasıdır.

138.2. Hüququn yüklülüyü - qanun və ya əqd əsasında mülki hüquqların və ya tələblərin hər hansı formada məhdudlaşdırılmasıdır.

§ 2. Əmlak hüquqlarının dövlət qeydiyyatı

Maddə 139. Daşınar və daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı

139.1. Mülkiyyət hüququ və daşınmaz əmlaka digər hüquqlar, bu hüquqların məhdudlaşdırılması, əmələ gəlməsi, başqasına keçməsi və xitamı dövlət qeydiyyatına alınmalıdır. Mülkiyyət hüququ, istifadə hüququ, ipoteka, servitutlar, habelə daşınmaz əmlaka digər hüquqlar bu Məcəllədə və qanunvericilikdə nəzərdə tutulan hallarda qeydə alınmalıdır.

139.2. Daşınar əmlaka hüquqlar yalnız qanunvericilikdə nəzərdə tutulan hallarda dövlət qeydiyyatına alınmalıdır.[211]

139.3. Daşınmaz əmlaka hüquqların dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib edilən və aparılan daşınmaz əmlakın dövlət reyestrində həyata keçirilir.[212]

139.4. Məkana görə daşınmaz əmlak obyektlərinin xüsusi vasitələrdən istifadə edilmədən yerləşdiyi yerin müəyyənləşdirilməsini və onların fərdiləşdirilməsini təmin edən məlumat bazası olan ünvan reyestri aparılır. Daşınmaz əmlak obyektlərinin

xüsusi vasitələrdən istifadə edilmədən yerləşdiyi yerin müəyyənləşdirilməsinə imkan verən ünvan verilir. Ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.[213]

Maddə 139-1. Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün əsaslar

139-1.1. Daşınmaz əmlak üzərində hüquqların əmələ gəlməsinin, başqasına keçməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün) və xitam verilməsinin dövlət qeydiyyatı üçün aşağıdakılar əsas hesab olunur:

139-1.1.1. qanunla müəyyən edilmiş qaydada icra hakimiyyəti və bələdiyyə orqanları tərəfindən müvafiq olaraq dövlətə və ya bələdiyyələrə məxsus olan daşınmaz əmlakın özgəninkiləşdirilməsinə, icarəsinə, istifadəsinə, ipoteka qoyulmasına dair qəbul olunmuş aktlar;

139-1.1.2. qanunla müəyyən edilmiş qaydada keçirilən hərracın nəticələri haqqında protokol;[214]

139-1.1.3. daşınmaz əmlak barəsində notariat qaydasında təsdiq edilmiş müqavilələr, vərəsəlik hüququ haqqında, ər-arvadın ümumi əmlakındakı paya mülkiyyət hüququ haqqında, *icra sənədlərinin məcburi icrası ilə əlaqədar daşınmaz əmlak barədə "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 63-cü maddəsinə əsasən verilən* şəhadətnamələr, *daşınmaz əmlak* sertifikatı;[215]

139-1.1.4. qanuni qüvvəyə minmiş məhkəmə qərarları;

139-1.1.5. *2006-cı il iyulun 6-dək* müvafiq icra hakimiyyəti orqanları tərəfindən verilmiş daşınmaz əmlak üzərində~~, o cümlədən torpaq sahələri, binalar və qurğular, yaşayış və qeyri-yaşayış sahələri, fərdi yaşayış və bağ evləri, yer təki sahələri, sututarları, meşələr və çoxillik əkmələr, əmlak kompleksi kimi müəssisələr üzərində~~ hüquqları təsdiq edən aktlar, şəhadətnamələr və qeydiyyat vəsiqələri;[216]

139-1.1.6. mənzil-tikinti kooperativi binasında yaşayış (qeyri-yaşayış) sahəsinin verilməsi barədə mənzil-tikinti kooperativi üzvlərinin ümumi yığıncağının qərarı (qanunvericiliklə nəzərdə tutulmuş pay haqqı tam ödənildikdə);

139-1.1.7. 2007-ci il mayın 22-dək müvafiq icra hakimiyyəti orqanlarının nəzdində olan bağ təsərrüfatı idarələri tərəfindən vətəndaşlara ayrılmış bağ sahələrinə dair verilən icarə müqavilələri, sərəncamlar və orderlər, *kollektiv bağçılıq-yoldaşlıq təsərrüfatının üzvlərinin siyahısına müvafiq olaraq verilmiş üzvlük kitabçası və ya üzvlərin iclasının protokolundan çıxarış;*[217]

139-1.1.8. "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək əldə edilmiş və yaranmış daşınmaz əmlak *obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən* müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən sənədlər.[218]

139-1.1.9. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi qüvvəyə minənədək (2013-cü il yanvarın 1-dək) inşa edilmiş tikililərə dair:[219]

139-1.1.9.1. hündürlüyü 12 metrədək olan yaşayış evlərinə münasibətdə - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihə və ya yaşayış evinin istismara qəbul aktı;

139-1.1.9.2. ~~çoxmənzilli binalara,~~ qeyri-yaşayış binalarına və hündürlüyü 12 metrdən çox olan yaşayış evlərinə münasibətdə - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırılmış layihə, ~~müvafiq icra hakimiyyəti orqanının tikilinin inşa edilməsinə icazə barədə qərarı,~~ istismara qəbul aktı; [220]

139-1.1.10. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi qüvvəyə mindikdən (2013-cü il yanvarın 1-dən) sonra inşa edilən tikililərə dair:

139-1.1.10.1. tikintisinə icazə tələb olunan tikinti obyektləri üçün - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, ~~tikintiyə icazə verilməsi barədə qərar,~~ tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, tikinti obyektinin istismarına icazə; [221]

139-1.1.10.2. məlumatlandırma icraatının tətbiq edildiyi tikinti obyektləri üçün - torpaq sahəsi üzərində mülkiyyət, icarə və ya istifadə hüququnu təsdiq edən sənəd, tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, sifarişçi tərəfindən tikinti başa çatdıqdan sonra tikinti barədə məlumatlandırılan orqana (quruma) göndərilən məlumat; [222]

139-1.1.11. Azərbaycan Respublikasının Mənzil Məcəlləsi qüvvəyə minənədək (2009-cu il oktyabrın 1-dək) dövlət və ya ictimai mənzil fondundan yaşayış sahəsinin verilməsinə dair müvafiq icra hakimiyyəti orqanının sərəncamı, order və ya mənzil kirayəsi müqaviləsi;

139-1.1.12. 2006-cı il iyulun 6-dan 2009-cu il iyunun 24-dək müvafiq icra hakimiyyəti orqanı tərəfindən daşınmaz əmlaka dair verilmiş şəhadətnamələr;

139-1.1.13. təbii fəlakət, texnogen qəza və ya hərbi əməliyyat nəticəsində (işğaldan azad edilmiş ərazilər istisna olmaqla) məhv olmuş, yaxud yararsız vəziyyətə düşmüş yaşayış sahələrinin əvəzinə dövlət vəsaiti hesabına tikilmiş yaşayış evlərinə və çoxmənzilli yaşayış binalarının mənzillərinə münasibətdə - həmin evlərin və mənzillərin təqdim edildiyi şəxslərin siyahısı (hər bir şəxsə təhvil verilən yaşayış evi və (və ya) mənzil dəqiq göstərilməklə), yaşayış evlərinin tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi, çoxmənzilli yaşayış binasının tikinti layihəsinin memarlıq-planlaşdırma bölməsi və istismarına icazə; [223]

139-1.1.14. kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyasına dair bölgü sənədi. [224]

Maddə 140. Daşınmaz əmlakın dövlət reyestrinin məzmununun həqiqiliyi və tamamlığı prezumpsiyası [225]

Reyestrin məzmununun qeyri-dəqiqliyi sübuta yetirilməyincə, həmin məzmunun həqiqiliyi və tamamlığı prezumpsiyası qüvvədədir. Əqd əsasında özgəninkiləşdirənin adına qeydiyyata alınmış hər hansı bir hüququ əldə edən şəxsin xeyrinə reyestrdəki qeyd, bu qeydə dair etirazın reyestrə daxil edildiyi və ya əldə edən şəxsin qeydin qeyri-dəqiq olmasını bildiyi hallar istisna olmaqla, həqiqi hesab edilir.

Maddə 141 . Daşınmaz əmlakın dövlət reyestrində düzəlişin aparılması [226]

141.1. Əgər daşınmaz əmlakın dövlət reyestrinin məzmunu torpaq sahəsi üzərində hüquqa və ya həmin hüququn məhdudlaşdırılmasına dair həqiqi hüquqi vəziyyətə uyğun deyildirsə, hüququ qeydə alınmamış və ya hüququ düzgün qeydə alınmamış

şəxs, yaxud mövcud olmayan yüklənmə haqqında qeydin daxil edilməsi ilə hüququ pozulmuş şəxs daşınmaz əmlakın dövlət reyestrində qeyddə düzəlişin aparılması üçün belə düzəlişlə hüququna toxunulan şəxsdən razılıq verməsini tələb edə bilər.

141.2. Bu Məcəllənin 141.1-ci maddəsində nəzərdə tutulmuş hallarda daşınmaz əmlakın dövlət reyestrinin mötəbərliyinə qarşı etiraz edilə bilər.

141.3. Daşınmaz əmlakın dövlət reyestrinə etirazla bağlı qeydin daxil edilməsi məhkəmənin qərarı və ya reyestrdə düzəlişin aparılması ilə hüququ toxunulan şəxsin razılığı ilə həyata keçirilir.

Maddə 142. Daşınmaz əmlakın qeydiyyatı üçün rüsum – *Çıxarılmışdır.*[227]

Maddə 143. Daşınmaz əmlakın dövlət reyestrinin tərtibinə nəzarət – *Çıxarılmışdır.*[228]

Maddə 144. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələrin notariat qaydasında təsdiqlənməsi

144.1. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməlidir. Təsdiqləmə zamanı notarius *və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər* əşyaya dair sərəncam verən tərəfin sərəncam hüququnu və müqavilənin qanunauyğunluğunu yoxlamalıdır. *Onlar təsdiqlədikləri* müqavilənin yanlışlığı üçün məsuliyyət daşıyır.[229]

144.2. Sərəncam hüququ sərəncam verən tərəfin daşınmaz əmlakın dövlət reyestrinə əsasən bu hüquqa malik olması və ya ixtiyarlı şəxsin ona həmin səlahiyyəti verməsi ilə təsdiqlənir. Bu səlahiyyət də notariat qaydasında təsdiqlənməlidir. Müqavilənin qanunauyğunluğu notariat qaydasında təsdiqləmə ilə təsbit olunur. Daşınmaz əmlakın dövlət reyestri obyektlərinə dair sərəncam verilməsi haqqında müqavilələr notarius *və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər* tərəfindən həmin əmlakın daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmış texniki göstəricilərinə uyğun təsdiqlənir.[230]

144.2-1. Sərəncam verən tərəfin sərəncam hüququnun və öhdəliklərinin, eləcə də əmlakın mövcud yüklülüyünün daşınmaz əmlakın dövlət reyestrində yoxlanılması bu Məcəllənin 148.3-cü maddəsinə uyğun olaraq təmin olunur.[231]

144.3. Daşınmaz əmlak üzərində sərəncam verilməsinə dair notariat qaydasında təsdiq edilmiş müqavilənin informasiya sistemləri vasitəsilə real vaxt rejimində Elektron Hökumət İnformasiya Sistemi üzərindən ötürülmüş elektron nüsxəsi əsasında müvafiq hüquqlar daşınmaz əmlakın dövlət reyestrində dövlət qeydiyyatına alınır. Belə müqavilə ondan irəli gələn mülkiyyət və digər əşya hüquqlarının daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatının aparılması üçün ərizə hesab olunur.[232]

144.4. Əgər əldə edən qanuni qüvvəyə minmiş məhkəmə qərarına və ya ona bərabər olan sənədə, o cümlədən notariat qaydasında təsdiqləməyə istinad edirsə, notariat qaydasında təsdiqləmə tələb olunmur.

144.5. Daşınmaz əmlaka mülkiyyət hüququ əmlakın fiziki cəhətdən bölünməsini nəzərdə tutmayan, lakin yaranacaq ümumi paylı mülkiyyətdə payların nisbətini faizlə müəyyənləşdirən bölünmə planı əsasında bölünə bilər. Mülkiyyətçi tərəfindən tərtib edilən belə bölünmə planı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada təsdiq edildikdən sonra mülkiyyətçinin bölünmə nəticəsində yaranan payların hər birinə mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alınır.[233]

Maddə 144-1. Tikintisi başa çatmayan binanın tərkib hissələrinə sərəncam verilməsinin xüsusiyyətləri[234]

144-1.1. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə müvafiq olaraq tikintisinə icazə alınmış, lakin həmin Məcəlləyə uyğun olaraq istismarına icazə verilməmiş binalar tikintisi başa çatmayan binalar hesab edilir.

144-1.2. Mülkiyyətindəki torpaq sahəsində tərkib hissələrdən ibarət binanın tikintisinə icazə almış mülkiyyətçi tikiləcək binanın tərkib hissələrinin sayına və sahəsinə mütənasib olaraq həmin torpaq sahəsini bu Məcəllənin 144.5-ci maddəsində nəzərdə tutulmuş qaydada bölünmə planı əsasında paylara bölə bilər və bölünmə nəticəsində yaranan payların hər birinə mülkiyyət hüququnun qeydə alınmasını tələb edə bilər.

144-1.3. Mülkiyyətindəki torpaq sahəsində tərkib hissələrdən ibarət binanın tikintisinə icazə almış şəxs bölünmə planına əsasən yaranan paylara və tikintisi başa çatmayan binanın həmin paylara bağlı olan tərkib hissələrinə bölünmə nəticəsində yaranan payların hər birinə mülkiyyət hüququ daşınmaz əmlakın dövlət reyestrində qeydə alındıqdan sonra sərəncam verə bilər.

144-1.4. Bölünmə planına əsasən mülkiyyətindəki torpaq sahəsində yaranan paylara və tikintisi başa çatmayan binanın həmin paylara bağlı olan tərkib hissələrinə sərəncam verilməsi haqqında müqavilələr notariat qaydasında təsdiqlənməli və tərkib hissələri əldə edən şəxslərin xeyrinə bu Məcəllənin 147-ci maddəsinə uyğun olaraq təminat qeydi aparılmalıdır.

144-1.5. Bu Məcəllənin 144-1.4-cü maddəsində nəzərdə tutulan müqavilədə digər müddəalarla yanaşı, tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissələrin bağlı olduğu payların alqı-satqı şərtləri, təminat qeydinin aparılmasına dair torpaq sahəsi mülkiyyətçisinin və torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxsin bu Məcəllənin 178.8-ci maddəsində nəzərdə tutulan öhdəlikləri və 147.2-ci maddəsində nəzərdə tutulan razılıqları, habelə bu Məcəllənin 178.8-ci maddəsində nəzərdə tutulan öhdəliklərin yerinə yetirilməsindən sonra torpaq sahəsində müvafiq paya və tərkib hissəyə mülkiyyət hüququnun xeyrinə təminat qeydi aparılmış şəxsə keçməsinə dair torpaq sahəsi mülkiyyətçisinin razılığı açıq-aydın ifadə edilməlidir.

144-1.6. Xeyrinə təminat qeydi aparılmış şəxs tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində müvafiq tərkib hissənin bağlı olduğu pay ilə əlaqədar hüquqlarını və öhdəliklərini yazılı formada sifarişli poçt göndərişi vasitəsilə torpaq sahəsinin mülkiyyətçisini məlumatlandırmaqla notariat qaydasında təsdiq edilmiş müqavilə əsasında üçüncü şəxsə ötürə bilər. Müqavilədə digər müddəalarla yanaşı, hüquqların və öhdəliklərin ötürüldüyü məqamda mövcud olmuş həcmi və həmin həcmdə ötürülməsi, aparılmış təminat qeydində hüquqların və öhdəliklərin ötürüldüyü üçüncü şəxsin xeyrinə müvafiq dəyişikliklərin edilməsinə dair hər iki tərəfin razılıqları aydın şəkildə ifadə edilməlidir. Belə hüquqlar və öhdəliklər onların üçüncü

şəxsə ötürüldüyü məqamda mövcud olmuş həcmdə və şərtlərlə ötürülməlidir. Notarius bu müqaviləni təsdiqlədikdən dərhal sonra onu elektron formada informasiya sistemləri vasitəsilə və təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vasitəsilə daşınmaz əmlakın dövlət reyestrinə, habelə təsdiqlənmiş yazılı formada sifarişli poçt göndərişi vasitəsilə torpaq sahəsinin mülkiyyətçisinə göndərməlidir. Belə müqavilə daşınmaz əmlakın dövlət reyestrində aparılmış təminat qeydində müvafiq dəyişikliklərin edilməsinə dair ərizə hesab olunur və həmin müqavilə əsasında müvafiq qeydiyyat hərəkətləri aparılır.

Maddə 145. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyat barəsində ərizə – *Çıxarılmışdır.*[235]

Maddə 146. Daşınmaz əmlaka hüququn əmələ gəlməsi[236]

146.1. Daşınmaz əmlaka sahiblik və istifadə hüququ onun barəsində əqdin notariat qaydasında təsdiq edildiyi andan əmələ gəlir (məhkəmə qərarı və ya digər qanuni qüvvəyə malik olan və barəsində şikayət verilə bilməyən qərar əsasında yaranan hüquq istisna olmaqla).

146.2. Daşınmaz əmlak üzərində sərəncam vermək hüququ həmin əmlakın daşınmaz əmlakın dövlət reyestrində ərazilər üzrə qeydiyyatı tarixindən əmələ gəlir.

146.3. Daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmamış daşınmaz əmlak barəsində müqavilələrin notariat qaydasında təsdiqlənməsinə yol verilmir və bu cür əmlak barəsində bağlanmış müqavilələr etibarsız sayılır.

Məcəllənin 146.2-ci maddəsi və bu maddənin birinci abzası ipoteka kreditindən istifadə etməklə əldə olunan yaşayış sahəsinin üzərində alıcının mülkiyyət hüququ, daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınanadək həmin yaşayış sahəsinin alqı-satqısı və ipotekaya qoyulmasına dair qarışıq müqavilənin notariat qaydasında təsdiq edilməsi hallarına şamil edilmir.[237]

~~146.4. Daşınmaz əmlaka dair müqavilənin notariat qaydasında təsdiqlənməsindən sonra notarius müqavilənin iki nüsxəsini müraciət etmiş şəxsə verir və ya onun istəyi ilə 2 gün müddətində müvafiq icra hakimiyyəti orqanına daşınmaz əmlakın dövlət reyestrində hüququn qeydiyyata alınması haqqında müraciət etmiş şəxsin notariat qaydasında təsdiq edilmiş ərizəsini göndərir. Ərizəyə müqavilənin bir nüsxəsi, hüquqların dövlət qeydiyyatı üçün qanunla nəzərdə tutulmuş digər əsasları əks etdirən sənədlər, torpaq sahəsinin planı və ölçüsü, torpaq sahəsində yerləşən bina, qurğu, tikililərin və digər daşınmaz əmlakın (onların tərkib hissələrinin) texniki pasportu, plan-cizgisi və dövlət rüsumunun ödənilməsi barədə *sənəd* əlavə edilir. Həmin ərizənin surəti müqavilənin notariat qaydasında təsdiqlənməsi haqqında müraciət edən şəxsə verilir.[238]~~

146.5. Daşınmaz əmlakı və ya ona dair hüquqları əldə edən şəxs məhkəmə qərarına və ya digər qanuni qüvvəyə malik olan və barəsində şikayət verilə bilməyən qərara istinad edirsə, bu halda ərizəyə həmin qərarın notariat qaydasında təsdiqlənmiş surəti və daşınmaz əmlakın texniki göstəricilərini əks etdirən sənədlər qoşulur.[239]

~~146.6. Daşınmaz əmlakın və ya ona dair hüquqların daşınmaz əmlakın dövlət reyestrində qeydiyyatı üçün sənədlər natamam olduqda, mülkiyyətçinin razılığı ilə və ya məhkəmə qərarı əsasında dövlət reyestrində qabaqcadan qeydiyyat aparıla bilər.~~[240]

146.7. Daşınmaz əmlakın dövlət reyestrində daşınmaz əmlakın və ya ona dair hüquqların qeydiyyatı ərizənin daxil olduğu tarix üzrə aparılır.[241]

146.8. Daşınmaz əmlaka dair müqavilələrin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasına görə daşınmaz əmlaka dair müqaviləni təsdiqləyən notarius, *qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər* və müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsi məhkəmə məsuliyyəti daşıyırlar. Daşınmaz əmlakın dövlət reyestrində daşınmaz əmlaka dair müqavilələrin qeydiyyatının aparılmaması və ya qeydiyyatın düzgün olmaması, qeydiyyatın natamam olması ilə bağlı iddialara görə dövlət reqressant qismində çıxış edir.[242]

Maddə 147. Torpaq sahəsi barədə təminat qeydi[243]

147.1. Torpaq sahəsi (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) ilə bağlı hər hansı hüququn əldə edilməsinə yönəlmiş tələbləri təmin etmək məqsədilə daşınmaz əmlakın dövlət reyestrində torpaq sahəsi barədə təminat qeydi aparıla bilər. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsində tərkib hissələrin bağlı olduğu paylarla əlaqədar təminat qeydinin aparılmasının xüsusiyyətləri bu maddənin tələbləri nəzərə alınmaqla, bu Məcəllənin 144-1-ci maddəsində müəyyən olunur.

147.2. Təminat qeydinin aparılması üçün torpaq sahəsinin mülkiyyətçisi ilə torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxs arasında notarial formada bağlanılmış müqavilə tələb olunur. Müqavilədə digər müddəalarla yanaşı, torpaq sahəsinin mülkiyyətçisinin öz mülkiyyətində olan torpaq sahəsi barədə təminat qeydinin aparılmasına və torpaq sahəsinə hüquq əldə etmək istəyən şəxsin həmin torpaq sahəsi barədə öz xeyrinə təminat qeydinin aparılmasına dair razılıqları, habelə müvafiq tələblər yerinə yetirildikdən sonra müqavilədən irəli gələn hüquqların xeyrinə təminat qeydi aparılmış şəxsə keçməsinə dair torpaq sahəsi mülkiyyətçisinin razılığı aydın şəkildə ifadə edilməlidir.

147.3. Təminat qeydi daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı vaxtdan yaranır.

147.4. Torpaq sahəsi barədə daşınmaz əmlakın dövlət reyestrində aparılmış təminat qeydinin öz hüquqi qüvvəsini saxladığı müddətdə həmin torpaq sahəsi barədə növbəti təminat qeydi aparıla bilməz.

147.5. Daşınmaz əmlakın dövlət reyestrini aparan orqanın və notariusların torpaq sahəsi barədə təminat qeydinin aparılması ilə bağlı hərəkətləri bu Məcəllə, "Notariat haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.

147.6. Notarius təminat qeydinin aparılması üçün bağlanılması nəzərdə tutulan müqavilənin qanunauyğunluğunu müəyyən etdikdən sonra onu notariat qaydasında təsdiq edib daşınmaz əmlakın dövlət reyestrinə göndərir və daşınmaz əmlakın dövlət reyestrində 3 iş günü ərzində təminat qeydi aparılır.[244]

147.7. Torpaq sahəsi barədə təminat qeydinin öz hüquqi qüvvəsini saxladığı müddətdə həmin torpaq sahəsinə və ya ona olan hüquqa dair bağlanan müqavilələr və (və ya) digər formada verilən sərəncamlar təminat qeydinin əsası olmuş tələbin həyata keçirilməsinə təsir etdiyi və ya

mane olduğu hissədə etibarsızdır. Həmin qayda sərəncamın məcburi icra və ya həbsin qoyulması qaydasında və ya əmlak inzibatçısı tərəfindən iflas prosesi zamanı verildiyi halda da tətbiq edilir.

147.8. Daşınmaz əmlakın dövlət reyestrində torpaq sahəsi barədə aparılmış təminat qeydi aşağıdakı hallarda öz hüquqi qüvvəsini itirir:

147.8.1. xeyrinə təminat qeydi aparılmış şəxsin bu Məcəllənin 147.2-ci maddəsində nəzərdə tutulan müqavilədən irəli gələn hüquqları bu Məcəlləyə uyğun olaraq daşınmaz əmlakın dövlət reyestrində qeydə alındıqda;

147.8.2. bu Məcəllənin 147.2-ci maddəsində nəzərdə tutulan müqavilə bu Məcəllənin 421-424-cü maddələrinə uyğun olaraq ləğv edildikdə;

147.8.3. aparılmış təminat qeydində bu Məcəllənin 144-1.6-cı maddəsində nəzərdə tutulan müqavilə əsasında hüquqların və öhdəliklərin ötürüldüyü üçüncü şəxsin xeyrinə müvafiq dəyişikliklər edildikdə.

147.9. Torpaq sahəsinin (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) əldə edilməsi üçün bu Məcəllənin 147.2-ci maddəsinə uyğun olaraq bağlanılan müqavilədə xeyrinə təminat qeydi aparılan şəxsin ipoteka kreditindən istifadə etmək imkanı müəyyən edildiyi halda, şəxs həmin torpaq sahəsinin əldə edilməsinin maliyyələşdirilməsi məqsədi ilə ipoteka müqaviləsi bağlaya bilər. Həmin ipoteka yalnız ipoteka predmeti olan torpaq sahəsinin (üzərindəki tikilmiş və ya tikintisi başa çatmayan tikinti obyektləri də daxil olmaqla) əldə edilməsinin maliyyələşdirilməsi üçün istifadə olunan kreditin təminatına xidmət edə bilər.

Maddə 148. Daşınmaz əmlakın dövlət reyestrinin açıqlığı

148.1. Daşınmaz əmlakın təsviri, dövlət qeydiyyatına alınmış hüquqlar və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayış qanunla müəyyən edilmiş qaydada hüquq sahibinə, onun tərəfindən vəkil edilmiş şəxsə, hüquq sahibinin əmlakına qanun və ya vəsiyyət əsasında vərəsəlik hüququ olan şəxslərə və qanunla nəzərdə tutulmuş səlahiyyətlərin yerinə yetirilməsi ilə əlaqədar müvafiq dövlət orqanlarına və bələdiyyələrə verilir.[245]

148.2. Daşınmaz əmlakın dövlət reyestrindəki qeydə əsaslanaraq mülkiyyət hüququ və ya daşınmaz əmlaka başqa hüquqlar əldə etmiş hər bir şəxsin bu hüquqları müdafiə edilməlidir.

~~*148.2-1. Hüquq sahibinin istəyi ilə "Elektron hökumət" portalında yerləşdirilmiş daşınmaz əmlakın dövlət reyestrindən çıxarış əsasında daşınmaz əmlak üzərində sərəncam verildiyi hallarda çıxarış notarius və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər tərəfindən daşınmaz əmlakın dövlət reyestrindən elektron informasiya sistemləri vasitəsi ilə "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq real vaxt rejimində əldə edilir.*~~[246]

148.3. Daşınmaz əmlak barəsində notariat hərəkətlərinin aparılması ilə bağlı daşınmaz əmlakın dövlət reyestrindən daşınmaz əmlaka dair çıxarışın, həmin əmlakın təsvirinin, bu əmlak üzərində qeydiyyata alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair məlumatların notarius və ya qanunla müəyyən edilmiş hallarda notariat hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslər tərəfindən əldə edilməsini, habelə daşınmaz əmlak barəsində aparılmış notariat hərəkətinin nəticəsi olaraq tərtib və (və ya) təsdiq edilmiş və həmin əmlak barəsində qeydiyyatın aparılması üçün əsas hesab edilən sənədin təsdiqləndikdən dərhal sonra elektron

formada daşınmaz əmlakın dövlət reyestrinə ötürülməsini təmin etmək məqsədilə notariuslarla və ya qanunla müəyyən edilmiş hallarda bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxslərlə daşınmaz əmlakın dövlət reyestri arasında elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində məlumat və sənəd mübadiləsi imkanı, onların həmin sistemlər vasitəsilə daşınmaz əmlakın dövlət reyestrinə birbaşa çıxışı təmin olunmalıdır.[247]

148.4. İpoteka qoyulan daşınmaz əmlakla bağlı məlumatların əldə edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Mərkəzi Bankı, ~~maliyyə bazarlarına nəzarət orqanı,~~ ipoteka fondları, ipoteka saxlayan banklar və digər kredit təşkilatlarının informasiya sistemləri ilə daşınmaz əmlakın dövlət reyestri arasında əlaqə yaradılır.[248]

Maddə 149. Daşınmaz əmlaka hüquqların əsassız qeydə alınması

149.1. *Çıxarılmışdır.*[249]

149.2. Əgər daşınmaz əmlaka hüquqların qeydiyyatı əsassızdırsa və ya əgər düzgün qeydiyyat əsassız çıxarılmışsa və ya dəyişdirilmişsə, bunun nəticəsində daşınmaz əmlaka olan hüquqlarına toxunulmuş istənilən şəxs qeydiyyatın çıxarılması və ya dəyişdirilməsi haqqında iddia qaldıra bilər. Bunun nəticəsində vurulmuş zərərin əvəzinin ödənilməsi üçün tələblər irəli sürülməsi istisna edilmir. Bu zaman vicdanlı üçüncü şəxslərin qeydiyyatla əlaqədar əldə etdikləri hüquqları saxlanılır.

Maddə 150. Məhv olmuş daşınmaz əmlakın qeydiyyatının ləğvi

150.1. Əgər daşınmaz əmlak tam məhv olarsa və bunun nəticəsində onun qeydiyyatı hər cür hüquqi mənasını itirərsə, maraqlı şəxs məhkəmə qaydasında qeydiyatın ləğvini tələb edə bilər. Daşınmaz əmlakın məhv olması daşınmaz əmlakın dövlət reyestrini tərtib edən müvafiq icra hakimiyyəti orqanının vəzifəli şəxsi tərəfindən təsdiqlənməlidir.[250]

150.2. İstənilən maraqlı şəxs qeydiyyatın ləğvi barəsində bundan xəbər tutduğu vaxtdan on gün ərzində məhkəməyə şikayət edə bilər.

~~**Maddə 151. Daşınmaz əmlakın dövlət reyestrində düzəliş**~~[251]

~~151.1. Daşınmaz əmlakın dövlət reyestrini tərtib edən müvafiq icra hakimiyyəti orqanı maraqlı şəxslərin yazılı razılığı olmadan yalnız qanuni qüvvəyə minmiş məhkəmə qərarına əsasən reyestrdə dəyişiklik edə bilər.~~

~~151.2. Sadə səhvlər və texniki xətalar xidməti qaydada düzəldilir.~~

6-cı fəsil.

Mülkiyyət hüququnun ümumi müddəaları

Maddə 152. Mülkiyyət hüququnun anlayışı və məzmunu

152.1. Mülkiyyət hüququ - subyektin ona mənsub əmlaka (əşyaya) öz istədiyi kimi sahib olmaq, ondan istifadə etmək və ona dair sərəncam vermək üzrə dövlət tərəfindən tanınan və qorunan hüquqdur.

152.2. Sahiblik hüququ - əmlaka (əşyaya) faktik sahibliyi həyata keçirməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

152.3. İstifadə hüququ - əmlakdan (əşyadan) onun faydalı təbii xassələrini hasil etməyin, habelə ondan fayda götürməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır. İstifadədən fayda gəlir, artım, bəhər, törəmə şəklində və başqa formalarda ola bilər.

152.4. Sərəncam hüququ - əmlakın (əşyanın) hüquqi müqəddəratını təyin etməyin hüquqi cəhətdən təmin edilmiş imkanıdır.

152.5. Mülkiyyətçi *qanunda və ya müqavilədə müəyyən edilən məhdudiyyətlər nəzərə alınmaqla* müəyyənləşdirilmiş hədlərdə əmlaka (əşyaya) sərbəst surətdə sahib ola bilər, ondan istifadə edə bilər və ona dair sərəncam verə bilər, həmin əmlaka başqa şəxslərin sahibliyinə yol verməyə bilər, ona mənsub əmlak barəsində öz mülahizəsi ilə istənilən hərəkətləri edə bilər, bir şərtlə ki, həmin hərəkətlər qonşuların və ya üçüncü şəxslərin hüquqlarını pozmasın, yaxud hüquqdan sui-istifadə olmasın.[252]

152.6. Hüquqdan sui-istifadə mülkiyyətdən başqalarına ziyan vuran şəkildə istifadədir; bu zaman mülkiyyətçinin mənafe üstünlüyü dəqiq ifadə edilməmişdir və onun hərəkətlərinin zəruriliyi əsaslı deyildir.

152.7. İstifadə hüququna şəxsin öz əşyasından istifadə etməməsi imkanı da daxildir. Əgər əşyanın tətbiq edilməməsi və ya ona qulluq olunmaması ictimai mənafelərə qəsd edirsə, istifadə və ya qulluq və saxlama vəzifəsi müəyyənləşdirilə bilər. Bu halda mülkiyyətçinin üzərinə həmin vəzifələri özü icra etmək və ya müvafiq muzd müqabilində əşyanı başqa şəxslərin istifadəsinə vermək vəzifəsi qoyula bilər.

152.8. Mülkiyyətçi öz əmlakını başqa şəxsin etibarnaməli idarəçiliyinə (etibarnaməli idarəçi) verə bilər. Əmlakın etibarnaməli idarəçiliyə verilməsi mülkiyyət hüququnun etibarnaməli idarəçiyə keçməsinə səbəb olmur; o, əmlakı mülkiyyətçinin və ya mülkiyyətçinin göstərdiyi üçüncü şəxsin mənafeyi naminə idarə etməlidir.

**152.8-1. Üzərinə həbs qoyulmuş əmlakın qanunla müəyyən edilmiş hallarda və qaydada idarə edilməsi ilə əlaqədar tədbirlər görülə bilər.*[253]

152.9. Əşyaya mülkiyyət hüququ həmin əşyanın mühüm tərkib hissələrinə də şamil edilir.

152.10. Əmlakın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski, əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, mülkiyyətçisinin üzərinə düşür.

152.11. Əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, mülkiyyətçi ona mənsub əmlakın saxlanması yükünü daşıyır.

Maddə 153. Mülkiyyət hüququnun subyektləri

153.1. Bütün növlərdən olan daşınar və daşınmaz əmlaka mülkiyyət hüququnun subyektləri hüquqi və fiziki şəxslər, bələdiyyələr və Azərbaycan Respublikası ola bilər.

153.2. Qanunvericiliklə yalnız dövlət mülkiyyətində və ya bələdiyyələrin mülkiyyətində ola bilən əmlak növləri müəyyənləşdirilir.

153.3. Əmlakın fiziki və ya hüquqi şəxsin mülkiyyətində, Azərbaycan Respublikasının və ya bələdiyyələrin mülkiyyətində olmasından asılı olaraq əmlaka mülkiyyət hüququnun, əmlaka sahiblik, ondan istifadə və ona dair sərəncam hüququnun əldə edilməsi və ona xitam verilməsi xüsusiyyətləri yalnız qanunla müəyyənləşdirilə bilər.

153.4. Bütün mülkiyyətçilərin hüquqları eyni bərabərdə müdafiə edilir.

Maddə 154. Fiziki və hüquqi şəxslərin mülkiyyət hüququ

154.1. Qanunvericiliyə uyğun olaraq fiziki və ya hüquqi şəxslərə mənsub ola bilməyən əmlakın ayrı-ayrı növləri istisna edilməklə, fiziki və hüquqi şəxslərin mülkiyyətində istənilən əmlak ola bilər.

154.2. Bu Məcəllənin 6.3-cü maddəsində nəzərdə tutulan məqsədlər üçün qanunvericilik yolu ilə məhdudiyyətlərin müəyyənləşdirildiyi hallar istisna olmaqla, fiziki və hüquqi şəxslərin mülkiyyətində olan əmlakın miqdarı və dəyəri məhdudlaşdırılmır.

154.3. Kommersiya və qeyri-kommersiya hüquqi şəxsləri onların təsisçilərinin (iştirakçılarının, üzvlərinin) maya və ya haqq kimi onlara verdikləri əmlakın, habelə həmin hüquqi şəxslərin başqa əsaslar üzrə əldə etdikləri əmlakın mülkiyyətçiləridir.

Maddə 155. Dövlət mülkiyyəti hüququ

155.1. Azərbaycan Respublikasına mülkiyyət hüququ ilə mənsub olan əmlak dövlət mülkiyyətidir.

155.2. Fiziki, hüquqi şəxslərin və ya bələdiyyələrin mülkiyyətində olmayan torpaq və digər təbii ehtiyatlar dövlət mülkiyyətidir.

155.3. Dövlət büdcəsinin vəsaiti Azərbaycan Respublikasının mülkiyyətidir.

155.4. Dövlət əmlakının özəlləşdirilməsi haqqında qanunda nəzərdə tutulmuş qaydada dövlət öz mülkiyyətində olan əmlakı fiziki və hüquqi şəxslərin mülkiyyətinə verə bilər.

155.5. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş torpağın dövlət ehtiyacları üçün alınmasına əsas verən hallar, habelə qanunla özəlləşdirilməsi qadağan olunan dövlət əmlakı və dövlətin müstəsna mülkiyyətində olan torpaq sahələri istisna olmaqla, dövlət mülkiyyətində olan əmlak, o cümlədən torpaq sahəsi qarşılıqlı razılıq əsasında xüsusi mülkiyyətdə olan əmlakla və ya torpaq sahəsi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təqdimatı əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) razılaşdırmaqla müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) qərarı ilə dəyişdirilir.[254]

Dəyişdirilən əmlakların, o cümlədən torpaq sahələrinin qiymətləndirilməsi əmlakların (torpaq sahələrinin) alqı-satqısı zamanı təşəkkül tapan bazar qiyməti nəzərə alınmaqla "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qiymətləndirici tərəfindən həyata keçirilir.

Dövlət mülkiyyətində olan əmlakın, o cümlədən torpaq sahəsinin qarşılıqlı razılıq əsasında müvafiq olaraq xüsusi mülkiyyətdə olan əmlakla və ya torpaq sahəsi ilə dəyişdirilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

Maddə 156. Bələdiyyələrin mülkiyyət hüququ

156.1. Bələdiyyələrə mülkiyyət hüququ ilə mənsub olan əmlak onların mülkiyyətidir.

156.2. Yerli büdcənin vəsaiti bələdiyyənin mülkiyyətidir.

Maddə 157. Mülkiyyətin müdafiəsi

157.1. Mülkiyyətçinin mülkiyyət hüququnun tanınmasını tələb etmək ixtiyarı vardır.

157.2. Mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən öz əmlakını geri tələb edə bilər.

157.3. *Çıxarılmışdır.* [255]

157.4. Əgər mülkiyyətə qəsd və ya başqa maneələr əşyanı götürmədən və ya ondan məhrum etmədən törədilirsə, mülkiyyətçi qəsd edəndən bu hərəkətlərə son qoymağı tələb edə bilər. Bu cür hərəkətlər davam etdirildikdə mülkiyyətçi həmin hərəkətlərə son qoyulmasını məhkəmə vasitəsilə tələb edə bilər.

157.5. Mülkiyyətçi özgəsinin qanunsuz sahibliyindən əmlakını geri tələb edərkən, bu şəxsin əmlaka sahibliyinin qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu halda (vicdansız sahib), əmlakın onda olduğu bütün vaxt ərzində onun götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılmasını və ya əvəzinin ödənilməsini də tələb edə bilər; vicdanlı sahibdən isə onun əmlaka sahibliyinin qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu vaxtdan və ya əmlakın qaytarılmasına dair mülkiyyətçinin iddiası üzrə məhkəmə bildirişini aldığı vaxtdan götürdüyü və ya götürməli olduğu bütün gəlirlərin qaytarılmasını və ya əvəzinin ödənilməsini tələb edə bilər. Bundan başqa vicdansız sahib əmlakın mülkiyyətçisinə əmlakın onda olması ilə bağlı bütün zərərin əvəzini ödəməlidir. Vicdanlı sahib isə əvəzi ödənilərkən yoxa çıxan və ya zərər çəkən əmlakın, o cümlədən əmlakdan gəlir götürdüyünə görə zərərin əvəzini ödəməyə borclu deyildir.[256]

157.6. İstər vicdanlı sahib, istərsə də vicdansız sahib isə öz növbəsində əmlakdan gəlirin mülkiyyətçiyə düşdüyü vaxtdan sonra əmlaka sərf etdiyi zəruri məsrəflərin əvəzinin ödənilməsini mülkiyyətçidən tələb edə bilər.

157.7. Vicdanlı sahib əmlaka zərər yetirmədən ondan ayrıla bilən öz yaxşılaşdırmalarını özündə saxlaya bilər. Yaxşılaşdırmaları bu cür ayırmaq mümkün olmadıqda vicdanlı sahib əmlakın dəyərindən artıq olmamaq şərti ilə, onu yaxşılaşdırmaq üçün çəkdiyi məsrəflərin əvəzinin ödənilməsini tələb edə bilər.

157.8. Mülkiyyətçi hüquqları mülkiyyətçi olmasa da, bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan əsasla əmlaka sahiblik edən şəxsə də mənsubdur.

157.9. Dövlət ehtiyacları tələb etdikdə, dövlət tərəfindən mülkiyyət yalnız "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının

Qanunu ilə nəzərdə tutulmuş hallarda dövlət əhəmiyyətli yolların və digər kommunikasiya xətlərinin çəkilməsi və quraşdırılması, sərhədboyu zolaqda dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, müdafiə və təhlükəsizlik əhəmiyyətli obyektlərin tikilməsi, dövlət əhəmiyyətli dağ-mədən sənayesi obyektlərinin tikilməsi, *dəniz limanının ərazisinin artırılması, dövlət mülkiyyətində olan hava limanlarının (aeroportların) və (və ya) aerodromların genişləndirilməsi və ya yeni hava limanlarının (aeroportların) və (və ya) aerodromların inşası* məqsədi ilə alınır.[257]

Maddə 158. Mülkiyyətçi olmayan şəxslərin hüquqları

158.1. Mülkiyyət hüququ ilə yanaşı aşağıdakılar da əmlak hüquqları sayılır:
158.1.1. girov hüququ;
158.1.2. əmlakdan istifadə hüququ;
158.1.3. servitutlar.
158.2. Əmlak hüquqları həmin əmlakın mülkiyyətçisi olmayan şəxslərə də mənsub ola bilər.
158.3. Əmlaka mülkiyyət hüququnun başqa şəxsə keçməsi həmin əmlaka olan digər əmlak hüquqlarının xitamına səbəb olmur, bu şərtlə ki, əldə edən şəxs əmlakın yüklülüyünün olmamasına münasibətdə vicdanlı olsun.[258]
158.4. Mülkiyyətçi olmayan şəxsin əmlak hüquqları istənilən şəxs, o cümlədən mülkiyyətçi tərəfindən pozulmaqdan müdafiə edilir.

7-ci fəsil.

Sahiblik hüququ

Maddə 159. Əşyaya sahiblik

Sahiblik əşyaya faktik sahibliyə nail olmaqla əldə edilir.

Maddə 160. Vasitəsiz və vasitəli sahiblik

Əgər sahib əşyanı məhdud əşya və ya şəxsi sahiblik hüququnun həyata keçirilməsi üçün kiməsə vermişsə, onların hər ikisi sahibdirlər. Onlardan birincisi vasitəli, ikincisi isə vasitəsiz sahibdir.

Maddə 161. Özgə əşyasının sahibi və öz əşyasının sahibi

Əşyanın mülkiyyətçisi hüququ ilə əşyaya sahib olan öz əşyasının sahibidir, əşyanın hər hansı başqa sahibi özgə əşyasının sahibidir.

Maddə 162. Sahibliyin müvəqqəti kəsilməsi

Əşyaya faktik sahib olmağa mahiyyətcə müvəqqəti iqtidarsızlıq və ya imkansızlıq əşyaya sahibliyi ləğv etmir.

Maddə 163. Sahibliyin verilməsi

163.1. Sahiblik əşyanın özünün verilməsi ilə verilir. Əvvəlki sahibin iradəsi ilə əldə edən əşyaya faktik sahibliyi həyata keçirməyə qadir olduqda verilmə baş tutur.

163.2. Əgər üçüncü şəxs və ya özgəninkiləşdirən özü xüsusi hüquq münasibətləri əsasında əşyaya sahibliyi davam etdirirsə, əşyaya sahiblik əşya verilmədən də əldə edilə bilər. Sahibliyin bu cür verilməsi üçüncü şəxs üçün yalnız özgəninkiləşdirən ona bu barədə bildiriş verdikdə etibarlı olur. Üçüncü şəxs əşyanı özgəninkiləşdirənə verməkdən imtina etmək üçün istinad etdiyi əsaslarla əldə edənə verməkdən də imtina edə bilər.

163.3. Fraxtverənə və ya anbara verilmiş mallar üçün onları təmsil edən order sənədi verildikdə bu sənədin verilməsi malın özünün verilməsi sayılır. Əgər həm order sənədini vicdanlı əldə edən, həm də malı vicdanlı əldə edən varsa, sonuncuya üstünlük verilir.

Maddə 164. Sahibliyin müdafiəsi

164.1. Sahibin iradəsi olmadan sahiblikdən məhrumetmə və onu pozma qadağan edilmiş özbaşınalıq sayılır. Hər bir sahibin qadağan edilmiş özbaşınalıqdan müdafiə üçün güc işlətmək ixtiyarı vardır. Bu zaman o, şəraiti nəzərə almaqla, əsassız güc hərəkətlərindən çəkinməlidir.

164.2. Sahiblikdən məhrum olan onun üçün qanunsuz sahibdən sahibliyin qaytarılmasını tələb edə bilər. Sahiblikdən məhrumetmə faktik sahib və ya onun hüquq sələfi barəsində səhv addım olduqda və sahiblik məhrumetmədən əvvəlki ildə əldə edildikdə iddia istisna edilir.

Maddə 165. Sahibliyin pozulması

165.1. Sahiblik qadağan edilmiş özbaşınalıq yolu ilə pozulduqda sahib pozucudan pozuntulara son qoymağı tələb edə bilər. Pozuntuların davam edəcəyindən ehtiyat olunduqda sahib onlara son qoyulması üçün iddia verə bilər. Pozucu və ya onun hüquq sələfi üçün sahib qanunsuz olduqda və sahiblik məhrumetmədən əvvəlki ildə əldə edildikdə bu cür iddia istisna edilir.

165.2. Qadağan edilmiş özbaşınalıq üzrə iddiaya yalnız o halda yol verilir ki, sahib qəsdin və təqsirkarın ona məlum olmasından dərhal sonra əşyanın qaytarılmasını və ya pozuntunun aradan qaldırılmasını tələb etsin. İddia müddəti, hətta qəsd və təqsirkar sahibə sonralar da məlum olarsa, məhrumetmə və ya pozuntu anından başlayaraq bir il təşkil edir.

Maddə 166. Mülkiyyətin sahiblik əsasında ehtimal edilməsi

166.1. Daşınar əşyanın sahibi haqqında ehtimal edilir ki, o əşyaya mülkiyyətçi hüququ ilə sahiblik edir. Hər hansı əvvəlki sahib haqqında ehtimal edilir ki, öz sahibliyi zamanı o, mülkiyyətçi olmuşdur.

166.2. Daşınar əşyanın mülkiyyətçisi olmaq istəməyən sahibi ehtimal edə bilər ki, bu əşya kimdən arxayın alınmışdırsa, həmin şəxsin mülkiyyətindədir. Sahiblik hüququ olmadığını bilən və ya bilməli olan sahib vicdansız sahibdir. Daşınar əşya üzərində məhdud əşya hüququna və ya şəxsi hüquqa iddia edən daşınar əşya sahibinin bu cür hüququnun olduğu ehtimal edilir. Lakin o həmin əşyanı aldığı şəxsin bu cür hüququ olduğunu ehtimal edə bilməz.

166.3. Yalnız o şəxsin torpaq sahəsinə mülkiyyət hüququnun və sahiblik haqqında iddia hüququnun olduğu ehtimal edilir ki, onun sahiblik hüququ torpaq sahəsinin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasından irəli gəlir. Lakin torpaq sahəsinin faktik sahibi sahiblikdən özbaşına məhrumedilmə və ya sahibliyin pozulması barədə iddia verə bilər.

Maddə 167. Vicdansız sahibin əşyanı qaytarmaq vəzifəsi – ***Çıxarılmışdır.***[259]

Maddə 168. Vicdanlı sahibin mülkiyyətçi qarşısında məsuliyyətinin olmaması – ***Çıxarılmışdır.***[260]

8-ci fəsil.

Mülkiyyət hüququnun məhdudlaşdırılması

Maddə 169. Mülkiyyət hüququnun məhdudlaşdırılmasının ümumi müddəaları

169.1. Bu Məcəllədə müəyyənləşdirilmiş hallarda mülkiyyət hüququ məhdudlaşdırıla bilər.

169.2. Hər bir daşınmaz əmlak mülkiyyətçisi, əgər quyuların qazılması, drenaj, qaz və başqa boruların, habelə yerüstü və yeraltı elektrik xətlərinin çəkilməsi onun torpaq sahəsindən istifadə edilmədən qətiyyən mümkün deyildirsə və ya hədsiz yüksək məsrəflər hesabına mümkündürsə, bununla əlaqədar dəyən zərərin əvəzinin qabaqcadan tam ödənilməsi şərti ilə həmin tədbirlərin həyata keçirilməsinə icazə verməlidir.

169.3. Yüklü torpaq sahəsinin mülkiyyətçisi öz mənafelərinin ədalətlə nəzərə alınması hüququna malikdir. Yerüstü xətlərin çəkildiyi hallarda, əgər fövqəladə hallar əsas verirsə, o, tələb edə bilər ki, həmin xəttin keçdiyi ağlabatan həcmdə torpaq sahəsi tam əvəzi ödənilməklə ondan ayrılsın.

169.4. Əgər şərait dəyişərsə, mülkiyyətçi xəttin onun mənafeyinə uyğun çəkilməsini tələb edə bilər. Çəkilmənin dəyərini ixtiyarlı şəxs ödəməlidir, lakin xüsusi halların əsas verdiyi yerlərdə dəyərin ağlabatan hissəsi mülkiyyətçinin hesabına aid edilə bilər.

Maddə 170. Qonşuluq hüququ

170.1. İkitərəfli təsirlərin törəyə biləcəyi hər bir torpaq sahəsi və ya digər daşınmaz əmlak qonşunun sahəsi və ya əmlakı sayılır.

170.2. Qonşu torpaq sahələrinin və ya digər daşınmaz əmlakın mülkiyyətçiləri, qanunda nəzərdə tutulmuş hüquq və vəzifələrindən əlavə, bir-birinə qarşılıqlı hörmət bəsləməlidirlər. Öz mülkiyyət hüququnu həyata keçirən hər kəs qonşunun mülkiyyətinə cürbəcür hədsiz təsirlərdən çəkinməlidir. Xüsusən, işlənmiş qazların, tozun, ağır qoxuların, səs-küyün və ya titrəyişlərin bütün ziyanlı və torpaq sahələrinin mövqeyinə və xarakteristikasına görə qanunsuz təsirləri qadağandır.

170.3. Heç kəsə icazə verilmir ki, suyun təbii axımını qonşunun ziyanına dəyişdirsin. Aşağı torpaq sahəsi üçün zəruri olan su yuxarı torpaq sahəsi üçün zəruri olan həcmdə axıdıla bilər. Su axıdılarkən aşağıda yerləşən torpaq sahəsinin mülkiyyətçisi əvvəllər ona təbii yolla gəlmiş suyu kompensasiyasız götürməlidir. Əgər suyun buraxılması nəticəsində ona ziyan dəyirsə, tələb edə bilər ki, yuxarıdakı mülkiyyətçi öz hesabına aşağı torpaq sahəsindən nov çəksin.

170.4. Bir neçə torpaq sahəsindən axan tullantı və yeraltı suların istiqamətini dəyişdirərək və ya onları qarışdıraraq başqa torpaq sahələrində suyun miqdarını azaltmaq və ya keyfiyyətini pisləşdirmək yolverilməzdir.

Maddə 171. Qonşu təsirinə dözmək vəzifəsi

171.1. Torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisi, əgər öz sahəsindən istifadə etməkdə ona maneçilik yaranmırsa və ya hüququ əhəmiyyətsiz dərəcədə pozulursa, qonşu sahədən qazın, buxarın, qoxunun, hisin, tüstünün, səs-küyün, istiliyin, titrəyişlərin və ya digər oxşar amillərin öz sahəsinə təsirini qadağan edə bilməz.

171.2. Təsirin əhəmiyyətli olduğu, lakin digər torpaq sahəsindən və ya başqa daşınmaz əmlakdan adi istifadədən törəndiyi və istifadəçilərin həmin növü üçün normal təsərrüfat fəaliyyəti sayılan tədbirlərlə qarşısı alına bilmədiyi hallarda da eyni qayda qüvvədə olur.

171.3. Əgər mülkiyyətçi bu cür təsirə dözməyə borcludursa, o, təsiri əmələ gətirən torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisindən, təsirin həmin ərazi üçün təsdiq edilən adi istifadədən və iqtisadi cəhətdən yol verilən hədlərdən yüksək olduğu hallarda pul formasında müvafiq kompensasiya tələb edə bilər.

Maddə 172. Mülkiyyətçinin qazıntılar və tikinti işləri ilə vurduğu ziyan

172.1. Qazıntı və tikinti işləri apararkən mülkiyyətçiyə icazə verilmir ki, torpağı qonşu torpaq sahələrinə kürüməklə onlara ziyan vursun və ya onları təhlükəyə məruz qoysun və ya həmin sahələrdəki qurğuları zədələsin.

172.2. Torpaq sahəsinin mülkiyyətçisi özünün torpaq sahəsindən istifadə hüququna yolverilməz şəkildə qəsd edən belə qurğuların qonşu sahədə tikilməsinin və ya istismarının qadağan olunmasını tələb edə bilər.

172.3. Əgər torpaq sahəsinin mülkiyyətçisi tikinti zamanı qonşu sahənin sərhədlərini qərəzsiz pozarsa, həmin sahənin mülkiyyətçisi, pozuntu aşkar edilməzdən qabaq və ya aşkar edilən kimi pozucuya etiraz bildirildiyi hallardan başqa, həmin pozuntuya dözməlidir. Sərhədi pozmuş qonşu pul kompensasiyası ödəməli və bundan sonra onu hər il ödəməlidir.

172.4. Qonşuluq hüququnun göstərişlərini pozan binalara çıxıntılı binalar haqqında qaydalar tətbiq edilir.

Maddə 173. Çıxıntılı binalar

173.1. Başqa daşınmaz əmlaka keçən çıxıntıları olan binalar və digər qurğular yerləşdikləri daşınmaz əmlakın tərkib hissəsi kimi qalırlar, bu şərtlə ki, həmin əmlakın mülkiyyətçisi onlara əşya hüququna malik olsun. Qonşu ya üst tikiliyə qarşı etirazını bildirə bilər, ya da bununla barışaraq ağlabatan əvəz ödənilməsini tələb edə bilər.

173.2. Üst tikiliyə hüquq daşınmaz əmlakın dövlət reyestrində servitut kimi qeydə alına bilər.

173.3. Əgər üst tikili əsassızdırsa və hüququna toxunulmuş şəxs, bunu bilsə də, vaxtında etiraz etməzsə, üst tikilini ucaldan şəxsə, şəraitin haqq qazandırdığı hallarda, ağlabatan əvəz ödənilməklə, üst tikiliyə əşya hüququ və ya torpağa mülkiyyət hüququ verilə bilər.

173.4. Əgər qonşu sahədən binanın uçub torpaq sahəsinə tökülməsi təhlükəsi varsa, mülkiyyətçi qonşudan həmin təhlükənin qarşısının alınması üçün lazımi tədbirlər görməyi tələb edə bilər.

Maddə 174. Çıxıntılı bitkilər

174.1. Əgər çıxıntılı budaqlar və uzanan köklər qonşunun mülkiyyətinə ziyan vurarsa və onun şikayəti ilə ağlabatan müddətdə aradan qaldırılmazsa, o, həmin budaqları və kökləri kəsib özündə saxlaya bilər.

174.2. Ağac və ya kol meyvəsi qonşunun torpaq sahəsinə düşdükdə həmin torpaq sahəsinin meyvəsi sayılır.

174.3. Əgər mülkiyyətçi tikililər və üst tikililər olan torpaq sahələrində çıxıntılı budaqların olmasına yol verirsə, həmin budaqlarda yetişən meyvələrə onun hüququ çatır. Bu göstərişlər meşə torpaq sahələrinə şamil edilmir.

Maddə 175. Özgənin sahibliyində olan sahədən zəruri yol və keçid

175.1. Əgər torpaq sahəsi mülkiyyətçisinin öz sahəsindən ictimai yola, elektrik, neft, qaz və su təchizatı xətlərinə keçidi yoxdursa, o tələb edə bilər ki, qonşular ona tam əvəzi ödənilməklə zəruri keçid ayırsınlar. Tələb ilk növbədə o qonşuya qarşı yönəldilir ki, mülkiyyət və keçid münasibətləri ilə əlaqədar keçid verilməsinin ondan tələb edilməsi daha yolverilən dir; daha sonra tələb keçidin daha az zərər vurduğu qonşulara yönəldilir. Zəruri keçid müəyyənləşdirilərkən qarşılıqlı mənafelər nəzərə alınmalıdır.

175.2. Sahələrindən zəruri yol və ya birləşdirici xətt keçəcək qonşulara müvafiq kompensasiya ödənilməlidir. Tərəflər arasında razılaşmaya əsasən kompensasiya birdəfəlik ödəniş şəklində verilə bilər.

175.3. Əgər torpaq sahəsi ilə artıq mövcud olmuş əlaqə xətləri mülkiyyətçinin özbaşına hərəkətləri nəticəsində ləğv edilərsə, zəruri yola və ya birləşdirici xəttə dözmək vəzifəsi əmələ gəlmir.

Maddə 176. Torpaq sahələrinin hasarlanması və mərzlənməsi

176.1. Hasarlama xərclərini hasarın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisi çəkir. İki torpaq sahəsi arasında barı vasitəsilə və ya sərhəd kimi istifadə edilən başqa qurğu ilə mərz çəkildikdə ehtimal edilir ki, torpaq sahələrinin mülkiyyətçiləri həmin qurğudan istifadə etməkdə bərabər hüquqlara malikdirlər və onunla bağlı xərcləri öz mənafelərinə mütənasib surətdə ödəməlidirlər. Əgər hər iki qonşunun sərhəd kimi istifadə edilən qurğudan birlikdə yararlanmağa haqqı çatırsa, onlardan hər biri qurğudan elə istifadə edə bilər ki, birgə istifadə zamanı qonşuya maneçilik yaranmasın.

176.2. Torpaq sahəsinin mülkiyyətçisi qonşu sahənin mülkiyyətçisindən möhkəm ayırıcı mərz çəkilməsində və ya mövcud olmuş, lakin uçmuş və ya zədələnmiş mərzin bərpasında iştirak etməyi tələb edə bilər. Mərz çəkilməsi xərcləri, iki qonşunun razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onların arasında bərabər bölünür. Nə qədər ki qonşulardan biri mərz qurğusunun olmasında maraqlıdır, həmin mərz onun razılığı olmadan uçurula və ya dəyişdirilə bilməz.

176.3. Əgər dəqiq sərhədləri müəyyənləşdirmək mümkün deyildirsə, mərz çəkilməsi üçün qonşuların faktik sahibliyi həlledici əhəmiyyət daşıyır. Faktik sahibliyi müəyyənləşdirmək mümkün olmadıqda, mübahisəli ərazi sahələr arasında bərabər bölüşdürülür. Əgər belə bölgü ədalətsiz nəticələr doğurarsa, tərəflərdən birinin ərizəsi ilə sərhədi məhkəmə müəyyənləşdirir.

Maddə 177. İtmiş heyvanlar və əşyalar

Əgər təbii fəlakət və ya təsadüfi hadisələr nəticəsində əşyalar özgə torpaq sahəsinə düşərsə və ya vəhşi heyvanlar istisna olmaqla, heyvanlar özgə ərazisinə keçərsə, həmin torpaq sahəsinin mülkiyyətçisi ixtiyarlı şəxsin onların arxasınca gəlib onları götürməsinə icazə verməlidir. Bu zaman dəyən zərər üçün o, əvəz ödənilməsini tələb edə bilər və bununla əlaqədar həmin əşyaları saxlamaq hüququna malikdir.

9-cu fəsil.

Mülkiyyət hüququnun əldə edilməsi və itirilməsi

§ 1. Daşınmaz əşyalara mülkiyyət hüququnun əldə edilməsi

Maddə 178. Daşınmaz əmlaka mülkiyyət hüququnun əldə edilməsi

178.1. Daşınmaz əmlaka mülkiyyət hüququ *qanunla müəyyənləşdirilmiş əsaslarla* onun verilməsinin daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan əldə edənə keçir. Əgər qanuna müvafiq olaraq daşınmaz əmlak üzərində mülkiyyət hüququnun dövlət reyestrində qeydə alınmadan başqa şəxsə keçməsi mümkündürsə, onda şəxs bu barədə dövlət reyestrinə məlumat verməlidir.[261]

178.2. Yeni yaranmış daşınmaz əmlaka mülkiyyət hüququ onun daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan əmələ gəlir.[262]

178.3. Əgər daşqın, torpağın səpələnməsi və ya yerdəyişməsi, çayın yatağının və ya səviyyəsinin dəyişməsi nəticəsində, yaxud başqa şəkildə yeni ərazi meydana gəlmişsə, o, bitişik torpaq sahəsində birləşdirilir.

178.4. Torpağın bir torpaq sahəsindən digərinə yerdəyişməsi sahələrin hüdudlarının dəyişməsinə səbəb olmur.

178.5. Əgər daşınmaz əmlakın dövlət reyestrində əsassız qeydə alınmış mülkiyyətçi qeydəalmanın əsassız olduğunu bilməyərək, torpaq sahəsinə 10 il ərzində fasiləsiz və etirazsız sahiblik etmişsə, həmin şəxs bu torpaq sahəsinin mülkiyyətçisi sayılır.[263]

178.6. Əgər şəxs daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmamış daşınmaz əmlaka faktik mülkiyyətçi hüququ ilə 30 il ərzində fasiləsiz və etirazsız sahiblik etmişsə, o, mülkiyyətçi kimi qeydə alınmasını tələb edə bilər. Eyni şərtlərlə bu hüquq həmçinin o daşınmaz əmlakın sahibinə mənsubdur ki, onun mülkiyyətçisi daşınmaz əmlakın dövlət reyestrindən bəlli olmasın və ya 30 il əvvəl ölmüş və ya mülkiyyətin sahiblik müddətinə görə əldə edilməsi müddətinin əvvəlində xəbərsiz itkin düşmüş elan olunsun. Lakin qeydiyyat, rəsmi elan olunmuş müddətdə etiraz verilmədikdən və ya rədd edildikdən sonra yalnız məhkəmənin qərarı ilə aparılmalıdır.

178.7. Sahibsiz daşınmaz əşyalar, habelə ictimai sular və becərilməyə yararsız torpaqlar, məsələn, qayalar, yüksək dağlar və onlardan çağlayan bulaqlar, habelə faydalı qazıntılar dövlətə mənsubdur.

178.8. Tikintisi başa çatmayan binanın tərkib hissəsini əldə etmək istəyən şəxslə binanın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisi (satıcı) arasında bu Məcəllənin 39-cu fəsli ilə nəzərdə tutulan podrat münasibətləri əmələ gəlir və belə münasibətlərdə torpaq sahəsinin mülkiyyətçisi (satıcı) podratçı, tikintisi başa çatmayan binanın tərkib hissəsini əldə etmək istəyən şəxs isə sifarişçi hesab edilir. Bu zaman digər öhdəliklərlə yanaşı, satıcı (podratçı) bu Məcəllənin 144-1.4-cü maddəsində nəzərdə tutulan müqavilədə müəyyənləşdirilən müddətdə binanın tikintisini başa çatdırmaq və istismarına icazə almaq, tərkib hissəni əldə etmək istəyən şəxs (sifarişçi) isə razılaşdırılmış məbləği hissə-hissə vaxtında satıcıya ödəmək vəzifəsi daşıyır. Tikintisi başa çatmayan binanın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisinin (satıcının, podratçının) və (və ya) həmin binanın tərkib hissəsini əldə etmək istəyən şəxsin dəyişməsi onlar arasında yaranan münasibətlərə bu Məcəllənin 39-cu fəslində nəzərdə tutulan podrat münasibətlərinin tətbiqini istisna etməməlidir.[264]

Maddə 179. Əldə etmə müddəti[KM3]

179.1. *Çıxarılmışdır.*[265]

179.2. Daşınmaz əmlaka sahiblik müddətinə əsaslanan şəxs hüquq varisi olduğu şəxsin bu əmlaka sahiblik etdiyi bütün müddəti öz sahiblik müddətinə birləşdirə bilər.

179.3. Əmlaka öz əmlakı kimi sahiblik edən şəxs əldə etmə müddəti ilə əlaqədar daşınmaz əmlaka mülkiyyət hüququnu əldə edənə qədər öz sahibliyini əmlakın mülkiyyətçisi olmayan və bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulmuş digər əsasa görə ona sahiblik hüquqları olmayan üçüncü şəxslərdən müdafiə etmək hüququna malikdir.

179.4. Əldə etmə müddəti ilə əlaqədar daşınmaz əmlakı əldə etmiş şəxsin həmin əmlaka mülkiyyət hüququ bu hüququn daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan əmələ gəlir.

Maddə 180. Özbaşına tikinti və onun nəticələri

180.1. Tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evi, digər tikili, qurğu və ya başqa daşınmaz əmlak özbaşına tikinti sayılır.

180.2. Özbaşına tikinti aparmış şəxs ona mülkiyyət hüququ əldə etmir. Onun tikintiyə dair sərəncam vermək - onu satmaq, bağışlamaq, icarəyə vermək, digər əqdlər bağlamaq ixtiyarı yoxdur.

180.3. Özbaşına tikintiyə mülkiyyət hüququ məhkəmə tərəfindən o şəxs üçün tanına bilər ki, tikinti aparılmış torpaq sahəsi onun mülkiyyətində olsun. Əgər tikintinin saxlanması digər şəxslərin hüquqlarını və qanunla qorunan mənafelərini pozursa və ya fiziki şəxslərin həyatı və sağlamlığı üçün təhlükə yaradırsa, göstərilən şəxsin özbaşına tikintiyə mülkiyyət hüququ tanına bilməz.

180.4. Tikinti məqsədləri üçün ayrılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarım və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş bina və qurğular müvafiq icra hakimiyyəti orqanlarının və ya maraqlı tərəfin müraciəti üzrə qəbul edilmiş məhkəmənin qərarı əsasında sökülə bilər.[266]

§ 2. Daşınar əşyalara mülkiyyət hüququnun əldə edilməsi

Maddə 181. Daşınar əşyalara mülkiyyət hüququnun əldə edilməsi əsasları

181.1. Daşınar əşyaya mülkiyyət hüququnun əldə edənə verilməsi üçün mülkiyyətçi əşyaya sahibliyi həqiqi hüquq əsasında ona verməlidir.

181.2. Əşyanın verilməsi bunlardır: əşyanın əldə edənin birbaşa sahibliyinə verilməsi, əşyaya dolayı sahibliyin müqavilə üzrə verilməsi, bu zaman əvvəlki mülkiyyətçi birbaşa sahib kimi qala bilər; mülkiyyətçinin üçüncü şəxsdən sahibliyi tələb etmək hüququnu əldə edənə verməsi.

181.3. Şəxsin qanunvericiliyin tələblərinə əməl etməklə özü üçün hazırladığı və ya yaratdığı yeni əmlaka mülkiyyət hüququnu onun özü əldə edir. Əmlakdan istifadə nəticəsində götürülən bəhərə, məhsula və gəlirə mülkiyyət hüququ bu Məcəllənin 135.12-ci maddəsində nəzərdə tutulan əsaslarla əldə edilir.

181.4. Mülkiyyətçisi olan əmlaka mülkiyyət hüququ başqa şəxs tərəfindən alğı-satqı, dəyişdirmə, bağışlama müqaviləsi və ya bu əmlakın özgəninkiləşdirilməsinə dair digər əqd əsasında əldə edilə bilər. Əgər şəxs beş il fasiləsiz daşınar əşyaya öz mülkiyyəti kimi sahiblik etmişdirsə, o həmin əşyaya mülkiyyət hüququ əldə edir (əldə etmə müddəti). Əgər əldə edən əşyaya vicdansız sahiblik edirdisə və ya sonradan əşyanın ona məxsus olmamasını bilmişdirsə, daşınar əşyanın əldə edilməsi yolverilməzdir.[267]

181.5. *Çıxarılmışdır.*[268]

181.6. Hüquqi şəxs yenidən təşkil edildikdə, ona mənsub olmuş əmlaka mülkiyyət hüququ yenidən təşkil edilmiş hüquqi şəxsin hüquq varisi olan hüquqi şəxsə (hüquqi şəxslərə) keçir.

181.7. Bu Məcəllədə nəzərdə tutulmuş hallarda və qaydada şəxs mülkiyyətçisi olmayan əmlaka, mülkiyyətçisi məlum olmayan əmlaka və ya mülkiyyətçisinin imtina etdiyi və ya qanunda nəzərdə tutulmuş digər əsaslarla mülkiyyət hüququnu itirdiyi əmlaka mülkiyyət hüququ əldə edə bilər.

181.8. *Çıxarılmışdır.*[269]

Maddə 182. Vicdanlı əldə edən

182.1. Əşyanı özgəninkiləşdirənin onun mülkiyyətçisi olmadığı, lakin bu fakt barədə vicdanlı əldə edən olduğu hallarda da əldə edən əşyanın mülkiyyətçisi olur. Əgər əldə edən özgəninkiləşdirənin mülkiyyətçi olmadığını bilirmişsə və ya bilməli idisə, vicdanlı əldə edən sayılmır. Vicdanlılıq faktı əşya verilənə qədər mövcud olmalıdır.

182.2. Daşınar əşyanın mülkiyyətçisi bu əşyanı itirmişsə, əşya ondan oğurlanmışsa və ya iradəsinin ziddinə olaraq başqa şəkildə onun sahibliyindən çıxmışsa, yaxud əldə edən onu əvəzsiz almışsa, həmin əşyanı əldə edən vicdanlı ola bilməz. Bu məhdudiyyətlər auksionda özgəninkiləşdirilmiş pula, *sənədli* qiymətli kağızlara və əşyalara tətbiq olunmur.[270]

Maddə 183. Mülkiyyətin qiymətli kağızlar vasitəsi ilə verilməsi

Mülkiyyətin əldə edənə keçməsi üçün əşyanın verilməsi əvəzinə qiymətli kağız verilməsi məcburidirsə, *qiymətli kağıza mülkiyyət hüququ əldə edildiyi andan əşyaya* mülkiyyət əldə edənə keçmiş sayılır.[271]

Maddə 184. Sahibsiz daşınar əşyaya mülkiyyətin əldə edilməsi

184.1. Əgər sahibsiz daşınar əşyanın mənimsənilməsi bu Məcəllə ilə qadağan edilməmişsə və ya onu mənimsəmək hüququna malik olmuş başqa şəxsin hüquqlarını pozmursa, şəxs həmin əşyanı sahibliyə qəbul etdikdə ona mülkiyyət hüququ əldə edir.

184.2. Əgər daşınar əşyanın mülkiyyətçisi yoxdursa və ya məlum deyildirsə və ya keçmiş mülkiyyətçisi mülkiyyətdən imtina edərək əşyaya sahibliyə xitam verirsə, daşınar əşya sahibsiz sayılır.

Maddə 185. Mülkiyyətçinin imtina etdiyi daşınar əşya

185.1. Mülkiyyət hüququndan imtina etmək məqsədi ilə mülkiyyətçinin atdığı və ya digər şəkildə əl çəkdiyi daşınar əşyanı (atılmış əmlakı) başqa şəxslər öz mülkiyyətinə yönəldə bilər.

185.2. Mülkiyyətində, sahibliyində və ya istifadəsində torpaq sahəsi, sututar və ya başqa obyekt olan şəxs, əgər orada dəyəri əlli beş manatdan aşkar aşağı olan atılmış əmlak və ya atılmış metal qırıntıları, zay məhsul, faydalı qazıntıların çıxarılması zamanı əmələ gələn təpəciklər, istehsal tullantıları və başqa tullantılar varsa, həmin əmlakdan istifadəyə başlamaqla və ya əmlakı mülkiyyətə yönəltdiyini göstərən digər hərəkətlər etməklə, onu öz mülkiyyətinə yönəltmək hüququna malikdir.[272]

185.3. Atılmış başqa əmlak ona sahibliyə başlamış şəxsin mülkiyyətinə o zaman daxil olur ki, bu əmlak həmin şəxsin ərizəsi ilə məhkəmə tərəfindən sahibsiz hesab edilir.

Maddə 186. Tapıntı

186.1. İtirilmiş əşyanı tapan şəxs tapıntı barədə onu itirmiş şəxsə, onun mülkiyyətçisinə, səlahiyyətli şəxsə və ya əgər mülkiyyətçi məlum deyilsə, polisə dərhal xəbər verməli və həmin əşyanı verməlidir.

186.2. Əşyanı tapan şəxsə mülkiyyətçinin məlum olduğu və ya mülkiyyətçinin əşyaya hüququnun artıq polisə bildirildiyi hallar istisna olmaqla, əşyanı tapan şəxs bu barədə xəbər verdiyi vaxtdan bir illik müddət keçdikdən sonra tapıntıya mülkiyyət hüququ əldə edir. Mülkiyyət hüququnun əldə edilməsi ilə bir vaxtda həmin əşyaya bütün başqa hüquqlara xitam verilir.

186.3. Səlahiyyətli şəxs tapılmış əşyanı qəbul edirsə, onu tapan şəxs tapılmış əşyanın dəyərinin beş faizinədək miqdarda bəxşiş tələb edə bilər. Bundan başqa, əşyanı tapan şəxs səlahiyyətli şəxsdən həmin əşyanın saxlanması xərclərinin əvəzini ödəməyi də tələb edə bilər. Əmlakı tapan tapıntı barədə məlumat verməmişsə və ya onu gizlətməyə cəhd göstərmişsə, bəxşiş almaq hüququ əmələ gəlmir.

186.4. Əşyanı tapan şəxs mülkiyyətdən imtina edirsə, səlahiyyətli orqan bir il keçdikdən sonra əşyanı auksionda sataraq fayda götürə bilər və ya söhbət azqiymətli əşyadan gedirsə, onu pulsuz özgəninkiləşdirə bilər və ya məhv edə bilər.

186.5. Əgər tapıntı heyvan və ya tez xarab olan əşyadırsa, yaxud saxlanması böyük xərc tələb edən əşyadırsa, bir illik müddət tətbiq olunmur və onların özgəninkiləşdirilməsi nəticəsində əldə edilmiş məbləğ mülkiyyətçiyə qaytarılır.

Maddə 187. Dəfinə

187.1. Dəfinə, yəni torpağa basdırılmış və ya başqa üsulla gizlədilmiş pul və ya digər əşya bunların mülkiyyətçisini müəyyənləşdirmək mümkün olmadıqda, dəfinənin gizlədildiyi əmlakın (torpaq sahəsinin, tikilinin və s.) mənsub olduğu şəxslə dəfinəni aşkar etmiş şəxsin mülkiyyətinə, həm də, əgər onların razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, bərabər paylar şəklində daxil olur.

187.2. Dəfinə onun gizlədildiyi torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisinin razılığı olmadan qazıntı aparan və ya sərvət axtaran şəxs tərəfindən aşkar edildikdə, həmin torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisinə verilməlidir.

187.3. Aşkar edilən dəfinə tarix və ya mədəniyyət abidələrinə aid, elmi dəyərli əmlak olduqda, dövlət mülkiyyətinə verilməlidir. Bu zaman dəfinənin gizlədildiyi torpaq sahəsinin və ya digər əmlakın mülkiyyətçisi və dəfinəni aşkar etmiş şəxs birlikdə dəfinənin dəyərinin əlli faizi miqdarında bəxşiş almaq hüququna malikdirlər. Bu şəxslərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, bəxşiş onların arasında bərabər bölünür.

187.4. Belə dəfinə onun gizlədildiyi əmlakın mülkiyyətçisinin razılığı olmadan qazıntı aparan və ya sərvət axtaran şəxs tərəfindən aşkar edildikdə, bəxşiş bütünlüklə əmlakın mülkiyyətçisinə verilir.

187.5. Bu maddənin qaydaları dəfinə aşkar etmək üçün qazıntı və axtarış aparılması əmək və ya qulluq vəzifələrinə aid olan şəxslərə tətbiq edilmir.

Maddə 188. Emal

188.1. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, şəxsin özünə mənsub olmayan materialların emalı yolu ilə hazırladığı yeni daşınar əmlaka mülkiyyət hüququnu materialların mülkiyyətçisi əldə edir. Emalın dəyəri materialların dəyərindən əhəmiyyətli dərəcədə yüksək olduqda, yeni əmlaka mülkiyyət hüququnu vicdanla hərəkət edərək, materialları özü üçün emal etmiş şəxs əldə edir.

188.2. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, özünün materiallarından hazırlanmış əmlaka mülkiyyət hüququ əldə edən mülkiyyətçi emalın dəyərini emal edən şəxsə ödəməlidir.[273]

188.3. Materialları emal etmiş şəxsin vicdansız hərəkətləri nəticəsində onları itirən materialların mülkiyyətçisi yeni əmlakın öz mülkiyyətinə verilməsini və ona vurulan zərərin əvəzinin ödənilməsini tələb edə bilər.

Maddə 189. Yığılması hamıya müyəssər olan əmlakın mülkiyyətə götürülməsi

Qanunvericiliyə, mülkiyyətçinin verdiyi ümumi icazəyə və ya yerli adətə uyğun olaraq meşələrdə, sututarlarda və ya başqa ərazidə giləmeyvə yığılmasına, balıq tutulmasına, heyvan ovuna və ya hamıya müyəssər olan digər əmlakın yığılmasına yol verildiyi hallarda müvafiq əmlaka mülkiyyət hüququnu onu yığan və ya ovlayan şəxs əldə edir.

Maddə 190. Torpaq sahəsinin tərkib hissəsinə mülkiyyətin əldə edilməsi

Daşınar əşyanın torpaq sahəsi ilə bağlılıq tərzi onu həmin sahənin tərkib hissəsinə çevirmişsə, bu Məcəllənin 135.10-cu maddəsinə uyğun olaraq torpaq sahəsinin mülkiyyətçisi eyni zamanda həmin əşyanın da mülkiyyətçisi olur.

Maddə 191. Birləşmə nəticəsində yaranan əşyaya birgə mülkiyyət

191.1. Daşınar əşyaların bir-birinə bağlılığı nəticəsində onlar yeni vahid əşyanın tərkib hissələrinə çevrildikdə və ya daşınar əşyalar birləşdikdə, onların əvvəlki sahibləri bu yeni əşyanın mülkiyyətçiləri olurlar. Paylar həmin əşyaların birləşməzdən əvvəlki dəyərinə uyğun müəyyənləşdirilir.

191.2. Əşyalardan biri, bərqərar olmuş rəyə görə, baş əşya sayılırsa, onun mülkiyyətçisi həmin əşyanın ləvazimatına da mülkiyyət əldə edir.

Maddə 191-1 . Yeni mülkiyyətçiyə qarşı zərərin əvəzinin ödənilməsi tələbi[274]

191-1.1. Bu Məcəllənin 188-ci, 190-cı və 191-ci maddələrinə müvafiq olaraq mülkiyyətini itirən və ya hüquqları başqa qaydada pozulan şəxs mülkiyyətçi olmuş şəxsdən zərərin əvəzinin ödənilməsini tələb edə bilər. Əvvəlki vəziyyətin bərpa olunması tələbi yolverilməzdir.

191-1.2. Əgər yeni mülkiyyətçi əşyanı əvəzli müqavilə əsasında üçüncü şəxsdən əldə edibsə, bu Məcəllənin 191-1.1-ci maddəsində nəzərdə tutulmuş tələb əmələ gəlmir.

Maddə 192. Nəzarətsiz heyvanlar

192.1. Nəzarətsiz və ya otlamağa buraxılmış mal-qaranı və ya digər nəzarətsiz heyvanları tutan şəxs onları mülkiyyətçisinə qaytarmalıdır, heyvanların mülkiyyətçisi və ya onun olduğu yer bilinmədikdə isə, onları tutduğu andan ən geci üç gün keçənədək aşkar etdiyi heyvanlar barədə polisə xəbər verməlidir; polis mülkiyyətçinin axtarılması üçün tədbirlər görməlidir.

192.2. Heyvanları tutan şəxs mülkiyyətçinin axtarıldığı müddətdə onları özündə saxlaya və istifadə edə bilər, yaxud saxlanmaq və istifadə üçün başqa şəxsə verə bilər. Nəzarətsiz heyvanları tutan şəxsin xahişi ilə polis onları saxlamaq üçün lazımi şəraiti olan şəxsi axtarır və heyvanları ona verir.

192.3. Nəzarətsiz heyvanları tutan şəxs, habelə saxlanmaq və istifadə üçün onların verildiyi şəxs heyvanları lazımi qaydada saxlamalıdırlar. Həmin şəxslər heyvanların tələf olmasında və ya azarlamasında təqsirli olduqda, onların dəyəri həddində məsuliyyət daşıyırlar.

192.4. Nəzarətsiz ev heyvanlarının tutulması barədə xəbər verildiyi gündən altı ay müddətində onların mülkiyyətçisi aşkar edilməzsə və ya özü onlara hüququnu bildirməzsə, heyvanları saxlayan və onlardan istifadə edən şəxs onlara mülkiyyət

298.1. Girov qoyulmuş əşyanın satılmasından əldə olunan məbləğ aşağıdakı ardıcıllıqla bölüşdürülür: [324]

298.1.1. girov qoyulmuş əşyanın saxlanması, salamatlığı, yaxşılaşdırılması və onun satılmasına çəkilmiş xərclərin ödənilməsinə;

298.1.2. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada daha üstün hüquqa malik olan tələblərin ödənilməsinə;

298.1.3. girov saxlayanın tələblərinin ödənilməsinə;

298.1.4. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və qaydada daha aşağı hüquqa malik olan tələblərin ödənilməsinə.

298.2. Bu Məcəllənin 298.1-ci maddəsində nəzərdə tutulmuş ödənişlər həyata keçirildikdən sonra girov qoyulmuş əşyanın satışından əldə olunan vəsaitin qalan hissəsi girov qoyulmuş əşyanın satılmasından 10 (on) iş günü müddətində girov qoyana qaytarılır.

298.3. Əgər girov qoyulmuş əşyanın satışından götürülən məbləğ girov saxlayanın tələbini ödəmək üçün yetərli deyildirsə, girov saxlayan çatışmayan məbləği, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, borclunun başqa əşyasından almaq hüququna malikdir. Bu halda girov saxlayanın girova əsaslanan üstünlük hüququ yoxdur.

Maddə 299. Girov qoyulmuş əşyaya tutmanın yönəldilməsinə və onun satışına xitam verilməsi

299.1. *Tutma yönəldilməsi ilə bağlı girov predmetinin satışı həyata keçirilənə (alqı-satqı müqaviləsi bağlananadək, tərəflərin razılığı əsasında həyata keçirilən hərracın nəticələri üzrə protokol imzalananadək və ya elektron hərracın nəticələri haqqında protokol tərtib olunanadək, yaxud "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 63-cü maddəsinə əsasən şəhadətnamə verilənədək), yaxud "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq girov predmeti girov saxlayanın mülkiyyətinə keçənə*

qədər girov qoyan və (və ya) borclu girovla təmin edilmiş öhdəliyi və ya öhdəliyin gecikdirilmiş hissəsini icra edərək girov predmetinə tutmanın yönəldilməsinə xitam verə bilər. Bu hüququ məhdudlaşdıran razılaşma əhəmiyyətsizdir.[325]

299.2. Girov qoyulmuş əşyaya tutmanın yönəldilməsinə və ya onun satışına xitam verilməsini tələb edən şəxs həmin əşyaya tutmanın yönəldilməsi və onun satışı ilə bağlı çəkilmiş xərclərin əvəzini girov saxlayana ödəməyə borcludur.

Maddə 300. Girovun növləri

300.0. Girov aşağıdakı növlərdə ola bilər:
300.0.1. saxlanc;
300.0.2. əşyanın lombardda girovu;
300.0.3. hüquqların girovu;
300.0.4. pul vəsaitinin girovu;
300.0.5. sabit girov;
300.0.6. dövriyyədəki malların girovu.

Maddə 301. Saxlanc

Saxlanc elə girovdur ki, onun predmeti girov saxlayanın sahibliyinə verilir.

Maddə 302. Əşyanın lombardda girovu

302.1. Şəxsi istehlak üçün nəzərdə tutulan daşınar əşyanın fiziki şəxslərdən qısamüddətli kreditlərin təmin edilməsi məqsədilə girov götürülməsini sahibkarlıq fəaliyyəti qaydasında buna xüsusi icazəsi (lisenziyası) olan ixtisaslaşdırılmış təşkilatlar - lombardlar həyata keçirə bilərlər.

302.2. Əşyanın lombardda girovu haqqında müqavilə lombardın girov bileti verməsi yolu ilə rəsmiləşdirilir.

302.3. Saxlanca qoyulan əşyalar lombarda verilir.

302.4. Lombard girov götürdüyü əşyanı onun girova qəbul olunduğu anda eyni növlü və keyfiyyətli əşyanın bazar qiymətinə uyğun müəyyənləşdirilən qiymətinin tam məbləğində girov qoyanın xeyrinə sığorta etdirməlidir.

302.5. Lombardın girov qoyulmuş əşyadan istifadə etmək və ona dair sərəncam vermək ixtiyarı yoxdur.

302.6. Lombard girov qoyulmuş əşyanın itirilməsi və zədələnməsi üçün məsuliyyət daşıyır.

302.7. Əşyanın lombardda girovu ilə təmin edilmiş kredit məbləği müəyyənləşdirilmiş müddətdə qaytarılmadıqda lombard həmin əşyanı açıq hərracdan realizə edə (sata) bilər. Bundan sonra lombardın girov qoyana (borcluya) qarşı tələbləri, hətta girov qoyulmuş əşyanın satışından götürülən məbləğ onların tam ödənilməsi üçün yetərli olmadıqda belə, ləğv edilir.

302.8. Lombardlar tərəfindən fiziki şəxslərin onlara mənsub əşyanın girovu müqabilində kreditləşdirilməsi qaydaları qanunvericiliklə müəyyənləşdirilir.

302.8-1. Lombard cinayət yolu ilə əldə edilmiş ~~pul vəsaitlərinin və ya digər~~ əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması, *o cümlədən hədəfli maliyyə sanksiyalarının tətbiqi* məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidir.[326]

302.9. Əşyanın lombardda girovu haqqında müqavilənin girov qoyanın hüquqlarını bu Məcəllənin ona verdiyi hüquqlara nisbətən məhdudlaşdıran şərtləri əhəmiyyətsizdir.

Maddə 303. Hüququn girovu

303.1. Hüquq girov qoyularkən girov predmeti özgəninkiləşdirilə bilən hüquq, o cümlədən torpaq sahəsinin, binanın, qurğunun, yaşayış evinin (mənzilin) icarəsi hüququ, mülkiyyətdəki paya hüquq, borc tələbidir.

303.2. Müddətli hüquq yalnız onun qüvvədə olma müddəti bitənədək girov predmeti ola bilər.

303.3. Girov qoyulmuş hüququn borclusuna girov haqqında dərhal bildiriş verilməlidir.

303.4. Dövlət qeydiyyatına alınmalı olan hüququn girovu onun qeydiyyatını həyata keçirən dövlət orqanında qeydə alındığı andan etibarlıdır.

303.5. *Sənədli qiymətli* kağızla təsdiqlənmiş hüquq girov qoyularkən o, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov saxlayana və ya bankın və ya notariusun depozitinə verilir.[327]

Maddə 304. Pul vəsaitinin girovu

Girov predmeti olan pul vəsaiti bankın və ya notariusun depozit hesabında saxlanılır. Bu məbləğin üstünə hesablanan faizlər, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyana mənsubdur.

Maddə 305. Sabit girov

Sabit girov elə girovdur ki, onun predmeti girov saxlayanın qıfılı altında və ya girovu ifadə edən nişanlar vurulmaqla, girov qoyanda saxlanılır.

Maddə 306. Dövriyyədəki malların girovu

306.1. Dövriyyədəki malların girovu zamanı girov qoyulan mallar girov qoyanda saxlanılır və girov qoyana girov qoyulmuş əmlakın (əmtəə ehtiyatları, xammal, materiallar, yarımfabrikatlar, hazır məhsul və i.a.) tərkibini və natural formasını dəyişdirmək hüququ verilir~~, bu şərtlə ki, onların ümumi dəyəri girov müqaviləsində göstərilən dəyərindən aşağı düşməsin~~. ~~Girov qoyulmuş dövriyyədəki malların dəyərinin azalmasına, əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girovla təmin edilmiş öhdəliyin icra edilmiş hissəsinə mütənasib surətdə yol verilir.~~[328]

306.2. Girov qoyanın özgəninkiləşdirdiyi dövriyyədəki mallar əldə edənin mülkiyyətinə keçdiyi andan girov predmeti olmur, girov qoyanın əldə etdiyi, girov müqaviləsində göstərilən mallar isə girov qoyanın onlara mülkiyyət hüququnun əmələ gəldiyi andan girov predmeti olur.

306.3. Dövriyyədəki mallar girov qoyulduqda, tərəflər onların ümumi dəyərinin girov müqaviləsində göstərilən dəyərdən aşağı düşməməsini şərtləndirə bilərlər. Bu zaman: [329]

306.3.1. əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, girov qoyulmuş dövriyyədəki malların dəyərinin azalmasına girovla təmin edilmiş öhdəliyin icra edilmiş hissəsinə mütənasib surətdə yol verilir.

306.3.2. girov qoyan girov qoyulmuş malların qeydiyyatı kitabını tərtib etməyə borcludur. Həmin kitaba malların girov qoyulması şərtləri haqqında və girov qoyulmuş malların tərkibinin və ya natural formasının dəyişməsinə səbəb olan bütün əməliyyatlar, o cümlədən onların emalı haqqında sonuncu əməliyyat günü üçün qeydlər daxil edilir.

306.4. Girov qoyan dövriyyədəki malların girovu şərtlərini pozduqda girov saxlayan girov qoyulmuş mallara öz nişanlarını vurmaq yolu ilə onlarla bağlı əməliyyatları pozuntu aradan qaldırılanadək dayandıra bilər.

§ 3. İpoteka

Maddə 307. İpoteka müqaviləsi

307.1. İpoteka müqaviləsində tərəflərin adı və yaşayış yeri (olduqları yer), ipotekanın predmeti, onun adı, olduğu yer və eyniləşdirilməsi üçün yetərli olan digər təsviri, əsas öhdəliyin mahiyyəti, ölçüsü (məbləği), əmələ gəlməsi əsasları və icra müddəti, bu öhdəliyin əsaslandığı müqavilənin tərəfləri, bağlandığı yer, tarix, həmçinin qanunla müəyyən edilmiş imperativ normalar nəzərə alınmaqla ipoteka saxlayanın tələbinin ipoteka predmeti hesabına yönəldilməsi barədə şərtlər, ~~ipoteka predmetinin satış üsulu, ipoteka predmetinin ilkin satış qiyməti və ya bu qiyməti müəyyən edəcək qiymətləndiricilər, qiymətləndirmə haqqında müqavilə qiymətləndirici təşkilatla bağlanıldıqda, habelə qiymətləndirici təşkilat haqqında məlumatlar, ipoteka predmeti açıq bazarda satılarkən satışı həyata keçirməli şəxs və~~ ipoteka predmetinin satılmasından əldə olunacaq gəlirlərin bölüşdürülməsi qaydası və növbəliliyi, ipoteka qoyanın elektron poçt ünvanı göstərilməlidir. [330]

~~307.2. İpotekanın predmeti müqavilədə onun adı, olduğu yer göstərilməklə və eyniləşdirilməsi üçün yetərli olan təsviri verilməklə müəyyənləşdirilir.~~ [331]

307.3. İpoteka müqaviləsində ipotekanın predmeti olan əşyanın hansı hüquqa əsasən ipoteka verənə mənsub olduğu və ipoteka verənin bu hüququnu qeydə almış dövlət orqanı göstərilməlidir.

307.4. ~~İpoteka müqaviləsində ipoteka ilə təmin edilmiş öhdəlik, onun məbləği, əmələ gəlməsi əsasları və icra müddəti göstərilməlidir. Bu öhdəliyin hansısa müqaviləyə əsaslandığı hallarda həmin müqavilənin tərəfləri, bağlandığı tarix və yer göstərilməlidir~~. Əgər ipoteka ilə təmin edilmiş öhdəliyin məbləği gələcəkdə müəyyənləşdirilməlidirsə, ipoteka müqaviləsində onun müəyyənləşdirilməsinin qaydası və digər zəruri şərtləri göstərilməlidir. [332]

307.5. Əgər ipoteka ilə təmin edilən öhdəlik hissə-hissə icra olunmalıdırsa, ipoteka müqaviləsində müvafiq ödənişlərin müddətləri və ya dövriliyi, onların məbləğləri və ya bu məbləğləri müəyyənləşdirməyə imkan verən şərtlər göstərilməlidir.

307.6. İpoteka müqaviləsi ipoteka verən və ipoteka saxlayan tərəfindən, habelə ipoteka verən borclu deyildirsə, borclu tərəfindən imzalanmış bir sənədin tərtibi yolu ilə yazılı formada bağlanmalıdır.

307.7. İpoteka müqaviləsi notariat qaydasında təsdiqlənməlidir.

Maddə 308. İpotekanın növləri

308.1. Ümumi ipoteka elə ipotekadır ki, onun predmeti bir neçə əşyadır və ümumi tələbin ödənilməsi üçün əşyaların hər birindən istifadə edilir. Kreditorun tələbi onun arzusu ilə istənilən əşya hesabına ödənilə bilər.

308.2. Mülkiyyətçinin ipotekası o deməkdir ki, təmin edilməsi üçün ipotekanın mövcud olduğu tələb əmələ gəlmir, ona xitam verilir və ya həmin tələb əşyanın mülkiyyətçisinə keçdikdə ipoteka da ona keçir. Bu halda digər hüquqların növbəliliyi dəyişmir.[333]

Maddə 309. İpotekanın dövlət qeydiyyatı

309.1. Daşınmaz əmlakın ipotekası haqqında müqavilə daşınmaz əmlakın dövlət reyestrində, daşınar əmlakın ipotekası haqqında müqavilə isə dövlət qeydiyyatına alınmalı olan daşınar əmlakın rəsmi reyestrində qeydə alınmalıdır.

309.2. İpotekanın dövlət qeydiyyatı qanunda nəzərdə tutulmuş qaydada aparılır.[334]

309.3. İpoteka və tələb yeni kreditora köhnə kreditorda olduğu kimi keçir. Daşınmaz əmlakın dövlət reyestrində kreditorun maraqlarına cavab verən məlumatların qeydiyyatı düzgün hesab edilir. Bu halda borclu tələbin mövcud olmamasına istinad edə bilməz. Əgər yeni kreditor reyestrdəki yazıların düzgün olmadığını bilirdisə, bu qayda tətbiq edilmir.[335]

Maddə 310. Əşyanın ipoteka ilə dəfələrlə yüklü edilməsi

Eyni bir əşya ipoteka ilə bir neçə dəfə yüklü edilə bilər. Yüklü edilmənin növbəliyi ipotekanın dövlət qeydiyyatı anı ilə müəyyənləşdirilir.[336]

Maddə 311. Mülkiyyətçinin kreditoru təmin etmək hüququ

311.1. Əşyanın mülkiyyətçisi tələbin icra müddəti çatdıqda kreditoru təmin edə bilər. Bunu şəxsi borclu da edə bilər.

311.2. Əgər mülkiyyətçi şəxsi borclu deyildirsə, tələb ona mülkiyyətçinin kreditoru təmin etdiyi vaxt keçir.

311.3. Kreditoru təmin edərkən mülkiyyətçi daşınmaz əmlakın dövlət reyestrinə və ya daşınar əmlakın digər rəsmi reyestrinə müvafiq qeydlərin yazılması üçün zəruri olan sənədləri və ipotekaya xitam verilməsini tələb edə bilər.

Maddə 312. İpoteka ilə yüklü edilmiş əşyanı saxlamaq vəzifəsi

312.1. İpoteka verən əşyanın real dəyərini qorumağa borcludur. Əgər şəraitin pisləşməsi nəticəsində ipoteka üçün təhlükə yaranırsa, ipoteka saxlayan bu təhlükəni aradan qaldırmaq üçün ipoteka verənə müvafiq müddət təyin edə bilər.

312.2. Əgər əşya sığortalanmışsa, şərait pisləşdikdən sonra sığorta təşkilatı sığortalıya sığorta məbləğini yalnız zərərin baş verməsi faktının ipoteka saxlayana bildirildiyi vaxt ödəyə bilər. Əgər ipoteka saxlayan məbləğdən əşyanın bərpası üçün istifadə olunmayacağından ehtiyat edirsə, məbləğin ödənilməsinə mane ola bilər.

312.3. Əgər ipoteka verənin öz vəzifələrini icra edə bilmədiyi aşkar olarsa, ipoteka saxlayan əşyanın ona verilməsini tələb edə bilər. Bu tələb üzrə qərarı məhkəmə qəbul edir.

312.4. İpoteka verənin ipoteka saxlayan qarşısında öz üzərinə əşyanı özgəninkiləşdirməmək, əşyadan istifadə etməmək və ya onu digər şəkildə yüklü etməmək öhdəliyini götürməsini nəzərdə tutan razılaşma etibarsızdır. Bu cür əqdlərin üçüncü şəxslər üçün etibarlığı ipoteka saxlayanların razılığından asılı ola bilməz. KMQ20

Maddə 313. İpotekanın və onun əsasında duran tələbin üçüncü şəxsə keçməsi

İpoteka və onun əsasında duran tələb başqa şəxsə yalnız eyni vaxtda və birlikdə verilə bilər. Tələb yeni ipoteka saxlayana verildikdə ipoteka da ona keçir. Tələbin verilməsi yalnız bu şərtlə etibarlı sayılır ki, ipoteka qoyulması haqqında notariat qaydasında təsdiqlənmiş sənəd yeni ipoteka saxlayana verilsin və daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində qeydə alınsın.

Maddə 314. İpoteka və tələb yeni ipoteka saxlayana keçərkən daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində edilmiş qeydin düzgünlüyü prezumpsiyası

İpoteka və tələb yeni ipoteka saxlayana köhnə ipoteka saxlayan üçün olduğu qaydada keçir. Daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində qeydə alınmış məlumatlar ipoteka saxlayanın mənafeləri əsas götürülməklə düzgün hesab edilir. Bu halda ipoteka verən tələbin mövcud olmadığına istinad edə bilməz. Əgər yeni ipoteka saxlayan reyestrdəki yanlış qeydlərdən xəbərdar olmuşdursa, bu qayda tətbiq edilmir.

Maddə 315. Üçüncü şəxslərin hüquqları

315.1. İpotekanın reallaşdırılması nəticəsində vəziyyəti pisləşmiş hər hansı üçüncü şəxsin tələbi icra etmək və bu yolla ipotekanı özünə keçirmək ixtiyarı vardır. İpoteka saxlayan təmin edilərkən o, müvafiq surətdə təsdiqlənmiş sənədləri və özünün ipoteka saxlayan kimi qeydə alınmasını tələb edə bilər.

315.2. Əgər şəxsi borclu ipoteka saxlayanı təmin edirsə, ipoteka ona keçir. Bu zaman o, mülkiyyətçidən əvəz verməyi tələb edə bilər.

Maddə 316. İpoteka saxlayanın tələbdən və ya ipotekadan imtinası

Əgər ipoteka saxlayan tələbdən və ya ipotekadan imtina edirsə, *ipotekaya xitam verilir*. İmtina bu şərtlə hüquqi qüvvəyə malik olur ki, *ipotekaya xitam vermə* daşınmaz əmlakın dövlət reyestrində və ya daşınar əmlakın rəsmi reyestrində qeydə alınsın.[337]

Maddə 317. İpoteka ilə yüklü olan əşyanı satmaq tələbi

317.1. Borclu təminat vasitəsi ipoteka olan əsas öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, ipoteka saxlayan daşınmaz əşyanın satılmasını tələb edə bilər.[338]

317.2. Satış *"İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa* uyğun olaraq həyata keçirilir.[339]

Maddə 318. İpoteka verilməsi xərcləri

318.1. Əgər müqavilədə ayrı şərt qoyulmayıbsa, ipoteka verilməsi xərclərini borclu çəkir.

318.2. Əgər əşya ipoteka ilə yüklü edilmişsə və əgər ipoteka verildikdən sonra mülkiyyətçi ipotekada dəyişikliklər və ya əlavələr etmişsə və bu zaman onları da tələbin təminatı kimi verməyə borclu deyilsə, həmin dəyişiklikləri və əlavələri geri götürərək əşyanın əvvəlki vəziyyətini bərpa edə bilər. Daşınmaz əşyanın dəyərinin azalması üçün məsuliyyət mülkiyyətçinin üzərinə düşür.

Maddə 319. Borclunun öhdəlikləri yerinə yetirməyi gecikdirməsinin nəticələri

319.1. Əgər borclu icrasını təmin etmək üçün əşyanın ipotekaya verildiyi öhdəliklərin yerinə yetirilməsini gecikdirmişsə, ipoteka saxlayan ipoteka ilə yüklü edilmiş obyekti açıq hərracdan satmaq hüququna malikdir. Borclunun ipoteka ilə təmin olunmuş öhdəliklərini yerinə yetirmədiyi və ya yerinə yetirilməsini gecikdirdiyi hallarda daşınmaz əmlaka mülkiyyət hüququnun bilavasitə kreditora keçməsi barədə razılaşma etibarsızdır.[340]

319.2. İpoteka ilə təmin edilən tələb icra edilmədikdə, ipoteka saxlayan və borclu ipoteka tələbi təmin edilən anda satışın açıq hərracdan fərqli olan başqa formaları barədə razılığa gələ bilərlər. Razılıqda həmçinin nəzərdə tutula bilər ki, ipoteka predmeti borclunun borclarının tam hesablanması şərtilə bazar qiymətinə satılsın və (və ya) satış zamanı ipoteka predmeti olmuş mənzili (yaşayış sahəsini) əldə edən şəxs qarşısında gələcəkdə borcluya və onun ailə üzvlərinə həmin mənzilin (yaşayış sahəsinin) kirayəçisi olmaq hüququ verən şərt qoyulsun.[341]

319.3. İpoteka ilə yüklü edilmiş obyektin alıcısı satınalma qiymətini ödəməyə borcludur. İpoteka ilə yüklü edilmiş obyektin tutmaya yönəldilməsi xərcləri satınalma qiymətindən tutulur.

~~*319.4. Açıq hərracdan satışa çıxarılan ipoteka predmetinin ilkin satış qiyməti "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir.*~~[342]

319.5. Tərəflərin notariat qaydasında təsdiqlənmiş razılaşması əsasında məhkəməyə müraciət edilmədən tutma yönəldilən ipoteka predmeti satılarkən satış üsulu və satışı həyata keçirməli olan şəxs, hərracların keçirilməsi qaydası, habelə hərrac baş tutmadıqda sonrakı prosedurlar, tərəflərin hüquq və vəzifələri, əmlakın satış qiyməti tərəflərin ipoteka predmetinə tutmanın yönəldilməsi hüququ yarandıqdan sonra müəyyən edilən razılaşması ilə müəyyən olunur.[343]

319.6. İpoteka predmetinin satışından götürülən məbləğ ipoteka saxlayanın tələbinin ödənilməsi üçün yetərli deyildirsə, o, çatışmayan məbləği, əgər ipoteka müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, borclunun başqa əmlakından almaq hüququna malikdir. Bu halda ipoteka saxlayanın ipotekaya əsaslanan üstünlük hüququ yoxdur. Əgər satışdan götürülən məbləğ ipoteka saxlayanın tələblərindən artıqdırsa, artıq məbləğ ipoteka verənə qaytarılmalıdır.

Maddə 320. İpoteka saxlayanların tələblərinin ödənilməsi növbəliyi

Əgər bir neçə ipoteka saxlayan vardırsa, ipoteka ilə yüklü edilmiş obyektin satışından götürülmüş xalis gəlirdən ipoteka saxlayanların tələbləri onların hüquqlarının qeydiyyat növbəliyinə uyğun ödənilir. Əgər növbəlik və ya ixtiyarlı şəxslərdən hər birinə mənsub məbləğ mübahisəlidirsə, onların növbəliyi və ya ipoteka saxlayanlardan hər birinə çatası məbləğ müəyyənləşdirilənə qədər ödəniş həyata keçirilmir. Qalıq satılmış əşyanın mülkiyyətçisinə ödənilir.

Maddə 321. İpoteka borcu

321.1. Torpaq sahəsi elə yüklü edilə bilər ki, xeyrinə yüklülük müəyyənləşdirilən şəxsə torpaq sahəsi üzrə müəyyən pul məbləği (ipoteka borcu) ödənilməli olar. Yüklülük elə şəkildə də müəyyənləşdirilə bilər ki, pul məbləği üzrə faizlər ödənilməli olar, habelə daşınmaz əmlak üzrə digər əlavə öhdəliklər icra edilməli olar. İpoteka borcuna müvafiq surətdə ipoteka haqqında göstərişlər tətbiq edilir, bu şərtlə ki, onlardan ipoteka borcunun arxasında tələblərin ehtimal olunduğu irəli gəlməsin.

321.2. Tərəflərin razılaşması ilə ipoteka ipoteka borcuna, o isə ipotekaya keçirilə bilər.

Maddə 322. Renta borcu

İpoteka borcu elə verilə bilər ki, müntəzəm təkrarlanan müddətlərdə daşınmaz əmlak üzrə müəyyən pul məbləği (renta borcu) ödənilməli olar. Renta borcu verilərkən onun satın alınmasını mümkün edən məbləğ də müəyyənləşdirilməlidir. Satınalma məbləği daşınmaz əmlakın dövlət reyestrində göstərilməlidir.

Maddə 323. Əşya yüklülüyü

Daşınmaz əşya elə yüklü edilə bilər ki, xeyrinə yüklülük müəyyənləşdirilən şəxsə torpaq sahəsi üzrə müəyyən vaxtaşırı öhdəliklər icra edilməli olar.[344]

Maddə 323-1 . Mülkiyyətçinin ipotekaya dair etirazları

Daşınmaz əmlakın mülkiyyətçisi eyni zamanda ipoteka ilə təmin edilmiş tələbin şəxsi borclusu olmasa da, o, ipoteka saxlayana yalnız şəxsi borcluya məxsus olan qarşılıqlı tələb irəli sürə bilər; xüsusi olaraq bu pul öhdəliklərinin əvəzləşdirilməsi və tələbdən şikayətin verilməsi ilə bağlı qarşılıqlı tələblərdir. Bu, həmçinin mülkiyyətçinin ipoteka saxlayanın şəxsi borclusu olduğu hala da aiddir.

Dördüncü bölmə

ƏQDLƏR

13-cü fəsil.

Əqdlər haqqında ümumi müddəalar

Maddə 324. Əqd anlayışı və onun növləri

324.1. Əqd mülki hüquq münasibətinin əmələ gəlməsinə, dəyişdirilməsinə və ya xitamına yönəldilmiş birtərəfli, ikitərəfli və ya çoxtərəfli iradə ifadəsidir.

324.2. Əqdlər birtərəfli və müqavilə şəklində (ikitərəfli və ya çoxtərəfli) ola bilər.

324.3. Bu Məcəlləyə və ya tərəflərin razılaşmasına uyğun olaraq bağlanması üçün bir tərəfin iradə ifadəsinin zəruri və yetərli olduğu əqd birtərəfli əqddir.

324.4. Müqavilənin bağlanması üçün iki tərəfin razılaşdırılmış iradə ifadəsi (ikitərəfli əqd) və ya üç və ya daha çox tərəfin razılaşdırılmış iradə ifadəsi (çoxtərəfli əqd) zəruridir.

324.5. İradə ifadəsinin təfsiri zamanı onun həqiqi məzmunu təkcə hərfi mənaya görə deyil, həm də ağlabatan mühakimə əsasında müəyyənləşdirilməlidir.

324.6. Əgər nə zahiri ifadəyə görə, nə də başqa hallara görə iradənin məzmunu dəqiq müəyyənləşdirilə bilmirsə, əqd mövcud deyildir.

Maddə 325. Birtərəfli iradə ifadəsinin etibarlığı

325.1. Başqa tərəfin qəbul etməsi tələb olunan iradə ifadəsi başqa tərəfə çatdığı andan etibarlı olur.

325.2. *Çıxarılmışdır.*[345]

325.3. Əqdi bağlamış şəxsin ölümü və ya fəaliyyət qabiliyyətini itirməsi iradə ifadəsindən sonra baş verərsə, iradə ifadəsinin etibarlığına təsir göstərməyə bilər.

Maddə 326. Birtərəfli əqd üzrə vəzifələr

Birtərəfli əqd onu bağlamış şəxs üçün vəzifələr yaradır. Əqd başqa şəxslər üçün yalnız bu Məcəllədə və ya həmin şəxslərlə razılaşmada müəyyənləşdirilmiş hallarda vəzifələr yarada bilər.

Maddə 327. Birtərəfli əqdlərin hüquqi tənzimlənməsi

Birtərəfli əqdlərə öhdəliklər və ya müqavilələr haqqında ümumi müddəalar müvafiq surətdə o halda tətbiq edilir ki, bu, bu Məcəlləyə, əqdin birtərəfli xarakterinə və mahiyyətinə zidd gəlməsin.

Maddə 328. Şərtlə bağlanmış əqdlər

328.1. Əgər tərəflər hüquq və vəzifələrin əmələ gəlməsini baş verib-verməyəcəyi məlum olmayan hallardan asılı etmişlərsə, əqd şərtlə bağlanmış sayılır.

328.2. Bu Məcəllənin müəyyənləşdirdiyi tələblərə zidd olan, yaxud icrası mümkün olmayan şərt etibarsızdır. Belə şərtdən asılı olan əqd tamamilə etibarsızdır.

328.3. Tərəflərin iradəsindən asılı olan şərt, yəni baş verməsi və ya baş verməməsi yalnız tərəflərin əqddəki arzusundan asılı olan şərt etibarsızdır. Belə şərtlə bağlanmış əqd etibarsızdır.

328.4. Pozitiv şərt o deməkdir ki, əqd hansısa hadisənin müəyyən müddətdə baş verəcəyi şərti ilə bağlanmışdır. Əgər həmin müddət bitmiş və hadisə baş verməmişsə, şərt qüvvədən düşmüş sayılır. Əgər müddət müəyyənləşdirilməyibsə, şərt istənilən vaxt yerinə yetirilə bilər. Hadisənin baş verməsinin mümkünsüzlüyü aydın olduqda şərt qüvvədən düşmüş sayıla bilər.

328.5. Neqativ şərt o deməkdir ki, əqd hansısa hadisənin müəyyən müddətdə baş verməyəcəyi şərti ilə bağlanmışdır. Əgər həmin müddət bitənədək hadisə baş verməzsə və ya həmin hadisənin baş verməsinin mümkünsüzlüyü müddət bitənədək aydın olarsa, şərt yerinə yetirilmiş sayılır. Əgər müddət müəyyənləşdirilməyibsə, şərt yalnız hadisənin baş verməyəcəyinin aydın olduğu vaxt yerinə yetirilmiş sayılır.

328.6. Əqddə nəzərdə tutulan hüquq və vəzifələrin əmələ gəlməsi gələcəkdə gözlənilən və ya naməlum hadisədən və ya artıq baş versə də, hələlik tərəflərə bəlli olmayan hadisədən asılı olduqda əqd təxirəsalıcı şərtlə bağlanmış sayılır.

328.7. O əqd ləğvedici şərtlə bağlanmış sayılır ki, həmin şərtin baş verməsi əqdin xitamına səbəb olur və əqd bağlananadək mövcud olmuş vəziyyəti bərpa edir.

328.8. Müəyyən şərtlə əqd bağlamış şəxsin ixtiyarı yoxdur ki, şərt baş verənədək öhdəliklərinin icrasına maneçilik törədə bilən hər hansı hərəkəti yerinə yetirsin. Əgər şərt müəyyən müddətdə baş verərsə və şəxs həmin hərəkəti icra etmiş olarsa, bu hərəkət nəticəsində əmələ gəlmiş ziyanın əvəzini digər tərəfə ödəməlidir.

328.9. Şərtin baş verməsi onun üçün sərfəli olmayan tərəf şərtin baş verməsinə vicdansızcasına maneçilik törədərsə, şərt baş vermiş sayılır.

328.10. Şərtin baş verməsi onun üçün sərfəli olan tərəf şərtin baş verməsinə vicdansızcasına kömək göstərdikdə şərt baş verməmiş sayılır.

Maddə 329. Əqdlərin formaları KMQ33

329.1. Əgər qanunla başqa hal müəyyən edilməmişdirsə, qanunla və ya tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilmiş forma tələblərinə riayət etməməklə bağlanılmış əqd etibarsızdır.[346] **KMQ35**

329.2. Əqdlər şifahi və ya yazılı (sadə və ya notarial) formada bağlanır.

329.3. Şifahi bağlana bilən əqd o halda bağlanmış sayılır ki, şəxsin əqdi bağlamaq iradəsi onun rəftarından məlum olur.

329.4. Susmaq bu Məcəllədə və ya tərəflərin razılaşmasında nəzərdə tutulan hallarda əqdi bağlamaq iradəsinin ifadəsi sayılır.

Maddə 330. Şifahi əqd – *çıxarılmışdır.*[347]

Maddə 331. Yazılı əqd

331.1. Yazılı əqd onun məzmununu ifadə edən və əqdi bağlayan şəxs və ya şəxslər və ya onların lazımınca vəkil etdikləri şəxslər tərəfindən imzalanmış sənədin tərtibi yolu ilə bağlanmalıdır. *Əqd onun məzmununu dəyişilməz formada maddi daşıyıcıda əks etdirməyə imkan verən elektron və ya digər texniki vasitələrin köməyi ilə bağlanıldıqda da yazılı formaya riayət edilmiş hesab edilir və bu halda iradəsini ifadə edən şəxsi dürüst müəyyən etməyə imkan verən hər hansı üsuldan istifadə olunmuşdursa, imza tələbi yerinə yetirilmiş hesab edilir. Qanunla, digər hüquqi aktlarla və ya tərəflərin razılaşması ilə şəxsi dəqiq müəyyən etməyə imkan verən xüsusi üsul (üsullar) müəyyənləşdirilə bilər.*[348]

331.2. *Qanunda, digər hüquqi aktlarda və ya tərəflərin* razılaşmasında əqdin formasının uyğun gəlməli olduğu əlavə tələblər (müəyyən formalı blankda tərtibetmə, möhürlə təsdiqləmə və i.a.) müəyyənləşdirilə bilər və bu tələblərə riayət edilməməsinin nəticələri nəzərdə tutula bilər.[349]

331.3. Əqdlərin bağlanması zamanı mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyi ilə imzanın faksimilesindən, elektron imzadan və ya şəxsi imzanın başqa analoqundan istifadə edilməsinə *qanunda, digər hüquqi aktlarda və ya* tərəflərin razılaşmasında nəzərdə tutulan hallarda və qaydada yol verilir. Elektron imzadan istifadə etmə qaydaları qanunvericiliklə müəyyən edilir.[350]

331.4. Əgər fiziki şəxs *fiziki çatışmazlıq*, xəstəliyinə və ya savadsızlığına görə əqdi özü imzalaya bilmirsə, əqdi onun xahişi ilə başqa fiziki şəxs imzalaya bilər. Başqa fiziki şəxsin imzası əqdi bağlayanın özünün imza edə bilməməsinin səbəbləri göstərilməklə, notarius tərəfindən və ya bu cür notarial hərəkəti etməyə hüququ çatan digər vəzifəli şəxs tərəfindən təsdiqlənməlidir.[351]

331.5. Əqdlərin elektron *ticarət zamanı bağlanılması və elektron imza ilə təsdiq edilməsi* ilə bağlı məsələlər elektron ticarət haqqında və elektron sənəd dövriyyəsinə dair Azərbaycan Respublikasının qanunvericiliyi ilə tənzimlənir.[352]

Maddə 332. Sadə yazılı formada bağlanan əqdlər – *çıxarılmışdır.* [353]

Maddə 333. Əqdin sadə yazılı formasına riayət edilməməsinin nəticələri – *çıxarılmışdır.* [354]

Maddə 334. Əqdin notariat qaydasında təsdiqlənməsi

334.1. Əqdin notariat qaydasında təsdiqlənməsi bu Məcəllənin 331-ci maddəsinin tələblərinə uyğun gələn sənəddə notariusun və ya bu cür notarial hərəkəti yerinə yetirməyə hüququ çatan digər vəzifəli şəxsin təsdiqləyici qeyd etməsi yolu ilə həyata keçirilir.

334.2. Əqdin notarial təsdiqlənməsi qaydası *"Notariat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq* müəyyənləşdirilir. [355]

334.3. *Çıxarılmışdır.*

Maddə 335. Əqdin notarial formasına riayət edilməməsinin nəticələri – *çıxarılmışdır.* [356]

Maddə 336. Əqdlərdən əmələ gələn hüquqların qeydə alınması tələbinə riayət edilməməsinin nəticələri [357]

336.1. Əgər tərəflərdən biri əqddən əmələ gələn hüququn dövlət qeydiyyatına alınmasından boyun qaçırırsa, onda qeydiyyat digər tərəfin ərizəsi ilə məhkəmənin qərarı əsasında həyata keçirilir.

336.2. Zərərin əvəzinin ödənilməsi ilə bağlı digər hüquqlar toxunulmaz qalır.

14-cü fəsil.

Əqdlərin etibarsızlığı

Maddə 337. Əqdlərin etibarsızlığı anlayışı və onun nəticələri. Mübahisə edilən və əhəmiyyətsiz əqdlər KMQ14

337.1. Bu Məcəllədə müəyyənləşdirilmiş şərtləri pozmaqla bağlanmış əqd etibarsızdır. Etibarsız əqdlər mübahisə edilən əqdlər və ya əhəmiyyətsiz əqdlər ola bilər.[358] **KMQ35**

337.2. Əqd barəsində mübahisə edildikdə əqd bağlandığı andan etibarsızdır. Müqavilənin mübahisə edilməsi müqavilənin digər tərəfinə iradə ifadəsinin bildirilməsi yolu ilə həyata keçirilir. Digər tərəfə münasibətdə həyata keçirilmiş birtərəfli əqd həmin şəxsə qarşı mübahisə edilir.[359]

337.3. Əhəmiyyətsiz əqd məhkəmə tərəfindən etibarsız sayılıb-sayılmamasından asılı olmayaraq özlüyündə etibarsız olan əqddir.[360]

337.4. etibarsız əqd onun etibarsızlığı ilə bağlı nəticələr istisna olmaqla, hüquqi nəticələrə səbəb olmur. Bu cür əqd bağlandığı andan etibarsızdır.

337.5. Əqd etibarsız olduqda, əgər bu Məcəllədə onun etibarsızlığının ayrı nəticələri nəzərdə tutulmayıbsa, tərəflərdən hər biri əqd üzrə aldıqlarının hamısını digər tərəfə qaytarmağa, alınanları eyni ilə qaytarmaq mümkün olmadıqda isə (o cümlədən alınanlar əmlakdan istifadədə, görülmüş işdə və ya göstərilmiş xidmətdə ifadə olunduqda) onun dəyərini pulla ödəməlidir.

Maddə 338. Bu Məcəllə ilə müəyyənləşdirmiş qaydaları və qadağanları pozan əqdin etibarsızlığı – *çıxarılmışdır.*[361]

Maddə 339. Hakimiyyətdən sui-istifadə nəticəsində, aldatma, zorakılıq, hədə təsiri altında, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi və ya şəxsin ağır vəziyyətə düşməsi nəticəsində bağlanmış əqdin etibarsızlığı

339.1. Hakimiyyətdən sui-istifadə, bir tərəfin nümayəndəsinin digər tərəflə pis niyyətlə razılığa gəlməsi nəticəsində bağlanmış, *yaxud bu Məcəllənin 49.4-cü maddəsində müəyyən edilmiş hallara səbəb olan* əqd, habelə şəxsin ağır vəziyyətə düşməsi və digər tərəfin bundan istifadə etməsi nəticəsində həmin şəxsin özü üçün son dərəcə əlverişsiz şərtlərlə bağlamağa məcbur olduğu əqd (ağır şərtli əqd) zərərçəkən tərəfindən mübahisələndirilə bilər.[362]

339.2. Şəxs əqd bağlanması məqsədilə aldadıldıqda həmin əqdi mübahisələndirə bilər. Belə mübahisələndirmə əqdin aldatma olmadan bağlana bilməyəcəyinin aşkar olduğu hallarda həyata keçirilir. Əgər tərəflərdən biri, aşkar edilsəydi, digər tərəfin əqd bağlamayacağı hallar barəsində susmuşsa, aldadılmış tərəf əqdi mübahisələndirə bilər. Barəsində susulan hallar barəsində məlumat vermək vəzifəsi yalnız o zaman ola bilər ki, digər tərəf vicdanla bunu gözləsin.[363]

339.3. Aldatma yolu ilə bağlanmış əqdin mübahisələndirilməsi üçün tərəfin yanlış məlumat verərkən fayda götürmək məqsədini, yaxud digər tərəfə zərər vurmaq məqsədini güdmüş olduğunun əhəmiyyəti yoxdur. Üçüncü şəxs tərəfindən aldadılma halında, əgər bu əqddən fayda götürən şəxs aldatmadan xəbərdar idisə və ya xəbərdar olmalı idisə, əqd mübahisələndirilə bilər. Əgər hər iki tərəf aldatma yolu ilə hərəkət etmişsə, onlardan heç birinin ixtiyarı yoxdur ki, aldadıldığına istinad edərək əqdi mübahisələndirsin və ya zərərin əvəzinin ödənilməsini tələb etsin.[364]

339.4. Əqdi bağlayan şəxsi əqdi bağlamağa məcburetmə (zorakılıq və ya hədələmə) ona hüquq verir ki, zorakılığın üçüncü şəxs tərəfindən törədildiyi halda da əqdi mübahisələndirsin. Xaraktercə şəxsə təsir göstərə bilən və ona şəxsən özünü və ya əmlakını real təhlükə gözlədiyini təlqin edə bilən məcburetmə əqdin etibarsızlığına səbəb olur. Məcburetmənin xarakteri qiymətləndirilərkən şəxsin yaşı və cinsi, həyat şəraiti nəzərə alınır. Məcburetmə tərəflərdən birinin arvadına (ərinə), digər ailə üzvlərinə və ya yaxın qohumlarına qarşı yönəldildikdə də əqdin mübahisələndirilməsinə əsas verir. Məcburetmənin məqsədi ilə vasitələrinin bir-birinə uyğun gəlmədiyi hallardan başqa, nə qanuna zidd məqsədlərlə, nə də qanuna zidd vasitələr tətbiq edilməklə həyata keçirilməyən hərəkətlər məcburetmə sayılmır.[365]

339.5. Əgər 339.1, 339.2 və 339.4-cü maddələrdə göstərilən əsaslardan biri üzrə əqd etibarsız sayılmışdırsa, bu Məcəllənin 337.5-ci maddəsinin qaydaları tətbiq edilir. Bundan başqa, digər tərəf hakimiyyətdən sui-istifadə nəticəsində zərərçəkənə vurduğu real zərərin əvəzini ödəyir.[366]

339.6. Bu Məcəllənin 339.1-339.4-cü maddələrində göstərilən əsaslar üzrə əqd zərərçəkənin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər.[367] **KMQ14**

Maddə 340. Uydurma və yalan əqdlərin etibarsızlığı

340.1. Uydurma əqd ona uyğun hüquqi nəticələr yaratmaq niyyəti olmadan yalnız görünüş üçün bağlanmış əqddir. Uydurma əqd əhəmiyyətsizdir.

340.2. Yalan əqd başqa əqdi pərdələmək məqsədi ilə bağlanan əqddir. Yalan əqd əhəmiyyətsizdir. Yalan əqdə onun mahiyyəti nəzərə alınmaqla, tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydalar tətbiq edilir.[368] KMQ18 KMQ33

Maddə 341. Qeyri-ciddi əqdin etibarsızlığı

341.1. Qeyri-ciddiliyin seziləcəyi ümidi ilə qeyri-ciddi (zarafatla) edilmiş iradə ifadəsi etibarsızdır.

341.2. Qeyri-ciddi əqd nəticəsində digər tərəfə zərər dəydikdə, əgər digər tərəf əqdin qeyri-ciddiliyindən xəbərdar olmamışdırsa və xəbərdar ola bilməzdisə, zərərin əvəzi ödənilməlidir.

Maddə 342. Fəaliyyət qabiliyyəti olmayan fiziki şəxsin bağladığı əqdin etibarsızlığı

342.1. Psixi pozuntu nəticəsində fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin bağladığı əqd etibarsızdır. Belə əqdin tərəflərindən hər biri aldıqlarının hamısını digər tərəfə eyni ilə qaytarmalı, alınanları eyni ilə qaytarmaq mümkün olmadıqda isə onun dəyərini pulla ödəməlidir. Bundan başqa, əgər fəaliyyət qabiliyyətli tərəf digər tərəfin fəaliyyət qabiliyyəti olmadığını bilirdisə və ya bilməli idisə, ona dəymiş real zərərin əvəzini də ödəməlidir.

342.2. Psixi pozuntu nəticəsində fəaliyyət qabiliyyəti olmayan sayılmış fiziki şəxsin bağladığı əqd onun xeyrinə olduqda qəyyumunun razılığı ilə etibarlı sayıla bilər.[369]

Maddə 343. Fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış fiziki şəxsin bağladığı əqdin etibarsızlığı

343.1. Spirtli içkilərdən, narkotik vasitələrdən və ya psixotrop maddələrdən sui-istifadə etməsi, habelə qumara qurşanması nəticəsində fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılmış fiziki şəxsin öz himayəçisindən razılıq almadan əmlaka dair sərəncam verilməsi barədə bağladığı əqd himayəçinin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər.[370]

343.2. Bu maddənin qaydaları fəaliyyət qabiliyyəti məhdudlaşdırılmış fiziki şəxsin müstəqil bağlamağa hüququ çatan xırda məişət əqdlərinə şamil edilmir.

Maddə 344. On dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanın bağladığı əqdin etibarsızlığı

344.1. Bu Məcəllənin 29-cu maddəsində nəzərdə tutulmuş hallar istisna olmaqla, on dörd yaşı tamam olmamış yetkinlik yaşına çatmayanın (azyaşlının) bağladığı əqd etibarsızdır.[371]

344.2. *Çıxarılmışdır.* [372]

344.3. *Çıxarılmışdır.* [373]

Maddə 345. On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın bağladığı əqdin etibarsızlığı

345.1. On dörd yaşından on səkkiz yaşınadək olan yetkinlik yaşına çatmayanın bu Məcəllənin tələblərinə görə valideynlərindən, övladlığa götürənlərdən və ya himayəçidən razılıq almasının tələb edildiyi hallarda onlardan razılıq almadan bağladığı əqd etibarsızdır.[374]

345.2. Bu maddənin qaydaları bu Məcəllənin qaydalarına müvafiq surətdə tam fəaliyyət qabiliyyətli olmuş yetkinlik yaşına çatmayanların əqdlərinə şamil edilmir.

Maddə 346. Öz hərəkətlərinin mənasını başa düşməyən və ya onlara rəhbərlik edə bilməyən fiziki şəxsin bağladığı əqdin etibarsızlığı

346.1. Fəaliyyət qabiliyyətli olsa da, əqd bağlandığı zaman öz hərəkətlərinin mənasını başa düşmədiyi və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətdə fiziki şəxsin bağladığı əqd onun özünün və ya əqd bağlanması nəticəsində hüquqları və ya qanunla qorunan mənafeləri pozulmuş digər şəxslərin iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər. **KMQ14**

346.2. Sonradan fəaliyyət qabiliyyətli sayılmış fiziki şəxsin bağladığı əqd, əgər əqdin bağlandığı zaman fiziki şəxsin öz hərəkətlərinin mənasını başa düşmədiyi və ya onlara rəhbərlik edə bilmədiyi sübuta yetirilərsə, onun qəyyumunun iddiası ilə məhkəmə tərəfindən etibarsız sayıla bilər.

346.3. Şüurun itməsi və ya müvəqqəti psixi pozuntu zamanı edilmiş iradə ifadəsi etibarsız sayıla bilər.

346.4. Ruhi xəstə şəxsin iradə ifadəsi real şəraitin düzgün qavranışına uyğun gəlmədikdə və şəxs məhkəmə tərəfindən fəaliyyət qabiliyyəti olmayan sayıldıqda iradə ifadəsi etibarsızdır.

Maddə 347. Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdin etibarsızlığı

347.1. Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqd belə yanılmanın təsiri altında hərəkət etmiş şəxs tərəfindən mübahisələndirilə bilər.[375]

347.2. Vacib əhəmiyyətli yanılma aşağıdakı hallardır:

347.2.1. şəxs razılıq verdiyi əqdi deyil, başqa əqdi bağlamaq istəmişdir;

347.2.2. şəxs bağlamağı arzuladığı əqdin məzmunu barəsində səhv etmişdir;

347.2.3. tərəflərin vicdanlılıq prinsipini rəhbər tutmaqla əqdin əsası kimi nəzərdən keçirdikləri hallar mövcud deyildir.

347.3. Əqdin motivləri barəsində yanılma, onun razılaşma predmeti olduğu hallar istisna edilməklə, vacib əhəmiyyətə malik deyildir.

347.4. Kontragentin şəxsiyyəti barəsində yanılma yalnız o zaman vacib sayılır ki, əqdin bağlanması üçün kontragentin şəxsiyyəti və ya şəxsi keyfiyyətlərinin nəzərə alınması başlıca əsas olmuşdur.

347.5. Predmetin əsas xüsusiyyətləri barəsində yanılma yalnız o zaman vacib sayılır ki, predmetin dəyərinin müəyyənləşdirilməsi üçün əhəmiyyət kəsb edir.

347.6. Yazılı əqdlər bağlanarkən buraxılmış xırda səhvlər düzəlişə hüquq verir, lakin mübahisə etməyə hüquq vermir.

347.7. Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdi mübahisələndirmiş tərəf yanılmanın digər tərəfin təqsiri üzündən əmələ gəldiyini sübuta yetirərsə, özünə dəymiş real zərərin əvəzini ödəməyi digər tərəfdən tələb edə bilər. Bu, sübuta yetirilməsə, vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqdi mübahisələndirmiş tərəf digər tərəfin tələbi ilə ona dəymiş real zərərin əvəzini ödəməyə, hətta yanılmanın yanılan tərəfdən asılı olmayan səbəblərdən əmələ gəldiyi hallarda da borcludur.[376]

Maddə 348. Məcburi formanı pozmaqla bağlanmış əqdin etibarsızlığı – *çıxarılmışdır.*[377]

Maddə 349. Hüquqi şəxsin hüquq qabiliyyətindən kənara çıxan əqdin etibarsızlığı

Hüquqi şəxsin öz nizamnaməsində müəyyənləşdirilmiş fəaliyyət məqsədlərinə zidd olaraq bağladığı əqd, əgər əqddə iştirak edən digər tərəfin onun qanunsuz olduğunu bildiyi və ya bilməli olduğu sübuta yetirilərsə, həmin hüquqi şəxs və ya onun təsisçisi tərəfindən mübahisələndirilə bilər.[378]

Maddə 350. Əqd bağlamaq səlahiyyətlərinin məhdudlaşdırılmasının nəticələri

Əgər şəxsin əqd bağlamaq səlahiyyətləri müqavilə ilə və ya hüquqi şəxsin orqanının səlahiyyətləri onun nizamnaməsi ilə etibarnamədə, bu Məcəllədə müəyyənləşdirilənə və ya əqdin bağlandığı şəraitə görə aşkar sayıla bilənə nisbətən məhdudlaşdırılarsa və əqd bağlanarkən həmin şəxs və ya orqan bu məhdudiyyətlərdən kənara çıxarsa, əqd yalnız onda iştirak edən digər tərəfin göstərilən məhdudiyyətləri bildiyinin və ya bilməli olduğunun sübuta yetirildiyi hallarda, mənafeləri üçün məhdudiyyətlər qoyulmuş şəxs tərəfindən mübahisələndirilə bilər.[379]

Maddə 351. Əqdlərin etibarsızlığı zamanı təsdiqetmənin əhəmiyyəti

351.1. Əhəmiyyətsiz əqd onun bağlandığı andan etibarsızdır.

351.2. Əgər əhəmiyyətsiz əqdi bağlamış şəxs onu təsdiq edərsə, onun hərəkətləri əqdin yenidən bağlanması kimi qiymətləndirilir.

351.3. Əgər əqdi onun barəsində mübahisə etmək hüququna malik şəxs təsdiq edirsə, bununla o, mübahisə etmək hüququnu itirir.

351.4. Əgər əhəmiyyətsiz ikitərəfli əqdi hər iki tərəf təsdiq edirsə, şübhələrin olduğu halda onlar, əgər əqd lap əvvəldən etibarlı olsaydı, onlara çatası hər şeyi bir-birinə verməyə borcludurlar.

351.5. Təsdiqetmə yalnız o zaman etibarlı olur ki, müqavilə və ya əqd əxlaq tələblərinə zidd olmasın və üçüncü şəxslərin mənafelərini pozmasın.

Maddə 352. Əqdin bir hissəsinin etibarsızlığının nəticələri

Əqdin bir hissəsinin etibarsızlığı onun qalan hissələrinin etibarsızlığına o halda səbəb olmur ki, əqd onun etibarsız hissəsi daxil edilmədən də bağlana bilərdi.

Maddə 353. Əqdin konversiyası

Tərəflər əqdin etibarsızlığını bildikdən sonra etibarlı olmasını arzuladıqda, əgər etibarsız əqd başqa əqd üçün nəzərdə tutulan tələblərə uyğun gəlirsə, başqa əqdin qaydaları tətbiq edilir.

Maddə 354. Etibarsız əqdlər üzrə müddətlər[380] KMQ14

354.1. Əhəmiyyətsiz əqdin etibarsızlığı nəticələrinin tətbiqi haqqında iddia onun icrasına başlanıldığı gündən bir il ərzində irəli sürülə bilər.[381]

354.2. Bu Məcəllənin 347.1-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, maraqlı şəxs əqdin bağlanmasına təsir etmiş zorakılığa və ya hədəyə son qoyulduğu gündən və ya əqdin etibarsız sayılmasına əsas verən halları bildiyi və ya bilməli olduğu gündən bir il ərzində əqdi mübahisə edə bilər. Vacib əhəmiyyətli yanılmanın təsiri altında bağlanmış əqd mübahisəyə əsasən məlum olduğu andan bir ay ərzində mübahisə edilə bilər.[382]

15-ci fəsil.

Əqdlərdə razılıq

Maddə 355. Əqdlərdə razılıq anlayışı

355.1. Əgər əqdin etibarlığı üçüncü şəxsin razılığından asılıdırsa, onda həm razılıq, həm də razılıqdan imtina istər bir tərəfin, istərsə də digər tərəfin qarşısında ifadə edilə bilər.

355.2. Razılıq üçün müəyyənləşdirilmiş əqd formasına riayət edilməsi tələb olunmur.

Maddə 356. İcazə (qabaqcadan verilmiş razılıq)

Əqdin bağlanmasına verilmiş icazə (qabaqcadan verilmiş icazə), əgər tərəflər ayrı qayda haqqında razılığa gəlməyiblərsə, əqd bağlananadək ləğv edilə bilər. İcazənin (qabaqcadan verilmiş razılığın) ləğv edilməsi barədə hər iki tərəfə məlumat verilməlidir.

Maddə 357. Bəyənmə (sonradan verilən razılıq)

Əqd bağlanmasının bəyənilməsi (sonradan verilən razılıq), əgər bu Məcəllə ilə və ya tərəflərin razılaşması ilə ayrı qayda müəyyənləşdirilməyibsə, əqdin bağlandığı andan geriyə təsir qüvvəsinə malikdir.

Maddə 358. Səlahiyyətsiz şəxsin əşyaya və ya hüquqa dair sərəncam verməsi

358.1. Səlahiyyətsiz şəxsin əşyaya və ya hüquqa dair sərəncam verməsi, əgər səlahiyyətli şəxsin icazəsi (qabaqcadan verilmiş razılığı) ilə həyata keçirilirsə, etibarlıdır.

358.2. Əşyaya və ya hüquqa dair sərəncam verilməsi, əgər səlahiyyətli şəxs bunu bəyənirsə, etibarlı olur.

16-cı fəsil.

Əqdlərdə təmsilçilik

Maddə 359. Əqdlərdə təmsilçilik anlayışı

359.1. Əqd təmsilçi vasitəsilə də bağlana bilər. Bir şəxsin (təmsilçinin) etibarnaməyə, qanunun göstərişinə və ya buna vəkil edilmiş dövlət və ya bələdiyyə orqanının aktına əsaslanan səlahiyyətə görə başqa şəxs (təmsil edilən) adından bağladığı əqd təmsil edilənin mülki hüquq və vəzifələrini bilavasitə yaradır, dəyişdirir və onlara xitam verir. Səlahiyyət həmçinin təmsilçinin fəaliyyət göstərdiyi şəraitdən də (pərakəndə ticarətdə satıcı, kassir və i.a.) bəlli ola bilər.

359.2. Özgə mənafeyi üçün olsa da, öz adından fəaliyyət göstərən şəxslər (kommersiya vasitəçiləri, müflisləşmə zamanı müsabiqə idarəçiləri, vərəsəlik zamanı vəsiyyət icraçıları və i.a.), habelə gələcəkdə mümkün ola biləcək əqdlər barəsində danışıqlara başlamağa vəkil edilmiş şəxslər təmsilçi deyildirlər.

359.3. Təmsilçi təmsil edilən adından şəxsən özü barəsində əqdlər bağlaya bilməz. O, həmçinin, kommersiya təmsilçiliyi halı və qiymətli kağızlar bazarında *investisiya şirkəti fəaliyyəti* istisna olmaqla, eyni zamanda təmsilçisi olduğu şəxs barəsində bu cür əqdlər bağlaya bilməz.[383]

359.4. Xarakterinə görə yalnız şəxsən bağlana bilən əqdlərin, eləcə də bu Məcəllədə göstərilən digər əqdlərin təmsilçi vasitəsilə bağlanmasına yol verilmir.

Maddə 360. Səlahiyyət verilməyən şəxsin əqd bağlaması

360.1. Əgər başqa şəxsin (təmsil edilənin) adından əqdi bağlayan şəxsin (təmsilçinin) başqa şəxsin (təmsil edilənin) adından hərəkət etmək səlahiyyəti olmazsa və ya bu səlahiyyət aşılarsa, əqdin digər tərəfinin təmsilçidən həmin əqdin icrasını və ya əqdin bağlanması nəticəsində ona dəymiş zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır, bu şərtlə ki, başqa şəxs (təmsil edilən) əqdi sonradan bəyənməsin.[384]

360.2. Təmsil edilən tərəfindən əqdin sonradan bəyənilməsi onun üçün əqdin bağlandığı andan əqd üzrə mülki hüquq və vəzifələr yaradır, dəyişdirir və onlara xitam verir.

Maddə 361. Kommersiya təmsilçiliyi

361.1. Sahibkarlıq fəaliyyəti sahəsində müqavilələr bağlanarkən sahibkarları daimi və müstəqil surətdə təmsil edən şəxs kommersiya təmsilçisi sayılır.

361.2. Əqddə müxtəlif tərəflərin eyni vaxtda kommersiya təmsilçiliyinə həmin tərəflərin razılığı ilə və bu Məcəllədə nəzərdə tutulan digər hallarda yol verilir. Kommersiya təmsilçisi şərtləşdirilmiş muzdu və tapşırığın icrası zamanı çəkdiyi xərclərin əvəzini müqavilə tərəflərinin bərabər paylarla ödəməsini tələb edə bilər, bu şərtlə ki, onlar arasında razılaşmada ayrı qayda nəzərdə tutulmasın.

361.3. Kommersiya təmsilçiliyi yazılı formada bağlanmış və təmsilçinin səlahiyyətlərinin göstərildiyi müqavilə əsasında, belə göstərişlər olmadıqda isə həmçinin etibarnamə əsasında həyata keçirilir. Kommersiya təmsilçisi ticarət əqdləri barəsində ona bəlli olmuş məlumatların sirrini ona verilmiş tapşırığı icra etdikdən sonra da saxlamağa borcludur.

Maddə 362. Etibarnamə

362.1. Bir şəxsin üçüncü şəxslər qarşısında təmsilçilik üçün başqa şəxsə verdiyi vəkalət etibarnamə sayılır. Təmsil edilən təmsilçinin əqd bağlaması üçün yazılı vəkaləti bilavasitə müvafiq üçüncü şəxsə təqdim edə bilər.[385]

362.2. Notarial forma tələb edən əqdlərin bağlanması üçün etibarnamə notariat qaydasında təsdiqlənməlidir.

362.3. Aşağıdakılar notariat qaydasında təsdiqlənən etibarnamələrə bərabər tutulur:

362.3.1. hospitallarda, sanatoriyalarda və digər hərbi- müalicə müəssisələrində müalicədə olan hərbi qulluqçuların və başqa şəxslərin həmin müəssisənin rəisi, onun

tibbi hissə üzrə müavini, böyük və ya növbətçi həkim tərəfindən təsdiqlənmiş etibarnamələri;

362.3.2. hərbi qulluqçuların etibarnamələri, hərbi hissələrin, birləşmələrin, idarələrin və hərbi təlim məktəblərinin yerləşdiyi, lakin notariat *ofislərinin* və notariat əməliyyatları aparan digər orqanların olmadığı məntəqələrdə isə həmçinin fəhlə və qulluqçuların, onların ailə üzvlərinin və hərbi qulluqçuların ailə üzvlərinin bu hissənin, birləşmənin, idarənin və ya məktəbin komandiri (rəisi) tərəfindən təsdiqlənmiş etibarnamələri;[386]

362.3.3. azadlıqdan məhrumetmə yerlərində olan şəxslərin müvafiq azadlıqdan məhrumetmə yerinin rəisi tərəfindən təsdiqlənmiş etibarnamələri.

~~362.3.4. *sosial xidmət* müəssisələrində olan yetkinlik yaşına çatmış fəaliyyət qabiliyyətli fiziki şəxslərin həmin müəssisənin müdiriyyəti və ya müvafiq əhalinin sosial müdafiəsi orqanının rəhbəri (onun müavini) tərəfindən təsdiqlənmiş etibarnamələri.~~[387]

362.4. Əmək haqqının və əmək münasibətləri ilə bağlı digər haqların, müəlliflərin və ixtiraçıların haqlarının, pensiyaların, müavinətlərin və təqaüdlərin, fiziki şəxslərin banklardakı əmanətlərinin və poçt göndərmələrinin, o cümlədən pul və bağlamaların alınması üçün etibarnamə etibar edənin işlədiyi və ya təhsil aldığı təşkilat, onun yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı və müalicə olunduğu stasionar müalicə müəssisəsinin müdiriyyəti, *sosial xidmət müəssisələrinə yerləşdirilən şəxslərə münasibətdə isə həmin müəssisələrin müdiriyyəti* tərəfindən də təsdiqlənə bilər.[388]

362.5. hüquqi şəxs adından etibarnamə onun rəhbərinin və ya nizamnaməsi ilə buna vəkil edilmiş digər şəxsin imzası ilə, həmin təşkilatın möhürü vurulmaqla verilir.

362.6. Teleqrafla, habelə sənədin rabitə işçisi tərəfindən yola salındığı digər rabitə növləri ilə göndərilən etibarnamə rabitə orqanları tərəfindən təsdiqlənir.

362.7. Üçüncü şəxslər onların barəsində hərəkətlərin edilməsi üçün verilmiş, etibar edənin rəsmi rabitə orqanlarının vasitəçiliyi olmadan faksimile və digər rabitə vasitəsilə müvəkkilə göndərdiyi etibarnaməni həqiqi saya bilərlər.

Maddə 363. Etibarnamənin müddəti

363.1. Bu Məcəllənin 363.3-cü maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, etibarnamə istənilən müddətə verilə bilər. Əgər etibarnamədə müddət göstərilməyibsə, o bağlandığı gündən bir il ərzində qüvvəsini saxlayır. Bağlandığı tarix göstərilməyən etibarnamə əhəmiyyətsizdir.[389]

363.2. Xaricdə hərəkətlərin yerinə yetirilməsi üçün nəzərdə tutulan və qüvvədə olma müddəti göstərilməyən etibarnamə notarius tərəfindən təsdiqləndikdə etibarnaməni vermiş şəxs tərəfindən ləğv edilənədək qüvvəsini saxlayır.

363.3. Nəqliyyat vasitəsinə dair sərəncam vermə hüququnu nəzərdə tutan etibarnamə bir ildən artıq müddətə verilə bilməz.[390]

Maddə 364. Etibar edilmişi etibaretmə

364.1. Etibarnamə verilmiş şəxs vəkil edildiyi hərəkətləri şəxsən özü etməlidir. O, etibarnamə ilə buna vəkil edildikdə və ya etibarnaməni verənin mənafelərinin qorunması üçün şəraitin buna məcbur etdiyi halda həmin hərəkətlərin icrasını başqa şəxsə etibar edə bilər.

364.2. Səlahiyyətləri başqa şəxsə verən bunu etibarnaməni verənə bildirməli və səlahiyyətləri verdiyi şəxs barəsində ona lazımi məlumat verməlidir. Bu vəzifənin icra edilməməsi səlahiyyəti verənin üzərinə səlahiyyətləri verdiyi şəxsin hərəkətləri üçün öz hərəkətləri üçün olduğu kimi məsuliyyət qoyur.

364.3. *Çıxarılmışdır.* [391]

364.4. Etibar edilmişi başqasına etibaretmə qaydasında verilmiş etibarnamənin qüvvədə olma müddəti onun verilməsi üçün əsas götürülmüş etibarnamənin qüvvədə olma müddətindən artıq ola bilməz.

Maddə 365. Etibarnaməyə xitam verilməsi

365.1. Etibarnamənin qüvvəsinə aşağıdakılar nəticəsində xitam verilir:

365.1.1. etibarnamənin müddətinin bitməsi;

365.1.2. etibarnamədə nəzərdə tutulan hərəkətlərin həyata keçirilməsi;

365.1.3. etibarnaməni vermiş şəxs tərəfindən onun ləğv edilməsi;

365.1.4. etibarnamə verilmiş şəxsin imtinası;

365.1.5. adından etibarnamə verilmiş hüquqi şəxsə xitam verilməsi;

365.1.6. adına etibarnamə verilmiş hüquqi şəxsə xitam verilməsi;

365.1.7. etibarnaməni vermiş fiziki şəxsin ölməsi, fəaliyyət qabiliyyəti olmayan, məhdud fəaliyyət qabiliyyətli və ya xəbərsiz itkin düşmüş sayılması;

884.5. Sığorta olunan əmlak mənafeləri sığorta müqaviləsi əsasında sığortalanan şəxsdir. Şəxsi sığorta üzrə sığorta müqaviləsində sığorta olunan qismində başqa şəxs nəzərdə tutulmayıbsa, sığortalı eyni zamanda sığorta olunan sayılır. Əmlak sığortası üzrə sığorta müqaviləsində sığorta olunan qismində başqa şəxs nəzərdə tutulmasından asılı olmayaraq, sığortalının sığorta olunan kimi tanınması heç bir halda, o cümlədən müqavilə şərtləri ilə məhdudlaşdırıla bilməz.

884.6. Faydalanan şəxs icbari sığorta *qanunlarına* və ya sığorta müqaviləsinə uyğun olaraq sığorta *ödənişi verilməli* olan şəxsdir. Sığorta müqaviləsində faydalanan şəxs qismində başqa şəxs nəzərdə tutulmamışdırsa, sığortalı və (və ya) sığorta olunan faydalanan şəxs sayılır.[570]

884.6–1. Əmlak sığortası üzrə sığorta hadisəsi nəticəsində zərər dəymiş əmlakla bağlı sığorta marağı olan istənilən şəxs həmin əmlakın mülkiyyətçisi olub-olmamasından asılı olmayaraq zərərçəkən sayılır. [571]

884.6–2. Şəxsi sığorta üzrə sığorta hadisəsi nəticəsində sağlamlığına zərər dəymiş şəxs, onun öldüyü halda isə ailə üzvləri zərərçəkən sayılır.

884.7. Təkrarsığortaçı ilkin sığortaçı və ya ilkin təkrarsığortaçı tərəfindən bağlanmış sığorta və ya təkrarsığorta müqavilələri əsasında sığortalanmış (təkrarsığortalanmış) riskləri təkrarsığortalayan (təkrarsığortaya qəbul edən) təkrarsığorta müqaviləsinin tərəfidir.

884.8. Təkrarsığortalı sığortaladığı və ya təkrarsığortaladığı riskləri təkrarsığorta müqaviləsi əsasında təkrarsığorta etdirən (təkrarsığortaya ötürən) sığortaçı və ya təkrarsığortaçıdır.

Maddə 885. Sığorta sahələri

885.1. Sığorta sığortaçıların fəaliyyət istiqamətləri baxımından həyat sığortası və qeyri-həyat sığortası (ümumi sığorta) sahələrinə, sığorta obyekti baxımından şəxsi sığorta və əmlak sığortası sahələrinə bölünür.

885.2. Həyat və qeyri-həyat sığortası sahələrinin hər biri *"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsində* nəzərdə tutulmuş sığorta siniflərindən ibarətdir.[572]

885.3. Həyat sığortası sahəsinə aid olan sığorta sinifləri sığorta obyektinə görə yalnız şəxsi sığortaya aiddir.

885.4. Qeyri-həyat sığortası sahəsinə aid olan sığorta sinifləri həm şəxsi, həm də əmlak sığortasına aid ola bilər.

Maddə 885-1. Aqrar sığorta sistemi

Aqrar sığorta sistemi ilə əhatə olunan münasibətlər bu Məcəllə, "Sığorta fəaliyyəti haqqında" və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənir.[573]

Maddə 886. Sığorta obyekti və sığorta predmeti

886.1. Sığorta obyekti sığortalının, yaxud sığorta olunanın qanunazidd olmayan hər hansı əmlak mənafeyidir.

886.2. Qanunazidd mənafelər, həmçinin qanuni, lakin sığortalanması ~~qanunla~~ qadağan olunan mənafelər, *Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və digər qanunlarda* nəzərdə tutulmuş cərimələr, habelə oyunlarda *(o cümlədən lisenziya əsasında təşkil edilən kazino oyunlarında)*, mərclərdə, lotereyalarda iştirakla bağlı mənafelər sığorta obyekti ola bilməz.[574]

886.3. Sığorta predmeti sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu fiziki şəxs, əmlak və ya haldır.

Maddə 887. Şəxsi sığortanın obyekti

Şəxsi sığortanın obyektləri sığortalının və ya sığorta olunanın həyatı, sağlamlığı, əmək qabiliyyəti və pensiya təminatı ilə bağlı əmlak mənafeləridir. Şəxsi sığorta zamanı həm sığortalı özü, həm də müqavilədə göstərilən başqa şəxs (sığorta olunan) sığortalana bilər.

Maddə 888. Əmlak sığortasının obyekti

888.1. Əmlak sığortasının obyektləri sığortalının əmlaka sahibliyi, ondan istifadəsi və (və ya) ona sərəncam verməsi, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi, digər fiziki şəxslərin sağlamlığına xəsarət yetirməsi və ya fiziki şəxslərin əmlakına, həmçinin hüquqi şəxslərə vurduğu zərərin əvəzinin ödənilməsi, istehsalat fəaliyyəti ilə bağlı əmlak mənafeləridir. Əmlak sığortasına əmlakın və mülki məsuliyyətin sığortası aiddir.

888.2. Əmlakın sığortası zamanı əmlakın zədələnməsi, itirilməsi (məhv olması) və çatışmazlığı, eyni zamanda əmlak hüquqlarının itirilməsi ilə bağlı risklər sığortalanır.

888.3. Mülki məsuliyyətin sığortası zamanı üçüncü şəxslərin həyatına, sağlamlığına, yaxud əmlakına zərər vurulması nəticəsində yaranan öhdəliklərə görə (zərər vurmağa görə mülki məsuliyyətin sığortası), habelə mülki-hüquqi müqavilələrlə bağlı yaranan məsuliyyətə görə (müqavilə şərtlərini pozmağa görə mülki məsuliyyətin sığortası) risklər sığortalanır.

888.4. Qarışıq maliyyə risklərinin, kredit risklərinin, ticarət və investisiya risklərinin, tapşırıq və qarantiya risklərinin, məhkəmə xərclərinin, habelə bu Məcəllənin 888.1-ci maddəsində nəzərdə tutulmuş əmlak mənafeləri ilə bağlı digər risklərin sığortası da obyektinə görə əmlak sığortasına aid edilir.

Maddə 889. Sığorta marağı

889.1. Sığorta marağı sığorta hadisəsinin baş verəcəyi təqdirdə *şəxsin* maliyyə itkisinə məruz qalması ehtimalı ilə şərtlənən və onun sığorta obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafedir.

889.2. Sığorta marağının mövcudluğu *qanunla və ya* mülki-hüquqi müqavilə ilə tanınır. *Şəxslə* sığorta predmeti arasında bu cür tanınan əlaqə yoxdursa, sığorta marağının mövcud olmadığı hesab edilir.

889.3. Sığortalının öz həyatı, habelə arvadının (ərinin), valideynlərinin, uşaqlarının, işçilərinin, işəgötürəninin, borclusunun, qəyyumunun, qəyyumluğunda olan şəxsin həyatı ilə bağlı sığorta marağı mövcuddur.

889.4. Sığorta marağı mövcud olmadan bağlanan sığorta müqaviləsi bağlandığı andan etibarsızdır.

889.5. Sığorta marağının gələcəkdə əldə edilməsi ehtimalı müvafiq sığorta müqaviləsinin bağlanması üçün əsas deyil.

889.6. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığorta marağı itərsə sığorta müqaviləsinə xitam verilməlidir.

889.7. *Əmlak sığortası üzrə sığorta* hadisəsi kimi tanına bilən hadisə və ya hal baş verdiyi anda sığorta marağı mövcud olmadıqda həmin hadisə və ya hal sığorta hadisəsi hesab edilmir və sığortaçı sığorta ödənişi üzrə vəzifələrinin icrasından azad edilir.

Maddə 890. Təkrarsığorta

890.1. Təkrarsığorta sığortaçının sığorta müqaviləsi üzrə sığortaladığı və ya təkrarsığortaladığı risklərin bütövlükdə, yaxud bir hissəsinin ~~sığorta qanunvericiliyində nəzərdə tutulmuş qaydada~~ təkrarsığortaçı ilə bölüşdürülməsi və ya təkrarsığortaçıya ötürülməsidir.[575]

890.2. Təkrarsığortanın şərtləri təkrarsığortaçı və təkrarsığortalı arasında yazılı formada bağlanan təkrarsığorta müqaviləsi ilə müəyyən edilir.

890.3. Bu Məcəllənin 940-cı maddəsində təminat şəhadətnaməsi üçün müəyyən edilmiş bütün məlumatlar təkrarsığorta müqaviləsində göstərilməlidir.

890.4. Sığortaçı və ya təkrarsığortaçı sığorta və ya təkrarsığorta müqavilələri üzrə sığortaladığı (təkrarsığortaladığı) riskləri təkrarsığorta etdirərkən müvafiq sığortalıların və ya təkrarsığortalıların razılığı tələb olunmur.

890.5. Təkrarsığorta fakultativ və ya obliqator formada, mütənasib və ya qeyri-mütənasib növlər üzrə aparıla bilər.

890.6. Mütənasib təkrarsığorta müvafiq sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta hadisəsinin baş verdiyi təqdirdə, təkrarsığortaçının təkrarsığorta müqaviləsi üzrə qəbul etdiyi sığorta riskinə mütənasib məbləğdə sığorta ödənişi vermək öhdəliyinin müəyyən edildiyi təkrarsığorta növüdür.

890.7. Qeyri-mütənasib təkrarsığorta müvafiq sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta hadisəsinin baş verdiyi təqdirdə, təkrarsığortaçının təkrarsığortalının şəxsi tutumundan artıq olan məbləğdə sığorta ödənişi vermək öhdəliyinin müəyyən edildiyi təkrarsığorta növüdür.

890.8. Fakultativ təkrarsığorta hər bir riskin ayrılıqda qiymətləndirilməsinə əsasən onun təkrarsığortalanmasını nəzərdə tutan təkrarsığortanın formasıdır.

890.9. Obliqator təkrarsığorta təkrarsığorta müqaviləsi ilə müəyyən olunan şərtlərə cavab verən bütün risklərin təkrarsığortalanmasını nəzərdə tutan təkrarsığortanın formasıdır.

Maddə 891. Sığortaçının (təkrarsığortaçının) təkrarsığorta müqaviləsinə görə sığortalı (təkrarsığortalı) qarşısında öhdəliyi

891.1. Bu Məcəllənin 891.2-ci maddəsi nəzərə alınmaqla, sığorta müqaviləsi üzrə sığortaladığı riskləri təkrarsığorta etdirən sığortaçı (təkrarsığorta müqaviləsinə əsasən təkrarsığortalı) həmin sığorta müqaviləsinə görə sığortalı qarşısında tam və birbaşa öhdəlik daşıyır.

891.2. Sığortaçı sığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçının öz öhdəliklərini icra edə bilmədiyi həddə müvafiq sığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən azaddır.

891.3. Bu Məcəllənin 891.4-cü maddəsi nəzərə alınmaqla, təkrarsığorta müqaviləsi üzrə təkrarsığortaladığı riskləri yenidən təkrarsığorta etdirən təkrarsığortaçı təkrarsığortalı qarşısında tam və birbaşa öhdəlik daşıyır.

891.4. Təkrarsığortaçı müvafiq riskləri təkrarsığortalının aşkar yazılı təkidi ilə seçilən təkrarsığortaçıda yenidən təkrarsığorta etdirərsə, müvafiq təkrarsığorta müqaviləsi üzrə vəzifəsini yerinə yetirməkdən ikinci təkrarsığortaçının öhdəliklərini icra edə bilmədiyi həddə azaddır.

Maddə 892. Təkrarsığortaçının sənədləri tələb etmək hüququ

Təkrarsığortaçı təkrarsığortalıdan müvafiq sığorta qaydalarını və müqavilələrini, həmçinin sığorta hadisəsi baş verdikdə müvafiq təsdiqedici sənədləri və ya onların surətlərini tələb etmək hüququna malikdir.

Maddə 893. Şərikli sığorta

893.1. Şərikli sığorta bir neçə sığortaçının aralarında bağladıqları müqaviləyə müvafiq olaraq, sığorta ödənişi üzrə öhdəlikləri bölüşdürməklə sığorta müqaviləsi ilə müəyyən edilmiş sığorta risklərini eyni zamanda sığortalamaları ilə bağlı fəaliyyət və bununla əlaqədar yaranan münasibətlərdir.

893.2. Sığorta obyekti bir müqavilə ilə bir neçə sığortaçı tərəfindən sığortalana bilər. Bu müqavilədə hər bir sığortaçının razılaşdırılmış paylar əsasında hüquq və vəzifələrini müəyyən edən şərtlər olmalıdır.

893.3. Sığortalı qarşısında öhdəliyi öz payı miqdarında olmaqla şərikli sığortaçılardan biri sığortalı ilə münasibətdə bütün şərikləri təmsil edə bilər.

893.4. Müvafiq sığorta növü üzrə fəaliyyət göstərməyə icazəsi olmayan sığortaçı şərikli sığortada iştirak edə bilməz.

Maddə 894. Qrup halında sığorta

894.1. Qrup halında sığorta zamanı bir sığorta müqaviləsi ilə bir neçə sığorta predmeti sığortalanır.

894.2. Qrup halında sığorta həm şəxsi, həm də əmlak sığortası üzrə aparıla bilər.

894.3. Şəxsi sığortaya aid olan qrup halında sığorta zamanı sığortalı sığorta olunanın kimliyi göstərilən sığorta müqaviləsində sığorta olunan şəxslərin hər birini sığorta müqaviləsinin onlara aid olan bütün şərtləri ilə tanış etməlidir. Bu halda sığorta olunanların sığorta müqaviləsi ilə müvafiq şəkildə tanış edilməsini təsdiq edən sənəd (siyahı və s.) sığorta şəhadətnaməsinin ayrılmaz tərkib hissəsidir. Qrup halında sığorta zamanı şəxsi sığorta müqaviləsində sığorta olunanın kimliyi göstərildikdə və ya əmlak sığortası müqaviləsində sığortalanan əmlak fərdi şəkildə qeyd olunduqda, tərəflər arasında razılaşmaya əsasən müvafiq olaraq sığorta olunan şəxslərin hər birinə, yaxud hər bir sığortalanan əmlaka görə sığorta şəhadətnaməsi verilə bilər.

894.4. Qrup halında sığorta zamanı sığorta olunanın kimliyi göstərilməyən şəxsi sığorta müqaviləsində və ya sığortalanan əmlak fərdi şəkildə qeyd olunmayan əmlak sığortası müqaviləsində sığorta olunan şəxslərin və ya əmlak sığortası müqaviləsində sığortalanan əmlakın dairəsi o dərəcədə konkretləşdirilməlidir ki, sığorta hadisəsini, onun nəticələrini və sığorta predmeti üzrə verilməli olan sığorta ödənişinin miqdarını müvafiq olaraq hər bir sığorta olunana və ya sığortalanan əmlaka münasibətdə fərdiləşdirmək mümkün olsun.

Maddə 895. İkili (çoxqat) sığorta

895.1. Sığorta müqaviləsi bağlanan andakı həqiqi, yəni sığorta dəyərindən artıq məbləğdə əmlakın eyni risklərdən iki və ya daha çox sığortaçıda sığortalanması halında (ikili və ya çoxqat sığorta halında), sığorta hadisəsinin baş verdiyi zaman dəyən zərər üzrə sığortaçılardan hər biri onunla bağlanmış sığorta müqaviləsində nəzərdə tutulmuş sığorta məbləğinə mütənasib qaydada, ümumilikdə sığorta dəyərindən artıq olmamaq şərtilə öhdəlik daşıyır.[576]

895.2. Əmlak sığortalı tərəfindən qanunsuz gəlir əldə etmək məqsədilə bir və ya bir neçə sığorta müqaviləsi əsasında onun həqiqi dəyərindən artıq məbləğə sığorta etdirildikdə, bu məqsədlə bağlanmış hər bir sığorta müqaviləsi bağlandığı andan etibarsız sayılır. Bu halda sığortalının qanunsuz gəlir əldə etmək məqsədi məhkəmə qaydasında sübut edilməlidir.

Maddə 896. Qismən sığorta[577]

896.1. Əmlakın sığortası üzrə müqavilədə müəyyən edilmiş sığorta məbləği sığorta dəyərindən az olduğu halda (qismən sığorta halında), sığortaçı zərərin əvəzini sığorta məbləğinin sığorta dəyərinə olan nisbətində ödəyir, bir şərtlə ki, qismən sığorta barədə müddəa sığorta müqaviləsində əks edilmiş olsun.

896.2. Sığorta hadisəsi nəticəsində qismən sığortalanmış əmlakın tam məhv olması halında sığorta məbləği bütünlüklə ödənildikdə, sığorta predmetinin qalıqlarına olan hüquq sığortaçıya sığorta ödənişi məbləğinin sığorta dəyərinə olan nisbətində keçir.

896.3. Bu Məcəllənin 930.1-ci maddəsində nəzərdə tutulmuş halda sığorta hadisəsinin baş verdiyi zaman, sığorta təminatı qismən sığorta kimi qiymətləndirilə bilməz.

Maddə 897. İcbari sığorta

897.1. İcbari sığortanın həyata keçirilməsi *icbari sığorta qanunları ilə* tələb olunur.[578]

897.2. *Xeyrinə* icbari sığorta müqaviləsi bağlanmalı olan şəxs sığortalanmadığını bildikdə onu sığorta etdirmək vəzifəsi olan şəxsdən sığorta etdirilməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdir.[579]

897.3. *İcbari sığorta qanunları ilə* icbari sığorta etdirmək vəzifəsi müəyyən olunmuş şəxs bu vəzifəni yerinə yetirmədikdə və ya müvafiq sığorta müqaviləsini *həmin qanunlarda* nəzərdə tutulmuş şərtlərlə müqayisədə sığorta olunanın vəziyyətini pisləşdirən şərtlərlə bağladıqda həmin şəxs müvafiq icbari sığorta üzrə sığorta hadisəsi kimi tanına bilən hadisənin baş verdiyi, yaxud halın yarandığı zaman sığorta olunan qarşısında ən azı həmin icbari sığorta üzrə ~~qanunvericiliklə~~ müəyyən edilmiş sığorta təminatı həddində öhdəlik daşıyır.[580]

897.4. İcbari sığorta qanunlarında fərqli müddəaların nəzərdə tutulduğu hallar istisna olmaqla, icbari sığorta növlərinin həyata keçirilməsindən irəli gələn münasibətlər bu Məcəllə və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.[581]

Maddə 898. Azadolma məbləği və gözləmə müddəti

898.1. İcbari sığorta *qanunlarında* və könüllü sığorta növləri üzrə sığorta müqavilələrində şərtli və ya şərtsiz azadolma məbləği, həmçinin gözləmə müddəti müəyyən oluna bilər.

898.2. Azadolma məbləği sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. *Azadolma məbləği sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən zərər məbləğindən, qismən sığorta halında isə sığortaçının zərər məbləğindəki payından çıxılır.*

898.3. Şərtli azadolma məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda *və ya sığorta müqaviləsində razılaşdırılmış hər hansı digər halın baş verməsi şərtilə azadolma məbləği tətbiq edilmir.*

898.4. Şərtsiz azadolma məbləği nəzərdə tutulduqda həmin məbləğ hər bir halda *tətbiq edilir.*

898.5. Sığorta müqaviləsində gözləmə müddəti nəzərdə tutulduqda sığorta hadisəsi nəticəsində həmin müddət ərzində yaranan itkilərin əvəzinin ödənilməsi sığortalının üzərində qalır.

898.6. Şərtli gözləmə müddəti müəyyən edildikdə sığorta hadisəsinin nəticələrinin həmin müddətə bərabər və ya ondan artıq müddətdə davam etməsi şərti ilə sığorta tələbi və ya sığorta ödənişi sığorta hadisəsinin baş verməsindən keçən həmin müddət qədər vaxt ərzində yaranan itkilərə də şamil edilir.

898.7. Sığorta müqaviləsində şərtsiz gözləmə müddəti müəyyən edildikdə sığorta tələbi və ya sığorta ödənişi sığorta hadisəsinin baş verməsindən keçən həmin müddət qədər vaxt ərzində yaranan itkilərə şamil edilmir.

§2. Sığorta müqaviləsinə dair başlıca tələblər

Maddə 899. Sığorta müqaviləsinin forması

899.1. Sığorta müqaviləsi yazılı *olaraq aşağıdakı hər hansı bir formada* bağlanır:

899.1.1. tərəflərin müvafiq sığorta qaydaları əsasında sığorta müqaviləsi adlanan sənədi tərtib edərək qarşılıqlı imzalaması yolu ilə;

899.1.2. müvafiq sığorta qaydaları ilə sığortalının razı olmasını təsdiq etməsi şərti ilə sığortaçı tərəfindən ona sığorta şəhadətnaməsinin verilməsi yolu ilə;

899.1.3. icbari sığorta *qanunlarında* nəzərdə tutulmuş digər qaydada.

899.1-1. Bu Məcəllənin 899.1-ci maddəsində nəzərdə tutulmuş sığorta müqaviləsinin formaları elektron sənəd formasında da bağlana bilər.[582]

899.2. Bu Məcəllənin 899.1.2-ci maddəsində nəzərdə tutulmuş halda sığorta şəhadətnaməsində sığorta predmetinin sığortalandığı risklər konkret olaraq sadalanmalıdır.

899.3. Bu Məcəllənin 899.1-ci və 899.2-ci maddələrinə əməl edilməməsinə görə sığortaçı məsuliyyət daşıyır.

Maddə 900. Sığorta müqaviləsinin məzmunu

900.1 Bu Məcəllənin 899.1.1.-ci maddəsində nəzərdə tutulmuş halda sığorta müqaviləsində aşağıdakılar göstərilməlidir:

900.1.1. sığortaçının adı və ünvanı;

900.1.2. sığortalının adı (fiziki şəxs olduqda, həmçinin soyadı, ~~və~~ atasının adı, *fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i*) və ünvanı;[583]

900.1.3. sığorta predmeti və yerləşdiyi ünvan, həmçinin sığorta olunan(lar)ın adı (fiziki şəxs olduqda, həmçinin soyadı, atasının adı, doğum tarixi, *fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i*) və ünvanı;[584]

900.1.4. faydalanan şəxsin adı (fiziki şəxs olduqda həmçinin soyadı, atasının adı, ~~və~~ doğum tarixi, *fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i*) və ünvanı;[585]

900.1.5. sığorta məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə, yaxud hər bir sığorta olunana münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı;

900.1.6. sığorta haqqının ümumi və hər bir sığorta predmeti üzrə məbləği və ödənilməsi qaydası;

900.1.7. sığorta müqaviləsinin qüvvədə olduğu müddət və ərazi;

900.1.8. sığorta müqaviləsinə əlavələr və dəyişikliklər edilməsi, həmçinin ona xitam verilməsi qaydası;

900.1.9. sığorta müqaviləsi üzrə təminat verilən sığorta riskləri, eyni zamanda əgər bu barədə razılaşdırılıbsa, müvafiq sığorta qaydalarında nəzərdə tutulmuş əlavə sığorta təminatları;

900.1.10. sığorta ödənişinin verilməsi qaydası və əsasları;

900.1.11. sığorta ödənişinin verilməsindən imtinanın əsasları;

900.1.12. sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti;

900.1.13. mübahisələrin həlli qaydası;

900.1.14. sığorta müqaviləsinin tərəflərinin qarşılıqlı razılaşması əsasında müəyyən edilən ~~, qanunvericiliyə zidd olmayan~~ digər şərtlər;

900.1.15. sığorta müqaviləsinin tərəflərinin imzaları, hüquqi şəxs olduqda həmçinin möhürləri.

900.2 İcbari sığorta müqaviləsinin bağlanması qaydası icbari sığorta *qanunları* ilə müəyyən edilir.

Maddə 901. Sığorta şəhadətnaməsi

901.1. *"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda* başqa cür nəzərdə tutulan hallar istisna olmaqla, sığortaçı sığortalıya sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən sənəd - sığorta şəhadətnaməsi verməlidir. Bu tələb sığorta müqaviləsinin bu Məcəllənin 899.1.1-ci maddəsində nəzərdə tutulmuş qaydada bağlandığı hala da şamil edilir.

901.2. Müqavilə üzrə sığorta olunan eyni zamanda sığortalı olmadıqda, sığorta şəhadətnaməsi sığortalının yazılı tələbi ilə sığorta olunana da verilə bilər.

901.3. Əgər *"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda* və sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta şəhadətnaməsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənildiyi gün, qrup halında sığorta zamanı isə sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən 3 iş günü müddətində verilməlidir.

901.4. Sığorta şəhadətnaməsi itdikdə və ya məhv olduqda sığortalı və ya sığorta olunan onun dublikatını sığortaçıdan tələb edə bilər.

901.5. Bu Məcəllənin 901.4-cü maddəsində nəzərdə tutulmuş tələbin yazılı şəkildə daxil olduğu tarixdən etibarən 3 iş günü müddətində sığortaçı sığortalını və ya sığorta olunanı müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, öz hesabına müvafiq sığorta şəhadətnaməsinin dublikatı ilə təmin etməlidir.

Maddə 902. Sığorta şəhadətnaməsinin məzmunu

902.1. Sığorta şəhadətnaməsində aşağıdakılar göstərilməlidir:

902.1.1. sığortaçının adı və ünvanı;

902.1.2. sığortalının adı (fiziki şəxs olduqda, həmçinin soyadı, ~~və~~ atasının adı, *fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i*) və ünvanı;[586]

902.1.3. sığorta predmeti və onun olduğu yer, yaxud sığorta olunanın adı (fiziki şəxs olduqda həmçinin soyadı, atasının adı, doğum tarixi, *fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i*) və ünvanı;[587]

902.1.4. sığorta riskləri;

902.1.5. sığorta məbləği;

902.1.6. sığorta haqqının məbləği, onun verilməsi qaydası və müddəti;

902.1.7. sığorta müqaviləsinin qüvvədə olduğu müddət və ərazi;

902.1.8. sığorta müqaviləsinin aid olduğu digər şəxslər (faydalanan şəxs, sığorta agenti və sığorta brokeri) varsa, onların adı (fiziki şəxs olduqda həmçinin soyadı, ~~və~~ atasının adı, *fərdi identifikasiya nömrəsi, hüquqi şəxs olduqda həmçinin VÖEN-i*) və ünvanı;[588]

902.1.9. sığortaçının sığorta şəhadətnaməsini, sığortalının isə müvafiq sığorta qaydaları ilə tanış olmasını təsdiq edən imzaları və (və ya) möhürləri.

902.2. Sığorta şəhadətnaməsində sığortalının və ya sığorta olunanın sığorta müqaviləsi üzrə hüquqlarının pozulmasını hesab etdiyi hallarda *Azərbaycan Respublikasının Mərkəzi Banka* şikayətlə müraciət etməsi üçün həmin orqanın adı, ünvanı və telefon nömrəsi aydın şəkildə göstərilməlidir.[589]

Maddə 903. Sığorta haqqı

903.1. Sığorta haqqı risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir.

903.2. Sığorta haqqının miqdarı və ya onun hesablanması və ödənilməsi qaydası könüllü sığortada sığorta müqaviləsi ilə, icbari sığortada isə icbari sığorta *qanunları* ilə müəyyən edilir.

903.3. *"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda* başqa hal nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsində sığorta haqqının hissə-hissə ödənilməsi razılaşdırıla bilər.

903.4. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsindən sonra qüvvəyə minir.

903.5. Sığorta haqqı və ya onun hissəsi vaxtında ödənilmədikdə sığortaçı onun ödənilməsi üçün bu Məcəllənin 903.6-cı maddəsinin tələbini nəzərə alaraq yazılı surətdə 15 günədək müddət müəyyən edə bilər.

903.6. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 aydan gec olmayaraq ödənilməlidir.

903.7. Elektron sənəd formasında olan sığorta müqaviləsi üzrə sığorta haqqının ödənilməsi sığortalının müvafiq sığorta qaydaları və sığorta müqaviləsinin şərtləri ilə tanış olmasını, həmin qaydalar və şərtlərlə razılığını, həmçinin sığorta müqaviləsinin bağlanması faktını təsdiqləyir.

Maddə 904. Sığorta məbləği

904.1. Sığorta məbləği sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin son həddidir.

904.2. Sığorta məbləği *icbari sığorta üzrə icbari sığorta qanunları ilə, könüllü sığorta üzrə* sığorta müqaviləsi ilə müəyyənləşdirilir.

Maddə 905. Sığortalanan əmlakın dəyərinin mübahisə predmeti olması

Sığortalanan əmlak barəsində sığortaçıya sığortalı tərəfindən qəsdən yanlış məlumat verilməsinin sübut edildiyi hallar istisna olmaqla, tərəflər əmlakın sığorta müqaviləsində müəyyən edilmiş dəyərini mübahisələndirə bilməzlər.

Maddə 906. Sığorta təminatının müddətinin başlanması və sonu

906.1. İcbari sığorta qanunlarında və ya könüllü sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta haqqının ilk hissəsinin və ya tam ödənilməsi halında, sığorta təminatının müddəti sığorta müqaviləsinin bağlandığı gün saat iyirmi dörddən başlanır və icbari sığorta qanunlarında nəzərdə tutulmuş hallar istisna olmaqla, sığorta müqaviləsinə əsasən həmin müqavilənin qüvvədə olduğu sonuncu gün saat iyirmi dörddə başa çatır.

906.2. Bu Məcəllənin 919.1.1–919.1.8-ci maddələrində nəzərdə tutulmuş hər hansı hal baş verdikdə, həmin halın baş verdiyi andan, bu Məcəllənin 919.1.9-cu maddəsində nəzərdə tutulmuş halda isə bu Məcəllənin 920.2-ci maddəsi ilə müəyyən edilmiş müvafiq müddətin sonuncu gününün bitməsi anından sığorta müqaviləsi üzrə sığorta təminatı başa çatmış hesab edilir.

Maddə 907. İcbari sığorta müqaviləsinin məcburiliyi

907.1. *İcbari sığorta qanunları* ilə üzərinə icbari qaydada sığorta etdirmək vəzifəsi qoyulan şəxs müvafiq icbari sığorta növünü aparmağa icazəsi olan sığortaçını sərbəst seçmək hüququndan istifadə etməklə müvafiq icbari sığorta müqaviləsini bağlamağa borcludur.

907.2. İcbari sığorta növünü aparmağa icazəsi olan sığortaçı müvafiq riskləri sığorta etdirmək üçün müraciət edən və sığorta marağı olan şəxslə icbari sığorta müqaviləsi bağlamaqdan imtina edə bilməz.

907.3. Sığortalı qismində sığorta etdirməli olan şəxsin, eləcə də sığortaçı qismində sığortalamağa borclu olan sığortaçının müvafiq icbari sığorta müqaviləsini bağlamaması *Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində* nəzərdə tutulmuş məsuliyyətə səbəb olur.

Maddə 908. Sığorta müqaviləsinin etibarsızlığı

908.1. Əqdlərin etibarsızlığının bu Məcəllə ilə nəzərdə tutulmuş ümumi əsasları ilə yanaşı, sığorta müqaviləsi aşağıdakı hallarda bağlandığı andan etibarsız sayılır:

908.1.1. sığorta obyekti məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə *(qərarına)* əsasən müsadirə edilməli əmlakla bağlı olduqda;[590]

908.1.2. sığorta müqaviləsi sığortaçının və ya sığortalının adından müqavilə bağlamağa ixtiyarı olmayan şəxslərlə bağlandıqda;

908.1.3. sığorta müqaviləsi bağlandığı anda sığorta predmeti mövcud olmadıqda;

908.1.4. sığorta obyekti sığortalının qeyri-qanuni mənafeləri ilə, həmçinin sığortalanması ~~qanunvericiliklə~~ qadağan olunmuş mənafeləri ilə bağlı olduqda;

908.1.5. əmlak bir və ya bir neçə sığorta müqaviləsi ilə həqiqi dəyərindən artıq məbləğə sığortalandıqda sığorta məbləğinin sığorta dəyərindən artıq olan hissəsində;

908.1.6. sığorta qaydalarında nəzərdə tutulmayan və sığortalının vəziyyətini pisləşdirən əlavə şərtlər sığorta müqaviləsinə daxil edildikdə həmin şərtlərə münasibətdə;

908.1.7. sığorta fəaliyyəti ilə məşğul olmaq hüququ olmayan və ya müvafiq sığorta növünü aparmağa icazəsi olmayan şəxs sığortaçı qismində müvafiq sığorta müqaviləsini bağladıqda (bu halda ödənilmiş sığorta haqları tam həcmdə sığortalıya qaytarılır);

908.1.8. sığorta marağı mövcud olmadıqda.

908.2. Sığortaçı sığorta müqaviləsinin bağlanmasının bu Məcəllənin 899.1-ci maddəsində nəzərdə tutulmuş qaydalarına əməl olunmamasına görə öz vəzifələrinin yerinə yetirilməsindən imtina etmək üçün sığorta müqaviləsinin etibarsız olmasını iddia edə bilməz.

Maddə 909. Faydalanan şəxsin təyin edilməsi

909.1. Sığortalı sığorta müqaviləsi bağlayarkən istənilən şəxsi (şəxsləri) faydalanan şəxs kimi təyin etmək, habelə sığorta hadisəsi baş verənədək onu dəyişdirmək hüququna malikdir. Girov və lizinq münasibətlərinin şərti kimi tətbiq edilən sığorta müqavilələri üzrə faydalanan şəxs (şəxslər) müvafiq olaraq girov saxlayanın və ya lizinq verənin razılığı ilə təyin edilə və ya dəyişdirilə bilər.

* (909.1-ci maddənin ikinci cümləsinə Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli **413-VIIQD** nömrəli Qanunu ilə edilmiş dəyişiklik 2026-cı il dekabr 25-dən qüvvəyə minir.)

909.2. Girov qoyulan əmlakın sığortası müqaviləsində girov saxlayan yalnız sığorta ödənişinin verilməsi anında borclunun (girov qoyanın) ona olan borc məbləği həddində ödəniş almaq hüququna malik olan faydalanan şəxs kimi tanına bilər. Zərərin borc məbləğindən artıq olan hissəsinə münasibətdə girov qoyan (borclu) faydalanan şəxs qismində tanınmalıdır.

909.3. Öz həyatını sığorta etdirən fiziki şəxs müvafiq sığorta müqaviləsində istənilən şəxsi *(şəxsləri)* faydalanan şəxs qismində təyin edə bilər.

Maddə 910. Şəxsi sığorta müqavilələrində sığorta olunanın yazılı razılığı

Şəxsi sığortada sığortalı həm də sığorta olunan olmadıqda sığorta müqaviləsinin bağlanmasına sığorta olunanın (və ya onun qanuni nümayəndəsinin) müqavilənin onun xeyrinə bağlanması təklifi ilə yazılı qaydada tanış edilməsi şərti ilə yol verilir.

Maddə 911. Sığorta müqaviləsinin bağlanması zamanı məlumat vermək vəzifəsi

911.1. Sığorta müqaviləsi bağlanarkən sığortalı sığortaçının müstəqil auditor tərəfindən təsdiqlənmiş illik balansı və fəaliyyətinin illik yekunlarına dair maliyyə nəticələri ilə tanış olmaq hüququna malikdir.

911.2. Sığorta müqaviləsi bağlanarkən sığortalı özünə məlum olan, *habelə sığortaçının yazılı surətdə tələb etdiyi və* müqavilədən imtina etmək, yaxud onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən bütün hallar barədə sığortaçıya məlumat verməlidir.

911.3. Eyni sığorta marağı ilə bağlı bir neçə sığortaçı ilə sığorta müqaviləsi bağlayan sığortalı bu barədə sığortaçılardan hər birinə məlumat verməlidir. Həmin məlumatda digər sığortaçının adı və müvafiq sığorta məbləği göstərilməlidir. Tələb edildikdə bu məlumatları təsdiq edən müvafiq sənədlər təqdim olunmalıdır.

Maddə 912. Sığorta riskinin artması barədə məlumat vermək vəzifəsi

912.1. Sığortalı bu Məcəllənin 911.2-ci maddəsinə uyğun olaraq bildirilmiş hallarla bağlı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan bütün dəyişikliklər barədə sığortaçıya və ya sığortaçının adından çıxış edən sığorta vasitəçisinə məlumat verməlidir.

912.2. Girov və lizinq münasibətlərinin şərti kimi tətbiq edilən sığorta müqavilələri üzrə bu Məcəllənin 911.2-ci maddəsinə uyğun olaraq bildirilmiş hallarla bağlı sonradan meydana çıxan dəyişikliklər barədə sığortaçıya və ya sığortaçının adından çıxış edən sığorta vasitəçisinə məlumat vermək həmin dəyişikliklərdən xəbərdar olan girovsaxlayan və ya lizinqverənin vəzifəsidir.

* (912.2-ci maddəyə Azərbaycan Respublikasının 2026-cı il 26 may tarixli **413-VIIQD** nömrəli Qanunu ilə edilmiş dəyişiklik 2026-cı il dekabr 25-dən qüvvəyə minir.)

912.3. Sığortaçının adından çıxış edən sığorta vasitəçisinin bu Məcəllənin 911.2-ci maddəsinə uyğun olaraq bildirilmiş hallarla bağlı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan hər hansı dəyişiklik barədə məlumatlandırılması sığortaçının məlumatlandırılması hesab edilir.

Maddə 913. Sığorta müqaviləsinin şərtləri ilə tanış etmək vəzifəsi

Sığorta müqaviləsi bağlanarkən sığortaçı, sığorta brokeri və ya sığorta agenti sığortalını icbari sığortanın şərtləri ilə, yaxud könüllü sığorta müqaviləsinin əsaslandığı sığorta qaydaları ilə tanış etməlidir. *Bu zaman sığortalıya sığorta hadisəsi hesab edilə bilən halın baş verdiyi zaman necə hərəkət etməyi, sığortaçının sığorta ödənişindən imtina etməsinin qanuni əsaslarını əks etdirən, hamı tərəfindən asanlıqla başa düşülən üslubda tərtib edilmiş yaddaş vərəqi verməlidir.*

Maddə 914. Sığorta riskinin qiymətləndirilməsi

914.1. Əmlak sığortası müqaviləsi bağlayarkən sığortaçı sığortalanan predmetə baxış keçirmək, fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla onu qiymətləndirmək, lazım gəldikdə isə onun həqiqi dəyərini müəyyən etmək məqsədilə

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.10-cu maddəsinin tələblərini nəzərə almaqla müstəqil ekspert təyin etmək hüququna malikdir.

914.2. Sığortaçı sığortalanan əmlakı, həmçinin sığorta risklərini bilavasitə özü və ya *"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.10-cu maddəsinin* tələblərini nəzərə almaqla təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs, yaxud müstəqil ekspert vasitəsilə qiymətləndirir.

914.3. Şəxsi sığorta müqaviləsi bağlandıqda sığortaçı sığorta olunan şəxsin səhhətinin mövcud vəziyyətini qiymətləndirmək məqsədilə onun sığorta müqaviləsinin şərtlərindən asılı olaraq öz hesabına və ya sığortalının hesabına müayinə olunmasını tələb edə bilər.

914.4. Sığorta riskinin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

Maddə 915. Sığorta qaydaları

Sığortaçının təklif etdiyi könüllü sığorta növünün aparılmasının əsaslandığı, həmin sığorta növü üzrə qayda və şərtlərin məcmusu olan sığorta qaydaları bu Məcəllənin və "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, sığortaçının özü tərəfindən və ya "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 16.5-ci və 16.6-cı maddələrində nəzərdə tutulmuş digər qaydada müəyyən edilir. [591]

Maddə 916. Sığorta qaydalarının məzmunu

916.1. Sığorta qaydalarında aşağıdakılar müəyyən edilməlidir:

916.1.1. müvafiq sığorta növünün aid olduğu və ya bu növdə birləşdirilmiş sığorta sinifləri;

916.1.2. sığorta predmetlərinin – sığorta olunanların, sığortalanan əşyaların və ya halların konkret kateqoriyası;

916.1.3. sığorta məbləğlərinin müəyyən edilməsi qaydası;

916.1.4. sığorta riskləri;

916.1.5. sığorta risklərindən istisnalar və (və ya) sığorta təminatında məhdudiyyətlər;

916.1.6. sığorta müqaviləsinin bağlanması, həmçinin ona əlavələr və dəyişikliklər edilməsi və xitam verilməsi qaydası;

916.1.7. tərəflərin hüquqları və vəzifələri;

916.1.8. sığorta hadisəsi baş verdikdə sığortalının vəzifələri;

916.1.9. sığorta ödənişinin həyata keçirilməsi qaydası və şərtləri, sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlərin konkret siyahısı;

916.1.10. sığorta ödənişinin verilməsindən imtinanın əsasları;

916.1.11. sığorta ödənişinin verilməsi, yaxud sığorta ödənişini verməkdən imtina olunması haqqında qərarın qəbul edilməsi müddəti;

916.1.12. sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməməsinə və ya lazımi qaydada yerinə yetirilməməsinə görə tərəflərin məsuliyyəti;

916.1.13. mübahisələrin həlli qaydası;

916.1.14. sığorta tarifləri və onların iqtisadi əsaslandırılması.

916.1-1. Bu Məcəllənin 916.1-ci maddəsində nəzərdə tutulmuş məsələlərdən əlavə olaraq aqrar sığortaya aid sığorta qaydalarında "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş digər məsələlər də müəyyən edilir.[592]

916.2. Bu Məcəllənin 916.1.5-ci maddəsində nəzərdə tutulmuş istisnalar və məhdudiyyətlər sığorta müqaviləsində razılaşdırılmaqla sığorta təminatına daxil edilə bilər.

Maddə 917. Həyat sığortası müqavilələrinə dair əlavə tələblər

917.1. Sığorta olunanın sığortaçının mənfəətində iştirak etməsi şərti ilə bağlanan həyat sığortası müqaviləsində mənfəətin bölüşdürülməsi qaydası göstərilməlidir.

917.2. Sığortalının həyat sığortası müqaviləsinin bağlanması zamanı özünün məlumat vermək vəzifəsini icra etməməsi müqavilənin bağlandığı vaxtdan 5 il müddət keçdikdən sonra sığortaçının müqavilə üzrə vəzifələrinin icrasından imtina etməsi üçün əsas ola bilməz. Bu halda sığortalı məlumat vermək vəzifəsini qəsdən icra etməmişdirsə, müqavilədən imtinaya yol verilir.

Maddə 918. Vahid sığorta müqaviləsi tərtib etməklə sığorta müqaviləsinin bağlanması

918.1. Sığortalı ilə sığortaçı arasındakı razılaşmaya görə davamlı olaraq eynicinsli əmlakın (malların, yüklərin və s.) müxtəlif hissələrinin oxşar şərtlərlə ayrı-ayrı dövrlər üzrə sığorta olunması vahid sığorta müqaviləsi tərtib edilməklə bir sığorta müqaviləsi əsasında həyata keçirilə bilər.

918.2. Sığortalı bu Məcəllənin 918.1-ci maddəsində göstərilən əmlakın hər bir hissəsi haqqında sığorta müqaviləsində razılaşdırılmış məlumatları vaxtında, belə məlumatların təqdim edilmə vaxtı müqavilədə nəzərdə tutulmadıqda isə həmin məlumatları əldə etdikdən dərhal sonra sığortaçıya çatdırmalıdır. Məlumatlar əldə edildiyi zaman zərərlərin əvəzinin sığortaçı tərəfindən ödənilməyəcəyi məlum olduqda belə, sığortalı bu maddədə nəzərdə tutulmuş vəzifənin yerinə yetirilməsindən azad edilmir.

918.3. Sığortalı tələb etdikdə sığortaçı bu Məcəllənin 918.1-ci maddəsində nəzərdə tutulan müqavilənin aid olduğu əmlakın ayrı-ayrı hissələri üzrə sığorta şəhadətnaməsi verməlidir.

Maddə 919. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi

919.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

919.1.1. sığorta predmeti artıq mövcud olmadıqda;

919.1.2. aşağıdakı hallar istisna olmaqla, sığortalı fiziki şəxs öldükdə və ya sığortalı hüquqi şəxs ləğv olunduqda:

919.1.2.1. əmlak sığortası müqaviləsini bağlamış sığortalı sığorta müqaviləsi bağlayarkən sığortalanmış əmlakı qəbul edəcək hər hansı şəxsi təyin etmiş olduğu,

habelə sığorta hadisəsi baş verənədək sığortaçının razılığı ilə onu dəyişdirmiş olduğu hallarda sığortalı fiziki şəxs vəfat edərsə, onun həmin müqavilə üzrə hüquq və vəzifələri *bu Məcəllə ilə* müəyyən olunmuş vərəsəlik qaydasında sığortalanmış əmlakı qəbul edən şəxsə keçir;

919.1.2.2. *icbari sığorta qanunlarında* və ya müqavilədə başqa şərtlər müəyyən edilməmişdirsə, sığortalının hüquq və vəzifələri sığorta predmeti olan miras əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə həm onun özünün, həm də sığortaçının müqavilədə rəsmiləşdirilən razılığı ilə keçir;

919.1.2.3. başqa şəxsin xeyrinə həyat sığortası müqaviləsi bağlamış sığortalı vəfat etdikdə onun hüquq və vəzifələri xeyrinə sığorta müqaviləsi bağlanmış şəxsə təqdim edildikdən sonra ona özünün yazılı razılığı ilə keçir;

919.1.2.4. sığortalı olan hüquqi şəxs sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə yenidən təşkil edildikdə onun həmin müqavilə üzrə hüquq və vəzifələri ~~qanunvericiliyə uyğun olaraq~~ müvafiq hüquq varisinə keçir.

919.1.3. Sığorta müqaviləsi üzrə sığortalı olmayan sığorta olunan vəfat etdikdə sığortalının onun başqası ilə əvəz olunması təklifinə sığortaçı etiraz etdikdə;

919.1.4. *"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda*, yaxud sığorta müqaviləsində digər hal nəzərdə tutulmamışdırsa, sığortalanmış əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etdikdə; əmlak özgəninkiləşdirilərkən sığortaçı sığortalının hüquq və vəzifələrinin əmlakın yeni mülkiyyətçisinə, sahibinə və ya istifadəçisinə keçməsinə etiraz etmədikdə əlavə sığorta haqqı ödənilmədən sığorta müqaviləsi üzrə sığortalı *dəyişdirilir*;

919.1.5. sığorta hadisəsinin baş verməsi ehtimalı olmadıqda və sığorta riskinin mövcudluğu, səbəbi sığorta hadisəsi olmayan hallara görə başa çatdıqda;

919.1.6. sığortaçı sığortalı qarşısında öz öhdəliklərini *tam olaraq* yerinə yetirdikdə;

919.1.7. sığortalı sığorta haqqını *icbari sığorta qanunlarında və ya* sığorta müqaviləsində müəyyən edilən qaydada ödəmədikdə;

919.1.8. sığorta marağı artıq mövcud olmadıqda;

919.1.9. sığortalı və ya sığortaçı sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi tələbi ilə çıxış etdikdə.

919.2. Sığorta müqaviləsinin qüvvədə olduğu dövrdə sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa, mülki məsuliyyət sığortası üzrə müqavilə məhkəmənin müvafiq qərarının qüvvəyə mindiyi andan xitam verilmiş hesab edilir, digər hallarda isə belə sığortalının hüquq və vəzifələrini onun qəyyumu və ya himayəçisi həyata keçirir.

Maddə 920. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermə ilə bağlı xəbərdar etmə

920.1. Bu Məcəllənin 919-cu maddəsində göstərilən hallarda sığorta müqaviləsinə xitam verilməsi üçün əsas olan şərait yarandıqda *bu Məcəllənin 920.2-ci maddəsi nəzərə*

alınmaqla müqaviləyə xitam verilməsində maraqlı olan tərəf dərhal digər tərəfi bu barədə xəbərdar etməlidir.

920.2. *Sığorta müqaviləsinə bu Məcəllənin 919.1.9-cu maddəsinə uyğun olaraq* sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilərkən bu barədə bir tərəf digərinə ən azı 30 gün əvvəl (sığorta müqaviləsi beş ildən çox müddətə bağlanmış olduqda 60 gün, 3 aydan az müddətə bağlanmış olduqda isə 5 iş günü əvvəl) tələbini əsaslandırdığı yazılı bildiriş göndərməlidir.

Maddə 921. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri

921.1. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı həmin müqavilə üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxmaqla həmin müddət üçün sığorta haqlarını ona qaytarır. Sığortalının sığorta müqaviləsinə xitam verilməsi ilə bağlı tələbi sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır.

921.2. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı ~~həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla~~ müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarını) qaytarır. *Bu halda sığortaçı sığorta müqaviləsi üzrə (qrup halında sığorta zamanı isə müqavilənin hər hansı sığorta predmeti ilə bağlı sığorta haqqına mütənasib olan) sığorta haqqının qaytarılan hissəsindən işlərin aparılması xərclərinin müqavilənin qurtarmamış müddətinə mütənasib hissəsini çıxa bilər.*

921.3. Sığorta müqaviləsinə (qrup halında sığorta zamanı, həm də müqaviləyə hər hansı bir sığorta predmetinə münasibətdə) vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarına) bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqları) sığortalıya qaytarılmır.

921.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək ~~sığortaçı tərəfindən sığortalıya~~ ödənilmiş sığorta haqqından (qrup halında sığorta zamanı, həm də müqavilənin hər hansı bir sığorta predmeti üzrə ödənilmiş sığorta haqlarından) az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta

haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu Məcəllənin 921.1-ci və 921.2-ci maddələrində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

921.5. Sığorta müqaviləsi bu Məcəllənin 919.2-ci maddəsində müəyyən edilmiş məhkəmə qərarı əsasında xitam verilmiş hesab edildikdə sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin (qrup halında sığorta zamanı həm də müqavilənin hər hansı bir sığorta predmetinə münasibətdə) qurtarmamış müddəti üçün sığorta haqlarını, bu Məcəllənin 921.3-cü və 921.4-cü maddələrinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

921.6. "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq sığortaçıya moratorium tətbiq edildikdə, sığorta müqaviləsinə vaxtından əvvəl xitam verilməsi nəticəsində sığortalıya qaytarılmalı olan sığorta haqqının qaytarılması moratorium qüvvədə olduğu müddət ərzində dayandırılır.[593]

§3. Sığorta hadisəsi və sığorta ödənişi

Maddə 922. Sığorta hadisəsi

922.1. Sığorta hadisəsi *icbari sığorta qanunlarına* və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya, sığorta olunana və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan haldır.

922.2. Sığorta hadisəsi hesab edilən hadisələr və hallar icbari sığorta üzrə icbari sığorta *qanunlarında*, könüllü sığorta üzrə isə tərəflərin razılaşması əsasında sığorta müqaviləsində müəyyən edilir.

922.3. Sığorta hadisəsi baş vermə ehtimalına və (və ya) təsadüfilik əlamətlərinə malik olmalıdır.

Maddə 923. Sığorta hadisəsi barədə məlumatlandırma

923.1. Sığorta hadisəsinin baş verməsi barədə sığortalı və ya sığorta olunan şəxs, yaxud faydalanan şəxs hadisədən xəbər tutduqdan dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə, eyni zamanda ~~qanunvericiliyə uyğun olaraq~~ həmin hadisə barədə məlumatlandırılmalı olan səlahiyyətli dövlət orqanlarına hər hansı vasitə ilə xəbər verməlidir. ~~İcbari sığorta qanunvericiliyində və sığorta müqaviləsində sığorta hadisəsi barədə sığortaçıya xəbər vermənin ağlabatan müddəti və (və ya) üsulu nəzərdə tutula bilər.~~

923.2. Sığorta hadisəsinin baş verməsi barədə sığortaçıya məlumat vermiş sığortalı və ya sığorta olunan şəxs, həmçinin faydalanan şəxs bu Məcəllənin 923.1-ci maddəsində nəzərdə tutulmuş səlahiyyətli dövlət orqanlarına həmin hadisə barədə xəbər verməmişdirsə sığortaçı qeyd olunan orqanları bu hadisə barədə dərhal məlumatlandırmalıdır.

923.3. Sığortalı və ya sığorta olunan tərəfindən sığortaçının sığorta hadisəsinin baş verməsi barədə məlumatlandırmasından asılı olmayaraq sığortaçıya bu barədə məlumatlandırılmış səlahiyyətli dövlət orqanı xəbər verməlidir.

923.4. Bu Məcəllənin 923.1-ci maddəsində üzərinə məlumatlandırma vəzifəsi qoyulan şəxslərdən başqa digər şəxslər, o cümlədən səlahiyyətli dövlət orqanları və müvafiq hallarda zərərçəkən tərəfindən də sığorta hadisəsinin baş verməsi haqqında hər hansı vasitə ilə sığortaçıya xəbər verilməsi sığorta hadisəsi barədə məlumatlandırılma hesab edilir.

Maddə 924. Sığorta hadisəsinin təsdiqi

924.1. Sığortaçı (və ya təyin edilmiş müstəqil ekspert, yaxud sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxs) sığorta hadisəsinin baş verməsi faktını təsdiq edən və (və ya) sığorta ödənişinin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədləri və məlumatları bu Məcəllənin 924.2-ci maddəsi nəzərə alınmaqla, sığortalıdan tələb etmək hüququna malikdir.

924.2. Sığorta hadisəsi hesab edilə bilən, ~~qanunvericiliyə uyğun olaraq~~ araşdırılması və ya qeydə alınması tələb olunan hadisələr barədə səlahiyyətli dövlət orqanlarına belə hadisələrin baş verməsi faktını və (və ya) səbəbini, habelə nəticələrini təsdiq edən sənədin alınması üçün yazılı sorğu vermək sığortaçının və ya onun nümayəndəsinin vəzifəsidir.

924.3. Səlahiyyətli dövlət orqanları sığortaçının və ya onun nümayəndəsinin yazılı sorğusuna əsasən, sığorta hadisəsi ilə əlaqədar tələb olunan, yayılması "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə qadağan olunmayan istənilən məlumatı sorğunun daxil olduğu tarixdən etibarən 10 gün müddətində təqdim etməlidirlər.

Maddə 925. Zərərin qiymətləndirilməsi

925.1. Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında *mümkün olan ən qısa müddət ərzində* sığortaçı müəyyən edir.

925.2. Sığortaçı dəymiş zərəri müxtəlif üsullarla, o cümlədən zərər dəymiş predmetin və ya hadisə yerinin fiziki və texniki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, sxem və cizgilər tərtib etməklə, foto və video çəkilişlər aparmaqla, bilavasitə özü və ya *"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.10-cu maddəsinin tələbini* nəzərə almaqla *nümayəndəsi kimi* təyin etdiyi sığorta sahəsində yardımçı fəaliyyət göstərən müvafiq şəxs vasitəsilə qiymətləndirir. *Sığortaçı zərərin qiymətləndirilməsinə dair məlumatları (zərər dəymiş əmlakın hər bir hissəsinin təmir və ya bərpasına tələb olunan konkret xərclərin məbləği) sığortalıya, sığorta olunana və faydalanan şəxsə kağız daşıyıcıda, habelə elektron poçt və ya digər elektron kommunikasiya vasitələri ilə təqdim etməlidir.*[594]

925.2-1. İcbari sığorta növləri üzrə sığorta hadisəsinin baş verməsi nəticəsində dövlət və bələdiyyə əmlakına dəyən zərərin məcburi qiymətləndirilməsi "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçirilir.[595]

~~925.3. Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə zərərin miqdarının qiymətləndirilməsi *"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.10-cu maddəsinin tələbi* nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert tərəfindən aparılır.~~[596]

925.4. Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər, *habelə qiymətləndiricilər (qiymətləndirici təşkilatlar)* bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.[597]

925.5. Əmlak sığortası müqaviləsi üzrə sığortalı, sığorta olunan və ya üçüncü şəxs aşağıdakı hallar istisna olmaqla, zərər dəymiş əmlakı sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə sığortaçıya və ya onun səlahiyyətli nümayəndəsinə təqdim etməlidir:

925.5.1. Zərərin qarşısının alınması və ya həcminin azaldılması, sığorta hadisəsinin nəticələrinin aradan qaldırılması, yaxud digər fəsadlara səbəb olmaması, habelə zərər dəymiş əmlakın sonrakı itkiləri üçün təhlükə ehtimalına səbəb ola bilən nəzarətsiz halda qalmaması, başqa şəxslərin hərəkətinə və ya fəaliyyətinə mane olmaması üçün zəruri tədbirlərin görülməsi, o cümlədən bu məqsədlərlə əmlakın hadisə yerindən kənarlaşdırılması zamanı zərər dəymiş əmlakın hadisədən dərhal sonrakı vəziyyətdə saxlanması mümkün olmadıqda;

925.5.2. sığortaçı sığorta hadisəsi barədə bu Məcəllədə nəzərdə tutulmuş qaydada məlumatlandırıldıqdan 5 gün müddətində onun nümayəndəsi zərər dəymiş əmlaka baxış keçirmədikdə;

925.5.3. digər hallarda zərər dəymiş əmlakın sığorta hadisəsindən dərhal sonrakı vəziyyətdə saxlanmamasına sığortaçının yazılı razılığı olduqda.

925.6. Əmlakın tam məhv olması dedikdə, həmin əmlakın sığorta hadisəsindən əvvəlki vəziyyətə çatdırılması üçün təmiri və ya bərpasına tələb olunan xərclərin sığorta müqaviləsində müəyyən edilmiş həddən çox olması başa düşülür.

Maddə 925-1. Zərərin müstəqil ekspert tərəfindən qiymətləndirilməsi[598]

925-1.1. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 16.2-ci maddəsinə və bu Məcəllənin 925.2-ci maddəsinə uyğun olaraq sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə zərərin miqdarının qiymətləndirilməsi "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 10.10-cu maddəsinin tələbləri nəzərə alınmaqla müstəqil ekspert fəaliyyətini həyata keçirən şəxs tərəfindən aparılır.

925-1.2. Müstəqil ekspert sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin təklif etdiyi üç müstəqil ekspertin sırasından seçilərək 3 (üç) iş günü ərzində sığortaçı tərəfindən təyin edilir.

925-1.3. Sığortaçı bu Məcəllənin 925-1.2-ci maddəsində müəyyən edilmiş müddət ərzində müstəqil eksperti təyin etmədikdə sığortalı, sığorta olunan və ya faydalanan şəxs zərərin qiymətləndirilməsi üçün özünün seçdiyi müstəqil ekspertə müraciət etmək hüququna malikdir.

925-1.4. Müvafiq hallarda sığortalı, sığorta olunan və ya faydalanan şəxs bu Məcəllənin 925-1.2-ci maddəsinə uyğun olaraq zərərin müstəqil ekspert tərəfindən qiymətləndirilməsinin nəticələrini qəbul etmədikdə həmin maddədə nəzərdə tutulmuş qaydada zərərin təkrar qiymətləndirilməsini tələb edə bilər.

925-1.5. Müstəqil ekspert zərərin qiymətləndirilməsinin nəticələrini sığortaçıya, həmçinin müvafiq hallarda sığortalıya, sığorta olunana və ya faydalanan şəxsə təqdim etməlidir.

925-1.6. Zərərin qiymətləndirilməsinə çəkilən xərc aşağıdakı şəxslər tərəfindən ödənilir:

925-1.6.1. müstəqil ekspert bu Məcəllənin 925-1.2-ci və 925-1.3-cü maddələrinə uyğun olaraq təyin edildikdə - sığortaçı;

925-1.6.2. müstəqil ekspert bu Məcəllənin 925-1.4-cü maddəsinə uyğun olaraq təyin edildikdə - təkrar qiymətləndirməni tələb edən şəxs.

Maddə 926. Sığorta ödənişi

926.1. Sığorta ödənişi sığorta hadisəsi baş verdikdə *icbari sığorta qanunlarına və ya* sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır.

926.2. Sığortaçı sığorta ödənişini sığorta məbləği həddində həyata keçirir.

926.3. Sığorta ödənişinin miqdarının müəyyən edilməsi və ödənilməsi qaydası icbari sığortada icbari sığorta *qanunları* ilə, könüllü sığortada ~~müvafiq sığorta qaydalarına əsasən bağlanan~~ sığorta müqaviləsi ilə müəyyən edilir.

926.4. Sığorta hadisəsi nəticəsində bir neçə zərərçəkən müəyyən edildikdə, bu Məcəllənin 927.3-cü maddəsinin tələbi nəzərə alınmaqla, onlardan sığorta tələbi ilə müraciət etmiş hər hansı biri faydalanan şəxs kimi tanınır.

Maddə 927. Əmlak sığortası üzrə sığorta ödənişinə dair əlavə tələblər

927.1. Əmlakın sığortasında və əmlaka vurulan zərərə görə mülki məsuliyyətin sığortasında sığorta ödənişi sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalıya və ya sığorta olunana, habelə zərərçəkən üçüncü şəxsə dəyən real zərərin miqdarından çox ola bilməz.

927.2. Zərərin miqdarı barədə tərəflər arasında razılıq əldə edildikdən sonra əmlak sığortası üzrə sığorta ödənişi sığortaçının seçimi əsasında *bu Məcəllənin 927.4-cü maddəsi nəzərə alınmaqla, aşağıdakı formalardan hər hansı birində həyata keçirilir (ödənilir)*:

927.2.1. zərər məbləğinin pul şəklində faydalanan şəxsə ödənilməsi;

927.2.2. sığorta hadisəsi nəticəsində dəyən zərərin aradan qaldırılması üçün sığortalıya (sığorta olunana və ya faydalanan şəxsə) göstərilən xidmətlərin və ya satılan əşyaların dəyərinin xidmət göstərənə və ya satıcıya ödənilməsi;

927.2.3. sığorta predmeti olan, yaxud zərərçəkmiş üçüncü şəxsə məxsus əmlakın təmiri və ya bərpası;

927.2.4. sığorta müqaviləsində nəzərdə tutularsa, həmin müqavilədə müəyyən edilən şərtlər əsasında sığorta predmeti olan əmlakın dəyişdirilməsi.

927.3. *Bu Məcəllənin 927.5-ci maddəsində nəzərdə tutulmuş hal istisna olmaqla, girov* qoyulan əmlakın sığortası üzrə sığorta hadisəsi baş verdiyi tarixdə faydalanan şəxs olan

girov saxlayana borclunun (girov qoyanın) borc (kredit) müqaviləsi üzrə sığorta ödənişinin verildiyi tarixə ona ödəməli olduğu məbləğdən artıq sığorta ödənişi verilə bilməz.

927.4. Əgər əmlak sığortası üzrə faydalanan şəxs sığorta hadisəsinin baş verdiyi zaman əmlakın etibarnaməli idarəçisi olmuşdursa, sığorta ödənişinin bu Məcəllənin 927.2.3-cü və 927.2.4-cü maddələrində nəzərdə tutulmuş formaları tətbiq edilir. Sığorta ödənişinin bu Məcəllənin 927.2.1-ci və 927.2.2-ci maddələrində nəzərdə tutulmuş formaları əmlakın etibarnaməli idarəçisi olan faydalanan şəxs tərəfindən zərərin aradan qaldırılmasının nəticələri sığortaçıya təqdim olunduğu halda tətbiq edilir.

927.5. Girov qoyulan əmlakın tam məhv olması ilə nəticələnən sığorta hadisəsi baş verdikdə, sığorta müqaviləsində nəzərdə tutulduğu halda faydalanan şəxs olan girov saxlayan borclunun (girov qoyanın) borc (kredit) müqaviləsi üzrə müəyyən edilmiş borcun ödənilməmiş hissəsində sığorta ödənişi almaq hüququ var.

Maddə 928. Şəxsi sığorta üzrə sığorta ödənişi

Şəxsi sığorta üzrə sığorta ödənişi onu almaq hüququ olan şəxsə sosial sığorta, həmçinin icbari və ya könüllü sığortalar üzrə nəzərdə tutulan ödənişlərdən asılı olmayaraq *icbari sığorta qanunlarında* və ya sığorta müqaviləsində müəyyən olunmuş qaydada ödənilməlidir.

Maddə 929. Sığorta ödənişindən sığorta haqqının tutulması

Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

Maddə 930. Sığorta məbləğinin sığorta ödənişinə uyğun olaraq azalması

930.1. İcbari sığorta qanunlarında və ya sığorta müqaviləsində başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur, lakin sığorta müqaviləsi üzrə təminat qismən sığorta təminatı sayılmır. İcbari sığorta qanunlarında başqa hal nəzərdə tutulmamışdırsa, bu zaman sığorta müqaviləsinə sığorta məbləğinin azalması ilə bağlı dəyişiklik etmək vacib deyil.

930.2. Bu Məcəllənin 930.1-ci maddəsində nəzərdə tutulmuş halda sığorta məbləğinin azalmış hissəsinə uyğun olaraq, əlavə sığorta haqqı ödənilməklə sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği bərpa edilə bilər.

Maddə 931. İcbari sığorta ödənişinin üstünlüyü

Bir sığorta hadisəsi üzrə dəyən zərərin və (və ya) yaranan itkilərin əvəzinin ödənilməsi üçün iki və ya daha çox sığorta müqaviləsi ilə bir və ya bir neçə sığortaçının öhdəlikləri yarandıqda əvvəlcə icbari sığorta müqavilələri üzrə sığorta ödənişləri

verilməlidir. Bu zaman könüllü sığorta müqaviləsi bağlamış sığortaçı sığortalı (sığorta olunan və ya faydalanan şəxs) qarşısındakı öhdəliklərini öz istəyi ilə icbari sığorta müqaviləsi bağlamış sığortaçıdan əvvəl yerinə yetirə bilər.

~~**Maddə 932. Sığorta ödənişi barədə qərarın təxirə salınması**~~[599]

~~Sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı mülki məsuliyyətin sığortası üzrə üçüncü şəxs barəsində, digər hallarda isə sığortalı və ya sığorta olunan barəsində həmin hadisənin baş verməsi ilə əlaqədar inzibati xəta üzrə iş və ya cinayət işi başlanarsa, sığortaçı müvafiq sığorta ödənişinin verilib-verilməməsi barədə qərarını səlahiyyətli orqanın bu iş üzrə yekun qərarından sonra qəbul edir.~~

Maddə 933. Sığorta ödənişinin verilməsinin əsasları

933.1. Sığorta ödənişi *aşağıdakılardan hər birinin mövcud olduğu halda* həyata keçirilir:[600]

933.1.1. sığorta hadisəsi baş verdikdə, sığortalının, sığorta olunanın və ya faydalanan şəxsin ~~sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə~~ sığortaçıya ünvanladığı sığorta tələbi;[601]

933.1.2. sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı ~~qanunvericiliyə uyğun olaraq,~~ hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;[602]

933.1.3. *icbari sığorta qanunlarında* və müvafiq sığorta qaydalarında nəzərdə tutulan, sığorta ödənişinin verilməsi üçün tələb olunan digər sənədlər.[603]

933.2. Bu Məcəllənin 933.1.1-ci maddəsi tibbi sığorta sinfi üzrə sığorta hadisələrinə şamil edilmir.

933.3. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş hallarda bu Məcəllənin 933.1.2-ci maddəsində nəzərdə tutulmuş sənəd tələb edilmir. Sağlamlığa zərər dəyməsi faktının mövcud olduğu hallar istisna olmaqla, könüllü sığorta müqaviləsi üzrə sığorta hadisəsi nəticəsində dəymiş zərərin həcmi bu məqsədlə müvafiq sığorta qaydalarında müəyyən edilmiş həddən az olduqda, həmçinin sığorta hadisəsinin baş vermə səbəbləri və təfərrüatlarının təhrif edilməsi barədə sığortaçıda hər hansı əsaslandırılmış şübhə olmadıqda, sığorta ödənişinin həyata keçirilməsi üçün bu Məcəllənin 933.1.2-ci maddəsində nəzərdə tutulmuş sənəd tələb edilməyə bilər.[604]

Maddə 934. Sığorta ödənişinin verilməsi[605]

934.1. Bu Məcəllənin 933.1-ci maddəsində nəzərdə tutulan sənədlərdən sonuncusunun (bu Məcəllənin 933.3-cü maddəsi nəzərə alınmaqla) sığortaçıya daxil olduğu tarixdən 7 iş günündən gec olmayaraq sığortaçı sığorta ödənişini verməli, yaxud sığortalıya, sığorta olunana və ya faydalanan şəxsə sığorta ödənişinin verilməsindən imtina haqqında yazılı şəkildə əsaslandırılmış bildiriş təqdim etməlidir.

934.2. Sığortaçı sığorta ödənişini icbari sığorta qanunları və ya sığorta müqaviləsi ilə müəyyən olunmuş müddətdə ödəmədikdə, hər gecikdirilmiş gün üçün sığorta ödənişi məbləğinin 0,1 faizi həcmində dəbbə pulu ödəyir.

Maddə 935. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları

935.1. *"İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda başqa cür nəzərdə tutulmamışdırsa, sığortaçı* sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:

935.1.1. bu Məcəllənin 923.1-ci maddəsinin tələblərinə əməl edilməməsi nəticəsində sığortaçının hadisənin sığorta hadisəsi olub-olmamasını müəyyənləşdirmək imkanından məhrum olması;

935.1.2. *bu Məcəllədə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində* nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığortalının, müvafiq hallarda zərərçəkənin *müvafiq hadisənin* baş verməsinə yönələn qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi, habelə *hadisə* ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayət törətməsi;

935.1.3. müqavilə və ya *icbari sığorta qanunları ilə* hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;

935.1.4. sığortalının sığortalanmış əmlaka dəyən zərərin qarşısını almaq və ya həcmini azaltmaq üçün lazımi və mümkün tədbirləri görmək iqtidarında olduğu halda, həmin tədbirləri qəsdən görməməsi; bu zaman sığorta ödənişindən o həcmdə imtina edilə bilər ki, sığortalı mümkün tədbirləri görmüş olsaydı, zərərin miqdarı həmin həcmdə azalmış olardı;

935.1.5. zərər dəymiş əmlakın sığortaçıya təqdim edilməsi ilə bağlı bu Məcəllənin 925.5-ci maddəsinə riayət edilməməsinin sığortaçını zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum etməsi;

935.1.6. bu Məcəllənin 935.2-ci maddəsi nəzərə alınmaqla, sığorta predmeti, həmçinin sığorta olunan şəxs və (və ya) sığorta hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;

935.1.7. əmlakın sığortası üzrə sığortalı, sığorta olunan və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir.

935.1.8. baş vermiş hadisənin *icbari sığorta qanunlarına* və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;

935.1.9. sığorta haqqının növbəti hər hansı bir hissəsinin müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 gün sonra, bu Məcəllənin 903.5-ci maddəsində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 gün sonra sığorta hadisəsinin baş verməsi halında sığorta haqqının müvafiq hissəsi ödənilməmiş olduqda;

935.1.10. icbari sığorta qanunlarında nəzərdə tutulmuş digər hallarda.

935.2. Bu Məcəllənin 911.2-ci maddəsində nəzərdə tutulmuş məlumatların yanlışlığı sığorta müqaviləsi bağlanarkən sığortaçıya məlum olduqda və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli olmadıqda, *habelə tələb olunan məlumata sığortalının cavab verməməsinə baxmayaraq sığorta müqaviləsi bağlanmış olduğu halda* sığortaçı sığorta ödənişinin verilməsindən imtina üçün yanlış məlumatın verilməsi *və ya tələb olunan məlumatın verilməməsi* faktına əsaslana bilməz.

935.3. Bu Məcəllənin 935.1.5-ci maddəsində müəyyən edilmiş hallarda sığortaçı zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olduqda belə, aşkar faktlarla sübut olunan həcmdə sığorta ödənişindən imtina edə bilməz.[606]

935.4. Bu Məcəllədə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulmuş məsuliyyəti istisna edən hallardan başqa, sığorta hadisəsi onun baş verməsinə yönələn, sığorta müqaviləsi üzrə sığortalı və (və ya) sığorta olunan hesab edilməyən faydalanan şəxsin qəsdən etdiyi hərəkəti və ya hərəkətsizliyi nəticəsində baş verdikdə, həmin faydalanan şəxs sığorta ödənişini almaq hüququndan məhrum olur.

Maddə 936. Subroqasiya hüququ

936.1. Subroqasiya hüququ bu Məcəllənin 936.6-cı maddəsi nəzərə alınmaqla, sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan ~~üçüncü~~ şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur.[607]

936.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq əmlak sığortası üzrə sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.

936.3. Faydalanan şəxs sığorta ödənişini aldıqda subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.

936.4. Faydalanan şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımi sənədləri sığortaçıya verməkdən imtina etdikdə sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.

936.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin ~~qanunvericiliyə əsasən~~ dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.[608]

936.6. Həyat sığortası siniflərinə və fərdi qəza sığortasına aid olan hallarda subroqasiya hüququ tətbiq edilmir.

§4. Sığorta vasitəçiliyi

Maddə 937. Sığorta münasibətlərində sığorta vasitəçilərinin iştirakı

937.1. Sığorta (təkrarsığorta) müqaviləsi tərəflər arasında həm birbaşa, həm də sığorta vasitəçilərinin - sığorta agentlərinin və ya sığorta brokerlərinin xidmətindən istifadə etməklə bağlana bilər. *Aqrar sığorta müqaviləsi "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş vasitəçi aqrar sığortaçıların xidmətindən istifadə etməklə bağlanır.*[609]

937.2. Sığortaçı aşağıdakı sığorta əməliyyatlarında onun adından çıxış edən sığorta agentinin vasitəçilik xidmətlərindən *tapşırıq müqaviləsi bağlamaqla* istifadə edə bilər:[610]

937.2.1. sığorta müqavilələrinin bağlanması və bununla əlaqədar sövdələşmələrin aparılması;

937.2.2. sığorta müqaviləsinin davam etdirilməsi və ya yenilənməsi ilə bağlı sövdələşmələrin aparılması.

937.2–1. Sığortaçı ilə sığorta agenti arasında bağlanan vasitəçilik xidmətinin göstərilməsi üzrə tapşırıq müqaviləsində aşağıdakılar əks olunmalıdır: [611]

937.2–1.1. tapşırıq müqaviləsinin nömrəsi və tarixi;

937.2–1.2. sığortaçının adı və ünvanı;

937.2–1.3. sığorta agenti fiziki şəxs olduqda onun adı, atasının adı, soyadı, yaşayış yeri, şəxsiyyət vəsiqəsinin seriya və nömrəsi, lisenziyasının seriya və nömrəsi və VÖEN-i;

937.2–1.4. sığorta agenti hüquqi şəxs olduqda onun adı, olduğu yer, lisenziyasının seriya və nömrəsi, VÖEN-i, müstəsna olaraq sığorta agenti fəaliyyəti ilə məşğuldursa, icra orqanının rəhbərinin, əsas fəaliyyəti digər fəaliyyət növüdürsə, icra orqanının rəhbəri ilə yanaşı, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş attestasiyadan keçmiş işçilərinin adı, soyadı və atasının adı;[612]

937.2–1.5. tapşırıq müqaviləsinin predmeti;

937.2–1.6. sığorta agentinin müştərilərə təklif edəcəyi sığorta növlərinin siyahısı;

937.2–1.7. tapşırıq müqaviləsi üzrə sığorta agentinə ödənilməli olan komisyon muzdun məbləği;

937.2–1.8. tərəflərin hüquq və vəzifələri;

937.2–1.9. müqavilə şərtlərini pozmağa görə tərəflərin məsuliyyəti;

937.2–1.10. tapşırıq müqaviləsinin qüvvədə olduğu ərazi;

937.2–1.11. tapşırıq müqaviləsinin qüvvədə olduğu müddət;

937.2–1.12. tərəflərin rekvizitləri.

937.3. Sığorta brokeri sığortalını (təkrarsığortalını) sığortaçı (təkrarsığortaçı) ilə münasibətlərdə təmsil etməklə aşağıdakı sığorta əməliyyatlarında *tapşırıq müqaviləsi əsasında* vasitəçilik edə bilər:[613]

937.3.1. sığorta (təkrarsığorta) müqavilələrinin bağlanması və bununla əlaqədar sövdələşmələrin aparılması;

937.3.2. sığorta (təkrarsığorta) müqavilələrinin davam etdirilməsi və ya yenilənməsi ilə bağlı sövdələşmələrin aparılması;

937.3.3. sığorta (təkrarsığorta) müqavilələrinin həyata keçirilməsi, o cümlədən sığorta (təkrarsığorta) tələbləri və sığorta ödənişləri üzrə sövdələşmələrin aparılması və (və ya) məsləhətlərin verilməsi.

Maddə 938. Sığorta və ya təkrarsığorta müqavilələrinin sığorta vasitəçiliyi ilə bağlanması

938.1. Sığorta müqaviləsi sığorta agenti vasitəsilə bağlandıqda sığorta agenti müqaviləni həmin sığortaçının adından yalnız onun yazılı qaydada verdiyi səlahiyyət əsasında imzalaya bilər.

938.2. Sığorta (təkrarsığorta) müqaviləsi sığorta brokeri vasitəsilə bağlandıqda müqavilə sığortaçı və sığortalı tərəfindən və ya sığortalının (təkrarsığortalının) yazılı qaydada verdiyi səlahiyyət əsasında sığorta brokeri tərəfindən imzalana bilər.

938.3. Sığorta (təkrarsığorta) müqaviləsi sığorta vasitəçiliyi ilə bağlandıqda həmin müqavilədə müvafiq olaraq sığorta agentinin və ya sığorta brokerinin adı, (fiziki şəxsdirsə, həmçinin soyadı) və ünvanı göstərilməlidir.

938.4. Bu Məcəllənin 911.2-ci maddəsinə uyğun olaraq bildirilmiş hallarla bağlı sığorta müqaviləsi bağlandıqdan sonra meydana çıxan hər hansı dəyişiklik barədə məlumatlandırılmış sığorta vasitəçisi həmin məlumatı aldığı tarixdən 1 gün müddətində sığortaçıya çatdırmalıdır.[614]

Maddə 938–1. Sığorta vasitəçisinin sığorta müqaviləsinin bağlanmasından əvvəl sığortalıya açıqlamalı olduğu məlumatlar[615]

938–1.0. Sığorta vasitəçiliyi ilə bağlanan hər bir sığorta müqaviləsinin bağlanmasından, yenilənməsindən və ya ona dəyişikliklər edilməsindən əvvəl sığorta vasitəçisi sığorta etdirən şəxsi ən azı aşağıdakı məlumatlarla təmin etməlidir:

938–1.0.1. özünün adı və yaşayış yeri (hüquqi şəxslər üçün – olduğu yer);

938–1.0.2. daxil edildiyi reyestr və həmin reyestrdən onun barəsində informasiya əldə etməyin üsulları;

938–1.0.3. sığorta müqaviləsinin tərəfi kimi təklif edilən sığortaçı ilə səhmdar, aidiyyəti şəxs və ya asılı cəmiyyət münasibətlərində olub-olmaması; [616]

938–1.0.4. sığorta vasitəçilərindən şikayət vermək hüququ və proseduru, həmçinin şikayətin üsulları və təqdim etmə vasitələri;

938–1.0.5. sığorta vasitəçiliyini bir və ya bir neçə sığortaçı ilə bağladığı tapşırıq müqaviləsi üzrə öhdəlikləri əsasında (həmin sığortaçıların adı, ünvanı, sığorta bazarındakı mövqeyi barəsində obyektiv məlumat verməklə) və ya belə bir müqavilə olmadan həyata keçirməsi;

938–1.0.6. sığorta etdirənin tələbinə və ehtiyacına uyğun olan sığorta növləri əsasında verilən təminatlar.

Maddə 939. Sığorta brokerinin sığorta müqaviləsinin tərəflərini sənədlərlə təmin etməsi

939.1. Sığorta brokeri onun vasitəsilə bağlanan sığorta müqaviləsini tərəflərdən sonuncusunun imzaladığı tarixdən etibarən 3 gün müddətində sığortalını həmin müqavilənin nüsxəsi və (və ya) müvafiq sığorta şəhadətnaməsi ilə, bu mümkün olmadıqda isə müvafiq sığorta müqaviləsinin nüsxəsinin, yaxud sığorta

şəhadətnaməsinin sığortalıya verilməsinədək qüvvədə olan, bu Məcəllənin 940-cı maddəsində nəzərdə tutulmuş təminat şəhadətnaməsi ilə təmin etməlidir.

939.2. Sığorta brokeri onun vasitəsilə bağlanan təkrarsığorta müqaviləsini tərəflərdən sonuncusunun imzaladığı tarixdən etibarən 10 gün müddətində təkrarsığortalını müvafiq təkrarsığorta müqaviləsinin nüsxəsi və ya bu Məcəllənin 940-cı maddəsində nəzərdə tutulmuş təminat şəhadətnaməsi ilə təmin etməlidir.

939.3. Sığorta brokeri vasitəsilə bağlanan sığorta (təkrarsığorta) müqaviləsi üzrə riskləri qəbul edən və ya bölüşən sığortaçı (təkrarsığortaçı) həmin müqavilə üzrə istənilən məlumatı sığorta brokerindən tələb edə bilər.

Maddə 940. Təminat şəhadətnaməsi

940.1. Təminat şəhadətnaməsi sığorta brokerinin sığortalıya (təkrarsığortalıya) verdiyi və sığorta risklərinin yerləşdirilməsini təsdiq edən sənəddir.

940.2. Təminat şəhadətnaməsində aşağıdakılar göstərilməlidir:

940.2.1. sığorta (təkrarsığorta) müqaviləsi üzrə riskləri qəbul edən və ya bölüşən sığortaçının (təkrarsığortaçının) tam adı və ünvanı;

940.2.2. sığortalının (təkrarsığortalının) tam adı və ünvanı;

940.2.3. sığorta müqaviləsinin qüvvədə olduğu müddət və ərazi;

940.2.4. sığorta (təkrarsığorta) müqaviləsi üzrə təminat verilən sığorta riskləri;

940.2.5. sığortaçının (təkrarsığortaçının) qəbul etdiyi və ya bölüşdüyü sığorta və ya təkrarsığorta riskinə uyğun olan sığorta (təkrarsığorta) məbləğinin hər bir sığorta predmeti və ya onun hissəsinə, yaxud hər bir sığorta olunana münasibətdə ayrı-ayrı risklər üzrə miqdarı;

940.2.6. sığorta (təkrarsığorta) haqqının ümumi və hər bir sığorta predmeti üzrə məbləği və ödənilməsi qaydası.

940.3. Sığorta riski bir neçə sığortaçıda (təkrarsığortaçıda) yerləşdirildikdə, bu Məcəllənin 940.2.3-940.2.6-cı maddələrində nəzərdə tutulmuş məlumatlar hər bir sığortaçıya (təkrarsığortaçıya) münasibətdə ayrılıqda göstərilməlidir.

Maddə 941. Sığorta vasitəçilərinin sığorta haqqı və sığorta ödənişlərinin ödənilməsində iştirakı

941.1. Sığorta agenti sığortaçının adından sığorta haqqını onun yazılı qaydada verdiyi səlahiyyət əsasında qəbul edə bilər.

941.2. Sığorta (təkrarsığorta) müqaviləsi sığorta brokeri vasitəsilə bağlandıqda onunla sığortalı (təkrarsığortalı) və (və ya) sığortaçı (təkrarsığortaçı) arasında bağlanmış vasitəçilik xidməti üzrə müqavilədən asılı olaraq, sığortalı (təkrarsığortalı) sığorta (təkrarsığorta) haqqını sığortaçıya (təkrarsığortaçıya) birbaşa, yaxud sığorta brokeri vasitəsilə ödəyə bilər.

941.3. Sığorta (təkrarsığorta) haqqı sığorta brokerinə daxil olduğu andan müvafiq sığorta (təkarsığorta) müqaviləsi üzrə ödənilmiş hesab edilir.

941.4. Sığorta brokeri ona sığorta (təkrarsığorta) haqqı kimi ödənilən pul vəsaitlərini "sığorta haqqı hesabı" *formasında,* digər hesablardan ayrı və fərqli olan bank

hesabında sığortaçıya (təkrarsığortaçıya) ödənilmək məqsədilə saxlayır və bu vəsaitləri digər məqsədlər üçün istifadə edə bilməz.[617]

941.5. Sığorta haqqını qəbul etmiş sığorta vasitəçisi onu qəbul etdiyi tarixdən 5 iş günü müddətində tam həcmdə müvafiq sığortaçının müvafiq bank hesabına köçürməlidir. Təkrarsığorta haqqını qəbul etmiş sığorta brokeri onu təkrarsığortaçı ilə razılaşdırılmış müddətdə və qaydada həmin təkrarsığortaçının müvafiq bank hesabına köçürməlidir. Sığorta vasitəçisi sığorta (təkrarsığorta) haqqının bu Məcəllənin 941.5-ci maddəsinin birinci və ikinci cümlələrində qeyd olunan müddətlərdə sığortaçıya (təkrarsığortaçıya) köçürülməməsinə görə hər gecikdirilmiş gün üçün köçürülməmiş məbləğin 0,1 faizi həcmində dəbbə pulu ödəyir.

941.6. Sığorta brokeri ilə təkrarsığortaçı arasındakı müvafiq müqaviləyə əsasən müəyyən edilmiş komisyon muzd məbləği təkrarsığorta haqqının bu Məcəllənin 941.5-ci maddəsində nəzərdə tutulmuş qaydada köçürülməsi zamanı, təkrarsığorta haqqından çıxıla bilər.[618]

941.7. Sığorta brokeri sığortaçı (təkrarsığortaçı) tərəfindən sığorta ödənişləri ilə bağlı ona ödənilən pul vəsaitlərini "sığorta ödənişi hesabı" kimi müəyyən edilən, digər hesablardan ayrı və fərqli olan bank hesabında sığortalıya (təkrarsığortalıya) və ya faydalanan şəxsə ötürülmək məqsədilə saxlayır və bu vəsaiti digər məqsədlər üçün istifadə edə bilməz.

941.8. Sığorta brokeri bu Məcəllənin 941.7-ci maddəsində nəzərdə tutulmuş vəsaitləri sığorta ödənişi hesabına daxil olduğu tarixdən etibarən 3 gündən gec olmayaraq müvafiq sığortalıya (təkrarsığortalıya) və ya faydalanan şəxsə ötürməlidir.

Maddə 942. Sığorta vasitəçilərinin sığortalı və ya təkrarsığortalı qarşısında subsidiar öhdəliyi

Sığorta vasitəçisi onun vasitəçiliyi ilə müvafiq hallarda sığorta və ya təkrarsığorta fəaliyyətinə lisenziyası olmayan şəxslə bağlanmış sığorta və ya təkrarsığorta müqaviləsinə, yaxud müvafiq sığorta növünün aparılmasına icazəsi olmayan sığortaçı ilə bağlanmış sığorta müqaviləsinə görə, həmçinin bu Məcəllənin 941.5-ci və 941.8-ci maddələrinə əməl etməməsi üzündən sığortalının (təkrarsığortalının) mənafelərinin pozulmasına görə onun qarşısında həmin sığorta (təkrarsığorta) müqaviləsində sığortaçıya (təkrarsığortaçıya) aid nəzərdə tutulan vəzifələrin yerinə yetirilməsi üzrə sığortaçı (təkrarsığortaçı) kimi subsidiar öhdəlik daşıyır.

51 – ci fəsil.

Bank əmanəti

Maddə 943. Bank əmanəti haqqında ümumi müddəa

Bu Məcəllənin bu fəslinin banklara aid qaydaları hüquqi şəxslərdən əmanətlər (depozitlər) qəbul edən digər kredit təşkilatlarına və poçt rabitəsinin milli operatoruna da tətbiq olunur.

Maddə 944. Bank əmanəti müqaviləsi

944.1. Bank əmanəti (depozit) müqaviləsinə görə bir tərəf (bank) başqa tərəfdən (əmanətçidən) və ya başqa tərəf (əmanətçi) üçün daxil olmuş pul məbləğini (əmanəti) qəbul edərək müqavilədə nəzərdə tutulmuş şərtlərlə və qaydada əmanət məbləğini əmanətçiyə qaytarmağı və onun üçün faizlər ödəməyi öhdəsinə götürür.

944.2. Əmanətin qoyulduğu hesab üzrə bank ilə əmanətçinin münasibətlərinə bank hesabı müqaviləsi haqqında qaydalar tətbiq olunur, bir şərtlə ki, bu Məcəllənin bu fəslinin müddəalarında ayrı hal nəzərdə tutulmasın və ya bank əmanəti müqaviləsinin mahiyyətindən ayrı hal irəli gəlməsin.[619]

Maddə 945. Pul vəsaitini əmanətlərə cəlb etmək hüququ

945.1. Pul vəsaitini əmanətlərə cəlb etmək hüququna qanunla müəyyənləşdirilmiş qaydada verilən xüsusi icazəyə (lisenziyaya) uyğun olaraq buna hüququ çatan banklar və poçt rabitəsinin milli operatoru malikdirlər.[620]

945.2. Hüququ çatmayan şəxs tərəfindən və ya qanunla müəyyənləşdirilmiş qayda, yaxud qanuna uyğun qəbul edilmiş bank qaydaları pozulmaqla fiziki şəxsdən əmanət qəbul olunduqda əmanətçi əmanət məbləğinin dərhal qaytarılmasını, habelə onun üçün faizlər ödənilməsini və bundan əlavə, əmanətçiyə vurulmuş bütün zərərin əvəzinin verilməsini tələb edə bilər. Belə bir şəxs bank əmanəti müqaviləsinin şərtləri əsasında hüquqi şəxsin pul vəsaitini qəbul etdikdə, bu cür müqavilə etibarsızdır.[621]

945.3. Əgər qanunla ayrı qayda müəyyənləşdirilməyibsə, bu Məcəllənin 945.2-ci maddəsində nəzərdə tutulmuş nəticələr aşağıdakı hallarda da tətbiq olunur:

945.3.1. fiziki və hüquqi şəxslərin pul vəsaiti onlara buraxılması qanunsuz sayılmış səhmlər və digər qiymətli kağızlar satmaq yolu ilə cəlb olunduqda;

945.3.2. fiziki şəxslərin pul vəsaiti əmanət sahiblərinin əmanəti ilk tələb üzrə almasını və bu Məcəllənin bu fəslinin qaydalarında nəzərdə tutulmuş digər hüquqları həyata keçirməsini istisna edən veksellər və ya başqa qiymətli kağızlar müqabilində əmanətlərə cəlb olunduqda.

Maddə 946. Bank əmanəti müqaviləsinin forması

946.1. Bank əmanəti müqaviləsi yazılı formada bağlanır. Bank əmanəti müqaviləsinin yazılı formasına o halda riayət olunmuş sayılır ki, əmanətin qoyulması bank kitabçası ilə~~, bank və ya depozit sertifikatı ilə~~ və ya bank tərəfindən əmanətçiyə verilmiş digər sənədlə, özü də qanunda bu cür sənədlər üçün nəzərdə tutulmuş tələblərə, qanuna uyğun müəyyənləşdirilmiş bank qaydalarına və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətlərinə uyğun gələn sənədlə təsdiq edilsin.[622]

946.2. Bank əmanəti müqaviləsinin yazılı formasına riayət edilməməsi bu müqavilənin etibarsızlığına səbəb olur. Belə müqavilə əhəmiyyətsizdir.

Maddə 947. Əmanətlərin növləri

947.1. Bank əmanəti müqaviləsi əmanətin ilk tələb üzrə verilməsi şərti ilə (tələbli əmanət) və ya əmanətin müqavilədə müəyyənləşdirilmiş müddət qurtardıqdan sonra şərti ilə (müddətli əmanət) bağlanır. Müqavilədə əmanətlərin qanuna zidd olmayan başqa qaytarma şərtləri ilə də qoyulması nəzərdə tutula bilər.

947.2. İstənilən növ bank əmanəti müqaviləsinə görə bank əmanətçinin ilk tələbi ilə əmanətin məbləğinin ən azı dörddə bir hissəsini dərhal, qalan hissəsini isə ən geci beş bank günü müddətində verməlidir, amma qaytarmanın müqavilədə nəzərdə tutulmuş başqa şərtləri ilə hüquqi şəxslərin qoyduqları əmanətlər istisna təşkil edir. Fiziki şəxsin əmanəti ilk tələb üzrə almaq hüququndan imtina etməsi haqqında müqavilənin şərti əhəmiyyətsizdir.[623]

947.3. Tələbli əmanət istisna olmaqla, müddətli və ya başqa əmanət müddət qurtaranadək və ya bank əmanəti müqaviləsində göstərilmiş ayrı hallar baş verənədək əmanətçinin tələbi ilə ona qaytarıldıqda əmanət üzrə faizlər bankın tələbli əmanətlər üzrə ödədiyi faizlərin miqdarına uyğun miqdarda ödənilir, bu şərtlə ki, müqavilədə faizlərin ayrı miqdarı nəzərdə tutulmasın.

947.4. Əmanətçinin müddətli əmanətin məbləğini müddət qurtardıqdan sonra və ya başqa qaytarma şərtləri ilə qoyulmuş əmanətin məbləğini müqavilədə nəzərdə tutulmuş hallar baş verdikdən sonra qaytarmağı tələb etmədiyi hallarda müqavilə tələbli əmanətin şərtləri ilə uzadılmış sayılır, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın.

Maddə 948. Əmanətin məbləği üçün faizlər

948.1. Bank əmanətçiyə əmanətin məbləği üçün bank əmanəti müqaviləsi ilə müəyyənləşdirilmiş miqdarda faizlər ödəyir. Müqavilədə ödənilən faizlərin miqdarı haqqında şərtlər olmadıqda bank faizləri bu Məcəllənin 449.1-ci maddəsinə uyğun müəyyənləşdirilən miqdarda ödəməlidir.

948.2. Əgər bank əmanəti müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bankın tələbli əmanətlər üçün ödənilən faizlərin miqdarını dəyişməyə ixtiyarı vardır. Bank faizlərin miqdarını azaltdıqda faizlərin yeni miqdarı faizlərin azaldılması haqqında əmanətçilərə məlumat verilənədək qoyulmuş əmanətlərə həmin məlumatın verildiyi andan bir ay keçəndən sonra tətbiq olunur, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın.

948.3. Fiziki şəxs əmanəti müəyyən müddət qurtardıqdan sonra və ya müqavilədə nəzərdə tutulan hallar baş verdikdə qaytarılmaq şərtləri ilə qoyduqda əmanət üçün faizlərin bank əmanəti müqaviləsində müəyyənləşdirilmiş miqdarı bank tərəfindən birtərəfli qaydada azaldıla bilməz. Əgər müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, bankın hüquqi şəxslə bağladığı bu cür bank əmanəti müqaviləsi üzrə faizlərin miqdarı birtərəfli qaydada dəyişdirilə bilməz.

Maddə 949. Əmanətin məbləğinə faizlərin hesablanması və ödənilməsi qaydası

949.1. Bank əmanətinin məbləğinə faizlər bu məbləğin banka daxil olduğu günün ertəsi günündən məbləğin əmanətçiyə qaytarılmasından və ya başqa əsaslarla

əmanətçinin hesabından silinməsindən əvvəlki günədək hesablanır. Bu qayda bir günlük depozitlərə tətbiq edilmir.

949.2. Əgər bank əmanəti müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bank əmanəti məbləğinə hesablanan faizlər əmanətçiyə hər rüb başa çatdıqdan sonra onun tələbi ilə əmanətin məbləğindən ayrılıqda ödənilir, həmin müddətdə tələb olunmamış faizlər isə üstünə faizlər hesablanan əmanətin məbləğini artırır. Əmanət qaytarıldıqda həmin anadək hesablanmış bütün faizlər ödənilir.

Maddə 950. Əmanətin qaytarılmasının təmin edilməsi

950.1. Banklar fiziki şəxslərin əmanətlərinin qaytarılmasını icbari sığorta yolu ilə, qanunda nəzərdə tutulan hallarda isə başqa üsullarla təmin etməlidirlər. ~~Nizamnamə kapitalında iştirak paylarının və ya səhmlərin əlli faizindən çoxunun Azərbaycan Respublikasına və ya bələdiyyələrə mənsub olduğu bank tərəfindən fiziki şəxslərin əmanətlərinin qaytarılmasına, bundan əlavə, əmanətçinin banka qarşı tələbləri üzrə onların bu Məcəllənin 453-cü maddəsində nəzərdə tutulmuş qaydada subsidiar məsuliyyəti ilə qarantiya verilir.~~ [624]

950.2. Bank tərəfindən hüquqi şəxslərin əmanətlərinin qaytarılması üsulları bank əmanəti müqaviləsi ilə müəyyənləşdirilir.

950.3. Bank əmanəti müqaviləsi bağlanarkən bank əmanətin qaytarılmasının necə təmin ediləcəyi barədə əmanətçiyə məlumat verməlidir.

950.4. Bank əmanətin qaytarılmasının təmin edilməsi üçün bank əmanəti müqaviləsində nəzərdə tutulmuş vəzifələri yerinə yetirmədikdə, habelə əmanətin qaytarılması üçün təminat itirildikdə və ya onun şərtləri pisləşdikdə, əmanətçi bankdan əmanət məbləğini dərhal qaytarmağı, bu Məcəllənin 948.1-ci maddəsinə uyğun müəyyənləşdirilmiş miqdarda faizlər ödəməyi və vurulmuş zərərin əvəzini verməyi tələb edə bilər.

Maddə 951. Əmanətçinin hesabına üçüncü şəxslərin pul vəsaiti qoyması

Əgər bank əmanəti müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, əmanətçinin əmanət üzrə hesabına dair lazımi məlumat göstərilməklə banka onun adına üçüncü şəxslərdən daxil olmuş pul vəsaiti əmanət üzrə hesaba daxil edilir. Həm də nəzərdə tutulur ki, əmanətçi həmin şəxslərdən pul vəsaiti almağa razılığını ifadə edərək, onlara əmanət üzrə hesaba dair lazımi məlumat vermişdir.

Maddə 952. Üçüncü şəxslərin xeyrinə əmanətlər

952.1. Əmanət banka müəyyən üçüncü şəxsin adına qoyula bilər. Əgər bank əmanəti müqaviləsində ayrı müddət nəzərdə tutulmayıbsa, həmin şəxs bu hüquqlara əsaslanan ilk tələbini banka verdiyi və ya belə hüquqlardan istifadə etmək niyyətini başqa üsulla banka bildirdiyi andan əmanətçi hüququ qazanır. Xeyrinə əmanət qoyulan fiziki şəxsin və ya hüquqi şəxsin adının göstərilməsi müvafiq bank əmanəti müqaviləsinin mühüm şərtidir. Müqavilənin bağlandığı vaxt sağ olmayan fiziki şəxsin

və ya bu vaxt mövcud olmayan hüquqi şəxsin xeyrinə bank əmanəti müqaviləsi əhəmiyyətsizdir.

952.2. Bank əmanəti müqaviləsi bağlamış şəxs onun əmanət üzrə hesabına qoyulmuş pul vəsaiti barəsində əmanətçi hüquqlarından üçüncü şəxs əmanətçi hüquqlarından istifadə etmək niyyətini bildirənədək istifadə edə bilər.

952.3. Üçüncü şəxsin xeyrinə müqavilə haqqında qaydalar üçüncü şəxsin xeyrinə bank əmanəti müqaviləsinə bu şərtlə tətbiq edilir ki, belə tətbiq bu maddənin qaydalarına və bank əmanətinin mahiyyətinə zidd olmasın.

Maddə 953. Bank kitabçası

953.1. Əgər tərəflərin razılaşması ilə ayrı qayda nəzərdə tutulmayıbsa, fiziki şəxslə bank əmanəti müqaviləsinin bağlanması və onun əmanət üzrə hesabına pul vəsaitinin qoyulması bank kitabçası ilə təsdiq olunur. Bank əmanəti müqaviləsində adlı bank kitabçasının və ya adsız bank kitabçasının verilməsi nəzərdə tutula bilər. Bank kitabçasında bankın adı və olduğu yer, əmanət filiala qoyulduqda isə həm də müvafiq filialın adı və olduğu yer, əmanət üzrə hesabın nömrəsi, habelə hesaba köçürülmüş pul vəsaitinin bütün məbləğləri, hesabdan silinmiş pul vəsaitinin bütün məbləğləri və bank kitabçasının banka təqdim olunduğu anadək hesabdakı pul vəsaitinin qalığı göstərilməli və bank tərəfindən təsdiq edilməlidir. Əgər ayrı hal sübuta yetirilməyibsə, bank kitabçasında göstərilmiş əmanət haqqında məlumatlar bankla əmanətçi arasında əmanət üzrə hesablaşmalar üçün əsasdır.

953.2. Bank əmanətin verilməsini, əmanət üzrə faizlərin ödənilməsini və əmanət üzrə hesabdan pul vəsaitinin digər şəxslərə köçürülməsinə dair əmanətçinin sərəncamlarının icrasını bank kitabçası təqdim olunduqda həyata keçirir. Adlı bank kitabçası itirildikdə və ya təqdim olunmaq üçün yararsız vəziyyətə düşdükdə, əmanətçinin ərizəsi üzrə bank ona yeni bank kitabçası verir. İtirilmiş adsız *sənədli* bank kitabçası üzrə hüquqların bərpası adsız qiymətli kağızlar üçün nəzərdə tutulmuş qaydada həyata keçirilir.[625]

953.3. Bank, bank kitabçasını qeyri-qanuni yollarla və ya itirmə nəticəsində əldə etmiş şəxslə həmin kitabça üzrə hesablaşma apararsa, məsuliyyətdən azad olunur, bu şərtlə ki, həmin hallar barədə məlumata malik olmasın. Lakin, əgər bank kobud ehtiyatsızlıq üzündən belə məlumata malik olmazsa, məsuliyyətdən azad edilmir.[626]

953.4. Banka qarşı olan tələbi bu Məcəllə ilə müəyyən edilmiş qaydada həmin tələbin güzəşti yolu ilə əldə etmiş yeni kreditor, ona bank kitabçasının verilməsini tələb edə bilər.[627]

52 – ci fəsil.

Bank hesabı

Maddə 954. Bank hesabı müqaviləsi

954.1. Bank hesabı müqaviləsinə görə bank müştəriyə (hesabın sahibinə) açılmış hesaba daxil olan pul vəsaitini qəbul etməyi və hesaba salmağı, hesabdan müvafiq məbləğlərin köçürülməsinə və verilməsinə, hesab üzrə digər əməliyyatların aparılmasına dair müştərinin sərəncamlarını yerinə yetirməyi öhdəsinə götürür.

954.2. Bank hesabda olan pul vəsaitinə dair müştərinin maneəsiz sərəncam vermək hüququna qarantiya verməklə, bu vəsaitdən istifadə edə bilər.

954.3. Bank müştərinin pul vəsaitindən istifadə edilməsi istiqamətlərini müəyyənləşdirə və buna nəzarət edə bilməz, habelə müştərinin pul vəsaitinə dair öz istədiyi kimi sərəncam vermək hüququ üzərində *qanunla və* bank hesabı müqaviləsi ilə nəzərdə tutulmamış digər məhdudiyyətlər qoya bilməz.[628]

954.4. Bu fəslin banklara aid qaydaları verilmiş xüsusi icazəyə (lisenziyaya) müvafiq surətdə bank hesabı müqaviləsi bağlayan və icra edən başqa kredit təşkilatlarına və poçt rabitəsinin milli operatoruna da tətbiq olunur. *Maliyyə xidmətlərinin göstərilməsi ilə bağlı mərkəzi depozitarın açdığı və apardığı pul hesablarına bu fəslin qaydaları "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla tətbiq edilir.*[629]

Maddə 955. Bank hesabı müqaviləsinin forması

955.1. Bank hesabı müqaviləsi yazılı formada bağlanır.

955.2. Bank hesabı müqaviləsinin yazılı formasına riayət edilməməsi bu müqavilənin etibarsızlığına səbəb olur. Belə müqavilə əhəmiyyətsizdir.

Maddə 956. Bank hesabı müqaviləsinin bağlanması

956.1. Bank hesabı müqaviləsi bağlanarkən müştəriyə və ya onun göstərdiyi şəxsə tərəflərin razılaşdırdığı şərtlərlə bankda hesab açılır.

956.2. Bank həmin növ hesabların açılması üçün bankın elan etdiyi, qanunda nəzərdə tutulmuş və qanuna əsasən bank qaydaları ilə müəyyənləşdirilmiş tələblərə uyğun şərtlər əsasında hesab açmaq təklifi ilə müraciət etmiş müştəri ilə bank hesabı müqaviləsi bağlamalıdır.

956.3. Hesab üzrə müvafiq əməliyyatların aparılması qanunla, bankın nizamnaməsi və ona verilmiş xüsusi icazə (lisenziya) ilə nəzərdə tutulduqda, bankın həmin hesabın açılmasından imtina etməyə ixtiyarı yoxdur, amma belə imtinanın bank xidmətinə qəbul etməyə bankın imkanının olmaması ilə bağlı olduğu və ya buna qanunla, yaxud başqa hüquqi aktlarla yol verildiyi hallar istisna təşkil edir.

956.4. Bank hesabı müqaviləsinin bağlanmasından bank əsassız boyun qaçırdıqda müştərinin onu müqavilə bağlamağa məcbur etmək tələbi ilə məhkəməyə müraciət etməyə ixtiyarı vardır. Bank hesabı müqaviləsi bağlamaqdan əsassız boyun qaçıran bank müştəriyə bununla vurulmuş zərərin əvəzini ödəməlidir.

Maddə 957. Hesabda olan pul vəsaitinə dair sərəncam vermək hüququnun təsdiqi

957.1. Hesabdan vəsaitin köçürülməsi və verilməsi haqqında müştərinin adından sərəncamlar verən şəxslərin hüquqları qanunda nəzərdə tutulmuş, qanuna əsasən bank qaydaları və bank hesabı müqaviləsi ilə müəyyənləşdirilmiş sənədlərin müştəri tərəfindən banka təqdim olunması yolu ilə təsdiq edilir.

957.2. Üçüncü şəxslərin tələbi ilə, o cümlədən müştərinin bu şəxslər qarşısında öhdəliklərini yerinə yetirməsi ilə bağlı tələbi üzrə müştəri pul vəsaitinin hesabdan silinməsi haqqında banka sərəncam verə bilər. Bank belə sərəncamları bu şərtlə qəbul edir ki, müvafiq tələb irəli sürülərkən onu irəli sürməyə hüququ çatan şəxsi eyniləşdirməyə imkan verən lazımi məlumatlar həmin sərəncamlarda yazılı formada göstərilmiş olsun.

957.3. Müqavilədə hesabdakı pul məbləğlərinə dair sərəncam hüququnun elektron ödəmə vasitələri və öz əli ilə imza analoqlarından, kodlardan, parollardan və sərəncamın buna vəkil edilmiş şəxs tərəfindən verildiyini təsdiqləyən digər vasitələrdən istifadə olunmaqla başqa sənədlər ilə təsdiq edilməsi də nəzərdə tutula bilər.

957.4. Əgər bank hesab sahibinin həqiqi iradəsini ifadə etməyən sərəncam əsasında pul vəsaitini həmin hesabdan silərsə, bunun üçün məsuliyyət daşıyır, bir şərtlə ki, belə sərəncamın hesab sahibinin öz təqsiri üzündən verildiyini sübut edə bilməsin.[630]

Maddə 958. Bankın apardığı hesab əməliyyatları

Bank müştəri üçün həmin növ hesablardan ötrü qanunla, qanuna əsasən müəyyənləşdirilmiş bank qaydaları ilə və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə nəzərdə tutulan əməliyyatlar aparmalıdır, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı hal nəzərdə tutulmasın.

Maddə 959. Hesab əməliyyatlarının müddətləri

959.1. Bank müştərinin hesabına daxil olmuş pul vəsaitini həmin əməliyyat günündən (bankın müştəri sərəncamlarının qəbulu və bank əməliyyatlarının aparılması üçün müəyyən etdiyi iş vaxtından) gec olmayaraq hesaba salmalıdır, bu şərtlə ki, qanunda ayrı qayda nəzərdə tutulmasın.[631]

959.2. Müştərinin sərəncamı ilə bank müştərinin pul vəsaitini müvafiq ödəniş *sərəncamının* banka daxil olduğu günün ertəsi günündən gec olmayaraq verməli və ya hesabdan köçürməlidir, bu şərtlə ki, qanunla, qanuna uyğun qəbul edilmiş bank qaydaları ilə və ya bank hesabı müqaviləsi ilə ayrı müddətlər nəzərdə tutulmasın.[632]

Maddə 960. Hesabın kreditləşdirilməsi

960.1. Bank hesabı müqaviləsinə müvafiq surətdə, pul vəsaitinin olmadığına baxmayaraq, bankın ödənişləri həyata keçirdiyi hallarda (hesabın kreditləşdirilməsi) bank bu cür ödənişi həyata keçirdiyi gündən müştəriyə müvafiq məbləğdə kredit vermiş sayılır.

960.2. Tərəflərin hesabın kreditləşdirilməsi ilə bağlı hüquq və vəzifələri borc və kredit haqqında qaydalarla müəyyənləşdirilir, bu şərtlə ki, *bu Məcəllədə və ya* bank hesabı müqaviləsində ayrı hal nəzərdə tutulmasın.[633]

Maddə 961. Hesab əməliyyatlarının aparılmasına bankın xidmətlərinin haqqının ödənilməsi[634]

961.1. *Bank hesabı müqaviləsində nəzərdə tutulduğu halda, müştəri* hesabdakı pul vəsaiti ilə əməliyyatların aparılması üzrə bank xidmətlərinin haqqını ödəyir.[635]

961.2. Bu Məcəllənin 961.1-ci maddəsində nəzərdə tutulmuş bank xidmətlərinin haqqını bank hər bir əqd başa çatdıqdan sonra müştərinin hesabdakı pul vəsaitindən tuta bilər, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmasın.

Maddə 962. Pul vəsaitindən bankın istifadə etməsi üçün faizlər

962.1. Əgər bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bank müştərinin hesabında olan pul vəsaitindən istifadə etməsi üçün faizlər ödəyir və bu faizlərin məbləği hesaba salınır.

962.2. Bu Məcəllənin 962.1-ci maddəsində göstərilən faizlər bank tərəfindən bank hesabı müqaviləsində müəyyənləşdirilmiş miqdarda, müqavilədə müvafiq şərt olmadıqda isə bu bankın tələbli əmanət üzrə müəyyənləşdirdiyi miqdarda ödənilir.

962.3. Faizlərin məbləği müqavilədə nəzərdə tutulmuş müddətlərdə, müqavilədə bu cür müddətlər nəzərdə tutulmadıqda isə hər rübün axırında hesaba salınır.

Maddə 963. Bankın və müştərinin hesab üzrə qarşılıqlı tələblərinin əvəzləşdirilməsi

963.1. Hesabın kreditləşdirilməsi və bank xidmətlərinin haqqının ödənilməsi ilə bağlı bankın müştəriyə qarşı pul tələblərinə, habelə pul vəsaitindən istifadə üçün faizlərin ödənilməsi haqqında müştərinin banka qarşı tələblərinə əvəzləşdirmə yolu ilə xitam verilir, bu şərtlə ki, bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmasın. Göstərilən tələblər bank tərəfindən əvəzləşdirilir.

963.2. Bank aparılmış əvəzləşdirmə haqqında müştəriyə müqavilədə nəzərdə tutulmuş qaydada və müddətlərdə, əgər tərəflər müvafiq şərtləri razılaşdırmayıblarsa, müvafiq hesabdakı pul vəsaitinin vəziyyəti haqqında müştərilərə məlumat verilməsinin bank praktikası üçün adi olan qaydada və müddətlərdə məlumat verməlidir.

Maddə 964. Pul vəsaitinin hesabdan silinməsinin əsasları

964.1. Hesabdan pul vəsaitinin silinməsini bank müştərinin sərəncamına əsasən həyata keçirir.

964.2. Müştərinin sərəncamı olmadan hesabdakı pul vəsaitinin silinməsinə məhkəmənin qərarı ilə, habelə qanunla müəyyənləşdirilmiş və ya bankla müştəri arasında müqavilədə nəzərdə tutulmuş hallarda yol verilir.

Maddə 965. Hesabdan pul vəsaitinin silinməsinin növbəliyi

965.1. Hesabdakı pul vəsaitinin məbləği hesaba qarşı irəli sürülən bütün tələbləri ödəməyə kifayət etdikdə hesabdan bu vəsaitin silinməsi müştərinin sərəncamlarının və hesabdan silməyə dair digər sənədlərin daxil olduğu ardıcıllıqla (təqvim ardıcıllığı) həyata keçirilir, bu şərtlə ki, qanunda ayrı qayda nəzərdə tutulmasın.

965.2. *"Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda başqa hal nəzərdə tutulmayıbsa, hesabdakı* pul vəsaiti müştərinin sərəncamlarını və ona qarşı irəli sürülmüş bütün tələbləri yerinə yetirməyə kifayət etmədikdə hesabdan pul vəsaiti aşağıdakı ardıcıllıqla silinir:[636]

965.2.1. birinci növbədə həyata və ya sağlamlığa vurulmuş zərərin ödənilməsi haqqında tələblərin, habelə alimentlərin tutulması haqqında tələblərin yerinə yetirilməsi üçün hesabdan pul vəsaitinin köçürülməsini və ya verilməsini nəzərdə tutan *ödəniş sərəncamları və yaxud bu tələblərlə bağlı icra sənədləri əsasında verilən ödəniş sərəncamları* üzrə hesabdan silmə həyata keçirilir;[637]

965.2.2. ikinci növbədə əmək müqaviləsi ilə işləyən şəxslərə işdənçıxma müavinətlərinin və əmək haqqının ödənilməsi üzrə və müəlliflik müqaviləsinə görə haqların ödənilməsi üzrə hesablaşmalar üçün pul vəsaitinin köçürülməsini və ya verilməsini nəzərdə tutan *ödəniş sərəncamları və yaxud bu tələblərlə bağlı icra sənədləri əsasında verilən ödəniş sərəncamları* üzrə hesabdan silmə, habelə bu məqsədlər üçün verilmiş bank kreditlərinin hesabdan silinməsi həyata keçirilir;[638]

965.2.3. üçüncü növbədə dövlət büdcəsinə, məcburi dövlət sosial sığorta haqları *və işsizlikdən sığorta haqları* üzrə büdcədənkənar dövlət fonduna, *icbari tibbi sığorta haqları üzrə icbari tibbi sığorta fonduna* və bələdiyyələrin büdcələrinə ödənişləri nəzərdə tutan ödəniş *sərəncamları* üzrə hesabdan silmə həyata keçirilir;[639]

965.2.4. dördüncü növbədə verilmiş kreditlər üzrə bankın tələblərinin yerinə yetirilməsini nəzərdə tutan ödəniş *sərəncamları* üzrə hesabdan silmə həyata keçirilir;

965.2.5. beşinci növbədə başqa pul tələblərinin yerinə yetirilməsini nəzərdə tutan icra sənədi *əsasında verilən ödəniş sərəncamı* üzrə hesabdan silmə həyata keçirilir;[640]

965.2.6. altıncı növbədə təqvim ardıcıllığı qaydasında digər ödəniş *sərəncamları* üzrə hesabdan silmə həyata keçirilir.[641]

965.3. *"Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda başqa hal nəzərdə tutulmayıbsa, bir* növbəyə aid tələblər üzrə vəsait *ödəniş sərəncamlarının* daxil olmasının təqvim ardıcıllığı qaydasında hesabdan silinir.[642]

Maddə 966. Hesab əməliyyatlarının lazımınca aparılmaması üçün bankın məsuliyyəti

Müştəriyə gələn pul vəsaitinin vaxtında hesaba salınmadığı və ya bank tərəfindən əsassız olaraq hesabdan silindiyi, habelə pul vəsaitinin hesabdan köçürülməsi və ya hesabdan verilməsi haqqında müştərinin göstərişlərinin lazımınca yerinə yetirilmədiyi hallarda bank həmin məbləğ üçün bu Məcəllənin 449-cu maddəsində nəzərdə tutulmuş qaydada və miqdarda faizlər ödəməlidir.

Maddə 967. Bank sirri

967.1. Bank hesabının və bank əmanətinin, hesab əməliyyatlarının və müştəri haqqında məlumatların sirrinə bank qarantiya verir.

967.2. Bank sirrini təşkil edən məlumatlar müştərinin özünə və nümayəndəsinə verilir. Belə məlumatlar digər şəxslərə yalnız "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda və qaydada verilir.[643]

967.3. Bank sirri təşkil edən məlumatlar bank tərəfindən açıqlandığı halda hüquqları pozulmuş müştəri bankdan vurulmuş zərərin əvəzini ödəməyi tələb edə bilər.

Maddə 968. Hesaba dair sərəncam verilməsinin məhdudlaşdırılması

Müştərinin hesabdakı pul vəsaitinə dair sərəncam vermək hüquqlarının məhdudlaşdırılmasına yol verilmir, amma qanunda nəzərdə tutulan hallarda məhkəmənin qərarı ilə hesabdakı pul vəsaiti üzərinə həbs qoyulduğu və ya hesab əməliyyatlarının dayandırıldığı, *habelə "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş* hallar istisna təşkil edir.[644]

Maddə 969. Bank hesabı müqaviləsinin ləğvi

969.1. Bank hesabı müqaviləsi müştərinin ərizəsi üzrə istənilən vaxt ləğv edilir.

969.2. Əgər bank hesabı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, bankın tələbi ilə bank hesabı müqaviləsi məhkəmə tərəfindən aşağıdakı hallarda ləğv edilə bilər:

969.2.1. müştərinin hesabında saxlanan pul vəsaitinin məbləği bank qaydaları və ya müqavilə ilə nəzərdə tutulmuş minimum miqdardan az olduqda, bir şərtlə ki, belə məbləğ bankın bu barədə xəbərdarlıq etdiyi gündən bir ay ərzində bərpa edilməmiş olsun;

969.2.2. bir il ərzində həmin hesab üzrə əməliyyatlar aparılmadıqda, bu şərtlə ki, müqavilədə ayrı qayda nəzərdə tutulmasın.

969.2.3. ciddi əsaslar olduqda, xüsusilə də bank hesabı sahibinin bank hesabından qeyri-leqal məqsədlər üçün istifadə etməsi sübut edilsin.[645]

969.3. Hesabdakı pul vəsaitinin qalığı müştəriyə verilir və ya müştərinin göstərişi ilə onun müvafiq yazılı ərizəsinin alındığı gündən ən geci yeddi gün keçənədək başqa hesaba köçürülür.

969.4. Bank hesabı müqaviləsinin ləğv edilməsi müştərinin hesabının bağlanması üçün əsasdır.

Maddə 970. Bankların hesabları

Əgər qanunla, başqa hüquqi aktlarla və ya onlara uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə ayrı hal nəzərdə tutulmayıbsa, bu Məcəllənin bu fəslinin qaydaları müxbir hesablarına, müxbir subhesablarına və bankların digər hesablarına da şamil edilir.

53 – cü fəsil.

Mülki dövriyyənin iştirakçıları arasında hesablaşmalar

§ 1. Hesablaşmalar haqqında ümumi müddəalar

Maddə 971. Nağd və nağdsız hesablaşmalar

971.1. Fiziki şəxslərin iştirakı ilə hesablaşmalar onların sahibkarlıq fəaliyyətini həyata keçirməsi ilə bağlı deyilsə, məbləğ məhdudlaşdırılmadan nağd pullarla və ya nağdsız qaydada aparıla bilər.

971.2. *Çıxarılmışdır.* [646]

971.3. Nağdsız hesablaşmalar banklar və digər ödəniş xidməti təchizatçıları, mərkəzi depozitar tərəfindən qanuna uyğun olaraq aparılır.[647]

Maddə 972. Nağdsız hesablaşmaların formaları

972.1. Nağdsız hesablaşmalar aparılarkən ödəniş tapşırıqları ilə, akkreditiv üzrə hesablaşmalara, inkasso üzrə, çeklərlə, ödəniş kartları ilə, elektron şəklində hesablaşmalara, habelə qanunla, qanuna uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə nəzərdə tutulmuş digər formalarda hesablaşmalara yol verilir.

972.1-1. Maliyyə xidmətlərinin göstərilməsi ilə bağlı mərkəzi depozitarın açdığı pul hesabları üzrə nağdsız hesablaşmalar "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla həyata keçirilir.[648]

972.2. Müqavilə üzrə tərəflərin bu Məcəllənin 972.1-ci maddəsində göstərilmiş hesablaşma formalarından hər hansı birini seçmək və müqavilədə müəyyənləşdirmək hüququ vardır.

§ 2. Ödəniş tapşırıqları ilə hesablaşmalar

Maddə 973. Ödəniş tapşırıqları ilə hesablaşmalar haqqında ümumi müddəalar

973.1. Ödəniş tapşırığı ilə hesablaşma zamanı bank ödəyicinin tapşırığı ilə onun hesabında olan vəsait hesabına müəyyən pul vəsaitini bu və ya başqa bankda ödəyicinin göstərdiyi şəxsin hesabına qanunla nəzərdə tutulmuş və ya qanuna uyğun

təyin edilmiş müddətdə köçürməyi öhdəsinə götürür, bu şərtlə ki, bank hesabı müqaviləsində daha qısa müddət nəzərdə tutulmasın və ya bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə daha qısa müddət müəyyənləşdirilməsin.

973.2. Bu Məcəllənin bu paraqrafının qaydaları bankda hesabı olmayan şəxsin öz pul vəsaitini həmin bank vasitəsilə köçürməsi ilə bağlı münasibətlərə tətbiq edilir, bu şərtlə ki, qanunla, ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə ayrı hal nəzərdə tutulmasın və ya bu münasibətlərin mahiyyətindən ayrı hal irəli gəlməsin.

973.3. Ödəniş tapşırıqları ilə hesablaşmaların həyata keçirilməsi qaydası qanunla, habelə ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə tənzimlənir.

Maddə 974. Bank tərəfindən ödəniş tapşırığının yerinə yetirilməsi şərtləri

974.1. Ödəniş tapşırığının və onunla birlikdə təqdim edilən hesablaşma sənədlərinin məzmunu və forması qanunla və ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə nəzərdə tutulmuş tələblərə uyğun gəlməlidir.

974.2. Ödəniş tapşırığı bu Məcəllənin 974.1-ci maddəsində göstərilmiş tələblərə uyğun gəlmədikdə bank tapşırığın məzmununu dəqiqləşdirə bilər. Ödəyiciyə bu cür sorğu tapşırıq alındıqdan dərhal sonra verilməlidir. Qanunla və ya ona uyğun müəyyənləşdirilmiş bank qaydaları ilə nəzərdə tutulmuş müddətdə, bunlar olmadıqda isə ağlabatan müddətdə cavab almadıqda bank tapşırığı icra etmədən ödəyiciyə qaytara bilər, bu şərtlə ki, qanunla, ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və ya bankla ödəyici arasında müqavilə ilə ayrı hal nəzərdə tutulmasın.

974.3. Əgər ödəyici ilə bank arasında müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, ödəyicinin tapşırığını bank ödəyicinin hesabında vəsait olduqda yerinə yetirir. Bank tapşırıqları hesabdan pul vəsaitinin silinməsi növbəliyini gözləməklə icra edir. Ödəyicinin hesabında vəsait olmadıqda bank bu barədə ona məlumat verir.[649]

Maddə 975. Tapşırığın icrası

975.1. Ödəyicinin ödəniş tapşırığını qəbul etmiş bank müvafiq pul məbləğini tapşırıqda göstərilmiş şəxsin hesabına salınmaq üçün vəsait alanın bankına bu Məcəllənin 973.1-ci maddəsi ilə müəyyənləşdirilmiş müddətdə köçürməlidir.

975.2. Bank müştərinin tapşırığında göstərilmiş hesaba pul vəsaitinin köçürülməsi əməliyyatlarının yerinə yetirilməsi üçün digər bankları cəlb edə bilər.

975.3. Bank *ödəyiciyə* tapşırığın icrası haqqında dərhal bildiriş verməlidir. *Ödəniş tapşırığının icrasından sonra məlumatlandırma ilə bağlı digər tələblər "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.*[650]

Maddə 976. Tapşırığın icra edilməməsinə və ya lazımınca icra edilməməsinə görə məsuliyyət

976.1. Müştərinin tapşırığı icra edilmədikdə və ya lazımınca icra edilmədikdə bank bu Məcəllənin 23-cü fəslində nəzərdə tutulmuş əsaslar üzrə və miqdarda məsuliyyət daşıyır.

976.2. Tapşırığın icra edilməməsi və ya lazımınca icra edilməməsi ödəyicinin tapşırığının icrası üçün cəlb olunmuş bank tərəfindən hesablaşma əməliyyatlarının aparılması qaydalarının pozulması ilə əlaqədar baş verdikdə bu Məcəllənin 976.1-ci maddəsində nəzərdə tutulmuş məsuliyyəti məhkəmə həmin bankın üzərinə qoya bilər.

976.3. Əgər bank tərəfindən hesablaşma əməliyyatlarının aparılması qaydalarının pozulması pul vəsaitinin qanunsuz tutulmasına səbəb olmuşdursa, bank bu Məcəllənin 449-cu maddəsində nəzərdə tutulmuş qaydada və miqdarda faizlər ödəməlidir.

§ 3. Akkreditiv üzrə hesablaşmalar

Maddə 977. Akkreditiv üzrə hesablaşmalar haqqında ümumi müddəalar

977.1. Akkreditiv üzrə hesablaşmalar zamanı ödəyicinin akkreditiv açılması haqqında tapşırığı və göstərişi ilə hərəkət edən bank (emitent bank) vəsait alana vəsait ödəməyi və ya köçürmə vekselini ödəməyi, aksept etməyi və ya uçota almağı və ya bu səlahiyyətləri başqa banka (icraçı banka) verməyi öhdəsinə götürür. Vəsait alana vəsaiti ödəyən və ya köçürmə vekselini ödəyən, aksept edən və ya uçota alan emitent banka icraçı bank haqqında qaydalar tətbiq olunur.

977.2. Akkreditiv üzrə hesablaşmaların həyata keçirilməsi qaydası qanunla, habelə ona uyğun müəyyənləşdirilmiş bank qaydaları və bank praktikasında tətbiq edilən işgüzar dövriyyə adətləri ilə tənzimlənir.

Maddə 978. Geriçağırma akkreditivi

978.1. Vəsait alana qabaqcadan bildirmədən emitent bankın dəyişdirə və ya ləğv edə bildiyi akkreditiv geriçağırma akkreditivi sayılır. Akkreditivin geri çağırılması emitent bankın vəsait alan qarşısında hər hansı öhdəliklərini yaratmır.

978.2. İcraçı bank geriçağırma akkreditivi üzrə ödənişi və ya digər əməliyyatları icra etməlidir, bu şərtlə ki, icra anınadək o, akkreditivin şərtlərinin dəyişdirilməsi və ya ləğv edilməsi haqqında bildiriş almasın.

978.3. Akkreditiv o vaxt geriçağırma akkreditivi olur ki, onun mətnində bu hal birbaşa müəyyənləşdirilir.[651]

Maddə 979. Geri çağırılmayan akkreditiv

979.1. O akkreditiv geri çağırılmayan akkreditiv sayılır ki, o, vəsait alanın razılığı olmadan ləğv edilə və ya dəyişdirilə bilmir.

979.2. Akkreditiv əməliyyatının aparılmasında iştirak edən icraçı bank emitent bankın xahişi ilə geri çağırılmayan akkreditivi təsdiqləyə bilər (təsdiqlənmiş akkreditiv). Bu cür təsdiqləmə icraçı bankın emitent bankın öhdəliyindən əlavə, akkreditivin şərtlərinə uyğun ödənişi icra etmək öhdəliyini qəbul etdiyini bildirir.

979.3. İcraçı bankın təsdiqlədiyi geri çağırılmayan akkreditiv icraçı bankın razılığı olmadan dəyişdirilə və ya ləğv edilə bilməz.

Maddə 980. Akkreditivin icrası

980.1. Akkreditivin icrası üçün vəsait alan icraçı banka akkreditivin bütün şərtlərinin yerinə yetirildiyini təsdiqləyən sənədləri təqdim edir. Bu şərtlərdən, heç olmasa, biri pozulduqda akkreditiv icra edilmir. İcraçı bank həmin sənədlərin yalnız formal baxımdan qaydada olmasını yoxlamalıdır.[652]

980.2. Əgər icraçı bank akkreditivin şərtlərinə müvafiq surətdə ödənişi icra etmiş və ya başqa əməliyyatı aparmışdırsa, emitent bank ona akkreditivin icrası ilə bağlı çəkdiyi xərclərin əvəzini ödəməlidir. Göstərilən xərclərin əvəzi, habelə akkreditivin icrası ilə əlaqədar emitent bankın bütün başqa xərclərinin əvəzi ödəyici tərəfindən ödənilir.

Maddə 981. Sənədləri qəbul etməkdən imtina

981.1. Əgər icraçı bank zahiri əlamətlərinə görə akkreditivin şərtlərinə uyğun gəlməyən sənədləri qəbul etməkdən imtina edirsə, bu barədə o, imtinanın səbəblərini göstərməklə, vəsait alana və emitent banka dərhal məlumat verməlidir.

981.2. Əgər icraçı bankın qəbul etdiyi sənədləri aldıqdan sonra emitent bank onları zahiri əlamətlərinə görə akkreditivin şərtlərinə uyğun gəlməyən hesab edərsə, onların qəbulundan imtina edə bilər və akkreditivin şərtləri pozulmaqla vəsait alana ödənilmiş məbləği icraçı bankdan tələb edə bilər, ödənilməmiş akkreditiv üzrə isə ödənilmiş məbləğlərin əvəzini ödəməkdən imtina edə bilər.

Maddə 982. Akkreditivin şərtlərinin pozulmasına görə bankın məsuliyyəti

982.1. Bu maddədə nəzərdə tutulmuş hallar istisna olmaqla akkreditivin şərtlərinin pozulmasına görə ödəyici qarşısında emitent bank, emitent bank qarşısında isə icraçı bank məsuliyyət daşıyır.

982.2. İcraçı bank ödənilmiş və ya təsdiqlənmiş akkreditiv üzrə pul vəsaitini ödəməkdən əsassız imtina etdikdə vəsait alan qarşısında məsuliyyət icraçı bankın üzərinə qoyula bilər.

982.3. İcraçı bank ödənilmiş və ya təsdiqlənmiş akkreditiv üzrə pul vəsaitini akkreditivin şərtlərinin pozulması nəticəsində düzgün ödəmədikdə ödəyici qarşısında məsuliyyət icraçı bankın üzərinə qoyula bilər.

Maddə 983. Akkreditivin bağlanması

983.1. İcraçı bankda akkreditiv aşağıdakı hallarda bağlanır:

983.1.1. akkreditivin müddəti qurtardıqda;

983.1.2. akkreditivin qüvvədə olma müddəti qurtaranadək onun istifadəsindən imtina etmək haqqında vəsait alanın ərizəsi üzrə, bir şərtlə ki, bu cür imtinanın mümkünlüyü akkreditivin şərtləri ilə nəzərdə tutulsun;

983.1.3. akkreditivin tam və ya qismən geri çağırılması haqqında ödəyicinin tələbi ilə, bir şərtlə ki, akkreditivin şərtlərinə görə belə geriçağırma mümkün olsun.

983.2. Akkreditivin bağlanması haqqında icraçı bank emitent banka məlumat verməlidir.

983.3. Ödənilmiş akkreditivin istifadə olunmamış məbləği akkreditivin bağlanması ilə eyni vaxtda dərhal emitent banka qaytarılmalıdır. Emitent bank qaytarılmış məbləğləri ödəyicinin vəsaitin deponentləşdirildiyi hesabına daxil etməlidir.

§ 4. İnkasso üzrə hesablaşmalar

Maddə 984. İnkasso üzrə hesablaşmalar haqqında ümumi müddəalar

984.1. İnkasso üzrə hesablaşmalar zamanı bank (emitent bank) müştərinin tapşırığı ilə ödəyicidən ödənişin və (və ya) ödəniş akseptinin alınması əməliyyatlarını müştərinin hesabına həyata keçirməyi öhdəsinə götürür.

984.2. Müştərinin tapşırığını almış emitent bank tapşırığın icrası üçün başqa bankı (icraçı bankı) cəlb edə bilər. İnkasso üzrə hesablaşmaların həyata keçirilməsi qaydası qanunla, qanuna əsasən müəyyənləşdirilmiş bank qaydaları və bank praktikasında tətbiq olunan işgüzar dövriyyə adətləri ilə tənzimlənir.

984.3. Müştərinin tapşırığının icra edilmədiyi və ya lazımınca icra edilmədiyi halda emitent bank onun qarşısında bu Məcəllənin 23-cü fəslində nəzərdə tutulmuş əsaslar üzrə və miqdarda məsuliyyət daşıyır.

984.4. Əgər müştərinin tapşırığının icra edilməməsi və ya lazımınca icra edilməməsi hesablaşma əməliyyatlarının həyata keçirilməsi qaydalarının icraçı bank tərəfindən pozulması ilə əlaqədar baş vermişdirsə, müştəri qarşısında məsuliyyət həmin bankın üzərinə qoyula bilər.

984.5. İnkasso üzrə hesablaşmalarla əlaqədar olan, bu Məcəllə ilə tənzimlənməyən münasibətlər bank qanunvericiliyi ilə tənzimlənir.

Maddə 985. İnkasso tapşırığının icrası

985.1. Hər hansı sənəd olmadıqda və ya sənədlər zahiri əlamətlərinə görə inkasso tapşırığına uyğun gəlmədikdə icraçı bank inkasso tapşırığını aldığı şəxsə bu barədə dərhal məlumat verməlidir. Göstərilən qüsurlar aradan qaldırılmadıqda bank sənədləri icra etmədən qaytara bilər.

985.2. Sənədlər alındıqları formada ödəyiciyə təqdim edilir, amma inkasso əməliyyatının rəsmiləşdirilməsi üçün zəruri olan bank qeydləri və yazıları istisna edilir.

985.3. Əgər sənədlər təqdim olunduqda ödənilməlidirsə, icraçı bank inkasso tapşırığını aldıqdan dərhal sonra sənədləri ödənişə təqdim etməlidir. Əgər sənədlər başqa müddətdə ödənilməlidirsə, icraçı bank ödəyicinin akseptini almaq üçün sənədləri

inkasso tapşırığını aldıqdan sonra dərhal akseptə təqdim etməlidir, ödəniş isə sənəddə göstərilmiş ödəniş müddətinin çatdığı gündən gec olmayaraq tələb olunmalıdır.

985.4. Qismən ödənişlər bunun bank qaydaları ilə müəyyənləşdirildiyi və ya inkasso tapşırığında xüsusi icazənin olduğu hallarda qəbul edilə bilər.

985.5. Alınmış (inkasso edilmiş) məbləğlər icraçı bank tərəfindən dərhal emitent bankın sərəncamına verilməli, həmin bank isə bu məbləğləri müştərinin hesabına salmalıdır. İcraçı bank inkasso edilmiş məbləğlərdən ona çatan muzdu və xərclərin əvəzini tuta bilər.

Maddə 986. Aparılmış əməliyyatlar haqqında bildiriş

986.1. Əgər ödəniş və (və ya) aksept alınmamışdırsa, icraçı bank ödənişin icra olunmamasının və ya akseptdən imtina edilməsinin səbəblərini dərhal emitent banka bildirməlidir. Emitent bank bu barədə müştəriyə dərhal məlumat verərək, ondan gələcək hərəkətlər barəsində göstərişlər istəməlidir.

986.2. Gələcək hərəkətlər haqqında göstərişlər bank qaydaları ilə müəyyənləşdirilmiş müddətdə, bu müddət olmadıqda isə ağlabatan müddətdə alınmadıqda, icraçı bankın sənədləri emitent banka qaytarmağa ixtiyarı vardır.

§ 5. Çek[653]

Maddə 986-1. Çek anlayışı və onun məzmunu

986-1.1. Çek ifadə etdiyi pul məbləğinin çek sahibinə ödənilməsi barədə çek verənin banka verdiyi və heç nə ilə şərtləndirilməyən yazılı sərəncamından ibarətdir.

986-1.2. Çekdə aşağıdakı rekvizitlər göstərilməlidir:

986-1.2.1. sənədin mətninə daxil edilmiş "çek" adı;

986-1.2.2. müəyyən pul məbləğini ödəmək barədə sadə və heç nə ilə şərtləndirilməyən tapşırıq;

986-1.2.3. ödənişi icra etməli olan bankın adı;

986-1.2.4. ödəniş yeri;

986-1.2.5. çekin tərtib olunduğu tarix və yer;

986-1.2.6. çek verənin imzası.

986-1.3. Bankların yalnız elə çek blankları verməsinə icazə verilir ki, orada mətbəə üsulu ilə çap edilmiş aşağıdakı məlumatlar olsun: ödəyici bankın adı, ünvanı və telefon nömrəsi, çek verənin (hesab sahibinin) adı və ünvanı, habelə ödəyici bankın hesab nömrəsi.

986-1.4. Çeklərə hesablaşma çeki, bank çeki, pul çeki və yol çeki aiddir.

986-1.5. Hesablaşma çeki hesablardan nağdsız qaydada hesablaşmaların aparılmasını nəzərdə tutan çekdir.

986-1.6. Bank çeki bir bankın başqa banka banklararası hesablaşmaların aparılması üçün təqdim etdiyi çekdir.

986-1.7. Pul çeki müştərinin bankda olan hesabından nağd pul vəsaitini almaq üçün yazılı sərəncamdan ibarət olan çekdir.

986-1.8. Yol çeki bir məntəqədə verilmiş çekdə imza nümunəsi göstərilən çek sahibinə çekdə yazılmış məbləği ödəməyi üzərinə götürən təşkilatın öhdəliyi olub, digər məntəqədə nağdlaşdırılan çekdir. Yol çeklərinin ödənilməsi sahibinin imzası əsasında çekin emitenti, onun filialı və yaxud emitentin göstərdiyi digər təşkilat tərəfindən həyata keçirilir.

Maddə 986-2. Veksellər haqqında müddəaların çeklərə tətbiqi

Vekselin aksept edilməsinə dair müddəalar istisna olmaqla, bu Məcəllənin 1005.2.4-cü, 1006-cı, 1009-1012-ci maddələrinin müddəaları çeklərdən irəli gələn münasibətlərin tənzimlənməsinə də tətbiq edilir.

Maddə 986-3. Çekin təminatı tələbi

986-3.1. Çek yalnız o hallarda verilə bilər ki, çek verənin bankdakı hesablarında vəsaiti və həmin vəsaitə dair çeklər vasitəsilə sərəncam vermək hüququ olsun.

986-3.2. Çekin ödənilməsi üçün çek verənin vəsaiti və ya ona verilmiş kredit kifayət etmədikdə bankın çeki ödəməkdən imtina etmək hüququ vardır. Bank təmin olunmamış məbləği ödədikdə, çek sahibinin hüquqları ona keçir. Bank çeki tamamilə və ya qismən ödəməkdən imtina etdikdə, aşağıdakı nəticələr baş verməlidir:

986-3.2.1. çek verən, yaxud tamamilə və ya qismən ödənilməmiş çeki çek verənin əvəzinə imzalamış şəxs birgə borclular kimi, çek məbləğinin ödənilməmiş hissəsinin 6 faizi miqdarında zərərin əvəzini çek sahibinə ödəməlidirlər. Çek sahibinin başqa zərərin əvəzinin ödənilməsi tələbini həyata keçirmək hüququ saxlanılır;

986-3.2.2. bank təminat olmadığından çekin tamamilə və ya qismən ödənilmədiyini çekin özündə qeyd etməli və ləngimədən onu çek sahibinə göndərməli, bu barədə belə çekləri imzalamış çek verənlərin reyestrini tərtib edən Azərbaycan Respublikasının Mərkəzi Banka dərhal bildiriş göndərməlidir;[654]

986-3.2.3. təmin olunmamış çeki verənin bir il ərzində çeklər verməsinə icazə verilmir və o özündə olan bütün çek blanklarını dərhal ödəyici banka və müştərisi olduğu bütün başqa banklara qaytarmalıdır. Ödəyici bank bunu yazılı şəkildə dərhal çek verəndən və hesablardakı vəsaitə dair sərəncam verməyə ixtiyarı olan bütün şəxslərdən tələb etməli və bundan sonra çek verməyi onlara qadağan etməlidir;

986-3.2.4. bu tələbdən sonra bir ay müddətində çek verən çek sahibi barədə çek məbləğinin ödənilməmiş hissəsini ödədiyini, habelə bu Məcəllənin 986-3.2.1-ci maddəsinə uyğun olaraq zərərin əvəzini ödədiyini, yaxud həmin məbləğlərin tam ödənilməsi üçün ödəyici bankın kifayət qədər vəsaitə malik olması qayğısına qaldığını ödəyici banka sübut edərsə, bu Məcəllənin 986-3.2.3-cü maddəsinə uyğun olaraq çeklərin verilməsinin qadağan edilməsinin gələcək üçün qüvvəsi olmur.

Maddə 986-4. Çekin aksept edilməsinin istisna olunması

Ödəyici çeki aksept etməməlidir. Çekdə aksept barədə yazılan qeyd etibarsız sayılır.

Maddə 986-5. Çek üzrə ödənişi almağa ixtiyarlı şəxsin adı

986-5.1. Çek yazıla bilər:

986-5.1.1. müəyyən şəxsin adına;

986-5.1.2. təqdim edənə (adsız).

986-5.2. Çek "və ya təqdim edənə" qeyd-şərti ilə, yaxud bu cür məna ifadə edən qeyd-şərtlə müəyyən şəxsə verilərsə, adsız çek sayılır.

986-5.3. Sahibinin adı göstərilməyən çek adsız çek sayılır.

986-5.4. Çek, çek verənin özünə verilə bilər.

Maddə 986-6. Çekdə faizlər barədə yazılan qeyd-şərtin etibarsızlığı

Çekdə faizlər barədə yazılan qeyd-şərt etibarsız sayılır.

Maddə 986-7. Çekin başqasına verilməsi

986-7.1. Müəyyən şəxsə verilmiş və ödənişə təqdim olunmuş çek indossament vasitəsilə başqa şəxsə verilə bilər.

986-7.2. Çek indossament vasitəsilə həmçinin çek verənə və çek üzrə mükəlləfiyyətli hər hansı şəxsə verilə bilər. Öz növbəsində bu şəxslər də çeki indossament edə bilərlər.

986-7.3. Ödəyici bankın indossamenti etibarsızdır. Adsız indossament blanklı indossament sayılır. Bankın bir neçə şöbəsinin (filialının) olduğu və indossamentin çekin verildiyi şöbənin deyil, başqa şöbənin xeyrinə edildiyi hallar istisna olmaqla, bank üçün indossamentin yalnız ödəniş qəbzi qüvvəsi vardır.

986-7.4. Vekselin aksept edilməsinə dair müddəalar istisna olmaqla, bu Məcəllənin 993.3-cü, 993.4-cü, 1018-ci və 1020-ci maddələrinin müddəaları çeklərə də tətbiq edilir.

Maddə 986-8. Çek sahibinin xeyrinə ehtimal. Çekin itirilməsi

986-8.1. Çek sahibinin xeyrinə ehtimala bu Məcəllənin 1019.1-ci maddəsi tətbiq edilir.

986-8.2. Çek sahibi çeki itirdikdə, əlində çek olan şəxs, onun adsız çek və ya indossament vasitəsilə verilən çek olmasına baxmayaraq, çeki yalnız o halda qaytarmağa borcludur ki, onu vicdansız yolla əldə etmiş olsun və ya əldə edərkən kobud ehtiyatsızlıq etmiş olsun.

Maddə 986-9. Çek zaminliyi (aval)

Çek məbləğinin ödənişinə avalçı tərəfindən aval (çek zaminliyi) vasitəsilə tamamilə və ya qismən qarantiya verilə bilər. Ödənişə belə qarantiyanı, ödəyici bank istisna olmaqla, hər hansı üçüncü şəxs və ya artıq çekdə imzası olan şəxs verə bilər.

Maddə 986-10. Çekin ödənişə təqdim olunması

986-10.1. Çek təqdim olunduqda ödənilməlidir. Hər cür başqa göstəriş etibarsız sayılır.

986-10.2. Tərtib edildiyi ölkədə ödənilməli olan çek bir ay müddətində ödənişə təqdim olunmalıdır. Verildiyi ölkədə deyil, başqa ölkədə ödənilməli olan çek, verilmə yeri ilə ödəniş yeri

eyni qitədədirsə, iki ay müddətində, müxtəlif qitələrdədirsə, üç ay müddətində ödənişə təqdim edilməlidir. Həm də Müstəqil Dövlətlər Birliyinin üzvü olan bir dövlətin ərazisində verilən və Müstəqil Dövlətlər Birliyinin üzvü olan digər dövlətin ərazisində ödənilməli olan çeklər eyni qitədə verilən və ödənilməli olan çeklər sayılır. Yuxarıda göstərilən müddətlərin axımı çekdə onun verilmə günü kimi göstərilən gündən başlanır.

986-10.3. Əgər çek onun verildiyi yerin təqvimindən fərqlənən başqa təqvimin qüvvədə olduğu yerdə ödənilməlidirsə, ödəniş yerinin təqviminə əsasən verilmə gününə uyğun tarix və bundan asılı olaraq ödəniş müddəti müəyyənləşdirilir.

Maddə 986-11. Çekin geri götürülməsi

986-11.1. Çekin geri götürülməsi yalnız onun təqdim edilmə müddəti qurtardıqdan sonra etibarlıdır.

986-11.2. Çek geri götürülmədikdə, bank çekin təqdim edilmə müddəti qurtardıqdan sonra da ödənişi icra edə bilər.

986-11.3. Çek verən özünün və ya hər hansı üçüncü şəxsin çeki itirdiyini təsdiq edirsə, ödəyiciyə ödənişin icrasını qadağan edə bilər.

Maddə 986-12. Çek verənin ölməsinin, fəaliyyət qabiliyyətini itirməsinin və ya ödəmə qabiliyyətli olmamasının nəticələri

Çek verildikdən sonra çek verənin ölməsi və ya fəaliyyət qabiliyyətini itirməsi və ya ödəmə qabiliyyətli olmamasının elan edilməsi çekin etibarlığına təsir göstərmir.

Maddə 986-13. Çek üzrə ödəniş və ödənişə dair qəbz. Xarici valyutada verilən çeklər

Çek üzrə ödənişlərə, ödənişə dair qəbz verilməsinə və xarici valyutada çeklərə bu Məcəllənin 1028-ci, 1029.4-cü və 1030-cu maddələri müvafiq surətdə tətbiq olunur.

Maddə 986-14. Cızıqlı çek

986-14.1. Çek verən, habelə hər hansı çek sahibi bu Məcəllənin 986-14.2-986-14.6-cı maddələrində nəzərdə tutulan nəticələr ilə çeki cızıqlaya bilər. Cızıqlama çekin üz tərəfinə iki paralel xətt çəkməklə aparılır. Cızıqlama ümumi və ya xüsusi ola bilər. Xətlər arasında heç bir göstəriş və ya "bank" qeydi və ya eyni mənalı başqa qeyd yoxdursa, cızıqlama ümumi sayılır. Xətlər arasında bankın adı yazılmışsa, cızıqlama xüsusi sayılır. Ümumi cızıqlama xüsusiyə çevrilə bilər, lakin xüsusi cızıqlama ümumiyə çevrilə bilməz. Cızıqlamanın və ya göstərilmiş bankın adının qaralanması etibarsız sayılır.

986-14.2. Ödəyici ümumi cızıqlaması olan çeki yalnız banka və ya öz müştərisinə ödəyə bilər.

986-14.3. Xüsusi cızıqlaması olan çeki ödəyici yalnız göstərilmiş banka və ya əgər bu bankın özü ödəyicidirsə, həmin bankın müştərisinə ödəyə bilər. Göstərilən bank çeki qəbul etməyi digər banka tapşıra bilər.

986-14.4. Bank cızıqlı çeki yalnız öz müştərisindən və ya başqa bankdan qəbul edə bilər.

986-14.5. Bir neçə xüsusi cızıqlaması olan çeki ödəyici yalnız o halda ödəyə bilər ki, çekin üzərində ikidən çox cızıqlama aparılmasın.

986-14.6. Yuxarıdakı göstərişləri yerinə yetirməyən ödəyici və ya bank vurulan zərərin əvəzini çekin məbləğindən artıq olmayan miqdarda ödəməyə borcludur.

Maddə 986-15. Hesablaşma çeki

986-15.1. Çek verən, habelə hər hansı çek sahibi çekin üz tərəfində "hesablaşma" qeydi və ya eyni mənalı başqa qeyd yazmaqla, çekin nağd pulla ödənilməsini qadağan edə bilər. Bu halda ödəyici çekin ödənişini yalnız hesabdan hesaba keçirmə yolu ilə (hesablaşma, köçürmə, nağdsız hesablaşmalar) icra edə bilər. Hesabda yazı ödəniş sayılır. "Hesablaşma" qeydinin pozulması etibarsız sayılır. Yuxarıdakı göstərişləri yerinə yetirməyən ödəyici vurulan zərərin əvəzini çekin məbləğindən artıq olmayan miqdarda ödəməyə borcludur.

986-15.2. Əgər ödəyici ödəmə qabiliyyəti olmayan elan edilmişsə və ya o, ödənişlərin icrasını dayandırmışsa və ya tutmanın onun əmlakına yönəldilməsi nəticəsiz qalmışsa, hesablaşma çekinin sahibi ödəyicidən çeki nağd pulla ödəməyi tələb edə bilər, çek ödənilmədikdə isə özünün reqres hüququnu həyata keçirə bilər. "Banklar haqqında" Qanuna əsasən görülən tədbirlər nəticəsində çek sahibi özünün ödəyicidəki hesablarına dair sərəncam verə bilmədikdə də bu qayda tətbiq olunur.

986-15.3. Hesablaşma çeki sahibinin, bundan əlavə, iddia vermək hüququ vardır, amma o sübut etməlidir ki, ödəyici hesabda sadə və heç nə ilə şərtləşdirilməyən qeyd yazmaqdan imtina edir və ya ödəniş yeri üzrə müvafiq hesablaşma orqanı öhdəliklərin ödənilməsi məqsədi ilə nağdsız hesablaşmalar aparılması üçün çeki yararsız elan etmişdir.

Maddə 986-16. Çek üzrə ödəməmə nəticəsində iddia

986-16.1. Ödənişə vaxtında təqdim olunan çek ödənilmədikdə çek sahibi indossantlara, çek verənə və çek üzrə digər mükəlləfiyyətli şəxslərə iddia verə bilər.

986-16.2. Çek sahibi iddia verdiyi şəxsdən aşağıdakıları tələb edə bilər:

986-16.2.1. çek ödənilməyibsə, çek məbləğinin ödənilməsini;

986-16.2.2. faizlərin ödənilməsini;

986-16.2.3. xərclərin ödənilməsini;

986-16.2.4. faizin üçdəbirindən çox olmayan miqdarda penya.

986-16.3. Əgər çekin vaxtında təqdim edilməsinə qarşısıalınmaz maneə əngəl törədirsə, çeklərin ödənişə təqdim edilməsi müddətlərinin uzadılmasına bu Məcəllənin 1042-ci maddəsi tətbiq olunur.

Maddə 986-17. Saxta çek

Qəlp və ya saxta çekin ödənişi ilə əlaqədar zərəri ödəyici çəkir, bu şərtlə ki, çekdə göstərilən çek verən təqsirli olmasın, məsələn, ona tapşırılmış çek blanklarını etinasız saxlamış olmasın.

Maddə 986-18. Çekin mətninin dəyişdirilməsi

Çekin mətninin dəyişdirilməsinə bu Məcəllənin 1045-ci maddəsi tətbiq edilir.

Maddə 986-19. Çek öhdəlikləri üzrə iddia müddətləri

Çek sahibinin indossantlara, çek verənə və çek üzrə digər mükəlləfiyyətli şəxslərə qarşı çekdən irəli gələn iddia tələbləri təqdimetmə müddəti qurtardıqdan bir il sonra ödənilir. Çek üzrə mükəlləfiyyətli olan bir şəxsin çek üzrə mükəlləfiyyətli olan digər şəxsə iddia tələbləri çekin mükəlləfiyyətli şəxs tərəfindən ödənildiyi və ya məhkəmə qaydasında ondan çek üzrə ödənişin tutulduğu gündən bir il sonra ödənilir.

Maddə 986-20. Çekin etibarsız elan edilməsi

Çekin etibarsız elan edilməsinə bu Məcəllənin 1047-ci maddəsi tətbiq olunur.

Maddə 986-21. Çekin ödənişə təqdim edilməsi müddətlərinin hesablanması

Çek ödənişə yalnız iş günləri təqdim olunmalıdır. Təqdimetmə müddətinin son günü bazar gününə və ya başqa qeyri-iş gününə düşdükdə, müddət növbəti iş gününədək uzadılır. Müddət ərzində olan qeyri-iş günləri müddət hesablanarkən nəzərə alınır.

54-cü fəsil.[655]

Qiymətli kağızlar

§ 1. Qiymətli kağızlar haqqında ümumi müddəalar

Maddə 987. Qiymətli kağız anlayışı

987.1. Qiymətli kağız onun mülkiyyətçisi və emitenti arasında müqavilə münasibətlərinin mövcudluğunu və mülkiyyətçinin həmin müqavilədən irəli gələn hüquqlarını təsdiqləyən sənəddir. Qiymətli kağızı emissiya etmiş, buraxmış və ya vermiş şəxs bu Məcəllənin 54-cü fəslinin məqsədləri üçün emitent adlanır.[656]

987.2. Qiymətli kağızların növləri, məcburi rekvizitləri, onlara aid tələblər, qiymətli kağızlar və qiymətli kağız bazarı ilə bağlı münasibətlər bu Məcəllə və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.[657]

987.3. Qiymətli kağızın məcburi rekvizitlərinin olmaması və ya qiymətli kağızın onun üçün müəyyənləşdirilmiş formaya uyğun gəlməməsi onun əhəmiyyətsizliyinə səbəb olur.

Maddə 988. Qiymətli kağız üzrə öhdəliklər və onların icrası

988.1. Qiymətli kağızda emitentə qarşı təsbit edilmiş hər hansı tələb həmin qiymətli kağızla təsdiqlənir. Belə tələbin etibarlılığı onu əmələ gətirən əqdin mövcudluğundan və ya etibarlılığından asılı deyildir. Qiymətli kağızla təsdiqlənmiş öhdəliyin icrasından onun əsasının olmamasına və ya onun etibarsızlığına istinadla imtina edilməsinə yol verilmir.[658]

988.2. ~~Qiymətli kağız üzrə borclu icranı yalnız qiymətli kağızın ona verilməsi ilə eyni vaxtda həyata keçirməlidir.~~ *Emitent qiymətli kağızın mülkiyyətçisinə* icranı hansı həcmdə həyata keçirmişdirsə, öz öhdəliyindən də həmin həcmdə azad edilir.[659]

988.3. Qiymətli kağızı vermiş *emitent* və onu indossament etmiş bütün şəxslər onun *mülkiyyətçisi* qarşısında birgə məsuliyyət daşıyırlar. Qiymətli kağızın *mülkiyyətçisinin* tələbi qiymətli kağız üzrə öhdəlik götürmüş bir və ya bir neçə şəxs tərəfindən yerinə yetirildikdə, o (onlar), qiymətli kağız üzrə öhdəlik götürmüş qalan şəxslər qarşısında geriyə tələb (reqres) hüququ əldə edir.[660]

~~988.4. Qiymətli kağızla təsdiqlənmiş öhdəliyin icrasından onun əsasının olmamasına və ya onun etibarsızlığına istinadla imtina edilməsinə yol verilmir.~~[661]

988.5. Qiymətli kağızın *mülkiyyətçisi* qiymətli kağızda aldatma və ya saxtalaşdırma aşkar etdikdə kağızı ona vermiş borcluya qarşı qiymətli kağızla təsdiqlənmiş öhdəliyin lazımınca yerinə yetirilməsi və zərərin əvəzinin ödənilməsi tələbini irəli sürə bilər.[662]

Maddə 989. Adlı qiymətli kağızlar[663]

989.1. Mülkiyyətçisinin adı üzərində təsbit edilən və ya mülkiyyət hüququ mərkəzi depozitarda qeydiyyata alınmış qiymətli kağız adlı qiymətli kağızdır.

989.2. Adlı qiymətli kağız üzrə borclu icranı yalnız özünün adına qiymətli kağız verilmiş və ya digər qaydada qiymətli kağıza mülkiyyət hüququnu əldə etmiş şəxs kimi, yaxud həmin şəxsin hüquq varisi kimi təsdiq edən şəxs həyata keçirməlidir. Əgər borclu icranı bu cür təsdiq olmadan həyata keçirsə, o, qiymətli kağıza dair öz hüququnu sübut edəcək üçüncü şəxs qarşısında öhdəliyindən azad edilmir.

Maddə 990. Adsız qiymətli kağızlar

990.1. Qiymətli kağız o halda adsız sayılır ki, ona əsasən *emitent* öhdəliyi bu qiymətli kağızı təqdim edən istənilən şəxsə icra etməyi öz üzərinə götürür.

990.2. Əgər məhkəmənin qərarı ilə və ya başqa qanuni göstəriş əsasında qadağan edilərsə, *emitent* adsız qiymətli kağız üzrə sonrakı ödənişləri icra etməməlidir.[664]

Maddə 991. Sənədli qiymətli kağızlar[665]

991.1. Sənədli qiymətli kağız saxtalaşdırma imkanlarını aradan qaldırmaq məqsədi ilə xüsusi qaydada hazırlanmış kağız blanklarda (sertifikatda) çap edilmiş qiymətli kağız formasıdır.

991.2. Sənədli qiymətli kağız blanklarına və onları hazırlayan şəxslərə aid tələblər Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilir.

Maddə 992. Qiymətli kağızların dövlət qeydiyyatı[666]

Qiymətli kağızlar (investisiya fond payı və daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla) Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən dövlət qeydiyyatına alınmaqla qiymətli kağızların dövlət reyestrinə daxil edilir.[667]

~~Maddə 992-1. Qiymətli kağızlar bazarı və qiymətli kağızlar bazarının iştirakçıları~~[668]

~~992-1.1. Qiymətli kağızlar bazarı qiymətli kağızların emissiyası, buraxılması, tədavülü, ödənilməsi, sahibliyi, saxlanılması, onlarla əqdlərin bağlanması, digər əməliyyatların aparılması üzrə subyektlər arasında olan hüquqi və iqtisadi münasibətlərin məcmusudur.~~

~~992-1.2. Qiymətli kağızlar bazarının iştirakçıları qiymətli kağızların emissiyasında, tədavülündə, ödənilməsində, sahibliyində, saxlanılmasında, qiymətli kağızlarla əməliyyatların aparılmasında subyekt və ya tərəf kimi çıxış edən şəxslər, habelə qiymətli kağızlar bazarının tənzimlənməsini həyata keçirən dövlət və qeyri-kommersiya təşkilatları olan qiymətli kağızlar bazarının iştirakçılarının özünü tənzimləyən təşkilatlarıdır.~~

~~992-1.3. Emitent qiymətli kağızların emissiyasını qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirən şəxs, müvafiq icra hakimiyyəti orqanı və müvafiq qaydada buna səlahiyyətləndirilmiş dövlət orqanı və ya bələdiyyədir.~~

~~992-1.4. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyət hüquqi və ya fiziki şəxslər tərəfindən qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) əsasında həyata keçirilən sahibkarlıq fəaliyyətidir.~~

~~992-1.5. Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları qiymətli kağızlar bazarında xüsusi razılıq (lisenziya) əsasında sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi şəxslərdir.~~[669]

~~992-1.6. Qiymətli kağızların nominal saxlayıcısı hüquq sahibinin tapşırığı ilə və onun xeyrinə qiymətli kağız sahiblərinin reyestrində qeydə alınmış və bu qiymətli kağızların hüquqi mülkiyyətçisi olmayan şəxsdir.~~

~~992-1.7. Broker fəaliyyəti müştərinin hesabına tapşırıq və ya komisyon müqaviləsi əsasında müvəkkil və ya komisyonçu kimi fəaliyyət göstərən, həmin müştərinin mənafeyi üçün qiymətli kağızlarla alqı-satqı əqdlərinin bağlanması üzrə qiymətli kağızlar bazarında peşəkar fəaliyyətdir.~~

~~992-1.8. Diler fəaliyyəti öz adından və öz hesabına əvvəlcədən kütləvi elan olunmuş alış və (və ya) satış qiymətləri ilə qiymətli kağızlar üzrə alqı-satqı əqdlərinin bağlanması üzrə qiymətli kağızlar bazarında peşəkar fəaliyyətdir. Kütləvi elan açıq elan formasında edilmiş təklifdir.~~

~~992-1.9. Aktivlərin idarə edilməsi müstəsna predmeti müştəriyə məxsus olub, idarəçiliyə verilmiş pul vəsaitləri, qiymətli kağızlar və qanunvericiliklə müəyyən edilmiş digər əmlakla müştərinin və ya onun göstərdiyi üçüncü şəxsin mənafeyi üçün əməliyyatların aparılmasından ibarət olan qiymətli kağızlar bazarında peşəkar fəaliyyətdir.~~[670]

~~992-1.10. Klirinq fəaliyyəti qiymətli kağızlarla əqdlər üzrə qarşılıqlı öhdəliklərin müəyyən edilməsi (məlumatların toplanması, yoxlanması, üzləşdirilməsi, mühasibat~~

~~sənədlərinin hazırlanması), hesablaşmaların aparılması və öhdəliklərin qarşılıqlı icrasının təmin edilməsi üzrə peşəkar fəaliyyətdir.~~

~~992-1.11. Depozitar fəaliyyət qiymətli kağızların saxlanması, onlara hüquqların və öhdəliklərin yüklənməsi faktlarının uçotu və təsdiqi, habelə qanunvericiliklə müəyyən edilmiş qaydada pul hesablarının açılması, aparılması və pul köçürmələri ilə əlaqədar xidmətlər göstərilməsindən ibarət olan peşəkar fəaliyyətdir.~~[671]

~~992-1.12. Depozitar sistemi bir-biri ilə "depo" hesabları açmaq vasitəsi ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərən depozitarların vahid sistemidir.~~

~~992-1.13. Qiymətli kağızların sahiblərinin reyestrinin aparılması qiymətli kağızlar, onların emitenti, sahibləri, nominal saxlayıcıları barədə məlumatların toplanması, qeydə alınması, işlənməsi, saxlanması və təqdim edilməsi xidmətlərinin göstərilməsi üzrə peşəkar fəaliyyətdir.~~

~~992-1.14. Fond birjası qiymətli kağızlarla əqdlərin bağlanması üçün zəruri şəraitin yaradılması, onların bazar qiymətlərinin müəyyən edilməsi, onlar haqqında lazımi məlumatın yayılması üzrə peşəkar fəaliyyətdir.~~

~~992-1.15. İnvestor qiymətli kağızları mülkiyyətinə əldə etmiş şəxsdir.~~

~~992-1.16. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatı qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının könüllülük, qeyri-kommersiya prinsipləri əsasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatı olan ictimai birliyidir.~~

~~992-1.17. Qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiya qiymətli kağızlar bazarının stabilliyinin pozulmasına səbəb ola bilən, qiymətli kağızlar bazarının iştirakçılarının qiymətli kağızlarla əqdlər üzrə qiymətli kağızların bazar qiymətinin hər hansı bir üsulla əvvəlcədən razılaşdırılmış, qəsdən edilmiş əməllər ilə süni olaraq dəyişdirilməsidir. Qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiyaya yol verilmir.~~

Maddə 993. Qiymətli kağıza mülkiyyət hüququnun əmələ gəlməsi və ötürülməsi[672]

993.1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər sənədsiz qiymətli kağızlara mülkiyyət hüququ buraxılış zamanı həmin qiymətli kağızın ilk mülkiyyətçiyə özgəninkiləşdirilməsindən sonra mərkəzi depozitarda qeydə alındığı andan əmələ gəlir. Sənədli qiymətli kağızlara mülkiyyət hüququ həmin qiymətli kağızların ilk mülkiyyətçiyə özgəninkiləşdirildiyi andan əmələ gəlir. [673]

993.2. Mülkiyyətçi qiymətli kağıza mülkiyyət hüququnu bu Məcəllənin 1078-20-ci maddəsində göstərilən qaydada əqdlərin bağlanması yolu ilə başqa şəxsə ötürə bilər.

993.3. Bu Məcəllənin 993.2-ci maddəsi ilə nəzərdə tutulmuş qaydada daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər sənədsiz qiymətli kağızları əldə edən şəxsin mülkiyyət hüquqları həmin qiymətli kağızların ötürülməsinin mərkəzi depozitarda qeydiyyatı ilə, sənədli qiymətli kağızları əldə edən şəxsin mülkiyyət hüquqları isə müvafiq əqdin bağlanması ilə yaranır. [674]

993.4. Qiymətli kağıza mülkiyyət hüququ başqasına verildikdə və bu Məcəllənin 1078-21-ci maddəsində nəzərdə tutulmuş digər şərtlər yerinə yetirildikdə qiymətli kağızla təsdiqlənmiş

bütün hüquqlar əldə edənə keçir, bu şərtlə ki, həmin qiymətli kağızı başqasına vermək hüququ mövcud olsun.

993.5. Əgər müqavilədə və ya qiymətli kağızın özündə nəzərdə tutulubsa, digər şəxslərin, xüsusən də emitentin iştirakı qiymətli kağıza mülkiyyət hüququnun verilməsi üçün zəruridir.

Maddə 994. *Sənədli qiymətli* kağızların zədələnməsi, korlanması[675]

Sənədli qiymətli kağız zədələnmək və ya korlanmaq nəticəsində dövriyyə üçün yararsız olduqda onun *mülkiyyətçisi emitentdən* zədələnmiş və ya korlanmış kağızın qaytarılması müqabilində yeni qiymətli kağız verməyi tələb edə bilər, bu şərtlə ki, həmin kağızda onun əsas məzmununu və fərqləndirici əlamətlərini inamla müəyyənləşdirmək hələ mümkün olsun. Zədələnmiş və ya korlanmış *sənədli* qiymətli kağızın əvəz olunması xərclərini onun *mülkiyyətçisi* çəkir.

Maddə 995. *Sənədli qiymətli* kağızın etibarsız elan edilməsi[676]

995.1. *Sənədli qiymətli* kağız itirilmişdirsə, *onun mülkiyyətçisinin* vəsatəti ilə məhkəmə ~~*emitent* fiziki şəxsin yaşayış yeri üzrə və ya~~ *emitent* hüquqi şəxsin olduğu yer üzrə bu qiymətli kağızı etibarsız elan edə bilər. *Adsız* qiymətli kağızlar itirilmişdirsə, ərizəçinin tələbi ilə məhkəmə qiymətli kağız üzrə *emitentə* onu ödəməyi qadağan edə bilər.[677]

995.2. *Sənədli qiymətli* kağızın etibarsız elan edilməsi haqqında vəsatəti itki və ya itkinin aşkar edilməsi məqamında *onun mülkiyyətçisi* olmuş şəxs verə bilər. Ərizəçi qiymətli kağıza *mülkiyyət hüququnu* və onun itirildiyini sübuta yetirməlidir. ~~Əgər kupon vərəqi və ya səhm kuponu olan qiymətli kağız sahibi yalnız kupon vərəqini və ya səhm kuponunu itirərsə, vəsatətini əsaslandırması üçün əsas qiymətli kağızı təqdim etməsi kifayətdir.~~[678]

Maddə 996. Sənədsiz qiymətli kağızlar

996.1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər sənədsiz qiymətli kağız mülkiyyətçisinin adı və digər rekvizitləri mərkəzi depozitardakı yazıda əks olunmuş elektron sənəd formasında olan qiymətli kağızdır. Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanunu daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər sənədsiz qiymətli kağızlara tətbiq edilmir.[679]

996.2. Hüququ sənədsiz formada təsbit etmiş şəxs hüquq sahibinin tələbi ilə ona təsbit edilmiş hüququ təsdiqləyən sənəd verməlidir.

996.2-1. İpoteka kağızına mülkiyyət hüququnun yaranması, ipoteka kağızının dövlət qeydiyyatı, ipoteka kağızı üzrə hüquqların ötürülməsi (tədavülü) və ipoteka kağızına xitam verilməsi "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müəyyən edilir. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı yalnız elektron sənəd formasında tərtib olunur. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka

kağızı üzrə hüquqlar bu Məcəllənin 1078-20.11-ci maddəsi ilə müəyyən edilmiş tələblərin elektron qaydada təmin edilməsi yolu ilə ötürülür.[680]

~~996.3. Göstərilən təsbit yolu ilə təsdiqlənən hüquqlar, hüquqların və hüquq sahiblərinin rəsmən təsbit edilməsi qaydası, qeydlərin sənədli surətdə təsdiqlənməsi qaydası və sənədsiz qiymətli kağızlarla əməliyyatların aparılması qaydası qanunla və ya qanunun müəyyənləşdirdiyi qaydada təyin edilir.~~

~~996.4. Sənədsiz qiymətli kağızlarla əməliyyatlar yalnız hüquqların qeydiyyatını aparan şəxsə müraciət etməklə aparıla bilər. Hüquqların başqasına verilməsi, təqdim olunması və məhdudlaşdırılması rəsmi yazıların salamatlığı, onların məxfiliyinin təmin edilməsi, bu cür yazılar haqqında düzgün məlumatlar verilməsi, aparılmış əməliyyatlar haqqında rəsmi qeydlərin yazılması üçün məsuliyyət daşıyan bu şəxs tərəfindən rəsmən təsbit edilməlidir.~~[681]

Maddə 997. Qiymətli kağızların növləri[682]

997.1. Qiymətli kağızlara istiqraz, səhm, veksel, depozitar qəbzi, investisiya fond payı, girov kağızı, ipoteka kağızı və daşınmaz əmlak sertifikatı aiddir.[683]

997.2. İstiqrazlar və səhmlər investisiya qiymətli kağızlarıdır. İnvestisiya qiymətli kağızları buraxılışlarla yerləşdirilir və qiymətli kağızların əldə edilməsi vaxtından asılı olmayaraq bir buraxılış daxilində hüquqların həyata keçirilməsinin həcmi və müddəti eyni olan qiymətli kağızlardır. Qiymətli kağızların buraxılışı emitentin qiymətli kağızların bir növünə aid olan və eyni dövlət qeydiyyat nömrəsi olan qiymətli kağızlarının toplusudur. *İnvestisiya qiymətli kağızları sənədsiz ~~və ya sənədli~~ olmaqla adlı formada buraxılır. İnvestisiya qiymətli kağızlarının emissiyası qaydası "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunur.*[684]

997.3. *Veksellər* ödəniş qiymətli kağızlarıdır.[685]

997.4. Depozitar qəbzi baza aktivi (xarici emitentin qiymətli kağızı) üzrə hüquqları təsdiqləyən və mülkiyyətçisinə onu buraxmış emitentdən, həmin qəbzin baza aktivi olan xarici emitentin qiymətli kağızları və onlarla təsdiqlənmiş hüquqları tələb etmək hüququ verən qiymətli kağızdır. Depozitar qəbzlərinin buraxılışı, onların dövlət qeydiyyatına alınması və tədavülü qaydası Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilir.[686]

997.5. İnvestisiya fond payı öz mülkiyyətçisinin paylı investisiya fondunda payına mülkiyyət hüquqlarını təsdiq edən, paylı investisiya fondu ləğv edildikdən sonra fondun aktivlərinin satışından payına müvafiq pul vəsaitlərini almaq hüququnu, habelə "İnvestisiya fondları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş digər hüquqları verən sənədsiz adlı qiymətli kağızdır.[687]

~~997.6. Qiymətli kağızın sertifikatının məcburi rekvizitləri və onun blankının hazırlanması qaydaları *maliyyə bazarlarına nəzarət orqanı* tərəfindən müəyyən edilir.~~

997.7. Bu Məcəllənin və qiymətli kağızlar *bazarı* haqqında Azərbaycan Respublikasının başqa qanunvericilik aktlarının pozulmasına görə təqsirli şəxslər Azərbaycan Respublikasının mülki, inzibati və ya cinayət qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada məsuliyyət daşıyırlar.[688]

997.8. Qiymətli kağızlar *bazarı* haqqında Azərbaycan Respublikasının qanunvericiliyinin pozulması nəticəsində vurulmuş ziyan bu Məcəllə *və "Qiymətli*

kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş qaydada ödənilməlidir.[689]

~~997.9. Qiymətli kağızlar bazarında dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanı tərəfindən qiymətli kağızlar bazarının iştirakçıları barəsində inzibati tənbeh, müvafiq lisenziyanın dayandırılması, ləğv edilməsi, qiymətli kağızlarla əməliyyatların məhdudlaşdırılması, dayandırılması və qanunvericiliklə onun səlahiyyətlərinə aid edilmiş digər tədbirlərin tətbiq edilməsindən inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət verilə bilər. Belə şikayətin verilməsi məhkəmənin qərarının çıxarılmasına qədər tətbiq olunmuş tədbirin qüvvəsini dayandırmır.~~[690]

Maddə 997-1. Dövlət və bələdiyyə qiymətli kağızları[691]

997-1.1. Dövlət qiymətli kağızları müvafiq icra hakimiyyəti orqanı və müvafiq qaydada buna səlahiyyətləndirilmiş *qurum* tərəfindən buraxılan qiymətli kağızlardır.[692]

997-1.2. Bələdiyyə qiymətli kağızları bələdiyyə tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada buraxılan qiymətli kağızlardır.

~~§ 2. Order~~[693]

~~Maddə 998. Order anlayışı~~

~~998.1. Order elə bir sənəddir ki, onun əsasında bir şəxs (çıxarıcı) başqa şəxsə (ödəyiciyə) çıxarıcının hesabına remitentə pul, qiymətli kağızlar və ya digər əvəzolunan əşyalar verməyi tapşırır. Order remitentin adına,adsız və ya əmrə dair qeyd-şərtlə verilə bilər. Əgər order "veksel" və ya "çek" kimi göstərilirsə, onda, birinci növbədə, bu Məcəllənin veksellər və ya çeklər haqqında müddəaları tətbiq edilir.~~

~~998.2. Orderi almaqla remitent ödəyicidən öhdəliyin icrasını öz adından tələb etmək hüququ qazanır.~~

~~998.3. Ödəyici remitent barəsində öhdəliyi icra etməlidir.~~

~~Maddə 999. Orderin ödəyici tərəfindən aksept edilməsi~~

~~999.1. Ödəyici remitentə icranı yalnız onun orderi aksept etdiyi halda həyata keçirməlidir. Lakin əgər ödəyici çıxarıcının borclusudursa, ödəyici icranı aksept edilmədən də həyata keçirməlidir.~~

~~999.2. Aksept etmə icradan əvvəl və ya icra zamanı bəyan oluna bilər. Əgər aksept etmə icradan əvvəl elan olunursa, ödəyici orderdə aksept haqqında qeyd yazır. Əgər orderdə qeyd onun remitentə təqdim edilməsinədək yazılmışdırsa, remitent üçün aksept ancaq təqdim edilmə anından qüvvəyə malikdir.~~

~~999.3. Order ödəyici üçün aksept edildikdə icranı remitentə həyata keçirmək barəsində birbaşa öhdəlik əmələ gəlir. Order aksept edildikdən sonra o, remitentə yalnız akseptin etibarlığına aid olan və ya orderin, yaxud akseptin məzmunundan irəli gələn etirazlarını bildirə bilər.~~

~~**Maddə 1000. Aksept etməkdən və ya ödənişdən imtina**~~

~~Əgər ödəniş müddəti çatanadək ödəyici orderi aksept etməkdən və ya ödənişi həyata keçirməkdən imtina edirsə, remitent bu barədə çıxarıcıya dərhal bildiriş verməlidir. Remitent orderdən irəli gələn hüququnu həyata keçirə bilmədikdə və ya həyata keçirmək niyyətində olmadıqda da eyni qayda tətbiq olunur.~~

~~**Maddə 1001. Çıxarıcının remitentlə münasibətləri**~~

~~1001.1. Əgər ödəyicinin icranı həyata keçirməsi ilə çıxarıcının borcu ödənilməlidirsə, ödəniş yalnız ödəyici tərəfindən orderin remitentə icrasından sonra yerinə yetirilmiş sayılır.~~

~~1001.2. Remitent orderi qəbul edərək, çıxarıcıya qarşı öz tələb hüququnu yalnız o halda həyata keçirə bilər ki, ödəyicidən ödənişin icrasını tələb etsin və onu orderdə nəzərdə tutulan müddət qurtardıqdan sonra almasın.~~

~~1001.3. Order ona dəlalət edir ki, başlıca əqd üzrə ixtiyarlının çıxarıcıya qarşı müvafiq tələbi vardır.~~

~~**Maddə 1002. Orderin geri götürülməsi**~~

~~Ödəyici orderi aksept edənədək və ya ödənişi icra edənədək çıxarıcı ondan orderi geri götürə bilər.~~

~~**Maddə 1003. Orderin başqasına verilməsi**~~

~~1003.1. Remitent orderi hələ aksept edilməmiş olsa belə, hər hansı üçüncü şəxsə keçirə bilər.~~

~~1003.2. Çıxarıcı orderin keçirilməsini istisna edə bilər. Ödəyici üçün belə istisna yalnız o halda etibarlıdır ki, orderdə onun haqqında qeyd şərt edilmiş olsun və ya ödəyici orderi aksept etməzdən və ya ödənişi icra etməzdən əvvəl çıxarıcı ödəyiciyə bu barədə məlumat vermiş olsun.~~

§ 3. Veksel

Maddə 1004. Veksel anlayışı

Veksellər *adlı* qiymətli kağızlardır, veksel verən onların vasitəsilə müəyyən şəxsə müəyyən məbləğ ödəmək barəsində başqa şəxsə (ödəyiciyə) göstəriş verir (köçürmə vekseli) və ya hər hansı müəyyən şəxsə və ya bu şəxsin sərəncamına müəyyən məbləğ ödəməyi öhdəsinə götürür (sadə veksel).[694]

Maddə 1005. Köçürmə vekseli

1005.1. Köçürmə vekseli aşağıdakı rekvizitlərin olduğu sənəddir:

1005.1.1. Sənədin mətninə daxil edilmiş "veksel" adı;

1005.1.2. veksel verənin müəyyən məbləği ödəmək barəsində sadə və heç nə ilə şərtləşdirilməmiş göstərişi;

1005.1.3. kim ödəməlidirsə, onun (ödəyicinin) adı;

1005.1.4. ödəniş kimə və ya kimin sərəncamı ilə icra edilməlidirsə, onun adı;

1005.1.5. vekselin tərtib edildiyi tarix;

1005.1.6. veksel verənin imzası;

1005.1.7. vekselin tərtib edildiyi yer;

1005.1.8. vekselin ödənilməsi vaxtı (veksel üzrə ödəniş müddəti);

1005.1.9. ödənişin icra edilməli olduğu yer.

1005.2. Bu Məcəllənin 1005.1-ci maddəsində göstərilmiş rekvizitlərdən hər hansı birinin olmadığı sənədin, aşağıdakı hallar istisna olmaqla, köçürmə vekseli qüvvəsi yoxdur:

1005.2.1. ödəniş müddəti göstərilməmiş köçürmə vekseli təqdim edildikdə ödənilməli olan veksel (müddəti təqdim edilməsi ilə müəyyənləşdirilən veksel) sayılır;

1005.2.2. ödəniş yeri xüsusi göstərilmədikdə ödəyicinin adı ilə yanaşı göstərilmiş yer ödəniş yeri və bununla birlikdə, ödəyicinin yaşayış yeri və ya olduğu yer sayılır;

1005.2.3. tərtib edildiyi yer göstərilməmiş köçürmə vekseli veksel verənin adı ilə yanaşı göstərilmiş yerdə imzalanmış sayılır;

1005.2.4. verildiyi məqamda tam doldurulmamış köçürmə vekseli başqa şəxslərə verildikdə və həmin şəxslərə vekseldə çatışmayan məlumatları sonradan tamamlamaq hüququ verildikdə blank vekseli qüvvəsinə malik olur.

Maddə 1006. Köçürmə vekselləri̇nin növləri̇

1006.1. Köçürmə vekseli veksel verənin özünün sərəncamı ilə verilə bilər.

1006.2. Köçürmə vekseli veksel verənin özünə verilə bilər.

1006.3. Köçürmə vekseli üçüncü şəxsin hesabına verilə bilər.

Maddə 1007. Köçürmə vekseli üzrə ödəniş yeri

Köçürmə vekseli üçüncü şəxsdə, ödəyicinin yaşayış yerində və ya olduğu yerdə və ya hər hansı başqa yerdə ödənilməli ola bilər.

Maddə 1008. Veksel üzrə faizlər

1008.1. Təqdim edildikdə və ya təqdim edildikdən sonra müəyyən vaxt ərzində ödənilməli olan köçürmə vekselində veksel verən şərt qoya bilər ki, veksel məbləğinin üstünə faizlər hesablanacaqdır.

1008.2. Faiz dərəcəsi vekseldə göstərilməlidir; belə göstəriş olmadıqda şərt yazılmamış sayılır.

1008.3. Faizlərin hesablanmağa başlandığı gün göstərilmədikdə onlar vekselin tərtib edildiyi gündən hesablanmalıdır.

Maddə 1009. Veksel məbləği

1009.1. Əgər veksel məbləği həm sözlə, həm də rəqəmlə göstərilmişdirsə, onların arasında fərq olduqda vekselin yazı ilə göstərilmiş məbləğdə qüvvəsi olur.

1009.2. Əgər köçürmə vekselində məbləğ bir neçə dəfə yazı ilə və bir neçə dəfə rəqəmlə göstərilmişdirsə, onların arasında fərq olduqda vekselin daha az məbləğdə qüvvəsi olur.

Maddə 1010. Köçürmə vekselində etibarsız imzalar

Köçürmə vekselində veksel üzrə öhdəlik götürə bilməyən şəxslərin imzaları, saxta imzalar və ya uydurma şəxslərin imzaları olduqda və ya imzaları atmış və ya adından imzalar atılmış şəxsləri hər hansı başqa əsasla mükəlləfiyyətli edə bilməyən imzalar olduqda, digər şəxslərin imzaları qüvvəsini itirmir.

Maddə 1011. Nümayəndəlik səlahiyyəti olmayan şəxsin köçürmə vekselini imzalaması

1076-3.8. Girov qoyulmuş əmlakın satılmasından əldə edilmiş vəsait girovla təmin edilmiş istiqrazların *mülkiyyətçiləri* olan şəxslərə verilir. Girov qoyulmuş əmlakın satılmasından əldə edilmiş vəsaitin məbləği istiqrazlar üzrə icra edilməmiş öhdəliklərin məbləğindən çox olduqda, bu fərq öhdəliklər tam şəkildə ödənildikdən sonra emitentə qaytarılır.[721]

1076-3.9. Girovla təmin edilmiş istiqrazların *mülkiyyətçiləri* bu Məcəllənin 1076-3.7-ci bəndində göstərilmiş tələbləri, öhdəliyin icra müddətinin bitdiyi gündən sonra qanunvericilikdə müəyyən edilmiş müddət ərzində vermək hüququna malikdir.[722]

Maddə 1076-4. Qarantiya ilə təmin edilmiş istiqrazlar

1076-4.1. İstiqrazlar üzrə öhdəliklərin icrasının təmin edilməsi üçün təqdim edilən qarantiya qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilməlidir.

1076-4.2. İstiqrazlar üzrə öhdəliklərin icrasının təmin edilməsi üçün təqdim edilən qarantiya bu istiqrazlar üzrə öhdəliklər tam icra edilənədək geri çağırıla bilməz.

1076-4.3. Qarantiya, emitent tərəfindən istiqrazlar üzrə öhdəliklər tam şəkildə icra olunanadək, sərəncamçıda saxlanılır.

Maddə 1076-5. Dövlət və bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqrazlar

Dövlət və bələdiyyə zəmanəti ilə təmin edilmiş istiqrazların buraxılması qaydası müvafiq qanunvericiliklə tənzimlənir.

Maddə 1076-6. İpoteka istiqrazları[723]

1076-6.1. İpoteka istiqrazları ipoteka örtüyü ilə təmin olunmuş istiqrazlardır.

1076-6.2. İpoteka örtüyünə əsas və əlavə aktivlər daxil edilir.

1076-6.3. Əsas aktivlər qismində yaşayış sahəsinin alınması üçün verilmiş və həmin, yaxud digər yaşayış sahəsinin ipotekası ilə təmin olunmuş kreditlərlə (ipoteka kreditləri) bağlı emitentin tələb hüquqları çıxış edir.

1076-6.4. Əlavə aktivlər ipoteka örtüyünün nominal dəyərinin 20 faizindən çox olmamaqla aşağıdakı tərkibdə ola bilər:

1076-6.4.1. Azərbaycan Respublikasının dövlət qiymətli kağızları;

1076-6.4.2. Azərbaycan Respublikası Mərkəzi Bankının qiymətli kağızları və ya emitentin Azərbaycan Respublikasının Mərkəzi Bankında saxlanılan depozitləri;

1076-6.4.3. müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş dövlətlərin və həmin dövlətlərin mərkəzi banklarının buraxdığı qiymətli kağızlar.

1076-6.5. Azərbaycan Respublikasının Mərkəzi Bankın normativ xarakterli *aktı ilə ayrı hal nəzərdə tutulmayıbsa, ipoteka istiqrazları yalnız ipoteka örtüyünə daxil olan əsas aktivlərin (ipoteka kreditlərinin) valyutasında ola bilər.*

1076-6.6. İpoteka istiqrazlarının orta çəki metodu ilə hesablanmış ödəniş müddəti ipoteka örtüyünə daxil olan ipoteka kreditlərinin orta çəki metodu ilə hesablanmış ödəniş müddətindən çox ola bilməz. Orta çəki metodu ilə ödəniş müddətlərinin hesablanması qaydası Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilir.

1076-6.7. İpoteka istiqrazlarını yalnız kredit təşkilatları və müvafiq icra hakimiyyəti orqanı tərəfindən ipoteka kreditlərinin verilməsi məqsədi ilə yaradılmış qurumlar buraxa bilər.

1076-6.8. İpoteka istiqrazları üzrə emitentin öhdəlikləri tam və ya qismən həmin istiqrazların ipoteka örtüyünə daxil edilmiş aktivlərlə birgə bu Məcəllənin 1076-6.7-ci maddəsi ilə müəyyən edilmiş ipoteka istiqrazları buraxmaq hüququ olan üçüncü şəxslərə verilə bilər, bu şərtlə ki, belə hal emissiya prospektində (informasiya memorandumunda) nəzərdə tutulsun. Emitentin bu Məcəllənin 1076-13-cü maddəsi ilə müəyyən edilmiş müflisləşməsi və ya öhdəliklərini yerinə yetirməməsi halında emitentin öhdəlikləri üçüncü şəxslərə yalnız həmin maddə ilə nəzərdə tutulmuş qaydada keçməlidir.

Maddə 1076-7. İpoteka istiqrazları üzrə faizlər

1076-7.1. İpoteka istiqrazları öz mülkiyyətçilərinin ipoteka istiqrazlarının emissiya prospektində (informasiya memorandumunda) müəyyənləşdirilmiş məbləğdə və qaydada faiz

almaq hüququnu təsbit etməlidir. Bu zaman faiz ödənişləri ipoteka istiqrazlarının buraxılış şərtlərinə uyğun olaraq, lakin ən azı ildə bir dəfə həyata keçirilməlidir.

1076-7.2. İpoteka örtüyünə daxil olan aktivlər üzrə faiz ödənişləri ipoteka istiqrazları üzrə faizlərin ödənilməsini təmin etməlidir.

1076-7.3. Azərbaycan Respublikasının Mərkəzi Bankın normativ xarakterli *aktı ilə ayrı hal nəzərdə tutulmayıbsa, ipoteka örtüyünə daxil olan ipoteka kreditləri sabit faizlərlə verilmiş olduqda ipoteka istiqrazları üzrə faizlər sabit, ipoteka örtüyünə daxil olan ipoteka kreditləri dəyişən faizlərlə verilmiş olduqda isə ipoteka istiqrazları üzrə faizlər dəyişkən olmalıdır. Dəyişən faizlər müəyyən edildikdə, ipoteka örtüyünə daxil olan ipoteka kreditləri üzrə faizlərlə ipoteka istiqrazları üzrə faizlər eyni faiz dərəcəsi bazasına bağlı olmalıdır.*

Maddə 1076-8. İpoteka istiqrazlarının buraxılması xüsusiyyətləri

1076-8.1. İpoteka istiqrazlarının emissiya prospektində (informasiya memorandumunda) "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikası Qanununun 5.3-cü maddəsində nəzərdə tutulmuş məlumatlardan başqa aşağıdakı məlumatlar olmalıdır:

1076-8.1.1. ipoteka örtüyünə daxil olan aktivlər barədə məlumat (dəyəri, tərkibi, borcların ödənilməsi şərtləri və qaydası);

1076-8.1.2. ipoteka istiqrazlarının vaxtından əvvəl ödənişi nəzərdə tutulduqda, bu halda ödənişin şərtləri, yaxud vaxtından əvvəl ödənişə yol verilmədikdə, bu barədə məlumat;

1076-8.1.3. ipoteka istiqrazlarının ödənişi ilə bağlı məlumatın dərc ediləcəyi media subyektləri barədə məlumat;[724]

1076-8.1.4. sərəncamçı ilə bağlı məlumatlar.

1076-8.2. İpoteka istiqrazlarının vaxtından əvvəl ödənilməsi zamanı vaxtından əvvəl ödəniş bir buraxılışın bütün istiqrazlarına eyni şərtlərlə şamil olunur.

1076-8.3. Emitentin emissiya etdiyi ipoteka istiqrazlarının bir buraxılışı bir ipoteka örtüyü ilə təmin edilir. Bir ipoteka örtüyü ilə ipoteka istiqrazlarının bir neçə buraxılışının təmin edilməsinə yalnız əvvəlcədən təsdiq edilən emissiya prospektində (informasiya memorandumunda) nəzərdə tutulduğu halda yol verilir. [725]

Maddə 1076-9. İpoteka örtüyünə dair tələblər

1076-9.1. İpoteka örtüyünə daxil olan aktivlər başqa öhdəliklərlə yüklü edilə bilməz və sərəncamçının icazəsi olmadan ipoteka örtüyünə daxil olan aktivlərə dair sərəncam verilə bilməz. Bu Məcəllənin 1076-13-cü maddəsində nəzərdə tutulmuş halların baş verməsinədək ipoteka örtüyünə daxil edilmiş aktivlərdən daxil olan pul vəsaitləri emitentin hesabında saxlanılır və onun öz mülahizəsi ilə istifadə olunur.

1076-9.2. İpoteka kreditinin verildiyi zaman yalnız ~~müstəqil~~ qiymətləndirici tərəfindən bazar dəyəri ilə qiymətləndirilmiş daşınmaz əmlakla bağlı hüquqlar ipoteka örtüyünə daxil edilir.[726]

1076-9.3. Yaşayış üçün nəzərdə tutulmayan daşınmaz əmlakın, boş torpaq sahəsinin və tamamlanmamış tikintinin ipotekası ilə təmin edilmiş kreditlər ilə bağlı hüquqlar ipoteka örtüyünə daxil edilə bilməz.

1076-9.4. İpoteka istiqrazlarının likvidliyini artırmaq məqsədilə faiz nisbətinin daha aşağı həddi Azərbaycan Respublikasının Mərkəzi Bankın normativ xarakterli *aktı ilə nəzərdə tutulmayıbsa, ipoteka predmetinin hesablanmış bazar dəyərinin 85 faizindən çox məbləğdə verilmiş ipoteka krediti üzrə hüquqlar ipoteka örtüyünə daxil edilmir.*

1076-9.5. İpoteka örtüyünə daxil olan aktivlərin əsas borc məbləğləri üzrə dəyəri emitentin ipoteka istiqrazları üzrə ödəməli olduğu ümumi nominal dəyərin ən azı 110 faizini təşkil etməlidir. Bu zaman hesablamaya hər bir kredit üzrə əsas borcun həmin krediti təmin edən ipoteka predmetinin bazar dəyərinin yalnız 80 faizindən çox olmayan hissəsi daxil edilir.

1076-9.6. İpoteka örtüyünə daxil olan hüquqlarla əlaqəli olan ipoteka kreditləri üzrə şərtlər kredit müddəti ərzində əsas borcun və faizlərin ən azı rübdə bir dəfə olmaqla yalnız pul formasında hissə-hissə ödənilməsini nəzərdə tutmalıdır.

1076-9.7. Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən qeyri-standart kredit kimi təsnifləşdirilmiş kreditlər üzrə hüquqlar ipoteka örtüyünün tərkibinə daxil edilə bilməz.[727]

1076-9.8. İpoteka örtüyünə daxil olan hüquqlarla əlaqəli olan daşınmaz əmlaklar ipoteka krediti üzrə öhdəliyin qüvvədə olduğu bütün müddət ərzində bazar qiyməti əsas götürülməklə və təmin etdiyi kreditin qalıq dəyərinin həcmindən az olmamaqla məhv olma və ya zədələnmə riskindən sığortalanmalıdır.

1076-9.9. İpoteka örtüyünə daxil olan hüquqlarla əlaqəli olan ipoteka müqavilələrində ipoteka saxlayanın razılığı olmadan ipoteka qoyan tərəfindən ipoteka predmetinin özgəninkiləşdirilməsini, digər öhdəliklərlə yüklənməsini, habelə ona dair başqa sərəncam verilməsini (vəsiyyət etmə halları istisna olmaqla), eləcə də ipoteka predmetinin salamatlığına ziyan vuran və ya pisləşməsinə səbəb olan hərəkətləri qadağan edən şərt olmalıdır.

Maddə 1076-10. İpoteka örtüyünün reyestri

1076-10.1. İpoteka istiqrazlarının hər bir emitenti istiqrazların buraxılışı haqqında qərar qəbul etdikdə, istiqrazları təmin edən ipoteka örtüyünün reyestrini sərəncamçının nəzarəti altında yaratmalı və aparmalıdır.

1076-10.2. İpoteka örtüyünün reyestrində müvafiq qeydin edildiyi andan aktivlər ipoteka örtüyünün tərkibinə daxil edilmiş hesab olunur.

1076-10.3. İpoteka örtüyünün reyestrinə ən azı aşağıdakı məlumatlar daxil edilir:

1076-10.3.1. İpoteka örtüyünə daxil olan aktivlər üzrə emitentin hüquqlarını təsdiq edən sənədlərin rekvizitləri;

1076-10.3.2. ipoteka örtüyünə daxil olan aktivlərin məbləği (əsas borc və faiz dərəcəsi), ödəniş müddətləri, yaxud bu məbləğləri müəyyənləşdirməyə imkan verən şərtlər;

1076-10.3.3. ipoteka örtüyünə daxil olan aktivlər üzrə öhdəliklərin icra vəziyyəti;

1076-10.3.4. ipoteka örtüyünə daxil olan hüquqlarla əlaqəli olan ipoteka predmetinin adı, eyniləşdirilməsi üçün yetərli olan təsviri və olduğu yer;

1076-10.3.5. ipoteka örtüyünə daxil olan hüquqlarla əlaqəli olan ipoteka predmetinin ~~müstəqil~~ qiymətləndirici tərəfindən qiymətləndirilmiş dəyəri.[728]

1076-10.4. İpoteka örtüyünün reyestri Azərbaycan Respublikasının Mərkəzi Bankın müəyyən etdiyi qaydada kağız və elektron formada aparılmalıdır. İpoteka örtüyünün reyestri və ona edilmiş dəyişikliklər Azərbaycan Respublikasının Mərkəzi Banka təqdim edilməlidir.

1076-10.5. İpoteka örtüyünə daxil olan aktivlər yalnız sərəncamçının icazəsi ilə ipoteka örtüyünün reyestrindən çıxarıla və ya başqa aktivlə əvəz edilə bilər. Sərəncamçı emitentin bu barədə müraciətinə beş iş günü müddətində baxmalı və nəticəsini emitentə yazılı formada bildirməlidir.

1076-10.6. Sərəncamçı emitentin ipoteka örtüyünə daxil olan aktivlər barədə sərəncam verməsinə yalnız belə sərəncam bu Məcəllə və emissiya prospektinə (informasiya memorandumuna) zidd olmadıqda icazə verə bilər.

Maddə 1076-11. İpoteka örtüyü üzrə sərəncamçının hüquq və vəzifələri

1076-11.1. Sərəncamçı ipoteka istiqrazlarının buraxılışı zamanı və Azərbaycan Respublikasının Mərkəzi Bankın normativ xarakterli *aktı ilə daha qısa müddət müəyyən edilmədikdə, ən azı yarım ildə bir dəfədən az olmayaraq ipoteka örtüyünün bu Məcəllənin 1076-6-cı və 1076-9-cu maddələrinin tələblərinə uyğunluğunu yoxlayır.*[729]

1076-11.2. İpoteka örtüyü bu Məcəllənin 1076-6-cı və 1076-9-cu maddələrinin tələblərinə cavab vermədikdə, sərəncamçı bu barədə emitentə yazılı məlumat verir və aşkar olunmuş pozuntuların aradan qaldırılmasını tələb edir. Emitent tələbi aldığı tarixdən on iş günündən gec olmayaraq müəyyən edilmiş bütün çatışmazlıqları aradan qaldırmalı və bu barədə sərəncamçıya müvafiq məlumatı və sənədləri təqdim etməlidir.

1076-11.3. Sərəncamçı ipoteka örtüyünün yoxlanılmasının nəticəsi barədə hesabatı Azərbaycan Respublikasının Mərkəzi Bankın müəyyən etdiyi forma və qaydada həmin orqana təqdim edir.

1076-11.4. Sərəncamçı ipoteka örtüyündə aşkar etdiyi, lakin emitent tərəfindən bu Məcəllənin 1076-11.2-ci maddəsinə müvafiq qaydada aradan qaldırılmamış və istiqrazlar üzrə ödənişlər üçün əhəmiyyətli təhlükə yarada bilən pozuntular barədə Azərbaycan dilində və emissiya prospektinin (informasiya memorandumunun) dərc olunduğu digər dillərdə tərtib olunmuş bildirişi pozuntuların aradan qaldırılması üçün müəyyən edilmiş müddətin bitməsindən beş iş günündən gec olmayaraq emissiya prospektinin (informasiya memorandumunun) dərc olunduğu media subyektində (həmin media subyekti fəaliyyət göstərmədikdə başqa media subyektində) açıqlamalı və Azərbaycan Respublikasının Mərkəzi Bankına təqdim etməlidir. Azərbaycan Respublikasının Mərkəzi Bankı bildirişi aldığı gündən üç iş günü müddətində onu Azərbaycan dilində və emissiya prospektinin (informasiya memorandumunun) dərc olunduğu digər dillərdə öz internet səhifəsində yerləşdirməlidir.[730]

1076-11.5. Sərəncamçı istənilən vaxt ipoteka istiqrazları üzrə ödənişlər barədə emitentdən məlumat tələb etmək və emitentin müvafiq sənədlərini nəzərdən keçirmək hüququna malikdir. Emitent sərəncamçının tələb etdiyi məlumat və sənədləri müraciəti aldığı tarixdən üç iş günündən gec olmayaraq təqdim etməlidir. Emitent müraciətə cavab vermədikdə və ya tam cavab vermədikdə sərəncamçı bu barədə Azərbaycan Respublikasının Mərkəzi Banka dərhal yazılı məlumat verməlidir.

1076-11.6. Sərəncamçı istiqraz mülkiyyətçilərinin müdafiəsi məqsədilə ipoteka örtüyü üzrə bu Məcəllə və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hüquq və vəzifələri həyata keçirir.

Maddə 1076-12. İpoteka örtüyünə daxil olan aktivlərin uçotu və girovu

1076-12.1. Aktivlər ipoteka örtüyünə daxil edildiyi andan onların uçotu emitentin digər aktivlərindən ayrı aparılır. İpoteka örtüyünə daxil olan aktivlər üzərinə istiqraz mülkiyyətçilərindən başqa digər kreditorların tələblərinin ödənilməsi üçün həbs qoyula bilməz və həmin aktivlər üzrə tələb yönəldilə bilməz.

1076-12.2. Bu Məcəlləyə uyğun olaraq ipoteka örtüyünə daxil olan aktivlər ipoteka istiqrazlarının emissiya prospektinin (informasiya memorandumunun) təsdiq edildiyi andan qanun üzrə istiqraz mülkiyyətçilərinin xeyrinə girov qoyulmuş hesab edilir. Qanun üzrə girov sonrakı dəyişikliklərə görə ipoteka örtüyünə daxil olan aktivlərə sərəncamçının bu Məcəllənin 1076-10.5-ci və 1076-10.6-cı maddələrinə uyğun olaraq belə dəyişikliklərə yazılı icazə verdiyi andan şamil olunur. [731]

1076-12.3. İstiqrazların mülkiyyətçiləri eyni ipoteka örtüyünə daxil olan aktivlərin hesabına ipoteka istiqrazları üzrə ödənilən nominal dəyər və faizlərə münasibətdə emitentin digər kreditorlarına nisbətən bərabər qaydada üstünlük hüququna malikdirlər. İstiqraz mülkiyyətçilərinin üstünlük hüququ ipoteka örtüyünə daxil olan bütün aktivlərə (əsas və əlavə), o cümlədən həmin aktivlərdən əldə edilən gəlirə eyni dərəcədə aiddir.

1076-12.4. İstiqraz mülkiyyətçiləri emitentin digər ipoteka örtüyünün reyestri ilə təmin edilmiş istiqraz mülkiyyətçilərinin tələbləri tam ödənildikdən sonra bu reyestrə daxil edilmiş aktivlərin qalıq hissəsi üzərində emitentin digər kreditorlarına nisbətən bərabər qaydada üstünlük hüququna malikdirlər.

1076-12.5. İpoteka örtüyü hesabına tələbləri tam ödənilməmiş istiqraz mülkiyyətçiləri emitentin ipoteka örtüyünə daxil edilməyən aktivlərinə münasibətdə emitentin digər təmin edilməmiş öhdəlikləri üzrə kreditorları ilə bərabər hüquqlara malikdirlər.

Maddə 1076-13. İpoteka istiqrazlarının emitentinin müflisləşməsi, məcburi ləğvi və öhdəliklərini yerinə yetirməməsi

1076-13.1. Emitent müflis elan edildikdə və ya məcburi qaydada ləğv edildikdə ipoteka örtüyünə daxil olan aktivlərin heç biri ipoteka istiqrazları mülkiyyətçilərinin tələbləri tam ödənilənədək emitentin digər kreditorları arasında bölüşdürülə bilməz.

1076-13.2. Emitent müflis elan edildikdə, məcburi ləğv edildikdə, öhdəliklərin icra edilməsi ilə bağlı emissiya prospektinin (informasiya memorandumunun) hər hansı bir şərtini yerinə yetirmədikdə və ya bu Məcəllə ilə müəyyən edilmiş öhdəliklərini davamlı olaraq pozduqda (bundan sonra bu maddənin məqsədləri üçün - öhdəliklərin yerinə yetirməməsi) istiqraz mülkiyyətçiləri öz istiqrazları üzrə ödənişlərin vaxtından əvvəl həyata keçirilməsini tələb edə bilməzlər. Bu halda istiqraz mülkiyyətçiləri ipoteka örtüyünə daxil olan aktivlərin satılması və onunla bağlı həyata keçirilən digər tədbirlərlə əlaqədar bu maddənin tələblərinə əməl etməlidirlər.

1076-13.3. Emitent müflis elan edildikdə, məcburi ləğv edildikdə və ya öhdəliklərini yerinə yetirmədikdə sərəncamçı müflis elan edilmə, məcburi ləğv edilmə və ya öhdəlikləri yerinə yetirməmə faktlarını təsdiqləyən məlumatı və mövcud sənədləri əlavə etməklə Azərbaycan Respublikasının Mərkəzi Banka yazılı məlumat verməlidir. Belə məlumat Azərbaycan Respublikasının Mərkəzi Banka istənilən istiqraz mülkiyyətçisi tərəfindən də verilə bilər.

1076-13.4. Azərbaycan Respublikasının Mərkəzi Bankı bu Məcəllənin 1076-13.3-cü maddəsində göstərilən məlumatı aldığı gündən beş iş günü ərzində həmin məlumata baxmalı və

emitentin müflis olması, məcburi ləğv edilməsi və ya öhdəliklərini yerinə yetirməməsi faktı təsdiq olunduğu halda ipoteka örtüyünə daxil olan aktivlərin sərəncamçının nəzarətinə verilməsi haqqında qərar qəbul etməli və bu qərarı bir iş günü ərzində sərəncamçıya və emitentə çatdırmalıdır.

1076-13.5. Bu Məcəllənin 1076-13.4-cü maddəsində göstərilən qərar sərəncamçıya və emitentə çatdırıldığı gündən ipoteka örtüyünə daxil edilmiş aktivlərdən daxil olan gəlir ipoteka örtüyünə daxil olan aktivlərin tərkibinə əlavə edilir və bu andan qanun üzrə ipoteka istiqrazları mülkiyyətçilərinin xeyrinə girov qoyulmuş hesab olunur. Bu zaman sərəncamçı ipoteka örtüyündən əldə edilən gəlirin sahibliyə götürülməsi, saxlanması və toplanması üçün müvafiq tədbirləri görməlidir.

1076-13.6. Sərəncamçı bu Məcəllənin 1076-13.4-cü maddəsində göstərilən qərarı aldığı gündən beş iş günü ərzində istiqraz mülkiyyətçilərinin hüquqlarının qorunması məqsədilə ipoteka örtüyünə daxil olan aktivlərin satılması və ya idarə edilməsi şərtlərini hazırlayaraq təsdiq olunması üçün Azərbaycan Respublikasının Mərkəzi Banka təqdim edir. Bu barədə daxil olmuş ərizəyə Azərbaycan Respublikasının Mərkəzi Bankı beş iş günü ərzində baxır və müvafiq qərar qəbul edir. Bu qərardan sonra ipoteka örtüyünə daxil olan aktivlər həmin şərtlərlə satıla bilər.

1076-13.7. Sərəncamçı Azərbaycan Respublikasının Mərkəzi Bankın nəzarəti altında fəaliyyət göstərir və göstəriş almaq üçün istənilən vaxt ona müraciət edə bilər. Sərəncamçı zəruri hallarda ipoteka örtüyünə daxil olan aktivlərin satılması və ya idarə edilməsi ilə bağlı müstəqil hüquqşünasları, mühasibləri və başqa mütəxəssisləri Azərbaycan Respublikasının Mərkəzi Bankın təsdiq etdiyi şərtlər əsasında muzdla işə cəlb etmək hüququna malikdir.

1076-13.8. İpoteka örtüyünün satılmasından əldə olunan vəsait aşağıdakı qaydada bölüşdürülür və vəsaitin qalan hissəsi sərəncamçı tərəfindən emitentin ümumi əmlakının tərkibinə daxil edilir:

1076-13.8.1. ipoteka örtüyünün idarə edilməsi və satılması ilə bağlı sərəncamçının emitentlə əvvəlcədən bağlanmış müqavilədə göstərilən xidmət haqqının ödənilməsinə;

1076-13.8.2. ipoteka örtüyünün satılması ilə bağlı cari öhdəliklərin ödənilməsinə;

1076-13.8.3. istiqrazlar üzrə öhdəliklərin icra edilməsinə.

1076-13.9. Emitentin müflis olduğu və ya məcburi ləğv edildiyi halda bu Məcəllənin 1076-13-cü maddəsi ilə müəyyən edilmiş öhdəliklərin tam icra edilməsinə qədər əmlak inzibatçısının ipoteka örtüyünə daxil olan aktivlərin idarə edilməsi, satılması, əldə olunan vəsaitin bölüşdürülməsi və hər hansı başqa məsələ ilə bağlı sərəncamçının fəaliyyətinə müdaxilə etməsinə yol verilmir.

1076-13.10. İpoteka örtüyünə daxil olan aktivlərin tam satılmasından sonra sərəncamçı ipoteka örtüyü ilə bağlı sənədləri və qalıq aktivləri emitentə, müflis olma və ya məcburi ləğv edilmə halında isə əmlak inzibatçısına təhvil verir və öz vəzifəsini yerinə yetirdiyi barədə Azərbaycan Respublikasının Mərkəzi Banka yazılı məlumat verir.

1076-13.11. Emitent bu Məcəllənin 1076-13.4-cü maddəsində göstərilən qərarla razı olmadıqda həmin qərarın ləğv edilməsi barədə inzibati qaydada və məhkəməyə müraciət edə bilər. Emitent və ya istənilən istiqraz mülkiyyətçisi ipoteka örtüyünə daxil olan aktivlərin satılması və ya idarə edilməsi ilə bağlı bu Məcəllənin 1076-13-cü maddəsində nəzərdə tutulan prosedurların məhkəmə nəzarəti altında həyata keçirilməsi, yaxud sərəncamçının digər şəxslə əvəz edilməsi barədə iddia ilə məhkəməyə müraciət edə bilər. Sərəncamçının dəyişdirilməsi məsələsinə

baxılarkən yeni namizəd məhkəməyə Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən təqdim edilir.

§6. Səhm

Maddə 1077. Səhm anlayışı və onun məzmunu

1077.1. *Səhm mülkiyyətçisinin həmin səhmin nominal dəyərinə mütənasib surətdə səhmi buraxmış səhmdar cəmiyyətinin nizamnamə kapitalında iştirakını, mənfəətindən dividendlər, ləğvindən sonra isə qalan əmlakının hissəsini almaq hüququnu, həmçinin səhmdar cəmiyyətinin idarə olunmasında iştirak etmək hüququnu təsdiqləyən investisiya qiymətli kağızıdır.* Səhmin emitenti yalnız səhmdar cəmiyyəti ola bilər.[732]

1077.2. Səhm adi və ya imtiyazlı növündə buraxıla bilər. Səhmin nominal dəyəri səhmin dəyərinin cəmiyyətin nizamnaməsi ilə müəyyən edilmiş pul ifadəsidir. Səhmlərin nominal dəyəri Azərbaycan Respublikasının milli valyutası ilə ifadə olunur. Səhmlərin nominal dəyərindən aşağı qiymətlə ilkin yerləşdirilməsinə yol verilmir.[733]

1077.3. Adi səhmlərin hər biri eyni nominal dəyərli olmaqla onun *mülkiyyətçisinə* eyni həcmdə hüquqlar verir.[734]

1077.4. İmtiyazlı səhmlərin bir buraxılışı daxilində hər biri eyni nominal dəyərli olmaqla onun *mülkiyyətçisinə* eyni həcmdə hüquqlar verir.

1077.5. Adi səhm *mülkiyyətçisinə* emitentin mənfəətinin bir hissəsini dividendlər şəklində almaq, emitentin fəaliyyətinin idarə olunmasında iştirak etmək və emitentin ləğvindən sonra qalan əmlakının bir hissəsini əldə etmək hüququnu verən səhm növüdür.

1077.6. İmtiyazlı səhm emitentin ~~təsərrüfat~~ fəaliyyətinin nəticəsindən asılı olmayaraq, *mülkiyyətçisinə* ~~, bir qayda olaraq,~~ səhmin nominal dəyərinin sabit faizi şəklində dividend almasına təminat verən, emitentin ləğvindən sonra qalan əmlakının bir hissəsini almaqda digər səhmdarlara nisbətən üstünlük hüququnu, habelə səhmlərin buraxılış şərtlərində və emitentin nizamnaməsində nəzərdə tutulan digər hüquqlar verən səhm növüdür.[735]

1077.7. Səhmdar cəmiyyətinin səhmdarlarının ümumi yığıncağının qərarına əsasən cəmiyyət bir neçə eyni növlü səhmi bir səhmdə birləşdirə bilər və bir səhmi bir neçə həmin növ səhmə dəyişdirilmə yolu ilə xırdalaya bilər. Ümumi yığıncaqda səhmlərin birləşdirilməsi və ya xırdalanması haqqında qərar qəbul edildikdə, səhmdar cəmiyyətinin nizamnaməsində də müvafiq dəyişikliklər edilməlidir. Səhmdar cəmiyyətinin səhmlərinin birləşdirilməsi və xırdalanması qaydaları *Azərbaycan Respublikasının Mərkəzi Bankı* tərəfindən müəyyən edilir.[736]

~~§7. Əmtəə kağızları~~[737]

~~Maddə 1078. Əmtəə kağızları anlayışı və onların növləri~~

~~1078.1. Anbar sahibinin və ya fraxt verənin verdiyi əmtəə kağızlarında (yəni sahibinin qiymətli kağızda göstərilən əmtəəyə dair sərəncam vermək və bu əmtəəni~~

~~almaq hüququnu təsbit edən qiymətli kağızlarda (anbar şəhadətnaməsi, konosament və s.) aşağıdakı məlumatlar göstərilməlidir:~~[738]

~~1078.1.1. sənədin tərtib edildiyi yer və tarix, sənədi vermiş şəxsin imzası;~~

~~1078.1.2. sənədi vermiş şəxsin adı və yaşayış yeri və ya olduğu yer;~~

~~1078.1.3. malları anbarda saxlayan şəxsin və ya göndərənin adı və yaşayış yeri və ya olduğu yer;~~

~~1078.1.4. saxlanılan və ya saxlanmağa verilən malların keyfiyyəti, miqdarı və əlamətləri göstərilməklə adı;~~

~~1078.1.5. tutulmalı olan və ya qabaqcadan ödənilmiş rüsumlar və haqlar;~~

~~1078.1.6. maraqlı şəxslərin mallar ilə rəftar barəsində qəbul etdikləri xüsusi sazişlər;~~

~~1078.1.7. əmtəə sənədləri nüsxələrinin sayı;~~

~~1078.1.8. həmin sənəd üzrə ixtiyarlı şəxsin adının göstərilməsi və ya əmr barədə qeyd-şərt və ya təqdim edənin göstərilməsi.~~

~~1078.2. Bir neçə əmtəə sənədindən biri girovun müəyyənləşdirilməsi üçün nəzərdə tutulmuşsa, bu cür sənəd girov şəhadətnaməsi (varrant) adlandırılmalı və qalan məlumatlarına görə əmtəə sənədi şəklində olmalıdır. O biri nüsxələrdə girov şəhadətnaməsinin verildiyi qeyd edilməli, tələbin məbləği və ödəniş müddəti göstərilməklə hər bir girov qoyma əks etdirilməlidir.~~

~~1078.3. Saxlanılan və ya yola salınmış mallar üçün şəhadətnamələr əmtəə sənədlərinin forması haqqında qanuni göstərişlər pozulmaqla verildikdə bunlar əmtəə sənədləri deyil, alınma haqqında qəbzlər və ya digər təsdiqləyici sənədlər sayılır.~~

~~1078.4. Səlahiyyətli orqanlardan qanun üzrə verilməli icazəni almadan anbar sahiblərinin verdikləri şəhadətnamələr forma barədə qanuni göstərişlərə uyğun gəlirsə, əmtəə sənədləri sayılır.~~

~~1078.5. Konosament mala dair sərəncam sənədindən ibarət ticarət kağızı olub, onun sahibinin konosamentdə göstərilən yükə dair sərəncam vermək və daşıma başa çatdıqdan sonra yükü almaq hüququnu təsdiqləyir. Konosament adsız, orderli və ya adlı ola bilər.~~

~~1078.6. Qoşa anbar şəhadətnaməsi mal anbarı tərəfindən malın saxlanmağa qəbul olunmasını təsdiqləyən orderli qiymətli kağızdır. Qoşa anbar şəhadətnaməsi iki hissədən – anbar şəhadətnaməsindən və girov şəhadətnaməsindən (varrantdan) ibarətdir; ayrı-ayrılıqda bunlar qiymətli kağızlardır.~~

~~1078.7. Adi anbar şəhadətnaməsi mal anbarı tərəfindən malın saxlanmağa qəbul olunduğunu təsdiqləyən adsız qiymətli kağızdır.~~

§ 8. Daşınmaz əmlak sertifikatı[739]

Maddə 1078-1. Daşınmaz əmlak sertifikatı

1078-1.1. Daşınmaz əmlak sertifikatı fiziki və hüquqi şəxslər arasında yerləşdirilən, mülkiyyətçilərinə buraxılış şərtlərində müəyyən olunan şərtlərə əməl etdikləri təqdirdə, emitentdən tikintisi (yenidən qurulması) bu qiymətli kağızların yerləşdirilməsindən alınan

vəsait hesabına maliyyələşdirilən binaların (mənzillərin, qeyri-yaşayış sahələrinin) onların mülkiyyətinə verilməsi yolu ilə ödənilməsini tələb etmək hüququ verən qiymətli kağızdır.

1078-1.2. Daşınmaz əmlak sertifikatı adlı qiymətli kağızdır. Daşınmaz əmlak sertifikatlarının buraxılışı, dövlət qeydiyyatına alınması və tədavülü qaydası Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilir.

§ 9. Girov kağızı və ipoteka kağızı

Maddə 1078-2. Girov kağızı və ipoteka kağızı

1078-2.1. Öhdəliklərin təminatını təsbit edən qiymətli kağızlara girov kağızı və ipoteka kağızı daxildir.

1078-2.2. İpoteka kağızı *mülkiyyətçisinə* ipoteka müqaviləsində göstərilən, əmlakın ipotekası ilə təmin edilən başqa sübut və dəlillər təqdim etmədən pul və başqa öhdəliklərin mövcudluğunu və bu öhdəliklər üzrə icranın tələb edilməsi hüququnu və əmlakın ipotekası haqqında müqavilədə göstərilən girov hüququnu təsdiq edən adlı qiymətli kağızdır.[740]

1078-2.2-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı mülkiyyətçisinə ipoteka müqaviləsində göstərilən, daşınmaz əmlakın ipotekası ilə təmin edilən başqa sübut və dəlillər təqdim etmədən pul və başqa öhdəliklərin mövcudluğunu və bu öhdəliklər üzrə icranın tələb edilməsi hüququnu və daşınmaz əmlakın ipotekası haqqında müqavilədə göstərilən ipoteka hüququnu təsdiq edən sənədsiz adlı qiymətli kağızdır.[741]

1078-2.3. Girov kağızı *girov qoyanla*, o borclu deyilsə, həm də borclu ilə *girov saxlayan* arasında əmlakın və hüquqların girova qoyulmasını və bundan irəli gələn hüquq və öhdəlikləri təsbit edən adlı qiymətli kağızdır.[742]

1078-2.4. *Bu Məcəllənin 996.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, əmlakın* və hüquqların girovu və ya ipotekası ilə təmin edilmiş öhdəliklər üzrə girovsaxlayanın və ya ipotekasaxlayanın hüquqları girov kağızının və ya ipoteka kağızının tərtibi ilə rəsmiləşdirilə və təsdiq edilə bilər.[743]

1078-2.5. Girov və ya ipoteka ilə təmin olunmuş öhdəliklər üzrə borclu ~~, girovqoyan və ipotekaqoyan~~ girov kagızı və ya ipoteka kağızı üzrə cavabdeh *şəxsdir*. Borclu, qirovqoyan və ipotekaqoyan eyni və ayrı-ayrı şəxslər ola bilər.[744]

1078-2.6. Əmlaka girov və ya ipoteka hüququnu təsbit edən girov kağızının və ya ipoteka kağızının *mülkiyyətçisi (girov saxlayan və ya ipoteka saxlayan* (kreditor) borclunun və *girov qoyanın* razılığı olmadan borc üzrə tələbini digər şəxsə, *girov kağızı və ya ipoteka kağızı üzrə* ötürücü yazı vasitəsilə o şərtlə ötürə bilər ki, həmin ötürücü yazı (indossament) öhdəliyin mahiyyətinə, onun borclu və *girov qoyanla və ya ipoteka qoyanla* razılaşmasına və mövcud qanunvericiliyə zidd olmasın.[745]

~~1078-2.7. Girova və ya ipotekaya şamil edilən təminatlı borc üzrə tələb başqasına keçdikdə girov kağızı və ya ipoteka kağızı üzrə girovsaxlayanın və ya ipotekasaxlayanın hüquqları müvafiq surətdə həmin şəxsə keçir.~~[746]

1078-2.8. Girov kağızının və ya ipoteka kağızının *mülkiyyətçisi ilə (girov saxlayan və ya ipoteka saxlayan)* digər şəxs arasında bağlanmış müqavilə üzrə öhdəliyin təminatı

məqsədilə girov kağızı və ya ipoteka kağızı müvafiq olaraq girov və ya ipotekaya qoyula bilər. Bu halda girov və ya ipoteka hüququ ümumi qaydada dövlət qeydiyyatından keçməlidir, lakin bu hüquq girov kağızı və ya ipoteka kağızı ilə təsbit edilə bilməz.[747]

~~1078-2.9. *Girov* kağızı və ipoteka kağızına *(daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla)* dair dövlət qeydiyyatı rəsmi dövlət reyestrində aparılır. Rəsmi dövlət reyestrinin aparılması *maliyyə bazarlarına nəzarət orqanı* tərəfindən həyata keçirilir.[748]~~

~~1078-2.10. Rəsmi dövlət reyestrinin aparılması girov qoyulmuş qiymətli kağızlar üzrə hüquqların məhdudlaşdırılması haqqında bütün məlumatların mərkəzləşdirilmiş qaydada toplanması üçün nəzərdə tutulur.[749]~~

~~§ 10. Törəmə qiymətli kağızlar~~[750]

~~Maddə 1078-3. Törəmə qiymətli kağızlar~~

~~1078-3.1. Törəmə qiymətli kağızlarına fyuçerslər, opsionlar və qanunvericiliklə müəyyən edilmiş digər qiymətli kağızlar aid edilir.~~

~~1078-3.2. Fyuçers müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdırılmış qiymətlərlə alınması və ya satılması haqqında öhdəliyini təsbit edən standartlaşdırılmış birja müqaviləsini ifadə edən qiymətli kağızdır.~~

~~1078-3.3. Opsion sahibinə müəyyən edilmiş tarixdə müəyyən baza aktivinin əvvəlcədən razılaşdınlmış qiymətlərlə almaq və ya satmaq hüququnu ifadə edən qiymətli kağızdır.~~

~~1078-3.4. Törəmə qiymətli kağızlar üçün baza aktivi kimi xarici valyuta, qiymətli kağızlar, birja indeksləri, əmtəə və s. çıxış edə bilər.~~

~~1078-3.5. Törəmə qiymətli kağızların tədavülü ilə bağlı digər xüsusatlar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~

§ 11. Özəlləşdirmə qiymətli kağızları

Maddə 1078-4. Özəlləşdirmə qiymətli kağızları

1078-4.1. Özəlləşdirmə qiymətli kağızları dövlət əmlakının özəlləşdirilməsi zamanı dövlət əmlakının müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada özgəninkiləşdirilməsi məqsədi ilə buraxılan qiymətli kağızlardır.

1078-4.2. Dövlət əmlakının özəlləşdirilməsi zamanı buraxılan qiymətli kağızların növləri, emissiyası, tədavülü qaydaları və sair məsələlər bu Məcəllə və digər normativ hüquqi, *o cümlədən normativ xarakterli* aktlarla müəyyən edilir.[751]

~~§ 12. Depozit sertifikatı~~[752]

~~Maddə 1078-5. Depozit sertifikatı~~

1078-5.1. Depozit sertifikatı əmanətçidən və ya əmanətçi üçün banka daxil olmuş pul məbləğini (depoziti) və onun üçün faizləri bankdan almaq hüququnu təsbit edən qiymətli kağızdır. Depozit sertifikatı müəyyən müddətə adlı və ya adsız qiymətli kağız kimi buraxıla bilər.

1078-5.2. Depozit sertifikatları birdəfəlik və ya seriyalarla, sənədli formada buraxıla bilər.

1078-5.3. Depozit sertifikatının buraxılması, qeydiyyatı və tədavülü qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

§ 13. Qiymətli kağızların emissiyası[753]

Maddə 1078-6. İnvestisiya qiymətli kağızlarının emissiyasının əsasları

1078-6. l. Qiymətli kağızların emissiyası emitentin qiymətli kağızlarının emissiyası haqqında qərarının qəbulunun, bu Məcəllə ilə nəzərdə tutulmuş hallarda emissiya prospektinin tərtibinin, qiymətli kağızların buraxılışının, yerləşdirilməsinin və bu Məcəllə ilə müəyyən edilmiş digər tədbirlərinin məcmusudur.

1078-6.2. İnvestisiya qiymətli kağızının forması və buraxılış şərtləri investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarda və investisiya qiymətli kağızlarının emissiya prospektində (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunursa) birmənalı müəyyən edilməlidir.

1078-6.3. İnvestisiya qiymətli kağızları aşağıdakı formalardan birində emissiya edilə bilər:

1078-6.3.1. sənədli adlı qiymətli kağızlar;

1078-6.3.2. sənədsiz adlı qiymətli kağızlar;

1078-6.3.3. sənədli adsız qiymətli kağızlar.

1078-6.4. İnvestisiya qiymətli kağızlarının forması emitentin emissiya haqqında qərar qəbul etmiş orqanının qərarı ilə bu dəyişikliklər müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmaqla dəyişdirilə bilər. Adlı qiymətli kağızların adsız qiymətli kağızlara çevrilməsi bu Məcəllənin 992-ci maddəsi ilə tənzimlənir.

1078-6.5. Eyni dövlət qeydiyyat nömrəsi olan investisiya qiymətli kağızları bir formada buraxılmalıdır.

1078-6.6. İnvestisiya qiymətli kağızlarının nominalı milli və səhmlər istisna olmaqla sərbəst dönərli valyutada ifadə oluna bilər.

1078-6.7. İnvestisiya qiymətli kağızlarının konvertasiyası ilə bağlı emissiyanın xüsusiyyətləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 1078-7. İnvestisiya qiymətli kağızlarının emissiyasının mərhələləri

1078-7.1. İnvestisiya qiymətli kağızlarının emissiyası aşağıdakı mərhələlərdən ibarətdir:

1078-7.1.1. emitent tərəfindən investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarın qəbul edilməsi;

1078-7.1.2. investisiya qiymətli kağızlarının emissiya prospektinin tərtib edilməsi (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunursa);

1078-7. 1.3. investisiya qiymətli kağızları buraxılışının dövlət qeydiyyatı;

1078-7.1.4. investisiya qiymətli kağızlarının emissiya prospektində olan məlumatların açıqlanması (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunursa);

1078-7.1.5. investisiya qiymətli kağızlarının yerləşdirilməsi;

1078-7.1.6. investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabatın qeydiyyatı;

1078-7.1.7. investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabatda olan məlumatların açıqlanması (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunubsa).

1078-7.2. Səhmdar cəmiyyətlərinin yaradılması, habelə səhmdar cəmiyyətlərinin və digər hüquqi şəxslərin yenidən təşkili zamanı (qoşulma şəklində yenidən təşkil halı istisna olmaqla) səhmlərin buraxılışının dövlət qeydiyyatı həmin qiymətli kağızların dəyərinin təsisçilər tərəfindən ödənilməsindən sonra həyata keçirilir.

Maddə 1078-8. İnvestisiya qiymətli kağızlarının emissiyası haqqında qərar

1078-8.1. İnvestisiya qiymətli kağızlarının hər bir növünün emissiyası haqqında ayrıca qərar qəbul edilməlidir.

1078-8.2. İnvestisiya qiymətli kağızlarının emissiyası haqqında qərarda aşağıdakı məlumatlar öz əksini tapmalıdır:

1078-8.2.1. emitentin tam adı və olduğu yer;

1078-8.2.2. qərarın qəbul edilməsi tarixi;

1078-8.2.3. qərarı qəbul etmiş emitentin idarəetmə orqanının adı;

1078-8.2.4. qiymətli kağızın növü;

1078-8.2.5. qiymətli kağızın forması;

1078-8.2.6. qiymətli kağızın nominal dəyəri;

1078-8.2.7. həmin buraxılışa daxil olan qiymətli kağızların sayı və ümumi məbləği;

1078-8.2.8. qiymətli kağızların yerləşdirilməsi qaydası;

1078-8.2.9. bir qiymətli kağızla təsbit edilən hüquqlar;

1078-8.2.10. qiymətli kağızların sahibləri qarşısında emitentin öhdəlikləri;

1078-8.2.11. emitentin rəhbərinin adı, soyadı, möhürlə təsdiqlənmiş imzası.

1078-8.3. Konversiya borcu istiqrazların emissiyası haqqında qərar qəbul edilərkən onların ödənilməsinə yönəldilən səhmlərin emissiyası haqqında qərar qəbul edilməlidir.

Maddə 1078-9. Dövlət qiymətli kağızlarının emissiyası

1078-9.1. Dövlət qiymətli kağızlarının emissiyası müvafiq icra hakimiyyəti orqanı və müvafiq qaydada buna səlahiyyətləndirilmiş digər dövlət orqanı tərəfindən həyata keçirilir.

1078-9.2. Dövlət qiymətli kağızlarının emissiyası və tədavülü emitentin rəyi alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən qəbul edilmiş normativ hüquqi aktlarla tənzimlənir.

Maddə 1078-10. Bələdiyyə qiymətli kağızlarının emissiyası

Bələdiyyə qiymətli kağızlarının emissiyası və tədavülü qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 1078-11. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı

1078-11.1. İnvestisiya qiymətli kağızlarının buraxılışları müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatına alınmalıdır.

1078-11.2. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı üçün emitent tərəfindən müvafiq icra hakimiyyəti orqanına aşağıdakı sənədlər təqdim edilməlidir:

1078-11.2.1. investisiya qiymətli kağızlarının qeydiyyata alınması üçün ərizə;

1078-11.2.2. investisiya qiymətli kağızlarının emissiyası haqqında qərar;

1078-11.2.3. emitentin hüquqi şəxs kimi dövlət qeydiyyatına alınması haqqında şəhadətnamənin və təsis sənədlərinin notarial qaydada təsdiq olunmuş surətləri;

1078-11.2.4. investisiya qiymətli kağızlarının emissiya prospekti (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunursa);

1078-11.2.5. investisiya qiymətli kağızının sertifikatının nümunəsi (investisiya qiymətli kağızları sənədli formada buraxıldıqda);

1078-11.2.6. investisiya qiymətli kağızların emissiya prospektinin qeydiyyata alınması üçün dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd (investisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunursa).

1078-11.3. Təmin edilmiş istiqrazların buraxılışının dövlət qeydiyyatı yalnız onlar üzrə verilmiş təminatın qanunvericiliklə müəyyən edilmiş qaydada rəsmiləşdirilməsindən sonra həyata keçirilir.

1078-11.4. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı üçün təqdim edilən sənədlərə onların təqdim edilməsi tarixindən etibarən on beş iş günü müddətində baxılır və qeydiyyatdan imtina üçün əsas olmadıqda, qiymətli kağızlar buraxılışı dövlət qeydiyyatına alınır. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatına alınmasından imtina edildikdə, bu barədə emitentə rəsmi bildiriş verilir. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı həmin buraxılışa dövlət qeydiyyat nömrəsinin verilməsindən və bu məlumatların dövlət reyestrinə daxil edilməsindən ibarətdir. Dövlət qeydiyyat nömrəsinin verilməsi və reyestrin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-11.5. Emitentin istiqraz buraxılışının maksimal həcminə dair tələblər haqqında qaydalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.[754]

1078-11.6. İnvestisiya qiymətli kağızları buraxılışı dövlət qeydiyyatından keçənə qədər qiymətli kağızların reklamı, hər hansı bir investora rəsmi təklif edilməsi və emissiya prospektinin potensial investorlara təqdim edilməsi qadağandır.

1078-11.7. Emitentin müvafiq icra hakimiyyəti orqanına təqdim etdiyi qiymətli kağızların buraxılışı üzrə sənədlərdə göstərilən məlumatların tamlığına və dürüstlüyünə görə məsuliyyəti həmin sənədləri imzalamış vəzifəli şəxslər daşıyır.

Maddə 1078-12. İnvestisiya qiymətli kağızlarının emissiya prospektinə dair ümumi tələblər

1078-12.1. İnvestisiya qiymətli kağızlarının emissiyası (qapalı yerləşdirmə istisna olmaqla) emissiya prospekti ilə müşayiət olunur.

1078-12.2. İnvestisiya qiymətli kağızlarının emissiya prospektində aşağıdakı məlumatlar olmalıdır:

1078-12.2.1. emitentin tam adı, təşkilati hüquqi forması və olduğu yer;

1078-12.2.2. hüquqi şəxslərin dövlət reyestrində emitent barədə olan məlumatlar;

1078-12.2.3. emitentin nizamnamə kapitalının on faizindən az olmayan miqdarda səs hüququnu verən səhmlərinə (bundan sonra – səsli səhmlər) malik olan şəxslər barədə məlumat;

1078-12.2.4. emitentin idarəetmə orqanı, icra və nəzarət orqanları haqqında məlumat;

1078-12.2.5. emitentin filial və nümayəndəlikləri haqqında məlumat;

1078-12.2.6. nizamnamə kapitalında emitentin payı on faizdən az olmayan hüquqi şəxslərin siyahısı və rekvizitləri;

1078-12.2.7. nizamnamə kapitalı və onun tərkibi haqqında, o cümlədən nizamnamə kapitalının miqdarı, səhmlərin miqdarı, onların nominal dəyəri və növləri, habelə səhmlərin ayrı-ayrı növlərinin imtiyazları haqqında məlumat (səhmdar cəmiyyətləri üçün);

1078-12.2.8. müstəqil auditorun hesabatı ilə birlikdə, emitentin sonuncu balansı və toplu maliyyə hesabatı;

1078-12.2.9. emitentin təsis edildiyi tarixdən və ya son beş maliyyə ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat;

1078-12.2.10. emitentin əvvəl emissiya edilmiş qiymətli kağızları haqqında məlumat;

1078-12.2.11. investisiya qiymətli kağızlarının buraxılışı haqqında ümumi məlumat;

1078-12.2.12. investisiya qiymətli kağızlarının yerləşdirilmə qaydası;

1078-12.2.13. emitentin kreditor borcları, ödəniləcək faizlərin məbləği və satınalma şərtləri (istiqrazlar üzrə);

1078-12.2.14. istiqrazlar üzrə müəyyənləşdirilmiş xüsusi təminatlar (olduqda);

1078-12.2.15. təmin edilmiş istiqrazlar üzrə təminatın sərəncamçısı haqqında məlumat;

1078-12.2.16. investisiya qiymətli kağızlarının ödənilməsi qaydası;

1078-12.2.17. investisiya qiymətli kağızlarının yerləşdirilməsində iştirak edəcək qiymətli kağızlar bazarının peşəkar iştirakçısı haqqında məlumat;

1078-12.2.18. investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarın tarixi, nömrəsi və onu qəbul etmiş orqanın adı;

1078-12.2.19. imtiyazlı səhmlərlə təsbit olunmuş hüquqların məzmunu;

1078-12.2.20. investisiya qiymətli kağızlarının əldə edilməsi üçün məhdudiyyətlər (olduqda).

Maddə 1078-13. İnvestisiya qiymətli kağızları buraxılışının dövlət qeydiyyatından imtina

1078-13.1. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatından aşağıdakı hallarda imtina edilə bilər:

1078-13.1.1. investisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatı üçün təqdim olunmuş sənədlər mövcud qanunvericiliyin tələblərinə cavab vermədikdə;

1078-13.1.2. emitentin səhmlərinin əvvəlki emissiyasının yekunları haqqında hesabat qeydiyyatdan keçmədikdə (səhm buraxılışı üçün);

1078-13.1.3. investisiya qiymətli kağızlarının emissiya prospektinə və ya investisiya qiymətli kağızlarının emissiyası haqqında qərara (qiymətli kağızların buraxılışının dövlət qeydiyyatı üçün əsas olan digər sənədlərə) qeyri-dürüst, yaxud təhrif edilmiş məlumatlar daxil edildikdə;

1078-13.1.4. emitent tərəfindən qiymətli kağızlar bazarında ciddi qanun pozuntularına yol verildikdə.[755]

1078-13.2. İnvestisiya qiymətli kağızlarının buraxılışının bu Məcəllədə göstərilənlərdən başqa digər əsaslarla dövlət qeydiyyatından imtina edilməsinə yol verilmir.

1078-13.3. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatından imtina edilməsi haqqında bildiriş müvafiq icra hakimiyyəti orqanı tərəfindən emitentə təqdim edilir.

1078-13.4. İnvestisiya qiymətli kağızlarının buraxılışının dövlət qeydiyyatından imtina edilməsi haqqında qərardan emitent inzibati qaydada və (və ya) məhkəmə qaydasında şikayət edə bilər.

Maddə 1078-14. İnvestisiya qiymətli kağızlarının buraxılışı haqqında məlumatın açıqlanması

1078-14.1. İnvestisiya qiymətli kağızlarının emissiyası emissiya prospekti ilə müşayiət olunduqda, emitent onları yerləşdirməzdən əvvəl emissiya prospektində olan məlumatlan müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada açıqlamalıdır.

1078-14.2. İnvestisiya qiymətli kağızlarının emissiya prospekti emitentin ünvanında, qiymətli kağızların satış yerlərində olmalıdır və tanışlıq üçün emitent və ya yerləşdirməni həyata keçirən qiymətli kağızlar bazarının peşəkar iştirakçısı tərəfindən heç bir ödəniş tələb edilmədən təqdim edilməlidir. Emitent emissiya prospekti ilə tanış

olmaq üçün zəruri olan şəraiti yaratmalı və bunun üçün vaxtı və ünvanı kütləvi informasiya vasitələrində elan etməlidir.

Maddə 1078-15. İnvestisiya qiymətli kağızlarının yerləşdirilməsi

1078-15.1. Qiymətli kağızların yerləşdirilməsi emitentin qiymətli kağızlarının ilk sahiblərinə özgəninkiləşdirilməsidir. Emitent investisiya qiymətli kağızlarının yerləşdirilməsi hüququnu onlar dövlət qeydiyyatından keçdiyi andan əldə edir.

1078-15.2. İnvestisiya qiymətli kağızlarının yerləşdirilməsi kütləvi təklif və ya investorların məhdud dairəsinə təklif (qapalı yerləşdirmə) üsulu ilə həyata keçirilir.

1078-15.3. Açıq səhmdar cəmiyyətlərinin səhmlərinin qapalı yerləşdirilməsinə (açıq səhmdar cəmiyyətlərinin yaradılması və yenidən təşkili zamanı, habelə səhmlərin konvertasiyası hallan istisna olmaqla), qapalı səhmdar cəmiyyətlərinin səhmlərinin isə kütləvi təklif üsulu ilə yerləşdirilməsinə yol verilmir.

1078-15.4. Yerləşdirilən investisiya qiymətli kağızlarının sayı investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarda və ya emissiya prospektində göstərilən sayından çox olmamalıdır. Lakin emitent investisiya qiymətli kağızlarının emissiyası haqqında qərarda və ya emissiya prospektində göstəriləndən az sayda investisiya qiymətli kağızları yerləşdirə bilər. Bu zaman investisiya qiymətli kağızlarının emissiyasının baş tutmuş hesab edilməsi üçün əsas olan qiymətli kağızların yerləşdirilmiş hissəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-15.5. İnvestisiya qiymətli kağızlarının kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı qiymətli kağızları alarkən bir alıcıya başqaları qarşısında üstünlük verilməsi qadağandır. Bu müddəa səhmdar cəmiyyətinin səhmdarlarına investisiya qiymətli kağızlarının emissiyası haqqında qərar qəbul edilən zaman onlarda olan səhmlərin sayma mütənasib miqdarda yeni emissiya olunan qiymətli kağızları almaqda üstünlük hüququ verildikdə tətbiq olunmur.

1078-15.6. Səhmdar cəmiyyətlərinin səhmlərinin kütləvi təklif üsulu ilə yerləşdirilməsi fond birjası vasitəsi ilə həyata keçirilir. Səhmlərin emissiyasının baş tutmuş hesab edilməsi üçün əsas olan hissəsinin fond birjası vasitəsi ilə yerləşdirilməsi qiymətli kağızların buraxılışı dövlət qeydiyyatına alındığı tarixdən etibarən bir il ərzində başa çatmalıdır.

1078-15.7. Emitent investisiya qiymətli kağızın dəyərinin ilk sahibi tərəfindən ödənildiyi tarixdən etibarən on beş gündən gec olmayaraq onun sahibi haqqında məlumatın qiymətli kağızların sahiblərinin reyestrinə daxil edilməsini (adlı qiymətli kağızların yerləşdirilməsi halında), investisiya qiymətli kağızın sahibinə investisiya qiymətli kağızın sertifikatının və ya depo hesablardan çıxarışların verilməsini təmin etməlidir.

1078-15.8. İnvestisiya qiymətli kağızları sənədli formada olduqda emitent onların sahibinə qiymətli kağızların sertifikatını (sertifikatlarını) verir.

1078-15.9. İnvestisiya qiymətli kağızları sənədsiz formada olduqda onların sahiblərinə əldə etdikləri qiymətli kağızları əks etdirən sertifikat depozitar tərəfindən verilir.

1078-15.10. Bir sertifikatla bir və daha çox sayda eyni dövlət qeydiyyat nömrəsi olan investisiya qiymətli kağızlara hüquqlar təsdiq edilə bilər. Bir investisiya qiymətli kağıza hüquqlar yalnız bir sertifikatla təsdiq edilə bilər.

1078-15.11. Kütləvi təklif üsulu ilə yerləşdirilən səhmlərin dəyəri yalnız pulla ödənilir.

1078-15.12. Emitent müvafiq icra hakimiyyəti orqanına investisiya qiymətli kağızların yerləşdirilməsi haqqında Hesabat təqdim etməlidir. İnvestisiya qiymətli kağızların yerləşdirilməsi haqqında hesabatın təqdim edilməsi qaydası qanunvericiliklə müəyyən olunur.

1078-15.13. Azərbaycan Respublikasının emitentlərinin qiymətli kağızlarının Azərbaycan Respublikası ərazisindən kənarda yerləşdirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 1078-16. İnvestisiya qiymətli kağızlarının emissiyasının dayandırılması

1078-16.1. İnvestisiya qiymətli kağızlarının emissiyasının dayandırılması müvafiq icra hakimiyyəti orqanının qərarı ilə qiymətli kağızların çap edilməsi, reklamı və yerləşdirilməsi üzrə digər tədbirlərin dayandırılmasıdır.

1078-16.2. İnvestisiya qiymətli kağızlarının emissiyası aşağıdakı əsaslarla müvafiq icra hakimiyyəti orqanı tərəfindən dayandırıla bilər:

1078-16.2.1. qeydiyyata alınmış emissiya şərtlərinin, habelə bu Məcəllənin və digər müvafiq normativ hüquqi aktların qiymətli kağızların emissiyası ilə bağlı olan tələbləri pozulduqda;

1078-16.2.2. investisiya qiymətli kağızlarının dövlət qeydiyyatından keçmiş sayından çox yerləşdirildikdə.

1078-16.3. Emitent qiymətli kağızların emissiyasının dayandırılması barədə müvafiq icra hakimiyyəti orqanından rəsmi bildiriş aldıqdan sonra dərhal kütləvi informasiya vasitələri ilə bu barədə məlumat verməli və qiymətli kağızların emissiyası zamanı yol verilmiş pozuntuları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi müddət ərzində aradan qaldırmalıdır.

1078-16.4. Qiymətli kağızların emissiyası zamanı yol verilmiş pozuntular aradan qaldırıldıqdan sonra müvafiq icra hakimiyyəti orqanının qərarı ilə emissiya davam etdirilə bilər. Bu zaman qiymətli kağızların yerləşdirilməsi müddəti emissiya dayandırıldığı müddətə uzadılır.

1078-16.5. İnvestisiya qiymətli kağızları dövlət qeydiyyatından keçmiş sayından çox yerləşdirildikdə, müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilən gündən iki ay ərzində emitent həmin kağızların geri satın alınmasını və ləğv edilməsini təmin etməlidir. Əks təqdirdə müvafiq icra hakimiyyəti orqanı emitent tərəfindən əsassız əldə edilmiş məbləğlərin investorlara qaytarılması üçün məhkəməyə müraciət edə bilər.

1078-16.6. İnvestisiya qiymətli kağızlarının emissiyasının dayandırılması ilə əlaqədar xərclər və investorlara müvafiq vəsaitlərin qaytarılması emitentin vəsaiti hesabına həyata keçirilir.

Maddə 1078-17. İnvestisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabat

1078-17.1. İnvestisiya qiymətli kağızlarının yerləşdirilməsi başa çatdıqdan sonra otuz gün müddətində emitent müvafiq icra hakimiyyəti orqanına investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabat təqdim etməlidir.

1078-17.2. İnvestisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabata aşağıdakı məlumatlar daxil edilməlidir:

1078-17.2.1. investisiya qiymətli kağızlarının yerləşdirilməsinin başlanması və başa çatması tarixi;

1078-17.2.2. yerləşdirilmiş investisiya qiymətli kağızlarının sayı;

1078-17.2.3. investisiya qiymətli kağızlarının yerləşdirilməsindən daxil olan vəsaitin ümumi məbləği;

1078-17.2.4. investisiya qiymətli kağızlarının yerləşdirilməsi zamanı emitentlə investorlar arasında bağlanılmış əqdlər haqqında məlumat.

1078-17.3. Müvafiq icra hakimiyyəti orqanı investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabata on beş iş günü müddətində baxır və qeydiyyatdan imtina üçün əsas olmadıqda onu qeydə alır.

1078-17.4. Müvafiq icra hakimiyyəti orqanı investisiya qiymətli kağızlarının emissiyasının yekunları haqqında hesabatı qeydiyyata almaqdan həmin buraxılış qiymətli kağızlarının emissiyası ilə əlaqədar qanun pozuntularına yol verildikdə imtina edə bilər.

1078-17.5. İnvestisiya qiymətli kağızlarının kütləvi təklif üsulu ilə yerləşdirilməsi zamanı emissiyanın yekunları haqqında hesabat, qeydiyyata alındıqdan sonra, emitent tərəfindən kütləvi informasiya vasitələrində açıqlanmalıdır.

Maddə 1078-18. İnvestisiya qiymətli kağızlarının emissiyasının baş tutmamış hesab edilməsi

1078-18.1. İnvestisiya qiymətli kağızları onların emissiyasının baş tutmuş hesab edilməsi üçün qanunvericiliklə müəyyən edilmiş saydan az miqdarda yerləşdirildikdə və ya qanunvericiliklə müəyyən edilmiş digər hallarda müvafiq icra hakimiyyəti orqanı tərəfindən emissiya baş tutmamış hesab edilə bilər.

1078-18.2. Emissiyanın baş tutmamış hesab edilməsi barədə emitent kütləvi informasiya vasitələri ilə elan verməli və yerləşdirilmiş qiymətli kağızları geri satın alaraq, investorlardan alınmış vəsaitləri onlara qaytarmalı və bunun nəticələri barədə müvafiq icra hakimiyyəti orqanına məlumat təqdim etməlidir.

Maddə 1078-19. İnvestisiya qiymətli kağızlarının buraxılışının etibarsız hesab edilməsi

İnvestisiya qiymətli kağızlarının emissiyası zamanı bu Məcəllənin və müvafiq qanunvericiliyin tələbləri pozulduğu hallarda müvafiq icra hakimiyyəti orqanının iddiası ilə məhkəmə tərəfindən həmin buraxılış etibarsız hesab edilə bilər. Bu halda

~~həmin buraxılışda olan bütün qiymətli kağızlar emitentə, qiymətli kağızların yerləşdirilməsindən əldə edilmiş vəsaitlər investorlara qaytarılmalıdır.~~

§ 14. Qiymətli kağızların tədavülü

Maddə 1078-20. Qiymətli kağızlar üzrə əqdlər

1078-20.1. Qiymətli kağızların tədavülü yerləşdirmədən sonra qiymətli kağızlarla mülki-hüquqi əqdlərin bağlanması nəticəsində mülkiyyət hüquqlarının keçməsi və qeydiyyatı prosesidir.

1078-20.2. Qiymətli kağızlar üzrə əqdlər bu Məcəlləyə *və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununa* müvafiq olaraq bağlanılır və həyata keçirilir.[756]

~~1078-20.3. Adlı qiymətli kağızları əldə edən şəxsin mülkiyyət hüquqları qiymətli kağızlar üzrə hüquqların ötürülməsinin qeydiyyatı ilə yaranır.~~[757]

1078-20.4. Qiymətli kağızların tədavülü zamanı *qiymətli kağızlarla əqdlərin bağlanması və icrasına dair bu Məcəllədə və "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulan tələblərin pozulması* aşkar edildikdə *Azərbaycan Respublikasının Mərkəzi Bankı* qanun pozuntusu ilə müşayiət olunan əqdlərin bağlanılmasını *dayandırır və ya klirinq baş verdikdə tərəflərinin hesablarını dondurur*.[758]

1078-20.5. Qiymətli kağızların növləri üzrə alqı-satqı əqdlərinin bağlanması qaydaları bu Məcəllə və ona müvafiq olaraq *Azərbaycan Respublikasının Mərkəzi Bankı* tərəfindən müəyyən edilir. *Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda qiymətli kağızlarla alqı-satqı əməliyyatları tənzimlənən bazar istisna olmaqla, digər ticarət sistemində aparıldıqda, alqı-satqı əqdləri həmin ticarət sisteminin qaydalarına uyğun olaraq bağlanılır.*[759]

1078-20.6. Hüquqi və fiziki şəxslərin borclarının qiymətli kağızlarla rəsmiləşdirilməsi və ödənilməsi *Azərbaycan Respublikasının Mərkəzi Bankın* müəyyən etdiyi qaydalara uyğun həyata keçirilir.[760]

1078-20.7. *İnvestisiya* qiymətli kağızlarla əqdlər *investisiya şirkəti və ya investisiya xidmətlərini (əməliyyatlarını) həyata keçirən bank* vasitəsilə bağlanmadıqda və ya belə əqdlərdə tərəf müqabili *investisiya şirkəti və ya investisiya xidmətlərini (əməliyyatlarını) həyata keçirən bank* olmadıqda həmin əqdlər notarial qaydada təsdiq olunmalıdır.[761]

1078-20.8. Ünvanlı satış istisna olmaqla, səhmdarların sayı *əllidən* artıq olan səhmdar cəmiyyətlərinin yerləşdirilmiş səhmlərlə alqı-satqı əqdləri fond birjası vasitəsilə bağlanmalıdır. *Tərəfləri bir-birinə məlum olan və qabaqcadan razılaşdırılmış qiymətlə və şərtlərlə bağlanan qiymətli kağızların alğı-satqı müqaviləsi ünvanlı satış əqdidir.*[762]

1078-20.9. Veksellər, ipoteka (daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla) və girov kağızları ötürülərkən qiymətli kağızın arxa tərəfində tələbin güzəşti haqqında qeyd (indossament) etmək zəruridir. Qiymətli kağızda icra edilmiş indossament qiymətli kağızla təsdiqlənmiş bütün hüquqları o şəxsə (indossat) keçirir ki, qiymətli kağız üzrə hüquqlar ona və ya onun sərəncamı ilə verilir. Daşınmaz əmlak üzərində ipoteka

hüququnu təsbit edən ipoteka kağızı üzrə hüquqların ötürülməsi bu Məcəllənin 996.2-1-ci maddəsinə uyğun olaraq həyata keçirilir.[763]

1078-20.10. İndossament blanklı (icranın həyata keçirilməli olduğu şəxs göstərilmədən) və ya orderli (icranın həyata keçirilməli olduğu və ya əmri ilə həyata keçirilməli olduğu şəxs göstərilməklə) ola bilər. İndossament yalnız qiymətli kağızla təsdiqlənmiş hüquqları həyata keçirmək tapşırığı ilə, bu hüquqlar indossata verilmədən (təkrar tapşırılan indossament) məhdudlaşdırıla bilər. Bu halda indossat nümayəndə kimi çıxış edir.

1078-20.10-1. İpoteka və girov kağızlarında blanklı indossamentə yol verilmir.[764]

1078-20.11. Bu Məcəllənin 996.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, indossament aşağıdakı tələblərə uyğun gəlməlidir:[765]

1078-20.11.1. onda indossat haqqında məlumatlar və indossantın imzası olmalıdır;

1078-20.11.2. sadə olmalı və heç nə ilə şərtlənməməlidir (indossamenti məhdudlaşdıran hər cür şərt etibarsız sayılır; qismən indossament də etibarsızdır.);

1078-20.11.3 qiymətli kağızda və ya ona əlavə edilmiş vərəqdə (əlavə vərəq) yazılmalıdır.

1078.20.12. İnsayder ticarəti və ya manipulyasiya həyata keçirilməsi nəticəsində zərər vuran şəxs zərər vurulmuş şəxs qarşısında vurduğu zərərin üç misli miqdarında məsuliyyət daşıyır.[766]

Maddə 1078-21. Qiymətli *kağızla təsdiqlənmiş* hüquqların ötürülməsi[767]

1078-21.1. Qiymətli *kağızla təsdiqlənmiş* hüquqlar bu Məcəllənin 993-cü maddəsinə və bu maddədə müəyyən edilmiş xüsusiyyətlərə uyğun olaraq ötürülür.[768]

1078-21.2. Adsız sənədli qiymətli *kağızla təsdiqlənmiş* hüquqlar onun sertifikatının yeni sahibinə verilməsi ilə ötürülür.[769]

1078-21.3. *Mərkəzi depozitarda* saxlanılan adsız sənədli qiymətli *kağızla təsdiqlənmiş* hüquqlar qiymətli kağızların yeni *mülkiyyətçisinin* "depo" hesabına köçürülməsi yolu ilə ötürülür.[770]

1078-21.4. Bu Məcəllənin 996.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, digər sənədsiz qiymətli kağızla təsdiqlənmiş hüquqlar qiymətli kağızlar üzrə depozitar sistemində qiymətli kağızlar mülkiyyətçisinin depo hesabından yeni mülkiyyətçinin depo hesabına köçürülməsi yolu ilə ötürülür.[771]

1078-21.5. Adlı sənədli qiymətli *kağızla təsdiqlənmiş* hüquqlar yeni *mülkiyyətçiyə* qiymətli kağızları (sertifikatları) verməklə *qiymətli kağız mülkiyyətçilərinin reyestrində* müvafiq qeydin aparılması yolu ilə *və ya indossament əsasında* ötürülür. *Mərkəzi depozitarda* saxlanılan adlı sənədli qiymətli *kağızla təsdiqlənmiş* hüquqlar *mülkiyyətçinin* "depo" hesabından yeni *mülkiyyətçinin* "depo" hesabına qiymətli kağızların köçürülməsi yolu ilə ötürülür.[772]

1078-21.6. Qiymətli kağızlarla *təsdiqlənmiş* hüquqlar əldə edən şəxsə həmin *kağızlara mülkiyyət hüququ* keçən andan keçir.[773]

1078-21.7. *Veksel, ipoteka (daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla) və girov kağızları ilə təsdiqlənmiş* hüquqlar ~~ixtiyarlı~~ *mülkiyyətçinin* kağız üzərində etdiyi sərəncam vasitəsi ilə yeni *mülkiyyətçiyə* ötürülür. *Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı üzrə hüquqların ötürülməsi bu Məcəllənin 996.2-1-ci maddəsinə uyğun olaraq həyata keçirilir.*[774]

1078-21.8. Qanunvericiliklə bu Məcəllənin tələbləri nəzərə alınmaqla qiymətli kağızların ayrı-ayrı növləri üzrə hüquqların keçməsinə əlavə üsul və xüsusatlar müəyyən edilə bilər.

1078-21.9. Adlı sənədli qiymətli *kağızla təsdiqlənmiş* hüquqların ötürülməsi zamanı qiymətli kağızın sertifikatının yeni *mülkiyyətçinin* adına rəsmiləşdirilməsi qaydası *Azərbaycan Respublikasının Mərkəzi Bankı* tərəfindən müəyyən edilir.[775]

1078-21.10. Yeni *mülkiyyətçi* hüquqların keçməsi üzrə qanunvericiliklə müəyyən edilmiş hərəkətlərin icrası və hüquqların qeydiyyatından sonra qiymətli *kağızla təsdiqlənmiş* hüquqları əldə edir.[776]

1078-21.11. Veksel, ipoteka və girov kağızları ilə təsdiqlənmiş hüququ ötürən şəxs (indossant) təkcə hüququn mövcudluğuna görə deyil, həm də onun həyata keçirilməsinə görə məsuliyyət daşıyır. Digər növ qiymətli kağızla təsdiqlənmiş hüququ ötürən şəxs müvafiq tələbin etibarsızlığına görə məsuliyyət daşıyır, lakin onun icra edilməməsi üçün məsuliyyət daşımır.[777]

Maddə 1078-22. Qiymətli kağızlarla *təsdiqlənmiş* hüquqların həyata keçirilməsi[778]

1078-22.1. Sənədli qiymətli kağızlarla *təsdiqlənmiş* hüquqlar qiymətli kağızların *mülkiyyətçisi* tərəfindən həmin qiymətli kağızların sertifikatının təqdim edilməsi ilə həyata keçirilir.[779]

1078-22.2. *Bu Məcəllənin 996.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla, digər sənədsiz* qiymətli kağızlarla *təsdiqlənmiş* hüquqlar həmin qiymətli kağızlar barədə reyestr və ya "depo" hesablarında mülkiyyətçi, yaxud nominal saxlayıcı barədə olan məlumatlarla reyestrdə qeydə alınmış şəxs barədə məlumatların eyniləşdirilməsi ilə həyata keçirilir.[780]

1078-22.3. Sənədli qiymətli kağızların sertifikatları *mərkəzi depozitarda* saxlandıqda həmin qiymətli kağızlarla *təsdiqlənmiş* hüquqlar *mülkiyyətçinin* tapşırığı ilə *mərkəzi depozitarda* saxlanılan qiymətli kağızın sertifikatının (*mülkiyyətçilərin* siyahısı əlavə olunmaqla) depozitar tərəfindən təqdim edilməsi ilə həyata keçirilir.[781]

Maddə 1078-23. Qiymətli kağızların öhdəliklərlə yüklənməsi

1078-23.1. Qiymətli kağızlar girovla və bu Məcəllədə nəzərdə tutulmuş digər öhdəliklərlə yüklənə bilər və belə yüklənmə qiymətli kağızlar üzrə depozitar sistemində qeydiyyata alındığı andan qüvvəyə minir.[782]

1078-23.2. Qiymətli kağızların öhdəliklərlə yüklənməsi qaydası bu Məcəllə və digər qanunvericilik aktları ilə müəyyən edilir.

~~1078-23.3. Qiymətli kağızların girovu barədə səlahiyyətli orqanların qəbul etdikləri qərarlar barədə məlumatlar müvafiq icra hakimiyyəti orqanının apardığı rəsmi reyestrdə əks etdirilir.~~[783]

1078-23.4. Qiymətli kağızlar üzrə girovun (ipotekanın) predmeti olan qiymətli kağızlarla rəsmiləşdirilmiş daşınmaz əmlaka *tutmanın* yönəldilməsi və ya hüquqların keçməsi həmin əmlaka *tutmanın* yönəldilməsi və ya hüquqların keçməsidir. ~~Qiymətli kağızlarla rəsmiləşdirilmiş hüquqlar (daşınmaz əmlakın ipotekası da daxil olmaqla)~~

~~üzrə mülkiyyətin əldə edənə keçməsi həmin qiymətli kağızın verilməsi ilə həyata keçirilir.~~[784]

1078-23.5. Girov kağızı və ipoteka kağızının *(daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla)* tədavülü qaydaları *Azərbaycan Respublikasının Mərkəzi Bankı* tərəfindən müəyyən edilir.[785]

1078-23.6. Qiymətli kağızlar üzrə girov hüquqları yalnız onların mülkiyyətçilərinin tapşırıqları əsasında depozitar sistemində qeydiyyata alınmalıdır.

1078-23.7. Bu Məcəllənin 1078-23.6-ci maddəsində nəzərdə tutulmuş tapşırıqda aşağıdakılar öz əksini tapmalıdır:

1078-23.7.1. mülkiyyətçinin və hüquqların xeyrinə qoyulduğu üçüncü şəxslər barədə məlumatlar (hüquqi şəxs olduqda - onun tam adı, ünvanı; fiziki şəxs olduqda – adı, soyadı, atasının adı, ünvanı);

1078-23.7.2. mülkiyyətçinin və hüquqların xeyrinə qoyulduğu üçüncü şəxsin mərkəzi depozitarda olan fərdi eyniləşdirmə nömrələri;

1078-23.7.3. qiymətli kağızların növü, forması, qeydiyyat nömrəsi və sayı;

1078-23.7.4. qiymətli kağızlar üzrə yüklənən hüquqların növü və qüvvədə olma müddəti (olduqda);

1078-23.7.5. qiymətli kağızlar üzrə hüquqların ötürülməsini təsdiq edən sənədlər;

1078-23.7.6. mülkiyyətçinin imzası.

1078-23.8. Qiymətli kağızlar üzrə girov hüquqları onların depozitar sistemində qeydiyyata alındığı andan yaranır. Girov saxlayan girovda olan qiymətli kağızlar üzrə gəlirlərin əldə olunması hüququna malikdirsə, həmin hüquqlar girovla birgə depozitar sistemində qeydiyyata alınır.

1078-23.9. Qiymətli kağızlarla girov predmetinə tutmanın yönəldilməsi bu Məcəllə ilə müəyyən edilmiş hallarda məhkəmədən kənar qaydada həyata keçirilir.

1078-23.10. Borclu öhdəliyi icra etmədikdə girov saxlayan girov predmetinə tutmanın yönəldilməsi haqqında girov qoyana aşağıdakı məlumatları özündə əks etdirən bildiriş göndərməlidir:

1078-23.10.1. girovun mərkəzi depozitarda uçota alındığı tarixi;

1078-23.10.2. girov predmeti barədə məlumat (qiymətli kağızların emitentinin adı, qiymətli kağızların qeydiyyat nömrəsi, növü, forması, sayı, nominal dəyəri);

1078-23.10.3. icra olunmalı öhdəlik barədə məlumat;

1078-23.10.4. girov predmetinə tutmanın yönəldilməsinin girov müqaviləsində nəzərdə tutulduğu və ya girov kağızının verildiyi hallar istisna olmaqla, girov predmetinə tutmanın yönəldilməsi üçün notariat qaydasında razılaşmanın təsdiq edilməsi barədə təklif və ya girov predmetinə notariusun icra qeydi və ya məhkəmə qaydasında tutmanın yönəldilməsi barədə xəbərdarlıq;

1078-23.10.5. bildirişin tarixi, bildirişi verən şəxsin vəzifəsi, adı və imzası.

1078-23.11. Girov saxlayan girov predmetinə tutmanın yönəldilməsi haqqında bildirişi girov qoyana göndərildiyi tarixdən etibarən yeddi iş günü ərzində mərkəzi depozitara göndərilməlidir.

1078-23.12. Mərkəzi depozitar üç iş günü ərzində bildirişi qeydə alır, girov qoyulmuş qiymətli kağızlarla əməliyyatları dayandırır və bu barədə girov saxlayana məlumat verir.

1078-23.13. Girov predmetinə tutmanın yönəldilməsi məhkəmədən kənar qaydada həyata keçirildikdə, girov predmeti girov qoyanla girov saxlayanın razılaşması əsasında fond birjasında və ya "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda qiymətli kağızlarla əməliyyatlar digər ticarət sistemində aparıldıqda, həmin ticarət sistemində satışa çıxarılır.[786]

1078-23.14. Məhkəmə girov predmetinin satışı barədə qərar qəbul etdikdə, girov predmeti icra məmurlarının tapşırığı əsasında girov müqaviləsində göstərildiyi qiymətə fond birjasında və ya "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda qiymətli kağızlarla əməliyyatlar digər ticarət sistemində aparıldıqda, həmin ticarət sistemində satışa çıxarılır.[787]

1078-23.15. Girov müqaviləsi ilə girov predmetinin qiyməti müəyyən edilmədikdə, qiymətli kağızlar nominal dəyər ilə satışa çıxarılır.

1078-23.16. Girov predmeti fond birjasında və ya "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda qiymətli kağızlarla əməliyyatlar digər ticarət sistemində aparıldıqda, həmin ticarət sistemində satılmadıqda, girov predmetini təşkil edən qiymətli kağızlar girov saxlayana təklif olunur.

1078-23.17. Qiymətli kağızların girovunun qeydiyyatı, ona xitam verilməsi və girov predmetinə tutmanın yönəldilməsi qaydası Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən müəyyən edilir.

1078-23.18. Girov müqaviləsi tənzimlənən bazarlarda maliyyə öhdəliklərinin yerinə yetirilməsi məqsədilə bağlanıldıqda və həmin müqavilədə girov predmeti pul və ya tənzimlənən bazarda ticarət olunan qiymətli kağızlar və ya törəmə maliyyə alətləri olduqda və girov saxlayan və ya girov qoyan Azərbaycan Respublikasının Mərkəzi Bankı, mərkəzi depozitar, bank, sığorta şirkəti və ya investisiya şirkəti olduqda və girovla təmin edilmiş borc yalnız tənzimlənən bazarda alğı-satqı əməliyyatlarının keçirilməsi üçün istifadə olunduqda bu cür girov maliyyə girovu hesab olunur. Maliyyə girovu həmçinin "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda qiymətli kağızlarla və törəmə maliyyə alətləri ilə əməliyyatlar digər ticarət sistemində aparıldıqda da yaranır.[788]

1078-23.18-1. "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikası Qanununun 45.5-ci maddəsinə əsasən hesablaşma agenti klirinq üzrə ödəniş sistemində hesablaşmaların başa çatdırılmasını nağd pul, dövlət istiqrazları və ya Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən buraxılmış qiymətli kağızların girovu mexanizmlərinin tətbiqi ilə təmin etdikdə, bu cür girov maliyyə girovu hesab olunur.[789]

1078-23.19. Girov saxlayanla girov qoyan arasında bağlanılan girov müqaviləsində nəzərdə tutulduğu halda maliyyə girovu üzrə öhdəliklər borclu tərəfindən icra edilmədikdə, girov predmeti məhkəmədənkənar qaydada girov saxlayanın mülkiyyətinə keçir. Bu maddədə nəzərdə tutulmuş müqavilənin notariat qaydada təsdiq edilməsi tələb olunmur.[790]

Maddə 1078-24. Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması qaydaları

Xarici emitentlərin qiymətli kağızlarının Azərbaycan Respublikasında tədavülə buraxılması qaydaları *Azərbaycan Respublikasının Mərkəzi Bankı* tərəfindən müəyyən edilir.

Maddə 1078-25. Xarici investorlar tərəfindən qiymətli kağızların əldə edilməsi

Azərbaycan Respublikasının emitentlərinin qiymətli kağızlarının xarici investorlar tərəfindən əldə edilməsi, qanunla nəzərdə tutulmuş hallar istisna olmaqla, məhdudlaşdırılmır.

Maddə 1078-26. Qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası

1078-26.1. Qiymətli kağızların birləşdirilməsi bir növdən olan bütün qiymətli kağızların bir buraxılış daxilində bütün mülkiyyətçilərdə olan qiymətli kağızların sayının mütənasib azaldılması yolu ilə dəyişdirilməsidir. Qiymətli kağızların nominal dəyəri olduqda, onların birləşdirilməsi nominal dəyərin mütənasib artırılması ilə müşayiət olunur.

1078-26.2. Qiymətli kağızların xırdalanması (bölünməsi) bir qiymətli kağızın nominal dəyərinin mütənasib bölünməsi yolu ilə eyni növlü bir neçə qiymətli kağıza çevrilməsidir.

1078-26.3. Qiymətli kağızların konvertasiyası bir emitentin bir növ investisiya qiymətli kağızların digər növlü investisiya qiymətli kağızlara və ya digər emitentin qiymətli kağızlarına (həmin emitent yenidən təşkil edildikdə) əvəzsiz dəyişdirilməsidir (səhmin istiqraza dəyişdirilməsi istisna olmaqla). Bu zaman dəyişdirilmiş qiymətli kağızlar ləğv olunur.

1078-26.4. Qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası həmin qiymətli kağızların yerləşdirilməsi zamanı emitent tərəfindən cəlb edilmiş vəsaitlərin miqdarının dəyişdirilməsinə gətirmir, qiymətli kağızlar *mülkiyyətçilərindən* geri alınan qiymətli kağızların dəyərinin qaytarılması üçün əsas deyil və qiymətli kağızlar *mülkiyyətçiləri* tərəfindən əlavə xərclər edilmədən həyata keçirilir.[791]

1078-26.5. Emitentin yerləşdirilmiş qiymətli kağızlarının birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası haqqında qərarı *Azərbaycan Respublikasının Mərkəzi Bankda* qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınmalıdır.

1078-26.6. Qiymətli kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası qaydaları *Azərbaycan Respublikasının Mərkəzi Bankı* tərəfindən müəyyən edilir.

1078-26.7. *Sənədli qiymətli* kağızların birləşdirilməsi, xırdalanması (bölünməsi) və konvertasiyası və ödənilməsi bu qiymətli kağızların əvvəlki sertifikatlarının ləğv olunması ilə müşayiət olunur.[792]

Maddə 1078-27. Qiymətli kağızların dövriyyədən çıxarılması ~~və ləğv edilməsi~~[793]

1078-27.1. Qiymətli kağızların dövriyyədən çıxarılması ~~və ləğv edilməsi~~ aşağıdakı hallarda həyata keçirilir:

1078-27.1.1. *səhmlər barəsində səhmdarların ümumi yığıncağının* qərarı ilə;[794]

1078-27.1.2. qiymətli kağızların emissiyasının baş tutmamış hesab edildiyi halda *Azərbaycan Respublikasının Mərkəzi Bankın* qərarı ilə;

1078-27.1.3. qiymətli kağızların buraxılışı məhkəmə tərəfindən etibarsız hesab edildikdə;

1078-27.1.4. emitentin fəaliyyətinə qanunvericiliklə müəyyən edilmiş qaydada xitam verildikdə;

1078-27.1.4-1. tədavül müddəti bitdikdən sonra qiymətli kağızlar ödənildikdə;[795]

1078-27.1.5. qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

1078-27.2. *Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla, digər dövlət qeydiyyatına alınmış* qiymətli kağızlar dövriyyədən çıxarıldıqda ~~və ya ləğv edildikdə~~, *Azərbaycan Respublikasının Mərkəzi Bankı* qiymətli kağızların dövlət reyestrində müvafiq qeydlər etməlidir.[796]

1078-27.3. Qiymətli kağızların dövriyyədən çıxarılması ~~və ləğv edilməsi~~ haqqında məlumat (ödəniş nəticəsində tədavüldən çıxarılması istisna olmaqla) *Azərbaycan Respublikasının Mərkəzi Bankı* tərəfindən qiymətli kağızların dövlət reyestrində müvafiq qeydlər edildiyi gündən yeddi iş günü müddətində rəsmi *mediada* dərc olunmalıdır.

1078-27.4. Qiymətli kağızların dövriyyədən çıxarılması ~~və ləğv edilməsi~~ barədə məlumatın dərc edildiyi gündən onların dövriyyəsinə yol verilmir. Bu məlumatın dərc edildiyi gündən həmin kağızlarla bağlanmış müqavilələr əhəmiyyətsizdir.

1078-27.5. Qiymətli kağızların dövriyyədən çıxarılması ~~və ləğv edilməsi~~ bu barədə müvafiq məlumat dərc edildikdən sonra həyata keçirilir.

1078-27.6. Qiymətli kağızların dövriyyədən çıxarılması ~~və ləğv edilməsi~~ qaydaları *Azərbaycan Respublikasının Mərkəzi Bankı* tərəfindən müəyyən edilir.

~~§ 15. Qiymətli kağızlar bazarının peşəkar iştirakçıları~~[797]

~~Maddə 1078-28. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin növləri~~

~~1078-28.1. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyət növlərinə aşağıdakılar aid edilir:~~

~~1078-28.1.1. broker fəaliyyəti;~~

~~1078-28.1.2. diler fəaliyyəti;~~

~~1078-28.1.3. aktivlərin idarə edilməsi üzrə fəaliyyət;~~[798]

~~1078-28.1.4. klirinq fəaliyyəti;~~

~~1078-28.1.5. depozitar fəaliyyəti;~~

~~1078-28.1.6. qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət;~~

~~1078-28.1.7. fond birjası.~~

~~1078-28.2. Qanunvericiliklə qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin digər növləri də müəyyən edilə bilər.~~

~~1078-28.3. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyət yalnız müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilmiş müvafiq xüsusi razılığa (lisenziyaya) malik olan şəxslər tərəfindən həyata keçirilə bilər.~~

~~1078-28.4. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin müxtəlif növləri ilə eyni zamanda məşğul olunması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının banklar istisna olmaqla qiymətli kağızlar bazarına aid olmayan digər sahibkarlıq fəaliyyəti növləri ilə eyni zamanda məşğul olunmasına yol verilmir.~~[799]

~~1078-28.5. Qiymətli kağızlar bazarında peşəkar fəaliyyəti həyata keçirmək üçün xüsusi razılığın (lisenziyanın) verilməsi, dayandırılması və ləğv edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~

~~1078-28.6. Azərbaycan Respublikasının Mərkəzi Bankı qanunvericiliklə müəyyən edilmiş qaydada qiymətli kağızlar bazarında peşəkar fəaliyyət növlərini və ya həmin fəaliyyət növləri çərçivəsində ayrı-ayrı əməliyyatları xüsusi razılıq (lisenziya) olmadan həyata keçirə bilər.~~

~~Maddə 1078-29. Broker fəaliyyəti~~

~~1078-29.1. Broker fəaliyyəti yalnız hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər.~~

~~1078-29.2. Brokerin müştərisinin tapşırığını onun üçün daha əlverişli şərtlərlə yerinə yetirməyə maneəçilik törədən marağı varsa, broker tapşırığın icrasını dayandıraraq dərhal müştərini bu barədə xəbərdar etməli və müştərinin yeni tapşırığını icra etməlidir.~~

~~1078-29.3. Broker müvafiq tapşırığı alarkən onunla müştərinin maraqları arasında ziddiyyət barədə müştəriyə məlumat verməmişdirsə və bu müştərinin maraqlarına ziyan vurmuşdursa, broker qanunvericiliklə müəyyən edilmiş qaydada həmin zərəri öz hesabına ödəməyə borcludur.~~

~~1078-29.4. Brokerin müştərisinin tapşırıqlarının yerinə yetirilməsi ilə bağlı olmayan öhdəlikləri üzrə brokerə tətbiq edilən maddi tənbeh tədbirləri müştərinin brokerdə saxlanılan maddi vəsaitlərinə yönəldilə bilməz.~~

~~1078-29.5. Broker komisyoner kimi fəaliyyət göstərdikdə, komissiya müqaviləsində nəzərdə tutulduqda, müştərinin onun sərəncamına verilmiş pul vəsaitlərindən (qiymətli kağızlara investisiya üçün nəzərdə tutulmuş və ya qiymətli kağızların alınmasından əldə edilmiş), onların qaytarılması anına qədər, müqavilə şərtlərinə uyğun olaraq qiymətli kağızlarla əməliyyatlarda təkrarən istifadə edə bilər. Bu fəaliyyətin nəticəsində əldə edilən gəlirin istifadəsi qaydaları müqavilə ilə müəyyən edilir.~~

~~1078-29.6. Broker eyni zamanda diler fəaliyyəti ilə məşğul olduqda, ona müştəri tərəfindən verilmiş sifarişdə diler fəaliyyətinin həyata keçirilməsi ilə bağlı aparıldığı əməliyyatlarla əqdin istiqaməti və şərtləri eyni olduqda, o, ilk növbədə müştərinin tapşırığını yerinə yetirməlidir.~~

~~1078-29.7. Broker müflis elan edildikdə broker xidmətinin göstərilməsi haqqında müqaviləyə əsasən müştərinin onda saxlanılan maddi vəsaitlər qaytarılmalıdır.~~

~~1078-29.8. Broker fəaliyyətini tənzimləyən qaydalar və broker ilə müştəri arasında bağlanılmış müqaviləyə dair tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~

1078-29.9. Broker cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidir.

Maddə 1078-30. Diler fəaliyyəti

1078-30.1. Diler fəaliyyəti yalnız hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər.

1078-30.2. Diler əvvəlcədən elan etdiyi şərtlərə uyğun gələn alqı-satqı müqavilələrinin bağlanmasından həmin şərtləri dəyişdirmək yolu ilə imtina edə bilməz.

1078-30.3. Diler fəaliyyətini tənzimləyən qaydalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 1078-31. Aktivlərin idarə edilməsi üzrə fəaliyyət

1078-31.1. Aktivlərin idarə edilməsi üzrə fəaliyyət yalnız hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər. Aktivlərin idarə edilməsi üzrə fəaliyyəti həyata keçirən qiymətli kağızlar bazarının peşəkar iştirakçısı idarəçi adlanır.[800]

1078-31.2. İdarəçiyə idarə edilmək üçün qiymətli kağızların, pul vəsaitlərinin və qanunvericilikdə nəzərdə tutulmuş digər əmlakın verilməsi həmin qiymətli kağızlara, pul vəsaitlərinə və əmlaka mülkiyyət hüququnun keçməsinə səbəb olmur.

1078-31.3. İdarəçi ilə müştərisi arasında və ya idarəçinin bir neçə müştəriləri arasında maraqlar ixtilafı yarandıqda idarəçi bu barədə müştərilərinə dərhal məlumat verməlidir. Əks tədqirdə, bunun nəticəsində müştəriyə dəymiş zərər idarəçi tərəfindən ödənilməlidir.

1078-31.4. İdarəçinin öhdəlikləri üzrə tənbeh tədbirləri müştərinin idarə etməyə verilmiş əmlakına yönəldilə bilməz.

1078-31.5. İdarəçinin fəaliyyətini tənzimləyən qaydalar və idarəçi ilə müştərinin müqaviləsinə dair tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-31.6. İdarəçi cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması məqsədi ilə onun üçün müvafiq qanunvericiliklə müəyyən edilmiş tədbirləri yerinə yetirməlidir.[801]

Maddə 1078-32. Klirinq fəaliyyəti

1078-32.1. Klirinq fəaliyyətini yalnız hüquqi şəxslər (bundan sonra – klirinq təşkilatları) həyata keçirir.

1078-32.2. Qiymətli kağızlarla əqdlər üzrə hesablaşmaları həyata keçirən klirinq təşkilatları qiymətli kağızlarla əqdlərin icra olunmaması risklərini azaltmaq üçün zəmanət fondu yaratmalıdır. Zəmanət fondunun minimal məbləği bağlanılacaq əqdlərin təmin edilməmiş hissəsindən az olmamalıdır.

1078-32.3. Klirinq fəaliyyətinin həyata keçirilməsinin qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

Maddə 1078-33. Depozitar fəaliyyəti

1078-33.1. Depozitar fəaliyyəti yalnız hüquqi şəxslər tərəfindən həyata keçirilə bilər.

1078-33.2. Depozitar fəaliyyətinin həyata keçirilməsi standartları və qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-33.3. Depozitarın qiymətli kağızların saxlanması və uçotu üzrə xidmətlərindən istifadə edən şəxs deponent adlandırılır.

1078-33.4. Depozitar müqaviləsinin bağlanılması qiymətli kağızlar üzrə mülkiyyət hüququnun depozitara keçməsinə əsas deyildir.

1078-33.5. Depozitarın öhdəlikləri üzrə tənbeh tədbirləri deponentin qiymətli kağızlarına yönəldilə bilməz.

1078-33.6. Depozitar, depo hesabları üzrə yazıların tamlığını və düzgünlüyünü təmin etməlidir və öz öhdəliklərinin yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə, depo hesabları üzrə yazıların tamlığına və düzgünlüyünə görə məsuliyyət daşıyır.

1078-33.7. Depozitar sisteminin strukturu, onun üzvlərinin qarşılıqlı münasibətlərinin prinsipləri, məzmunu və formasına olan tələblər, onların fəaliyyət qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-33.8. Depozitar eyni zamanda reyestrsaxlayıcı peşəkar fəaliyyətini həyata keçirdikdə emitentlə bağlanılmış müqaviləyə əsasən qiymətli kağız sahiblərinin və (və ya) nominal saxlayıcıların depo hesablarına əsasən reyestri aparır. Bu halda digər depozitarlarda saxlanılan qiymətli kağızlar qiymətli kağız sahiblərinin reyestrini aparan depozitarda nominal saxlayıcı hesabında əks etdirilir.

1078-33.9. Azərbaycan Respublikasının Mərkəzi Bankı dövlət qiymətli kağızlarına hüquqların uçotunu aparan depozitarla bağlanılmış müqavilə əsasında həmin qiymətli kağızlar üzrə ayrı-ayrı depozitar əməliyyatlarını aparmaq hüququna malikdir

Maddə 1078-34. Qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyət

1078-34.1. Qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyətlə yalnız hüquqi şəxslər məşğul ola bilər.

1078-34.2. Qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyəti həyata keçirən şəxs (bundan sonra – reyestrsaxlayıcı) qiymətli kağız sahiblərinin reyestrinin aparılması sistemində qeydə alınmış emitentin qiymətli kağızları ilə əqdləri bağlaya bilməz.

1078-34.3. Qiymətli kağız sahiblərinin reyestri müəyyən tarixə qeydə alınmış qiymətli kağızların sahiblərinin və nominal saxlayıcılarının, onlara məxsus qiymətli kağızların sayının və növünün eyniləşdirilməsini təmin edən siyahıdır. Qiymətli kağızların reyestrində emitent haqqında məlumat, hər bir qiymətli kağız sahiblərinə və

~~nominal saxlayıcılarına məxsus olan qiymətli kağızların sayı, nominal dəyəri, növü, forması, öhdəliklər ilə yükləndirilməsi və qanunvericiliklə müəyyən edilmiş digər məlumatlar göstərilməlidir.~~

~~1078-34.4. Qiymətli kağız sahiblərinin reyestrinin aparılması üzrə fəaliyyətin həyata keçirilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~

~~1078-34.5. Adsız qiymətli kağızların sahiblərinin reyestri aparılmır.~~

~~1078-34.6. Bir emitentin adlı investisiya qiymətli kağızlarının sahiblərinin sayı iyirmidən artıq olduqda, qiymətli kağız sahiblərinin reyestrinin aparılması yalnız qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan reyestrsaxlayıcı tərəfindən keçirilməlidir. Bir emitentin adlı investisiya qiymətli kağızlarının sahiblərinin sayı iyirmi və daha az olduqda, onların reyestri həm qiymətli kağızlar bazarının peşəkar iştirakçısı olan reyestrsaxlayıcı, həm də emitentin özü tərəfindən aparıla bilər.~~

~~1078-34.7. Emitentin eyni növ qiymətli kağızlarının sahiblərinin reyestri eyni zamanda yalnız bir reyestrsaxlayıcı tərəfindən aparılmalıdır.~~

~~1078-34.8. Reyestrsaxlayıcı reyestrdən verdiyi çıxarışlar üzrə yazıların tamlığını və düzgünlüyünü təmin etməlidir və öz öhdəliklərinin yerinə yetirilməməsinə və ya lazımınca yerinə yetirilməməsinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır.~~

~~1078-34.9. Emitent reyestrsaxlayıcısını dəyişdiyi halda, bu barədə kütləvi informasiya vasitələrində elan verməli, və ya bütün qiymətli kağız sahiblərinə öz hesabına yazılı bildiriş göndərməlidir.~~

~~1078-34.10. Qiymətli kağız sahiblərinin reyestrində qiymətli kağızların nominal saxlayıcısı qismində broker (yalnız deponentləşdirilməmiş qiymətli kağızlar üzrə) və ya depozitar çıxış edə bilərlər.~~

~~1078-34.11. Qiymətli kağızlar depozitarda deponentləşdirildikdə depozitar həmin qiymətli kağızların sahiblərinin reyestrində nominal saxlayıcı kimi qeydə alınır.~~

~~1078-34.12. Qiymətli kağızların nominal saxlayıcısı həmin qiymətli kağızlarla təsbit edilmiş hüquqları yalnız onların mülkiyyətçisi tərəfindən bu barədə səlahiyyət aldıqda həyata keçirə bilər.~~

~~1078-34.13. Reyestrin aparılması sistemində nominal saxlayıcının adının qeyd edilməsi qiymətli kağızlara mülkiyyət hüququnun nominal saxlayıcıya keçməsinə əsas deyildir.~~

~~1078-34.14. Bir nominal saxlayıcının müştəriləri olan qiymətli kağız sahiblərinin arasında əqdlərin nəticələri reyestrdə əks etdirilmir.~~

~~1078-34.15. Qiymətli kağızların bir nominal saxlayıcıdan başqa nominal saxlayıcıya ötürülməsi haqqında məlumat nominal saxlayıcılar tərəfindən üç iş günü ərzində reyestrsaxlayıcıya təqdim olunmalıdır.~~

~~1078-34.16. Qiymətli kağız sahibləri tərəfindən qiymətli kağızlar üzrə hüquqların həyata keçirilməsinin təmin edilməsi üçün nominal saxlayıcı reyestrsaxlayıcının tələbi ilə müəyyən tarixə nominal saxlayıcısı olduğu şəxslərin siyahısını yeddi iş günü ərzində ona təqdim etməlidir.~~

~~Maddə 1078-35. Fond birjası~~

1078-35.1. Fond birjası - qapalı səhmdar cəmiyyəti formasında yaradılan, öz üzvləri arasında qiymətli kağızlarla ticarəti təşkil edən və bağlanmış əqdlərin icrasını təmin edən ticarət təşkilatçısıdır.

1078-35.2. Adında "Fond birjası" ifadəsini yalnız fond birjası peşəkar fəaliyyətini həyata keçirən şəxs istifadə edə bilər.

1078-35.3 Fond birjası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş standartlar əsasında fəaliyyətini tənzimləyən daxili qaydaları təsdiq etməlidir.

1078-35.4. Fond birjasının nizamnamə kapitalının minimal miqdarı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-35.5. Fond birjası yalnız adi adlı səhmlər emissiya edə bilər.

1078-35.6. Fond birjasının səhmdarlarının hər biri birjanın səhmlərinin sayının iyirmi faizindən çox olmamaqla səhmlərin sahibləri ola bilərlər.

1078-35.7. Fond birjası ticarəti öz üzvləri arasında təşkil edir. İstisna qaydasında Azərbaycan Respublikasının Mərkəzi Bankı birja ticarətində birja üzvü olmadan iştirak edə bilər.

1078-35.8. Fond birjasının işçiləri qiymətli kağızlar bazarının peşəkar iştirakçıları və onların təsisçiləri ola bilməzlər, həmçinin fond birjasının fəaliyyətində sahibkarlar kimi iştirak edə bilməzlər.

Maddə 1078-36. Fond birjasının üzvləri

1078-36.1. Fond birjasının üzvləri birjanın daxili qaydalarına uyğun olaraq birja ticarətində bilavasitə iştirak etmək hüququna malik olan broker və ya dilerlərdir.

1078-36.2. Fond birjası üzvlüyünə daxil olması, fond birjası üzvlüyündən çıxarılması, xaric edilməsi və birjada üzvlüyün dayandırılması qaydaları, habelə fond birjasında üzvlərin fəaliyyətinin qaydaları müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktları, həmçinin birjanın nizamnaməsi və digər daxili sənədləri ilə müəyyən edilir.

1078-36.3. Fond birjasının üzvlərinin broker və diler fəaliyyətinə xüsusi razılıqları (lisenziyaları) olmalıdır və onlar birja tərəfindən onların ödəniş qabiliyyətinə və özlərinin fəaliyyətlərinin təşkilinə dair müəyyən edilən ixtisas tələblərinə cavab verməlidirlər.

1078-36.4. Birjada üzvlüyə aşağıdakı hallarda xitam verilir:

1078-36. 4.1. birja üzvlüyündən könüllü qaydada çıxdıqda;

1078-36.4.2 müvafiq icra hakimiyyəti orqanının qərarı nəticəsində birja üzvü olan brokerə və dilerə verilən xüsusi razılıq (lisenziya) ləğv edildikdə;

1078-36.4.3. birjanın müvafiq idarəetmə orqanının qərarı ilə birja üzvü birja qaydalarını kobud surətdə pozduqda və ya birja tərəfindən müəyyən edilən ixtisas tələblərinə cavab vermədikdə;

1078-36.4.4. birjanın fəaliyyətinə xitam verildikdə.

1078-36.5. Fond birjası öz üzvlərinin sayını məhdudlaşdırmaq hüququna malikdir.

Maddə 1078-37. Fond birjası tərəfindən yığılan ödənişlər

1078-37.1. Fond birjası tərəfindən aşağıdakı hallarda pul ödənişləri müəyyən edilə bilər:

1078-37.1.1. fond birjasının üzvlüyünə daxil olmaq üçün;

1078-37.1.2. qiymətli kağızların listinqi üçün;

1078-37.1.3. birja əqdlərinin təşkili üçün.

1078-37.2. Müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydalarda, birjanın nizamnaməsi və birja qaydaları ilə nəzərdə tutulmuş digər hallarda da ödənişlərin alınması müəyyən edilə bilər.

Maddə 1078-38. Birja əqdləri

1078-38.1. Birja ticarətinin iştirakçıları arasında bağlanılmış müqavilə birja əqdidir.

1078-38.2. Fond birjasında bağlanılmış bütün əqdlər qanunvericiliklə və birja qaydaları ilə müəyyən edilmiş qaydada qeydiyyata alınmalıdır və rəsmiləşdirilməlidir.

1078-38.3. Birjanın müvafiq səlahiyyətli orqanı birja qaydalarına əsasən birja üzvünü müvəqqəti olaraq birja əqdlərinin bağlanılmasından kənarlaşdıra bilər.

Maddə 1078-39. Birja qaydaları

1078-39.1. Fond birjası qiymətli kağızların birjada dövriyyəyə buraxılma qaydalarını, onları birjada kotirovka edilən qiymətli kağızların siyahısına daxil edilməsi (listinq) və göstərilən siyahıdan çıxarılması (delistinq), birjada əqdlərin bağlanması, qeydiyyatı, icrası və təmin edilməsi, əqdlər üzrə hesablaşmaların aparılması, birja üzvləri arasında birja əməliyyatlarının aparılması zamanı yaranan mübahisələrin həlli və fond birjasının fəaliyyətilə əlaqədar digər qaydaları müvafiq icra hakimiyyəti orqanının normativ hüquqi aktlarına uyğun olaraq qəbul edir.

1078-39.2. Fond birjası ticarətin aparılması vaxtı haqqında, birjada ticarətə buraxılmış qiymətli kağızların siyahısı və qiymətləri (kotirovkası), ticarət sessiyasının nəticələri haqqında və qanunvericiliklə nəzərdə tutulmuş digər məlumatları vaxtında təqdim etməklə aparılan ticarətin şəffaflığını təmin etməlidir.

§ 16. Qiymətli kağızlar bazarının tənzimlənməsi[802]

Maddə 1078-40. Qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi

1078-40.1. Qiymətli kağızlar bazarının dövlət tənzimlənməsi aşağıdakılardan ibarətdir:

1078-40.1.1. qiymətli kağızlar bazarının tənzimlənməsi üzrə normativ hüquqi aktların qəbul edilməsi və onlara riayət olunmasına nəzarətin həyata keçirilməsindən;

1078-40.1.2. qiymətli kağızlar bazarının iştirakçılarına tələblərin və onların fəaliyyəti qaydalarının müəyyən edilməsindən;

~~1078-40.1.3. qiymətli kağızlar buraxılışlarının dövlət qeydiyyatının aparılmasından;~~

~~1078-40.1.4. qiymətli kağızlar bazarında peşəkar fəaliyyətin həyata keçirilməsi üçün xüsusi razılığın (lisenziyanın) verilməsindən;~~

~~1078-40.1.5. qiymətli kağızlar bazarında investorların və qiymətli kağızlar sahiblərinin hüquqlarının müdafiəsindən;~~

~~1078-40.1.6. qiymətli kağızlar bazarı iştirakçılarının fəaliyyətinə dövlət nəzarətinin həyata keçirilməsindən;~~

~~1078-40.1.7. qiymətli kağızlar bazarında qanunvericiliyi pozan şəxslərin məsuliyyətə cəlb edilməsi üzrə müvafiq tədbirlərin görülməsindən;~~

~~1078-40.1.8. qiymətli kağızlar bazarının iştirakçılarının peşə səviyyəsinin artırılması üzrə müvafiq tədbirlərin görülməsindən;~~

~~1078-40.1.9. qiymətli kağızlar bazarının inkişafı istiqamətlərinin müəyyən edilməsindən;~~

~~1078-40.1.10. qiymətli kağızlar bazarında sağlam rəqabət mühitinin yaradılmasından;~~

~~1078-40.1.11. qiymətli kağızlarla əqdlərin bağlanmasına dair tələblərin müəyyən edilməsindən;~~

~~1078-40.1.12. hüquqi və fiziki şəxslərin borc öhdəliklərinin qiymətli kağızlarla rəsmiləşdirilməsi və ödənilməsi qaydalarının müəyyənləşdirilməsindən;~~

~~1078-40.1.13. qiymətli kağızlarla rəsmiləşdirilmiş borc öhdəlikləri bazarının tənzimlənməsinin həyata keçirilməsindən;~~

~~1078-40.1.14. Azərbaycan Respublikasının qiymətli kağızlar bazarının dünya maliyyə bazarına inteqrasiyası üzrə tədbirlərin hazırlanmasında və müvafiq icra hakimiyyəti orqanına təsdiq edilmək üçün təqdim edilməsindən, müvafiq tədbirlərin həyata keçirilməsindən;~~

~~1078-40.1.15. qiymətli kağızların öhdəliklərlə yüklənməsi və qiymətli kağızlarla rəsmiləşdirilən daşınmaz əmlakın ipotekasının qeydiyyatının və uçotunun aparılmasından;~~

~~1078-40.1.16. qiymətli kağızlarla bağlı müvafiq dövlət reyestrlərinin (qiymətli kağızların buraxılışının dövlət reyestri, veksel və çeklərin dövlət reyestri, qiymətli kağızlarla girovun rəsmi reyestri, qiymətli kağızlarla rəsmiləşdirilən əmlakın ipotekasının dövlət reyestri və s.) aparılmasından;~~

~~1078-40.1.17. qiymətli kağızlar bazarında sığortalanmalı olan risklərin sığorta standartlarının müəyyən edilməsindən;~~

~~1078-40.1.18. qiymətli kağızlar bazarında məlumatların açıqlanması üzrə qaydaların raüəyyən edilməsi və sisteminin təşkilindən;~~

~~1078-40.1.19. qiymətli kağızların (sertifikatların) blanklarının çap edilməsi və onların ölkəyə gətirilməsi və aparılması üzrə fəaliyyətin tənzimlənməsindən;~~

~~1078-40.1.20. qiymətli kağızlar bazarının iştirakçılarına qanunvericiliklə müəyyən edilmiş qaydada icrası məcburi olan göstərişlərin verilməsindən;~~

~~1078-40.1.21. qiymətli kağızlar bazarının və onun infrastrukturunun inkişafı məqsədi ilə istifadə edilən fondların qanunvericiliklə müəyyən edilmiş qaydada yaradılması və onların fəaliyyətinin tənzimlənməsindən;~~

1078-40.1.22. qiymətli kağızlar bazarında qiymətlərlə manipulyasiyalara yol verilməməsi üzrə tədbirlərin görülməsindən.

1078-40.2. Qiymətli kağızlar bazarında dövlət tənzimlənməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Maddə 1078-41. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatları

1078-41.1. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatları Azərbaycan Respublikasının qanunvericiliyinə və öz nizamnamələrinə müvafiq olaraq yaradılır və fəaliyyət göstərir.

1078-41.2. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatlarının fəaliyyəti aşağıdakı əsas məqsədləri daşıyır:

1078-41.2.1. qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının səmərəli peşəkar fəaliyyəti üçün şəraitin yaradılması;

1078-41.2.2. qiymətli kağızlar bazarında investorların və digər iştirakçıların maraqlarının qorunması;

1078-41.2.3. qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatının üzvləri arasında qarşılıqlı münasibətlərin tənzimlənməsi qaydalarının müəyyən edilməsi;

1078-41.2.4. qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatlarının üzvlərinin fəaliyyətinin etik normalarının müəyyən edilməsi və bu normalara riayət olunmasının təmin edilməsi.

1078-41.2.5. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatların fəaliyyətləri haqqında məlumatları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada və həcmdə açıqlamalıdırlar.

§ 17. Qiymətli kağızlar bazarında investorların maraqlarının müdafiəsi[803]

Maddə 1078-42. Qiymətli kağızlar bazarında məlumatların açıqlanması

1078-42.1. Qiymətli kağızlar bazarında məlumatların açıqlanması hər bir maraqlı şəxsin həmin məlumatlarla tanış olması imkanının təmin edilməsindən ibarətdir.

1078-42.2. Bu Məcəllə və müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada emitent, qiymətli kağızlar bazarının peşəkar iştirakçısı, qiymətli kağızlar bazarının özünü tənzimləyən təşkilat fəaliyyətləri ilə bağlı kütləvi informasiya vasitələrində məlumatları açıqlamalıdırlar. Hamı üçün müəssər olan məlumatlar açıqlanmış məlumatlar hesab olunur.

Maddə 1078-43. Emitent tərəfindən məlumatların açıqlanması

1078-43.1. Kütləvi təklif vasitəsi ilə yerləşdirilən qiymətli kağızların emitenti dərc etmək və müvafiq icra hakimiyyəti orqanına təqdim etmək yolu ilə özünün qiymətli

kağızları və maliyyə təsərrüfat fəaliyyəti haqqında aşağıdakı məlumatlan açıqlamağa borcludur:

1078-43.1.1. emitentin illik hesabatını;

1078-43.1.2. onun maliyyə-təsərrüfat fəaliyyətinə təsir göstərən mühüm hadisələr və hərəkətlər haqqında məlumatları;

1078-43.1.3. qiymətli kağızların emissiya prospektini;

1078-43.1.4. qiymətli kağızların emissiyasının yekunları haqqında hesabatını.

1078-43.2. Emitentin açıqlanmalı olan qiymətli kağızlar haqqında illik hesabatına, maliyyə təsərrüfat fəaliyyətinə təsir göstərən mühüm hadisələrin və hərəkətlərin, qiymətli kağızların emissiya prospekti, emissiyasının yekunları haqqında məlumatların dairəsi, onlar barəsində tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

1078-43.3. Emitentin illik hesabatı ilin nəticələri üzrə hazırlanır, onun ali idarəetmə orqanı tərəfindən təsdiq edilir və təsdiq edildiyi tarixdən etibarən otuz gündən gec olmayaraq açıqlanır.

1078-43.4. Emitentin maliyyə-təsərrüfat fəaliyyətinə təsir göstərən mühüm hadisələr və hərəkətlər barədə məlumat müvafiq icra hakimiyyəti orqanına həmin hərəkətlər və hadisələr baş verdiyi gündən on beş gündən gec olmayaraq təqdim olunur.

1078-43.5. Banklar və digər kredit təşkilatları tərəfindən məlumatların açıqlanması qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Bankının rəyi alınmaqla müəyyən edilir.

Maddə 1078-44. Fond birjası tərəfindən məlumatın açıqlanması

Fond birjası nizamnaməsi, qaydaları, üzvlərinin siyahısı, dövriyyəyə buraxılan qiymətli kağızları, bağlanılan əqdlər haqqında məlumatları açıqlamalıdır.

Maddə 1078-45. Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilatı tərəfindən məlumatların açıqlanması

Qiymətli kağızlar bazarının peşəkar iştirakçılarının özünü tənzimləyən təşkilat nizamnaməsi, qaydaları, standartları və üzvləri haqqında məlumatları açıqlamalıdır.

§ 18. Qiymətli kağızlar bazarında xidməti məlumat[804]

Maddə 1078-46. Qiymətli kağızlar bazarında xidməti məlumatın anlayışı

1078-46.1. Xidməti məlumat ümumi qaydada əldə edilə bilməyən, qiymətli kağızlar bazarının iştirakçısı olan təşkilatlarda, yaxud müvafiq dövlət orqanlarında tutduğu vəzifə ilə əlaqədar olaraq əldə edilən və ya emitentlə bağlanmış müqaviləyə əsasən, qiymətli kağızlar bazarının subyektləri, qiymətli kağızlar, onlarla əməliyyatlar, qiymətlər və digər xüsusatlar üzrə açıqlanmamalı olan və istifadə edildikdə məlumat

~~sahibinə qiymətli kağızlarla əməliyyatların aparılmasında digər iştirakçılardan daha üstün mövqe təmin edən məlumatdır.~~

~~1078-46.2. İnsayder bu Məcəllənin 1078-46.1-ci maddəsinə əsasən xidməti məlumata malik olan şəxsdir.~~

~~Maddə 1078-47. İnsayderlər~~

~~1078-47.1. İnsayderlərə aşağıdakılar aiddir:~~

~~1078-47.1.1. emitentin direktorlar (müşahidə) şurasının (bu orqanlar olduqda) və icra orqanlarının üzvləri;~~

~~1078-47.1.2. emitentin fəaliyyətinə nəzarət edən şəxslər;~~

~~1078-47.1.3. xidməti məlumatı tutduğu vəzifəyə, müqaviləyə, yaxud emitent və ya digər insayder tərəfindən müvafiq hüququn verilməsi nəticəsində əldə etmək imkanı olan şəxslər;~~

~~1078-47.1.4. emitentin nizamnamə kapitalının on faizindən artıq hissəsinə malik olan şəxslər;~~

~~1078-47.1.5. son altı ay ərzində bu Məcəllənin 1078-47.1.1-1078-47.1.4-cü maddələrinin təsiri altına düşən şəxslər.~~

~~1078-47.2. İnsayderlər öz fəaliyyətində aşağıdakılara yol verməməlidirlər:~~

~~1078-47.2.1. qiymətli kağızların dövriyyəsinə təsir göstərə bilən xidməti məlumatın istifadəsi ilə əməliyyatlara;~~

~~1078-47.2.2. digər şəxslərə xidməti məlumatı təqdim etməklə onları bununla bağlı əqdlərin bağlanmasına təhrik etmək.~~

~~1078-47.3. İnsayder özünə məxsus olan qiymətli kağızlarla apardığı əməliyyat barədə məlumatı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilmiş qaydada açıqlamalıdır.~~

~~1078-47.4. Xidməti məlumatın istifadəsi ilə əqdlərin bağlanması faktı və ya belə əqdin bağlanması cəhdi aşkar edildikdə qiymətli kağızlar bazarının peşəkar iştirakçıları əqdin bağlanmasını və icrasını dayandırmalı və bu barədə məlumatı dərhal müvafiq icra hakimiyyəti orqanına verməlidirlər.~~

~~1078-47.5. Xidməti məlumatın saxlanılması və təqdim edilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.~~

55-ci fəsil.

Xüsusi mükafatlandırmanın açıq elan edilməsi. Müsabiqə

Maddə 1079. Xüsusi mükafatlandırmanın açıq elan edilməsi anlayışı

Hər hansı hərəkəti yerinə yetirməyə, məsələn, hər hansı müəyyən nəticəyə nail olmağa görə açıq elan çərçivəsində mükafat təyin edən şəxs həmin hərəkəti yerinə yetirmiş şəxsə mükafat ödəməlidir. Bu qayda şəxsin həmin hərəkəti yerinə yetirərkən mükafat gözləmədiyi halda da qüvvədədir.

Maddə 1080. Xüsusi mükafatlandırmanın açıq elan edilməsinin ləğvi

1080.1. Mükafatlandırma vədi açıq elanda nəzərdə tutulan hərəkətin yerinə yetirilməsinə qədər ləğv edilə bilər.

1080.2. Açıq elanda nəzərdə tutulan mükafatlandırmanın ləğv edilməsi yalnız o halda etibarlıdır ki, mükafatlandırmanın təyin edilməsi hansı qaydada elan olunmuşdusa, ləğv edilməsi də o cür elan olunsun, ya da xüsusi məlumatda elan olunsun.

1080.3. Mükafatlandırmanın açıq elanında ləğvetmənin mümkünlüyü istisna oluna bilər. Şübhə yarandıqda bu cür istisnaya o halda yol verilir ki, açıq elanda nəzərdə tutulan hərəkəti yerinə yetirmək üçün müddət müəyyənləşdirilmiş olsun.

Maddə 1081. Açıq elanda nəzərdə tutulan mükafatın verilməsi

1081.1. Mükafat təyin edilmiş hərəkəti bir neçə şəxs yerinə yetirdikdə, mükafatı həmin hərəkəti birinci yerinə yetirmiş şəxs alır.

1081.2. Hərəkəti bir neçə şəxs eyni zamanda yerinə yetirdikdə, mükafat onların arasında bərabər bölünür.

156. 13 oktyabr 2026-cı il tarixli **488-VIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 noyabr 2026-cı il, "Azərbaycan" qəzeti, 6 noyabr 2026-cı il, № 205)**

Konstitusiya Məhkəməsinin Qərarları

KMQ1 Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 27 iyul 2001-ci il tarixli qərarına əsasən 2001-ci il sentyabrın 1-dən sonra yaşayış evindən (mənzildən) istifadə edilməsi ilə əlaqədar yaranan hüquq münasibətləri ilə bağlı mübahisələr Mülki Məcəllənin 228.1 və 228.2-ci maddələrinin qaydalarına uyğun, bu tarixədək yaranmış hüquq münasibətləri ilə bağlı mübahisələr isə Mənzil Məcəlləsinin 123-cü maddəsinin qaydalarına uyğun həll edilməlidir.

KMQ2 Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 27 dekabr 2001-ci il tarixli qərarına əsasən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 373-cü maddəsində göztərilən iddia müddətləri 2000-ci il sentyabrın 1-dən sonra yaranan hüquq münasibətlərindən irəli gələn tələblərə tətbiq edilir. Həmin iddia müddətləri Mülki Məcəllənin 7-ci maddəsinin müddəaları nəzərə alınmaqla bundan əvvəl əmələ gəlmiş hüquq münasibətlərindən irəli gələn tələblərə də tətbiq oluna bilər. **("Azərbaycan" qəzeti 29 dekabr 2001-ci il, № 298, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı №2/2002)**

KMQ3 Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 28 yanvar 2002-ci il tarixli qərarına əsasən Azərbaycan Respublikası Mülki Məcəlləsinin daşınmaz əmlaka mülkiyyət hüququnu əldəetmə müddətini müəyyənləşdirən 179-cu maddəsinin hüquqi qüvvəsi 2000-ci il sentyabrın 1-dən sonra yaranan hüquq münasibətlərinə tətbiq olunmalıdır. **("Azərbaycan" qəzeti 31 yanvar 2002-ci il, № 25, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı №2/2002)**

KMQ4 Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 31 may 2002-ci il tarixli qərarına əsasən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21-ci maddəsinin müddəaları yalnız real zərərin, habelə əldən çıxmış faydanın ödənilməsini nəzərdə tutur. Həmin Məcəllənin 23-cü maddəsində nəzərdə tutulmuş zərər dedikdə şərəfin, ləyaqətin və işgüzar nüfuzun ləkələnməsi ilə bağlı şəxsə dəymiş mənəvi zərər (fiziki və mənəvi iztirablar) və maddi zərər başa düşülür.
Mənəvi zərərin ödənilməsi, habelə qanunvericiliklə nəzərdə tutulmuş başqa məhdudiyyətlərin tətbiq edilməsi Azərbaycan Respublikasının Konstitusiyası ilə qorunan digər əsas hüquq və azadlıqlarla mütanasib olmaqla hər bir konkret halda məhkəmənin mülahizəsindən asılıdır. **("Azərbaycan" qəzeti 2 iyun 2002-ci il, № 124, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı №3/2002)**

KMQ5 Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 27 dekabr 2002-ci il tarixli qərarına əsasən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 440.4-cü maddəsi Azərbaycan Respublikası Konstitusiyasının 12, 13, 29, 60 və 71-ci maddələrinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilmişdir. ("**Azərbaycan**" **qəzeti, 29 dekabr № 300 2002-ci il, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Məlumatı 1/2003**)

KMQ6 Azərbaycan Respublikası Mülki Məcəlləsinin 746-cı maddəsi istehlak kreditlərinə də şamil edilir. Həmin maddənin tələblərinə və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində göstərilənlərə uyğun olaraq, borc alanın əmlak vəziyyəti borcun qaytarılması üçün təhlükə törədəcək dərəcədə pisləşdiyi təqdirdə, bank (borc verən) kreditin verilməsindən imtina edə bilər. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 27 may 2019-cu il tarixli Qərarı)**

KMQ7 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1134, 1145 və 1146-cı maddələrinə uyğun olaraq miras fiziki şəxsin öldüyü və ya ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün onun ölümü və ya məhkəmə tərəfindən ölmüş elan edilməsi ilə açılır və miras qoyanın öldüyü anda sağ olmuş şəxslər vərəsə ola bilərlər.
2. Eyni gündə ölən və biri digərindən sonra vərəsə olmaq hüququna malik şəxslərlə bağlı irsi transmissiyanın tətbiqi üçün miras qoyanın dəqiq ölüm anı müəyyən edilərək daha sonra ölən şəxs ondan əvvəl ölən şəxsə vərəsə hesab edilir. Bu anı müəyyənləşdirmək mümkün olmadığı təqdirdə eyni gündə ölən şəxslər hüquqi varislik baxımından eyni anda ölmüş şəxslər hesab edilərək hər biri üçün ayrılıqda miras açılır və irsi transmissiyanın tətbiqi istisna edilir. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 24 fevral 2020-ci il tarixli Qərarı – "Respublika" qəzeti 4 mart 2020-ci il, № 49)**

KMQ8 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 23-cü maddəsi şəxsin hüquqazidd hərəkətlər nəticəsində öldüyü və ya sağlamlığına zərər vurulduğu halda onun yaxınlarının, o cümlədən ailə üzvlərinin keçirdikləri mənəvi sarsıntı və iztiraba görə təzminat almaq hüququnu ehtiva edir.
2. Ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxsin yaxınları, o cümlədən ailə üzvləri keçirdikləri mənəvi sarsıntı və iztirabın dərəcəsinə, zərərçəkmiş şəxsə yaxınlıq dərəcəsinə və s. amillərə müvafiq olaraq birgə və ya ayrı-ayrılıqda təzminat almaq hüququna malikdirlər.
3. Ölmüş və ya sağlamlığına zərər vurulmuş şəxsin yaxınlarından, o cümlədən ailə üzvlərindən birinin mənəvi zərərə görə təzminat almış olduğu halda, digərlərinin təzminat tələbi bu Qərarın təsviri-əsaslandırıcı hissəsində göstərilən mütənasiblik və ədalətlilik meyarlarına uyğun olaraq işə baxan məhkəmə tərəfindən həll edilməlidir.

4. Məhkəmələr tərəfindən mənəvi zərərə görə təzminatın miqdarı müəyyən edilərkən hüquqazidd əməlin növü, dərəcəsi, davam etdiyi müddət, hansı şəraitdə, mühitdə baş verməsi və digər amillər nəzərə alınmalıdır. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 24 aprel 2020-ci il tarixli Qərarı – "Respublika" qəzeti 21 may 2020-ci il, № 99)**

KMQ9 Azərbaycan Respublikası Mülki Məcəlləsinin 407.2-ci maddəsinin "sadə yazılı müqavilə müvafiq qaydada imzalandığı ... andan bağlanmış sayılır" müddəasının "müvafiq qaydada imzalanma" tələbi tərəflərin onu şəxsən, mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyi ilə imzanın faksimilesindən, elektron imzadan və ya şəxsi imzanın başqa analoqundan istifadə etməklə imzalamasını nəzərdə tutur.
Mexaniki və ya başqa surətçıxarma vasitələrinin köməyi ilə imzanın faksimilesindən, elektron imzadan və ya şəxsi imzanın başqa analoqundan istifadə etməklə bağlanan müqavilələrin şərtləri mümkün qədər aydın, dürüst və başadüşülən olmalıdır. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 12 avqust 2020-ci il tarixli Qərarı – "Respublika" qəzeti 25 avqust 2020-ci il, № 168)**

KMQ10 Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1243 və 1306.1-ci maddələrinə, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 306.4 və 307.2.9-cu maddələrinə əsasən, vərəsələrin vərəsəlik şəhadətnaməsi almaması miras qoyanın kreditorlarının öhdəliklərin icrasının miras qalmış əmlak hesabına təmin edilməsi ilə bağlı məhkəmədə iddia qaldırmaq hüququnu məhdudlaşdırmır və kreditorların bu cür tələblərinə iddia icraatı qaydasında baxılmalıdır. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 16 oktyabr 2020-ci il tarixli Qərarı)**

KMQ11 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747.1, 747-1.3 və 747-2-ci maddələrinin tələblərinə və Azərbaycan Respublikası Vergi Məcəlləsinin 13.2.17 və 114-cü maddələrində əsas vəsaitlərə verilmiş anlayışa uyğun olaraq yaşayış sahəsinin, o cümlədən mənzilin əsas vəsait olmaqla lizinq müqaviləsinin obyekti olması və lizinq obyektinin sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan hüquqi və ya fiziki şəxsə verilməsi istisna edilmir.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 747.1 və 747-2-ci maddələrinin tələblərinə, habelə bu Qərarın təsviri-əsaslandırıcı hissəsinin hüquqi mövqelərinə əsasən kredit müqaviləsindən fərqli olaraq lizinq müqaviləsinin obyekti pul vəsaiti deyil, müəyyən əmlak olduğundan lizinq müqaviləsinin kredit müqaviləsi ilə pərdələnməsi qeyri-mümkündür. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 28 dekabr 2020-ci il tarixli Qərarı – "Respublika" qəzeti 23 yanvar 2021-ci il, № 15)**

KMQ12 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1159.1.1 və 1193-cü maddələrinin tələblərinə uyğun olaraq, qanun üzrə vərəsələrdən birinci növbə vərəsələr (vəsiyyət edənin uşaqları, valideynləri və arvadı (əri)) vəsiyyətnamənin mövcudluğundan asılı olmayaraq məcburi pay hüququna malik olan şəxslərdir.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 667.1 və 1200-cü maddələrinin məzmununa əsasən, qanun üzrə vərəsələrdən birinci növbə vərəsələr (məcburi pay hüququ olan vərəsələr) vəsiyyətnamə olmadığı təqdirdə də məcburi paylarının tamamlanmasını tələb etmək hüququna malikdirlər. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 8 yanvar 2021-ci il tarixli Qərarı – "Respublika" qəzeti 5 fevral 2021-ci il, № 26)**

KMQ13 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsi Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinin I, III, IV və V hissələrinə, 26-cı maddəsinin II hissəsinə, 29-cu maddəsinin I və VII hissələrinə, 71-ci maddəsinin I və II hissələrinə və 149-cu maddəsinin I və III hissələrinə uyğun hesab edilsin.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1159-cu və Azərbaycan Respublikası Ailə Məcəlləsinin 134.1-ci maddələrinə uyğun olaraq Azərbaycan Respublikası Mülki Məcəlləsinin mirasda məcburi pay anlayışını nəzərdə tutan 1193-cü maddəsində "vəsiyyət edənin uşaqlarının, valideynlərinin" müddəası övladlığa götürülənləri və övladlığa götürənləri də ehtiva edir. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 19 fevral 2021-ci il tarixli Qərarı – "Respublika" qəzeti 2 mart 2021-ci il, № 47)**

KMQ14 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337.2-ci maddəsinə uyğun olaraq, mübahisə edilən əqdlərin etibarsızlığı əqdin mübahisələndirilməsi ilə bağlı iradə ifadəsinin digər tərəfə bildirilməsi ilə şərtləndirilir. Əqdin etibarsızlığı ilə bağlı mübahisə yaranarsa tərəflər məhkəməyə müraciət edə bilərlər.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337.3-cü maddəsinə əsasən əhəmiyyətsiz əqd bağlandığı andan arzu olunan hüquqi nəticəni yaratmaq qabiliyyətinə malik olmayan əqddir. Əqdin əhəmiyyətsizliyi ilə bağlı mübahisə olarsa əhəmiyyətsizliyin təsdiqi üçün məhkəmədə iddia qaldırıla bilər.
3. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 346.1-ci maddəsinə uyğun olaraq fəaliyyət qabiliyyətli olsa da, əqd bağlandığı zaman öz hərəkətlərinin mənasını başa düşmədiyi və ya onlara rəhbərlik edə bilmədiyi vəziyyətdə fiziki şəxsin bağladığı əqd onun özü və ya əqd bağlanması nəticəsində hüquqları və ya qanunla qorunan mənafeləri pozulmuş digər şəxslərin iddiası əsasında anlaqsızlığı sübuta yetirilərsə bağlandığı andan etibarsızdır.
4. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 354.1-ci maddəsi ilə müəyyən edilmiş bir illik müddət əhəmiyyətsiz əqd üzrə yaranan əsassız varlanma halları ilə bağlı icra edilmişlərin geri qaytarılması tələblərinə tətbiq edilir.
5. Bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks etdirilən hüquqi mövqelərə uyğun olaraq, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337.5-ci maddəsində müəyyən edilmiş restitusiya və 354.1-ci maddəsində göstərilən bir illik müddət həmin Məcəllədə belə əqdlərin etibarsızlığının ayrı nəticələri nəzərdə tutulmadığı hallarda tətbiq edilir.
6. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 354.2-ci maddəsində müəyyən edilmiş müddətlər iradə ifadəsinin zədələnməsi hallarında əqdi mübahisələndirmək hüququnun həyata keçirilməsi ilə bağlı nəzərdə tutulmuş kəsici müddətlərdir.
7. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 337-ci maddəsinə uyğun olaraq, əqdlərlə bağlı mübahisələrə baxılarkən tərəflərin bu barədə tələb irəli sürməsindən asılı olmayaraq əqdlərin etibarsızlığı (mübahisə edilən əqdlər istisna olmaqla) aşkar edilərsə, məhkəmələr bunu nəzərə almalıdır. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2 aprel 2021-ci il tarixli Qərarı – "Respublika" qəzeti 27 may 2021-ci il, № 108)**

KMQ15 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1291-ci və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 24.1-ci maddələrinin mənasına görə, vərəsələrin dairəsinin və vərəsəlik paylarının müəyyənləşdirilməsi ilə bağlı mübahisələrin həlli səlahiyyəti notariat haqqında qanunvericiliyə əsasən notariat orqanlarının hüquqi təyinatı və funksiyasından kənar olduğu üçün məhkəmələrə aiddir.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1321.1 və 1325-ci maddələrinin tələblərinə uyğun olaraq, notariat orqanları vərəsəlik şəhadətnaməsinin verilməsi ilə bağlı qanunvericilikdə təsbit edilmiş vəzifələrini icra etməli, bu zaman məsələyə formal yanaşmayaraq mübahisələrin yaranmasının qarşısının alınmasına və vərəsələr arasında qarşılıqlı razılığın əldə edilməsinə çalışmalıdır.
Müraciət edən şəxslərin vərəsə olması mübahisə predmeti deyildirsə, mübahisə vərəsəlik paylarının həcmi ilə bağlıdırsa, notariat orqanları vərəsəlik payının nisbətini göstərmədən müvafiq sənədi verməlidirlər. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 26 iyul 2021-ci il tarixli Qərarı – "Respublika" qəzeti 10 avqust 2021-ci il, № 165)**

KMQ16 1. Azərbaycan Respublikası Konstitusiyasının 58-ci maddəsinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 109-4.1.1 və 112.1-ci maddələrinə uyğun olaraq, hər kəs könüllülük prinsipi əsasında, qanunvericilikdə nəzərdə tutulmuş qaydada kooperativə daxil olmaq və kooperativdən çıxmaq hüququna malikdir.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 109-1.1-ci maddəsinin "kooperativ beşdən az olmayan fiziki və (və ya) hüquqi şəxslər tərəfindən yaradılır" və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 110.1-ci maddəsinin "mənzil-tikinti kooperativinin üzvlərinin sayı beşdən az ola bilməz" müddəaları təşkilati-hüquqi formasına görə kooperativin yaradılmasına və fəaliyyət göstərməsinə yönələn ümumi tələbdir. Beşdən az üzvü olan hüquqi şəxs mənzil-tikinti kooperativi formasında yaradıla və ya fəaliyyətini davam etdirə bilməz.
3. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 111.3.3-cü maddəsinə müvafiq olaraq, kooperativ üzvlərini kooperativə qəbul etmək və çıxarmaq kooperativ üzvlərinin ümumi yığıncağının müstəsna səlahiyyətinə aiddir. Bu səlahiyyət kooperativ üzvünün könüllü qaydada kooperativdən çıxarılmasını da ehtiva edir.
4. Kooperativin yaradılması zamanı qarşıya qoyulan məqsədə nail olunduqda, Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 109.5-ci maddəsinin tələbinə görə, kooperativin qanunla müəyyən olunmuş qaydada ləğvi və ya mənzil mülkiyyətçilərinin müştərək cəmiyyətinə çevrilməsi barədə qərar qəbul edilərək, hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında qanunvericiliyə uyğun olaraq zəruri tədbirlər görülməlidir. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 21 dekabr 2021-ci il tarixli Qərarı – "Respublika" qəzeti 29 yanvar 2022-ci il, № 20)**

KMQ17 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 376-cı maddəsinə əsasən, həmin Məcəllənin 375.2-ci maddəsinin tətbiqi nəticəsində əsas tələb üzrə iddia müddəti keçdikdə əlavə tələblər üzrə də iddia müddəti keçmiş hesab edilir.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 269-cu maddəsinə uyğun olaraq, ipoteka hüququ ipoteka saxlayanın əşya üzərində məhdud əşya hüququ olduğundan, əsas tələb üzrə iddia müddətinin keçməsi ipotekanın xitamına və ipoteka predmetinin yüklülükdən azad olmasına səbəb olmur. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 11 fevral 2022-ci il tarixli Qərarı – "Respublika" qəzeti 5 mart 2022-ci il, № 50)**

KMQ18 Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.2-ci maddəsinin mənasına görə, tərəflərin həqiqi iradə ifadələri nəticəsində yaranan faktiki münasibətləri pərdələmək məqsədi ilə görüntü üçün bağlanan əqdlər, o cümlədən fərqli subyektlər arasında formal olaraq bağlanan əqdlər yalan əqd olaraq əhəmiyyətsizdir.
Yalan əqdin bağlanmasında iştirak edən subyektlərin həqiqi iradə ifadələri bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq araşdırılıb hüquqi nəticəyə gəlinməlidir. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 15 mart 2022-ci il tarixli Qərarı – "Respublika" qəzeti 15 aprel 2022-ci il, № 77)**

KMQ19 1. Əmək və ya mülki hüquq müqaviləsi üzrə əmək (xidməti) vəzifələrinin icra edilməsi ilə əlaqədar olaraq nəqliyyat vasitəsini idarə edən şəxs tərəfindən vurulmuş zərərə görə işəgötürən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1099-cu maddəsinə əsasən mülki hüquq məsuliyyəti daşıyır. Zərərin vurulmasında işçinin təqsiri olduğu halda Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1114-cü maddəsinə uyğun olaraq zərərin əvəzini ödəmiş işəgötürən ona qarşı reqres tələb hüququna malikdir.
2. Yüksək təhlükə mənbəyinin (nəqliyyat vasitəsi, mexanizm və i.a.) fəaliyyəti nəticəsində vurulmuş zərərə görə mülki hüquq məsuliyyətini Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1108-ci maddəsinə əsasən yüksək təhlükə mənbəyinə mülkiyyət hüququ ilə və ya digər qanuni əsasla sahiblik edən fiziki və ya hüquqi şəxslər daşıyırlar. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 18 aprel 2022-ci il tarixli Qərarı – "Respublika" qəzeti 11 may 2022-ci il, № 97)**

KMQ20 1. Mülkiyyət hüququnun toxunulmazlığı prinsipinə uyğun olaraq Azərbaycan Respublikası Mülki Məcəlləsinin 312.4-cü maddəsi tərəflər arasında ipoteka müqaviləsi bağlanarkən ipoteka qoyanın əşya üzərində mülkiyyət hüquqlarından imtina etməsinə dair razılaşmanın qadağan edilməsini ehtiva edir.
2. İpoteka müqaviləsi üzrə ipoteka saxlayanın əmlak mənafeyinin qorunması, əsas öhdəliyin icrasının təmin olunmasında yarana biləcək təhlükənin qarşısının alınması baxımından "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 30.1 və 31.1-ci maddələri ipoteka saxlayanın yazılı razılığı olmadan ipoteka predmetinə sərəncam verilməsi haqqında əqdin etibarsızlığını müəyyən edir.
İpoteka saxlayanın ipoteka predmetinin özgəninkiləşdirilməsi ilə bağlı razılığın verilməsindən imtina barədə qərarı əsaslandırılmış olmalı və imtinanın səbəbləri göstərilməlidir. İpoteka qoyan öz növbəsində həmin qərarı məhkəmədə mübahisələndirə bilər. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 1 iyul 2022-ci il tarixli Qərarı – "Respublika" qəzeti 21 iyul 2022-ci il, № 151)**

KMQ21 Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1159-cu maddəsinin mənasına görə, yalnız qanunla müəyyən edilmiş vərəsəliyin növbəliyinə daxil olan və miras qoyana münasibətdə müvafiq qohumluq dərəcəsi üzrə şəxslər vərəsə qismində çıxış edə bilər. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 28 iyul 2022-ci il tarixli qərarı – Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytı, 17 sentyabr 2022-ci il, Respublika" qəzeti, 17 sentyabr 2022-ci il, № 201)**

KMQ22 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246-cı maddəsində müəyyən edilmiş altı aylıq müddət mirasın qəbulunun notariat qaydasında rəsmiləşdirilməsi üçün nəzərdə tutulmuş müddətdir. Həmin müddətin ötürülməsindən sonra mirasın qəbulu məsələsi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1248.1-ci maddəsinə və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq məhkəmə qaydasında həll edilə bilər.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1268.2-ci maddəsinə uyğun olaraq fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli vərəsənin miras əmlakdan imtinası ilə bağlı məhkəməyə müraciət edilməsinə həmin Məcəllənin 1256-cı maddəsində nəzərdə tutulmuş imtina müddəti şamil edilir. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 14 oktyabr 2022-ci il tarixli qərarı – Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytı, 4 noyabr 2022-ci il, Respublika" qəzeti, 4 noyabr 2022-ci il, № 242)**

KMQ23 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 27-ci fəslinin 5-ci paraqrafı ilə müəyyən edilmiş müddətlər hüquqi təbiəti baxımından iddia müddətləridir.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 27-ci fəslinin 5-ci paraqrafı qanunverici orqan tərəfindən təkmilləşdirilənədək, öhdəliklərdən, o cümlədən vaxtaşırı ödəmələrdən irəli gələn tələblərə münasibətdə həmin Məcəllənin 18-ci fəsli ilə nəzərdə tutulmuş iddia müddətləri tətbiq edilsin. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 15 fevral 2023-cü il tarixli qərarı – Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytı, 22 fevral 2023-cü il, Respublika" qəzeti, 22 fevral 2023-cü il, № 40)**

KMQ24 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 421.2-ci maddəsində nəzərdə tutulmuş əsaslar üzrə müqavilənin ləğv edilməsi həmin Məcəllənin 421.3-cü maddəsinə uyğun olaraq birtərəfli iradə ifadəsi ilə məhkəmədən kənar qaydada baş verir. İradə ifadəsinin qarşı tərəfə bildirilməsi ilə müqavilə ləğv edilmiş hesab edilir və bu ləğvetmənin həyata keçirilməsinin ümumi formasıdır.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 422-ci maddəsinə əsasən, şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi halında həmin Məcəllənin 423.2 və 424.3-cü maddələrinə uyğun olaraq tərəf müqavilənin dəyişdirilməsi və ya ləğv edilməsi tələbi ilə məhkəməyə müraciət edə bilər. Bu müqavilənin ləğvinin xüsusi qaydası olmaqla, məhkəmə qərarının qüvvəyə minməsi ilə əlaqələndirilmişdir.
3. İkitərəfli müqavilələr üzrə öhdəliyin pozulması halında kreditor Azərbaycan Respublikası Mülki Məcəlləsinin 447.1-ci maddəsinə uyğun olaraq müqavilədən imtina etməklə ona xitam verə bilər. Müqavilədən imtina barədə iradə ifadəsinin qarşı tərəfə bildirilməsi ilə müqaviləyə xitam verilmiş sayılır.
4. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 399.3-cü maddəsinin tələbləri baxımından müqavilənin ləğvindən əvvəl gecikdirilmiş annuitet (əsas məbləğ və hesablanmış faizlər) ödənişlərə münasibətdə yaranmış tələb müqavilənin ləğvindən sonrada da qüvvədə qalır.
5. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 445.7-ci maddəsinə uyğun olaraq, kreditor öhdəliyin pozulması halında digər əsaslardan çıxış edərək daha böyük məbləğ tələb edə bilmirsə, gecikdirilmiş vaxt üçün illik beş faiz məbləğində vəsaitin ödənilməsini tələb etmək hüququna malikdir. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 29 mart 2023-cü il tarixli qərarı – Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəsmi internet saytı, 15 aprel 2023-cü il, Respublika" qəzeti, 15 aprel 2023-cü il, № 78)**

KMQ 25 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1306-cı maddəsinə uyğun olaraq, borclunun ölümündən sonra mirası qəbul etmiş vərəsələr miras açıldığı gündən onlara çatan miras payı həcmində miras qoyanın kreditorları qarşısında birgə məsuliyyət daşıyırlar.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 269, 317.1, 319.1 və "İpoteka haqqında" Azərbaycan Respublikası Qanununun 34.1-ci maddələrinə uyğun olaraq, əsas öhdəlik üzrə borclu, o cümlədən əsas borclunun ölümü halında vərəsələr öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə (əsas öhdəlik pozulduqda) kreditor ipoteka predmetinə tutmanın yönəldilməsi barədə iddia qaldıra bilər. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 19 aprel 2023-cü il tarixli qərarı – "Respublika" qəzeti, 24 may 2023-cü il, № 108)**

KMQ 26 1. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 2-ci maddəsinin 3-cü hissəsinə və 199-cu maddəsinə, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 2.3-cü maddəsinin tələbinə uyğun olaraq, işçinin işəgötürənə vurduğu ziyana dair mülki hüquqi əqdin, o cümlədən borcun etirafı haqqında mücərrəd müqavilənin bağlanılması istisna edilir.
2. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 194-cü maddəsinə əsasən, ziyan vurulduqdan sonra əmək münasibətlərinə xitam verilməsi təqsirkar tərəfi maddi məsuliyyətdən azad etmədiyindən, işəgötürən həmin Məcəllənin 203-cü maddəsi və 205-ci maddəsinin 2-ci hissəsi ilə nəzərdə tutulmuş qaydada ziyanın ödənilməsinə dair iddia ilə məhkəməyə müraciət edə bilər. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 17 iyul 2023-cü il tarixli qərarı – "Respublika" qəzeti, 25 iyul 2023-cü il, № 154)**

KMQ 27 1. Azərbaycan Respublikası Mülki Məcəlləsinin vərəsəlik hüququ üçün xüsusi qəbul şərtini və müddətini müəyyən edən 1246 və 1273-1-ci maddələri mütənasiblik konstitusiya prinsipinə və Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin VII hissəsində təsbit olunmuş vərəsəlik hüququnun təminatına və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin.

2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin mirasın qəbulu institutunun tələblərindən irəli gələn hüquqi tənzimləmələrin bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelər nəzərə alınmaqla təkmilləşdirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə edilsin.
3. Mülki dövriyyənin sabitliyinin təmin olunması baxımından bu Qərar qüvvəyə mindikdən sonra yaranacaq vərəsəlik münasibətlərinə və hazırda məhkəmələrin icraatında olan mübahisələr üzrə işlərə şamil edilsin. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 26 dekabr 2023-cü il tarixli qərarı – "Respublika" qəzeti, 28 dekabr 2023-cü il, № 285)**

KMQ28 1. Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin I hissəsinin tələbləri baxımından Azərbaycan Respublikası Mülki Məcəlləsinin 673.1.2-ci maddəsində nəzərdə tutulan "ailə hüquq münasibətlərinə uyğun olaraq hədiyyə alanın üzərinə qoyulmuş vəzifələr" müddəası ailə qanunvericiliyi ilə müəyyən edilən hallarda və həddə əmlak və şəxsi qeyri-əmlak münasibətlərindən irəli gələn vəzifələri ehtiva edir.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 673.1.2-ci maddəsinin dispozisiyasında əks olunan "kobudcasına pozulduqda" müddəası qiymətləndirmə tələb etdiyindən, məhkəmələr tərəfindən bağışlamaqdan imtina məsələsi həll edilərkən işin hallarından asılı olaraq hədiyyə alanın ailə hüquq münasibətlərinə uyğun onun üzərinə qoyulmuş vəzifələrin pozulmasının nədən ibarət olması dəqiq olaraq müəyyən edilməlidir.
3. Bağışlama müqaviləsinin nə zaman bağlanılmasından asılı olmayaraq, bağışlamaqdan imtinaya əsas verən hallar hədiyyə verənə məlum olduğu gündən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 673.3-cü maddəsində müəyyən edilmiş bir illik müddətin keçməsi ilə hədiyyə verənin bağışlamaqdan imtina hüququna xitam verilir. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 26 aprel 2024-cü il tarixli qərarı – "Respublika" qəzeti, 2 may 2024-cü il, № 89)**

KMQ29 1. Azərbaycan Respublikası Konstitusiyanın 17-ci maddəsinin I hissəsinin, 29-cu maddəsinin I və VII hissələrinin hüquqi mahiyyəti və təyinatı baxımından Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1193-cü maddəsi ilə müəyyən edilən mirasda məcburi pay qanun üzrə vərəsəliyin toxunulmaz hissəsini təşkil etməklə vəsiyyətnamənin məzmunundan asılı olmayaraq vəsiyyət edənin uşaqlarının, valideynlərinin və arvadının (ərinin) məcburi miras payıdır.
2. Vərəsəlik hüququ üçün xüsusi qəbul şərtini və müddətini müəyyən edən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1246 və 1273-1-ci maddələri Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun 2023-cü il 26 dekabr tarixli Qərarı əsasında qüvvədən düşmüş hesab edildiyindən və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq məcburi payın qəbulu hər hansı xüsusi qəbul müddətindən asılı deyildir.
3. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 384.0.4-cü maddəsinə və bu Qərarın təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq məcburi payı tələb etmək hüququna iddia müddəti şamil edilmir.
4. Mülki dövriyyənin sabitliyinin təmin olunması baxımından bu Qərar qüvvəyə mindikdən sonra yaranacaq vərəsəlik münasibətlərinə və hazırda məhkəmələrin icraatında olan mübahisələr üzrə işlərə şamil edilsin. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 21 iyun 2024-cü il tarixli qərarı – "Respublika" qəzeti, 31 iyul 2024-cü il, № 160)**

KMQ30 1. Azərbaycan Respublikası Konstitusiyasının 15 və 59-cu maddələrindən, habelə Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49, 91, 91-2.1 və 91-2.3-cü maddələrindən, eləcə də Azərbaycan Respublikası Əmək Məcəlləsinin 7-ci maddəsinin 2-3.3-cü hissəsindən irəli gələrək hüquqi şəxslə hüquqi şəxsin idarəetmə orqanı arasında yaranan münasibətlər əsasən mülki hüquqi xarakterli olmaqla mülki qanunvericiliyin müvafiq normaları ilə tənzimlənsə də, hüquqi şəxsin icra orqanının rəhbərinin əmək və sosial hüquqlarının qorunması məqsədilə hüquqi şəxsin təsisçisi ilə faktiki əmək münasibətlərində olan icra orqanının rəhbəri arasında əmək müqaviləsi rəsmiləşdirilməlidir.
2. Azərbaycan Respublikası Mülki Məcəllənin 389-cu maddəsi və Azərbaycan Respublikası Əmək Məcəlləsinin 3-cü maddəsinin 5-ci hissəsi ilə müəyyən edilmiş müqavilə anlayışı iki və ya daha çox tərəfin qarşılıqlı iradə ifadəsini nəzərdə tutduğundan hüquqi şəxsin təsisçisi ilə icra orqanının rəhbəri eyni şəxs olduqda hər hansı müqavilə münasibətləri yaranmamaqla həmin şəxsin icra orqanının rəhbəri vəzifəsinə təyin edilməsi müvafiq qərarla rəsmiləşdirilməlidir. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 19 fevral 2025-ci il tarixli qərarı – "Respublika" qəzeti, 6 mart 2025-ci il, № 50)**

KMQ31 1. Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsinin, 29-cu maddəsinin I, II və III hissələrinin hüquqi mahiyyəti və təyinatı baxımından Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21.2-ci maddəsində qeyd olunan "əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər)" müddəası borclunun icranı gecikdirdiyi müddət ərzində pulun alıcılıq qabiliyyətinin azalması şəklində ifadə olunan inflyasiya nəticəsində yaranan zərəri də ehtiva edir.
2. Borclunun pul öhdəliklərini icra etməməsi nəticəsində kreditora dəyən zərərin (həmçinin inflyasiya nəticəsində yaranan zərər) həcmi Azərbaycan Respublikası Mülki Məcəlləsinin 449.1-ci maddəsi ilə müəyyən olunmuş gecikdirmə faizlərinin məbləğindən çoxdursa, borcverən (kreditor) həmin Məcəllənin 449.3-cü maddəsinə əsaslanaraq bu faizlərlə əhatə olunmayan hissədə (fərq məbləğində) zərərin əvəzinin ödənilməsini borcludan tələb etmək hüququna malikdir.
3. "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 76-cı maddəsinə müvafiq olaraq, borc müqaviləsi barəsində verilmiş notariusun icra qeydi üzrə tutulmalı olan pul məbləği borcalan tərəfindən ödənilmədiyi təqdirdə, borcverənin Azərbaycan Respublikası Mülki Məcəlləsinin 21.2-ci maddəsinə əsasən inflyasiya nəticəsində dəymiş zərərin əvəzinin ödənilməsini məhkəmə qaydasında tələb etmək hüququ vardır. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 15 aprel 2025-ci il tarixli qərarı – "Respublika" qəzeti, 7 may 2025-ci il, № 92)**

KMQ32 1. Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsi baxımından Azərbaycan Respublikası Mülki Məcəlləsinin 378, 379 və 380-ci maddələrinin tələblərindən irəli gələrək və Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq müqavilələrdən yaranan öhdəliklər üzrə borclunun ölümü ilə öhdəlikdə tərəfin dəyişməsi iddia müddətinin axımının dayandırılmasına və ya kəsilməsinə səbəb olmur.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 427-ci maddəsi ilə müəyyən edilmiş icra müddətləri ərzində öhdəlik icra edilməzsə kreditor ölmüş borclunun vərəsələrinə qarşı həmin Məcəllənin 377-ci maddəsi ilə təsbit edilmiş müddətlərdən

etibarən iddia irəli sürmək hüququna malik olur. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 19 iyun 2025-ci il tarixli qərarı – "Respublika" qəzeti, 9 iyul 2025-ci il, № 138)**

KMQ33 1. Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsinin, 29-cu maddəsinin I və II hissələrinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 340.2-ci maddəsinin məzmununa və hüquqi təyinatına, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarında ifadə edilmiş hüquqi mövqelərə əsasən müqavilə tərəflərinin istənilən üçüncü şəxsdə etibarlılığına dair yanlış təsəvvür yaratmaq niyyəti ilə bağladığı əqd yalan əqd olmaqla əhəmiyyətsizdir.
2. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 329 və 340.2-ci maddələrinin tələblərinə uyğun olaraq, yalan əqdə tərəflərin həmin əqdi bağlayarkən əslində nəzərdə tutduqları əqdə aid olan qaydaların tətbiq edilməsi, pərdələnən əqdin mülki qanunvericilikdə nəzərdə tutulmuş forma şərti də daxil olmaqla etibarlılıq tələblərinə cavab verməsi halında mümkün hesab edilməlidir.
3. Azərbaycan Respublikası Mülki Məcəlləsinin 405.1, 659.2 və 661-ci maddələrinin mənasına görə, daşınmaz əmlakın alğı-satqı müqaviləsinin mühüm şərti kimi tərəflərin satılmış əşyanın yenidən alınması ilə bağlı razılaşması yalnız notarial qaydada təsdiq olunduğu halda etibarlıdır. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 20 iyun 2025-ci il tarixli qərarı – "Respublika" qəzeti, 15 iyul 2025-ci il, № 143)**

KMQ34 1. Azərbaycan Respublikası Konstitusiyasının 13-cü maddəsinin I hissəsinin, 29-cu maddəsinin I və II hissələrinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 402-ci maddəsinin məzmununa və hüquqi təyinatına, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarında ifadə edilmiş hüquqi mövqelərə əsasən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 402-ci maddəsi ilə "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinin dördüncü hissəsi arasında ziddiyyət mövcud deyildir.
İlkin müqavilə üzrə "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinin dördüncü hissəsi ilə nəzərdə tutulmuş qaydada həmin müqavilə üzrə öhdəliyin icrasının təmini xarakterli və ya əsas müqavilənin bağlanılmasının təşkil edilməsi üçün zəruri olan xərclərə dair ödəniş həyata keçirilə bilər.
2. İlkin müqavilə ilə bağlı mübahisələrə baxılarkən həmin müqavilənin bağlanılmasında iştirak edən subyektlərin həqiqi iradə və niyyətləri Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində əks olunmuş hüquqi mövqelərə uyğun olaraq araşdırılıb müvafiq nəticəyə gəlinməlidir. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 12 may 2026-cı il tarixli qərarı – "Xalq" qəzeti, 22 may 2026-cı il, № 90)**

KMQ35 1. Azərbaycan Respublikası Konstitusiyasının 13, 29 və 60-cı maddələrinin, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 329.1 və 337.1-ci maddələrinin hüquqi mahiyyəti və təyinatından irəli gələrək Azərbaycan Respublikası Mülki Məcəlləsinin 739.2-ci maddəsində nəzərdə tutulan borc müqaviləsinin yazılı forma tələbinin həmin Məcəllənin 329.1-ci maddəsi üzrə qanunla müəyyən edilmiş "başqa hal"a aid edilməsi üçün müvafiq dəyişikliklərin həyata keçirilməsi Azərbaycan Respublikasının Milli Məclisinə tövsiyə olunsun.
2. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində ifadə olunmuş hüquqi mövqelərə əsasən məsələ qanunvericilik qaydasında həll edilənədək fiziki şəxslər (tərəflər) arasında Azərbaycan Respublikası Mülki Məcəlləsinin 739.2-ci maddəsi üzrə borc müqaviləsi və onun şərtlərinin tərəflərin hər hansı yazılı sübutlara istinad etməklə təsdiqlənməsi imkanı istisna edilməməlidir.
3. Mülki dövriyyənin sabitliyinin təmin olunması baxımından Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının 2-ci bəndi Qərar qüvvəyə mindikdən sonra fiziki şəxslər (tərəflər) arasında yaranacaq borc münasibətlərinə və hazırda məhkəmələrin icraatında olan mübahisələr üzrə işlərə şamil edilsin. **(Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Plenumunun 16 iyun 2026-cı il tarixli qərarı)**

MƏCƏLLƏYƏ EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 28 dekabr 1999-cu il tarixli 779-IQ nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında"Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2000-ci il, № 4, maddə 250)** ilə təsdiq edilmişdir.

26 may 2000-ci il tarixli 886-IQ nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin, Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin və Azərbaycan Respublikası Cinayət Məcəlləsinin qüvvəyə minmə müddətlərinin dəyişdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə **(Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2000-ci il, №5, maddə 323)** Məcəllə 2000-ci il sentyabr ayının 1-dən qüvvəyə minmişdir.

5 mart 2010-cu il tarixli **972-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 17 aprel 2010-cu il, № 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, №**

04, maddə 276) ilə mətnində ismin müvafiq hallarında "**Milli Bank**" sözləri ismin müvafiq hallarında "**Mərkəzi Bank**" sözləri ilə əvəz edilmişdir.

[2] 20 oktyabr 2006-cı il 167-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanununa **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1005**) ilə 1.2-ci maddənin dördüncü abzasında "**həyatının və**" sözü "**və ailə həyatının,**" sözləri ilə əvəz edilmişdir.

[3] 18 mart 2025-ci il tarixli **161-VIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 8 aprel 2025-ci il, "Azərbaycan" qəzeti, 9 aprel 2025-ci il, № 68, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 4, I kitab, maddə 318)** ilə 2.5-ci maddəyə "**maliyyə**" sözündən sonra "**, rəqabət**" sözü əlavə edilmişdir.

[4] 28 dekabr 2018-ci il tarixli **1406-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 31 yanvar 2019-cu il, № 24, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 01, maddə 23)** ilə yeni məzmunda 2.5-1-ci maddə əlavə edilmişdir.

[5] 20 oktyabr 2006-cı il 167-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanununa **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1005**) ilə 6.1.6-cı maddədə "**şəxsi həyata**" sözləri "**şəxsi və ailə həyatına**" sözləri ilə əvəz edilmişdir.

[6] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 11.3-cü maddə çıxarılmışdır.

Əvvəlki redaksiyasında deyilirdi:

~~11.3. Mülki hüquqları məhdudlaşdıran və ya məsuliyyət müəyyənləşdirən mülki qanunvericilik normalarının analogiya üzrə tətbiqinə yol verilmir.~~

[7] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 13-cü maddədə "**, öz riski ilə**" sözləri çıxarılmışdır.

Əvvəlki redaksiyasında deyilirdi:

~~Maddə 13. **Sahibkarlıq fəaliyyəti**~~

~~Sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə, öz riski ilə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, əmtəə satışından, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətdir.~~

22 oktyabr 2013-cü il tarixli **764-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 19 noyabr 2013-cü il, № 253; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 11, maddə 1280)** ilə 13-cü maddəsinə "**mənfəət**" sözündən sonra "**(fərdi sahibkarlar tərəfindən gəlir)**" sözləri əlavə edilmişdir.

[8] 8 iyul 2022-ci il tarixli **586-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 avqust 2022-ci il "Azərbaycan" qəzeti, 6 avqust 2022-ci il, № 165, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, №8, maddə 833)** ilə 13-cü maddəsində "**əmtəə**" sözü "**malların istehsalından və (və ya)**" sözləri ilə əvəz edilmişdir.

[9] 23 fevral 2021-ci il tarixli **277-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 3 aprel 2021-ci il, № 67, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 4 maddə 307)** ilə 14.2.1-ci maddəsinə birinci halda "**müqavilələr**" sözündən sonra "(**əmək müqavilələri istisna olmaqla**)" sözləri əlavə edilmişdir.

[10] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 14.3-cü maddədə "**Dövlət**" sözü "**Əgər qanunla əmlak hüquqlarının yaranması üçün ayrı qayda nəzərdə tutulmayıbsa, dövlət**" sözləri ilə əvəz edilmişdir.

[11] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 15.1-ci maddə çıxarılmışdır. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~15.1. Fiziki və hüquqi şəxslər özlərinə mənsub mülki hüquqları, o cümlədən onları müdafiə etmək hüququnu öz istədikləri kimi həyata keçirirlər.~~

[12] 24 iyun 2005-ci il 949-IIQD nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 15.2-ci maddədə "**hüquqları həyata keçirməkdən imtina etməsi**" sözləri "**mülki hüquqlardan istifadə etməməsi**" sözləri ilə əvəz edilmişdir.

[13] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 16.2-ci maddə çıxarılmışdır.

Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~16.2. Mülki hüquqlardan rəqabəti məhdudlaşdırmaq məqsədi ilə istifadə edilməsinə, habelə bazarda hakim mövqedən sui-istifadə olunmasına yol verilmir.~~

[14] 24 iyun 2005-ci il 949-IIQD nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 17.2-ci maddə çıxarılmışdır.

Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~17.2. Mülki hüquqların məhkəmə müdafiəsini Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin müəyyənləşdirdiyi iş aidiyyətinə uyğun olaraq ümumi yurisdiksiya məhkəmələri və iqtisadi məhkəmələr həyata keçirirlər. Müqavilədə tərəflər arasındakı mübahisənin məhkəməyə müraciət edilənədək nizama salınması nəzərdə tutula bilər.~~

[15] 24 iyun 2005-ci il 949-IIQD nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan

Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 17.3-cü maddə çıxarılmışdır.

Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~17.3. Mülki hüquqların inzibati qaydada müdafiəsi yalnız qanunvericilikdə nəzərdə tutulmuş hallarda həyata keçirilir. İnzibati qaydada qəbul edilmiş qərardan məhkəməyə şikayət verilə bilər.~~

[16] 24 iyun 2005-ci il 949-IIQD nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 20-ci maddə çıxarılmışdır.

Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~M a d d ə 2 0 . **Mülki hüquqların özümüdafiəsi**~~

~~20.1. Şəxslərin öz mülki hüquqlarını qanunvericiliklə qadağan edilməyən bütün üsullarla özümüdafiə etmək hüququ vardır.~~

~~20.2. Mülki hüquqların özümüdafiəsi üsulları mülki hüquq pozuntusuna mütənasib olmalı və onun qarşısının alınması üçün zəruri hərəkətlərdən kənara çıxmamalıdır.~~

[17] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 21.1-ci maddədə "**Hüququ pozulmuş şəxs**" sözləri "**Zərərin əvəzinin ödənilməsini tələb etmək hüququna malik olan şəxs**" sözləri ilə əvəz edilmişdir.

[18] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 21.3-cü maddə yeni redaksiyada verilmişdir.

Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~21.3. Əgər hüququ pozmuş şəxs bunun nəticəsində gəlir əldə etmişdirsə, hüququ pozulmuş şəxs digər zərərlə yanaşı, əldən çıxmış faydanın da həmin gəlirlərdən az olmayan miqdarda ödənilməsini tələb edə bilər.~~

[19] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 22-ci maddə çıxarılmışdır.

Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~M a d d ə 2 2 . **Dövlət hakimiyyəti orqanlarının və yerli özünüidarə orqanlarının vurduqları zərərin əvəzinin ödənilməsi**~~

~~Dövlət hakimiyyəti orqanlarının, yerli özünüidarə orqanlarının və ya həmin orqanların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (hərəkətsizliyi), o cümlədən dövlət hakimiyyəti orqanının və ya yerli özünüidarə orqanının qanunvericiliyə uyğun gəlməyən qeyri-normativ aktının qəbul edilməsi nəticəsində fiziki və ya hüquqi şəxsə dəyən zərərin əvəzi Azərbaycan Respublikasının və ya müvafiq bələdiyyənin hesabına ödənilməlidir.~~

[20] 20 oktyabr 2006-cı il 167-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanununa **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1005**) ilə 23.1-ci maddədə "**şəxsi**" sözündən sonra "**və ailə**" sözü əlavə edilmişdir.

[21] 20 oktyabr 2006-cı il 167-IIIQD nömrəli Azərbaycan Respublikasının Qanununa **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006-cı il, № 12, maddə 1005**) ilə 23.2-ci maddədə "**şəxsi**" sözündən sonra "**və ailə**" sözü əlavə edilmişdir.

17 fevral 2023-cü il tarixli **807-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 8 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 9 aprel 2023-cü il, № 73, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 4, maddə 445)** ilə 23.2-ci maddənin birinci cümləsində birinci halda "**kütləvi informasiya vasitələrində**" sözləri "**mediada**" sözü ilə, "**kütləvi informasiya vasitələrində də**" sözləri "**mediada da**" sözləri ilə əvəz edilmişdir.

[22] 17 fevral 2023-cü il tarixli **807-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 8 aprel 2023-cü il, "Azərbaycan" qəzeti, 9 aprel 2023-cü il, № 73, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 4, maddə 445)** ilə 23.3-cü maddədə "**Kütləvi informasiya vasitələrində**" sözləri "**Mediada**" sözü ilə, "**kütləvi informasiya vasitələrində**" sözləri "**mediada**" sözü ilə əvəz edilmişdir və həmin maddəyə "**dərc edilmiş**" sözlərindən sonra "**(yayımlanmış)**" sözü, "**dərc edilməsi**" sözlərindən sonra "**(yayımlanması)**" sözü əlavə edilmişdir.

[23] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 28.4-cü maddədə "**qəyyumun**" sözü "**himayəçinin**" sözü ilə əvəz edilmişdir.

120.4. Təsərrüfat ilinin sonu üçün inventar siyahısı tərtib edilərkən, əgər əmlak obyektlərinin növlər, miqdar və dəyər baxımından mövcudluğunu müəyyənləşdirməyin mümkünlüyü lazımi mühasibat uçotu prinsiplərinə uyğun gələn başqa üsulla təmin edilirsə, əmlak obyektlərinin həmin an üçün maddi inventarlaşdırılması tələb olunmur.

120.5. Təsərrüfat ilinin sonu üçün ümumi inventar siyahısında əmlak obyektlərini göstərmək məcburi deyildir, bu şərtlə ki:

120.5.1. hüquqi şəxs onların növlər, miqdar və dəyər baxımından mövcudluğunu təsərrüfat ili başa çatanadək sonuncu üç ayın və ya təsərrüfat ili başa çatdıqdan sonra ilk iki ayın günlərindən biri üçün tərtib edilmiş xüsusi inventar siyahısında göstərsin;

120.5.2. yuxarıda göstərilən lazımi mühasibat uçotu prinsiplərinə uyğun gələn artan yekun və ya interpolyasiya metodları ilə xüsusi inventar siyahıyaalması sayəsində təsərrüfat ilinin sonunda mövcud olan əmlak obyektlərinin həmin an üçün lazımınca qiymətləndirilməsinin mümkünlüyü təmin edilsin.

M a d d ə 121. **Hüquqi şəxsin ilkin və illik balansı**

121.1. Öz fəaliyyətinin əvvəlində və sonralar təsərrüfat ilinin sonunda hüquqi şəxs onun kapitalı ilə öhdəlikləri arasında nisbəti göstərən balans (ilkin balans, balans) tərtib etməlidir. Hər təsərrüfat ilinin sonunda təsərrüfat ili üçün gəlirlərin və xərclərin müqayisəsi (mənfəətlə zərərin hesabı) tərtib edilir. Balans və mənfəətlə zərərin hesabı illik (yekun) balansı təşkil edir. İllik balans lazımi mühasibat uçotu prinsiplərinə müvafiq surətdə işlərin lazımi gedişinə uyğun müddətdə tərtib edilir. İllik balans aydın və dəqiq olmalıdır.

121.2. İllik balans hüquqi şəxsin qanuni təmsilçiləri tərəfindən Azərbaycan dilində və ölkənin valyutasında tərtib edilir və imzalanır.

121.3. İllik balansda bütün əmlak obyektləri, borclar, ardıcıl hesabat dövrləri arasında məsrəflər ilə mədaxilin uçotuna hədd qoyan maddələr, habelə xərclər və gəlirlər göstərilməlidir. Aktivlərin maddələrini passivlərin maddələrinə, xərcləri gəlirlərə hesablamaq olmaz.

121.4. Balansda əsas və dövriyyə kapitalı, öz kapitalı, öhdəliklər, habelə ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna hədd qoyan maddələr ayrıca göstərilməli və onların bölgüsü

aparılmalıdır. Əsas kapital üzrə yalnız təsərrüfatın aparılması üçün daimi nəzərdə tutulan obyektlər göstərilməlidir. Firmanın təsis edilməsinə və öz kapitalının cəlb edilməsinə çəkilmiş xərcləri balansa aktivlərin maddələri kimi daxil etmək olmaz. Eyni qayda əsas kapitalın əvəzsiz əldə edilmiş qeyri-maddi əmlak obyektləri üçün də qüvvədədir.

121.5. Ehtiyatlar hüquqi şəxsə qarşı tələblərin irəli sürülüb sürülməyəcəyinin və hansı miqdarda sürüləcəyinin məlum olmadığı hallarda öhdəliklər üçün yaradılır. Ehtiyatlar yarımçıq qalmış əqdlər üzrə gözlənilən zərərin ödənilməsi üçün yaradılır. Ehtiyatlar yalnız onların yaradılması zərurəti aradan qalxdıqda ləğv edilir.

121.6. Ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna həddqoyan maddələrdə yekun günündək çəkilmiş xərclər göstərilir. Bunlar həmin gündən sonrakı müəyyən dövrə aid xərclərdir. Ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna həddqoyan maddələrin passivlərində yekun günündək olan mədaxil göstərilir. Bunlar həmin gündən sonrakı müəyyən dövrə aid gəlirlərdir.

121.7. İllik balansda göstərilmiş əmlak obyektləri və öhdəliklər qiymətləndirilərkən aşağıdakı prinsiplər də nəzərə alınmalıdır:

121.7.1. təsərrüfat ilinin birinci gününə aid dəyər qiymətləri əvvəlki təsərrüfat ilinin yekun balansının dəyər qiymətləri ilə üst üstə düşməlidir;

121.7.2. əmlak obyektləri və öhdəliklər yekun günü üçün ayrılıqda qiymətləndirilir;

121.7.3. dəyər qiymətləndirilməsi ehtiyatla aparılmalı, xüsusən yekun günündək məlum olmuş və ya əmələ gəlmiş bütün gözlənilən risklər və zərər nəzərə alınmalıdır; bu qayda həmin risklərin və zərərin yalnız yekun günü ilə illik balansın tərtib edildiyi gün arasındakı dövrdə məlum olduğu halda da qüvvədədir;

121.7.4. mənfəət yalnız o halda nəzərə alınır ki, yekun günündək o, həqiqətən reallaşmış olsun;

121.7.5. təsərrüfat ilinin xərcləri və gəlirləri illik balansda verilmiş və ya alınmış ödənişlər amili nəzərə alınmadan göstərilir;

121.7.6. əvvəlki təsərrüfat ili üçün illik balansın tərtibi zamanı istifadə olunmuş dəyər qiymətləndirilməsi metodları tətbiq edilməlidir.

121.8. Yuxarıda göstərilən prinsiplərdən kənara çıxmağa yalnız əsaslandırılmış, müstəsna hallarda icazə verilir; bu cür kənaraçıxmalar qoşmada izah edilməli və əsaslandırılmalıdır.

121.9. Balansın aktivlərində və passivlərində maddələrin dəyər qiymətləndirilməsi üçün aşağıdakı prinsiplər də tətbiq edilir:

121.9.1. əmlak obyektləri bu Məcəllənin 121.9.2 və 121.9.3-cü maddələrinə görə yol verilən amortizasiya ayırmaları çıxılmaqla, əldə etməyə və ya hazırlamaya çəkilmiş xərclər üzrə maksimum qiymətləndirilir;

121.9.2. əsas kapitalın istifadə müddəti məhdud olan əmlak obyektləri üzrə əldə etmə və ya hazırlama xərcləri əvvəlki təsərrüfat ili üçün planlı amortizasiya ayırmaları miqdarında azaldılır. Ayrıca təsərrüfat ili üçün tətbiq edilən planlı amortizasiya normaları müəyyənləşdirilərkən əldə etmə və ya hazırlama xərcləri əmlak obyektindən istifadə ediləcəyinin ehtimal olunduğu təsərrüfat illəri arasında bölünməlidir. Əsas kapitalın bütün əmlak obyektləri üzrə, hətta onların istifadəsi üçün müddət məhdudiyyəti olsa da, plandankənar amortizasiya ayırmaları həyata keçirilərək, əmlak obyektləri ağlabatan kommersiya qiyməti əsas götürülməklə yekun günü üçün onlara verilə bilən daha aşağı dəyər üzrə qiymətləndirilə bilər. Plandankənar amortizasiya ayırması əmlak obyektinin dəyərinin ehtimal edilən sürəkli azalması halında həyata keçirilir;

121.9.3. dövriyyə kapitalının əmlak obyektləri üzrə amortizasiya ayırmaları ona görə aparılır ki, onlar yekun günü üçün birja və ya bazar qiymətindən irəli gələn daha aşağı dəyər üzrə qiymətləndirilsin. Əgər birja və ya bazar qiymətini müəyyənləşdirmək mümkün deyilsə və əgər əldə etmə və ya hazırlama xərcləri yekun günü üçün əmlak obyektlərindən ötrü qəbul edilə bilən dəyərdən yüksəkdirsə, amortizasiya ayırmaları həmin dəyərədək həyata keçirilir. Bundan başqa, əgər ayırmalar zəruridirsə, onlar ağlabatan kommersiya qiyməti üzrə aparılmalıdır ki, gələcəkdə dəyərin azalıb artması ilə əlaqədar əmlak obyektlərinin dəyər qiymətinin dəyişməsinin qarşısı alınsın;

121.9.4. əsas və dövriyyə kapitalında olan qısamüddətli və ya uzunmüddətli tələblər üzrə amortizasiya ayırmaları o halda aparılır ki, bu tələblərin əsasları və ya miqdarı barəsində borclunun

etirazı vardır və ya borclunun əmlak vəziyyəti ilə əlaqədar olaraq onların ödənilməsi təmin edilmir, hüquqi şəxsin isə yetərli təminatları yoxdur. Belə tələblər tam miqdarda və ya ən azı ağlabatan kommersiya qiyməti əsas götürülməklə ödənilə bilən məbləğədək silinir;

121.9.5. Bu Məcəllənin 121.9.2, 121.9.3 və 121.9.4 cü maddələrinə uyğun aşağı dəyər qiymətini amortizasiya üçün əsasların olmadığı halda da saxlamaq mümkündür;

121.9.6. amortizasiya ayırmaları bir də onun üçün həyata keçirilə bilər ki, əsas və dövriyyə kapitalının əmlak obyektləri yalnız vergi hüququna müvafiq surətdə yol verilə bilən amortizasiya üçün hesabdan silməyə əsaslanan daha aşağı dəyər üzrə qiymətləndirilsin;

121.9.7. hüquqi şəxsin nizamnaməsinə görə şəriklərin göstərdikləri kapital və ehtiyatlar nominal məbləğ üzrə qiymətləndirilir;

121.9.8. öhdəliklər geri ödənişlərin məbləğləri üzrə qiymətləndirilməlidir. Əgər öhdəliklər üzrə geri ödənişlərin məbləği xərclərin məbləğindən çoxdursa, yaranan fərq aktivlərin ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna hədd qoyan maddəsi kimi qiymətləndirilə bilər və öhdəliyin qüvvədə olduğu dövr ərzində eyni ölçülü illik paylar şəklində silinir.

121.10. Əldə etmə xərcləri əmlak obyektini əldə etmək və onu istismara hazır vəziyyətə gətirmək üçün çəkilən xərclərdir, bu şərtlə ki, onlar ayrıca əmlak obyektinə aid edilə bilsin. Əldə etmə xərclərinə onlarla bağlı olan yanakı xərclər və əldə etməyə çəkilən əlavə xərclər də aiddir. Əldə etmə qiymətinin azalması əldə etmə xərclərindən çıxılır.

121.11. Hazırlama xərcləri əmlak obyektinin hazırlanması, genişləndirilməsi və ya onun ilk vəziyyətindən kənara çıxan dərəcədə xeyli yaxşılaşdırılması üçün malların işlədilməsi və xidmətlərin alınması nəticəsində əmələ gələn xərclərdir. Bu xərclərə xammala və materiallara çəkilən xərclər, istehsal xərcləri və istehsalın xüsusi xərcləri aiddir. Hazırlama xərcləri hesablanarkən onlara, hazırlamaya aid edilə bilmək şərti ilə, zəruri olan ümumi maddi məsrəflərin, zəruri olan ümumi istehsal xərclərinin və əsas kapitala amortizasiya ayırmalarının ağlabatan hissələri də aid edilə bilər. Ümumi idarəetmə ilə bağlı olan pay xərcləri, habelə müəssisənin sosial təsisatlarına, könüllü sosial sığorta və müəssisənin pensiya təminatı üzrə ödənişlərə çəkilən xərclər nəzərə alına bilər. Əvvəlki iki cümləyə uyğun xərclər yalnız o halda nəzərə alına bilər ki, onlar hazırlama dövrünə təsadüf etsin. Satış xərclərini hazırlama xərclərinə daxil etmək olmaz.

121.12. Borc kapitalı üçün faizləri hazırlama xərclərinə daxil etmək olmaz. Əmlak obyektinin hazırlanmasını maliyyələşdirən borc kapitalı faizləri hazırlama dövrünə təsadüf etdiyi halda nəzərə alına bilər; belə halda onlar əmlak obyektinin hazırlanmasına çəkilən xərclər sayılır.

121.13. Firma verilərkən hüquqi şəxsin firmanı satın almaq üçün icra etdiyi qarşılıqlı öhdəliyin verilən firmanın borcları çıxılmaqla ayrı ayrı əmlak obyektlərinin verildiyi məqamdakı dəyərindən çox olan məbləği firmanın dəyəri kimi götürülə bilər. Hər sonrakı təsərrüfat ilində silinmə yolu ilə məbləğin dörddə bir hissəsi ləğv edilir. Firmanın dəyərinin silinməsi ondan istifadənin ehtimal olunduğu təsərrüfat illəri arasında planauyğun şəkildə bölüşdürülə bilər.

121.14. Lazımi mühasibat uçotu prinsiplərinə uyğun olaraq, eyni növlü əmlak obyektlərinin dəyər qiymətləndirilməsi barəsində belə bir ehtimalı ehtiyatda saxlamaq olar ki, birincilərin əldə etdikləri və ya hazırladıqları əmlak obyektləri və sonuncuların əldə etdikləri və ya hazırladıqları əmlak obyektləri birincilər tərəfindən və ya digər müəyyən ardıcıllıqla istifadə edilmiş və ya özgəninkiləşdirilmişdir.

M a d d ə 122. **Balansın tərtibi**

122.1. Balans hesab formasında tərtib edilir. Yekun günündək on iki ay ərzində balans məbləği və dövriyyədən mədaxili müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi son məbləğdən yüksək olmayan hüquqi şəxslər aşağıda hərflərlə və Roma rəqəmləri ilə işarələnmiş bəndlərdəki aktivlərdə və passivlərdə verilən maddələri sonrakı bölgünü aparmadan yalnız ümumi məbləğdə göstərə bilərlər; tələb edilən ardıcıllıq gözlənilməlidir.

122.2. Balansın aktivlərinə aşağıdakılar daxil edilir:

A. Əsas kapital:

A.I. Qeyri-maddi əmlak obyektləri:

A.I.1. Konsessiyalar, əqli əmək nəticələrinin müdafiəsi hüquqları və oxşar hüquqlar və sərvətlər, habelə bu cür hüquqlar və sərvətlər üçün xüsusi icazələr (lisenziyalar);

A.I.2. Firmanın dəyəri;

A.I.3. Qeyri-maddi əmlak obyektləri üzrə icra edilmiş avans ödənişləri.

A.II. Əşya şəklində mayalar:

A.II.1. Torpaq sahələri və onlara bərabər hüquqlar və binalar, o cümlədən özgə torpaq sahələrindəki binalar;

A.II. 2. Texniki avadanlıq və maşınlar;

A.II. 3. Digər avadanlıq, firmanın ləvazimatı;

A.II. 4. Əşya şəklində mayalar və tikilməkdə olan avadanlıq üzrə icra edilmiş avans ödənişləri.

A.III. Maliyyə qoyuluşları:

A.III.1. İqtisadi cəhətdən bağlı firmalarda pay iştirakları;

A.III.2. Qiymətli kağızlar;

A.III.3. İqtisadi cəhətdən bağlı firmalara qoyuluşlar;

A.III.4. Digər qoyuluşlar.

B. Dövriyyə kapitalı:

B.I. Ehtiyatlar:

B.I.1. Xammal, yardımçı və iş materialları;

B.I.2. Yarımçıq məhsul, yarımçıq xidmətlər;

B.I.3. Hazır məhsul və mallar;

B.I.4. İcra edilmiş avans ödənişləri.

B.II .Tələblər və digər əmlak obyektləri:

B.II.1. Göndərmə və xidmətlər üzrə tələblər;

B.II.2. İqtisadi cəhətdən bağlı firmalara tələblər;

B.II.3. Digər əmlak obyektləri.

B.III. Qiymətli kağızlar.

B.IV. Çeklər, kassa nəqdiyyəsi və kredit idarələrindəki nağdsız vəsait.

C. Ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna hədd qoyan maddələr.

Ç. Yekun (balans məbləği).

122.3. Balansın passivlərinə aşağıdakılar daxil edilir:

A. Öz kapitalı:

A.I. Nizamnamə kapitalı (tam və kommandit ortaqlıqlarında və kooperativlərdə – onların üzvlərinin kapital hesablarındakı məbləğ);

A.II. Kapital ehtiyatı;

A.III. Mənfəətdən ehtiyata ayırmalar:

A.III.1. Qanun üzrə ehtiyat;

A.III.2. Nizamnamə üzrə ehtiyat;

A.III.3. Mənfəətdən ehtiyata digər ayırmalar;

A.III.4. Əvvəlki illərdən keçirilmiş mənfəət və ya keçirilmiş zərər;

A.III.5. İllik artıqlıq və ya illik əskiklik.

B. Ehtiyata ayırmalar:

B.1. Vergilərin ödənilməsi üçün ehtiyata ayırmalar;

B.2. Qeyri-müəyyən öhdəliklərin ödənilməsi üçün ehtiyata ayırmalar.

C. Öhdəliklər:

C.1. Borclar;

C.2. Kredit idarələri qarşısında öhdəliklər;

C.3. Sifarişlər üzrə alınmış avans ödənişləri;

C.4. Göndərmə və xidmətlər üzrə öhdəliklər;

C.5. Köçürmə veksellərinin ödənişə qəbul edilməsi və öz veksellərinin çıxarılması üzrə öhdəliklər;

C.6. İqtisadi cəhətdən bağlı firmalar qarşısında öhdəliklər;

C.7. Vergilər və sosial ayırmalar üzrə öhdəliklər;

C.8. Digər öhdəliklər.

Ç. Ardıcıl hesabat dövrləri arasında məsrəflərin və mədaxilin uçotuna hədd qoyan maddələr.

D. Yekun (balans məbləği).

122.4. Əgər hüquqi şəxsin göstərilən maddələrdən birinə aid edilə bilən əmlak obyektləri və ya öhdəlikləri yoxdursa, balansda həmin maddəni göstərməmək olar. Əgər əmlak obyekti və ya öhdəlik balansın bir neçə maddəsinə uyğun gəlirsə, onların başqa maddələrə də mənsub olması göstərildikləri maddədə qeyd edilir. Əvvəlki təsərrüfat ilinin sonuna aid müvafiq məbləğ balansda hər maddə üzrə ayrıca qrafada göstərilir.

122.5. Hüquqi şəxsin təsərrüfat fəaliyyətinin hərəkətə gətirilməsinə və genişləndirilməsinə çəkilən xərcləri, əgər onlardan balansda istifadə etmək mümkün deyilsə, aktivlərə balans subsidiyası kimi daxil etmək olar. "Təsərrüfat fəaliyyətinin hərəkətə gətirilməsi və genişləndirilməsi xərcləri" adlanan həmin maddə balansda əsas kapitalın qarşısında göstərilir və qoşmada izah edilir. Əgər belə maddələr balansda aktivlər üzrə göstərilirsə, mənfəət yalnız o halda bölüşdürülə bilər ki, bölgüdən sonra qalan və istənilən vaxt nağdlaşdırıla bilən mənfəətdən ehtiyata ayırmalar, keçirilmiş mənfəət əlavə edilməklə və keçirilmiş zərər çıxılmaqla qiymətləndirmə məbləğindən az olmasın.

122.6. Başqa firmalara qoyulan və həmin firmalarla yaranmış uzunmüddətli əlaqələr sayəsində hüquqi şəxsin öz fəaliyyətinə xidmət üçün nəzərdə tutulan paylar həmin firmalarda iştirak sayılır. Bu zaman həmin iştirakın qiymətli kağızlarla təsdiq edilib edilmədiyi vacib deyildir. Şübhə olduqda səhmdar cəmiyyətlərinə qoyulan, nominal məbləğləri bütövlükdə həmin cəmiyyətin nominal kapitalının beşdə bir hissəsini təşkil edən paylar iştirak sayılır.

122.7. Hüquqi şəxsin üçüncü şəxslərə və ya iqtisadi cəhətdən bağlı firmalara uzun müddətə, lakin verildiyi andan ən azı iki il müddətinə verdiyi ssudalar qoyuluşlar sayılır. Qoyuluş kimi sənəddən sənədə keçirilmə üçün yalnız ssudanın verildiyi ilkin şərtləşdirilmiş müddət əsas götürülür.

122.8. Hüquqi şəxsin öhdəlikləri üzrə şəriklərin kreditorlar qarşısında məsuliyyətinə nizamnaməyə əsasən məhdudiyyət qoyan kapital göstərilmiş kapital sayılır. Göstərilmiş kapital üzrə verilməmiş mayalar aktivlərdə əsas kapital qarşısında ayrıca göstərilir və müvafiq surətdə adlandırılır; o cümlədən verilmiş mayalar qeyd edilir. Zərər nəticəsində öz kapitalı tükəndikdə və passivlərin aktivlərdən artıqlığı əmələ gəldikdə, həmin məbləğ balansın axırında aktivlərdə "öz kapitalı ilə ödənilməyən əskiklik" adı altında ayrıca göstərilir.

122.9. Kapital ehtiyatları kimi aşağıdakılar göstərilir:

122.9.1. Hüquqi şəxsin səhmləri buraxılarkən, yeni buraxılan səhmlər də daxil olmaqla, nominal məbləğdən artıq əldə edilən məbləğ;

122.9.2. hüquqi şəxsin səhmlərinin əldə edilməsi üçün konversiya və opsion borc istiqrazları buraxılarkən əldə edilən məbləğ;

122.9.3. öz səhmlərinə görə preferensiyalar üçün şəriklərin verdikləri əlavə ödənişlərin məbləği;

122.9.4. şəriklərin əldə etdikləri mayalara uyğun olaraq cəmiyyətin kapitalına qaytarılmaq hüququ olmadan verdikləri nominal məbləğdən yuxarı digər ödənişlərin məbləği.

122.10. Qanuni göstərişlərə, nizamnaməyə və ya şəriklərin müvafiq qərarına uyğun olaraq, illik artıqlıqdan tutulası vergilər çıxmaqla ondan ehtiyata ayrılan məbləğlər mənfəətdən ehtiyata ayırmalar sayılır.

M a d d ə 123. **Mənfəətin və zərərin hesabı**

123.1. Mənfəətin və zərərin hesabı pilləli formada tərtib edilir. Bu zaman aşağıdakı maddələr göstərilən ardıcıllıqla ayrıca qeyd edilir:

123.1.1. dövriyyədən mədaxil;

123.1.2. hazır məhsulun və yarımçıq məhsulun mövcudluğunun artımı və ya azalması;

123.1.3. öz istehsalının kapitala çevrilmiş məhsulu;

123.1.4. ümumi balans;

123.1.5. xammala, yardımçı və iş materiallarına, mallar və xidmətlər əldə edilməsinə çəkilən xərclər;

123.1.6. əmək haqqı və sosial sığorta xərcləri;

123.1.7. əsas kapitalın qeyri maddi əmlak obyektləri üzrə amortizasiya ayırmaları və təsərrüfat fəaliyyətinin hərəkətə gətirilməsinə çəkilən, aktivlər üzrə keçən xərclər;

123.1.8. digər istehsal məsrəfləri;

123.1.9. müəssisənin təsərrüfat fəaliyyətinin nəticələri;

123.1.10. iqtisadi cəhətdən bağlı firmalar da daxil olmaqla, pay iştirakları üzrə gəlirlər;

123.1.11. əsas kapitalın qiymətli kağızları və qoyuluşlar üzrə gəlirlər;

123.1.12. digər faizlər və oxşar gəlirlər;

123.1.13. maliyyə qoyuluşları və dövriyyə kapitalının qiymətli kağızları üzrə amortizasiya ayırmaları;

123.1.14. faizlər və oxşar xərclər;

123.1.15. adi təsərrüfat fəaliyyətinin nəticələri;

123.1.16. fövqəladə gəlirlər;

123.1.17. fövqəladə xərclər;

123.1.18. gəlirlərdən vergilər;

123.1.19. digər vergilər;

123.1.20. illik artıqlıq və ya illik əskiklik.

123.2. Əgər hüquqi şəxsin mənfəət və zərər hesabının maddələrindən birinə aid olan xərcləri və ya gəlirləri əmələ gəlməmişdirsə, bu maddəni göstərməmək olar. Əgər hüquqi şəxsin xərcləri və gəlirləri əvvəlki il üçün mənfəət və zərər hesabında eyni növlü xərclərin və gəlirlərin göstərildiyi maddədə göstərilmirsə, onda bu, həmin maddələrə aid məbləğ göstərilməklə mənfəət və zərər hesabında qeyd edilir və əgər söhbət hüquqi şəxsin təsərrüfat fəaliyyətinin nəticəsi üçün mühüm məbləğlərdən gedirsə, qoşmada izah olunur.

123.3. Kapital ehtiyatlarının və ya mənfəətdən ehtiyata ayırmaların artması və ya azalması mənfəət və ya zərər hesabında yalnız "illik artıqlıq" və ya "illik əskiklik" maddəsindən sonra göstərilir.

123.4. Mənfəət və zərər hesabının ayrı ayrı maddələri üzrə göstərişlər.

123.4.1. dövriyyədən mədaxil - mədaxilin azalması (məsələn, bonus, güzəştlər) və dövriyyədən gəlir çıxılmaqla, hüquqi şəxsin adi təsərrüfat fəaliyyəti üçün səciyyəvi olan məmulatın və malların satılmasından və kirayəyə və ya icarəyə verilməsindən, habelə hüquqi şəxsin adi təsərrüfat fəaliyyəti üçün səciyyəvi olan xidmətlərin göstərilməsindən götürülən mədaxildir.

123.4.2. mövcudluqda dəyişmələr - ehtiyatların həm miqdarının, həm də dəyərinin dəyişməsidir; lakin yalnız hüquqi şəxsin adi amortizasiya ayırmalarından yüksək deyildirsə, amortizasiya ayırmalarıdır;

123.4.3. plandankənar amortizasiya ayırmaları, habelə amortizasiya ayırmaları müvafiq olaraq ayrılıqda göstərilir və ya qoşmada qeyd edilir. Zərərin keçməsi ilə əlaqədar olan və mənfəətin ayrılmasına dair müqaviləyə və ya mənfəətin bir hissəsinin ayrılmasına dair müqaviləyə əsasən alınmış gəlirlər və xərclər və ya köçürülmüş mənfəət müvafiq adlar altında ayrılıqda göstərilir;

123.4.4. "fövqəladə gəlirlər" və "fövqəladə xərclər" maddələrində hüquqi şəxsin adi təsərrüfat fəaliyyətindən kənarda əmələ gələn gəlirlər və xərclər göstərilir. Əgər göstərilmiş məbləğlər gəlirliyin xarakteristikası üçün böyük əhəmiyyət daşıyırsa, qoşmada həmin maddələrin məbləğinə və növünə aid izahat verilir. Yuxarıdakı müddəalar digər təsərrüfat ilinə aid olan gəlirlər və xərclər üçün də etibarlıdır;

123.4.5. Hüquqi şəxsin vergi ödəyicisi kimi ödədiyi və ya ödəməli olduğu məbləğlər vergilər kimi göstərilir.

M a d d ə 1 2 4 . **Hüquqi şəxsin illik balansına qoşma**

124.1. Hüquqi şəxsin illik balansına əlavə olaraq qoşma tərtib edilir və bu qoşmada balansa dair izahatlar verilir. İllik balansın tərtibi zamanı istifadə edilmiş balanslaşdırma və qiymətləndirmə metodları hüquqi şəxsin əmlak vəziyyəti və gəlirliyi barəsində mümkün qədər dəqiq təsəvvür almaq üçün zəruri olan dərəcədə dolğun şərh edilir. Əvvəlki yekun balanslarında istifadə edilmiş balanslaşdırma və qiymətləndirmə metodlarından kənaraçıxmalar göstərilir və əsaslandırılır, habelə hüquqi şəxsin əmlak vəziyyətinə, maliyyə vəziyyətinə və gəlirliyinə onların təsiri səciyyələndirilir. Qoşmada borc kapitalı üzrə faizlərin alınıb alınmadığı göstərilir. Plandankənar amortizasiya ayırmaları izah edilir və əsaslandırılır.

124.2. Veksellərin indossamenti və başqasına verilməsi üzrə, zaminlik üzrə, veksellərə və çeklərə, qarantiya müqavilələrinə dair zaminlik üzrə öhdəliklər, habelə özgə öhdəlikləri üzrə qarantiyalar verilməsi üçün məsuliyyət bağlılığı balansın passivlərində göstərilmədikdə qoşmada qeyd edilir; onlar bir məbləğ şəklində göstərilə bilər. Yuxarıdakı öhdəliklər və məsuliyyət bağlılığı onlara dair eyni dəyərli geri tələblər olduqda da göstərilir. Daha sonra balansda təmsil olunmayan digər maliyyə öhdəliklərinin

ümumi miqdarı göstərilir; onlara sürəkli öhdəlik münasibətləri də aiddir, özü də müqavilənin ləğvinin növbəti müddətinədək hüquqi şəxsin xərclərinin dəyər qiyməti verilir.

124.3. Sonra qoşmada idarəetmə üçün cavabdeh olan bütün şəxslərin saxlanmasının ümumi məbləği (maaşlar, mənfəətdə iştirak, xərclərin əvəzinin ödənilməsi, sığorta ödənişləri, komisyon muzdları və hər cür əlavə haqlar), habelə müşahidə orqanları üzvlərinin əməyinin ödənilməsi göstərilməlidir. Bu ümumi məbləğlərə həmçinin saxlanmaya çəkilən, lakin ödənilməyən və başqa növ tələblərə çevrilən və ya başqa tələblərin artırılması üçün istifadə olunan ödənişlər daxil edilir. Təsərrüfat ili ərzində saxlanmaya sərf edilən ödənişlərdən başqa, təsərrüfat ili ərzində həyata keçirilsə də, hələlik heç bir illik balansda göstərilməmiş digər ödənişlər göstərilir. Əgər hüquqi şəxsin işlərinin idarə edilməsinə cavabdeh şəxslər hüquqi şəxsin özü üçün fəaliyyətlərinə görə və ya qanuni təmsilçilər kimi və ya hüquqi şəxslə iqtisadi cəhətdən bağlı olan hüquqi şəxslərdən birinin qulluqçuları kimi fəaliyyətlərinə görə ödənişlər alırlarsa, bu məbləğlər ayrılıqda göstərilir. Daha sonra hüquqi şəxsin işlərinin idarə edilməsinə bundan əvvəl cavabdeh olmuş şəxslərə ödənişlərin ümumi məbləğləri (peşman haqları (kompensasiyalar), pensiyalar, ailə başçısını itirməyə görə pensiyalar və oxşar xidmətlər) göstərilir. Əgər həmin şəxslər və ya onların ölümündən sonra qalan qohumları iqtisadi cəhətdən bağlı olan hüquqi şəxsdən də peşman haqları (kompensasiyalar) və ya pensiyalar alırlarsa, bunlar ayrılıqda göstərilir.

124.4. Bundan başqa, qoşmada, əgər hüquqi şəxs bu barədə xəbərdar edilmişdirsə, hüquqi şəxsdə iştirak payının mövcudluğu göstərilir; bu zaman payın kimə mənsub olduğu və hüquqi şəxsin göstərilən kapitalının dörddə bir hissəsindən çox olub olmadığı və ya bir neçə şəxsin pay iştirakı olub olmadığı göstərilir. Bundan başqa, ölkədə yerləşən iqtisadi cəhətdən bağlı hüquqi şəxslərlə hüquqi və işgüzar əlaqələr, habelə bu hüquqi şəxslərdə aparılan və hüquqi şəxsin vəziyyətinə mühüm təsir göstərə bilən ticarət əməliyyatları göstərilir.

124.5. Qoşma vicdanlı və icraçı hesabat prinsiplərinə uyğun gəlməlidir. Əgər ağlabatan kommersiya hesabına görə müfəssəl məlumatın göstərilməsi hüquqi şəxsə və ya iqtisadi cəhətdən bağlı hüquqi şəxsə mühüm zərər vura bilərsə, bu məlumat həmin zərərin vurula biləcəyinin ehtimal olunduğu dərəcədə göstərilməyə bilər. Əgər məlumatlar təsərrüfat fəaliyyəti sirrinin qorunması haqqında göstərişlərə əsasən açıqlanmırsa, qoşmada onların göstərilməli olduğu bənddə qeyd edilir ki, bu bəndin məlumatlarına müdafiə haqqında qeyd şərt tətbiq edilmişdir.

124.6. Qoşmada hüquqi şəxsin işlərinin idarə olunmasına cavabdeh olan bütün şəxslərin və müşahidə orqanlarının bütün üzvlərinin, habelə təsərrüfat ilində və ya daha sonra çıxmış bütün şəxslərin soyadları və azı bir tam adı göstərilir. Hüquqi şəxsin işlərinin idarə edilməsinə cavabdeh olan şəxslərin daxil olduğu orqanının sədri və müşahidə orqanının sədri özləri kimi göstərilir.

M a d d ə 1 2 5 . **İşlərin vəziyyəti haqqında hesabat**

Həcmləri bu Məcəllənin 122.1 ci maddəsində göstərilənlərdən yüksək olan hüquqi şəxslər işlərin vəziyyəti haqqında hesabat tərtib etməlidirlər. Hesabatda ən azı illik hesabatın tərtib edildiyi ana qədər hüquqi şəxsin işlərinin gedişi və əmlak vəziyyəti əks etdirilməli, həm də elə əks etdirilməlidir ki, faktik vəziyyətə uyğun mənzərə əldə olunsun. İşlərin vəziyyəti haqqında hesabatda təsərrüfat ilinin sonunadək həyata keçirilmiş xüsusi əhəmiyyətli əməliyyatlar üzərində dayanılmalı, habelə hüquqi şəxsin cari ildə və imkan daxilində növbəti təsərrüfat ilində ehtimal edilən inkişafı göstərilməlidir.

M a d d ə 1 2 6 . **Audit**

126.1. Bu Məcəllə ilə tələb edilən hallarda və ümumiyyətlə, həcmləri 122.1-ci maddədə göstərilənlərdən yüksək olan hər bir hüquqi şəxsin, qoşma da daxil olmaqla, illik balansı auditor tərəfindən yoxlanılmalıdır. Auditor yoxlamanın nəticələri haqqında yazılı hesabat tərtib etməlidir. Hesabatda mühasibat uçotunun, illik balansın və qoşmanın qanuni göstərişlərə uyğun gəlib-gəlmədiyi və hüquqi şəxsin qanuni təmsilçilərinin auditor tərəfindən tələb olunan izahatları və təsdiqləyici sənədləri təqdim edib etmədikləri xüsusi qeyd olunmalıdır. Auditor hesabatı imzalayıb hüquqi şəxsin işlərinin idarə edilməsinə cavabdeh olan şəxslərə təqdim etməlidir.

126.2. Əgər yoxlamanın yekun nəticəsinə görə heç bir irad yoxdursa, auditor bunu belə bir qeydlə təsdiq etməlidir: "Qulluq borcumla əlaqədar apardığım (apardığımız) yoxlama ilə müəyyənləşdirilmişdir ki, mühasibat uçotu və illik balans qanuni göstərişlərə və nizamnamənin müddəalarına uyğundur. Lazımi mühasibat uçotu baxımından illik balans hüquqi şəxsin əmlak, maliyyə vəziyyətinin və gəlirliyinin faktik münasibətlərə uyğun olan mənzərəsini yaradır". Əgər əlavə qeydlər edilməsi

~~zəruridirsə, onda yoxlamanın məzmunu və təsdiqləyici qeydin mənası haqqında yanlış təəssürata yol verməmək üçün təsdiqləyici qeyd tamamlanır. Əgər iradlar vardırsa, auditor ya təsdiqləyici qeydi ixtisar edir, ya da ondan imtina edir.~~

~~126.3. Yoxlama aparılmadıqda illik balans qəbul edilmir. Əgər hüquqi şəxsin işlərinin idarə edilməsinə cavabdeh olan şəxslər yoxlama haqqında hesabat onlara təqdim edildikdən sonra illik balansı və ya qoşmanı dəyişdirərlərsə, onda auditor illik balansı və qoşmanı, dəyişiklik bunu tələb edirsə, yoxlamalıdır. Auditor təsdiq haqqında öz qeydini və ya təsdiqləmədən imtina haqqında qeydini imzalayaraq olduğu yeri və tarixi göstərir. Təsdiqləmə haqqında qeyd və ya təsdiqləmədən imtina haqqında qeyd də yoxlama haqqında hesabata daxil edilir.~~

~~126.4. İllik balansın auditorunu hüquqi şəxsin üzvlərinin yığıncağı seçir. Auditor müvafiq surətdə yoxlamalı olduğu təsərrüfat ilinin sonunadək seçilir. Seçkidən dərhal sonra hüquqi şəxsin işlərinin idarə edilməsinə cavabdeh olan şəxslər auditora yoxlama tapşırığı verməlidirlər.~~

~~126.5. Azərbaycan Respublikasında auditor fəaliyyəti ilə məşğul olmağa icazə almış müstəqil auditorlar və auditor təşkilatları auditor ola bilərlər. Birbaşa, dolayısı ilə və ya özgə əmlakının idarəçiləri kimi hüquqi şəxsdə payları olan və ya hüquqi şəxsin kitablarının tərtibi və ya yoxlanmalı olan illik balansının tutulması zamanı öz yoxlamasının çərçivəsindən kənara çıxan fəaliyyətdə iştirak etmiş şəxslər hüquqi şəxsin auditoru ola bilməzlər.~~

~~126.6. Auditor, onun assistentləri və təftiş firmasının yoxlamada iştirak edən təmsilçiləri auditi vicdanla və qərəzsiz aparmalı və sirri saxlamalıdırlar. Onlar iş zamanı özlərinə bəlli olan təsərrüfat fəaliyyəti sirrindən istifadə edə bilməzlər. Bilərəkdən və ya ehtiyatsızlıq üzündən öz vəzifələrini pozanlar bununla əlaqədar yaranan zərərin əvəzini hüquqi şəxsə ödəməyə borcludurlar.~~

~~M a d d ə 1 2 7 . **Hüquqi şəxslərin sənədlərinin saxlanılması**~~

~~127.1. On il ərzində aşağıdakı sənədlər ayrılıqda saxlanılır.~~

~~127.1.1. təsərrüfat kitabları, inventar siyahıları, ilkin balanslar, yekun balansları, o cümlədən işlərin vəziyyəti haqqında hesabatlar; bu göstərilənlərə onların başa düşülməsi üçün zəruri olan bütün iş sərəncamları da aiddir;~~

~~127.1.2. daxil olmuş təsərrüfat yazışması və göndərilmiş təsərrüfat yazışmasının surətləri;~~

~~127.1.3. kitabdan kitaba keçirilmək üçün ilkin sənədlər (əsaslandırıcı mühasibat sənədləri).~~

~~127.2. Saxlanma müddəti müvafiq təsərrüfat kitabında sonuncu qeydiyyatın aparıldığı, inventar siyahısının tərtib edildiyi, ilkin və ya illik balansın qəbul edildiyi, təsərrüfat məktubunun alındığı və ya göndərildiyi və ya əsaslandırıcı sənədin yaradıldığı təqvim ilinin sonundan başlanır.~~

~~M a d d ə 1 2 8 . **Hüquqi şəxsin sənədlərinin təqdim edilməsi**~~

~~128.1. Təsərrüfat kitablarının tərtibi, inventar siyahısının, habelə illik balansın tutulması ilə əlaqədar hüquqi şəxsin icra etməli olduğu bütün vəzifələri hüquqi şəxsin qanuni təmsilçiləri icra etməlidirlər. Əgər bunun üçün bir neçə şəxs cavabdehdirsə, onlardan hər biri birinci cümlədən irəli gələnləri icra etməyə borcludur.~~

~~128.2. Hüquqi mübahisələr olduqda məhkəmə ərizəyə əsasən və ya öz mülahizəsi ilə tərəflərdən birinin bu Məcəllənin 127.1.1, 127.1.2 və 127.1.3-cü maddələrində göstərilmiş sənədlərinin təqdim olunmasını tələb edə bilərlər. Hüquqi mübahisədə belə sənədlər təqdim edildikdə onların məzmununa, əgər bu, mübahisə predmetinə toxunursa, tərəfləri cəlb etməklə baxılır və zərurət olduqda çıxarışlar edilir. Kitabların qalan məzmunu məhkəmə qarşısında onların lazımınca tərtib edilib-edilmədiyinin yoxlanılması üçün zəruri olan dərəcədə açılır. Əmlak mübahisələri, o cümlədən vərəsəlik və əmlak bölgüsü haqqında işlər zamanı məhkəmə ticarət kitablarının tam məzmunu ilə tanış olmaq üçün onların təqdim olunması barədə sərəncam verə bilər.~~

KM1 Azərbaycan Respublikası Mülki Məcəlləsinin 133.1-ci maddəsi Azərbaycan Respublikası Konstitusiyasının 58, 59-cu maddələrinə və 71-ci maddəsinin II hissəsinə uyğun olmadığına görə qüvvədən düşmüş hesab edilmişdir.

24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki

Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 4-cü fəslin 5-ci paraqrafı çıxarılmışdır. Paraqrafın əvvəlki redaksiyasında deyilirdi:

§ 5. **Hüquqi şəxslərin dövlət reyestri**

M a d d ə 1 2 9 . **Hüquqi şəxslərin dövlət reyestrinin aparılması**

129.1. Hüquqi şəxslərin dövlət reyestrini müvafiq icra hakimiyyəti orqanı mərkəzləşdirilmiş qaydada illər üzrə və Azərbaycan Respublikasının hər bir inzibati ərazi vahidi üzrə, habelə digər meyarlar üzrə aparır. Zərurət olduqda hüquqi şəxslərin dövlət reyestrinin filialları yaradıla bilər.

129.2. Hüquqi şəxslərin qeydə alınması məqsədilə bütün ərizələr hüquqi şəxslərin dövlət reyestrini aparan orqana verilir.

M a d d ə 1 3 0 . **Qeydə alınmalı faktlar və saxlanmağa verilən sənədlər**

130.1. Dövlət reyestrində hüquqi şəxslərin onların qeydiyyatı ilə əlaqədar yazıda aşağıdakı məlumatlar göstərilməlidir:

130.1.1. hüquqi şəxsin adı (firma);

130.1.2. hüquqi şəxsin yerləşdiyi yaşayış məntəqəsi;

130.1.3. hüquqi şəxsin təşkilati hüquqi forması;

130.1.4. maliyyə ili;

130.1.5. hüquqi şəxsin hər bir təsisçisinin soyadı, adı, atasının adı, vətəndaşlığı və yaşayış yeri;

130.1.6. hüquqi şəxsin hər bir qanuni təmsilçisinin soyadı, adı, atasının adı, vətəndaşlığı və yaşayış yeri.

130.2. Kommandit ortaqlığında yuxarıda göstərilənlərdən əlavə, hər bir kommanditçinin mayasının miqdarı haqqında məlumat göstərilməlidir.

130.3. Məhdud məsuliyyətli cəmiyyətdə və ya səhmdar cəmiyyətində yuxarıda göstərilənlərdən əlavə, kapitalın miqdarı haqqında, hər bir təsisçinin mayasının miqdarı haqqında məlumatlar və müşahidə şurasının yaradıldığı halda onun hər bir üzvünün soyadı, adı, atasının adı və yaşayış yeri göstərilməlidir.

130.3 1. Dövlət reyestrində həmçinin "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş digər məlumatlar da əks etdirilməlidir.

130.4. Qeydə alınmış faktın hər bir sonrakı faktik dəyişikliyi hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmaq üçün təqdim edilməlidir. Dəyişiklik yalnız hüquqi şəxslərin dövlət reyestrində qeydə alındığı andan hüquqi qüvvəyə minir.

130.5. Müvafiq icra hakimiyyəti orqanı qeydiyyat üçün lazımi məlumatların təqdim edilməsi və ya hüquqi şəxslərin dövlət reyestrinə sənədlərin təqdim edilməsi vəzifələrini yerinə yetirməyən şəxslərdən bu vəzifələri yerinə yetirməyi tələb edə bilər.

M a d d ə 1 3 1 . **Hüquqi şəxslərin qeydə alınması barədə ərizə**

131.1. Dövlət reyestrində hüquqi şəxsin qeydə alınmasına dair ərizə imzalanmış yazılı orijinal və bir surət şəklində təqdim edilir. Müvafiq icra hakimiyyəti orqanı ərizəni aldığını surətdəki qeydlə təsdiq edir.

131.2. Hüquqi şəxslərin qeydiyyatı zamanı müvafiq icra hakimiyyəti orqanı hüquqi şəxsin konkret növünün qeydiyyatı üçün qoyulan şərtlərin yerinə yetirilib-yetirilmədiyini yoxlamağa borcludur.

131.3. Bütün təsisçilər hüquqi şəxsin qeydə alınması barədə ərizəni imzalamalıdırlar.

131.4. Hüquqi şəxsin qeydə alınması barədə ərizəni, habelə saxlanmaq üçün sənədləri hüquqi şəxsin qanuni təmsilçiləri təqdim edirlər. Ərizəni və saxlanmaq üçün sənədləri təqdim edərkən qanuni təmsilçi qeydiyyata verilən faktların və saxlanmağa verilən sənədlərin düzgünlüyünü təsdiqləyir. Ərizədə qanuni təmsilçinin imzası, habelə saxlanmaq üçün müvafiq icra hakimiyyəti orqanına verilən müəyyən imza xətləri notarius tərəfindən təsdiqlənməlidir.

M a d d ə 1 3 2 . **Hüquqi şəxslərin dövlət reyestrində yazılar və qeydiyyat yazısının dərci**

132.1. Qeydə alınmış hüquqi şəxs hüquqi şəxslərin dövlət reyestrinə yazılır, qeydiyyata təqdim edilən sənədlər isə arxivə verilir.

132.2. Hüquqi şəxsi qeydə aldıqdan sonra müvafiq icra hakimiyyəti orqanı hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı ərizəçiyə göndərməlidir. Ərizəçi hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı

~~yoxlamalı və yanlışlıq tapdıqda bu barədə dərhal müvafiq icra hakimiyyəti orqanına yazılı məlumat verməlidir.~~

~~132.3. Əgər çıxarış göndərildikdən sonra üç həftə ərzində ərizəçi yanlışlıq tapılması halı barəsində məlumat verməzsə, hüquqi şəxslərin dövlət reyestrindəki yazı Azərbaycan Respublikasının dövlət qəzetində dərc edilir.~~

~~132.4. Hüquqi şəxs qeydiyyat məqsədi ilə yanlış məlumat verərsə, hüquqi şəxsin təsisçiləri və şərikləri birgə borclular kimi:~~

~~132.4.1. çatışmaya bilən haqları verməli;~~

~~132.4.2. hüquqi şəxsin yaradılması üçün çəkilən xərclərdən başqa, aldıqları ödənişlərin əvəzini verməli;~~

~~132.4.3. əmələ gələn digər zərəri ödəməlidirlər.~~

~~M a d d ə 1 3 3 . **Hüquqi şəxsin dövlət reyestrindən çıxarılması**~~

~~133.1. Hüquqi şəxs ləğv edildikdə və ləğvetmə tədbirləri həyata keçirildikdən sonra onun dövlət reyestrindən çıxarılması üçün "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanına ərizə ilə müraciət edilməlidir.~~

~~133.2. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada hüquqi şəxsin dövlət reyestrindən çıxarılması haqqında qərar qəbul edir və bu barədə müraciət etmiş şəxslərə məlumat verir. Hüquqi şəxsin ləğv edilməsi barədə reyestrdə müvafiq qeydlər aparılır.~~

~~M a d d ə 1 3 4 . **Hüquqi şəxslərin dövlət reyestrinin aşkarlığı**~~

~~İstənilən şəxsin ixtiyarı vardır ki, hüquqi şəxslərin dövlət reyestrini gözdən keçirsin və reyestrdən çıxarışı və qeydiyyat üçün təqdim olunmuş sənədlərin surətlərini tələb etsin. Hüquqi şəxsin və onu təmsil etmək səlahiyyəti olan şəxsin mövcudluğu qeydiyyat şəhadətnaməsi ilə təsdiq edilə bilər. Müvafiq icra hakimiyyəti orqanı maraqlanan şəxsin tələbi ilə hüquqi şəxsin qeydə alındığı və ya qeydə alınmadığı barədə şəhadətnamə verməlidir.~~

[204] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə üçüncü bölmənin adı yeni redaksiyada verilmişdir. Bölmənin əvvəlki redaksiyada adı **"Əşya hüququ"** olmuşdur.

[205] 15 may 2015-ci il tarixli **1285-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 15 iyul 2015-ci il, № 151, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 07, maddə 814)** ilə 135.1-ci maddənin ikinci cümləsində "**və**" sözündən sonra "**sənədli**" sözü əlavə edilmişdir.

[206] 28 dekabr 2018-ci il tarixli **1438-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 30 dekabr 2018-ci il, № 296, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 12, I kitab, maddə 2526)** ilə 135.4-cü maddənin ikinci cümləyə "**olan**" sözündən sonra **"(ondan ayrıla bilməyən)**" sözləri əlavə edilmişdir və yeni məzmunda üçüncü cümlə əlavə edilmişdir.

[207] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 135.5-ci maddədə ikinci cümlə yeni redaksiyada verilmişdir. Maddəyə üçüncü cümlə əlavə edilmişdir. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~“135.5. Daşınmaz əşyalara aid edilə bilməyən bütün əşyalar daşınar əşyalar sayılır. Daşınar əşyaların hüquqi vəziyyəti qiymətli kağızlara və qeyri-əmlak subyektiv hüquqlara, o cümlədən patentlərə, əmtəə nişanlarına və müəlliflik hüquqlarına da şamil edilir.”~~

[208] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 135.10-cu maddənin ikinci cümləsinin əvvəlinə "**Özbaşına tikinti ilə bağlı hallar istisna olmaqla,**" sözləri əlavə edilmişdir.

[209] 13 oktyabr 2026-cı il tarixli **488-VIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 5 noyabr 2026-cı il, “Azərbaycan” qəzeti, 6 noyabr 2026-cı il, № 205)** ilə 136.3-cü maddədən “**xüsusi**” sözü çıxarılmışdır.

[210] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə Məcəllədən 137-ci maddə çıxarılmışdır. Maddənin əvvəlki redaksiyasında deyilirdi:

~~M a d d ə 1 3 7 . **Qeyri-maddi əmlak nemətləri**~~

~~Başqa şəxslərə verilə bilən və ya sahibinə maddi fayda və ya başqa şəxslərdən nəyi isə tələb etmək hüququ vermək üçün nəzərdə tutulan tələblər və hüquqlar qeyri-maddi əmlak nemətləridir.~~

[211] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə 139.2-ci maddədə "**Daşınmaz**" sözü "**Daşınar**" sözü ilə əvəz edilmişdir.

[212] 24 iyun 2005-ci il **949-IIQD** nömrəli "Azərbaycan Respublikası Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununa və həmin qanunla təsdiq edilmiş Azərbaycan Respublikasının Mülki Məcəlləsinə dəyişikliklər və əlavələr edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının qanunvericilik toplusu, 2005-ci il, № 8, maddə 693**) ilə Məcəlləyə 139.3-cü maddə əlavə edilmişdir.

[213] 31 may 2013-cü il tarixli **672-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 29 iyun 2013-cü, № 138; Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013-cü il, № 06, maddə 620)** ilə yeni məzmunda 139.4-cü maddə əlavə edilmişdir.

[214] 25 may 2021-ci il tarixli **327**-VIQD nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 22 iyun 2021-ci il, № 128, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021-ci il, № 6, I kitab, maddə 556)** ilə 139-1.1.2-ci maddədə “**protokol**” sözündən sonra “**, habelə təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunmasına dair protokol**” sözləri əlavə edilmişdir.

14 iyul 2025-ci il tarixli **250-VIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 avqust 2025-ci il, “Azərbaycan” qəzeti, 2 avqust 2025-ci il, № 159, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 8, maddə 744)** ilə 139-1.1.2-ci maddə yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~139-1.1.2. qanunla müəyyən edilmiş qaydada ixtisaslaşdırılmış təşkilatlar tərəfindən keçirilən açıq hərracın nəticələrinə dair yekun protokol, *habelə təkrar hərrac baş tutmamış elan edildikdə, ipoteka predmetinin ipoteka saxlayan tərəfindən əldə olunmasına dair protokol;*~~

[215] 2 dekabr 2022-ci il tarixli **669-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 21 yanvar 2023-cü il, "Azərbaycan" qəzeti, 22 yanvar 2023-cü il, № 14, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023-cü il, № 1, maddə 22)** ilə 139-1.1.3-cü maddədə "**mənzil**" sözü "**daşınmaz əmlak**" sözləri ilə əvəz edilmişdir.

14 iyul 2025-ci il tarixli **250-VIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 1 avqust 2025-ci il, "Azərbaycan" qəzeti, 2 avqust 2025-ci il, № 159, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 8, maddə 744)** ilə 139-1.1.3-cü maddədə "**yaşayış evlərinin, mənzillərin açıq hərracdan əldə olunmasına dair**" sözləri "**icra sənədlərinin məcburi icrası ilə əlaqədar daşınmaz əmlak barədə "Notariat haqqında" Azərbaycan Respublikası Qanununun 63-cü maddəsinə əsasən verilən**" sözləri ilə əvəz edilmişdir.

[216] 24 fevral 2015-ci il tarixli **1197-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 20 mart 2015-ci il, № 063, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 254)** ilə 139-1.1.5-ci maddədə "**Daşınmaz əmlakın dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minənədək**" sözləri "**2006-cı il iyulun 6-dək**" sözləri ilə əvəz edilmişdir.

20 noyabr 2020-ci il tarixli **198-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Azərbaycan" qəzeti, 26 dekabr 2020-ci il, № 273, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 12, I kitab, maddə 1423)** ilə 139-1.1.5-ci maddədən ", **o cümlədən torpaq sahələri, binalar və qurğular, yaşayış və qeyri-yaşayış sahələri, fərdi yaşayış və bağ evləri, yer təki sahələri, sututarları, meşələr və çoxillik əkmələr, əmlak kompleksi kimi müəssisələr üzərində**" sözləri çıxarılmışdır.

[217] 24 fevral 2015-ci il tarixli **1197-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 20 mart 2015-ci il, № 063, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 254)** ilə 139-1.1.7-ci maddəyə "**orderlər**" sözündən sonra ", **kollektiv bağçılıq-yoldaşlıq təsərrüfatının üzvlərinin siyahısına müvafiq olaraq verilmiş üzvlük kitabçası və ya üzvlərin iclasının protokolundan çıxarış**" sözləri əlavə edilmişdir.

[218] 30 sentyabr 2011-ci il tarixli **201-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 28 dekabr 2011-ci il, № 282, "Azərbaycan" qəzeti 29 dekabr 2011-ci il, № 289, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, № 12, maddə 1073)** ilə yeni məzmunda 139-1-ci maddə əlavə edilmişdir.

24 fevral 2015-ci il tarixli **1197-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 20 mart 2015-ci il, № 063, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 254)** ilə 139-1.1.8-ci maddədə "ob**yektlərinin qanuni istifadədə olmasına dair**" sözləri "**obyektləri üzərində hüquqların əldə edilməsini təsdiq edən**" sözləri ilə əvəz edilmişdir.

[219] 24 fevral 2015-ci il tarixli **1197-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **("Respublika" qəzeti, 20 mart 2015-ci il, № 063, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015-ci il, № 3, maddə 254)** ilə yeni məzmunda 139-1.1.9-cu, 139-1.1.10-cu, 139-1.1.11-ci və 139-1.1.12-ci maddələr əlavə edilmişdir.

[220] 14 iyul 2026-cı il tarixli **461-VIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 sentyabr 2026-cı il,**

“Azərbaycan” qəzeti, 3 sentyabr 2026-cı il, № 159) ilə 139-1.1.9.2-ci maddədən “**çoxmənzilli binalara,**” və “**müvafiq icra hakimiyyəti orqanının tikilinin inşa edilməsinə icazə barədə qərarı**,” sözləri çıxarılmışdır.

[221] 03 iyun 2025-ci il tarixli **209-VIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 25 iyun 2025-ci il, “Azərbaycan” qəzeti, 26 iyun 2025-ci il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 6, maddə 536)** ilə 139-1.1.10.1-ci maddədən “**verilməsi barədə qərar**” sözləri çıxarılmışdır.

14 iyul 2026-cı il tarixli **461-VIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 2 sentyabr 2026-cı il, “Azərbaycan” qəzeti, 3 sentyabr 2026-cı il, № 159)** ilə 139-1.1.10.1-ci maddədən “**tikintiyə icazə**,” sözləri çıxarılmışdır.

[222] 17 noyabr 2017-ci il tarixli **881-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 6 dekabr 2017-ci il, № 269, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, № 7, I kitab maddə 2239)** ilə 139-1.1.10.2-ci maddəsinə “**orqanına**” sözündən sonra “**sifarişli poçt göndərişi ilə və ya bilavasitə**” sözləri əlavə edilmişdir.

3 aprel 2018-ci il tarixli **1060-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 6 may 2018-ci il, № 102, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018-ci il, № 5, maddə 851)** ilə 139-1.1.10.2-ci maddədə “**yaşayış evləri**” sözləri “**tikinti obyektləri**” sözləri ilə əvəz edilmişdir.

12 iyun 2020-ci il tarixli **130-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 21 iyul 2020-ci il, № 141, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, № 7, maddə 843)** ilə 139-1.1.10.2-ci maddəsində “**müvafiq icra hakimiyyəti orqanına**” sözləri “**tikinti barədə məlumatlandırılan orqana (quruma)**” sözləri ilə əvəz edilmişdir.

03 iyun 2025-ci il tarixli **209-VIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 25 iyun 2025-ci il, “Azərbaycan” qəzeti, 26 iyun 2025-ci il, № 130, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 6, maddə 536)** ilə 139-1.1.10.2-ci maddədə “**sifarişli poçt göndərişi ilə və ya bilavasitə məlumat verilməsini təsdiq edən sənəd**” sözləri “**göndərilən məlumat**” sözləri ilə əvəz edilmişdir.

[223] 14 iyul 2025-ci il tarixli **244-VIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) rəsmi internet saytı, 4 avqust 2025-ci il, “Azərbaycan” qəzeti, 5 avqust 2025-ci il, № 161, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2025-ci il, № 8, maddə 738)** ilə 139-1.1.12-ci maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda 139-1.1.13-cü maddə əlavə edilmişdir.

